Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLİR

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏT

müraciətlər

çıxışlar

müsahibələr

təbriklər

məlumatlar

NURLAR
BAKI – 2008

HEYDƏR ƏLİYEV
VƏ
MƏDƏNİYYƏT

üç cilddə (ikinci cild)

1997–1998

NURLAR
BAKI – 2008

Layihənin rəhbəri və
ön sözün müəllifi: **ƏBÜLFƏS QARAYEV**

Tərtib edənlər: **SEVDA MƏMMƏDƏLİYEVA,**
TEYMUR ƏHMƏDOV

Redaktor: **LƏTİFƏ MƏMMƏDOVA**

Naşir: **HACI İSMAYIL ALLAHVERDİ**

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏT. 3 cilddə (II cild)
Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008, 528 səh.,
foto-şəkilli

ISBN – 9952 – 426 – 50 – X (dəst)
ISBN – 9952 – 426 – 48 – 8 (II cild)

© “NURLAR”, 2008

XALQ ŞAİRİ QABİLİN ANADAN OLMASININ 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNİN RƏSMİ HİSSƏSİNDƏN VƏ KONŞERTDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
7 yanvar 1997-ci il

Hörmətli Qabil, səni anadan olmağının 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Belə yubileylərin təşkil olunması ədəbiyyat gecələrinin keçirilməsi deməkdir. Mən vaxtilə düşünürdüm ki, müntəzəm olaraq şeir gecələri keçirmək lazımdır. Mənim 70-ci illərdə bu barədə bir çox fikirlərim var idi. Xalqımız tarixən, əsrlərlə şeirlə yaşayıb, şairlər yığışıblar, özləri də, oraya toplaşanlar da şeirlər deyiblər. Ona görə də mən o vaxt fikirləşirdim ki, musiqi gecələri öz yerində, şeir gecələri də keçirmək lazımdır.

Mən şairlərin, yazıçıların, ədəbiyyatçıların son illərdə keçirilən yubileylərini xatırlayıram. Bunlar elə ədəbiyyat, şeir, poeziya bayramıdır. Bu yubileylərdə hər bir sənətkarların yaradıcılığına qiymət verilir. Biz, məsələn, Qabilin əsərlərini oxumuşuq, lakin bu şeirləri bir daha yada salmaq çox əhəmiyyətlidir, həm də dinləyəndə o, insana zövq verir.

Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm, buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm. Hesab edirəm, bu yubiley gecəsi çox yaxşı oldu. Doğrudur, Qabil özü narahat idi ki, yubiley gecikir. Ancaq bu gecikməyin xeyri oldu, respublikanın bir çox yerlərində Qabilin yaradıcılığına həsr edilmiş tədbirlər keçirildi. Yubiley gecəsinin məhz bu yanvar ayında olması bir də ona görə yerinə düşdü ki, burada yubilyarın Yanvar faciəsinə həsr olunmuş şeiri dəfələrlə səsləndi, yeddi il bundan əvvəl xalqımızın başına gələn faciələr, bəlalar yad edildi və Qabilin vətəndaşlıq şücaəti bir daha nəzərə çarpdırıldı.

Yubiley gecəsində çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil. Qabilin həmin Yanvar faciəsinə həsr olunmuş şeirinin özü siyasətdir. Yaxud, yadımdadır, mən Naxçıvanda olanda Qabil burada qəzetdə çıxış etmişdi və Mütəllibova 24 sual ver-

mişdi ki, o bu suallara cavab versin. Mən o vaxt bu yazını oxudum, fikirləşdim ki, görəsən, Mütəllibov bu suallara cavab verəcək, yoxsa yox? O, həmin suallara cavab verə bilmədi. Qabilin bu sualları verməsinin özü bir vətəndaşlıq şücaəti, mövqeyi idi. Ona görə də Qabil heç də siyasətdən kənarda qalmayıb, öz fikrini deyibdir.

Anar da, Sabir Rüstəmxanlı da buradakı çıxışlarında dedilər ki, Azərbaycanda milli azadlıq hərəkatı başlayanda, 1989-1990-cı illərdə xalqımıza qarşı ədalətsizliklər olanda bir çoxları meydanlara gəlirdi, xalqımızın dərdi haqqında danışırdı, bəziləri isə gəlmirdi. Amma Qabil gəlib orada xalqın dərdini deyən adamlardan biridir. Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır.

Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da, o, çox böyük iş idi və Qabil bu işi gördü. Bu, həqiqətən Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu plan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi.

Mən bu gün bu yubiley gecəsinə böyük məmnuniyyət hissi ilə gəlmişəm. Qabilin xidmətləri çox böyükdür.

Qabil öz çıxışında Mədinə Gülgünün vəfatı ilə əlaqədar Aktyor evində yas mərasimindəki görüşümüzü xatırlatdı. Doğrudan da, o vaxt mən Qabilə dedim ki, sən əsil kişisən. Bu, elə-belə söz deyil. Bu mənim əvvəlki dövrdə, qurultaylarda, müxtəlif tədbirlərdə yazıçılarla görüşlərimdə müşahidələrimin nəticəsi idi və beynimdə Qabil haqqında toplanmış bir fikir idi. O fikri də mən uzun müddətli ayrılıqdan sonra oradakı görüşümüzdə bildirdim. Yəni bu adi bir söz deyildi. Bilirsiniz ki, insanlar arasında "sən kişisən, mən də kişiyəm" sözləri çox işlənir. Amma mən heç vaxt belə söz işlətmərəm. O vaxt isə mən bu sözü işlətdim, çünki doğrudan da onun yeri" idi.

Xalq şairi Qabil həm də bizim elə sənətkarlarımızdandır ki, onun xarakterindəki özünəməxsus incə yumor hissləri çox güclüdür.

* * *

Q a b i l: Mənə göstərilən diqqət və qayğı üçün dövlətimizin başçısı möhtərəm Heydər Əliyevə bir daha dərin minnətdarlığımı bildirirəm. Mən vaxtilə "Ömür hədləri" kitabına şeirlə avtoqraf yazıb Sizə göndərdiyimi xatırlatmaq və həmin şeiri oxumaq istəyirəm:

Məsləhətdir, aç oxu sən bu kitabı, Heydər,
Çox suala tapacaqsan da cavabı, Heydər.
Görəcəksən quruluş zay quruluşdur, a kişi,
Yandırır həm şişi o, həm də kababı, Heydər.

Üstünə kim bu saat qalxdı, xoruzlandısa da,
Xoruzun uçmağa hardaydı ki, tabı, Heydər.
Hansı namərdin olub vicdanı, abrı, həyası?!
Mərdə, mərdanəyə xas, vicdan əzabı, Heydər!

Heydər Əliyev: Bu şeirin qiyməti ondan ibarətdir ki, onu sən o vaxt yazdın, mənə göndərdin. Yadımdadır, o vaxt – 1991-ci ilin fevral ayında mən buraya gəlmişdim, Ali Sovetin sessiyasında iştirak edirdim. Həmin o namərdlər mənə hücum etdilər. Sən şair baba idin, vəzifən yox idi və məndən vəzifə almamışdın. Amma sən həmin şeiri yazıb mənə göndərdin. Bu, sənin vətəndaşlıq mövqeyini bildirdi. Çox sağ ol.

M.QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

19 yanvar 1997-ci il

Heydər Əliyev: Biz səni Türkiyəyə müalicəyə göndərdik ki, sağalıb gələsən. Gələndən sonra dedin ki, hər şey yaxşıdır. İndi necə oldu ki, yenə də xəstələndin?

Bəxtiyar Vahabzadə: Cənab prezident, Türkiyədə həkim prostat vəzini kəsib, lakin azca hissəsi qalıb, o da əngəl yaradıb. Əvvəl bundan yaxşı idim. Mən Türkiyədən Bakıya qayıdandan sonra Sizə də zəng etdim. Bir müddətdən sonra Türkiyədə məni müalicə edən həkimlə telefonla əlaqə saxladım. O dedi ki, düzələcək. Sonra gördüm ki, yox, düzəlmir. Sonra Azərbaycan Milli Məclisinin üzvü, Yeni Azərbaycan Partiyasının üzvü professor Sudeif İmamverdiyevə müraciət etdim. Baxan kimi dedi ki, əməliyyat keçirmək lazımdır, O, əməliyyat keçirdi, prostat vəzinin artıq hissəsini kəsib götürdü. İndi 3-4 gündür özümü yaxşı hiss edirəm. Demək, səhv düzəlib.

İndi müxalifət qəzetləri də ağızlarına gələni yazırlar. Lalə-Şövkət Partiyasının qəzeti bu barədə material verib.

Heydər Əliyev: Belə məsələlərdən də yazırlar. Görünür, belə şeylərlə sensasiya yaratmaq istəyirlər. Yaxşı, qoy həkim gəlib məlumat versin, görək vəziyyət necədir?

Sudeif İmamverdiyev: Cənab prezident, ikinci gün əməliyyat keçirmişik. Bu əməliyyat hər cəhətdən çox yaxşı keçdi. Türkiyədə bu prostat vəzini aparatla götürmək çətin olub. Yəni texnika elə nahiyədə yerləşən vəzi tam təmizləyə bilmir. Vəzin orada qalmış hissəsi qapama yaradırdı, bu isə narahatlığa səbəb olurdu. Bəxtiyar müəllimin vəziyyəti də ona görə gündən-günə pisləşirdi.

Biz əməliyyatı elə-belə keçirmədik. Əvvəlcə yaxşıca yoxladıq, aparatla baxdıq. Gördük ki, maneə var və əməliyyat keçirib həmin artıq hissəni götürdük.

İndi Bəxtiyar müəllimin vəziyyəti gündən-günə yaxşılaşır. Biz düşünürük ki, bu vəziyyət get-gedə daha da yaxşılaşacaq. Müalicə yüksək keyfiyyətlə, düşünülmüş qaydada aparılır. Bəxtiyar müəllim özü də razıdır ki, vəziyyəti gündən-günə yaxşılaşır. İnşallah, hər şey yaxşı olacaq.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, Allah Sizdən razı olsun. Mən Sizə çox minnətdaram.

Cənab prezident, Yaşar Əliyev mənimlə bir palatada müalicə olunur. Onun da üzərində əməliyyat keçirilib. Siz Azərbaycana əvvəlki dövrdə rəhbərlik etdiyiniz zaman Gəncədə xalq hakimi işləyib. İndi də hüquq-mühafizə orqanlarında çalışır. İcazə verin, Yaşar müəllim "Respublika" qəzetində dərc olunmuş müsahibəni Sizə oxusun.

Yaşar Əliyev: Cənab prezident, biz Bəxtiyar Vahabzadə ilə dostuq. Xəstəliyimiz bir vaxta düşüb. Mənim də üzərimdə əməliyyat keçirilib. "Respublika" qəzetində dərc olunmuş bu müsahibənin sərlövhəsi belədir: "Xalq şairi Bəxtiyar Vahabzadə: sessiyanı çağırmaq şəxsi təşəbbüssüm idi".

Müxbir 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar belə bir sual verir: Bəxtiyar müəllim, Sizcə, o vaxt Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

Bəxtiyar müəllim bu suala belə cavab verib:

– Mən belə hesab edirəm ki, yox. Bilirsən, ay oğul, milli qanı olan, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, bu qırğın olmazdı, heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisələrin çoxundan xəbərim yox idi. Süleyman Dəmirəldən bu barədə soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, çevikliklə, cəsarətlə diplomatik gedişlər edərək 52 dövlətin dəstəyini almağa necə nail olmasından danışaraq dedi ki, "Heydər Əliyevin qədrini bilin".

Bəxtiyar Vahabzadə: Cənab prezident, Süleyman Dəmirəl ilə görüşümdə o mənə dedi ki, mən siz ziyalılardan narazıyam. Ona görə ki, prezident Heydər Əliyevə lazımi səviyyədə dəstək vermirsiniz.

Heydər Əliyev: Sağ olun. O da sağ olsun, siz də sağ olun. Amma kimin dəstək verib-verməməsi əhəmiyyətli deyil, mən öz işimi aparıram.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, Allah Sizdən razı olsın. Fransa səfəriniz necə keçdi?

Heydər Əliyev: Fransaya səfərim çox yüksək səviyyədə keçdi. Fransa–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox yaxşı danışıqlarımız oldu. Fransanın prezidenti Jak Şirakla çox maraqlı söhbətlərimiz oldu. Xarici işlər naziri və digər nazirlərlə, senatın, parlamentin sədrləri ilə, Fransanın ən yüksək vəzifəli adamlarının hamısı ilə görüşlərimiz, danışıqlarımız oldu. Biz orada Yelisey sarayında Jak Şirakın və mənim iştirakımla beşinci neft müqaviləsini imzaladıq, o da, mən də nitq söylədik.

Bəxtiyar Vahabzadə: Fransanın Minsk qrupuna həmsədrliyi məsələsi də müzakirə olundumu?

Heydər Əliyev: Bu məsələ ilə əlaqədar mürəkkəb danışıqlar oldu. Ancaq bu danışıqlar hələ davam edəcək. Görək sonra necə olacaq?

Bəxtiyar Vahabzadə: Allah yaxşı eləsin.

Heydər Əliyev: Bilirsiniz, Azərbaycanın səhiyyəsi, həkimləri yüksək səviyyədədir. Adam bəzən özününkünün qədrini bilmir. Mən hələ 70-ci illərdə də respublikaya rəhbərlik edərkən görürdüm ki, bizim tanınmış müxtəlif adamlar belə bir xəstəlik haqqında tez-tez şikayətlənirdilər. Mən də kömək edirdim, respublikamızın cərrahları belə əməliyyatlar keçirirdilər və çox yaxşı nəticələr də əldə edirdilər. Haqqına demək lazımdır, o vaxt Moskvada da çox yüksək səviyyəli mütəxəssislər var idi.

Bəxtiyar Vahabzadə: Mütəxəssislərin hamısı orada yetişirdi.

Heydər Əliyev: Bəli, hamısı orada yetişirdi. Sudeif İmamverdiyev də orada yetişib. Azərbaycanın ən böyük uroloqu Cavadzadə də, başqaları da Moskvada təcrübə keçiblər. O vaxt respublikamız üçün ən yüksək səviyyə ora idi. İndi həqiqəti demək lazımdır ki, səhiyyənin təşkili və tibb yardımı sahəsində yaranmış sistem çox gözəl sistemdir. Heyif ki, o dağılır.

Bəxtiyar Vahabzadə: Elə təhsil sistemi də belə idi. Bizim təhsil sisteminin dünyada əvəzi yox idi.

Heydər Əliyev: Rus, sovet təhsil sisteminin əvəzi yoxdur. Dünyada Moskva Universitetinə bərabər universitet yoxdur. Mənim oğlum İlham Moskvada Beynəlxalq Əlaqələr Universitetini bitiribdir. Bu, dün-

yada ən məşhur universitetdir. Dünyanın ən böyük diplomatlarının çoxu orada təhsil alıbdır. Dünyada elə bir ikinci universitet yoxdur. Amma biz vaxtilə bunların qədrini bilməmişik. Biz elə bilirdik ki, hardasa bundan da yaxşısı var.

İndi bir tərəfdən yaxşı oldu ki, dünya dəyişdi, hər şey açıldı, biz harada nəyin olub-olmadığını bildik. Mənim Tlirkiyəyə də, Fransaya, İngiltərəyə, Amerikaya da – hamısına böyük hörmətim var. Hər bir ölkədə çox yüksək səviyyəli mütəxəssislər var. Ancaq axı Azərbaycan da böyük mütəxəssislər, kadrlar yetişdirib. Elm, səhiyyə, tibb, təhsil, tibb xidməti sahəsində biz nə qədər yüksək səviyyəli adamlar yetişdirmişik, bunların qədrini bilmək lazımdır. Mən dəfələrlə demişəm ki, bəziləri, dünyanı anlamayan, burnunun ucundan o tərəfi görməyən adamlar indi hər şeyi pisləyirlər. Elə deyil. Təsəvvür edin, Azərbaycanda olan mədəniyyət xadimləri harada var?

Bəxtiyar Vahabzadə: Üzeyir bəy, Qara Qarayev, Fikrət Əmirov...

Heydər Əliyev: Belə şəxsiyyətlər harada var? Yoxdur. Azərbaycanda olan şairlər harada var? Azərbaycanda şairə, bəstəkara, aktyora, rəssama olan hörmət harada var? Xarici ölkədə rəssam şəkil çəkir, aparıb küçədə qoyur ki, görsün onu sata bilir, yoxsa yox. Amma bizdə rəssam bir şəkil çəkir, gətirib sərgiyə qoyuruq, onu tərifləyirik, hörmətini qaldırırıq. Xaricdə şair şeir yazır, haradasa dərc olunur, ya olunmur, tanınmır.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, ən mühümü teatr sənətidir. İnanın ki, keçmiş SSRİ-də olan rejissorluq məktəbi dünyanın heç yerində yoxdur. Moskvadakı 10-15 dram teatrının hər birinin öz yolu var. Stanislavskinin, Efrosun, Yefremovun teatrları, rejissurası bir-birindən tamamilə fərqlənirdi. Orada məktəblər var ki, adamı dəhşətə gətirir. Respublikamızdakı rejissorlar da orada təhsil alıb gəliblər. Ona görə də, hətta 5-6 ildir teatr olmasa da, respublikamızda teatr da, aktyorlarımız da yüksək səviyyədədir.

Gərək ki, Sizə demişdim. Mən göytürklər haqqında, yəni 1.500 il bundan əvvəlki tariximiz haqqında bir pyes yazmışam. Bizim teatr indi onu hazırlayır. Mən onu aparıb həm də Türkiyə teatrına verdim. Birinci pyesimdir ki, onlara verirəm. Sizi inandırıram, baxdılar, təəccüb etdilər ki, bu nə məktəbdir, nə yenilikdir, bu teatrda bu yeniliyi necə yaratmaq olar? Amma onu bizim teatrda, səhnədə yaratmaq mümkündür. Çünki mən bu məktəbi keçmişəm. Məsələn, teatrın səhnəsində ekran onların

təsəvvüründə yoxdur. Ekranı səhnəyə gətirmək, kino ilə teatrı birləşdirmək rus rejissorluq məktəbinə məxsusdur.

Heydər müəllim, bilirsiniz ki, mən həmişə, ömrüm boyu "türk-türk" demişəm, respublikamızın müstəqilliyini istəmişəm. Amma bir həqiqət var ki, biz onu deməliyik. Biz böyük bir məktəb keçmişik – biz böyük rus mədəniyyəti məktəbini keçmişik. Xüsusən, XIX əsr rus mədəniyyəti dünya mədəniyyətinin zirvəsidir.

Heydər Əliyev: Tamamilə doğrudur.

Bəxtiyar Vahabzadə: Biz o bulaqdan su içmişik. Fikrət Əmirov, Qara Qarayev yaradıcılığı başqa-başqa üslublardır. Amma hərəsinin öz böyüklüyü, üstünlüyü var. Üzeyir bəy tamam başqa bir zirvədir. Rəssamlığımızı götürək. Səttar Bəhlulzadə başqa bir dünyadır, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev başqa-başqa məktəblərdir.

Ədəbiyyatımız da belədir. Götürək Süleyman Rəhimovu. O diapazonda, genişlikdə, nəfəsdə dünya ədəbiyyatında çox nadir yazıçılar var. Onu ancaq Aleksey Tolstoyla, Lev Tolstoyla müqayisə etmək olar. Onlar böyük nəfəslərdir. Biz o bulaqdan su içməyimizə təəssüflənməməliyik, biz onları təbliğ etməliyik.

Qurban olum, aman günüdür, hər şey ola bilər, ancaq müstəqilliyimizi əlimizdə möhkəm saxlamalıyıq.

Heydər Əliyev: Bilmirəm, burada televizor var, yoxsa yox. Mənim Fransadakı çıxışımı dünən də, srağagün də verirdilər. Fransada Beynəlxalq Əlaqələr İnstitutu var. Mən 1993-cü ildə də, bu dəfə də Fransaya gedəndə orada çıxış etdim. Fransaya səfərə gələn dünya ölkələri başçılarının hamısı orada mütləq çıxış edirlər. Klinton da, Kol da, Mitteran da – hamısı orada çıxış ediblər.

Böyük mütəxəssislər, Fransada olan səfirlər oraya toplaşmışdılar. Salon ağzınadək dolu idi. Mən orada çıxış etdim, suallar da verdilər. Mən təkcə orada yox, hər yerdə demişəm ki, respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik. Buna arxayın ola bilərsiniz. Dünyada da bilirlər ki, Azərbaycan nəinki müstəqilliyə nail olmuşdur, həm də respublikamızın hazırkı dövləti həqiqi müstəqillik siyasəti aparır. Mən orada çoxlu suallara cavab verdim. Bu, sirr deyil. Bu görüş televiziya vasitəsilə verilib.

Məsələn, mənə belə bir sualla müraciət etdilər ki, niyə Siz Müstəqil Dövlətlər Birliyində bir çox sənədlərə imza atmırsınız və hər şeylə razı

deyilsiniz? Cavab verdim ki, bu da bizim müstəqilliyimizi göstərir. Biz bu təşkilata daxil olmuşuq, o bizə lazımdır. Amma bu təşkilatın hansı qərarları respublikamızın müstəqilliyinə zərrə qədər də toxunursa, biz onu imzalamırıq, qəbul etmirik. Bu da təbiidir. Bir ölkə tamam qəbul edir – özü bilər, başqa bir ölkə də qəbul etmir. Görürsünüz, bu məsələləri Qərb ölkələrində bilirlər və mənə belə suallar verirlər. Yəni müstəqilliyimizi günü-gündən möhkəmləndirmək, onu müdafiə etmək sahəsində həyata kecirdiyimiz tədbirlərimizi Qərb ölkələrində bilirlər. Fransada da məndən bu barədə soruşurdular.

Müstəqilliyimiz haqqında narahat olmayın. Bu gün yanvarın 19-u, sabah 20-sidir. Bu günlər biz 20 Yanvar hadisəsinin yeddinci ildönümünü qeyd edirik. Yeddi il bundan əvvəl şəhidlər vermişik. Mən Fransaya səfərimdə də bu barədə danışdım. Dedim ki, mənim buraya səfərim Azərbaycana qarşı olmuş hərbi təcavüzün, bizim o faciəmizin, şəhidlərimizin yeddinci ildönümünə təsadüf edir.

Azərbaycana nə üçün belə hərbi təcavüz etdilər? Azərbaycanda ayağa qalxmış xalqın azadlıq hərəkatını boğmaq üçün bunu etdilər. Biz şəhidlər verdik, insanlarımız qırıldı. Azərbaycanın başına gələn bu bəla o vaxt heç bir respublikada baş verməmişdi.

Xalq da, Siz də arxayın ola bilərsiniz ki, ölkəmizin müstəqilliyi sarsılmazdır. Doğrudur, bu, asan deyil, çox, çətindir. Amma nə qədər çətin olsa da, bəlkə də başqa məsələlərdə biz nəyi isə itirə bilərik, ancaq müstəqillik məsələsində heç bir şeyi itirə bilmərik.

Fürsətdən istifadə edərək, Yanvar faciəsinin yeddinci ildönümü münasibətilə demək istəyirəm ki, Bəxtiyar müəllim, biz Sizin bu sahədəki xidmətlərinizi həmişə qeyd etmişik və bu gün də mən bunu bildirirəm. Bilirsiniz ki, biz Yanvar faciəsinə siyasi qiymət verilməsi ilə əlaqədar 1994-cü ildə qərar qəbul etmişik. Yadımdadır, 1990-cı il yanvarın 22-də Sizin sədrliyinizlə sessiya keçirildi. Təsəvvür edin, respublikanı, hökuməti idarə edən adamlar qaçdılar, sessiyaya Bəxtiyar Vahabzadə sədrlik etdi. Əgər sən dünənədək bu hökumətə, xalqa, dövlətə, respublikaya rəhbərlik edirdinsə, onun ağır günündə də gəl xalqla bir yerdə ol. Sən qaçıb evdə gizlənmisən, Bəxtiyar Vahabzadə isə özünü burada fəda, necə deyərlər, şəhid edir. Yəni Bəxtiyar Vahabzadə burada bu qərarı qəbul edir, amma sən gedib dörd gündən sonra özünü Azərbaycana hakim təyin etdirirsən və bu faciənin üstünü örtməyə, basdırmağa başlayırsan.

Onlar bu faciənin üstünü basdırdılar, Sizin qəbul etdiyiniz qərar isə qərar kimi qaldı. Yanvarın 22-də sessiyada Siz qərar qəbul etdiniz ki,

Sovet Ordusunun. qoşunları əgər buradan tezliklə çıxmasa, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxacaqdır. Amma sovet ordusunun qoşunları Azərbaycandan çıxmadı. Bir neçə gün ondan sonra Azərbaycana təyin edilmiş rəhbərlər də Sizin qəbul etdiyiniz qərarı yerinə yetirmədilər, Rusiyanın qoşunlarını buradan çıxarmadılar.

Sovet ordusunun qoşunlarını nəinki buradan çıxarmadılar, Bakı 1990-cı ili tamamilə fövqəladə vəziyyətdə, əsgərlərin avtomatı altında yaşadı. Qoşunları yalnız 1991-ci ilin sonunda Bakıdan çıxardılar. Bu da o vaxt baş verdi ki, artıq Moskvada qiyam olmuşdu, Sovet İttifaqı dağılırdı. Qoşunları da Bakıdan məhz bu vaxt çıxardılar.

Bəxtiyar Vahabzadə: Cənab prezident, o vaxt onlar qiyamçıları dəstəklədilər, onlara səs verdilər.

Heydər Əliyev: Bəli, onlar qiyamçılara səs verdilər, amma bundan da bir şey çıxmadı.

Bəxtiyar Vahabzadə: Cənab prezident, o vaxtkı sessiyada hökumət adamlarından yalnız Həsən Həsənov iştirak edirdi.

Heydər Əliyev: Onlar nə sessiyada iştirak etdilər, nə də şəhidlərin matəm, dəfn mərasiminə gəlmədilər.

Bəxtiyar Vahabzadə: Ondan 5-6 gün sonra qəzetdə elan etdilər ki, bu sessiya qeyri-qanunidir və onun heç bir hüquqi əsası yoxdur.

Heydər Əliyev: Bəli, bax, satqınlıq, milləti satmaq budur. Şübhəsiz ki, belə adamlar nə millətin qayğısına qala, nə də respublikamızın müstəqilliyini qoruya bilərdilər.

20 Yanvar hadisəsi faciəli olsa da, o, xalqımızın müstəqilliyə nə qədər meyilli olduğunu, bu arzu ilə yaşadığını göstərdi və onu nümayiş etdirdi. Qan töküldü, faciə oldu, şəhidlər verdik, amma xalqımızın iradəsini dünyaya sübut etdik. Bunun da böyük əhəmiyyəti var. Ona görə də mən bu faciə haqqında danışanda deyirəm ki, əlbəttə, biz itkilər verdik, günahsız insanlar qırıldı, amma digər tərəfdən, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin irticaçı, təcavüzkar siyasəti büruzə verildi və Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi ən yüksək zirvəyə qalxdı.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, o vaxt Siz Moskvada çıxış etdiniz.

Heydər Əliyev: Bəli, yanvarın 21-də mən Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən Moskvada təcrid edilmiş, cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər. Hətta hazırlaşırdılar ki, orada məni həbs etsinlər.

Sizə danışmışam o vaxt mən Moskvada deyildim. Xəstə idim, Moskvadan kənarda sanatoriyada müalicə olunurdum. Axşam bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim. Uşaqlarım – oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya gedirəm. Bildirdilər ki, axı bu, təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata, biz də sizinlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb – oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən – vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi.

Eybi yoxdur, yeddi il keçdi. Şəhidlərin ruhu, əlbəttə ki, qəlbimizdə yaşayır və daim yaşayacaqdır. Biz bu günü heç vaxt unutmayacağıq. Ona görə də mən yanvar faciəsinin yeddinci ildönümünün qeyd edilməsi ilə əlaqədar sərəncam verdim ki, xalqımız o günləri bir daha yad etsin. Mən buraya gələrkən gördüm ki, camaat indidən Şəhidlər xiyabanına axışır. Respublika sarayında sabah böyük bir mərasim olacaqdır, mən də orada iştirak edəcəyəm.

Bu söhbəti sən saldın, mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidmətləri böyükdür. Ölkəmizin, xüsusən o çox gərgin vəziyyətdə siz vətəndaşlıq, ziyalılıq cəsarəti göstərmisiniz. Ona görə də nə mən, nə də xalqımız bunu unuda bilmərik və onu yüksək qiymətləndiririk.

Təhsil, teatr barədə Sizin fikirlərinizlə mən tamamilə razıyam. Məsələn, Siz Süleyman Rəhimov haqqında söz acdınız. Mənim xatirimdədir, o vaxt mən işləyəndə ilk dəfə Süleyman Rəhimov və sonra yazıçılarımızdan, şairlərimizdən bir çoxları Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Bu, o vaxt dövlətimizin ən yüksək mükafatı idi. Bunları bu gün heç vaxt təhlil etmək lazım deyil. Kim hansı dövrdə, hansı dövlətdən hansı mükafatı alıbsa, o, yüksək bir nişanədir. O vaxt mən yazıçılarımızdan, şairlərimizdən ilk dəfə Süleyman Rəhimovun belə yüksək mükafata layiq görülməsi barədə təklif verdim və ona nail olduq. Süleyman Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verildi.

Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad verirlər? Süleyman

Rəhimov haqqında Sizin dediyiniz bu fikirlərlə razıyam. Çünki mən Süleyman Rəhimov haqqında hələ o vaxt belə düşünürdüm. Düşünürdüm ki, Süleyman Rəhimov ədəbiyyatımızda həqiqətən özünəməxsus yer tutub.

Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz. Sabah başqa bir şəxs yaranacaqdır, onun bəlkə də başqa xüsusiyyətləri olacaqdır.

Bəli, xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bununla fəxr etməliyik. Biz kasıb xalq deyilik. Yəni biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir.

Bəxtiyar Vahabzadə: Cənab prezident, indi cavanlarımız yetişir. Bizə tamamilə bənzəməyən, yaxın gəlməyən, təzə bir yolla gedən cavan şairlərimiz yetişirlər. Dünən "Ata şapalağı" adlı bir şeir oxudum, o, nə gözəl yazır! Atası rəhmətə gedib, şair deyir ki, mənim ata şapalağına ehtiyacım var. Deyir ki, ata, qalx mənə bir şapalaq vur – mən bu dünyanı dərk edə bilmirəm, bəlkə sənin şapalağın məni ayıltdı, bu dünyanı dərk edə bildim. Bizim ata nəsihətinə, ata öyüdünə həmişə ehtiyacımız var.

Üzr istəyirəm, mənim tamam başqa bir yolum var.

Heydər Əliyev: Sənin öz yolun var, bu yolu dəyişdirə bilməzsən. Amma onun da öz yolu var.

Bəxtiyar Vahabzadə: Bəli, onun da öz yolu var. Onu təqdir etmək lazımdır. Onun qolundan tutub irəli aparmaq lazımdır.

Heydər Əliyev: Düz deyirsən. Mən Anarla danışmışam, Sizə də deyirəm, vaxt ayırıram, istəyirəm ki, bu yaxınlarda yazıçıların hamısı ilə, eyni zamanda, ya bir yerdə, ya da ayrıca gənc nəsillə görüşək. Çünki biz vaxtilə bunu edirdik. Məsələn, Anar, Elçin, Yusif Səmədoğlu – xatirimdədir, 25 il bundan əvvəl biz onlarla cavanlar kimi görüşürdük. İndi onlar yaşlaşıblar. Amma gərək bugünkü gənclərlə də görüşək. Belə cavanlarımız var və olacaqdır.

Bilirsiniz, bəzən mən çox şörkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki,

yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.

Bəxtiyar Vahabzadə: Azər Zeynalov var. İlahi, o nə gözəl, şirin oxuyur!

Heydər Əliyev: Bəli, Azər Zeynalov. Mən Rəşid Behbudovu çox sevirdim. Rəşid Behbudov yaşlaşdıqca mən daim narahat olurdum ki, onun yerini kim tutacaq. İndi baxıram, Azər Zeynalov gözəl oxuyur.

Fəxr etməliyik ki, bizim Rəşid Behbudov kimi böyük bir müğənnimiz olubdur. Bu yaxınlarda Moskvada onun çox böyük yubileyini keçirdik. Moskvadan gələn böyük-böyük adamlar mənə deyirdilər ki, son illər Moskvada belə bir şey olmamışdır. Oradakı "Rossiya" salonuna Moskvanın bütün elitası, ziyalıları toplaşmışdılar. Bunun mənası nədir? Biz, birincisi, Rəşid Behbudovu xatırladıq, onu yada saldıq. İkincisi, Azərbaycanın musiqisini, mədəniyyətini göstərdik, üçüncüsü, Rusiya və Azərbaycan mədəniyyətlərini bir-birinə yaxınlaşdırdıq. Görürsünüz, bir tədbirlə nə qədər məsələ həll olundu.

Bəxtiyar Vahabzadə: Cənab prezident, Füzulinin yubileyi bir möcüzə idi. Yadınıza gəlir. İhsan Doğramacının köməyi ilə Türkiyədə Füzulinin yubileyi qeyd olundu. Amma respublikamızda keçirilən yubiley, yenə də deyirəm, möcüzə idi.

Heydər Əliyev: Bəli, xalqımızı tanıtmaq lazımdır. Mən neçə ildir çalışıram, işləyirəm, bir məqsədim var: xalqımızı tanıtmaq.

Siz indi Fransaya səfərim haqqında soruşdunuz. Mən Fransada üç gün oldum. Mən buradan təyyarə ilə saat 8-də uçdum, otelə çatandan yarım saat sonra biz Fransa prezidenti ilə görüşə başladıq. Həmin gün gecə saat 1-dək görüşlər davam etdi. O birisi gün də bütün gün görüşlər oldu. Üçüncü gün mən Fransada işlərimi qurtardım, saat 4-də oradan çıxdım. Həddindən çox görüşlər, böyük auditoriyalar oldu. Bunlar bir çox məqsəd daşıyır. Amma bunun ən böyük məqsədi Azərbaycanı tanıtmaqdan, ölkəmizin bu gün nə olduğunu göstərməkdən ibarətdir. Biz buna nail olduq.

Füzulinin yubileyi də həm Füzulinin sənətinə, xatirəsinə hörmət idi, həm də Füzulini və xalqımızı dünyada tanıtmaq məqsədi daşıyırdı. Bax, xalqımız belə xalqdır ki, 500 il bundan əvvəl onun dahi bir şairi olubdur və onun əsərləri 500 ildir ki, yaşayır.

Bəxtiyar müəllim, daha Sizin vaxtınızı almaq istəmirəm, xəstəsiniz. Allah şəfa versin. Mən inanıram ki, bu, son əməliyyatdır, daha belə əmə-

liyyat olmayacaq, sağalacaqsınız, çıxacaqsınız, möhkəm işləyəcəksiniz və öz yerinizdə möhkəm dayanacaqsınız.

Bəxtiyar Vahabzadə: Cənab prezident, Allah Sizdən razı olsun. Çox sağ olun.

Heydər Əliyev: Mən Sizə öz hörmət və ehtiramımı bildirirəm. Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var. İndi Milli Məclisimiz keçmişdə Milli Məclisdə olan bazarkomlardan ibarət deyil. Xalqı təmsil edən belə ziyalılardır, sizsiniz, elm adamları, bilikli adamlardır. Mən çox məmnunam. Sağ olun.

Bəxtiyar Vahabzadə: Cənab prezident, çox sağ olun. Allah Sizdən razı olsun. Allah ömrünüzü uzun eləsin.

ÜMUMXALQ HÜZN GÜNÜNƏ, ŞƏHİDLƏRİN ANILMASINA HƏSR OLUNMUŞ XATİRƏ GECƏSİ BAŞA ÇATDIQDAN SONRA ƏDƏBİ-BƏDİİ KOMPOZİSİYANIN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Respublika Sarayı,
20 yanvar 1997-ci il

Bir neçə gündür ictimaiyyətimiz, xalqımız, millətimiz 20 Yanvar faciəsinin ildönümü münasibətilə qəm-qüssə keçirir. Televiziyada göstərilən verilişlər, xüsusən bu gün Şəhidlər xiyabanının ziyarət edilməsi həm şəhidlərin ruhunu şad edir, həm də onların qəhrəmanlığının qəlbimizdə daim yaşadığını, xalqımızın nə qədər məğrur, azadlıqsevən xalq olduğunu nümayiş etdirir.

O hadisədən yeddi il keçsə də, faciəni unutmaq olmaz və hər il yanvarın 20-də hamımız matəm əhval-ruhiyyəsi içində oluruq. Siz də bu gün belə bir əhval-ruhiyyə ilə öz əsərinizi təqdim etdiniz. Mənim fikrimcə, göstərilmiş ədəbi-bədii kompozisiya şəhidlərimizin xatirəsinə, onların qəhrəmanlığına layiqdir.

Bunun üçün incəsənət xadimlərinə təşəkkürümü bildirirəm. Bugünkü tamaşanın həm bədii dəyəri, həm də ifaçıların hər birinin keçirdiyi daxili hisslər, hadisəni dərk etməsi xatirə gecəsinə həqiqətən xüsusi əhəmiyyət verdi. Bunlar çox təsirli idi, şəxsən mənə təsir etdi. Güman edirəm ki, salondakıların hamısına təsir etdi.

Biz xalqımızın başına gətirilmiş müsibətlər içərisində rəhimsizliyi və qəddarlığı ilə seçilən bu günü unutmamaq üçün gərək onu həmişə gözümüzün önünə gətirək. Həm də nəinki təkcə biz unutmayaq, həmçinin gərək gələcək nəsillər də unutmasın. Ona görə sizin bugünkü tamaşanızın da bu baxımdan çox böyük əhəmiyyəti var.

Bununla belə, nə qədər kədərli olsa da, 20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavliz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. İnsanlar dünyadan getdi, bəziləri bu gün də şikəstdir, ancaq xalqımızın adını ucaltdılar. Ona görə də bu gün bizim

üçün həm matəm günü, həm də iftixar günüdür. Şəhidlərlə də iftixar etməliyik ki, Azərbaycanın adını belə ucaldıblar. Azərbaycanın şairləri, yazıçıları, mədəniyyət xadimləri, incəsənət xadimləri, bəstəkarları və ifaçıları ilə də fəxr edə bilərik ki, bizim belə yüksək səviyyəli mədəniyyətimiz var, hətta bu kədərli, qəmli hadisəni də incəsənətimiz vasitəsilə nümayiş etdirə bilirik. Bunun özü də çox əlamətdardır.

Mən Ümumxalq hüzn gününə, şəhidlərin anılmasına həsr olunmuş xatirə gecəsində iştirak etmiş bütün incəsənət xadimlərinə bir daha təşəkkür edərək onlara yeni yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki, sizin yaradıcılığınız bundan sonra həmişə şadlığımıza, xalqımızın sevincinə, qələbələrinə həsr olunsun. 20 Yanvar da bizim qələbəmizdir. Ancaq elə olsun ki, bizi sevindirən hadisələr daha çox olsun. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKA DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN ALBOM-KATALOQUNUN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAKI

25 yanvar 1997-ci il

Yanvarın 25-də Azərbaycan prezidenti Heydər Əliyev respublika Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun təqdimat mərasimində iştirak etmişdir. Albom-kataloq "Azərbaycan mədəniyyətinin dostları fondu"nun və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) köməyi ilə nəşr olunmuşdur.

Təqdimat mərasimini respublikanın mədəniyyət naziri Polad Bülbüloğlu giriş sözü ilə açaraq vaxt tapıb bu mərasimdə iştirak etdiyinə görə Azərbaycan prezidenti Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi. Qədim əsrlərdən müasir dövrə qədər yaradılmış Azərbaycan, Qərbi Avropa, rus, Şərq ölkələri təsviri və dekorativ-tətbiqi sənət əsərlərinin nümayiş etdirildiyi Dövlət İncəsənət Muzeyinin yeni albom-kataloqunun "Azərbaycan mədəniyyətinin dostları fondu"nun və ABƏŞ-in birgə köməyi ilə nəşr edilməsini mühüm hadisə kimi qiymətləndirən natiq mədəniyyətimizin digər sahələri üzrə də belə albomların hazırlanmasının vacib olduğunu söylədi.

Polad Bülbüloğlu Azərbaycan Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun ilk nüsxəsini dövlətimizin başçısı Heydər Əliyevə təqdim etdi...

... Xalq artisti professor Fərhad Bədəlbəylinin müşayiəti ilə xalq artistləri Xuraman və Fidan Qasımovalar, artistlərdən Muxtar Vəliyev, Azər Zeynalov Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa edərək dinləyiciləri heyran qoydular.

Konsertdən sonra Azərbaycan prezidenti Heydər Əliyev ifaçılarla səmimi görüşdü və onlara yeni-yeni yaradıcılıq uğurları arzuladı...

XALQ ARTİSTİ
LEYLA XANIM VƏKİLOVAYA

Bakı şəhəri
29 yanvar 1997-ci il

Hörmətli Leyla xanım!

Sizi – xalqımızın böyük sənətkarını, görkəmli balet ustasını, tanınmış pedaqoqu 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Sizin yarım əsrdən artıq bir dövrü əhatə edən fəaliyyətiniz sənətsevərlər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Klassik ənənələrlə Azərbaycan xalq rəqslərinə xas olan xüsusiyyətləri böyük məharətlə birləşdirən parlaq ifaçılıq ustalığınız mədəniyyətimizin tarixində əbədi iz qoymuşdur.

Uzun illər opera və balet teatrımızın aparıcı solisti kimi Siz Azərbaycan milli balet sənətinin tarixində yeni bir səhifə açmısınız. Öz ülvi sənətinizlə çoxsaylı xarici qastrollar zamanı da Siz bütün tamaşaçılarınızın qəlbini fəth etmisiniz.

Səhnəmizdə oynadığınız unudulmaz rollar yeni nəsil Azərbaycan balet ustaları üçün yaradıcılıq məktəbi, ifaçılıq örnəyinə çevrilmişdir. Bu nəslin yetişdirilməsində sizin xidmətləriniz danılmazdır. Çoxillik pedaqoji fəaliyyətinizdə Siz balet sənətinin tədrisi ilə yanaşı, Azərbaycan Dövlət rəqs ansamblının rəhbəri kimi milli rəqs sənətimizin təbliği və inkişafına böyük əmək sərf etmisiniz.

Əminəm ki, Siz həyatınız boyu incəsənətimizin tərəqqisi üçün çalışdığınız kimi bundan sonra da müstəqil Azərbaycanın mədəniyyətinin inkişafı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

GÖRKƏMLİ AZƏRBAYCAN BALERİNASI, XALQ ARTİSTİ, PROFESSOR LEYLA VƏKİLOVAYA HƏSR EDİLMİŞ TAMAŞAYA BAXDIQDAN SONRA BALETİN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
2 fevral 1997-ci il

Leyla xanım, Sizi, bütün tamaşa iştirakçılarını, hamınızı səmimi-qəlbdən təbrik edirəm.

Mən belə başa düşdüm ki, bugünkü tamaşa Leyla xanımın yubileyinə həsr olunub. Hesab edirəm ki, siz ona layiq hədiyyə hazırlamısınız. Bugünkü tamaşa mənə çox böyük təsir bağışladı. Gözəl, yaxşı, şən tamaşalardır. Arlekin çox şən idi. Başlıcası budur ki, tamaşalar əla tamaşalardır. Mənim üçlin xoşdur ki, bu tamaşalar bizdə birinci dəfə göstərilir. Bu, respublikamızın mədəni həyatında hadisədir, tamaşaçılarımıza, adamlarımıza qiymətli hədiyyədir. Bu baletlərin belə gözəl şəkildə tamaşaya qoyulmasına görə çox sağ olun, hamınız çox sağ olun. Siz əla ifa etdiniz. Şadam ki, baletimiz, Azərbaycan baleti yaşayır, mövcuddur, heç bir çətinliyə baxmayaraq, bu gün də yaxşı vəziyyətdədir.

Leyla xanımla görüşdükdə düşünürsən ki, o, Azərbaycanda müasir baletin yaradılmasına nə qədər zəhmət çəkmiş və qüvvə sərf etmişdir! Bizdə klassik balet onun çox böyük əməyinin nəticəsidir. Bu işə Siz neçə il – əlli ilmi həsr etmisiniz?

L e y l a V ə k i l o v a : Ömrümün 53 ilini bu işə sərf etmişəm, cənab prezident.

H e y d ə r Ə l i y e v : Bu illər heç də sadəcə 53 il deyildir. Mən təsəvvür edirəm, lakin Siz özünüz daha yaxşı bilərsiniz ki, özünü balet sənətinə həsr etmək heç də asan deyildir. Tamaşaçı yarım saat, bir saat, saat yarım, iki saat oturur, əl çalır, həzz alır, çox böyük estetik zövq alır, sevinir – bu da təbiidir. Amma bu balet necə yaranır, necə ərsəyə gətirilir, hər bir ifaçı səhnədə nə kimi hisslər keçirir... Məsələn, mən təsəvvür edirəm, lakin bununla yanaşı, mən də təsdiqləməyə cürət etmərəm ki, hər şeyi təsəvvürümdə axıradək canlandıra bilərəm. Bunu ancaq siz bilərsiniz

ki, səhnədə hər şeyin gözəl, yaxşı görünməsi, yüksək səviyyədə olması üçün nə qədər əmək qoyulur. Azərbaycanda baletin belə inkişaf etməsinə görə biz məhz incəsənət ustalarımıza, o cümlədən Leyla xanıma minnətdarıq. Leyla xanım mənə bir balaca düzəliş verib dedi ki, ömrünün 53 ilini bu sənətə həsr etmişdir.

Zənnimcə, o, ömrünün bu illərini sənətə nahaqdan həsr etməyibdir, çünki bu, adamlara, xalqa çox böyük sevinc gətirən gözəl sənətdir, ən başlıcası isə bu sənət onu özünə peşə seçənlərə məmnunluq hissləri bəxş edir. Axı insan peşəni elə-belə seçmir, əksər hallarda öz daxili bacarığını, arzu və istəyini nəzərə alaraq seçir. Əlbəttə, baletlə hər kəs məşğul ola bilməz. Bundan ötrü xüsusi bacarıq və istedad gərəkdir. Lakin bundan başqa böyük arzu da lazımdır ki, sənətin belə çətin, belə ağır, çox ağır növü ilə məşğul olasan – bundan ötrü necə ürək gərəkdir!

Hesab edirəm ki, səhnədə olanların hamısı hünər göstərir. Balet isə səhnə sənətinin bütün janrları arasında, əlbəttə, xüsusi yer tutur. Mən bütövlükdə incəsənət, o cümlədən də balet həvəskarı kimi bunu həmişə hiss etmişəm, başa düşmüşəm və həmişə də qeyd etmişəm. Bu gün də çox şadam kı, Azərbaycan baleti belə yaxşı səviyyədədir.

Leyla xanım Sizə təşəkkür edirəm, mən Sizə öz təbrikimi göndərmişəm, Siz onu almısınız. Mənim təbrikim mətbuatımızda dərc olunub. Bu gün xüsusi olaraq gəldim ki, Sizi şəxsən təbrik edim. Eyni zamanda hamını bugünkü gözəl tamaşa münasibətilə təbrik edim. Çox sağ olun.

Mədəniyyət xadimlərini, görüş iştirakçılarını əmin edirəm ki, əvvəllər olduğu kimi, yenə də incəsənətə, opera teatrına həmişə kömək edəcəyəm, müasir şəraitdə mümkün olan bütün tədbirləri görəcəyəm ki, baletimiz getdikcə yüksəlsin, opera və balet teatrımız bügünkü kimi yaşasın, var olsun, bizdə yeni-yeni balet ustaları, yeni-yeni incəsənət ustaları yaransın.

Leyla xanım, Sizi bir daha təbrik edirəm, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

XALQ ARTİSTİ
QƏDİR RÜSTƏMOVA

Bakı şəhəri, 14 fevral 1997-ci il

Hörmətli Qədir Rüstəmov!

Sizi – Azərbaycan milli musiqi sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycanın məşhur muğam ustadlarının layiqli davamçısı olmaqla ümumxalq məhəbbəti qazanmış xoşbəxt sənətkarlardansınız. Zəngin musiqi ənənələri olan qədim Qarabağ diyarının övladı kimi Siz öz ecazkar səsiniz və böyük istedadınızla neçə-neçə qədim xalq mahnısına yeni həyat vermisiniz. Sizin nadir ifaçılıq sənətiniz Azərbaycan milli musiqisinin özünəməxsus səhifəsidir. Gəncləri torpaq qədri bilməyə, Vətəni müdafiəyə səsləyən, ülvi və müqəddəs duyğuları tərənnüm edən nəğmələriniz qəlbi Vətən və xalq sevgisi ilə vuran el sənətkarının böyük vətənpərvərlik hissinin parlaq ifadəsidir.

İnanıram ki, milyonların ürəklərini fəth etmiş orijinal Qədir sənəti müstəqil Azərbaycanımızın musiqi mədəniyyətinə yeni-yeni töhfələr verəcək, öz pərəstişkarlarını bundan sonra da sevindirəcəkdir.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, sənət yollarında yeni uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN EV-MUZEYİNDƏ ÇIXIŞ

6 mart 1997-ci il

Mən 1975-ci ilin oktyabrını xatırladım. O vaxtdan 21 il keçib. Keçmiş əsrlərdə də, XX əsrdə də Azərbaycanın böyük insanları olubdur. Ancaq bu böyük insanların xatirəsini əbədiləşdirmək lazımdır. Gələcək nəsillər onların həyat yolunu, yaradıcılığını, gördükləri işi, yaratdıqlarını daim bilməlidirlər. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır.

1970-ci illərdə biz xalqımızın böyük şəxsiyyətlərinin ev muzeylərinin yaradılması fikrini meydana atdıq. Bu gün sizə demək istəyirəm ki, bu, mənim şəxsi təşəbbüsümlə olmuşdur.

Xatirimdədir, biz 1974-cü ildə ilk dəfə Üzeyir Hacıbəyovun ev muzeyini yaratdıq. Sonra isə, 1975-ci ildə Səməd Vurğunun 70 illik yubileyi ərəfəsində onun ev muzeyinin yaradılması haqqında qərar qəbul etdik.

Xatirimdədir, bu, o vaxt asan məsələ deyildi. Siz – ailə üzvləri, hamınız bu evdə yaşamısınız, bu, sizin doğma eviniz idi. Səməd Vurğun da, siz də burada yaşamışdınız. Mən təklif edəndə ki, Səməd Vurğunun ev muzeyi yaradılsın və siz başqa mənzillərə köçəsiniz, başa düşürəm, psixoloji nöqteyi-nəzərdən bu, sizin üçün nə qədər çətin bir məsələ, proses idi. Mən çox məmnunam ki, o vaxt siz bu təklifi çox şüurlu, düşüncəli olaraq qəbul etdiniz, bu cür gözəl mənzili qoydunuz, sonra tikilmiş müasir mənzillərə köçdünüz. Xatirimdədir, o vaxt siz başqa mənzillərlə təmin olundunuz. O vaxtdan 21 il keçib, görürsünüz bu, nə qədər lazım idi. Ona görə də mən birinci növbədə Səməd Vurğunun həyat yoldaşı Xavər xanıma, onun övladlarına təşəkkür edirəm. O vaxt siz burada ev muzeyi açmağa imkan yaratdınız.

Şübhəsiz ki, bu muzey sizin üçün də lazımdır. Çünki Səməd Vurğun birinci növbədə sizə, ailənizə mənsubdur. Amma eyni zamanda Səməd Vurğun bütün xalqımıza, millətimizə mənsubdur. Siz də, biz də bu addımı birlikdə atdıq və belə bir mədəniyyət ocağı, Səməd Vurğun ocağı yaratdıq. Bilirsiniz, Səməd Vurğunun xatirəsini daim yeni-yeni nəsillərə

çatdırmaq üçün bu muzeyin bu gün də, gələcəkdə də böyük əhəmiyyəti vardır. Xatirimdədir, biz bu muzeyi o vaxt böyük təntənə ilə açdıq. Həmin vaxt keçmiş Sovetlər İttifaqının böyük respublikalarından bizə çox mötəbər qonaqlar gəlmişdi. O dövrün ən görkəmli şairləri, yazıçıları, ədəbiyyatçıları, mədəniyyət xadimləri respublikamıza gəlmişdilər. Biz bu tədbiri elə bir vaxtda keçirdik ki, ev muzeyini məhz belə tanınmış adamların iştirakı ilə açaq.

Ev muzeyinin açılmasından 21 il keçir. Biz Səməd Vurğunun 70 illik, 80 illik yubileylərini də keçirdik. Allah bizə imkan verdi, yaşadıq. Səməd Vurğunun 90 illik yubileyini də qeyd edirik. Hesab edirəm ki, bu muzey indi təmirdən və eksponatları dəyişiləndən sonra daha yaxşı təsir bağışlayır. Bu muzey Səməd Vurğunun yaradıcılığını bu gün də, gələcəkdə də təbliğ etmək üçün gözəl bir vasitədir.

Bilirsiniz, bu bizim milli borcumuzdur. Çünki Səməd Vurğun millətimizin başını tarixdə uca edən şəxsiyyətlərdən biridir. Onun yaradıcılığını daim yaşatmaq, yeni-yeni nəsillərə çatdırmaq bizim borcumuzdur. Biz bu ənənəni yaradaraq, bizdən sonra gələn nəsillərə də yol açırıq ki, onlar da bu yolla getsinlər.

İndi biz buradakı şəkillərə baxarkən Aybəniz xanım dedi ki, Səməd Vurğunun "Fərhad və Şirin" pyesi 50 il bundan qabaq tamaşaya qoyulmuşdur. Mən onun fikri ilə razıyam ki, indiki gənc nəsildən çoxları "Fərhad və Şirin" pyesinin tamaşasına baxmayıblar və ya bəziləri bu əsəri oxumayıblar. İndi bu əsər teatrımızda yenidən hazırlanır, onun tamaşası olacaq, bizim gənclər onu görəcəklər. Bu tamaşanı yenidən gedib görən yaşlı adamlar üçün də maraqlı olacaqdır. Bu tamaşanı mən vaxtilə çox böyük məmnuniyyətlə gedib Azərbaycan Dövlət Dram Teatrında görmüşəm. Bu əsər mənə çox böyük təsir bağışladı. Onu gedib yenidən görmək mənə də, sizə də lazımdır. Amma gənclərə xüsusən lazımdır.

Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün belə muzeylər lazımdır. Səməd Vurğun muzeyi də məhz buna xidmət edir. Mən çox məmnunam ki, siz, Səməd Vurğunun ailə üzvləri Xavər xanım, Aybəniz xanım bu muzeyi 21 ildir saxlayırsınız, qoruyursunuz. Bu muzey daim fəaliyyətdədir. O, xalqımıza, millətimizə xidmət edir. Bu muzeyi biz ölkəmizə ziyarətə gələn insanlar üçün gözəl bir nümunə kimi göstəririk ki, xalqımız nəyə malikdir, nəyə qadirdir, xalqımızın milli sərvətləri nədən ibarətdir. Gəlib həm bu muzeyi görənlər, həm buradakı bu kitabları oxuyan, onlarla tanış olanlar xalqımızı daha da dərindən tanıyacaqlar.

Mən Səməd Vurğunun 90 illik yubileyi münasibətilə sizi təbrik edirəm. Təşəkkür edirəm ki, tək sizə yox, bütün Azərbaycan xalqına mənsub olan Səməd Vurğunun irsini, adını və burada onun ruhunu yaşadırsınız.

MUZEYİN FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

"Bu gün böyük şair Səməd Vurğunun 90 illik yubileyini qeyd edərkən, 1975-ci ilin oktyabr ayını xatırlayıram. O günlər ölməz Səməd Vurğunun ev muzeyinin təntənəli açılışı oldu. Ötən illər müzey Səməd Vurğunun həyat və yaradıcılığını təbliğ etmək üçün çox iş görüb, xalqımızın, mədəniyyətimizin inkişafına bövük xidmət göstərib. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daim yaşayacaq, muzey ölkəmizin görkəmli mədəniyyət ocağı kimi o şərəfli işə bundan sonra da xidmət edəcəkdir".

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ DAĞISTANIN XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident Sarayı
7 mart 1997-ci il

Hörmətli Rəsul Kubaçi!

Mən Sizi səmimi salamlayır və Azərbaycana gəlişinizdən məmnun qaldığımı bildirirəm. Qafqaz və Dağıstan xalqlarının böyük və qəhrəman oğlu Şamilin 200 illik yubileyi münasibətilə Kubaçi sənətkarlarının hazırladığı suvenir xəncəri və şeir kitablarınızı mənə hədiyyə etdiyinizə görə təşəkkür edirəm. Bir daha vurğulamaq istəyirəm ki, Sizin Bakıya, Səməd Vurğunun yubileyinə gəlişinizdən çox məmnunam.

Çıxışınızda göstərdiniz ki, Səməd Vurğun sizin üçün müəllim və ən əziz adam olmuşdur. Səməd Vurğun təbiətən böyük şair və böyük insan idi.

Səməd Vurğunun adı və xatirəsi xalqımız üçün çox əzizdir. Biz Səməd Vurğunun 70 illiyini bayram kimi qeyd etmiş, ondan bir qədər də əvvəl – 1975-ci ildə Bakıda sovet ədəbiyyatı günləri keçirilərkən Səməd Vurğunun ev muzeyini təntənəli surətdə açmış, həmçinin böyük Azərbaycan şairinin adı ilə bağlı bir çox digər tədbirləri həyata keçirmişik.

Hörmətli Rəsul Həmzətov, Siz həmişə Azərbaycanın fəxri qonağı olmuşsunuz, burada Sizin istedadınızın çoxlu pərəstişkarı var... Böyük məmnunluqla bildirirəm ki, Azərbaycan və Dağıstan xalqlarının dərin tarixi köklərə malik münasibətlərinin möhkəmlənməsi və inkişafında Sizin – Dağıstanın xalq şairinin böyük xidmətləri var. Xalqlarımızı birləşdirən cəhətlərdən biri də budur ki, Dağıstanın ağır dövründə orada Əziz Əliyev işləmişdir. Bildirirəm ki, Azərbaycanda bu görkəmli dövlət xadimi və alimin 100 illiyi qeyd olunur. Arzu edirəm ki, Azərbaycan və Dağıstan xalqları arasındakı qədim və mehriban münasibətlər əbədi qorunub saxlansın.

XALQ ŞAİRİ ŞƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ

Respublika Sarayı
7 mart 1997-ci il

Hörmətli xanımlar və cənablar! Əziz dostlar!

Böyük şair Səməd Vurğunun 90 illik yubileyi şeir, mədəniyyət bayramıdır, Azərbaycan xalqının bayramıdır. Bu bayram münasibətilə mən sizi, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm.

Bu bayram mərasimlərində iştirak etmək üçün dost ölkələrdən zəhmət çəkib Azərbaycana gəlmiş hörmətli qonaqlarımıza təşəkkür edirəm.

Azərbaycan bir ildir ki, Səməd Vurğunun 90 illik yubileyini qeyd edir, ölkəmizdə yubiley mərasimləri keçirilir. Bu təbiidir, çünki Səməd Vurğun xalqımız, millətimiz üçün o qədər dəyərli bir şəxsiyyət olub, o qədər zəngin bir irs qoyub ki, onun 90 illik yubileyi bir gün, bir ay yox, məhz bir il müddətində keçirilməli idi. Bu müddətdə hər yerdə, hər evdə, hər şəhərdə, hər kənddə Səməd Vurğun yad olunur, onun şeirləri oxunur, əsərləri yenidən canlanır və bunlar hamısı müasirlərimizə, gənclərimizə ruh verir, onları sevindirir, şadlandırır.

Səməd Vurğun XX əsrin əvvəlində dünyaya gəlib və az ömür sürərək 50 ildən sonra dünyasını dəyişibdir. XX əsr bəşər tarixində çox ziddiyyətli, mürəkkəb proseslər dövrüdür. Səməd Vurğunun yaşadığı illər həddindən artıq mürəkkəb, qarışıq, çətin olub. Birinci dünya müharibəsi dünyaya nə qədər ziyanlar vurubdur. Ondan sonra Yer kürəsinin altıda bir hissəsində yeni bir quruluş, yeni ideologiya hökm sürməyə başlayıbdır. Sonra bəşəriyyət üçün ən təhlükəli olan faşizm meydana çıxıb, İkinci dünya müharibəsi başlanıb, nə qədər insanlar qurban gedib. İkinci dünya müharibəsindən sonra "soyuq müharibə" başlayıb, yer üzündə yenə də gərginlik yaranıb, eyni zamanda sülhü müdafiə etmək üçün qüvvələr yaranıbdır. Bunlar o dövrün ən böyük, tarixi hadisələridir. Belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi.

Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir,

Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur.

Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır.

Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən yüksək hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur.

Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə, o Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək, bizim dövrümüzdə – məhz 20-ci, 30-cu, 40-cı illərdə Azərbaycan şeirini daha da yüksək səviyyələrə qaldırdı.

Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir.

Səməd Vurğun şeirinin böyüklüyü, eyni zamanda gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara vətəni, milləti, torpağı sevməyi öyrədir.

Səməd Vurğunun ədəbi yaradıcılığı çox genişdir, çoxşaxəlidir. Bu gün burada məndən əvvəl çıxış edən natiqlər bu barədə çox gözəl və əsaslı fikirlər söylədilər. Səməd Vurğunun bütün yaradıcılığında ən görkəmli yer tutan onun "Vaqif" tarixi mənzum dramıdır və Azərbaycan milli teatrında onun əsasında yaranmış "Vaqif" tamaşasıdır. Bu gün tam qətiyyətlə demək olar ki, böyük Səməd Vurğunun 60 il bundan əvvəl yaratdığı və teatrımızı daim inkişaf etdirən "Vaqif" pyesi XX əsr mədəniyyət, ədəbiyyat tariximizdə ən görkəmli yer tutubdur.

"Vaqif" əsərinin xüsusiyyəti, şübhəsiz ki, birinci növbədə bu əsərin Azərbaycan xalqının tarixinin müəyyən bir hissəsini əks etdirməkdən ibarətdir. O, eyni zamanda, dərin fəlsəfi fikirləri əks etdirən bir əsərdir, hər bir azərbaycanlının ürəyinə yatan, onu sevindirən şeir misralarıdır.

"Vaqif" əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan əsərdir. Etiraf etməliyik ki, Səməd Vurğunun "Vaqif" əsəri yarananadək Molla Pənah Vaqif xalqın arasında geniş təbliğ olunmamışdı və xalq onu o qədər də tanımırdı. Şübhəsiz ki, ədəbiyyatçılar, ziyalılar, şeir pərəstişkarları Vaqifin şeirlərini yaxşı bilirdilər. XVIII əsrdə Azərbaycan ədəbiyyatının, şeirinin inkişafında Vaqifin xidmətləri haqqında mən dedim. Ancaq Vaqifı geniş tanıtmaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini açmaq, onun surətini xalqa göstərmək və Vaqifi xalqa doğma etmək – bunların hamısını Səməd Vurğun etdi.

Xatırlayın, 1937-ci ilədək – "Vaqif" əsəri yarananа qədər Azərbaycanda Vaqif adı daşıyan adam ya olmayıb, ya da çox az olubdır. Bəlkə də heç kəs buna fikir verməyib. Bəlkə də hamı güman edir ki, Azərbaycanda geniş yayılmış Vaqif adı elə dövri-qədimdəndir. Amma "Vaqif" əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdi ki, həddindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi.

Bilirsiniz, bu təhlili genişləndirmək, bu barədə daha geniş fikirlər, mülahizələr söyləmək olar. Ancaq mən bu məqamları xatırladıram ki, Səməd Vurğunun yaradıcılığının nə qədər dərin iz buraxdığını bu gün biz bir daha dərk edək.

Yenə də "Vaqif" pyesinə qayıtmalıyam. Azərbaycanın milli teatrı qədim tarixə, böyük ənənələrə malikdir. Biz 1873-cü ildə Şərqdə ilk dəfə yaranmış Azərbaycan teatrı ilə, onun tarixi ilə həmişə fəxr etmişik, edirik. Ancaq Azərbaycan Dram Teatrının tarixində "Vaqif" pyesi bir inqilab oldu. O illəri yaşayan adamlar xatırlamalıdırlar – bu, mənim də xatirimdədir – həmin tamaşa o vaxt bir inqilab oldu.

Azərbaycan teatrının ən parlaq səhifələrindən biri "Vaqif" pyesidir, onun yaranmasıdır və uzun illər onun teatrımızın səhnəsində olmasıdır. "Vaqif" pyesi, eyni zamanda teatrımızın görkəmli sənətkarlarını daha da yüksəltdi.

Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif

rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışlar.

Görürsünüz, Səməd Vurğun bir əsərlə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir. Səməd Vurğun xalqımıza nə qədər böyük xidmətlər göstəribdir. Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışdıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq. Həmin məqbərədə Səməd Vurğun, Azərbaycan teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoyduq.

Səməd Vurğunun digər dram əsərləri də yüksək qiymətə layiqdir. "Fərhad və Şirin" də, "Xanlar" da, "İnsan" da Azərbaycan ədəbiyyatına, şeirinə, teatrına böyük töhfələrdir. Onlar əbədi yaşayacaqlar.

Səməd Vurğun həddindən çox şeirlər, poemalar yazıbdır. Bütün bu poemalarının, şeirlərinin və pyeslərindəki şeirlərin hamısı məhz Səməd Vurğuna məxsusdur. Bütün bunlar onu göstərir ki, Səməd Vurğun ana dilimizi – Azərbaycan dilini təkmilləşdirib, inkişaf etdiribdir. Bu, Səməd Vurğunun ən böyük xidmətlərindən biridir. Bizim hazırkı dilimiz 70, 80, 90 il bundan əvvəl olan dil deyil. İndiki dilimiz – türk dilləri qrupuna məxsus olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir. Biz bu dilimizlə fəxr edirik və fəxr edə bilərik.

Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafabəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyuk xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir.

Səməd Vurğunun bütün əsərləri Vətənə məhəbbətlə, Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə doludur. Səməd Vurğunun şəxsiyyətini ifadə edən əsərlərinin əsas mənası və məzmunu bax, budur.

Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir.

Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi "Zamanın bayraqdarı" poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir.

Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır.

Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O, öz millətinin oyanışına, milli dirçəlişinə xidmət edibdir. Məhz Səməd Vurğunun şeirləri, poemaları, pyesləri, dramları – hamısı birlikdə xalqımızı xırda-xırda bu yüksək səviyyəyə çıxarıbdır.

Səməd Vurğunun yaradıcılığının əsas xüsusiyyətləri bax, budur. Məhz buna görə Səməd Vurğun qiymətlidir. Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir. Səməd Vurğun həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur. Səməd Vurğun Üzeyir Hacıbəyovla, Cəfər Cabbarlı ilə çiyin-çiyinə gedibdir. Onlar – Səməd Vurğun da, Üzeyir Hacıbəyov da, Cəfər Cabbarlı da Azərbaycanı azad, müstəqil, sərbəst görmək istəyiblər.

Biz bu günümüzə görə – xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik.

Bilirsiniz, hər bir insanın özünəməxsus taleyi vardır. Az ömür yaşamasına baxmayaraq, Səməd Vurğunun taleyi xoşbəxt taledir. Ona görə xoşbəxt taledir ki, Səməd Vurğun 50 il yaşasa da, amma 40 ildir Azərbaycan xalqının dilindən və dünyanın çox xalqlarının dilindən düşmür.

Bu gün biz azad, müstəqil ölkəmizdə yaşayarkən keçmiş nəsillərə minnətdar olmalıyıq, bizdən qabaq yaşamış, yaratmış insanlara daim minnətdarlığımızı bildirməliyik. Çünki bugünkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpic-kərpic qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur – kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yarat-

mağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur.

Səməd Vurğun öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri olubdur. Biz Səməd Vurğun ilə fəxr edirik. Çox sevindirici haldır ki, biz bu yubileyi dostlarımızla – Türkiyə cümhuriyyətinin, Qazaxıstan, Rusiya, Gürcüstan, Dağıstan respublikalarının nümayəndələri ilə bir yerdə keçiririk. Bu da təbiidir. Buradakı çıxışların hamısı çox səmimidir və Səməd Vurğunun yaradıcılığına, onun qoyduğu irsə böyük hörmət hissi ilə doludur.

Burada şəxsi xatirələr də söylənildi. Mənim də şəxsi xatirələrim vardır. Biz gənclər vaxtilə Səməd Vurğunu sadəcə olaraq görməkdən özümüzü xoşbəxt hesab edirdik. Biz özümüzü xoşbəxt hesab edirdik ki, Səməd Vurğunu haradasa gördük, dinlədik, eşitdik. Biz o illərdə bax, belə yaşamışdıq.

Xatirimdədir, 1952-ci ildə Opera və Balet Teatrının binasında Azərbaycan ziyalılarının iclası keçirilirdi. Azərbaycanın o vaxtkı rəhbəri də ziyalılara çox təzyiq edirdi. Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bugünkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi. Həmin nitq yəqin, haradasa dərc olunub və onu oxuyanlar bunları bilirlər. Onun o nitqi də məhz Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma Səməd Vurğun heç bir dəfə də əyilmədi, sınmadı, iradəsini itirmədi, öz nitqini mərdimərdanə, böyük iftixar hissi ilə başa çatdırdı.

Səməd Vurğun o vaxt bizim hamımız üçün nümunə – xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlikdə nümunə idi. Səməd Vurğun Azərbaycanı, öz xalqını, öz dilini nə qədər sevirdi! Bunları hər dəfə yada saldıqca insan coşur, həyəcanlanır. Səməd Vurğun əgər bu günləri – Azərbaycanın müstəqilliyini, azadlığını görmədisə də, onun ruhu bu gün bizimlədir. Mən hesab edirəm, onun ruhu bu gün həddindən artıq şaddır ki, Azərbaycan xalqı azaddır, sərbəstdir və Azərbaycan Respublikası müstəqildir.

Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Anam, doğma, Vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır. Bu gün mən bir daha bəyan edirəm ki, biz Səməd Vurğunun ruhunu gələcəkdə də şad edəcəyik. Müstəqil Azərbaycan yaşayacaq. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaqdır. Xalqımız daim sərbəst, öz taleyinin sahibi olacaqdır.

Yaşasın müstəqil Azərbaycan!
Yaşasın Səməd Vurğun yaradıcılığı!
Səməd Vurğuna eşq olsun!

BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ "SEVİL" AZƏRBAYCAN QADINLARI MƏCLİSİNİN TƏŞKİL ETDİYİ GÖRÜŞDƏ NİTQ

Rəşid Behbudov adına Mahnı Teatrı
8 mart 1997-ci il

Əziz xanımlar!

Mən sizi beynəlxalq qadınlar günü münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, daim gözəllik, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bu bayram münasibətilə mən şəhid analarını, əsgər analarını, ölkəmizin torpaqlarını qoruyan igidlərin analarını, ordumuza əsgər böyüdən anaları xüsusi təbrik edir və onlara öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların yükü həmişə ağırdır. Ancaq qadınların da xüsusiyyəti bundan ibarətdir ki, onlar bu vəzifələri şərəflə yerinə yetirirlər və cəmiyyətdə həmişə olduğu kimi, indi də aparıcı rol oynayırlar.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində bizim qadınların bir qismi evlərindən, yurdlarından didərgin düşüb, ağır vəziyyətdə yaşayır. Onların bir hissəsi çadırlarda yaşayır. Belə bir ağır vəziyyətdə – çadırlarda, yaxud da çox çətin mənzil şəraitində yaşasalar da öz qadınlıq, analıq borcunu yerinə yetirir, övladlar böyüdür, millətimizə, xalqımıza, dövlətimizə sədaqətlə xidmət edirlər. Mən respublikamızın bu dövründə belə ağır vəziyyətdə yaşayan qadınlara xüsusi salamımı çatdırır və onlara cansağlığı, səadət arzulayıram.

Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, qadınsız həyat ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik. Azərbaycanda bütün sahələrdə gördükləri işlərə, səmərəli fəaliyyətlərinə görə bu bayram günündə mən bütün qadınlarımıza təşəkkür edirəm.

Xalqımız milli azadlıq yolu ilə gedir, ölkəmiz müstəqil dövlətdir. Bu keçid dövründə həyatımızda çoxlu çətinliklər, çox böyük maneələr var. Bunlar hamısı bizdən daha fəal işləməyi, daha səfərbər olmağı tələb edir, cəmiyyətimizi, respublikamızın bütün insanlarını daha da birliyə, həmrəyliyə dəvət edir. Bu sahədə qadınların rolu çox böyükdür. Qadınlar həmişə sülh, xoş münasibətlər tərəfdarı olublar. Qadınlar həmişə yaxşı ailələr yaradan qüvvə olublar.

İndi, respublikamızın bu keçid dövründə, çətin dövründə, torpaqlarımızın bir qisminin işğal altında olduğu zamanda, ölkəmizdə yerindən-yurdundan qaçqın, didərgin düşmüş bir milyondan artıq həmvətənimizin olduğu zamanda birliyə, həmrəyliyə, dostluq əlaqələrinə, səmimi əlaqələrə daha çox ehtiyacımız var. Bu yolu keçmək, respublikamızı bu mərhələdən keçirmək üçün, bu çətinliklərdən çıxmaq, Ermənistanın işğalından, təcavüzündən xilas olmaq üçün, respublikamızın ərazi bütövlüyünü bərpa etmək üçün cəmiyyətimizdə qarşılıqlı anlaşma, qarşılıqlı münasibətlər yaranmalıdır. Cəmiyyətimiz daha sıx birləşməli, əsas hədəflərimiz yolunda – dövlət müstəqilliyimizin möhkəmlənməsi və inkişaf etməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal olunmuş torpaqların azad edilməsi, respublikamızın dünya miqyasında özünəməxsus layiqli yerini tutması yolunda siyasi dünyagörüşündən, fikir müxtəlifliyindən asılı olmayaraq, respublikamızın bütün vətəndaşları bir olmalı, həmrəy olmalı, birləşməlidirlər, bundan sonra ölkəmizdə heç bir təxribata, qarışıqlığa yol verməməlidirlər.

Bütün bu vəzifələrin yerinə yetirilməsində qadınların rolu da böyükdür, imkanları da çoxdur və qadınlar çox iş görüblər, bundan sonra da görə bilərlər.

Xatirimdədir, 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələr baş qaldırıb ölkənin konstitusion hakimiyyətinin əleyhinə çıxdığı bir zamanda mən televiziya vasitəsilə xalqa müraciət edərkən gecə vaxtı Prezident Sarayının ətrafına yüz minlərlə insan toplaşdı. Onların içərisində qadınları görəndə, yaşlı, gənc qadınları, qucağında təzəcə doğulmuş, yenicə dünyaya gəlmiş uşaqla, südəmər uşaqla o meydana ayaqyalın gələn qadınları görəndə mən bir daha düşündüm ki, qadınlar nə qədər vətənpərvər, millətinə, ölkəsinə, dövlətinə nə qədər sədaqətlidirlər, eyni zamanda nə qədər cəsur, qorxmaz, qəhrəmandırlar. Həmin gecə o meydana toplaşanlar, şübhəsiz ki, böyük təhlükə altında idilər, çünki bizim dövlətçiliyimizin əleyhinə silahlı qüvvələr çıxmışdı. Amma o silahlı qüvvələrin, kişilərin əleyhinə qadınlar, – bəziləri də ayaq-

yalın, başıaçıq, havanın da bir az soyuq vaxtında qucaqlarında uşaqla çıxmış, Prezident Sarayının önünə gəlmişdilər və Azərbaycan dövlətçiliyinin qorunmasına qalxmışdılar, onun keşiyində dayanmışdılar. Mən bunu heç vaxt unuda bilmərəm.

Ancaq bu, yeganə hal deyil. Qadınlarımız həmişə belə olublar və əminəm ki, bundan sonra da belə olacaqlar. Qadınlarımız müstəqil Azərbaycanın dövlətçiliyinin dayağıdırlar, görəcəyimiz bütün işlərin dayağıdırlar. Ona görə də mən qadınlara indiyə qədər güvəndiyim kimi, bu gün də güvənirəm, sabah da güvənəcəyəm. Mən sizin hamınızı sevirəm, bağrıma basıram, əgər icazə versəniz, öpürəm, sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Bir daha bayramınız mübarək olsun. Sizə uzun ömür və yeni-yeni nailiyyətlər arzulayıram. Sağ olun.

XALQ ARTİSTİ
LÜTFİ MƏMMƏDBƏYOVA

Bakı şəhəri
13 mart 1997-ci il

Hörmətli Lütfi Məmmədbəyov!

Sizi – Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, Siz bir aktyor, rejissor və müəllim kimi milli teatrımızın inkişafı yollarında yeni uğurlar qazanacaq, öz yaradıcılığınızla sənətsevərləri bundan sonra da sevindirəcəksiniz.

Sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ŞAİRİ
BALAŞ AZƏROĞLUNA

Bakı şəhəri
17 mart 1997-ci il

Hörmətli Balaş Azəroğlu!

Sizi – müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsini anadan olmağınızın 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz xalqımızın əhval-ruhiyyəsini, fikir və düşüncələrini, azadlıq ideallarını öz yaradıcılığında daim əks etdirən xoşbəxt sənətkarlardansınız. Zəngin qədim ədəbi ənənələrə, xəlqiliyə, humanizmə əsaslanan əsərləriniz hər bir azərbaycanlının mənəviyyat aləminə daxil olmuşdur.

Şair olmaqla yanaşı, Siz Azərbaycan ədəbiyyatının nüfuzlu tədqiqatçısı kimi də respublikada yaxşı tanınırsınız. Keçdiyiniz şərəfli sənət yolunun ayrılmaz bir hissəsini təşkil edən çoxşaxəli ictimai fəaliyyətiniz də mübariz həyat mövqeyinizi özündə əks etdirir.

İnanıram ki, əsil vətənpərvərlik duyğuları tərənnüm edən sənətiniz azadlıq və istiqlaliyyət məfkurəsi ətrafında bütün Azərbaycanlıların daha sıx birləşməsi işinə bundan sonra da xidmət edəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Bakı şəhəri, 19 mart 1997-ci il

Əziz həmvətənlər!

Sizi, respublikanın bütün vətəndaşlarını qədim milli bayramımız – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Xalqımızın uzun əsrlər boyu qeyd etdiyi bu Bahar bayramı Azərbaycanın müstəqillik əldə etməsi ilə respublikanın dövlət bayramlarından biri oldu. Novruzun hər dəfə keçirilməsi müstəqillik və dövlətçilik prinsiplərimizin təntənəsinə olan inamı daha da artırır.

Mənəvi dəyərlərimizə sədaqət və ehtiramı nümayiş etdirən Novruz bayramı insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün həmişə gözəl zəmin yaratmışdır. Qoy bu ilki Novruz da müstəqil Azərbaycanımızın tərəqqisi naminə cəmiyyətdə milli həmrəyliyin tam bərqərar olması işində yeni bir mərhələ olsun, təbiətin oyanması və yeniləşməsinin rəmzi olan bu bayram ürəklərdə ancaq saf niyyətlər, xoş duyğular oyatsın.

Əziz Novruz bayramını hər kəsin öz ocağı başında qeyd etməsi xalqımızın gözəl adətlərindəndir. Əminəm ki, öz yurdundan, ev-eşiyindən didərgin düşmüş soydaşlarımızın bu adəti gerçəkləşdirə biləcəkləri gün uzaqda deyildir. Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş oğul və qızlarımızın qohum-əqrəbasına, yaxınlarına bu əziz gündə Ulu Tanrıdan səbir diləyirəm. İnanıram ki, respublikanın ərazi bütövlüyünün bərpa edilməsi yolunda atdığımız hər yeni uğurlu addım şəhidlərimizin ruhunu şad edəcəkdir.

Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, ürəyində Vətən sevgisi olan hər bir həmvətənimiz Novruz bayramını böyük sevinc və fərəhlə qeyd edir. Bu bayram şənlikləri onları vətənlərinə, ata-baba yurdlarına, öz milli köklərinə daha sıx bağlayır.

Əziz bacı və qardaşlar, əziz soydaşlar!

Bu şad bayram günlərində hər birinizi bağrıma basıram, sizə gözəl Novruz əhval-ruhiyyəsi diləyir, həyatınızda və işlərinizdə uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCAN PREZİDENTİ TƏRƏFİNDƏN ŞƏHİD ÖVLADLARI YƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL EDİLMİŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

"Gülüstan" Sarayı
20 mart 1997-ci il

Əziz balalar, bayramınız mübarək olsun!

Mən sizi, bütün Azərbaycan övladlarını, gənclərini Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət, şənlik və gələcək həyatınızda uğurlar arzulayıram.

Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Xalqımız çoxəsrlik tarixində böyük sınaqlardan keçibdir. Tariximizin ağır, çətin dövrləri olubdur. İnsanlar ağır günlər, çətin illər yaşayıblar. Ancaq bunlara baxmayaraq, Novruz bayramını heç kəs heç vaxt unutmayıbdır. Əksinə Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu eyni zamanda, hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır.

İndi, Azərbaycan dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra Novruz bizim dövlət bayramımız olubdur. Ona görə də xalqımızın gözəl ənənələrini son illərdə sürətlə bərpa edərək, respublikamız, xalqımız bu bayramı ildən-ilə daha da şən, gözəl, yüksək səviyyədə keçirir.

Novruz bayramı həmişə xalqımızı birləşdirən, bir yerə yığan, insanları bir-biri ilə barışdıran bayram olubdur. Ona görə də insanlar bu bayramı sevirlər. Xalqımızın ənənələri məlumdur: bu bayramda küsülülər barışır, insanlar bir-birinə qonaq gedir. Bu bayramda insanlar bir-birinə daha da mehriban olur, daha da yaxınlaşır, bir-birinin günahından keçir, səhvini bağışlayır, cəmiyyətdə insanlar arasında münasibətlər daha da saflaşır, yüksəlir. Beləliklə, bu bayram xalqımızın milli birlik, milli həmrəylik bayramıdır.

Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və

hər bir insanı Vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir.

Xalqımız bu bayramı əziz bir bayram kimi qoruyub saxlayıbdır. Keçmişdə bu bayrama münasibət də birmənalı olmayıbdır. Ancaq buna baxmayaraq bu bayram insanlarımız, xalqımız, millətimiz üçün o qədər əziz insanlara o qədər fayda gətirən və onların həyatını yeniləşdirən, gəncləşdirən bayram olubdur ki, insanlar onu qoruyub saxlayıblar.

Xalqımızın daha bir gözəl ənənəsi vardır – bu bayramı qeyd edərkən insanlar öz əcdadlarını, dünyasını dəyişmiş valideynlərini, qohum-əqrəbalarını yad edirlər, Vətən, torpaq, millət uğrunda şəhid olanları yad edirlər, həyatını dəyişmiş Vətən, millət qəhrəmanlarını yad edirlər. Bu bayram dünyasını dəyişmiş yaxınlarımızın hamısının ruhunu şad edir. Bu bayramın ən gözəl mənalarından biri də budur.

Biz bu gün də bu bayramı belə şən əhval-ruhiyyədə, gözəl, çox yüksək səviyyədə qeyd edərkən dünyasını dəyişmiş əzizlərimizi, Vətən, torpaq yolunda canlarını qurban vermiş şəhidlərimizi xatırlayırıq. Bu gün buraya toplaşan, Gülüstan Sarayının bu salonunda bu bayramı qeyd edən balalarımızın bir çoxunun valideynləri Vətən, torpaq yolunda şəhid olublar. Biz onların xatirəsini xüsusi yad edirik. Güman edirəm ki, bu gün sizin belə şən, gözəl, xoşbəxt, çalan, oxuyan əhval-ruhiyyəniz dünyasını dəyişmiş bütün şəhidlərin hamısının ruhunu şad edir.

Mən bu gün bu bayrama, yəni sizin yanınıza, bu bayramı sizinlə birlikdə qeyd etməyə çox yüksək hisslərlə gəlmişəm. Siz Azərbaycanın gələcəyisiniz, bizim əziz övladlarımızsınız, balalarımsınız. İndi siz təhsil, tərbiyə alırsınız, oxuyursunuz, özünüzü gələcək üçün hazırlayırsınız. Biz də sizə və bütün Azərbaycan gənclərinə böyük ümidlə baxırıq.

Bu əziz bayram günündə mən bir daha bildirmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikamızın gözəl gənc nəsli yetişir, gözəl gəncləri vardır. Azərbaycanın bu gündən də gözəl gələcəyi vardır və bu gələcəyi də quran, yaradan siz olacaqsınız, əziz balalar, ölkəmizin gəncləri olacaqlar.

Bu gün siz gözəl mahnılar oxuyursunuz, rəqslər edirsiniz, öz istedadınızı nümayiş etdirirsiniz. Sizə baxanda hər bir kəs, o cümlədən mən də iftixar hissi keçirirəm. Xalqımız yüksək mənəviyyata, böyük zəkaya malik olan bir xalqdır. Xalqımız qəhrəman, şücaətli xalqdır. Xalqımız məğrur, yenilməz xalqdır. Bizim əcdadlarımız bunu tarix boyu dünyaya nümayiş etdirib, sübut ediblər. Bu gün biz çalışırıq ki, xalqımızın bu gözəl xüsusiyyətləri qorunub saxlansın və daha da vüsət alsın, daha çox inkişaf etsin və xalqımızı yüksəklərə qaldırsın. Bunlar da olacaqdır. Burada – bu

salonda sizin əhval-ruhiyyənizi, sevincinizi, istedadınızı görəndə mən bir daha inanıram ki, belə də olacaq və siz bunlara nail olacaqsınız.

Bizim borcumuz gənclərə daha çox qayğı göstərməkdən, onların təhsil və tərbiyəsi işini, yaşayış şəraitini daha da yaxşılaşdırmaqdan və gələcək nəsil üçün daha yaxşı həyat qurmaqdan ibarətdir. Əziz balalar, sizə bildirmək istəyirəm ki, bu, bizim və şəxsən mənim ali məqsədimdir. Bu məqsəd yolunda mən bundan sonra da durmadan çalışacağam.

Sizin borcunuz yaxşı təhsil, tərbiyə almaqdan, öz istedadınızdan səmərəli istifadə etməkdən, həyat fəaliyyətinə, gələcəyinizə yaxşı hazırlaşmaqdan, öz əxlaqınızla, təhsilinizlə, tərbiyənizlə valideynlərinizi, cəmiyyətimizi və bizi sevindirməkdən ibarətdir. Əziz balalarım, mən sizə bu arzularla müraciət edirəm.

Mən inanıram ki, Azərbaycanın bu gün yetişən gənc nəsli bütün keçmiş nəsillərdən daha da yüksəklərə qalxacaqdır. Çünki siz müstəqil Azərbaycanda, öz azad Vətəninizdə yaşayırsınız. Qarşımızda duran bu çətinliklər aradan götürüləndən sonra müstəqil, azad, sərbəst Azərbaycanın gələcək vətəndaşları olacaqsınız. Biz bu çətinlikləri aradan götürəcəyik. Həyat gündən-günə rahatlaşacaq, yaxşılaşacaqdır. Mən buna sizi tam əmin edirəm. Siz də çalışmalısınız bu həyatdan özünüz üçün daha da çox götürəsiniz ki, gələcəkdə müstəqil Azərbaycanın inkişafını yaradan, quran, təmin edənlər olasınız.

Mən sizinlə bugünkü görüşümdən çox xoşbəxtəm. Gözəl uşaqlarsınız, balalarsınız. Mən sizin hamınızı ən dərin sevgi və məhəbbət hissi ilə bir daha təbrik edirəm. Sizə səadət, daim şənlik arzulayıram. Sizə gələcək həyatınızda xoşbəxtlik arzulayıram.

Mən sizi öpürəm, qucaqlayıram, bağrıma basıram. Sizə yeni-yeni uğurlar arzulayıram.

Əziz balalar, bayramınız mübarək olsun!

BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞAQALA QAPILARI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

21 mart 1997-ci il

Əziz həmvətənlər, bacılar, qardaşlar! Əziz Bakı şəhərinin sakinləri!

Sizi Azərbaycan xalqının milli bayramı – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət, həyatınızda, bütün işlərinizdə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikasında Novruz bayramı ilbəil geniş vüsət alır, bizim qədim, əziz bayramımız kimi ölkəmizin ictimai-siyasi həyatında özünə layiq yer tutur və insanlara ruh verir, onları sevindirir, şadlandırır. Bu bayram hər bir azərbaycanlının, hər bir vətəndaşımızın əziz və sevimli bayramıdır. Bu bayram bizim ölkədə yaşayan hər bir insanın qəlbində, onun duyğularında olan bayramdır. Ona görə də bu bayram hər kəs üçün əzizdir. Bu bayramı hər kəs böyük sevinc və məhəbbət hissi ilə qeyd edir. Bu bayram ümumxalq, ümummillət, ümumölkə bayramına çevrilmişdir.

Bu bayram günlərində xalqımız Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının nə qədər qiymətli, hər bir şəxs üçün tarixi əhəmiyyətli bir hadisə olduğunu daha da dərindən dərk edir. Ona görə də bu bayram indi artıq Azərbaycanın dövlət müstəqilliyinin və milli azadlığının rəmzidir. Bu bayram ölkəmizin azadlığının, sərbəstliyinin rəmzidir. Bu bayram əmin-amanlığın, ictimai-siyasi sabitliyin rəmzidir. Bu bayram ölkəmizdə gedən hüquqi, demokratik, dünyəvi, sivil dövlət quruculuğunun rəmzidir. Bu bayram insan azadlığının rəmzidir. Bu bayram ölkəmizdə insan haqlarına, hüquqlarına olan yüksək hörmət və qayğının rəmzidir.

Bu bayram, yəni bu il keçirilən Novruz bayramı onu göstərir ki, Azərbaycanda dövlət müstəqilliyi artıq dönməz bir amil olubdur, bu müstəqillik gündən-günə möhkəmlənir, inkişaf edir. Bu bayram, Azərbaycanın hər bir guşəsində, hər bir ucqar ərazisində yüksək sevgi və məhəbbətlə keçirilən şənliklər onu göstərir ki, biz ölkəmizdə artıq daxili ictimai-siyasi sabitliyə nail olmuşuq. İnsanlar o ağır, əziyyətli günlərdən, daxili

toqquşmalardan, vuruşmalardan, atışmalardan, ədavətdən, ziddiyyətlərdən xilas olublar. İnsanlar rahat, sərbəst yaşayırlar, onların üzü gülür. İnsanlarda sevinc, nikbinlik, gələcəyə inam hissi gündən-günə artır.

3-4 il bundan əvvəl olan illəri, ayları, günləri xatirinizə salın. Həmin o illərdə də bu Novruz günlərini xatirinizə salın. Bu qədər dostluq, mehribanlıq, qarşılıqlı anlaşma, ünsiyyət var idimi? Yox idi. O vaxt insanlar dərd-qəm içində yaşayırdı. O vaxt insanlar bir-birinə şübhə ilə yanaşırdı. O vaxt insanlar bir-birindən qorxurdu. Ayrı-ayrı cinayətkar qruplar, dəstələr qanun-qaydanı, mənəviyyat prinsiplərimizi pozaraq zorakılıq edirdilər, insanları incidirdilər, insanların hüquqlarını tapdalayırdılar. Şübhəsiz ki, o zaman bayram belə ümumxalq bayramı, bu qədər sevinc, ruh yüksəkliyi gətirən bayram ola bilməzdi. Ona görə də bu ilki bayram şənlikləri son illərdə Azərbaycanın həyatında mütəmadi olaraq ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi, cəmiyyətdə sabitlik, rahatlıq yaradılması proseslərinin əməli nəticəsidir. Bu, bizi sevindirir və görürəm ki, siz də sevinirsiniz.

Azərbaycan televiziyası bir neçə gündür ki, respublikamızın müxtəlif şəhərlərində, qəsəbələrində, kəndlərində, ayrı-ayrı yerlərdə Novruz bayramı ərəfəsində keçirilən tədbirləri nümayiş etdirir, göstərir. Onlara baxdıqca, insanların üzlərində olan təbəssümü, gülüşü gördükcə, adamları dinlədikcə düşünürsən ki, həyatımızda nə qədər böyük dəyişikliklər baş veribdir!

Şübhəsiz ki, bunların hamısı Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, respublikamızda dövlət quruculuğu prosesinin əzmlə aparılması və xalqın, millətin, ayrı-ayrı insanların hüquqlarının qorunması sahəsində görülən işlərin nəticəsidir. Bunlar ölkəmizdə, xalqımızda günü-gündən artan milli həmrəylik, vətəndaşlıq həmrəyliyi hisslərinin yüksəlməsinin nəticəsidir. Bizim bu günümüzdə, bayram şənliklərimizin keçirilməsində hər bir vətəndaşın, hər bir kəsin xidməti vardır. Çünki ölkəni, xalqı bu qədər həmrəy etmək, bir-birinə yaxın etmək, bu qədər birləşdirmək mütləq və mütləq insanların hamısının istəyindən, rəyindən və onların fəaliyyətindən asılıdır. Ona görə də mən bu müqəddəs Novruz bayramı günü Azərbaycanda ictimai-siyasi vəziyyətin sabitləşməsi, insanlar üçün rahatlığın yaranması və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi yolunda səylərini qoymuş hər bir vətəndaşımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Şübhəsiz ki, bu hələ son həddi deyil. Ancaq eyni zamanda, bu onu göstərir ki, bütün daxili və xarici çətinliklərə baxmayaraq, bizim ölkəmiz

daha da rahat, sakit yaşaya bilər, insanlar bir-biri ilə daha da mehriban ola bilər, dostluq münasibətləri daha da yüksək ola bilər. Mən əminəm ki, əldə edilən bu nailiyyətlər əsasında biz hamımız birlikdə irəliyə gedəcəyik, müstəqil Azərbaycanın bayrağını daha da yüksəklərə qaldıracağıq, Azərbaycanı daha qüdrətli dövlətə çevirəcəyik, hər bir Azərbaycan vətəndaşı üçün daha da yaxşı yaşayış təmin olunacaqdır.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakı şəhərində, Bakının bu gözəl guşəsində Novruz bayramı şənliklərinə toplaşmışıq. Amma sizinlə birlikdə bilirik ki, bu gün Azərbaycanın hər bir guşəsində insanlar bayram şənlikləri keçirirlər. Novruz bayramı onları sevindirir, bir yerə toplayır, həmrəy edir. Bu şən, xoşbəxt günümüzdə biz son illər xalqımıza, millətimizə, ölkəmizə vurulan yaraları da unutmuruq. Yaralarımız ağırdır. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində torpaqlarımızın bir qismi işğal olunubdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşübdür, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Torpaqlarımızın müdafiəsi uğrunda şəhidlər vermişik. Azərbaycanın igid övladları özlərini qurban veriblər, şəhid olublar. Biz onların qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq. Bu Novruz bayramı günü biz sevinərək, bayram edərək, eyni zamanda onları xatırlayırıq, onların ruhuna dua edirik. Böyük Allahdan onlara rəhmət diləyirik.

Yerindən-yurdundan didərgin düşmüş bacı-qardaşlarımız çadırlarda ağır vəziyyətdə yaşayırlar. Onların maddi vəziyyətini, şəraitlərini müəyyən qədər yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik. Amma eyni zamanda, bizim xalqımızın ən yüksək mənəvi dəyərlərindən biri də odur ki, azərbaycanlılar heç vaxt əyilmirlər, sınmırlar, dözümlüdürlər. Bu gün o çadırlarda da, çadır şəhərciklərində də Novruz bayramı qeyd olunur, şənliklər keçirilir. İnsanlar öz müqəddəs bayramını yüksək əhval-ruhiyyə ilə keçirirlər.

Ona görə də mən çadırlarda yaşayan, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza, bacı-qardaşlarımıza bu gün buradan, sizin adınızdan, bütün Azərbaycan xalqı adından xüsusi bayram salamı göndərirəm, onları Novruz bayramı münasibətilə təbrik edirəm. Əmin edirəm ki, onlar bu ağır günlərdən xilas olacaqlar, xalqımız bu ağır günlərdən xilas olacaqdır.

Mən əminəm, inanıram ki, biz bütün bu ağır günləri ötüb keçəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Yerindən-yurdundan didərgin

düşmüş bacı-qardaşlarımız öz evlərinə, elinə-obasına, doğma torpaqlarına qayıdacaqlar. Azərbaycan öz sərhədləri çərçivəsində bütöv, vahid Azərbaycan kimi yaşayacaq, inkişaf edəcəkdir. Biz o günü görəcəyik. O gün uzaqda deyil, biz sadəcə dözməliyik.

Xalqımız dözümlü xalqdır. Xalqımız əsrlər boyu böyük, şərəfli yol keçərək, qəhrəmanlıq nümunələri göstərərək, dünyaya özünün milli mənliyini nümayiş etdirərək həmişə dözümlü olmuşdur, çətinliklərə, məhrumiyyətlərə, itkilərə, bəlalara, qarşısına çıxan cürbəcür xətalara dözmüşdür. Eyni zamanda, yüksək mənəvi xüsusiyyətləri xalqımızı bu ağır, çətin sınaqlardan həmişə çıxarmışdır. Bu illərdə də biz böyük bir sınaqdan keçirik. Əminəm ki, biz bu sınaqdan da çıxacağıq.

Torpaqlarımızı qoruyan, onun keşiyində duran Milli Ordumuz vardır. Qəhrəman övladlarımız, əsgərlərimiz müstəqil Azərbaycanın, onun torpaqlarının keşiyində dayanıblar, Ermənistan silahlı qüvvələrinin təcavüzünün qarşısını almaqdan ötrü torpaqlarımızın müdafiəsində durublar. Bu gün mən onları Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara cansağlığı, qüdrət arzulayıram. Əminəm ki, onlar müstəqil Azərbaycanın hüdudlarının, torpaqlarımızın qorunmasında bundan sonra da qəhrəmancasına duracaqlar və qəhrəmanlıq nümunələri göstərəcəklər.

Biz gələcəyə ümidlə baxırıq. Bizim hamımız nikbinlik hissi ilə yaşayırıq. Ona görə ki, Azərbaycan xalqının işi haqq işidir. Biz ədalət, haqq tələb edirik. Biz heç bir ədalətsiz yola getməmişik və getməyəcəyik. Bu haqq-ədalət də tələb edir ki, dünya birliyinə daxil olan müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunsun, onun beynəlxalq hüquq normaları tərəfindən tanınmış sərhədləri toxunulmaz olsun, bərpa edilsin və qorunsun. Dünya birliyi bizim səsimizi eşitməlidir və eşidir, səsimizə səs verir.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının keçən il Lissabonda keçirilən Zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar məsələnin müzakirəsində bütün ATƏT üzvləri (Ermənistandan başqa), ATƏT-ə daxil olan dövlətlərin başçıları Azərbaycanın bu haqq, ədalətli işini müdafiə etdilər. Bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün prinsiplər təsdiq olundu. O prinsiplər əsasında biz danışıqlar aparırıq və bu danışıqları bundan sonra da aparacağıq. Əminəm ki, bu danışıqlar nəticəsində məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Son illərin təcrübəsi də, keçdiyimiz yol da buna əsas verir.

Bilirsiniz ki, 1994-cü ilin may ayında Ermənistan–Azərbaycan hərbi münaqişəsindəki döyüşlərdə atəşkəs əldə olundu. Atəşi dayandırdıq. Artıq iki il on aydır ki, atəş yoxdur, qan tökülmür, şəhidlər yoxdur. Biz sülh və əmin-amanlıq şəraitində danışıqlar aparıb ölkəmizin hüquqlarını bərpa etməyə çalışırıq. Əminəm ki, bərpa da edəcəyik.

Mən bu gün – bizim xalqımız, millətimiz üçün müqəddəs olan Novruz bayramı günü bir daha dünyaya bəyan edirəm ki, Azərbaycan Respublikası bundan sonra da atəşkəs rejiminə riayət edəcəkdir. Biz hərbi əməliyyatların, döyüşlərin yenidən başlanmasını istəmirik və bunlara yol verməyəcəyik. Atəşkəs rejiminə riayət edəcəyik və torpaqlarımızın bu yolla, sülh yolu ilə azad olunmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə nail olacağıq. Mən ümidvaram ki, biz buna nail olacağıq. Ona görə ki, biz artıq bütün dünyaya sübut etmişik ki, Azərbaycan sülhsevər dövlətdir, bizim xalqımız sülhsevər xalqdır.

Biz dünyadakı bütün ölkələrlə, xalqlarla qarşılıqlı surətdə faydalı, mehriban dostluq əlaqələri yaradırıq və yaratmaq istəyirik. Biz bölgəmizdə, Qafqazda sülhün bərqərar olmasını istəyirik. Biz bütün qonşularımızla – Rusiya, İran, Türkiyə, Gürcüstan və başqa qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Bundan sonra da sülh və əmin-amanlıq şəraiti yaratmağa çalışacağıq.

Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşuq və bu əlaqələr də Azərbaycana öz faydalarını verir, beynəlxalq miqyasda, aləmdə respublikamızın hüquqlarını müdafiə edir və Azərbaycanın Dünya Birliyində özünə layiq yer tutmasına kömək göstərir. Bütün bunlar bizim siyasətimizin strateji istiqamətidir. Biz bundan sonra da bu istiqamətdə hərəkət edəcəyik. Eyni zamanda, torpaqlarımızın işğal altında qalmasına heç vaxt razı olmayacağıq. Biz heç vaxt torpağımızın bir qarışının da, bir metrinin də heç kəsə verilməsinə razı ola bilməyəcəyik. İşğal edilmiş torpaqlarımız azad olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Nəyin bahasına olursa-olsun, hansı yolla olur-olsun, biz buna nail olacağıq. Biz müstəqil Azərbaycan Respublikasını bundan sonra da inkişaf etdirəcəyik, yüksəklərə qaldıracağıq.

Bu günlər bizim Vətənimizdə, ölkəmizdə hökm sürən bayram əhvalruhiyyəsi, bu xoş dostluq münasibətləri, bu meydana toplaşan insanların üzündəki təbəssüm və xoş gülüşlərin hamısı onu göstərir ki, biz qarşımızda duran bütün çətinliklərin öhdəsindən gələcəyik. Biz bundan sonra da ölkəmizdə əmin-amanlığın təmin olunmasına çalışacağıq. Əminəm ki, biz artıq buna nail olmuşuq və olacağıq.

Mən bu bayram günü sizi bir daha təbrik edirəm. Sizin hər birinizə, hər bir ailəyə, hər bir Azərbaycan vətəndaşına səadət, xoşbəxtlik, uzun ömür arzu edirəm, bütün işlərinizdə uğurlar arzulayıram. Sizə, vətənimizə, xalqımıza, ölkəmizə sülh, əmin-amanlıq arzu edirəm. Sağ olun, var olun, xoşbəxt olun! Bayramınız mübarək olsun! Sağ olun.

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV LEOPOLDOVİÇ ROSTROPOVİÇƏ

Bakı şəhəri
27 mart 1997-ci il

Möhtərəm Mstislav Leopoldoviç! Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik və çoxşaxəli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

XX əsrin musiqi sənətində və ictimai həyatında müstəsna yer tutan şəxsiyyətiniz istər mədəniyyət xadimlərinin, istərsə də siyasətçilərin daim diqqət mərkəzindədir. Bu gün dünyanın ən sanballı simfonik orkestrləri Sizinlə birlikdə verdikləri konsertlərlə fəxr edir. Sizin Berlin divarları önündə və Moskvada Ağ evin qarşısındakı siyasi çıxışlarınız isə totalitarizmin bütün formalarına qarşı mübarizə rəmzinə çevrilmişdir.

Siz violonçel sənəti tarixinə bu alət haqqındakı təsəvvürü kökündən dəyişdirmiş bir ustad kimi əbədi daxil olaraq öz ifaçılıq, dirijorluq, bəstəkarlıq və pedaqoji fəaliyyətinizlə elə bir təzahürü nümayiş etdirə bildiniz ki, onu cəsarətlə Rostropoviç fenomeni adlandırmaq olar. Müxtəlif dövrlərin və xalqların Sizin ifanızda səslənən musiqisi ülvi bəşəri dəyərlərə sədaqəti ilə ürəkləri fəth edən əsil sənətin gücünü bir daha dünyaya göstərdi.

Dünya mədəniyyətini zənginləşdirən yaradıcılığınızla Siz sübut etdiniz ki, yalnız nadir istedadlar öz fitri qabiliyyəti, fədakar əməyi, musiqiyə hədsiz məhəbbəti sayəsində incəsənətin qüdrəti ilə dünyanın simasını dəyişdirməyə qadirdir.

"Mənən azad olmayan sənətkar yarada bilməz" müddəasını özündə əks etdirən yaradıcılıq əqidəniz insan haqlarının müdafiə olunması sahəsindəki fəaliyyətinizdə də öz ifadəsini tapmışdır. Sizin sənətin özü kimi zaman və məkan hüdudları bilməyən şəxsiyyətinizi Yer kürəsinin vətəndaşı olaraq formalaşdıran bir tərəfdən bəşəriyyətin müqəddəratı üçün hər bir şəxsin dərin məsuliyyət daşıdığını dərk etmək hissiniz, digər tərəfdən isə demokratiya və azadlıq ideallarına sonsuz sədaqətiniz olmuşdur.

Sənətdə hədsiz müasir olmaqla yanaşı Siz yaradıcılığınızda varisliyin novatorluqla bənzərsiz vəhdətinə nail ola bilmişsiniz. Təbii ki, burada valideynlərinizin də xidmətləri böyük olmuşdur. Sizin atanız professor

Leopold Vitoldoviç Rostropoviçin Azərbaycanda violonçel məktəbinin yaradılmasındakı böyük rolunu doğma şəhəriniz Bakıda minnətdarlıqla xatırlayırlar.

Respublikanın musiqi ictimaiyyəti valideynlərinizin və şəxsən Sizin Azərbaycan musiqiçilərinin bir neçə nəslinin yetişdirilməsi sahəsindəki fəaliyyətinizi yüksək qiymətləndirir.

Ədəbiyyat və mədəniyyət sahələrində bəşəriyyətə bir çox dühalar bəxş etmiş qədim Azərbaycan torpağı ləyaqətli oğlu kimi Sizinlə haqlı olaraq fəxr edir.

Sizi bağrıma basıram.

Səmimiyyətlə,

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DÖVLƏT TRETYAKOV QALEREYASININ KOLLEKSİYASINDAN İBARƏT SƏRGİDƏ ÇIXIŞ

R.Mustafayev adına İncəsənət Muzeyi
1 aprel 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Mən Tretyakov Qalereyasının 25 cildlik kitablar külliyyatından qədim rus rəngkarlığına dair birinci cildi lütfkarlıqla mənə hədiyyə etdiyinə görə, habelə Tretyakov Qalereyası əsərlərinin Bakıda sərgisinə görə Dövlət Tretyakov Qalereyasının direktor müavini Raisa Litvinovaya təşəkkürümü bildirirəm və hesab edirəm ki, bu sərgini əsil mənada böyük hadisə adlandırmaq olar. Çünki heç də sirr deyildir ki, şedevr olan Tretyakov Qalereyasına getməyə heç də hər kəsin imkanı yoxdur.

Tretyakov Qalereyası ilə bağlı mənim çoxlu xatirələrim vardır. Mən hələ çox gənc olarkən və Moskvaya ilk dəfə gələrkən birinci getdiyim yerlərdən biri Tretyakov Qalereyası idi. Mən bütöv bir günümü ona həsr etdim. Sonralar bu qalereyaya dəfələrlə gedərək, gözəl əsərlərdən həzz aldım. Tretyakov Qalereyasındakı əsərlərin qorunub saxlanmasına öz kiçik töhfəmi qeyd etmək istəyirəm. Mən Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən və mədəniyyətə, incəsənətə kuratorluq edərkən indi mərhum Korolyov, – o, uzun illər Tretyakov Qalereyasının direktoru olmuşdur və aramızda xoş münasibət vardı, – bütün əsərlərin qorunub saxlanması və depozitari tikilməsi barədə məsələ qaldırdı. Odur ki, sizdən xahiş edirəm unutmayasınız ki, depozitari tikilməsi haqqında qərarı Nazirlər Sovetində mən qəbul etdim, onun həyata keçirilməsinin gedişini nəzarət altında saxladım. O vaxtlar depozitarinin tikilməsi üçün Finlandiyadan avtomaşınlarla inşaat materialları, konstruksiyalar gətirildi. Tretyakov Qalereyasının otaqlarını yenidən qurmaq və genişləndirmək üçün bizim böyük bir planımız vardı. Lakin sonra mən çıxıb getdim. Buna baxmayaraq, işin bünövrəsi mənim iştirakımla qoyulmuşdur.

Hörmətli Raisa Litvinova təmirdən sonra bu yaxınlarda açılan Tretyakov Qalereyasına məni dəvət etdi, habelə bildirdi ki, qalereyanın Qəyyumlar Şurasına Azərbaycanda Rusiya mədəniyyət günlərinin sponsoru olan "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov da daxildir. Mən bu dəvətin cavabında deyirəm: şadam ki, depozitarinin tikintisinə mən başlamışam. Həmvətənim Vahid Ələkbərov isə Qəyyumlar Şurasının üzvü kimi Tretyakov Qalereyasına himayəçilikdə mənim işimi davam etdirir.

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI, MƏRASİMİNDƏN SONRA ONUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ

Respublika Sarayı
1 aprel 1997-ci il

Mən sizin hamınızı, Azərbaycanda Rusiya mədəniyyəti günlərini açan gözəl çıxışlarınız münasibətilə təbrik edirəm. Bu çıxışlar bir daha göstərdi ki, Azərbaycanda Rusiya ədəbiyyat və incəsənət ongünlüyündən sonra iyirmi beş il ötsə də, son illərin kəşməkeşlərinə və çətinliklərinə baxmayaraq, məhəbbət, qarşılıqlı anlaşma, dostluq, hörmət hissləri qalmışdır.

Mən sizə – bugünkü konsertin iştirakçılarına Rusiyanı yüksək məharətlə və layiqincə təmsil etdiyinizə görə ürəkdən təşəkkür edirəm. Bütün Azərbaycan xalqı adından Rusiyanın mədəniyyət xadimlərinə, Rusiyaya, rus xalqına, rus mədəniyyətinə dərin ehtiram hisslərini çatdırıram.

Yüksək incəsənəti başa düşən, duyan Azərbaycan tamaşaçılarının Rusiya artistlərini çox yaxşı anlaması məni ürəkdən sevindirir. Azərbaycanda Rusiya mədəniyyəti günləri başlanmasından çox məmnun qaldığımı bildirir və əmin olduğumu söyləyirəm ki, mədəniyyət günləri uğurla keçəcək, ölkələrimiz, xalqlarımız arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə olacaqdır.

Mən vaxtilə Sovet İttifaqı hökuməti rəhbərlərindən biri olduğum illərdə mədəniyyətin inkişafına, yaradıcı ziyalıların dəstəklənməsinə göstərdiyim səylərə görə Rusiyanın xalq artisti Svetlana Bezrodnayanın mənim ünvanıma söylədiyi xoş sözlərə görə təşəkkürümü bildirir və sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ VAXTANQOV ADINA MOSKVA AKADEMİK TEATRININ SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRINDA D. KİLTİNİN "ƏZİZ YALANÇI" TAMAŞASI QURTARDIQDAN SONRA MOSKVALI QONAQLARLA SÖHBƏTDƏN

5 aprel 1997-ci il

Mən şadam ki, bizdə Rusiya mədəniyyəti günləri keçirilir. Həqiqətən, 25 il əvvəl burada ilk dəfə olaraq geniş miqyasda Rusiya mədəniyyəti günləri keçirildi və bu tədbir çox yadda qalan tədbir oldu. Sonrakı illərdə də teatrların, konsert qruplarının, ayrı-ayrı kollektivlərin Azərbaycanda vaxtaşırı qastrolları olmuş, kino festivalları keçirilmişdir. Amma 1989–1990-cı illərdən başlayaraq əlaqələrimiz zəiflədi. Son iki-üç ildə biz bu əlaqələri bərpa etməyə, canlandırmağa və itirilmiş nə varsa, onların yerini doldurmağa çalışırıq. Bizə elə gəlir ki, bunu etmək mümkün olacaqdır.

Sabah mədəniyyət günləri başa çatır, yekun konserti olacaq. Buraya gəldiyinizə görə sizə təşəkkür edirəm. Bu günlərdə təkcə Bakıda deyil, Rusiya incəsənət xadimlərinin getdikləri bütün şəhərlərdə hər şey əla keçmişdir. Bu da sübut edir ki, əlaqələrimizi kəsmək olmaz. Münasibətlərimizin müəyyən dərəcədə zəiflədiyi ötən bu illərdə rus və Azərbaycan xalqları arasında uzun illərdən, onilliklərdən və əsrlərdən bəri adamlarda yaranmış dostluq və hörmət hisslərini məhv etmək olmaz. Azərbaycanlılarda bu hisslər Rusiyaya, rus xalqına, rus adamına xoş, dostluq, qardaşlıq münasibətləridir.

Bugünkü tamaşa iki aktyorun qavrayış üçün heç də asan olmayan bir tamaşasıdır – bu, qeyri-adi tamaşadır. Bir flkir verəydiniz, salondakılar necə diqqətlə tamaşa edir və sizi necə səmimi qarşılayırdılar. Bu da təbiidir. Bu alqışlar sizin şəxsiyyətinizə aiddir. Sizinlə, belə görkəmli incəsənət ustaları ilə görüş böyük fərəhdir. Sizi teatrdan, kinodan tanıyırlar. Sizi bir il deyil, on illərdir sevirlər. Bu təbiidir. Belə görüş sizin şəxsiyyətinizə, istedad və sənətinizə dəlalət edir. Lakin bununla yanaşı, bu alqışlar rus mədəniyyətinə, Rusiyaya da ünvanlanmışdır. Çox sağ olun.

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN BAĞLANMASI MƏRASİMİNDƏN SONRA RUSİYA ARTİSTLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika Sarayı
6 aprel 1997-ci il

Çox maraqlı yekun konserti proqramı ilə çıxış etdiyinizə görə sizə ürəkdən təşəkkür edirəm. Hesab edirəm ki, sizin çıxışlarınızın qızğın alqışlarla qarşılanması rus mədəniyyətinə, Rusiyaya, rus xalqına Azərbaycan xalqının bəslədiyi hisslərin parlaq sübutudur. Siz yüksək incəsənət, Rusiyanın mədəniyyətini nümayiş etdirdiniz. Bugünkü yekun konserti dərin təəssürat buraxdı. Azərbaycan tamaşaçısı sizdən ötrü darıxmışdı, siz xalqımıza çox böyük zövq verdiniz. Mən sizlərdən çoxunuzu şəxsən tanıyıram və bu görüşə gəldiyiniz üçün, burada çıxış etdiyiniz üçün, Azərbaycan və rus xalqları arasında, Azərbaycan ilə Rusiya arasında dostluq əlaqəsinin daha da möhkəmlənməsinə çox böyük töhfə verdiyiniz üçün sizə dərin minnətdarlığımı bildirməyimə şadam. Sağ olun.

TÜRKİYƏNİN TANINMIŞ MÜĞƏNNİSİ ƏBRU GÜNDƏŞİN KONSERTİNDƏN SONRA AİLƏSİ İLƏ BİRLİKDƏ ONUNLA SÖHBƏTDƏN

Respublika Sarayı
13 aprel 1997-ci il

Çox gözəl konsert verdiniz, mən sevindim və konsertinizi bəyəndim. Gördünüz ki, salondakılar da çox bəyəndilər.

Əbru Gündəş: Sevil xanım öz mahnısının ifasını bəyəndimi?

Sevil Əliyeva: Bəli, çox sağ olun, bəyəndim.

Heydər Əliyev: Sevil xanım da, mən də bəyəndim. Siz bu mahnını çox gözəl ifa etdiniz. Konsert bütünlüklə çox gözəl idi. Sizin orkestriniz də çox gözəldir. Azərbaycana ilk dəfədir gəlirsiniz?

Əbru Gündəş: Bəli, Azərbaycana ilk dəfədir gəlirəm.

Heydər Əliyev: Sizi Azərbaycanda görməkdən çox məmnunam. Təşəkkür edirəm ki, gəldiniz, bizim insanlarla görüşdünüz, onları öz sənətinizlə, gözəl şərqilərinizlə sevindirdiniz.

Əbru Gündəş: Cənab prezident, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Azərbaycana gəlmək, Sizinlə görüşmək mənim üçün şərəfdir və çox gözəldir. İnşallah, təkrar qonaq gələrəm.

Heydər Əliyev: Ürəyiniz istədiyi vaxt gəlin.

Əbru Gündəş: Sağ olun, təşəkkür edirəm.

MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ "ELEGİYA" ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

Bakı İncəsənət Mərkəzi
15 aprel 1997-ci il

Hörmətli dostlar!

Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir o mənada ki, Zərifə xanım 12 ildir bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün bizim buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda, bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir. Ona görə də bu, bizim respublikamızın mədəniyyətində, heykəltəraşlıq, incəsənət sahəsində yeni bir əsərin meydana çıxmasını nümayiş etdirir.

Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl həqiqətən böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu çox illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin demək olar ki, hamısı ilə tanışam. Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltəraşlıq sahəsindəki xidmətləri bu fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyirəm. Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

Məlumdur ki, bizim xalqımızın keçmiş tarixində, mədəniyyət tarixində heykəltəraşlıq olmamışdır. Bu, bizim dini, mənəvi ənənələrimizlə bağlı olmuşdur. Azərbaycanda heykəltəraşlıq məktəbi demək olar ki,

XX əsrdə yaranmış və bu əsrdə çox böyük sürətlə inkişaf etmişdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının ərazisində, ölkəmizin muzeylərində, şəhərlərində, o cümlədən, xüsusən Bakıda meydanlarda, bağçalarda, parklarda çox dəyərli heykəltəraşlıq əsərləri qoyulmuşdur. Bunlar bizim mədəniyyətimizə, memarlığımıza, incəsənətimizə böyük yenilik gətirmişdir.

Bu illər ərzində bizim böyük heykəltəraşlarımız yaranmışdır. Bu gün onların heykəllərinə baxarkən xalqımız bunları qiymətləndirir, xatırlayır. Fuad Əbdürrəhmanov gözəl əsərlər yaradıbdır. Cəlal Qaryağdı, Tokay Məmmədov və başqaları da həmçinin. Biz sevinməliyik ki, heykəltəraşlarımız çoxdur. Bu görkəmli Azərbaycan heykəltəraşları içərisində Ömər Eldarov xüsusi yer tutur – həm yaratdığı əsərlərin bədiiliyinə, yüksək təsirliyinə, gözəlliyinə görə, eyni zamanda, öz sənəti sahəsində çox məhsuldar işinə görə.

Ömər Eldarov nə qədər yüksək səviyyəli heykəltəraşdırsa, o qədər də zəhmətkeş, fədakar və işgüzar bir adamdır. O, daim çalışır, işləyir. Mən vaxtilə, hələ çox illər bundan əvvəl Ömər Eldarovun emalatxanasında olmuşam. Orada onun nə qədər çox heykəltəraşlıq eskizlərinin, işlərinin nümunələrini görmüşəm, cürbəcür heykəllərin hazırlanması ilə əlaqədar hazırlıq işlərini əks etdirən əlamətləri görmüşəm. Bunlar həddindən artıq idi. Yenə də deyirəm, bir, iki, üç böyük və gözəl heykəl yaradan heykəltəraşlar da tarixdədirlər. Qədim yunan, İtaliya, Avropa, Rusiya və Qərb ölkələrinin heykəltəraşları bizə məlumdur.

Onların bir çoxu iki-üç əsəri ilə məşhurluq əldə etmişlər, əsrlər boyu sayılırlar, yeni gələn nəsillər tərəfindən qiymətləndirilirlər. Hesab edirəm ki, Ömər Eldarov belə heykəltəraşlardan biridir. Amma onu dünyanın ən məşhur heykəltəraşlarından, onların bəzilərindən fərqləndirən cəhət bir də bundan ibarətdir ki, o, həddindən artıq işləyir və çox əsərlər yaradıbdır.

Azərbaycanın görkəmli mədəniyyət, incəsənət xadimlərinin, ədəbiyyatımızın görkəmli simalarının, ictimai xadimlərin heykəllərinin əksəriyyətini yaradan Ömər Eldarovdur. Ona görə də mən bu günü eyni zamanda, heykəltəraş Ömər Eldarovun yaradıcılığı ilə bağlı olan bir gün hesab edirəm. O, yaratdığı əsəri, nəhayət, bu gün nümayiş etdirərkən mən onun bütün yaradıcılığına öz münasibətimi bildirmək istəyirəm və bildirməyə çalışaram.

Azərbaycan dövlətinin başçısı kimi, bəlkə də bu mərasim mənim üçün şəxsi xarakter daşıyır. Ancaq bu fürsətdən istifadə edib, Azərbaycan dövlətinin başçısı kimi mən Ömər Eldarova onun böyük yaradıcılığına,

Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərə və yaratdığı dəyərli, hesab edirəm, ölməz əsərlərə görə təşəkkürümü bildirirəm.

Bu gün önünə toplaşdığımız heykəl isə mənim üçün çox əziz olan bir insanın surətini əks etdirən heykəldir. Ömər Eldarov burada onun yaranma tarixi haqqında danışdı. Ancaq bu gün xatirə günü olduğuna görə mən də xatirələrimin bəzi məqamlarına toxunmaq istəyirəm.

Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir. Burada heç bir şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq, ailəyə baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə, ailəmiz çox həssas ailə olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağır olmuşdur. Bunun üstündən 12 il keçibdir. Biz bu gün də razılaşa bilmirik ki, biz onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində daim yaşayacaqdır.

Şübhəsiz ki, Zərifə xanımın vəfatından sonra onun Moskvada, Novodeviçye qəbiristanındakı məzarının üstündə abidə yaranması mənim və övladlarımın arzusu olmuşdur. Bilirsiniz ki, Moskvada da heykəltəraşlar çoxdur və çox görkəmli heykəltəraşlar vardır, bunu qeyd etmək lazımdır. Bizim Azərbaycanın heykəltəraşları da – adını çəkdiklərimin də, çəkmədiklərimin də əksəriyyəti, etiraf etmək və minnətdarlıq hissi ilə demək lazımdır ki, Rusiya heykəltəraşlarının təsiri altında yaradıcılıq yolunu keçiblər, onların tələbələri olublar və onlardan aldıqları dərs və təcrübə nəticəsində formalaşıb böyük heykəltəraş olublar.

Ömər Eldarovun özü də keçmiş Sovetlər İttifaqında, Rusiyada, Moskvada heykəltəraşlar içərisində çox yüksək qiymətə layiq olan bir heykəltəraş idi. Ona görə də təsadüfi deyildir ki, Ömər Eldarov o vaxt Sovetlər İttifaqı Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir, – indi bu, Rusiyanın akademiyasıdır. Məlumdur ki, həmin akademiyada seçkilər çox ciddi aparılırdı. O vaxt Sovetlər İttifaqında olan çoxsaylı heykəltəraşlardan az-az sənətkar belə bir ada layiq görülürdü. Onlardan biri bizim azərbaycanlımız, soydaşımız Ömər Eldarovdur.

Onu demək istəyirəm ki, Moskvada heykəltəraşlar çox idi. Onların əksəriyyəti mənim yaxın tanışlarım, dostlarım idi. Mən vaxtilə Azərbaycanda da, Moskvada da işləyərkən onlarla yaxın təmasda olmuşdum. Şübhəsiz, Moskva heykəltəraşları tərəfindən bir neçə təklif gəldi ki, onlar mənə kömək etmək, bu arzumu yerinə yetirmək istəyirlər. Amma bun-

ların hamısını nəzərdən keçirəndən sonra fikirləşdim ki, mənim istədiyim bu abidənin müəllifi mütləq azərbaycanlı, öz həmvətənim olmalıdır. Həmvətənlərim içərisindən də Ömər Eldarovu seçdim. Onu Moskvaya dəvət etdim, o vaxt görüşdük, söhbət etdik. İlk söhbətlərimiz rəssam Tahir Salahovun iştirakı ilə gedirdi. Xatırlayıram, biz Kremldə də, mənim yaşadığım xüsusi villada da söhbət etdik. Beləliklə, birgə yaradıcılıq işinə başladıq.

Şübhəsiz ki, mən Ömər Eldarova öz arzularımı bildirdim. O isə bir usta, incəsənət xadimi, heykəltəraş kimi mənim bu arzularımı necə yerinə yetirəcəyi barədə düşünərdi, onu ölçərdi-biçərdi. Çünki həqiqi incəsənət əsəri yaratmaq çox çətin işdir. Hər bir adam həqiqi rəssamın yaratdığı rəsm əsərini yarada bilməz. Hər bir adam həqiqi bəstəkarın bəstələdiyi musiqini bəstələyə, yarada bilməz, onun müəllifı ola bilməz. Hər bir adam böyük şairin, yazıçının yazdığı əsərlər kimi əsərlər yarada bilməz. Şübhəsiz ki, hər bir adam yüksək istedada malik musiqiçi ola bilməz. Eləcə də hər bir adam Ömər Eldarov kimi və başqa heykəltəraşlar kimi heykəltəraş ola bilməz. Bunun üçün xüsusi bir istedad, bilik, təcrübə, xüsusi daxili, fitri istedad lazımdır.

Ona görə də, ola bilər, hər birimiz, o cümlədən mən də arzu edim, tövsiyəmi verim, ancaq həqiqi incəsənət ustası istənilən, arzu edilən o incəsənət əsərini yaratmaq üçün gərək bunu öz daxili aləmindən keçirsin, gərək bunu özü dərk etsin. Ona görə də Ömər Eldarov da çox düşündü və həqiqətən bir çox hazırlıq işləri gördü, eskizlər hazırladı. Bizim bir neçə görüşümüz oldu, nəhayət, bunların nəticəsində Ömər Eldarov bu gün nümayiş etdirilən heykəlin eskizini hazırlayıb mənə təqdim etdi. Mən eskizi bəyəndim və xahiş etdim ki, o, bunu icra etməyə başlasın.

Görürsünüz, bu, adi bir əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda, o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini – bu əsərində həyata keçirə, tətbiq edə bilibdir.

Bu, heykəltəraşlıq əsəri kimi mürəkkəb əsərdir. Çünki burada heykəltəraş üçün, xüsusən daş, ağ mərmər üzərində işləyən heykəltəraş üçün çox çətinliklər vardır. Görürsünüz, bu heykəlin çox incə, nazik, zərif fraq-

mentləri vardır. Yenə də deyirəm, bunların hamısı bir tərəfdən bir heykəltəraş kimi Ömər Eldarovun əsərinin dəyərini nümayiş etdirir, amma eyni zamanda, mənim üçün bu, mücərrəd əsər deyil. Deyə bilərəm ki, Zərifə xanımın mərhum ata-anası da bəlkə onu mənim kimi tanımayıblar. Ona görə də mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsərdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltəraşlıq səviyyəsini nümayiş etdirir.

Şübhəsiz, mənim fikrim var idi ki, bu heykəli Moskvada Zərifə xanımın qəbrinin üstündə yerləşdirək. Ancaq əsər hazır oldu, – indi keçən günləri xatırlayıram, – mənim üçün problem oldu ki, bunu necə gətirim. O vaxt bunların hamısı mənim üçün böyük çətinlik yaradırdı. Sonra necə olsun, gələcək necə olacaq?

Bunların hamısı mənim qarşımda duran məsələlər idi. Ona görə də mən Ömər Eldarova bildirdim ki, təşəkkür edirəm, ancaq bu əsəri saxla, yəqin, bir zaman gələcək. Dünya elə idi ki,bu gündən sabaha ümid yox idi. Mənim özüm də bu işi axıra çatdırmasam, övladlarımdan kimsə bunu axıra çatdıra biləcək. Ömər Eldarov bu əsəri həqiqətən bu illər müddətində – bu gün burada dedi ki, səkkiz ildir – öz emalatxanasında qorudu, saxladı.

Mən Bakıya gələndən sonra dəfələrlə emalatxanaya gedib, saatlarla heykəlin qarşısında durub, ona həmişə böyük heyranlıqla tamaşa etmişəm. Bilirsiniz ki, mənim heyranlığımın bir tərəfi Zərifə xanımın xatirəsi idisə, ikinci tərəfi həqiqətən bu əsərin incəsənət, heykəltəraşlıq nöqteyinəzərindən yüksək keyfiyyətə malik olması idi. 1994-cü ildə Zərifə xanımın cənazəsini Moskvadan Bakıya gətirəndən sonra isə yeni bir mərhələ başlandı ki, bunu harada qoyaq? Ancaq Ömər Eldarov fikirləşdi, mənə məsləhət verdi, mən də onun məsləhətinə qulaq asdım ki, bu əsər həqiqətən elə bir əsərdir ki, ola bilər, heykəltəraşlıq, incəsənət əsəri kimi onu muzeydə qoruyub saxlamaq lazım olsun. Mən də buna razılıq verdim. Bu, 1994-cü ildə olan söhbətdir. Qəbrin üzərinə həmin heykəl əsasında tuncdan hazırlanmış heykəl qoyuldu. Bu əsər isə yenə də Ömər Eldarovun emalatxanasında qaldı. Nəhayət, bu yaxın vaxtlarda mənə xəbər verdilər ki, Ömər Eldarov deyir, onu daha bu qədər saxlamaq olmaz, onu göstərmək, nümayiş etdirmək istəyirəm, çünki bu mənim əsərimdir.

Beləliklə də, bu gün biz buraya toplaşmışıq.

Bu heykəlin hazırlanması üçün Ömər Eldarov məndən xahiş etdi ki, yüksək keyfiyyətli ağ mərmər lazımdır, Azərbaycanda da bu yoxdur. O

vaxt mənim Moskvada imkanım var idi. Bilirsiniz ki, bu mərmər bütövdür, bir hissədən ibarətdir, ayrı-ayrı hissələrdən ibarət deyil. Ömər Eldarov da bunu xahiş etmişdi.

Mən həyatımda iki dəfə belə hadisə ilə rastlaşmışam. Biz Cəfər Cabbarlının heykəlini yaradırdıq. Onun müəllifi, indi burada olan Mirqasımov məsələ qoydu ki, bu heykəli yaratmaq üçün gərək elə böyük qranit gətirəsiniz ki, bütöv olsun, heç bir parça olmasın. O vaxt mən burada işləyirdim. Gəlib mənə dedilər ki, bu mümkün deyildir. Mirələsgər Mirqasımov öz xanımı ilə, – o da buradadır, – mənim yanıma gəlib dedilər ki, əgər belə olmasa, biz bu heykəli qoymayacağıq. Şübhəsiz, mən də istəyirdim ki, Cəfər Cabbarlının heykəlini yaradaq və yaratdıq, bilirsiniz – şəhərin gözəl bir guşəsində qoyduq. Çox gözəl bir heykəltəraşlıq əsəridir. Amma o vaxt mən tədbir gördüm və Ukraynada belə böyük qranit tapıldı. Siz onu görmüsünüz, rəngini də görmüsünüz.

Bu gün biz xatirə gecəsinə toplaşmışıq, ona görə bəzi xatirələri yada salmaq lazımdır. Mənə dedilər ki, bu həcmdə qranit tapılıb, ancaq vaqona qoyub gətirmək mümkün deyildir. Çünki elə bir vaqon tapmaq mümkün deyil ki, bu ağırlığa dözsün. Onu mütləq parçalamaq lazımdır. Yenə də Mirələsgər Mirqasımovun tələbləri mənim qarşımda durdu və mən də dedim ki, yox, nə edirsiniz – edin, vəzifə yerinə yetirilməlidir. Biz buna nail olduq. O heykəlin qoyulmasından neçə il keçir? 1980-ci ildə qoyulub? 1981-ci ildən 16 il keçir ki, biz o heykəli qoymuşuq. Hesab edirəm ki, Cəfər Cabbarlıya layiq olan heykəl Bakının gözəl guşələrindən birində yüz illər yaşayacaq və bizdən sonra gələn nəsillər də birinci növbədə Mirələsgər Mirqasımova dua edəcəklər. Ola bilər duanın bir hissəsi də bizə çatsın.

Hər halda, bilirsiniz, rəssam, heykəltəraş – incəsənət ustası öz istəyini yerinə yetirmək istəyəndə, – əgər bu istək doğrudan da yeni bir əsərin yaranmasına kömək edəcəksə, – bunu etmək lazımdır. Dövlət adamlarının, dövlət işində olan insanların borcu odur ki, bunu etsinlər. O vaxt mən bunu etdim və öz həyatımda gördüyüm çoxsaylı işlərin ən dəyərlilərindən biri hesab edirəm. Cəfər Cabbarlı 1934-cü ildə vəfat etmişdir. Mən bunu bir dəfə demişəm, – Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir. Bunu hamımız bilirik, amma onun abidəsini 1981-ci ildə biz qoyduq. Onun yaşadığı binada ev-muzeyini 1981-ci ildə biz yaratdıq. Mən bu işlərlə fəxr edirəm.

Bundan sonra ikinci dəfə idi mənə heykəltəraş müraciət etdi ki, gərək böyük həcmli ağ mərmər tapılsın. Bu dəfə mənim imkanlarım 1980–1981-ci illərdə olandan çox idi və ağ mərmərin tapılıb Bakıya göndərilməsini təmin etdim. Ancaq Ömər Eldarov da çox cəld hərəkət elədi. O qədər çox sifariş vermişdi ki, mən də hamısını icra etdim, onun xahişlərini yerinə yetirdim. Beş blok mərmər buraya gətirildi. Sonra bunu da biləndə çox məmnun oldum. Çünki mənim buraya göndərdiyim ağ mərmərlərin bir bloku Zərifə xanımın indi gördüyümüz heykəlinin yaranması üçün istifadə olunubsa, o birilərindən Ömər Eldarov bizim hamımız üçün, xüsusən mənim üçün çox əziz olan insanların – Fikrət Əmirovun, Niyazinin gözəl heykəllərini yaradıbdır. O biriləri bilmirəm harada istifadə eləmisən – özün bilərsən. Amma Niyazi ilə Fikrət Əmirovun heykəllərini mən bilirəm.

Ömər Eldarov: Müslüm Maqomayevin abidəsi.

Heydər Əliyev: Müslüm Maqomayevin heykəli, tamamilə doğrudur. Vaxtilə, bizdən qabaq Fəxri xiyabanda onun qəbrinin üstündə gipsdən heykəl qoymuşdular, yadınızdadırmı? O da uçub dağılırdı. Biz Müslüm Maqomayevin 100 illik yubileyini qeyd edəndə mən dedim ki, heykəli dəyişmək lazımdır və dəyişdik. Filarmoniyanın qarşısında da büstü qoyuldu. Çox gözəl büstdür.

Beləliklə, mən bu işlərimlə o vaxt Ömər Eldarovun da yeni-yeni əsərlər yaratmasına kömək etdim. Eyni zamanda, onlardan biri də Zərifə xanımın heykəlinin yaranmasına sərf olunubdur.

Bu işlərin görülməsində çox adamlar iştirak ediblər, hamısına təşəkkür edirəm. Ancaq xüsusi xidmətləri Rəfael Allahverdiyev göstəribdir, o vaxt Ömər Eldarovla sıx əməkdaşlıq edibdir. Bilirsiniz ki, 1987-ci ildə mən böyük vəzifələrdən istefa verəndən sonra həyatımda qaranlıq bir dövr yarandı. O dövrdə Rəfael Allahverdiyevi də burada tutduğu vəzifədən çıxardılar. Ancaq Ömər Eldarovla o, bu işə sadiq qaldılar, bütün təzyiqlərə, təqiblərə baxmayaraq, bu işi birlikdə apardılar və heykəli 1989-cu ildə hazırladılar. Xatırlayın, o illər mənim həyatım üçün çox ağır illər idi. O mənada ağır ki, mənə qarşı ədalətsiz ittihamlar, böhtanlar, keçmiş fəaliyyətimi ləkələmək məqsədi ilə cürbəcür hərəkətlər xatirinizdədır. Amma o vaxt Ömər Eldarov da, Rəfael Allahverdiyev də mənəviyyata sadiq olduqlarını göstərdilər və o sınaqlardan keçdilər. Mən təkcə bu işi gördüklərinə görə yox, sədaqətlərinə görə onlara – Ömər Eldarova da, Rəfael Allahverdiyevə də təşəkkür edirəm. Sonra Ömər Eldarov bu heykəlin rəsmlərini gətirib mənə göstərdi. Həqiqətən, mən

ona məsləhət verdim ki, bir albom yaratsın. Məni düzgün başa düşün, ona görə yox ki, bu, Zərifə xanımın heykəlidir. Ona görə ki, bu, həqiqətən çox dəyərli bir əsərdir, heykəltəraşlıq əsəridir. Bu heykəltəraşlıq əsərini bir fikirlə nümayiş etdirmək mümkün deyildir.

Ömər Eldarov bilir, bəzi başqaları da bilir, mən keçmişdə memarlıq fakültəsində təhsil almışdım. O illərdə, gənc yaşlarımda mən ayrı-ayrı memarlıq əsərlərinin, həmçinin antik yunan heykəllərinin, yaxud da Romada, İtaliyada yaranmış heykəllərin fraqmentlərinin şəkillərini görmüşəm. O vaxt bizim müəllimlərimiz, – vaxtilə mənim heykəltəraş, memar müəllimlərim də olub, – bu albomlar əsasında bizə dərs verirdilər, bunlar hamısı mənim xatirimdədir. Ona görə də mən Ömər Eldarova dedim ki, belə təcrübələr var. Belə bir albom yarat, bu, sənin əsərini tam nümayiş etdirəcəkdir. Ola bilər, əsərin bir-iki şəkli olsun. Amma indi hazırladığın həmin albomda bu əsər çoxcəhətli, çoxtərəfli, çoxsahəli əks olunmuşdur. Çünki onun hər bir nöqtəsinin özünəməxsus heykəltəraşlıq xüsusiyyəti var. Ömər Eldarov bunu da edibdir, bu gün təqdim edir. Buna görə də mən çox məmnunam.

Ömər sənə bir daha, xüsusən bu əsərinə görə təşəkkür edirəm. Səni təbrik edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra daha yeni, daha gözəl heykəllər, əsərlər yaradacaq, Azərbaycan mədəniyyətinə çox xidmətlər göstərəcəksən və Azərbaycanın monumental sənətinə öz töhfələrini verəcəksən. Sənin hələ böyük imkanların var. Təşəkkür edirəm. Səni təbrik edirəm.

Sizə də təşəkkür edirəm ki, Ömər Eldarovun dəvətini qəbul edib bugünkü görüşə gəlmisiniz. Güman edirəm ki, bu əsər, şübhəsiz ki, bir muzeydə olmalıdır. İncəsənət əsəri kimi muzeydə olmağa onun haqqı var. Sağ olun, təbrik edirəm.

* * *

... Mənim xatirimdən çıxdı, Ömər burada Nosovun adını çəkdi, o, çox iş işləmişdir. Mən yaxşı bilirəm ki, Nosov çox iş görmüşdür, onu o vaxt Leninqraddan dəvət etmişdik. Ancaq Ömər özü çəkiclə çox işləmişdir. Heykəltəraş kimi, Ömərin bir xüsusiyyəti də ondan ibarətdir ki, özü həm yaradır, həm də fəhləlik işini görür. O, həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlədir. Çox, həddindən artıq nadir bir insandır. Çünki bəzən böyük rəssamlar, heykəltəraşlar əsərin ümumi konsepsiyasını, kompozisiyasını verirlər, sonra onların köməkçiləri bu işi başa çatdırırlar. Amma bu adam bilavasitə özü işləyir. Bunların hamısını

incəliklərinə qədər yonmaq nə qədər çətin işdir! Bu, daşdır, mərmərdir, amma elə bil ki, parçadır. Mərmərə, daşa bu qədər incəlik vermək böyük məharətdir, böyük ustalıqdır. Mənəviyyatca pak, təmiz insanlar həmişə yüksək zirvələrə qalxıblar. Ömər Eldarov belə insanlardan biridir. Ona görə yox ki, sən bunu etmisən, bu mənim əziz adamımdır. Mən səni 20-30 ildir tanıyıram, o illərdə də sənin əsərlərin haqqında bu sözləri demişəm. İndi yaradıcılığının lap yüksək zirvəsinə çatanda bunu yaratmısan, amma o illərdə yaratdıqlarının hamısı barədə mən öz sözümü demişəm. Bu abidəyə gəldikdə isə, Zərifə xanımın xarakterini başqa bir adam açа bilməzdi. Mən isə Ömər Eldarovu tanıyıram, – o, sınaqdan çıxmış adamdır. Mənə başqa təkliflər də olmuşdu, onlarla görüşmüşdüm də, ancaq Ömərin yerini verə bilməzdilər.

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Bakı şəhəri, 16 aprel 1997-ci il

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacılar və qardaşlar!

Ulu tanrının İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu əziz Qurban bayramı günündə hamınızı səmimi-qəlbdən təbrik edirəm.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq rəmzi olan mübarək Qurban bayramının ölkəmizdə rəsmi qeyd olunması həm müstəqilliyimizin dönməzliyini, həm də Azərbaycan xalqının öz milli, dini ənənələrinə sadiq olduğunu dünyaya nümayiş etdirir.

İnanıram ki, bu müqəddəs bayram günlərində böyük xalqın bəxş etdiyi nemətlərə görə minnətdarlığımızı bildirməklə yanaşı Azərbaycanın suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, xalqımızın xoşbəxt həyata qovuşmasını diləyirsiniz.

Əminəm ki, arzu və diləkləriniz Allahın köməyi və xalqımızın qeyrəti ilə həyata keçəcəkdir. Xalqımızın haqq işi qalib gələcəkdir. Şəhid balalarımızın ruhlarının şad olacağı gün – Vətən torpağının mənfur düşmən tapdağından tamamilə azad ediləcəyi və taleyinə qaçqınlıq, köçgünlük düşmüş həmvətənlərimizin öz doğma yerlərinə qayıdacaqları gün uzaqda deyildir. Azərbaycan–Ermənistan münaqişəsinin dinc yolla həlli uğrunda apardığımız ardıcıl siyasət və tutduğumuz qətiyyətli mövqe, gənc ordumuzun günü-gündən artan döyüş qüdrəti bu inam üçün möhkəm zəmindir.

Qurban bayramı insanlar arasında mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl vasitədir. Qoy bu ilki Qurban bayramı da bütün azərbaycanlıların, o cümlədən xaricdə yaşayan soydaşlarımızın bir-birinə qayğı və diqqətinin artırılması, cəmiyyətdə milli həmrəyliyin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini versin!

Əziz bayram münasibətilə Allah-Təaladan hər birinizə cansağlığı və xoşbəxtlik arzulayır, xalqımıza müstəqil Azərbaycanın tərəqqisi naminə daha böyük əzmkarlıq və hünər diləyirəm!

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ
NƏSİBƏ XANIM ZEYNALOVAYA

Bakı şəhəri, 20 aprel 1997-ci il

Hörmətli Nəsibə xanım!

Sizi – Azərbaycanın görkəmli səhnə ustasını anadan olmağınızın 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Siz Milli Teatrımızın inkişafında böyük xidmətləri ilə seçilən nadir sənətkarlardansınız. Azərbaycanda aktyor sənətinin zəngin ənənələrini ləyaqətlə davam etdirən, teatr mədəniyyətimizdə yeni bir mərhələ olan yaradıcılığınız, səhnədə və kinoda bizə bəxş etdiyiniz rəngarəng, parlaq obrazlar Azərbaycanın komediya teatrı tarixinə əbədi daxil olmuşdur.

Yüksək ifaçılıq məharəti ilə yaratdığınız müxtəlif xarakterli rollar öz səmimiliyi, xəlqiliyi və həyatiliyi ilə ürəkləri fəth edir, hər bir tamaşaçıda doğmalıq hissləri oyadır. İnsanın daxili aləmini ən xırda incəliklərinə qədər açmaq bacarığı, milli kolorit və zəngin səhnə təcrübəsi ilə səciyyələnən sənətiniz Sizə xalq arasında geniş şöhrət gətirmişdir.

60 illik səhnə həyatınız yeni nəsillər üçün sənətə sonsuz sədaqət və əsil fədakarlıq nümunəsidir. Sizin təmənnasız xidmətləriniz ayrı-ayrı dövrlərdə yüksək dövlət mükafatlarına layiq görülmüşdür. Ən qiymətli mükafatınız isə yaratdığınız duzlu, məzəli obrazlara vurğun olan milyonlarla tamaşaçının, bütün xalqımızın Sizə bəslədiyi dərin məhəbbət olmuşdur.

Azərbaycan komediya teatrını zənginləşdirmiş gərgin əməyinizə, fitri istedadınıza və sənətə vurğunluğunuza görə qədirbilən xalqımız adından Sizə böyük minnətdarlığımı bildirir, cansağlığı, xoşbəxtlik və işinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

KALMIKİYANIN XALQ ŞAİRİ DAVİD KUQULTİNOVA

Bakı şəhəri, 21 aprel 1997-ci il

Əziz David Nikitiç!

Sizi şərəfli 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı, səadət və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Dünya mədəniyyəti xəzinəsinə sanballı töhfə vermiş kalmık ədəbiyyatı əsil xalq şairi kimi Sizinlə haqlı olaraq fəxr edir. Əsrimizin taleyüklü problemləri Sizin şəxsi taleyinizdə, yaradıcılığınızda və ictimai fəaliyyətinizdə öz əksini tapmışdır. Kalmık xalqının mənəvi ənənələri əsasında formalaşmış poeziyanız tarixin bütün mərhələlərində həmişə xeyirxahlıq, humanizm ideallarına, ümumbəşəri dəyərlərə xidmət etmişdir.

Siz xalqlar dostluğunun nəğməkarı kimi postsovet məkanının mürəkkəb şəraitində də öz doğma mövzunuza sədaqətinizi qoruyub saxlayaraq çoxcəhətli mədəni əlaqələrin inkişafına ardıcıl surətdə tərəfdar çıxmısınız. Eyni zamanda gerçəkliyin yaradıcılığınız üçün xas olan fəlsəfi nöqteyi-nəzərdən və vətəndaşlıq mövqeyindən dərk edilməsi nəticəsində dünya ədəbiyyatının böyük humanist ideyalarını yeni şəkildə səsləndirmisiniz.

Əsərlərinizin güclü və cəsur qəhrəmanları, igidliyi və vətənpərvərliyi vəsf edən kalmık eposlarında əksini tapan qədim ənənələri davam etdirmişlər. Siz ədəbiyyata romantik kimi gələrək öz yaradıcılığınızda gənclik ideallarına sədaqəti qoruyub saxlaya bilmisiniz ki, bu da şeirlərinizdə sonrakı nəsillər üçün əxlaq və mənəvi kamillik dərsinə çevrilmişdir.

Azərbaycan ilə Sizi çoxdankı dostluq telləri bağlayır. Əminəm ki, tariximizin müasir mərhələsi bütün sahələrdə Azərbaycan-Kalmıkiya əməkdaşlığının daha da inkişafı işinə hələ çoxlu yeni səhifə yazacaqdır.

Ömrünüz uzun olsun. Sizi bağrıma basıram.

Sizin

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANIN XALQ ARTİSTİ LYUDMİLA GEORGİYEVNA ZIKİNAYA

Bakı şəhəri, 26 aprel 1997-ci il

Hörmətli Lyudmila Georgiyevna!

Sizi yaradıcılıq fəaliyyətinizin 50 illik yubileyi münasibətilə təbrik edir, Sizə cansağlığı, firavanlıq və yeni-yeni uğurlar arzulayıram.

Sizin yaradıcılığınız gözəlliyə və insanlığa hədsiz sədaqətlə xidmət etmək nümunəsi kimi rus musiqi mədəniyyətinin inkişafında bütöv bir mərhələ olmuşdur. Özgün rus mahnılarında əksini tapan xalqın dühası həyat və ölüm, məhəbbət və səadət kimi əbədi problemlərin dərk olunmasına həmişə xidmət etmişdir. Sizin ifanızda bu mahnılar əxlaq dərsi kimi səslənərək, müasirlərimizin mənəvi aləminin formalaşmasına amiranə təsir göstərmişdir.

Rusiya ilə, vətən və dünya mədəniyyəti ilə min tellərlə bağlanan Sizin yaradıcılığınız dünyanın bütün guşələrində milyonlarla insanın qəlbinə hakim kəsilmişdir. Siz öz misilsiz səsinizin gücünə və rus mahnısının mənəvi qüdrətinə arxalanaraq, rus incəsənətinin təbliğində heyrətamiz müvəffəqiyyətlər qazanmısınız.

Sizin yaradıcılığınız rus musiqisinin özgünlüyünün çox parlaq ifadəsi kimi bir çox xalqlara müyəssər, anlaşıqlı və yaxın olmuş, geniş şöhrət və nüfuz qazanmış, ümumbəşəri sərvətə çevrilmişdir. Azərbaycanda Sizin gözəl mahnılarınız, unudulmaz səsiniz, təkraredilməz şəxsiyyətiniz xüsusi məhəbbət və ehtirama malikdir. Siz Rusiya–Azərbaycan mədəni əlaqələrinin inkişafına, Azərbaycan və rus xalqları arasında dostluğun möhkəmlənməsinə böyük töhfə vermisiniz. Biz bunu yüksək qiymətləndiririk ki, siz 25 ildir Azərbaycanın xalq artisti fəxri adını daşıyırsınız.

İnsana, xalqın həyati qüvvəsinə, ümumbəşəri dəyərlərə inam aşılanmış mahnılarınız indiki ağrılı-acılı və ölümlü-itimli günlərdə bizim üçün xüsusi məna kəsb edir. Siz öz səmimi, dərin milli sənətinizlə humanizm amallarına daim xidmət edərək, xeyir və sülhdən ibarət olan öz yaradıcılıq öyüdünüzü gələcək əsrə yönəldirsiniz. Ömrünüz uzun olsun.

Hörmətlə,

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MSTİSLAV ROSTROPOVİÇ, ONUN ZÖVCƏSİ QALİNA VİŞNEVSKAYA VƏ AİLƏSİNİN DİGƏR ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Prezident Sarayı
29 aprel 1997-ci il

Əziz Mstislav Leopoldoviç, əziz Qalina Pavlovna, əziz qonaqlar, dostlar! Mən hədsiz dərəcədə şadam ki, siz dəvətimi qəbul edib öz vətəninizə, Bakıya, Azərbaycana gəldiniz və biz 70 illik münasibətilə sizi burada şərəflə qarşılamaq imkanına malik olduq.

Mən şad oldum ki, dəvətinizi alıb Parisə gəldim, orada Sizin 70 illiyinizə həsr olunmuş mərasimlərdə iştirak etdim. Bu mərasimlər çox əla keçdi, mənə silinməz təəssürat bağışladı. Sevinirdim ki, dostumuz, həmyerlimiz belə geniş beynəlxalq nüfuza malikdir, onun yubileyi Avropanın mərkəzində – Parisdə layiqincə və böyük hörmətlə, çox ehtiramla qeyd edilir.

Bununla yanaşı, Paris Parisdir, Moskva Moskvadır, Bakı isə planetimizin görkəmli adamı olan Mstislav Rostropoviçin dünyaya gəldiyi torpaqdır. Doğma torpağa sitayiş etmək həmişə hər bir insanın müqəddəs borcudur. Sizin dəvəti qəbul edib bizə təşrif gətirməyiniz bir daha sübut edir ki, Siz həqiqətən böyük adamsınız, keçmişdə nə varsa hamısını, öz mənşəyinizi, doğulduğunuz torpağı yüksək qiymətləndirirsiniz.

İctimaiyyətimiz sizi böyük ruh yüksəkliyi ilə gözləyir. Yəqin ki, bu gün bunu hiss etdiniz. 70 illiyinizi qeyd etmək üçün biz burada bacardığımız qədər hazırlaşmışıq. Başlıcası budur ki, siz buradasınız, Sizin doğma Bakıda həmyerlilərinizlə birlikdəsiniz.

Çox şadam ki, Qalina Pavlovna Sizinlə birlikdə gəlmişdir. Mən onu Parisdə olarkən təkidlə dəvət edirdim. Şadam ki, ailənizin üzvləri dəvətimizi qəbul edib Sizinlə birlikdə gəlmişlər. Bu da müstəsna hadisədir. Siz öz ailənizlə birlikdə belə bir heyətdə Bakıda heç vaxt olmayıbsınız. Sizin və gözəl insan olan zövcəniz Qalina Pavlovnanın, uşaqlarınızın və nəvələrinizin buraya gəlməyiniz ictimaiyyətimiz, xalqımız, respublikamız üçün çox böyük əhəmiyyətə malikdir. Mən Sizi ürəkdən salamlayır, 70 illik münasibətilə bir daha təbrik edirəm.

Bu il Sizin yubileyiniz ilidir. Əgər ilk şənliklər Parisdə başlamışsa, indi onlar Bakıda davam edir. Bilirəm ki, şənliklər mayın üçüncü ongünlüyündə Moskvada olacaq və yəqin, bundan sonra da keçiriləcəkdir. Mən Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, firavanlıq, xoşbəxtlik, yeni-yeni yaradıcılıq uğurları və əlbəttə, çox böyük ictimai-siyasi fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Mən Qalina Pavlovnanı salamlayıram. O, bütün dünyada həm Rostropoviçin həyat yoldaşı kimi, həm də görkəmli aktrisa, görkəmli incəsənət adamı kimi məşhurdur. Onun yaradıcılığı hamıya yaxşı bəllidir. Onun yaradıcılıq yolu, bioqrafiyası parlaqdır. Onun sənətinə görə, vətəndaş hünərinə görə, misilsiz keyfiyyətlərinə görə onunla Böyük Teatr da, rus opera sənəti də, dünya da fəxr edir.

Biz dostumuz Mstislav Rostropoviçdən danışdıqda onun haqqında heç də təkcə görkəmli musiqiçi, incəsənət ustadı kimi danışmırıq. Söz yox ki, bunlar onun ləyaqətidir və onu bütün dünyada şöhrətləndirmişdir. Bununla bərabər, o, birlikdə yaşamış olduğumuz ölkədə – Sovet İttifaqında 70-ci illərdə mövcud olmuş ədalətsizliyə qarşı çıxış edərkən öz cəsarətli hərəkətləri, mövqeyi, prinsipiallığı ilə şöhrətlənmişdir. Ola bilsin ki, avtoritarizmə, totalitarizmə qarşı çıxışlarınızı, Siz Sovet İttifaqını tərk etməyə məcbur olduğunuz dövrdə başqa ölkələrdə coşqun siyasi fəaliyyətinizi bəzi adamlar pisləyirdi, bəziləri isə buna mənfi bir hal kimi baxırdılar. Həyat isə Sizin nə dərəcədə haqlı olduğunuzu və nə dərəcədə şərəfli, prinsipial insan olduğunuzu, haqq-ədalət naminə, öz vicdanınız naminə, bütün bu çətinliklərə, məşəqqətlərə nə dərəcədə cəsurluqla sinə gərdiyinizi göstərdi. Sizin vicdanlı, ədalətli, namuslu olmağınız, haqq-ədalət uğrunda, vətəndaş hüquqları uğrunda, şəxsiyyətin azadlığı uğrunda, insan azadlığı uğrunda mərdanə mübarizəniz Sizə bir musiqiçi, məşhur incəsənət xadimi kimi görkəmli fəaliyyətinizdən heç də az şan-şöhrət gətirməmişdir.

Buna görə də Siz elə bir insansınız ki, özünüzdə hər şeyi təcəssüm etdirirsiniz.

Bu sözləri Sizin vəfalı dostunuz Qalina Pavlovna haqqında da demək olar. Biz onu heç də təkcə Böyük Teatrın görkəmli müğənnisi və olduqca istedadlı insan kimi tanımırıq. Biz bilirik ki, haqq-ədalət uğrunda mübarizənizdə o Sizinlə birlikdə özünü cəsarətli aparırdı və həmişə Sizinlə birlikdə idi. Bu, insanın etibarlı, vəfalı və sədaqətli dostu olmasına layiqli misaldır. Buna görə də mən çox istəyirdim ki, o, Azərbaycana gəlsin. Şadam ki, indi o buradadır.

Sizin uşaqlarınız, nəvələriniz Sizin səadətinizdir, Rostropoviç ailəsinin gələcəyidir. Bu, bizim üçün də böyük fərəhdir, ona görə ki, belə böyük insanların, təbii olaraq böyük də varisləri, böyük də nəsilləri olur, özü də hökmən olur. Odur ki, burada onlar mənə olduqca böyük sevinc bəxş edirlər. Mən özüm də babayam, buna görə də nəvələrin olmasının necə böyük sevinc olduğunu başa düşürəm. İndiki halda biz Sizinlə eyni hissləri keçiririk. Mən Sizi ürəkdən salamlayır və 70 illiyiniz münasibətilə təbrik edirəm.

Mən Parisə gəldikdə və Sizi salamladıqda öz təbrik məktubumu Sizə verdim. Lakin burada 70 illiyinizi qeyd etməyimizlə əlaqədar mən bu gün Sizin Azərbaycanın yüksək ordeni – "Şöhrət" ordeni ilə təltif olunmağınız haqqında fərman imzaladım. Gördüyünüz kimi, bu necə böyük xoşbəxtlikdir: Siz şöhrətsiniz və Azərbaycanın yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmisiniz. Mənim təbrikim Sizə çatdırılmışdır. Lakin mətbuat nümayəndələrinin də burada olmasını nəzərə alaraq, Sizə göndərdiyim və portretiniz əks olunmuş öz təbrikimi Sizə təqdim etmək istəyirəm.

Mstislav Rostropoviç: Zati-aliləri, cənab prezident, mənim əziz dostum Heydər Əliyeviç, mən çox həyəcanlıyam. Siz mənim əsla gözləmədiyim bir iş etdiniz. Bugünkü gün həyatımda ən emosional günlərdən biridir. Bir insan kimi demək istəyirəm ki, Türkiyəyə səfərinizdən səhər tezdən qayıtmağınıza baxmayaraq, gümrah görünürsünüz.

Bilirsinizmi, bu gün biz qəbiristanda olarkən göz yaşlarımızı saxlaya bilmədik. Biz insanların, o cümlədən həyatlarına müharibənin son qoyduğu cavanların məzarlarını gördükdə düşündüm ki, müharibəni, mənim sevimli Azərbaycanımın prezidenti, Siz dayandırdınız. Buna görə də səmimi qəlbdən Sizə baş əyirəm. Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz – xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, bu müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır.

Bu gün mən yaxın dostlarımın – Niyazinin, Qara Qarayevin məzarlarını ziyarət etdim. Biz Qara Qarayevlə Şostakoviçdən dərs almışıq. Bilirsinizmi, Bakı mənim üçün xüsusi bir şəhərdir. Bu gün çox gülərüzlə qarşılanmağım, xalqın böyük istedadından xəbər verən gözəl, yüksək professional incəsənətiniz məni o dərəcədə valeh etdi ki, Bakı ilə hələ atamın başladığı öz əlaqəmi uzatmağı özümə borc bilirəm. Buna görə də

xahiş edirəm mənim təklifimlə razılaşasınız. 2000-ci ilədək mənim hər bir günüm üçün konsert nəzərdə tutulmuşdur. Buna baxmayaraq, artıq 1998-ci ildə bəzi konsertlərimdən azad olmağa çalışacağam və cənab prezident, Sizin icazənizlə həmin vaxtdan hər il on günlüyə Bakıya gəlib, gənc Azərbaycan musiqiçilərinə ustalıq dərsi verəcəyəm. Bu, mənim ünvanıma söylədiyiniz gözəl sözlərinizə cavab olacaqdır.

Məni təltif etdiyiniz ordenlə bir bakılı kimi çox fəxr edirəm. Mən öz ordenlərimin bütün rəmzlərini sinəmə taxaraq demək istəyirəm ki, bəlkə də mən özüm belə bir görüşə layiq deyiləm. Lakin hər halda nəyəsə layiqəm. Sizə bir daha səmimi qəlbdən təşəkkür edirəm.

Mən nəvələrimi xüsusi olaraq ona görə gətirmişəm ki, qoy onlar görsünlər babaları harada yaşamışdır. Həyatımız elə gətirdi ki, bizi ölkəmizdən – Sovet İttifaqından didərgin saldılar. Qalina Pavlovnanın mənə bəxş etdiyi qızlarım öz iradəsindən asılı olmayaraq qürbətə düşdülər, orada ərə getdilər. Birinin əri fransız, o birinin əri isə italyandır. Biz öz qanımızı zənginləşdirsək də, köklərimiz Bakıdadır.

Mən çox həyəcanlıyam. Əziz dostumuz, çox sağ olun ki, Parisə gəlib məni öz hörmət və ehtiramınızla sevindirdiniz. Mən buna Sizə öz məhəbbət və minnətdarlığımla cavab verəcəyəm. Qalina Vişnevskaya da Bakıya səfərdən aldığı təəssüratını bölüşdü. O dedi: Mən Zaqafqaziyaya ilk dəfədir gəlirəm və xalqınızla görüş mənə olduqca böyük təsir bağışladı. Xalqınız məğrur, azadlıqsevər xalqdır. Bu gün qəbristanda gördüklərimiz bizi sarsıtdı. Bunu görmədən mən inana bilməzdim ki, belə bir şey ola bilər. Biz bu hadisələr haqqında eşitmişdik, oxumuşduq, amma həlak olanlarm xatirəsinə ucaldılmış bu əzəmətli abidəni gördükdə insanın qəlbində güclü bir təlatüm əmələ gəlir. Bunu ağıl-zəka ilə dərk etmək mümkün deyildir. Bunu ancaq emosional surətdə anlamaq və bütün həyatın boyu yadda saxlamaq olar. Xalqınıza dərin hörmətimi bildirirəm, istəyirəm ki, xalqınız arzuladığı kimi yaşasın, ölkəniz bir daha heç vaxt təhqirlərə, sıxıntılara məruz qalmasın. Allah sizə xoşbəxtlik, ailələrinizə firavanlıq bəxş etsin, öz əzizlərini itirənlərin hamısına təskinlik versin. Sizə ən xoş arzularımı bildirirəm.

Heydər Əliyev: Xalqımızın, respublikamızın ünvanına dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Bu, Sizin də doğma torpağınızdır. Əziz Slava, sizin təklifinizi böyük minnətdarlıqla qəbul edirəm ki, 1998-ci ildən başlayaraq bizə təşrif gətirəcək və haqqında danışdığınız vəzifəni yerinə yetirəcəksiniz. Açığını deyim, bu, respublikamız üçün, xalqımız üçün böyük hədiyyə olacaqdır və buna görə Sizə bəri başdan təşəkkür edirəm.

Lakin Siz keçmişdən də bilirsiniz və bunu indi də yəqin edərsiniz ki, Azərbaycan xalqı bütün xalqlara həmişə dostluq hissləri bəsləmişdir, həmişə sülhsevər xalq olmuşdur. Xalqımız Qərb mədəniyyətindən çox şey əxz etmişdir. Ölkəmizdə Qərb mədəniyyətinin yayıcılarından biri də Sizin atanız, valideynləriniz olmuşlar. Sizin valideynləriniz kimi gözəl insanlar Azərbaycana gələrək burada çox böyük iz qoymuş və Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda olan Azərbaycan xalqının öz milli, özgün mədəniyyətini qoruyub saxlaması, dünya sivilizasiyasına, professional musiqiyə, Qərb incəsənətinə qovuşması üçün çox iş görmüşlər. Sabah Siz bizim konservatoriyada olacaqsınız. Onun bünövrəsinin qoyulmasında Sizin atanızın da xidməti var. Cəmiyyətimiz, musiqiçilərimiz, gənclərimiz dediyiniz o təklifə ehtiyac duyurlar. Bunu ancaq arzulamaq olardı. Odur ki, Sizin təşəbbüsünüzü böyük minnətdarlıqla qəbul edirəm.

Bildiyiniz kimi, indi Azərbaycan müstəqil bir respublikadır. Biz çətin bir şəraitdə yaşayırıq, çünki dövlət müstəqilliyinin təşəkkülü prosesi özlüyündə olduqca mürəkkəb və çətin prosesdir. Bu çətinliklər bir də onunla izah edilir ki, milli azadlığa, dövlət müstəqilliyinə qarşı müqavimət göstərilmişdir. Gördüyünüz o məzarlar 1990-cı ilin yanvarında, o vaxtkı Sovet İttifaqı rəhbərliyinin göstərişi ilə Bakıya sovet qoşunlarının iri kontingenti yeridildiyi vaxtda meydana gəlmişdir. O gecə çox böyük miqdarda adam həlak oldu.

Mən görürəm ki, Siz bütün bunlara çox həssaslıqla yanaşırsınız, ona görə ki, Siz məhz elə adamlardansınız ki, Azərbaycanda Yanvar faciəsindən hələ xeyli əvvəl, bundan 20 il qabaq belə hadisələrə qarşı öz etiraz səsinizi ucaltmışdınız. Əslinə qalsa, məhz bu, Sizi o vaxtlar Sovet İttifaqını tərk etmək məcburiyyətində qoydu, həmin köhnə totalitar rejimin dirçəldilməsinə cəhd göstərilərkən Ağ evin müdafiəsinə qalxıb Kremlin divarları qarşısında mübarizə aparmağa məcbur etdi. 1990-cı ilin yanvarında Azərbaycanda o faciəni məhz bu rejim yaratmışdı. Yeri gəlmişkən, o vaxtlar 1987-ci ildə məni çalışdığım yuksək vəzifələrdən uzaqlaşdırmışdılar, lakin Moskvada yaşayırdım və Azərbaycana qarşı bu hərbi təcavüzlə əlaqədar öz etiraz səsimi ucaltdım. Buna görə təqiblərə məruz qaldım və bir neçə aydan sonra Moskvanı tərk etməli oldum, çox çətinliklərdən keçdim. Bunlar sizə məlumdur. Xalqımız öz müstəqilliyini qurbanlar bahasına, böyük itkilər bahasına əldə etmişdir. Bu yandan isə Ermənistan tərəfindən təcavüz olmuşdur. Bu təcavüz Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək məqsədilə 1988-ci

ildə başlamışdır. Mayın 12-də müharibənin dayandırılmasının üç ili tamam olacaqdır.

Mən Azərbaycana rəhbərliyə 1993-cü ilin ortalarında qayıtdım və bir neçə aydan sonra atəşkəsə nail ola bildim. Bu rejim üç ildir saxlanılır. Yeri gəlmişkən, İstanbulda böyük biznes konfransı keçirilməsi – konfrans indi də davam edir – ilə əlaqədar dünən mən orada oldum. İstanbulda Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna, Moldova, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri keçirildi. Mən oraya dünən səhər getdim, axşam da geri qayıtdım. Orada mən bütün prezidentlərlə görüşdüm və biz yenə də yekdil fikirdə olduq ki, Qafqazda, bütün regionda, bütün dünyada sülh, əmin-amanlıq və firavanlıq yaratmaq lazımdır.

Dünən mən Ermənistan prezidenti Ter-Petrosyanla görüşdüm, bu konfransda çıxış edib bir daha bildirdim ki, işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqınların öz doğma ocaqlarına qayıtması şərti ilə Ermənistanla Azərbaycan arasında tam sülh sazişi imzalanan vaxta qədər biz atəşkəs rejiminə əməl edəcəyik və hərbi əməliyyatların yenidən başlanmasına gətirib çıxara biləcək hərəkətlərə Azərbaycan tərəfindən yol verməyəcəyik.

Xalqımız bu çətinliklərdən keçmiş, çox böyük itkilər vermişdir. Lakin bu gün də öz dövlət müstəqilliyi və milli azadlığı mövqelərində qətiyyətlə dayanmışdır. Bununla yanaşı, biz müstəqil dövlət olmaq etibarilə nəinki təcrid olunmaq istəmirik, əksinə, keçmiş Sovet İttifaqının bütün respublikaları ilə, əlbəttə, ən əvvəl Rusiya ilə daha sıx dostluq münasibətləri yaratmaq istəyirik.

Yeri gəlmişkən, biz Sizinlə Yelisey sarayında ayrıldıqdan sonra mən Moskvaya yola düşdüm və artıq səhər Kremldə MDB ölkələrinin prezidentləri ilə görüşdüm və bunu onlara danışdım. Sonra mənim Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə ayrıca görüşüm oldu. Mən ona Sizin yubileyiniz haqqında ətraflı danışdım və dedim ki, Sizin stolunuzun arxasında Mayya Plisetskaya və Rodion Şedrin əyləşmişdilər, biz Boris Nikolayeviçin şərəfinə badə qaldırdıq. Yeri gəlmişkən, onun qızı Tatyana da orada idi.

Demək istəyirəm ki, biz bütün imkanlardan, vasitələrdən istifadə edib Rusiya ilə, MDB ölkələri ilə, eləcə də bütün digər ölkələrlə həqiqi, mehriban, səmimi əlaqələr saxlayırıq və saxlayacağıq. Məsələn, biz Fransadan çox uzaq idik. İndi isə ölkələrimiz arasında çox yaxşı, yaxın münasibətlər yaranmışdır. Prezident Jak Şirak cənablarının dəvəti ilə mən yanvarda Fransada rəsmi səfərdə oldum, ay yarımdan sonra isə o və

Siz məni yenidən oraya dəvət etdiniz. Buna görə də biz dostluğumuzu bu prinsiplər əsasında möhkəmlədəcəyik.

Görürəm İci, Rusiyanın kütləvi informasiya vasitələrinin nümayəndələri də buradadırlar, mən onlara minnətdaram ki, onlar, əvvəla, 70 illiyiniz münasibətilə şənliklərdə iştirak etmək üçün, ikincisi, bu gözəl hadisənin şahidi olmaq, habelə hazırda Azərbaycanda reallığı öz gözləri ilə görmək üçün Sizinlə birlikdə gəlmişlər. Problemlər, çətinliklər var, ancaq həyat yaxşılığa doğru getdikcə daha çox irəliləyir. İqtisadiyyatımızı yenidən qurmaq, cəmiyyətimizi demokratikləşdirmək, hüquqi, demokratik dövlət qurmaq, bütün sahələrdə demokratiya prinsiplərini möhkəmləndirmək üçün gördüyümüz tədbirlər öz nəticələrini verir.

MSTİSLAV ROSTROPOVİÇİN R.MUSTAFAYEV ADINA İNCƏSƏNƏT MUZEYİNDƏ YUBİLEYİ

29 aprel 1997-ci il

Müasir dövrün görkəmli musiqiçisi Mstislav Rostropoviçin 70 illiyinə həsr edilmiş yubiley şənlikləri çərçivəsində aprelin 29-da R.Mustafayev adına İncəsənət Muzeyində Azərbaycanın İncəsənət ustaları konsert verdilər.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev konsertdə idi.

Mstislav Rostropoviç və onun zövcəsi Qalina Vişnevskaya konsertin fəxri qonaqları olmuşlar.

SSRİ xalq artisti, professor Fərhad Bədəlbəylinin ifasında "Noveletto" əsəri səsləndi. Sonra o, Tofiq Quliyevin "Qaytağı"sını ifa etdi. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycanın əməkdar artisti Muxtar Məlikov Üzeyir Hacıbəyovun "Koroğlu" operasından Həsən xanın ariyasını oxudu. Respublikanın xalq artisti, professor Ramiz Quliyevin və Bülbül adına Musiqi İxtisas Məktəbinin şagirdi Əyyub Quliyevin ifasında Həsən Rzayevin "Çahargah" rapsodiyası səsləndi.

Azərbaycanın xalq artisti, beynəlxalq müsabiqələrin laureatı, professor Xuraman Qasımova Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçi vətənə dəvət etdiyinə görə böyük minnətdarlığını bildirdi. Xuraman Qasımova dedi: Biz bu bayramı çoxdan gözləyirdik. Heydər Əliyeviç, siz onu bizə nəhayət hədiyyə etdiniz. Bu gün həqiqətən böyük bayramdır. Biz mədəniyyət xadimləri burada belə adlı-sanlı və çox hörmətli qonaqlar qarşısında çıxış edərək dərin həyəcan keçiririk. O, mayestroya üz tutaraq dedi: Ümidvarıq ki, Bakıda keçirəcəyiniz bu dörd gün uzun müddət yadınızda qalacaqdır. Yəqin edəcəksiniz ki, biz sizi necə də çoxdan gözləyirdik, sizi necə də sevirik və hamımız sizinlə necə də fəxr edirik. Ümidvarıq ki, siz bizə yenə də gələcəksiniz. Sizinlə yeni görüşləri səbirsizliklə gözləyəcəyik.

Sonra Xuraman Qasımova məşhur bəstəkarların operalarından bir neçə ariya ifa etdi.

Mstislav Rostropoviçin R.Mustafayev adına İncəsənət Muzeyinə gəlməsindən yadigar olaraq ona barelyef – avtoportret təqdim edildi.

MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİK YUBİLEY ŞƏNLİKLƏRİNƏ GƏLƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT

Prezident Sarayı
1 may 1997-ci il

Salam hörmətli qonaqlar, mətbuat nümayəndələri!

Qonaqlarımızın əksəriyyətinin rus dilini bildiyini nəzərə alaraq rus dilində danışacağam. Əgər kimin üçünsə ingilis dilinə və ya başqa bir dilə tərcümə etmək lazımdırsa, bizim tərcüməçimiz var.

Sözümə başlamazdan əvvəl sizə təşəkkür etmək istərdim ki, həmyerlimiz, görkəmli musiqiçi Mstislav Rostropoviçin 70 illiyinə həsr olunmuş yubiley şənlikləri ilə əlaqədar Azərbaycana gəlmisiniz. Siz özünüz bu şənliklərin necə keçdiyinin şahidisiniz, buna görə də, zənnimcə, müəyyən izahat verməyə ehtiyac yoxdur.

Nəzərə çarpdırmaq istəyirəm ki, biz buna böyük əhəmiyyət veririk. Hər şeydən əvvəl, bir həmyerlimiz kimi, musiqi sənətinin, bütün mədəniyyətin inkişafında, ümumbəşəri dəyərlərin bərqərar edilməsində, ictimai-siyasi fəaliyyətdə çox böyük xidmətləri olan bir insan kimi Mstislav Rostropoviçin şəxsiyyətinə yüksək hörmət bəsləyirik. Şəxsiyyət azadlığının müdafiəsi ilə, totalitarizmə qarşı etirazla, demokratiyanın, siyasi plüralizmin, söz azadlığının bərqərar edilməsi zəruriliyi ilə bağlı onun göstərdiyi səylər, gördüyü işlər məlumdur. Birlikdə götürdükdə bütün bunlar Rostropoviçin şəxsiyyətini səciyyələndirir və buna görə də o, beynəlxalq aləmdə və bizdə belə böyük şöhrətə, nüfuza malikdir. Biz iftixar hissi keçiririk ki, o, Bakıda, valideynlərinin yaşayıb yaratdıqları şəhərdə doğulmuşdur. Onun valideynlərinin Azərbaycanda ali musiqi təhsilinin yaradılmasında, ölkəmizdə musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri var.

---

[1] Görüşdə Avstriya, Gürcüstan, Misir, Çin, Rusiya, Özbəkistan və Fransa jurnalistləri iştirak edirdilər.

Bu dediklərimə mənim Mstislav Rostropoviçə şəxsi münasibətim də əlavə edilir. Mən onu çoxdan tanıyıram. Onun sənətini həmişə qiymətləndirmişəm. 70-ci illərin əvvəllərində o, Bakıda olmuş, burada konsertlər vermişdir. Mən onunla həmin illərdə də, təbii ki, sonrakı dövrdə də görüşmüşəm. Onun coşqun ictimai-siyasi fəaliyyəti məndə ona böyük hörmət hissi, onunla böyük həmrəylik hissi oyatmışdır. Ona şəxsi münasibətim bütün bunlarla bağlıdır.

Siz bilirsiniz ki, mən martın 27-də Parisdə onun yubiley gecəsində iştirak etmişəm. Bu, onun arzusu ilə, onun dəvəti ilə olmuşdur. Bununla bərabər, bu həm də Fransa prezidenti cənab Jak Şirakın dəvəti idi. Çox şadam ki, mən bu dəvəti həyata keçirməyə müvəffəq oldum. Mən Parisdə qaldığım bir gündən olduqca böyük məmnunluq duydum. Fransa ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərlə bağlı orada Fransa prezidenti cənab Jak Şirakla, bu ölkənin xarici işlər naziri Erve De Şarett ilə görüşlərim və söhbətlərim oldu. Mən Opera Teatrında da, Yelisey sarayında da yubiley şənliklərində iştirak etdim. Elə onda biz Mstislav Leopoldoviçin yubileyini Azərbaycanda da keçirmək üçün onu buraya dəvət etdik. O, dəvətimizi qəbul etdi və indi bu dəvət həyata keçirilir.

Bu, Azərbaycanın mədəni, ictimai-siyasi həyatında böyük hadisədir, çünki Rostropoviç nəinki böyük musiqiçi, bəstəkar, dirijordur, həm də öz vətəndaşlıq hərəkətləri ilə, azadlıq, ədalət, həqiqət, demokratiya uğrunda mübarizəsi ilə şöhrətlənmiş bir insandır.

İndi biz bu prinsipləri müstəqil Azərbaycan dövlətimizdə bərqərar edirik, buna görə də onun baxışları, mövqeyi, bütövlükdə keçmişdəki fəaliyyəti bizim üçün böyük əhəmiyyətə malikdir. Buna görə də Rostropoviçin Azərbaycanda olmasının və onun yubileyi ilə əlaqədar burada baş verən hər şeyin böyük ictimai-siyasi əhəmiyyəti var.

Siz görürsünüz ki, hər yerdə camaat onu böyük hörmətlə, ruh yüksəkliyi ilə qarşılayır. Bu, müəyyən dərəcədə həm də respublikamızda ictimai-siyasi əhval-ruhiyyəni, habelə mədəniyyət, təhsil sahəsində vəziyyəti əks etdirir, yəni xalqımızın bu keyfiyyətlərini səciyyələndirir. Buna görə də sizin burada olmağınız, zənnimcə, sizin üçün də faydalıdır. Bizim bunda marağımız var və sizi də buna görə dəvət etmişik.

Bizə təşrif gətirdiyinizə, bütün yubiley şənliklərinin iştirakçısı olduğunuza görə sizə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, bu, sizə respublikamızdakı indiki vəziyyətlə, təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələrinin, xüsusən keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələrin keçirdikləri bu çətin dövrdə xalqımızın

halı ilə daha yaxşı tanış olmağa imkan verəcəkdir. Rostropoviçin Azərbaycanda şərəflə qarşılanması ümumbəşəri dəyərlərə, dünya, Qərb və rus mədəniyyətinə xalqımızın, ictimaiyyətimizin münasibətini də əks etdirir. Bunların hamısı bizim respublikamızda mövcuddur. Bunu bu günlərdə qonaqlarımız da yəqin edə bilərlər.

Söhbətlə daha vaxtınızı almaq istəmirəm. Sizi ona görə dəvət etmişəm ki, buraya gəlməyinizdən məmnunluq duyduğumu bildirim. Təbii ki, suallarınız olacaq, mən onlara ya burada, ya da sizinlə ayrı-ayrılıqda görüşərək cavab verə bilərəm. Lakin mənə dedilər ki, sizlərdən bəziləri onları maraqlandıran suallara cavab almaq üçün mənimlə ayrıca görüşmək istəyirlər.

Yəqin ki, burada olan adamlar əsasən mədəniyyət, incəsənət, musiqi, təhsil məsələləri ilə maraqlanırlar. Lakin indi həyatımız təkcə bunlarla deyil, həm də bir çox digər olduqca mühüm amillərlə bağlıdır. Dediyim kimi, respublikamız keçid dövrünü yaşayır, biz müstəqil dövlət qururuq. Dövlət müstəqilliyimizin artıq altıncı ilidir. Biz həyatın bütün sahələrini demokratikləşdirmək yolu ilə gedirik, bütün iqtisadi sistemimizi bazar iqtisadiyyatı prinsiplərinə keçirmək üçün iqtisadi islahatlar aparırıq. Əlbəttə, bu, böyük və mürəkkəb prosesdir. Lakin biz bu yolla çox fəal və çox inamla gedirik.

Respublikamızda vəziyyəti son dərəcə mürəkkəbləşdirən və ölkəmizdəki vəziyyəti digər bu cür respublikalardakı vəziyyətdən fərqləndirən amil budur ki, 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmış, döyüşlər getmiş, çoxlu qan tökülmüş, erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, bir milyondan artıq Azərbaycan vətəndaşı öz yaşayış yerlərindən didərgin salınmışdır, onlar ölkəmizin müxtəlif bölgələrində çox ağır şəraitdə, əksəriyyəti isə çadır düşərgələrində yaşayır.

Siz artıq bilirsiniz ki, atəşkəs əldə edilməsinin mayın 12-də üç ili tamam olur. İndi hərbi əməliyyatlar, müharibə yoxdur, amma hələ sülh də yoxdur. Tam sülhə nail olmaq üçün biz çox fəal danışıqlar aparırıq. Təbii ki, bu amil respublikamızdakı vəziyyəti keçmiş Sovet İttifaqının digər respublikalarındakı vəziyyətdən fərqləndirir. Burada bizim itkilərimiz, qurbanlarımız, çətinliklərimiz çoxdur. Biz bunların hamısını aradan qaldırmağa çalışırıq. Ən başlıca məqsəd və vəzifəmiz regionda sülhü bərqərar etməkdən, Azərbaycanın ərazi bütövlüyünü sülh yolu ilə bərpa etməkdən, qaçqınları öz yaşayış yerlərinə qaytarmaqdan və Ermənistanla keçmişdə olduğu kimi mehriban qonşuluq münasibətləri

yaratmaqdan ibarətdir. Həmsərhəd olduğumuz digər ölkələrlə normal dostluq münasibətlərimiz var. Əgər biz həmin çox ağır amili – münaqişəni aradan qaldıra bilsək, onda, təbii olaraq, görərik ki, azad respublika kimi, müstəqil dövlət kimi Azərbaycan Respublikasının çox gözəl və firavan gələcəyi var.

Havalar pis deyildir. Bahardır. Bu gün mayın biridir. Bu gün səhər mən Moskva televiziyasına baxırdım. O, günün daha tez başlandığı Uzaq Şərqdə keçirilən nümayişləri göstərirdi. Bizdə belə şey yoxdur. Mən bilmirəm, mayın biri bizdə də qeyri-iş günüdür? İş günüdür. Siz məni bağışlayın, mənim üçün bütün günlər iş günüdür. Buna görə də bilmirəm, hansı gün iş günüdür, hansı gün iş günü deyildir. Bununla yanaşı, bilirəm ki, 1993-cü ildə dəyişmiş olan əvvəlki hakimiyyətin dövründə burada 9 May qələbə günü qadağan edilmişdi. Təbii ki, bu, müharibə veteranlarının çox böyük narazılığına səbəb oldu, məndə də narazılıq doğurdu. O vaxtlar mən Bakıda yox, Naxçıvanda yaşayırdım. Bakıya qayıtdıqdan sonra 9 May qələbə gününü bərpa etdim. 1-2 may isə bizdə bayram günləri deyildir. Bu günlər Rusiyada bayram günləridir, orada nümayişlər gedir və sairə. Bizdə xalq işləyir, rahat yaşayır. Buna görə də iş əhval-ruhiyyəsi hökm sürür. Lakin bununla yanaşı, hesab edirəm ki, bu, sizin üçün də xoşdur. Hər halda, yəqin siz hər yerdə özünüzə qarşı xoş münasibət hiss etdiniz.

Hesab edirəm ki, dediklərim kifayətdir. Yaxşısı budur ki, siz mənə suallar verin.

S u a l: Biz Azərbaycan ilə Rusiya arasında münasibətlərin möhkəmlənməsi və inkişaf etməsi üçün daim göstərdiyiniz səylərə böyük hörmətlə yanaşırıq. Bugünkü mədəni əlaqələrimizin vəziyyətini necə qiymətləndirirsiniz və bu əlaqələrin perspektivləri necədir?

C a v a b: Belə yaxşı suala görə sağ olun. Rusiya Azərbaycan üçün olduqca böyük əhəmiyyətə malikdir. Azərbaycan, demək olar, iki əsr Rusiyanın tərkibində olmuşdur. Bildiyiniz kimi, XIX əsrin əvvəllərində Azərbaycan çar Rusiyasının tərkibinə düşdü, XX əsrin 20-ci illərində sovet hakimiyyəti Azərbaycana gəlib çıxan dövrdə isə Azərbaycan 1922-ci ildə təşkil edilmiş Sovet İttifaqının tərkibinə daxil oldu və təbii ki, Rusiya ilə bağlı idi. Bu əlaqələr Azərbaycan xalqına çox böyük fayda gətirdi. Bu barədə çox danışmaq olar. Lakin 20-ci illərin əvvəllərində Leopold Rostropoviçin buraya gəlməsi – təkcə o deyil, Rusiyadan Bakıya belə adamlar çox gəlmişdir, söz düşmüşkən, o, buraya Saratovdan köçmüşdür – burada onun bir neçə peşəkar musiqiçi – pedaqoqla birlikdə fəaliyyət

göstərməsi, burada musiqi akademiyası – bu təhsil ocağı əvvəllər konservatoriya adlanırdı – yaradılmasına kömək etməsi buna sübutdur ki, Azərbaycanda mədəniyyətin, təhsilin, elmin, bütün ictimai – siyasi həyatın inkişafında Rusiyanın çox böyük xidməti olmuşdur.

Azərbaycan da Rusiya üçün faydalı olmuşdur. Bizim neftimiz bütün Rusiya üçün zəngin sərvətə çevrilmişdi. Əgər XX əsrin əvvəllərində Rusiyanın malik olduğu bütün neftin 90 faizi Azərbaycanda çıxarılırdısa, artıq əsrin ortalarında İkinci Dünya müharibəsi, Böyük Vətən müharibəsi dövründə Sovet İttifaqının neftinin 70 faizindən çoxunu Azərbaycan verirdi və çoxları deyirlər, mən də bu fikirdəyəm ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin necə qurtaracağını təsəvvürə gətirmək çətindir. Aydın olur ki, Azərbaycan Rusiya üçün necə böyük əhəmiyyət kəsb edirdi. Yəni bu qarşılıqlı yardım, qarşılıqlı həyanlıq Rusiya üçün də, Azərbaycan üçün də çox böyük rol oynamışdır. Buna görə də Azərbaycan Rusiya ilə çox tellərlə bağlıdır.

Rusiya dünyanın ən iri ölkəsidir, Azərbaycanla böyük sərhədə malikdir və onunla tarixi əlaqələrimiz ölkələrimiz arasında çox sıx münasibətlər, dostluq münasibətləri yaradılmasını tələb edir. Belə münasibətlər var, amma istərdik ki, bu münasibətlər daha yaxşı olsun. Biz, öz tərəfimizdən, hər şeyi edirik ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər ən səmimi, ən yaxın münasibətlər olsun, bütün sahələrdə fəal əməkdaşlıq etmək imkanımız olsun, başlıcası isə, əvvəlki böyük tarixi dövrdə xalqımızın əldə etdiyi əziz və qiymətli nə varsa, hamısını qoruyub saxlayaq.

Biz istəyirik ki, Rusiyada hər şey yaxşı olsun, əmin-amanlıq olsun. Biz orada baş verən prosesləri çox diqqətlə izləyirik. Siz bilirsiniz ki, Rusiya televiziyasının iki əsas kanalı – ictimai Rusiya televiziyası və "Rusiya" kanalları burada bütünlüklə translyasiya edilir. Nəinki heç bir məhdudiyyət yoxdur, əksinə, bu kanallara böyük maraq var. Yeri gəlmişkən, mən "NTV" telekanalından təkliflər almışam və yaxın vaxtlarda bu kanalın verilişləri də bizdə translyasiya olunmağa başlanacaqdır.

Azərbaycanda təxminən 400 min rus yaşayır, onlar Azərbaycanın tam hüquqlu vətəndaşlarıdır. Burada rusdilli əhali ilə bağlı müəyyən bir problem yoxdur. İcazənizlə deyim ki, son illərdə Azərbaycanda mənim səylərim sayəsində çox işlər görülmüşdür ki, milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları özlərini azad və bərabərhüquqlu vətəndaşlar kimi hiss etsinlər. Zənnimcə, biz buna nail olmuşuq. Bizdə müsəlman dini ilə yanaşı, pravoslav və yəhudi dinləri də fəaliyyət göstərir, bütün dinlər azaddır. Bunların hamısı Rusiya ilə

Azərbaycan arasında münasibətlərin inkişaf etməsi və möhkəmlənməsi üçün yaxşı zəmindir.

Əlbəttə, biz istəyirik, Rusiyada hər şey yaxşı olsun, Rusiya demokratik bir ölkə olsun. Biz Sovet İttifaqını, keçmiş imperiyanı və sairləri bərpa etmək üçün Rusiyanın bəzi dairələrində mövcud olan əhval-ruhiyyə ilə heç cür razılaşa bilmərik. Deməliyəm ki, bunlar perspektivsiz fikirlərdir, amma Rusiyanın bəzi dairələrində belə fikirlər var. Lakin bu, Rusiyanın daxili işidir. Biz buna qarışmırıq. Mən sadəcə olaraq öz münasibətimi bildirirəm. Çünki istəyirik ki, Rusiyada demokratikləşdirmə prosesi fəal getsin, islahatlar fəal həyata keçirilsin. Biz Rusiyanı yeni, çiçəklənən, demokratik bir ölkə kimi görmək istəyirik. Bax, belə Rusiya ilə biz ən mehriban və yaxın münasibətlərə malik olmaq istəyirik.

S u a l: Bu yaxınlarda Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Bizcə, bu tədbir böyük müvəffəqiyyətlə keçdi və burada çıxış etmiş olan artistlərin hamısı Azərbaycan tamaşaçılarının onları çox gözəl qarşılamasına heyran qaldı. Siz özünüz Azərbaycanda Rusiya mədəniyyəti günlərini necə qiymətləndirirsiniz?

C a v a b: Deməliyəm ki, bu yaxınlarda Azərbaycanda Rusiya mədəniyyəti günləri bizim təşəbbüsümüzlə keçirildi. Biz Rusiya rəhbərliyinə müraciət edərək, Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilməsini xahiş etdik.

1972-ci ildə Azərbaycanda Rusiya mədəniyyəti ongünlüyünü çoxları xatırlayır. O vaxtlar Azərbaycanda olmuş adamlardan bəziləri indi aramızda deyildir. Lakin bununla yanaşı, 25 il əvvəl həmin ongünlükdə iştirak etmiş olan bir çox adamlar o günləri indi böyük hörmət, məmnunluq hissilə xatırlayırlar. Məsələn, Şostakoviç dünyasını dəyişmişdir. O, burada olmuşdur. Nikolay Tixonov da aramızda yoxdur.

Bu yaxınlarda Moskvada Lyudmila Georgiyevna Zıkinanın yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibətilə təntənəli mərasim keçirildi. Mən onu təbrik etdim və onu Azərbaycanın adından təbrik etmək, mənim məktubumu ona təqdim etmək üçün mədəniyyət naziri Polad Bülbüloğlunu xüsusi olaraq Moskvaya göndərdim və o, orada çıxış etdi. Axı, 25 il əvvəl Lyudmila Georgiyevna respublikamızda Rusiya mədəniyyəti günlərinin iştirakçısı olmuşdu və ona Azərbaycanın xalq artisti adı verilmişdi. Bu adı o, indiyədək daşıyır. Biz fəxr edirik ki, o, Azərbaycanın xalq artisti adını daşıyır. Buna görə də, bu əlaqələrin yaxşı tarixi var. Məsələn, 1972-ci ildə biz burada Sergey Yeseninin xatirə muzeyini açdıq.

Yesenin 20-ci illərin əvvəllərində Bakıda yaşamış və öz məşhur əsərlərini burada yazmışdır. Yeri gəlmişkən, 1972-ci ildə açdığımız muzey Yeseninin ilk muzeyidir. Artıq bundan sonra onun vətənində də bu cür muzey yaratmaq barədə düşünməyə başladılar.

Yəni, bizim mədəni münasibətlərimizin tarixi, xüsusən son 30 ildəki tarixi zəngindir. Bütün bünları yenidən bərpa etmək arzusu ilə biz Rusiya hökumətinə Azərbaycanda Rusiya mədəniyyət günlərinin keçirilməsi haqqında təklif verdik.

Mədəniyyət günləri keçirildi. Biz əlimizdən gələni etdik ki, bu, Rusiyanın və Azərbaycanın xalqları, rus və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsi günlərinə çevrilsin. Hesab edirəm ki, bu, yaxşı iş idi və təkrar edirəm, bizdə mövcud olan ənənələri bir daha təsdiqləyir.

Bilirsiniz, hansı dövrdə və ya hansı ictimai-siyasi rejim, dövlət rejimi şəraitində baş verməsindən asılı olmayaraq, keçmişin yaxşı ənənələrini bir kənara atmaq və unutmaq lazım deyildir.

Bir sözlə, mən bunu yüksək qiymətləndirirəm və Rusiya hökumətinə minnətdaram, bu barədə Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinə də demişəm. Mədəniyyət günlərində iştirak edən Rusiyanın mədəniyyət xadimlərinə də minnətdaram. Təəssüf doğuran isə o oldu ki, mədəniyyət günləri haqqında Rusiya mətbuatında verilən xəbərlər çox az idi. Hesab edirəm ki, belə hadisələri mətbuatda, özü də təkcə qəzetlərdə deyil, həm də televiziya, radio ilə yaxşı işıqlandırmaq lazımdır. Ümidvaram ki, Rostropoviçin yubileyi ilə bağlı burada, bizdə baş verən hadisə Rusiyada kifayət qədər işıqlandırılacaqdır.

S u a l: Rusiyanın şirkət və müəssisələri ilə əməkdaşlıq üçün Azərbaycan iqtisadiyyatının hansı bölmələrinin daha perspektivli olması barədə Sizin rəyinizi bilmək bizim "Delovoy mir" qəzetinin oxucuları üçün maraqlı olardı.

Sizcə, bu əməkdaşlığa mane olan səbəblər hansılardır?

C a v a b: Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir, vaxtilə Sovetlər İttifaqı çərçivəsində əsasən Rusiyanın ehtiyaclarına bənd edilmişdi. 70-ci illərdə Sovet hökumətinin təkidi ilə biz Azərbaycanda üzümçülüyü inkişaf etdirməyə başladıq ki, şərabçılıq məhsulu istehsal edək və onunla ilk növbədə Rusiyanı təchiz edək. Deməliyəm ki, 10 il ərzində biz üzüm istehsalını 10 dəfə artırdıq. Əgər 1970-ci ildə 200 min ton üzüm istehsal edirdiksə, 1980-ci ildə 2 milyon ton istehsal etmişdik. Üzümün ilkin emalından sonra alınan şərabın Rusiyanın müxtəlif

regionlarına göndərildiyini, orada isə son məhsul kimi yüksək keyfiyyətli şərabların istehsal olunduğunu nəzərə alaraq, biz çoxlu ilkin şərab emalı zavodları tikdik. Yeri gəlmişkən, Sovetlər İttifaqının o vaxtkı rəhbərləri deyəndə ki, xalqı həddən artıq araq istehlak etməkdən xilas etmək üçün yüksək keyfiyyətli şərab lazımdır, zənnimcə, çox ağıllı mühakimə yürüdürdülər. Tədqiqatlar isə göstərdi ki, böyük miqdarda üzüm və deməli, şərabçılıq məhsulu istehsal etmək üçün Azərbaycanda torpaq-iqlim şəraiti daha əlverişlidir.

Biz bunu etdik, üzüm plantasiyaları saldıq, çox böyük sayda ilkin şərab emalı zavodları yaratdıq, külli miqdarda pul xərclədik. Yenidənqurma deyilən dövrdə, alkoqolizmə qarşı fərsiz mübarizə genişlənəndə bu plantasiyaların bir hissəsi dağıdıldı. İnsanlara həddən artıq içməyi ağıllı şəkildə tərgitmək əvəzinə, şərabçılıq məhsulları istehsalını azaltmaq və insanlara içməyə imkan verməmək üçün Azərbaycanda üzüm plantasiyalarını qırmağa başladılar. Adamlar isə içmək üçün digər imkanlar tapırdılar.

Plantasiyaların bir hissəsi sıradan çıxdı, çünki bizdə bazar yoxdur. Məsələn, Rusiyanın əvvəlki kimi yenə də şərabçılıq məhsuluna ehtiyacı var. Yeri gəlmişkən, Azərbaycan ərazisində 5 şərab zavodu var, lakin indi elə iqtisadi maneələr qoyulmuşdur ki, biz şərabçılıq məhsullarını Rusiyaya ixrac edə bilmirik.

Bundan Rusiya da, biz də zərər çəkirik. Hazırda biz 2 milyon ton deyil, 250-300 min ton üzüm istehsal edirik, ilkin şərab emalı zavodlarının əksəriyyəti işləmir.

Mən həmin sahədən başladım, göstərmək istəyirdim ki, o illərdə mövcud olmuş inteqrasiya bu gün bərpa edilə bilərdi və Rusiyaya da, Azərbaycana da qarşılıqlı surətdə fayda gətirərdi.

Bununla bərabər, Azərbaycan hər halda sənaye ölkəsidir. Sənaye kompleksimiz də Rusiyada sənaye məhsulları istehsalına yönəldilmişdi. Özü də bütün bunlar elə qurulmuşdu ki, Azərbaycanda yarımfabrikatlar istehsal edilirdi, son məhsul isə Rusiyanın bir çox zavodlarında buraxılırdı. Bu zavodlar indiyədək qalmışdır. Ancaq inteqrasiya əlaqələri kəsilmişdir və bundan həm Rusiya sənayesi, həm də Azərbaycan sənayesi ziyan çəkir.

Söhbət neft maşınqayırmasından da gedir. Halbuki bir vaxtlar Sovet İttifaqının bütün neft sənayesi üçün neft-mədən avadanlığını – bu avadanlığın əsas hissəsi Rusiyada: Sibirdə, Tatarıstanda, Başqırdıstanda və başqa bölgələrdə quraşdırılmışdır – 70 faizini Azərbaycan göndərirdi.

Bizdə çox böyük miqdarda neft maşınqayırma zavodları var. Onlar ya boş dayanır, ya da öz güclərinin 20-30 faizi həddində işləyir.

Bizdə böyük kimya sənayesi var. O da Rusiya sənayesinin müvafiq sahələri ilə inteqrasiya edilmişdir. Bu əlaqələr də itirilmişdir. Bizdə digər sahələr də çoxdur.

İndi ən çox hansı sahəyə kapital qoymağa səy göstərildiyindən danışmalı olsaq, deməliyəm ki, bu, neft sənayesidir. Bizim neft sənayesi böyük imkanlara malikdir. Siz bilirsiniz ki, Azərbaycan dünyanın ən iri neft şirkətləri ilə bir sıra müqavilələr bağlamışdır. Bu müqavilələrdən bəzilərində Rusiyanın "LUKoyl" kimi iri neft şirkəti də iştirak edir. Rusiyanın daha iki neft şirkətindən – "YUKAS"dan və digər iri neft şirkətindən təkliflər alınmışdır. Bu barədə Viktor Stepanoviç Çernomırdin mənə məktub göndərmişdir. Şübhə yoxdur ki, gələcək layihələrimizdə biz onlara müqavilələrimizin iştirakçıları olmağa imkan verəcəyik. Yəni bizim neft sənayesi dünya neft şirkətlərini getdikcə daha çox cəlb edir. Yaxşı ki, "LUKoyl" şirkətinin ardınca Rusiyanın daha iki şirkəti də bizə müraciət etmişdir.

Biz neft, kimya sənayesi, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, şərabçılıq, konserv senayesi kimi sahələrdə Rusiya ilə əməkdaşlıq etmək istəyirik. Axı bir vaxtlar Azərbaycan, o zaman deyildiyi kimi, "Ümumittifaq bostanı" idi, Rusiyaya faraş tərəvəz göndərirdi. İndi biz həmin torpaqlardan taxıl əkmək üçün istifadə edirik. Əvvəllər isə faraş tərəvəz yetişdirir və təxminən aprel ayında Rusiyanın mərkəzi hissəsinə təzə tərəvəz göndərirdik. Amma indi Rusiya bunu istəmir. Buna görə də biz həmin torpaqlarda taxıl əkirik ki, özümüzü çörəklə təmin edək.

Bir sözlə, böyük imkanlar var. Mən Rusiyanın iş adamlarını buraya dəvət edirəm, qoy gəlib əməkdaşlığımızın sahələrini müəyyənləşdirsinlər.

S u a l: Siz Mstislav Rostropoviç ilə görüş zamanı dediniz ki, Ermənistan prezidenti Levon Ter-Petrosyanla söhbət etmisiniz. Əgər mümkünsə, bu söhbət barədə ətraflı məlumat verin.

C a v a b: Bu söhbət təxminən üç gün əvvəl, aprelin 28-də İstanbulda olmuşdur. Lakin biz onunla vaxtaşırı görüşürük. Siz, məsələn, bilirsiniz ki, biz onunla martın 29-da Moskvada MDB dövlət başçılarının görüşündən sonra, aprelin 28-də isə İstanbulda görüşdük. Söhbətlərimizin başlıca mövzusu danışıqlar prosesinin irəliyə aparılmasına, bizə irəliləməyə imkan verməyən çətinliklərin aradan qaldırılmasına nail olmaqdır. Lakin son vaxtlar Minsk konfransının həmsədrləri – Rusiya, ABŞ və

Fransa öz fəaliyyətini gücləndirməyə başlamışlar. Rusiya prezidentinin xüsusi nümayəndəsi, səfir Yukalov bizdə olmuşdur. Biz onunla görüşdük. Həmsədrlərin, yəni ABŞ, Fransa və Rusiyanın nümayəndələri mayın 5-də Vaşinqtonda görüşüb hər hansı qarşılıqlı surətdə məqbul bir qərara gəlmək üçün bizimlə müzakirə olunmuş bəzi təklifləri müzakirə edəcəklər. Məsələ burasındadır ki, dekabrın əvvəllərində Lissabonda, ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında qətnamə qəbul edilmişdi. Demək olmaz ki, bu qətnamə bizim üçün tamamilə məqbuldur, lakin tam sülhə nail olmaq üçün biz onunla razılaşdıq. Amma təəssüflər olsun ki, Ermənistan bununla razılaşmadı.

Bu qətnamə üç bənddən ibarətdir. Birincisi – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması haqqındadır. Aydın olmaq üçün deyim ki, biz Ermənistanın ərazi bütövlüyünü tanımaqdan imtina etməmişik, özü də onun ərazi bütövlüyü pozulmayıbdır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü – beynəlxalq aləmdə qəbul olunmuş bu hüquq normasını, BMT-nin, Helsinki sazişinin, ATƏT-in bu prinsipini qəbul etməkdən indiyədək boyun qaçırır. Bax buna görə də birinci bənd məhz bundan – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasından ibarətdir. İkinci bənd – Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa geniş muxtariyyət və ya yüksək dərəcədə özünüidarə verilməsi barədədir ki, bu da hələlik Ermənistan tərəfində etiraz doğurur.

Üçüncü bənd isə Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı haqqındadır.

Bu prinsiplər, başçıları Lissabon görüşündə iştirak edən 53 dövlət tərəfindən qəbul olunubdur. ATƏT-in üzvlərindən yalnız Ermənistan bu prinsipləri qəbul etməkdən boyun qaçırıbdır. Biz çalışırıq ki, bu prinsiplər əsasında mövqelərin yaxınlaşmasına və sülh haqqında saziş əldə edilməsinə nail olaq. Bu məsələlər prezident Ter-Petrosyan ilə müzakirələrimizin mövzusu olmuşdur.

S u a 1: Cənab prezident, Mstislav Rostropoviçin yubileyinə bizi dəvət etdiyiniz üçün Gürcüstan televiziyası və Gürcüstanın mədəniyyət xadimləri adından çox sağ olun deyirəm, bu, bizim üçün böyük şərəfdir. Sizcə, Qafqazda və Zaqafqaziyada coğrafi-siyasi vəziyyətdə Azərbaycan və Gürcüstan nə kimi yer tuturlar? Sizin fikrinizcə, Qafqazda baş verən bütün bu mürəkkəb proseslərə bu iki ölkənin təsiri necədir? Üçüncü

sualım zarafat xarakteri daşıyır: Mstislav Rostropoviç bakılı olduğuna görə Siz ona Azərbaycan vətəndaşlığı verməyə hazırlaşmırsınız ki?

C a v a b: Birinci sualınızın cavabında deyirəm ki, Gürcüstan ilə Azərbaycan arasında son dərəcə yaxşı, dostluq, qardaşlıq münasibətləri var. Bu münasibətlər çoxdan mövcuddur, ötən dövrlərdə də beləcə olubdur. Son illərdə, Eduard Amvrosiyeviç Gürcüstanın prezidenti, Heydər Əliyev isə Azərbaycanın prezidenti olduqdan sonra isə bu münasibətlər xüsusilə dostluq xarakteri kəsb edibdir. Bəlkə də ona görə ki, keçmişdə biz Zaqafqaziyada çox mehriban işləmişik, ona görə ki, Eduard Amvrosiyeviç və mən bu münasibətlərin xalqlarımız üçün necə mühüm olduğunu hamıdan çox bilirik, bir də ona görə ki, bizim müəyyən təcrübəmiz var. Münasibətlərimiz çox yaxşıdır. Siz bilirsiniz ki, Gürcüstanda təqribən 500 min azərbaycanlı yaşayır. Bu da yaxşı məlumdur ki, onlar Gürcüstan üçün heç bir problem yaratmırlar. Üstəlik, onlar Gürcüstan hökumətinin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin siyasi xəttini, dövlət fəaliyyətini bütünlüklə dəstəkləyirlər.

Ötən ilin martında mənim Gürcüstana rəsmi səfərim zamanı Tbilisidə və bu ilin fevralında Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri zamanı Bakıda imzalanmış sənədlərdə bu münasibətlər özünün müqavilə-hüquqi əsasını tapıbdır. Biz Tbilisidə Qafqazda sülh haqqında çox mühüm saziş, Bakıda strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq.

O ki, qaldı Gürcüstanın və Azərbaycanın Qafqazda, bu regionda nə kimi yer tutmasına, hesab edirəm ki, çox mühüm yer tuturlar. Gürcüstanın və Azərbaycanın təkcə Qafqaz üçün deyil, həm də ümumən region üçün böyük əhəmiyyətini bəzi ölkələrdə bəlkə də qiymətləndirmirlər. Ancaq hesab edirəm ki, bu əhəmiyyət günbəgün və ilbəil hamı üçün daha bəlli və daha aydın olur.

Siz bilirsiniz ki, ötən ilin may ayında Gürcüstan, Azərbaycan, Türkmənistan və Özbəkistan Transqafqaz dəhlizinin yaradılması haqqında çox mühüm sənəd imzalamışlar. Artıq bu dəhliz ilə mərkəzi Asiyadan Avropaya və oradan mərkəzi Asiyaya yüklər daşınır. Qazaxıstan, Qırğızıstan və Ukrayna da artıq bu sazişə qoşulmuşlar. Mən İstanbulda Rumıniya prezidenti ilə görüşdüm. O, Transqafqaz dəhlizinə böyük maraq göstərir. Sözlərim digər Avropa ölkələrinə də aiddir. Bu, son dərəcə mühüm məsələdir və yüklərin daşınması ilə bağlı bir çox problemləri, Asiya ilə Avropa arasında kommunikasiya xətləri ilə bağlı problemləri həll edir. Bu dəhliz Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan və Qara dənizdən keçir.

Gürcüstanla Azərbaycanın Qafqazda necə böyük əhəmiyyətə malik olduğu barədə çox danışmaq olar. Hər iki ölkə dinc Qafqaz uğrunda, eləcə də öz ölkələrimizdə əmin-amanlıq yaradılması uğrunda çıxış edir. Biz Gürcüstana görə narahatlıq keçiririk, çünki orada da münaqişələr var, buna görə də istəyirik ki, bu münaqişələr tezliklə aradan qaldırılsın. Biz Gürcüstanın ərazi bütövlüyünü tamamilə dəstəkləyir və hesab edirik ki, hər hansı ölkənin ərazi bütövlüyü məsələsi birinci dərəcəli əhəmiyyətə malik məsələdir. Mən martın 29-da Moskvada Boris Nikolayeviç Yeltsinlə görüşərkən bu mövzu bizim diqqət mərkəzimizdə oldu. Mən ona dedim ki, Rusiyanın ərazi bütövlüyü sizin üçün nə dərəcədə vacibdirsə, Azərbaycanın da ərazi bütövlüyü Rusiya üçün bir o dərəcədə vacibdir. Rusiya dövləti Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünü qorumasa, onda öz ərazi bütövlüyünü də müdafiə edə bilməz. Rusiyanın ərazi bütövlüyü Qafqazda və ölkənin digər bölgələrində müxtəlif separatçılıq hərəkətləri ilə pozulur. Rusiya çoxmillətli ölkədir, çoxlu milli qurumlara malikdir, buna görə də ərazi bütövlüyü prinsipi Rusiya üçün olduqca böyük əhəmiyyət kəsb edir. Biz heç də təkcə öz ərazi bütövlüyümüz, öz suverenliyimiz uğrunda deyil, həm də beynəlxalq hüquq normalarının pozulmazlığı uğrunda, BMT prinsipləri uğrunda, 1975-ci ildə Helsinkidə təsdiq edilmiş prinsiplər uğrunda, ATƏT-in prinsipləri uğrunda mübarizə aparırıq. Bununla əlaqədar biz Gürcüstanın ərazi bütövlüyünün bərpa olunmasını istəyirik. Zənnimcə, Gürcüstanın ərazi bütövlüyü bərpa ediləcək və Gürcüstanda da, Azərbaycanda da, bütövlükdə Qafqazda da sülh olacaqdır, Gürcüstanla Azərbaycan bu baxımdan çox mühüm rol oynayır və oynayacaqlar.

Rostropoviç üçün vətəndaşlığa gəldikdə, axı o, dünya vətəndaşıdır və ona istənilən ölkədə, o cümlədən də Azərbaycanda vətəndaşlıq vermək olar.

S u a l: İndi bəzi politoloqlar deyirlər ki, nəsə müəyyən bir ox, "Bakı–Tbilisi–Kiyev" üçlər ittifaqı yaranır. Belə üçlər ittifaqı barədə nə demək olar?

C a v a b: Deməliyəm ki, təəssüflər olsun, Rusiyanın bəzi kütləvi informasiya vasitələrində hər cür uydurma fikirlər söylənilir və bu fikirlər ölkənin ictimaiyyətini çaşdırır. Mart ayının axırlarında "Nezavisimaya qazeta"da hansısa bir mərkəzin aşkar fitnəkar, qızışdırıcı, açığını deyim, faşistpərəst hesabatı dərc edilmişdi. Məgər belə şey etmək olar? Rusiyanı xilas etmək üçün Azərbaycanı, Gürcüstanı məhv etməyə çağırırlar. Yaxud başqa bir misal. Bu yaxınlarda hansısa təşəbbüslərin Ermənistan–

Rusiya mərkəzi "Zavtra" qəzetində xalqların arasını vurmağa, onların arasına nifaq salmağa çağıran dəhşətli bir məqalə dərc etmişdi. Bu, heç yaxşı olan işdir? Onlar nə kimi məqsəd güdürlər? Bəlkə bunun sayəsində sadəcə olaraq nəsə qazanmaq istəyirlər? Əgər onlar pul qazanmaq istəyirlərsə, onda qoy başqa, daha normal bir işdə pul qazansınlar. Yoxsa ki, ehtirasları coşdurmaq, xalqları toqquşdurmaq, onlardan bəzilərini yaxşı, digərlərini isə pis kimi qələmə vermək olmaz.

Yaxud da, məsələn, bəziləri Moskva qəzetlərində yazırlar ki, Qafqazda hansı xalq xristian, hansı isə müsəlmandır. Bəli, Azərbaycan islama etiqad edən ölkədir. Bu, bizim dinimizdir. Necə ki, xristian dini xristianlar, iudaizm yəhudilər üçündür. İslam bizim dinimizdir, biz heç vaxt ondan imtina etməyəcəyik. Ancaq əgər bu dinə etiqad edən ölkə Rostropoviçin yaradıcılığına həsr olunmuş bax, belə təntənələr keçirirsə, bu, kimin hansı dinə bağlı olduğunu deyil, başlıca, üstün cəhəti göstərir. Moskvada bəziləri yazır ki, Azərbaycanı sıxmaq lazımdır, çünki onlar müsəlmandırlar, ancaq başqaları xristiandırlar – bizə doğmadırlar.

Kimin xristian, kimin müsəlman olması barədə söz-söhbətə son qoymaq lazımdır. Biz hamımız bu Yer kürəsinin insanlarıyıq və hansı dinə, millətə mənsubluğumuzdan asılı olmayaraq, bir-birimizə hörmət etməli, bir-birimizi qiymətləndirməliyik. Rus xalqının da, erməni xalqının da, gürcü xalqının da, yəhudi xalqının da, Azərbaycan xalqının da mənəvi dəyərlərinə hörmət edilməlidir. Biz hamımız eyniyik və demək olmaz ki, bu birinci dərəcəli, bu ikinci dərəcəli, bu isə üçüncü dərəcəlidir.

Ona görə də Sizin dediyiniz o Gürcüstan–Azərbaycan–Ukrayna oxu da qorxu yaratmaq istəyən insanların uydurmasıdır. Burada nə ox var? Belarus ilə Rusiyanın ittifaqı yaradılan kimi, kimsə Moskvada dərhal elan etdi ki, Belarus–Rusiya–Çin oxu meydana gəlibdir. İkinci dünya müharibəsi ərəfəsində yaradılmış oxlardan bütün bəşəriyyət bəla çəkmişdir. Berlin–Tokio–Roma oxu xatirinizdədir, daha hansısa ox var idi. Mənə belə gəlir ki, bu xurafatlardan uzaqlaşmaq lazımdır.

Burada heç bir ox yoxdur, yalnız mehriban əməkdaşlıq var. Bəli, Transqafqaz dəhlizi haqqında sazişi əvvəlcə Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan imzalamışlar. Sonra isə enerji daşıyıcıları olmayan Ukrayna bu sazişə maraq göstərdi. Mən Ukraynada rəsmi səfərdə olmuşam, danışıqlarımız çox yaxşı keçmiş, çox yaxşı sənədlər imzalamışıq. Ukraynanın enerji daşıyıcılarına, neftə ehtiyacı var. Bizim isə neft hasilatında perspektivimiz böyükdür. Biz nefti ixrac edəcəyik. Axı, nə üçün onu Ukraynaya göndərə bilməyək? Biz isə oradan çoxlu başqa

şeylər alacağıq. Bundan ötrü də Gürcüstan, Azərbaycan ərazisindən keçən magistral – ən qısa nəqliyyat xətti də var. Nəyə görə bu, ox adlandırılmalıdır? Mən bunu rədd edirəm. Hesab edirəm ki, bütün bu sazişlərin əsası iqtisadi əməkdaşlıqdır.

S u a l: Siz Azərbaycan ilə Çin arasında münasibətlərin vəziyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?

C a v a b: Çinlə bizim yaxşı münasibətlərimiz var. Çoxdandır ki, Azərbaycanda Çin səfirliyi, Pekində isə Azərbaycan səfirliyi fəaliyyət göstərir. Çin Xalq Respublikasının sədri cənab Szyan Szeminin dəvəti ilə mən 1994-cü ildə Çində rəsmi səfərdə olmuşam və səfər çox uğurlu keçmişdir. Pekindən əlavə, mən Şanxaya da getdim, orada yaradılmış azad iqtisadi zona ilə, son onilliklər ərzində Çində həyata keçirilən iqtisadi islahatların bir çox nəticələri ilə tanış oldum. Cənab Szyan Szemin ilə bizim aramızda yaxşı münasibətlər yaranıbdır, mən onu və cənab Li Peni Azərbaycana dəvət etmişəm və onların buraya gəlişini gözləyirəm.

Çin ilə Azərbaycan arasında əməkdaşlıq üçün çox böyük imkanlar var. Doğrudur, ola bilsin, bu əməkdaşlıq hələ çox böyük miqyas almayıbdır. Ancaq biz Çinlə fəal iqtisadi əməkdaşlıq etmək istəyirik, Çin də buna maraq göstərir. Yeri gəlmişkən, bizim neft yataqlarımıza Çində maraq göstərməyə başlayıblar. Məlumat üçün bildirmək istəyirəm ki, Yaponiya artıq bizim iki böyük neft müqaviləmizdə iştirak edir və Azərbaycanın neft sənayesinin inkişafına investisiya qoyur. Bir sözlə, Yer kürəsinin həmin hissəsində yerləşən Çinin də belə imkanı var və biz bu imkanı ona veririk.

Bizim əməkdaşlığımız üçün yaxşı əsas ola biləcək digər sahələr də var. Biz Çin Xalq Respublikası ilə həm dostluq, həm də yaxşı əməkdaşlıq etmək istəyirik.

S u a l: İlkin neftin çıxarılmağa başlanması ərəfəsində Qarabağda cəbhədə vəziyyətin kəskinləşməsini gözləmək olarmı?

C a v a b: Mən vəziyyətin heç bir şəkildə kəskinləşməsini istəməzdim. Baş tutmuş olan və artıq üç ildir davam edən atəşkəsi yüksək qiymətləndirirəm. Mən İstanbulda biznes konfransında öz çıxışımda bir daha bildirdim ki, biz bu sazişə Böyük Sülh Sazişi imzalanan vaxtadək sadiq qalacağıq.

Əlbəttə, belə bir hal bizdə böyük narahatlıq doğurdu ki, 1994-1996-cı illər ərzində Rusiyanın müxtəlif strukturları Ermənistana qanunsuz, gizli, qeyri-leqal surətdə 1 milyard dollardan artıq məbləğdə olduqca böyük miqdarda silah göndərmişlər. Özü də bu silah növləri Rusiya mət-

buatında elan edildikdə bu, Azərbaycanda böyük narahatlıq, həyəcan, açığını deyim, vahimə yaratdı. Bu, nə üçün edilmişdir? Ermənistan bunu hansı məqsədlə edir? Görün, balaca, kiçik bir respublika nə qədər silah yığıb gətirir. Halbuki bu silah bir vaxt Ermənistanın özünü də partlada bilər. Nə üçün Rusiya oraya bu qədər silah göndərir? Məsələ də bax bundadır.

Siz bilirsinizmi ki, Dövlət Dumasında müzakirə oldu, Dövlət Duması materialları Rusiyanın baş prokurorluğuna göndərməyi qərara aldı. Bizə məlum olduğuna görə prokurorluq təhqiqat aparır. Dövlət Dumasının Müdafiə Komitəsinin məruzəsi həm baş prokurorluğa, həm də Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinə göndərilmişdir. Mən ona həmin silahların Rusiyaya qaytarılmasını təmin etmək xahişi ilə rəsmi məktub göndərmişəm. İndi bizi o qədər də maraqlandırmır ki, bu cinayəti kim törətmişdir və o, necə cəzalandırılacaq. Bu, Rusiyanın daxili işidir. Bizim üçün başlıcası budur ki, qanunsuz göndərilmiş bu silahların hamısı Ermənistandan alınıb Rusiyaya qaytarılsın.

Rusiya tərəfindən Ermənistana verilmiş bu qədər böyük miqdarda silahın olması, habelə Ermənistanın bundan əvvəl də malik olduğu silahlar çox böyük qorxu və təhlükə yaradır. Buna görə də hesab edirəm ki, atəşkəs rejiminin pozulmasına heç bir əsas vermək olmaz və əsla yol vermək olmaz ki, bu atəşkəsi kimsə hansı məqsədlərlə pozsun. Biz, öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, bu atəşkəs pozulmasın.

S u a l: Heydər Əliyeviç, indi bütöv bir sıra kütləvi informasiya vasitələrində müharibədən "Torpağın neftlə mübadiləsi" yolu ilə, Qərb politoloqlarının təbirincə desək, "məharətlə" çıxmağın mümkünlüyü məsələsi müzakirə edilir. Belə bir variant mümkündürmü ki, beynəlxalq zəmanətlərlə neft kəmərlərindən biri Ermənistandan keçsin və bu, işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması üçün əsas olsun? Sizdə bu məsələyə baxılmışdırmı?

C a v a b: Siz bilirsiniz ki, biz neft kəmərlərinin çəkilişini qabaqcadan planlaşdırmışıq. Onlardan biri ilkin neftin Rusiya ərazisi ilə nəql edilməsi üçün bizim ərazimizdən çəkilmişdir. Amma deməliyəm ki, təəssüflər olsun, Rusiya tərəfi öz öhdəliklərini yerinə yetirməyib. Biz öz ərazimizdə Rusiya ilə sərhədədək neft kəməri çəkməli idik, o, neft şirkətləri konsorsiumu tərəfindən inşa edilmişdir. Lakin biz bilmirik, neft kəmərinin Dağıstanda sərhəddən başlayıb Novorossiysk limanınadək Rusiya ərazisindən keçən hissəsi hansı vəziyyətdədir. Biz artıq indi neft kəməri ilə neft ixrac etmək istərdik və 1996-cı ilin yanvarında Moskvada

cənab Çernomırdinlə mən həmin neft kəməri haqqında saziş imzalayarkən belə bir razılaşma olmuşdur.

İndi Rusiya tərəfi bunu oktyabrda etməyə söz verir. Biz oktyabr ayınadək də gözləyəcəyik. Amma ümid etmək istərdik ki, bu vəd yerinə yetiriləcək və biz Rusiya ərazisi vasitəsi ilə neft ixrac edə biləcəyik.

Bilirsiniz, qəribə vəziyyət yaranıbdır. 1994-cü ildə biz müqavilə imzalayanda və neft kəmərləri haqqında söhbət başlananda Rusiyanın bəzi dairələrində narazılıq yarandı: necə ola bilər ki, bu neft Rusiyanın ərazisindən deyil, hansısa başqa ölkələrin ərazisindən keçsin? Biz ilk neft kəmərini məhz Rusiyaya istiqamətləndirdik, ancaq onun tərəfindən hazırlıq yoxdur. İkinci neft kəmərini Gürcüstan ərazisindən Qara dənizə doğru çəkirik, 1998-ci ilin axırında hazır olacaqdır. Ancaq gələn əsrin əvvəlində çıxardılacaq böyük nefti ixrac etmək üçün böyük neft kəməri lazımdır. Bu müqavilənin layihəsi üzrə həmin boru kəmərinin keçəcəyi marşrutun bir neçə variantı var. Sabitliyi, sülhü təmin etmək üçün, ancaq torpaqların qaytarılması əvəzində neft verilməsi üçün yox – mən məsələnin bu cür qoyulması ilə razı deyiləm – müharibəyə son qoymaq üçün, Ermənistanın da iqtisadi fayda götürməsi üçün bir neft kəmərinin Ermənistan ərazisi vasitəsilə Türkiyəyə çəkilməsini də variantlardan biri kimi nəzərdən keçirmək olar.

S u a l: Bu ilin fevralında, Gürcüstan prezidenti Eduard Şevardnadzenin Azərbaycana səfəri zamanı o və siz bəyan etdiniz ki, MDB daha demokratik və səmərəli olmalıdır. Sizin fikrinizcə, MDB-nin demokratikliyi və səmərəliliyi nədən ibarətdir? MDB-də inteqrasiya necə olmalıdır?

C a v a b: Demokratiklik çox aydın məsələdir. Müxtəlif beynəlxalq ittifaqlar – Avropa Birliyi, ASEAN və bir çox başqaları mövcuddur. Onların demokratiklik sahəsində böyük təcrübəsi var. Bu ittifaqların demokratikliyi göstərir ki, birliyə daxil olan bütün ölkələr bərabərhüquqlu olmalıdır, bir ölkənin öz iradəsini başqasına zorla qəbul etdirməyə ixtiyarı yoxdur və bunu etməməlidir. Gördüyünüz kimi, bu, çox adi və aydındır. Söhbət bundan gedir. Bu isə MDB-də hələlik çatışmır.

O ki, qaldı iqtisadi əməkdaşlığa, burada da bütün ölkələrə məsələyə eyni cür yanaşmağı, eyni modeli, eyni prinsipləri zorla qəbul etdirmək olmaz. Kimsə gömrük ittifaqı ilə razıdır, kim isə razı deyildir. Ancaq son nəticədə, əgər lazımdırsa ki, bu gömrük ittifaqı hamı üçün faydalı olsun, elə təklif verilməlidir ki, bütün ölkələri razı sala bilsin. Onda həmin göm-

rük ittifaqı – Avropa Birliyinin gömrük ittifaqı kimi – hamı üçün məqbul olacaqdır. Gömrük ittifaqı haqqında sənədi Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan imzalayıblar, qalanları isə imzalamayıblar. İndi Rusiya və Belarus hansısa bir ittifaq barədə sənəd imzalayıblar, onlar hələ öz aralarında mübahisə edirlər ki, bu, necə bir ittifaqdır, necəliyini hələ özləri də bilmirlər. Ona görə də çox məsələ var, bunlar da məhz onu göstərir ki, MDB-ni təkmilləşdirmək lazımdır.

S u a l: Azərbaycanda qaçqınların vəziyyəti necədir, onlar necə yaşayırlar?

C a v a b: Azərbaycanda qaçqınlar çox ağır vəziyyətdədirlər. Beş il qaçqın vəziyyətində olmaq, öz mənzili olmadan, şaxtalı qışda da, son dərəcə isti yayda da çadırda yaşamaq, inanın ki, çox ağırdır. Qaçqınların çadır düşərgələrində olmuş Qərb dövlətlərinin bəzi xadimləri oradan qayıtdıqdan sonra ağır təəssüratdan özlərinə gələ bilmirdilər. Məsələn, bir dəfə cənab Bjezinski buraya gəlmişdi, o da qaçqın düşərgələrində olmuşdu. Oradan qayıtdıqdan sonra mənimlə söhbət zamanı dedi ki, Fələstin qaçqınlarının, əfqan mücahidlərinin düşərgələrində, Afrikada olub, lakin belə vəziyyəti heç yerdə görməyibdir. Ancaq bizim xalqımız dözümlüdür, ən başlıcası isə bu insanlar bizim vədlərimizə inanırlar, inanırlar ki, Ermənistan silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan çıxarılmasına sülh yolu ilə, danışıqlar vasitəsilə nail olacağıq və qaçqınlar öz yaşayış yerlərinə qayıda biləcəklər.

Halbuki onların əvvəllər yaşadıqları yerlərdə indi hər şey dağıdılmış, qarət edilmişdir. Lakin mən bu fürsətdən istifadə edib Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı ehtirasları qızışdırmaq istəməzdim. Əksinə, hər şeyi etmək istəyirəm ki, sülh bərpa olunsun. Dünən konsert verilən muzeyin həyətində Azərbaycanın görkəmli adamları olan Üzeyir Hacıbəyovun, Bülbülün, Natəvanın tunc abidələri durur. Bu abidələr onların Vətənində, indi erməni silahlı birləşmələrinin işğalı altında olan Şuşada qoyulmuşdu. Bax, həmin abidələr gülləbaran edilmişdir. Sonra eşitdik ki, bu heykəlləri tunc kimi Gürcüstanın rayonlarından birində satırlar. Biz bu abidələri özümüzə qaytarmaq üçün bəzi şəxslərə təxminən 500 min dollar verdik və onlar indi muzeyin ərazisindədir. Bir baxın, bu tunc heykəllər üzərində nə kimi vəhşilik törədilmişdir.

İşğal olunmuş torpaqlarda hər şey – yaşayış evləri də, məktəblər də, xəstəxanalar da, fabriklər də, zavodlar da, mədəniyyət sarayları da, kitabxanalar da dağıdılmış, qarət edilmişdir. Camaat bunu bilir, amma deyirlər ki, onlara doğulduqları, əcdadlarının yaşamış olduqları doğma tor-

paq gərəkdir. Deyirlər: biz bu çılpaq torpaqda yaşayarıq, əvəzində hiss edərik ki, öz torpağımızdayıq.

Bir daha təkrar edirəm, qaçqınların vəziyyəti çox ağırdır. İstəsəniz, hətta Bakıda yataqxanalara gedə bilərsiniz, elə inzibati binalar var ki, biz onları qaçqınlara vermişik. Əlimizdən gələni etmişik. Əgər heç bir rahatlığı olmayan inzibati binanın kiçik bir otağında üç ailə və təxminən 10 uşaq qalırsa, onda siz bu adamların vəziyyətini təsəvvürünüzə gətirin. Hələ yaxşı ki, onlar çadırda deyil, binada yaşayırlar. Bununla belə, vəziyyət çox ağırdır. Amma məsələnin dincliklə həllinə nail olmaq üçün biz də dözürük, xalqımız da.

S u a l: Son illərdə Azərbaycan iqtisadiyyatında canlanma əmələ gəlmişdir. 1995-ci ildə iqtisadiyyatda durğunluq var idi və ümumi daxili məhsul 21 faiz azalmışdı, ancaq 1996-cı ildə 3,5 faiz artmışdır. İstehsalın həcmi kənd təsərrüfatında 3 faiz, neft kimyası sahəsində 1,5 faiz, maşınqayırmada 6 faiz artmışdır. Milli valyutanın – manatın məzənnəsi möhkəmlənmişdir. Bu o deməkdirmi ki, Azərbaycan iqtisadiyyatı böhrandan çıxmışdır?

C a v a b: Əvvəla, sağ olun ki, bizim rəqəmlərlə tanış olmusunuz. Yoxsa ki, mən onları imkan düşdükdə elan etmək istəyirdim.

Doğrudan da, Siz dediyiniz kimidir. Amma deyə bilmərəm ki, Azərbaycan iqtisadiyyatı böhrandan çıxmışdır. Ərazinin 20 faizi işğal altında olduğu, 1 milyon adam qaçqın vəziyyətinə düşdüyü və onların böyük əksəriyyəti işsiz qaldığı, bir çox sənaye müəssisələrimiz qeyd etdiyim hallarla əlaqədar ağır vəziyyətdə olduğu bir vaxtda biz hər halda iqtisadi yüksəlişə nail ola bilmişik və bu onu göstərir ki, böhrandan çıxırıq. Bu da 1994-cü, 1995-ci, 1996-cı illərdə həyata keçirdiyimiz və cari ildə də davam etdirdiyimiz iqtisadi siyasətin nəticəsidir. Təsəvvürə gətirin ki, biz öz büdcəmizi 1996-cı ildə yerinə yetirdik. Öyünmək istəmirəm, lakin Azərbaycanın cari il üçün dövlət büdcəsini 1996-cı ilin noyabrında təsdiq etdik. Həm də birinci kvartalın büdcəsi yerinə yetirilmişdir. Bilirəm ki, Rusiyada vergilərin toplanması uğrunda hər gün mübarizə gedir. Amma bizdə birinci kvartalda vergi yığılması planı artıqlaması ilə yerinə yetirilmiş və ötən ilin müvafıq kvartalı ilə müqayisədə vergilərin yığılması 50, yaxud 60 faiz artmışdır.

Bütün bunlar iqtisadi siyasətimizin, iqtisadiyyatı liberallaşdırmağın, özəlləşdirmənin, bir çox digər iqtisadi islahatların nəticəsidir. Siz yəqin bilirsiniz ki, biz torpaq islahatı haqqında, torpağın şəxsi mülkiyyətə verilməsi haqqında qanun qəbul etmişik. Bir az özümüzü tərifləyib de-

yə bilərəm ki, zənnimcə, digər MDB respublikalarında belə bir qanun hələ qəbul olunmayıbdır. Biz risqə getdik və hesab edirəm ki, bu, öz nəticələrini verəcəkdir.

Özəlləşdirmə fəal gedir. Biz bütün xarici ticarətimizi liberallaşdırmışıq. Bütün bunlar da öz nəticələrini verir. Bəli, bizim manatın dollara nisbətən məzənnəsi möhkəmlənmişdir. 1994-cü ildə bizdə inflyasiya 1600 faiz olduğu halda, indi, demək olar, yoxdur.

Əlbəttə, demək istəmirəm ki, biz böhrandan çıxmışıq. Bizim hələ çox problemlərimiz var. Amma böhrandan yavaş-yavaş çıxarıq. Hesab edirəm ki, 1997-ci il bu baxımdan mühüm müsbət iqtisadi irəliləyişlər ili olacaqdır.

S u a l: Məlumdur ki, Rostropoviç dissident olan vaxtlar Siz DTK-nın generalı idiniz. Bu, Sizin onunla münasibətlərinizə nə dərəcədə təsir göstərirdi? Ola bilsin ki, Siz o vaxtlar onun müqəddəratında müəyyən dərəcədə iştirak edirdiniz. Daha bir sual: belə bir fikir var ki, SSRİ-də yenidənqurmaya məhz DTK başlamışdı.

C a v a b: Bəli, mən DTK-nın generalı olmuşam. Bu, doğrudur. Bəziləri bunu həmişə mənim bioqrafiyamın mənfi səhifəsi kimi qələmə verməyə çalışırlar. Hesab edirəm ki, mənim bütün bioqrafiyam müsbətdir. Mən öz bioqrafiyamın bir sətrindən də imtina etmirəm və keçmişdə mənim həyatımda nə olmuşsa, hamısı ilə fəxr edirəm. Mən cavan yaşlarımdan Kommunist Partiyasının üzvü olmuşam, dövlət təhlükəsizliyi orqanlarında olmuşam, burada uzun illər ərzində xidmət etmişəm, burada dövlət təhlükəsizliyi naziri, general olmuşam. Bunların hamısı olubdur. Lakin 1969-cu ilin iyul ayında məni Azərbaycan KP MK-nın birinci katibi seçdilər, Rostropoviç isə 1974-cü ildə dissident olmuşdur.

Nə deyə bilərəm? Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim dövrdə də, respublikaya rəhbərlik etdiyim 14 il ərzində də Azərbaycanda dissidentlər olmayıbdır. Soruşa bilərsiniz: niyə? Dissidentlər olmağına olmuşdur, amma biz onları dissident hesab etmirdik. Yəni onları dissidentlik halına gətirib çıxarmırdıq, sadəcə olaraq dissidentlər axtarmırdıq.

Bizim bəzi gənc yazıçılarımız – indi onlar Azərbaycanın görkəmli yazıçılarıdır – var idi ki, onları 60–70-ci illərdə dissident etmək istəyirdilər. Mən hələ DTK-da işləyərkən Rüstəm İbrahimbəyov, Eldar Quliyev "Bir cənub şəhərində" adlı film çəkmişdilər, lakin yerli hakimiyyət orqanları filmin ekrana çıxarılmasını qadağan etmişdilər. Mən onda respublikanın rəhbəri deyil, DTK-nın sədri idim. Mübahisələr gedirdi,

onlar ərizələr yazmağa başladılar və mənə müraciət etdilər. Mən kinostudiyaya gedib bu filmə baxdım və dedim ki, onu ekrana buraxmaq lazımdır. Bunu respublikanın o vaxtkı rəhbərliyinə çatdırdım. Mən bu filmə yol verdim. Lakin sonra SSRİ-nin daxili işlər naziri Şelokov etirazını bildirdi, filmin qadağan olunmasına çalışdı, çünki bu filmdə milis işçilərinin rüşvətxorluğuna dair epizodlar var idi. Dissident filmi hesab edilən bu filmi mən ekrana buraxdım, halbuki filmin yaradıcılarını da dissident adlandırmaq istəyirdilər.

Yaxud başqa bir misal. Mən artıq respublikanın rəhbəri olarkən Rüstəm İbrahimbəyov "İstintaq" filmini çəkdi. Yeri gəlmişkən, bu filmdə baş rolu, müstəntiq rolunu Kalyagin oynayır. Respublikada bir çox rəhbər işçilər bu filmə baxıb dedilər ki, film onları gözdən salır, rüsvay edir, film göstərir ki, Azərbaycanda korrupsiya, rüşvətxorluq var və əgər onu bütün Sovet İttifaqında göstərsələr deyəcəklər: Azərbaycanda belə hallara yol verilir, halbuki rüşvətxorluq hər yerdə var. Mən dedim: bilirsinizmi, olan şeyə nə demək olar. Belə isə biz bunu niyə gizlətməliyik? Nə qədər çox gizlətsək, rüşvətxorluq üçün bir o qədər çox imkan olacaq. Qoy bilsinlər.

O vaxtlar bu film Dövlət mükafatına layiq görüldü və nəinki Sovet İttifaqının, hətta bir çox digər ölkələrin ekranlarına çıxarıldı. Demək istəyirəm ki, mən bu adamlara heç də dissident kimi baxmırdım, eləcə də hesab etmirdim ki, Rostropoviç dissidentdir. Mən belə düşünürdüm ki, o, düz hərəkət edir. Lakin o vaxtlar Rostropoviç və Qalina Vişnevskaya haqqında qəbul olunmuş qərara təsir göstərməyə haqqım və imkanım yox idi. Onları vətəndaşlıqdan məhrum etdilər və sair. Lakin sizə təəccüblü görünsə də, DTK generalı kimi mən həmin instansiyalarla, yəni Rostropoviçi dissident hesab edən instansiyalarla eyni rəydə deyildim.

Sizin ikinci sualınıza – yenidənqurma barədə sualınıza gəldikdə isə, bu, mürəkkəb sualdır. Prinsip etibarilə Andropov cəmiyyəti həqiqətən əsaslı şəkildə demokratikləşdirmək istəyirdi. Mən Andropov ilə yaxın idim. Mən Moskvaya işə dəvət ediləndə onunla bir il işlədim. Orada demokratikləşdirməyə dair həqiqətən çox xeyirxah arzular, niyyətlər, planlar var idi, çoxlu layihələr vardı. Təəssüf ki, sonralar bütün bu iş deformasiyaya uğradı və yenidənqurma sizin bildiyiniz şəkilə düşdü.

S u a l: Müxalifətlə Sizin qarşılıqlı münasibətləriniz necədir?

C a v a b: Respublikada müxalifətin olmasını normal hal sayıram. Bir halda ki, biz demokratik dövlət, cəmiyyət qururuq, deməli, burada hamı eyni cür ola bilməz. Şübhəsiz ki, müxtəlif baxışlar, fikirlər,

münasibətlər və sairə olmalıdır. Ona görə də bizdə müxalifət var, çoxlu müxalifət qəzetləri çıxır, partiyalar çoxdur, 30-a qədəri qeydiyyatdan keçmişdir, elə partiyalar da var ki, qeydiyyatdan keçməyib, ancaq özlərini partiya elan edirlər və heç kim də onlara demir ki, partiya deyilsiniz. Bir neçə nəfər partiyada cəmləşib, özlərinin də qəzeti var.

Müxalifətə mənim münasibətim normal, sakitdir. Ancaq istəyirəm ki, müxalifət sivilizasiyalı, normal olsun, Azərbaycanın qanunları və konstitusiyası çərçivəsində fəaliyyət göstərsin. Lakin təəssüf ki, Azərbaycanda bu müxalifətçilik lap əvvəldən başqa xarakter almışdır. Bizdə müxtəlif silahlı qruplar meydana çıxmışdır və təkcə adi deyil, həm də silahlı müxalifət, necə deyərlər, hərbi müxalifət var idi və mən burada onunla qarşılaşdım. Siz bilirsiniz, 1993-cü ildə burada vətəndaş müharibəsi başlandı. İş elə gətirmişdi ki, əvvəlki, kommunist hakimiyyətini devirərək hakimiyyətə gəlmiş və respublikada bir il hakimiyyətdə olmuş Xalq Cəbhəsi bu hakimiyyətə müəyyən dərəcədə həm də silah gücünə gəlmişdir. Sonra isə o, dövlət sistemi yaratmaq əvəzinə, həm bu, həm də digər tərəfdən olan müxtəlif qanunsuz silahlı dəstələri saxladı. Bu isə ona gətirib çıxardı ki, onların arasında hakimiyyət arzusunda olan insanlar 1993-cü ilin iyununda hakimiyyəti devirmək istədilər. Bu hakimiyyət isə özünü qorumağa qadir deyildi və vətəndaş müharibəsi başlandı. Məhz bu ağır dövrdə məni Bakıya dəvət etdilər, buraya gəldim və iyunun 15-də Azərbaycan parlamentinin sədri vəzifəsini öz üzərimə götürdüm.

Ancaq adamlarda bu xəstəlik qalmışdır. Hətta özlərini müxalifət hesab edənlər də, silahlı yolla hakimiyyəti yenidən devirməyi mümkün sayanlar da qalmışdır. İş belə gətirdi ki, 1994-cü ilin oktyabrında mən bu silahlı müxalifətlə, dövlət çevrilişi cəhdi ilə qarşılaşdım. Mən bu silahlı müxalifətə qarşı xalqın gücü ilə çıxış etdim. Siz yəqin bilirsiniz ki, mən gecə yarısı televiziya ilə xalqa müraciət etdim və saat yarımdan sonra bax, bu meydana yarım milyon insan toplaşdı. Qadınlar, kişilər, uşaqlar gəldilər, bir çoxları ayaqyalın idi. Adamlar silahsız gəldilər və silahlı qruplar heç nə edə bilmədilər. Doğrudur, sonra hərəsi bir yana qaçdı, bir çoxu Moskvada, Rusiyada və başqa yerlərdə yuva saldı.

Altı aydan sonra silahlı müxalifət başqa bir cəhd göstərdi. Dövlət strukturu olan XTPD hakimiyyətin tabeliyindən çıxdı və malik olduğu silahla, böyük miqdarda silahlı adamlar vasitəsilə hakimiyyəti devirməyi qərara aldı. Mövcud siyasi partiyaların demək olar hamısı bundan əvvəl devrilmiş Xalq Cəbhəsi, Müsavat partiyası, digər partiyalar, Moskvada olan Mütəllibov öz qrupları ilə və başqaları XTPD-yə qoşuldular.

Onların hamısı XTPD-nin rəisi polkovnik Rövşən Cavadovun ətrafında birləşərək ümid edirdilər ki, o, Əliyevin qanuni konstitusiya hakimiyyətini devirəcək və onlar Cavadovla birlikdə gəlib bu hakimiyyəti bölüşdürəcəklər. Bizim müxalifətin xarakterik xüsusiyyəti budur. Onlar silahlı yolla və ya terror yolu ilə hakimiyyətə gəlməyin mümkün olması fikrindən hələ indiyədək daşınmamışlar.

Məhkəmə gedir, onlar həbs olunmuşlar. Biz onları zərərsizləşdirə bildik. Onların bir qismi də Rusiyada idi. Həm Moskvada oturan həmin adamlar tərəfindən, həm də buradakı müxalifətçi adamlar tərəfindən birləşdirilmiş və istiqamətləndirilən böyük bir qrup; – yeri gəlmişkən, bu qrup omonçulardan ibarət idi, – ötən ilin dekabrında Dağıstandan keçib Azərbaycana soxulmuş və prezidentə hücum etməyə, onu öldürməyə və hakimiyyəti ələ keçirməyə çalışırdı. Amma şükürlər olsun ki, bütün bunları zərərləşdirməyə indi bizim kifayət qədər qüvvə və imkanlarımız var. Biz 50-dək adamı həbs etdik. Onlar nəinki günahlarını boyunlarına aldılar, həm də bütün bunları necə hazırladıqlarını açıb danışdılar.

Yaxud, götürək Surət Hüseynovu. 1993-cü ildə o, burada Xalq Cəbhəsinin hakimiyyətini devirməyə müvəffəq oldu və 1994-cü ildə dövlət çevrilişi etməyə cəhd göstərdi. O qaçıb Moskvada gizləndi. Bir ay, yaxud ay yarım bundan əvvəl biz Surət Hüseynoyu Rusiyada yaxaladıq, – yeri gəlmişkən, Rusiyanın Daxili İşlər Nazirliyinə bizə kömək etdiyinə görə sağ ol deyirik, – buraya gətirdik. İndi istintaq gedir. Bilirsinizmi, bax bu bizim müxtəlif müxalif qrup və qüvvələrimizin mənfi cəhətidir. Əgər onlar bu xəstəlikdən xilas olsalar, başa düşərlər ki, Azərbaycanda hakimiyyətə silah gücünə gəlmək olmaz, əgər hakimiyyət uğrunda sivilizasiyalı yolla mübarizə aparmaq istəyirlərsə, qoy yaşasınlar, mübarizə aparsınlar.

Axırda hər halda demək istərdim ki, mən bütün muxalif qüvvələrlə çox normal münasibətdəyəm, amma yalnız demokratiya, sivilizasiya, konstitusiya çərçivəsində fəaliyyət göstərən normal müxalifətlə.

Vəssalam? Çox sağ olun.

MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ VƏ KONSERT QURTARDIQDAN SONRA ÇIXIŞ

Respıblika Sarayı
2 may 1997-ci il

Çox hörmətli Mstislav Leopoldoviç, əziz dostum Slava!

Sizi Azərbaycanda, Bakı şəhərində keçirilən gözəl yubileyiniz və şübhəsiz ki, Azərbaycanın, onun mədəniyyətinin tarixinə ən parlaq səhifə kimi daxil olacaq bugünkü əla çıxışınız münasibətilə ürəkdən təbrik edirəm!

Görkəmli musiqiçi, bəstəkar, dirijor kimi, vətəndaş hüquqları, azadlıq, demokratiya uğrunda, zorakılığa və totalitarizmə qarşı böyük mübariz kimi Sizi Azərbaycanda yüksək qiymətləndirir, ehtiramınızı saxlayır, sevir, Sizə hörmət bəsləyirlər.

Sizin yaradıcılığınız dünya, ümumbəşər mədəniyyətinin ən parlaq tərkib hissəsinə çevrilmişdir. Fəxr edirik ki, Siz, belə görkəmli incəsənət, mədəniyyət xadimi, XX əsrin görkəmli vətəndaşı bizim həmyerlimiz, bakılısınız.

Sizin Azərbaycana, Bakıya sonuncu dəfə gəldiyiniz vaxtdan 25 ildən də çox keçir. Ondan az sonra Siz Sovetlər İttifaqını tərk etdiniz və şübhəsiz ki, Sizinlə ünsiyyətdə olmağa imkan yox idi. Ancaq bununla belə, inanın, Bakıda, Azərbaycanda bizim Azərbaycan xalqı Sizinlə idi, çünki Siz bu addımı həqiqət, ədalət, şərəf, vicdan naminə atmışdınız.

Sözün həqiqi mənasında, Azərbaycanda Rostropoviç həftəsinə çevrilmiş həftə başa çatır. Bu həftə Azərbaycan vətəndaşlarına, hamımıza Sizinlə ünsiyyətdə olmaq, Sizin sənətinizlə, musiqinizlə, yaradıcılığınızla təmasda olmaq imkanı verdi. Burada, Bakıda, Azərbaycanda keçirdiyiniz çoxsaylı görüşlər silinməz təəssürat yaradır. Özünüz hiss edirsiniz ki, insanlar Sizin buraya gəlməyinizə sevinirlər. Hamı Sizi məftunluqla qarşılayır, bu cür yüksək hörmətə və yüksək ehtirama layiq olduğunuz üçün Sizə öz hisslərini ifadə edirlər.

Bu gün biz simfonik musiqidən ibarət gözəl konsertin şahidi olduq. Bir azərbaycanlı, Azərbaycanın prezidenti kimi fəxr edirəm ki, Azərbay-

can xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik. Əziz Slava, bütün bunlarda 20-ci illərin əvvəlində Azərbaycana gəlmiş Sizin atanızın böyük xidməti var. O, Azərbaycanın qabaqcıl insanları ilə birlikdə, böyük Üzeyir Hacıbəyovla birlikdə peşəkar musiqinin, ali musiqi təhsilinin əsasını qoymuşdur. Biz bunlarla fəxr edirik və bu gün o, gözəl dinləyicilər qarşısında çox əla təqdim olundu.

Slava, biz Sizi tanıyırıq, Sizin valideynlərinizi tərifləyirik. Belə görkəmli insanı məhz onlar yetirmişlər. Ona görə də Sizin barənizdə danışarkən, şübhəsiz ki, valideynlərinizin də şərəfini uca tuturuq. Bu gün mən qərar qəbul etmişəm ki, Sizin doğulduğunuz, valideynlərinizin yaşadıqları, Sizin uşaqlıq illərinizin keçdiyi mənzil indən belə Rostropoviçlərin xatirə ev-muzeyi olacaqdır.

Əziz Slava, Sizə bütün Azərbaycan xalqının dərin hörmət hissini, məhəbbət hisslərini çatdırır və bundan sonra da uzun illər səmərəli yaradıcılıq, səadət və xoş həyat arzulayıram.

Bu gün Sizi təbrik edərkən burada iştirak edən, bizimlə birlikdə olan Qalina Pavlovna Vişnevskaya haqqında danışmalıyıq. Mən ona son dərəcə minnətdaram ki, dəvətimi qəbul edib və Azərbaycana gəlibdir. Mən görkəmli müğənni Qalina Pavlovna Vişnevskayanı salamlayıram. Bizim dostumuz Rostropoviçin sədaqətli silahdaşı olan insanı salamlayıram. Onlar birlikdə musiqini də, incəsənəti də, insan ləyaqətini də şöhrətləndirmişlər.

Sağ olun.

İZMİRDƏ "BAKI PARKI"nın AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

7 may 1997-ci il

Hörmətli vali, hörmətli bələdiyyə başkanı,
Hörmətli nazir!
Hörmətli dostlar, qardaşlar!

Mən bu gün Türkiyəyə rəsmi səfərim çərçivəsində Türkiyənin gözəl bir guşəsi olan İzmir şəhərinə gəlməyimdən çox səadət duyuram və hamınızı, Sizin simanızda İzmir şəhərinin bütün vətəndaşlarını, sakinlərini ürəkdən salamlayır, Sizə Azərbaycan xalqının, Bakının salamını, hörmət-ehtiramını çatdırıram.

Bu günlər biz Türkiyədə çox görüşlər keçirmiş, çox danışıqlar aparmışıq, çox əhəmiyyətli anlaşmalar, müqavilələr imzalamışıq. Bunların hamısı bir məqsəd – Türkiyə–Azərbaycan dostluğunun daha da inkişafını təmin etmək, türk xalqını və Azərbaycan xalqını bir-birinə daha sıx bağlamaq məqsədi daşıyır.

Bu, bizim ali vəzifəmizdir və bunu yerinə yetirmək üçün də Türkiyəyə gəlmişik. Türkiyənin cümhur başkanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə rəsmi ziyarətə gəlmişəm.

Biz bu günlərdə bir daha gördük, bir daha hiss etdik ki, türk–Azərbaycan xalqlarının dostluq və qardaşlığı nə qədər dərindir, güclüdür, nə qədər möhkəmdir. Bu dostluğun, qardaşlığın tarixi çox böyükdür. Əgər tarixi götürsək, bizim tariximiz də, keçmişimiz də, dilimiz də, dinimiz də, məsləkimiz də, adət-ənənələrimiz də, musiqimiz də, mədəniyyətimiz də birdir. Bir-birindən fərqi sadəcə ondan ibarətdir ki, – necə ki, İstanbul ilə İzmirdə bir fərq var, yaxud da Ərzurumla Qayseridə bir fərq var, yaxud Adana ilə Diyarbəkrdə bir fərq var, – ola bilər Türkiyə ilə Azərbaycanda da belə bir fərq olsun. Amma bu fərq sadəcə, bizim eyni zamanda ümumi mənəvi dəyərlərimizin, mədəni, şüuri dəyərlərimizin hamısının çoxcəhətli, çoxşaxəli, çoxbudaqlı olmasını göstərir. Yəni biz böyük bir çinar ağacının budaqlarıyıq və bu da o qədər möhkəm çinardır ki, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi bir-birimizdən ayırmaq istədilərsə də bacarmadılar. Bizim qəlbimiz, bizi

bir-birimizə bağlayan tellər, mənəviyyat dostluğumuzu, qardaşlığımızı, birliyimizi qorudu, saxladı.

Bu günlərdə biz bu dostluğumuzun, qardaşlığımızın yeni nümayişini görürük. Şübhəsiz ki, bunlar bizi həddən ziyadə sevindirir. Bu günlərdə biz Türkiyədə Azərbaycan barəsində çox yüksək dostluq-qardaşlıq münasibətlərini, böyük qonaqpərvərlik, hərarətli qəbul hiss edirik. Bunların hamısına görə türk xalqına, Türkiyə Cümhuriyyətinə təşəkkür edirəm. Bu gün İzmirə gələndən indiyə qədər, bir neçə saat içində birbirimizə nə qədər bağlı olduğumuzu hiss edirik. Bizə göstərdiyiniz bu hörmət və ehtirama, qayğıya, diqqətə görə sizə təşəkkür edir və sizi əmin edirəm ki, Azərbaycan xalqı bunların hamısını yüksək qiymətləndirir. Xalqımızda, hər bir azərbaycanlıda bu hissiyyatlar burada gördüyümüzdən qat-qat çoxdur.

İzmir şəhəri ilə Azərbaycanın paytaxtı, başkəndi Bakı şəhəri arasında on iki il bundan öncə qardaşlıq haqqında müqavilə imzalanması böyük hadisə olmuşdur. Bilirsiniz ki, mən o illərdə həm Azərbaycanın, həm də Sovetlər Birliyinin başında duran şəxs olmuşam. O illərdə bizə Türkiyə ilə əlaqə saxlamağa imkan vermirdilər. Xatirimdədir, Bakı dünyanın bir çox şəhərləri ilə qardaşlaşmışdı, məsələn, Amerikanın, Fransanın, İngiltərənin, Şərqi Avropada olan Rumıniyanın, Macarıstanın, başqa ölkələrin şəhərləri ilə qardaşlaşmışdı.

Amma Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Çünki əgər o şəhərlərlə doğrudan da yeni bir qardaşlıq qururduqsa, bizim bu qardaşlığımıza kəc baxan, yəni buna zidd olan qüvvələr, – onlar bizim ətrafımızda daim çox olubdur, – heç də istəməzdilər ki, bizim bu qardaşlığımız yenidən baş versin. Yəni on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr qardaşlaşma əlaqəsi deyil, – biz doğulandan qardaşıq, ata-babalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq. Sadəcə, İzmir ilə Bakı arasında xüsusi əlaqələr yaranması haqqında müqavilə bağlanıbdır. Ona görə mən hesab edirəm ki, bizim qardaşlığımız qədimdir, dünyada xalqlarımız yaranandan mövcud olan qardaşlıqdır. Bu əlaqələr isə həmin qardaşlığı müəyyən mənada sənədləşdirmək, kağız üzərində əks etdirmək kimi bir tədbirdir.

Türkiyə–Azərbaycan, İzmir–Bakı daim qardaş olublar, bu gün də qardaşdırlar, gələcəkdə də qardaş olacaqlar. Bunun da təzahürü olaraq Bakıda ən gözəl guşələrdən, parklardan birinə "İzmir" adı verilibdir. Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın

gözəl bir hissəsinə "Bakı" adı verilibdir. Bu təşəbbüs, hadisə münasibətilə İzmirin başçılarına, başkanlarına təşəkkürümü bildirir, sizin hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü bu törən, mərasim, bayram başqa şəhərlərdə də davam edəcək, biz Türkiyə–Azərbaycan qardaşlığını addım-addım, gündən-günə genişləndirəcək, inkişaf etdirəcəyik.

Türkiyə böyük dövlətdir, dünya miqyasında özünəməxsus görkəmli yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Amma bizim əlaqələrimiz qədimdir. Azərbaycanın dövlət müstəqilliyi əldə ediləndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr son illərdə çox bəhrələr verib, çox nəticələrə gətirib çıxarıbdır. Məhz bu əlaqələrin nəticəsidir ki, indi Türkiyənin universitetlərində, o cümlədən burada, İzmir universitetlərində Azərbaycanın gəncləri də təhsil alır, müstəqil Azərbaycanın cürbəcür sahələrində işləməyə hazırlaşırlar.

Görürsünüz, biz bir-birimizə nə qədər yaxın oluruq. İzmirdə universitetdə təhsil alan gənc, tələbə nitq söylədi. O, azərbaycanlıdır, naxçıvanlıdır, orada Nehrəm adlı məşhur yer var, o kənddəndir. Ancaq o, təmiz türk ləhcəsində danışdı. Bizim dilimiz birdir, amma sadəcə ləhcələrimizdə fərq var. Mən Azərbaycan ləhcəsində danışıram. O da bir-iki il öncə mən danışdığım ləhcədə danışırdı, amma iki il burada təhsil alandan sonra buranın ləhcəsində danışır. Demək, bu onun buraya, burada aldığı təhsilə, buradakı mühitə nə qədər alışdığını, eyni zamanda Türkiyəyə, İzmirə, bu mühitə nə qədər məhəbbəti, sevgisi olduğunu göstərir. Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə–Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik. Biz bunu edəcəyik.

Müstəqil Azərbaycanın həyatında bir çox problemlər var. Bu problemlərdən ən ağırı, ən bəlalısı Ermənistanın Azərbaycana təcavüzüdür. Bildiyiniz kimi, 1988-ci ildə Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ hissəsini ələ keçirmək üçün ölkəmizə hərbi təcavüz ediblər. Bəzi dövlətlərin yardımı vasitəsilə və bəzi başqa səbəblərə görə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşübdür, qaçqın-köçkün vəziyyətində çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Üç ildir ki, biz atəşi dayandırmışıq, qan tökülmür, üç ildir ki, şəhidlər yoxdur. Ancaq eyni zamanda hələ sülh də yoxdur. Biz məsələni sülh yolu ilə həll etmək istəyir, sülh danışıqları aparırıq. Keçən ilin

sonunda Lissabonda ATƏT-in Zirvə görüşündə məsələnin sülh yolu ilə həlli üçün uyğun prinsiplər əldə olunub, qərar qəbul edilibdir. Biz Lissabon prinsipləri əsasında sülh danışıqları aparıb Azərbaycanın işğal olunmuş torpaqlarını sülh yolu ilə azad etmək istəyirik. Buna nail olmağa çalışırıq və mütləq nail olacağıq.

Bütün bu tədbirlərin həyata keçirilməsində Türkiyə daim Azərbaycana dayaq olub, daim Azərbaycanla bir yerdə olubdur. Ümidvaram ki, bundan sonra da bir yerdə olacaqdır. Ancaq bu gün burada onu da demək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayacaqdır. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Biz dövlət müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik.

Azərbaycan işğal olunmuş torpaqlarını azad edəcək və özünün ərazi bütövlüyünü bərpa edəcək, dövlət sərhədlərinin, hüdudlarının toxunulmazlığını təmin edəcəkdir. Əgər sülh danışıqları nəticə verməsə, Azərbaycan işğal edilmiş torpaqlarını nəyin bahasına olursa-olsun azad etməlidir. Biz torpaqlarımızın bir qarışını, bir metrini də heç kəsə verməyəcəyik və Azərbaycanın müstəqilliyini, baxımsızlığını, ərazi bütövlüyünü daim qoruyacağıq. Əminəm ki, türk xalqı, Türkiyə Cümhuriyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə bərabər olacaqdır.

Bizim gələcək zəfərlərimizin, nailiyyətlərimizin, qələbələrimizin əsası, zəmini türk–Azərbaycan, Türkiyə–Azərbaycan dostluğudur. Bu dostluğa eşq olsun!

Yaşasın türk xalqı!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın sarsılmaz Türkiyə–Azərbaycan dostluğu və qardaşlığı!

Sağ olun!

XALQ ARTİSTİ
SARA XANIM QƏDİMOVAYA

Bakı şəhdri
31 may 1997-ci il

Hörmətli Sara xanım!

Sizi – Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan müğənnimizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz xalqımızın qəlbində əbədi məskən salmış sənətkar olaraq mahnı və muğamlarımızın mahir ifaçısı kimi milli musiqimizin klassikləri sıralarında yer tutmusunuz. Füsunkar Qarabağ təbiətinin zənginliyi ilə köklənmiş ecazkar səsinizlə yeni həyat verdiyiniz mahnı və muğamlar Azərbaycan musiqi sənətinin qızıl fonduna həmişəlik daxil olmuşdur. Milli opera səhnəsində yaratdığınız unudulmaz obrazlar musiqi mədəniyyəti tariximizdə silinməz izlər qoymuşdur.

Sizin yaradıcılıq yolunuz yeni nəsillər üçün əsil vətənpərvərlik, fədakarlıq və sənətə sədaqət nümunəsi olmuşdur. Vətən və xalq qarşısındakı xidmətləriniz ayrı-ayrı dövrlərdə yüksək dövlət mükafatları ilə qeyd olunmuşdur. Ən böyük mükafatınız isə milyonlara xoş əhval-ruhiyyə bəxş edən sənətinizlə qazandığınız ümumxalq məhəbbətidir.

Yubileyiniz münasibətilə Sizi salamlayır, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, işinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

GÖRKƏMLİ MÜĞƏNNİ VƏ MUSİQİÇİ İOSİF KOBZONUN BAKIDA "VİDA QASTROLU" ZAMANI ONUNLA SÖHBƏTDƏN

Respublika sarayı
5 iyun 1997-ci il

Hörmətli İosif Davıdoviç!

Mən Sizi Azərbaycan torpağında, respublikamızın paytaxtı Bakıda, bu möhtəşəm sarayda ürəkdən salamlayır və deyirəm ki, sizin gəlməyinizdən olduqca şadam və dinləyiciləri necə məmnun etdiyinizi özünüz görürsünüz. Bundan əlavə, özünüz şahidsiniz ki, salonda bizim televiziyanın kameraları qoyulmuşdur, bu konserti bütünlüklə lentə çəkirlər və sonra Azərbaycanın bütün sakinlərinə göstərəcəklər. Bu, böyük hadisədir. Salonda bütün yaşlardan olan adamlar var və Sizin ifa etdiyiniz mahnıları yaxşı qarşılayırlar.

Məndən soruşdunuz ki, Sizin üçün nə oxuyum? Mənim istədiklərimin hamısını oxudunuz. Əlbəttə, o vaxtların, 60–70-ci illərin mahnıları gözəl idi. O illərdə biz cavan idik, lakin bu mahnılar da ölməzdir. Məsələn, "Qara gözlər" mahnısı. Bu mahnı xaricdən gəlib, o vaxt da çox məşhur idi, indi də məhşurdur. O, yaşadı, yaşayır və bundan sonra da yaşayacaqdır. Sizin oxuduğunuz digər mahnılar da beləcə yaşayacaqdır. Məsələn, salondan Sizə dedilər ki, "Durnalar" mahnısını oxuyasınız. Nə qədər gözəl mahnıdır! Bu mahnının necə yaranması mənim xatirimdədir. Mərhum Frenkel onu Rəsul Həmzətovun sözlərinə bəstələmişdi. Həqiqətən ölməz mahnıdır, 60-cı illərdə "Bizim həyətdə" mahnısı da çox məşhur idi. Mən bu mahnını ilk dəfə Maya Kristalinskayanın ifasında eşitmişəm. Onun bu mahnını necə gözəl oxuması xatirimdə qalıbdır. Sonralar bu mahnını o qədər sevdik ki, evimizdə həyat yoldaşım onu özü çalıb oxuyurdu. Bu mahnı həmişə mənimlə birlikdə olubdur. İndi isə uzun fasilədən sonra mən həmin mahnını yenidən eşitdim. Bilirsiniz, mənə nə qədər böyük təsir bağışladı.

Sizi hamı tanıyır, o cümlədən mən də görkəmli müğənni və musiqiçi kimi, qeyri-adi qabiliyyətə malik insan kimi tanıyıram. Məncə, Sizin kimi yorulmaq bilməyən insan, müğənni yoxdur. Bilirsiniz, bir dəfəyə, fasiləsiz olaraq bu qədər çox və çətin mahnıları gözəl səslə və parlaq şəkildə ifa etmək

– bu Sizə bəxş edilmiş Allah vergisidir. Üstəlik, Siz yorulmaq bilmirsiniz. Bəlkə də bunu deməyim o qədər də yerinə düşmür, ancaq mən də son dərəcə böyük həcmdə iş görməli oluram. Çox çıxış etmək, nitqlər söyləmək, xaricdən gələn müxtəlif nümayəndə heyətlərini qəbul edərkən çox danışmaq lazım gəlir. Həm də sadəcə olaraq söhbət etmək deyil, mən məsələləri müzakirə və həll edirəm. Amma bir var ki, işgüzar şəraitdə danışasan, bir də var oxuyasan, axı, hər mahnının öz xüsusiyyəti, öz çalarları var. Mən bunların hamısına fikir verirdim. Axı mahnıların hamısı eyni qəbildən, eyni janrda, xarakterdə deyil, hamısı eyni səslə oxunmur, hər şey dəyişir.

Bu baxımdan Siz, şübhəsiz, nadir insan, nadir müğənni, nadir musiqiçisiniz. Mən çox şadam ki, Siz buraya gəlmisiniz. Sevdiyiniz bütün şəhərlərə, keçmiş ittifaqın şəhərlərinə belə qastrol səfərinə çıxmağınızın özü də gözəl təşəbbüsdür. Belə hesab edirsiniz ki, "Vida qastroluna" çıxmısınız, amma mənə elə gəlir ki, bu, vida qastrolu deyildir. Bunu gələcək göstərəcək, ola bilsin, bəlkə də məqsədiniz məhz budur, amma daha böyük iş görürsünüz. Siz vaxtilə bir dövlətin tərkibində olan insanları, xalqları, respublikaları əlaqələndirirsiniz.

Şübhəsiz, Sizin ifa etdiyiniz mahnılar bu və ya başqa dərəcədə bizim respublikamızda yaşayır. Ancaq Siz onları adamların yaddaşında təzələyir, canlandırırsınız. Siz onları yada salır və yeni gümrahlıq verirsiniz – bu, böyük işdir. Dediniz ki, Bakı səfərə çıxdığınız on birinci şəhərdir. İndiyədək olduğunuz respublikalara necə fayda verdiyinizi təsəvvür edirəm. Amma mən bunu məhz bizim respublikamız, xalqımız üçün, insanlarımız, vətəndaşlarımız üçün böyük faydasının olması baxımından qiymətləndirirəm. Çünki mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir şey, heç bir vasitə oynaya bilməz. Siz bunu çox əla edirsiniz. Sizin bu missiyanız sadəcə olaraq qastrol səfəri, qarşıdakı yubileyinizlə əlaqədar şəhərlərdə olub konsertlər vermək deyildir. Bu, əlaqələrin, dostluğun möhkəmlənməsinə, qiymətli və əziz nə varsa, hamısını möhkəmləndirməyə xidmət edən böyük işdir.

Mən Sizə minnətdaram. Bilirdim ki, gələcəksiniz və hətta Sizdən məktub da almışdım. Dərhal da Sizə cavab verdim ki, bu təklifinizi məmnuniyyətlə qəbul edirəm. Bu gün işlərim çox idi, böyük çətinliklə onları qurtardım və iş otağımdan birbaşa buraya gəldim. Sizinlə görüşməyimdən çox şadam, özü də təkcə ona görə yox ki, əla çıxış edirsiniz, bu cür gözəl formadasınız, həm də ona görə ki, bu salona toplaşmış, Sizi belə səmimi və hərarətlə qarşılayan adamlarımıza çox böyük zövq verirsiniz. Sizə təşəkkür

edir, Sizi təbrik edirəm. O ki qaldı "Vida qastroluna", hesab edirəm ki, bu vida olmayacaqdır. Əlbəttə, sentyabrın 11-də biz Sizin 60 illik yubileyinizi keçirəcəyik, amma bundan sonra Siz dayana bilməyəcəksiniz. Belə potensialla, belə səslə, bu cür yorulmazlıqla, enerji ilə Siz evdə oturub qəzet oxuya bilməzsiniz. Mən bilirəm ki, Sizin başqa bir işiniz olmayıb, Sizin həyatınız musiqi, mahnıdır. Xatirimdədir, nə vaxtsa tərcümeyi-halımızı danışırdınız ki, uşaq yaşlarından fitri istedada malik olmusunuz və o da Sizi incəsənətə gətiribdir. Ona görə də Siz incəsənətdən kənarda qalmayacaqsınız.

Mən Sizə hələ uzun illər səhnə fəaliyyəti arzulayıram. Bunun üçün Sizin imkanlarınız da, çox böyük potensialınız da var və bunu heç bir halda söndürmək olmaz. Sizə uğurlar arzulayır, bir daha təşəkkür edirəm. Çox şadam ki, xanımınızla gəlmisiniz.

Mən orkestrin üzvlərinə və onların rəhbəri Nikolay Nekrasova da ən səmimi sözlərimi yetirmək, hörmət və minnətdarlıq hisslərimi bildirmək istəyirəm. Sizin orkestr çox məşhurdur, onu hamı sevir, o cümlədən şəxsən mən də çox sevirəm. Mən Sizin orkestri çoxdan tanıyıram, Sizin sənətinizin, yaradıcılığınızın pərəstişkarıyam və çox xoşdur ki, yaşadığımız və indi yaşamaqda olduğumuz dövrün bütün çətinliklərinə baxmayaraq, orkestri on il əvvəl Moskvada yaşayarkən gördüyüm kimi yaxşı vəziyyətdə saxlaya bilmisiniz. Ona görə də Sizi təbrik edir və buraya gəldiyiniz üçün təşəkkürümü bildirirəm. Sizin yaradıcılıq əməkdaşlığınız mənim xoşuma gəlir, bu, çox gözəldir, ona görə də kollektivinizin bütün üzvlərinə, bütün musiqiçilərə mənim ən xoş arzularımı çatdırın.

Gözəl çıxışınız münasibətilə hamınızı təbrik edirəm. Şübhəsiz, pianoçunu da xüsusi qeyd etmək lazımdır, bu gün o, əla çalırdı. Melodiyanı dərhal duyub ifa edən musiqiçiləri mən çox sevirəm. Mən cavanlığımda musiqiçilərlə dostluq edirdim. Bizim çoxlu yaxşı musiqiçilərimiz vardı. Niyazi, Çingiz Sadıqov, – deyirlər o, artıq buradan gedib, – Tofiq Quliyev. Yenə öz ailəmə qayıdıram. Həyat yoldaşım və onun bacısı gözəl çalırdılar və birinci dəfədən hər şeyi ifa edirdilər. Elə olurdu ki, haradasa görüşürdük və kim isə hansısa mahnını zümzümə edirdi, həyat yoldaşım dərhal royalın arxasına keçir və o saat da çalmağa başlayırdı. Bu, mənim çox xoşuma gəlir. Mən bu gün görürdüm ki, pianoçu sadəcə olaraq çalmır, o, bütün mahnıları bilir. Eyni zamanda o, İosif Davıdoviçin nəyi oxumaq istədiyini də bilir, hiss edir və dərhal çalırdı. Bax, beləcə əlaqə və qarşılıqlı yaradıcılıq anlaşması və şübhəsiz, gözəl ifaçılıq var. Ona görə Sizi də təbrik edirəm. Çox şadam ki, gəlmisiniz. Sizin hamınıza təşəkkürümü bildirirəm.

BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU SƏMƏD VURĞUNUN "FƏRHAD VƏ ŞİRİN" PYESİNİN YENİ QURULUŞDA TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı
7 iyun 1997-ci il

Mən pyesə böyük məmnunluqla tamaşa etdim, əsərin yeni quruluşunu və tərtibatını, aktyorların sənətkarlığını yüksək qiymətləndirirəm. Mən bu əsərə hələ 40-cı illərdə baxdığımı yaxşı xatırlayıram. Bu gün də tamaşanın yeni quruluşundan sevinc və iftixar hissi duyduğumu bildirirəm.

"Fərhad və Şirin" çox yüksək qiymətə layiq əsərdir və tamaşanın uzunömürlü olması təsadüfi deyil. Bu, böyük şairimiz Səməd Vurğunun xalqımıza, mədəniyyətimizə bəxş etdiyi ən böyük töhfələrdən biridir, onun ən gözəl yadigarıdır. Tamaşa xalq şairinin 90 illik yubileyinə qədər hazırlanmalı idi, lakin bəzi səbəblərə görə bir qədər gecikdi.

Bildirməliyəm ki, hamı kimi mən özüm də tamaşanı çox səbirsizliklə gözləyirdim. Bu gün teatrsevərlərə orijinal quruluşda hazırlanmış tamaşa təqdim etdiyinizə görə yaradıcı kollektivinizə bir daha təşəkkür edirəm.

Səməd Vurğunun dahi şair, dramaturq, yazıçı, filosof, alim olduğunu cəmiyyətimiz bir daha dərk edir. O, həqiqətən çox dəyərli irs qoyubdur. Onun adı da, əsərləri, yaradıcılığı da yaşayır. Məhz buna görə də Səməd Vurğunun 90 illik yubileyini biz təntənə ilə, onun adına, yaradıcılığına layiq keçirdik. Siz isə öz vəzifənizi yüksək səviyyədə, Səməd Vurğunun yaradıcılığına layiq şəkildə həyata keçirdiniz. Bu, bizim Azərbaycan teatr sənətinin, Milli Dram Teatrının böyük müvəffəqiyyəti və uğurudur.

Mən milli teatrın kollektivini bu yaradıcılıq müvəffəqiyyəti münasibətilə bir daha ürəkdən təbrik edir və ona gələcəkdə daha böyük uğurlar arzulayıram.

Bildirmək istəyirəm ki, "Fərhad və Şirin" öz məzmunu, mənası, mənəvi dəyərləri ilə həddindən artıq təsiredicidir, ibrətamizdir və bu

əsərin məzmunu, mənası, süjeti daim aktualdır. Bu əsər insan münasibətlərində pak, saf sevgi-məhəbbətin nə qədər güclü, nə qədər ülvi olmasını, eyni zamanda xəyanətin, satqınlığın nə qədər nifrət və ikrah hissləri doğurduğunu parlaq surətdə göstərir.

Tamaşaya hissiz-həyəcansız baxmaq mümkün deyil. Səməd Vurğunun bu əsərindəki psixoloji məqamlara, fəlsəfi fikirlərə, onun yüksək şeiriyyətinə, ədəbi qiymətinə bir daha qayıdıram. Bütün bu məziyyətlər hədsiz dərəcədə təsiredicidir. Əsəri kitabdan oxuyan hər kəs bu təsirin altında olacaqdır. Amma siz – rejissorlar, tərtibatçılar, aktyorlar, tamaşanı hazırlayan bütün kollektiv isə onu dərk etmək üçün, anlamaq üçün, məzmununu, mənasını başa düşmək üçün çox böyük məharət, sənətkarlıq nümunəsi göstərmisiniz. Ona görə də mən və eləcə də salonda əyləşənlərin hamısı bu əsəri başdan-ayağa yaşadıq.

Əsərin süjeti mənə məlumdur. Qeyd etdim ki, tamaşanı ilk dəfə 40-cı illərdə görmüşəm, oxumuşam. Ancaq nə qədər məlum olsa da, tamaşanı əvvəldən axıradək həyəcanla izləyirsən. Siz tamaşam elə gözəl qurmusunuz ki, salonda oturanlara hər dəqiqə çox böyük estetik, psixoloji və mənəvi təcir edirsiniz. Mən şəxsən belə təsirin altındayam və ona görə də sizin yanımıza həyəcanlı gəlmişəm. Bu, sizin yüksək sənətkarlığınızı göstərir. Mən çox sevinirəm ki, milli teatrımız öz ənənələrini itirməyibdir, müasir tələblər səviyyəsindədir, Azərbaycan mədəniyyətinin aparıcı bir hissəsi kimi öz vəzifəsini yerinə yetirir.

Bilirsiniz ki, mən Azərbaycan Milli Teatrını həmişə sevmişəm, onun pərəstişkarı olmuşam və indi də pərəstişkarıyam.

Son dəfə bu salonda gərək ki, 1984-cü ildə olmuşam – onda Moskvada işləyirdim, Bakıya gəlmişdim, o vaxt "İblis" əsərini göstərirdiniz. O vaxtdan 14 ilə qədər bir vaxt keçibdir. Həmin müddətdə mən bu salonda olmamışdım, sizinlə görüşməmişdim. Bakıda işlədiyim və yaşadığım zaman teatr işləmirdi, təmirdəydi. Siz işə başladıqdan sonra isə mənim bir müddət vaxtım olmadı. Çox şadam ki, uzun fasilədən sonra teatrla, sizinlə görüşüm məhz bu əsərlə başladı. Bunun da çox böyük əhəmiyyəti var. Burada Səməd Vurğun yaradıcılığı var, onun ölməz əsəri var və sizin kimi gözəl sənətkarların – artistlərin, rejissorların, hamınızın bir yerdə yaratdığınız gözəl səhnə əsəri var.

Sizin hamınızı təbrik edirəm. Əsərə çox gözəl quruluş verilib. Bilirəm ki, Cənnət xanım tamaşanın quruluşçu rejissorudur. Onu çoxdan yüksək səviyyəli bir quruluşçu rejissor kimi tanıyıram. Onun hazırladığı bir neçə gözəl əsərin keçmişdə də şahidi olmuşam və məmnunam ki, indi

Cənnət xanım belə mürəkkəb, çox çətin bir əsərin səhnədə yenidən canlandırılmasının məsuliyyətini öz üzərinə götürübdür və bu işin öhdəsindən layiqincə gəlibdir. Çox sağ olun, təşəkkür edirəm.

Tərtibat da çox gözəldir, qeyri-adidir, çox maraqlıdır, tamaşanın tərtibatı və quruluşu bir-biri ilə ahəngdar vəhdət təşkil edir. Bu da həqiqətən bu əsərin yüksək səviyyədə hazırlandığını göstərir. O ki qaldı ifaçılara, bir çoxunuzu tanıyıram, sizin sənətinizi görmüşəm və sevmişəm. Bəziləriniz də gəncsiniz, sizləri yeni görürəm. Hamınız öz rollarınızı çox gözəl ifa etdiniz. Hamınıza təşəkkür edirəm. Bizim görkəmli aktyorumuz, böyük sənətkar Mikayıl Mirzə baş rolu çox gözəl ifa etdi. Xatirimdə deyil, deyəsən əvvəllər bu rolu Rza Əfqanlı və Ələsgər Ələkbərov oynayırdılar. Onlar həmişə bir-birinin dublyoru olublar. Vaqif rolunda da hər ikisi oynayıb, ikisini də görmüşəm. İndi bu böyük aktyorların, xüsusən Ələsgər Ələkbərovun davamçıları da var, yeni-yeni müasir səhnə ustalarımız var, onların da görkəmlisi Mikayıl Mirzədir. İndiyə qədər olduğu kimi yenə də çox gözəl, fədakarcasına, çox böyük məharətlə, ürəklə bu rolu ifa etdi. Hesab edirəm ki, Mikayıl Mirzənin ifa etdiyi bütün rollarla yanaşı, bu surət onun yaradıcılığında çox görkəmli yer tutur. Əlbəttə, hər bir sənətkar özü müəyyən edir ki, hansı surət onun üçün daha da sevimlidir. Bu obraz həqiqətən çox yüksək mənəviyyatı ilə seçilir. Bu rolu yaratmaq bir o qədər də asan deyil.

Bizim fədakar aktyorumuz Həsən Məmmədov uzun illərdir ki, teatrda, kinoda çox fəal çalışır, kinomuza və səhnəmizə həmişə böyük uğurlar gətiribdir. Çox məmnunam ki, Həsən Məmmədov yenə də səhnədədir, yenə də teatrdadır və Xosrov rolunu da çox məharətlə ifa etdi.

Şirin rolunu ifa edən Məleykə Əsədova gəncdir. Yəqin ki, o vaxtlar teatrda yox idi, təzə gəlibdir. Çox gözəl, təbrik edirəm. Həmişə istəmişəm ki, bütün sahələrdə gənclər olsun. Yaşlılar, təcrübəli adamlar olmalıdır və bizim cəmiyyətimizi irəliyə aparmaq üçün fəaliyyət göstərməlidirlər. Amma gənc nəsil də yetişməlidir. Teatr ona görə yaşayır ki, vaxtilə Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Adil İsgəndərov, Rza Əfqanlı, Fatma Qədri, Hö-kumə Qurbanova, onlardan sonra gələnlər var idi. İndi orta nəsil – Mikayıl Mirzə, Həsən Məmmədov və başqalarıdır. Amma gərək bu sıra pozulmasın, fasilə olmasın, birinin dalınca o birisi gəlməlidir. Bu, mütləq lazımdır. Çünki yaşlı nəsil həm gənclərə təcrübə verir, həm də sənətimiz davam edir.

Bilirsiniz, mən mədəniyyəti, teatrı çox sevdiyimə görə, uzun illər – on illərlə teatra, sənətə həmişə çox qayğı göstərdiyimə görə istəyirəm ki,

mədəniyyətimizin bütün sahələri o cümlədən milli teatrımız yaşasın. Bunun üçün isə gənclər lazımdır. Gənc aktrisa Şirin rolunu çox gözəl ifa etdi. Mən bilirəm, vaxtilə səhnəmizin ulduzları olubdur – Mərziyə Davudova, Fatma Qədri, Hökumə Qurbanova var idi. Şəfiqə Məmmədova da, Amaliya Pənahova da və başqaları da var. İndi isə gənc aktrisa Məleykə Əsədova var. Arzu edirəm ki, belə məleykələr çox olsun, həm özləri məleykə olsunlar, həm də gördükləri işlər.

Mən sizin vaxtınızı almaq istəmirəm. Hərə öz rolunu çox yaxşı oynadı. Mən tamaşaya çox diqqətlə baxırdım və bilirsiniz ki, teatra da az-çox bələdəm. Teatrımızı həmişə böyük iftixar hissi ilə xatırlayıram və tariximiz haqqında danışanda qürur hissi ilə deyirəm ki, 1873-cü ildə Azərbaycan Teatrı yaranıbdır. Bu adi hadisə deyil. Şərq aləmində, müsəlman aləmində 1873-cü ildə teatr yaratmaq millətimizin mədəniyyətimizə nə qədər bağlı olduğunu göstərir. Mirzə Fətəli Axundovun və ondan sonra gələnlərin sayəsində.

Xatirimdədir, 1973-cü ildə bu teatrın 100 illik yubileyini böyük təntənə ilə keçirdik. Xatirinizdədirsə, rəhmətlik Mehdi Məmmədova, İsmayıl Dağıstanlıya, İsmayıl Osmanlıya böyük adlar verildi, nə qədər başqa insanlara böyük mükafatlar verildi. Bunların hamısı xatirimdədir, gözümün qabağındadır. Respublika sarayında yubileyi təntənə ilə keçirdik. Niyə? Çünki bu salon balaca idi, ona görə orada keçirdik. Mən orada teatr haqqında məruzə etdim. Həyatımda çox məruzələr etmişəm, mühazirələr oxumuşam, nitqlər söyləmişəm, amma teatr haqqında etdiyim məruzəni öz həyatımda xüsusi qiymətləndirirəm.

Teatrımızın böyük tarixi, böyük ənənələri gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşamalıdır. Respublikada gedən proseslərə görə son illər teatrın həyatında bir qədər çətinliklər olubsa, bunlar keçib gedəcəkdir. Görürsünüz, teatr artıq yüksək səviyyədədir və yaşayacaqdır. Siz də yaşayacaqsınız və xalqımıza daim mənəvi qida verəcəksiniz, onu sevindirəcəksiniz.

Bu əsər bu gün aktualdır bir də ona görə ki, yenə də deyirəm, həm sevgi, məhəbbət saf və pak olmalıdır, həm də xəyanətə satqınlığa və vəzifəpərəstliyə qarşı mübarizə aparılmalıdır. Əsərdəki Şapur surətini götürün – baş vəzir olmaq üçün xəyanətə əl atır. Bütün bunlar yaşadığımız dövr üçün də aktualdır. Bizim dövrümüzdə nə qədər adamlar vəzifə almaq üçün nə qədər xəyanətlər ediblər. Bizim televiziyamız son vaxtlar həmin xəyanətin nümunələrini göstərir. Xalqa, millətə qarşı nə qədər xəyanətlər ediblər. Əgər Şapur təkcə Fərhada və yaxud Şirinə, elə

Xosrovun özünə xəyanət etdisə, amma bu gün xəyanət edənlər bütün millətə xain çıxıblar, ölkəmizə, dövlətimizə, dövlətçiliyimizə xəyanət ediblər. Ona görə də Səməd Vurğunun əsəri bu gün də aktualdır, 10 il də, 50 il də bundan sonra aktual olacaqdır. Nə qədər ki, insan cəmiyyəti yaşayır, insanlar arasında gedən bu proseslər daimidir.

Mən istərdim ki, məhəbbət, sevgi həmişə olsun, xəyanət, satqınlıq heç vaxt olmasın. Siz də bunu istərdiniz. Ancaq bu, nə sizdən, nə də məndən asılı deyildir. Ona görə də bu, çox aktual bir əsərdir və bu əsərin indi səhnəyə gəlməsinin cəmiyyətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün və bizim insanların tərbiyəsi, kamilləşməsi, təkmilləşməsi üçün çox böyük əhəmiyyəti var. Allah Səməd Vurğuna rəhmət eləsin, güman edirəm ki, onun ruhu bu gün şad olur və Allah sizə də uzun ömür versin, teatrımıza yeni-yeni uğurlar nəsib olsun.

XALQ ARTİSTİ
FİDAN QASIMOVAYA

Bakı şəhəri, 17 iyun 1997-ci il

Hörmətli Fidan xanım!

Sizi – Azərbaycan incəsənətinin görkəmli nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Nadir istedada malik olan sənətkar kimi Siz xalqımızın musiqi mədəniyyəti tarixinə əbədi daxil olmusunuz. Ölkəmizdə vokal sənətinin inkişafındakı xidmətləriniz təqdirəlayiqdir. Azərbaycan, Avropa və rus bəstəkarlarının kamera-vokal əsərləri, opera partiyaları Sizin ifanızda özünəməxsus lirizmi, təravəti və rəngarəngliyi ilə seçilir. Siz pedaqoji fəaliyyətinizlə də bu sahənin daha da inkişaf etməsinə öz töhfənizi vermisiniz.

Milli musiqimizin ənənələrini davam etdirməklə Siz Azərbaycan vokal sənəti üçün yeni üfüqlər açmış, onu keyfiyyətcə yeni bir mərhələyə qaldırmısınız. Azərbaycan və dünya mədəniyyətinin zəngin qaynaqlarından bəhrələnmiş ifaçılıq sənətiniz sayəsində milli musiqi incilərimizin bir çoxu dünyada geniş şöhrət tapmışdır.

Əminəm ki, bundan sonra da Siz incəsənət pərəstişkarlarına yeni-yeni sevinclər bəxş edəcəksiniz. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və daha böyük sənət uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ CÖVDƏT HACIYEVƏ

Bakı şəhəri
17 iyun 1997-ci il

Hörmətli Cövdət Hacıyev!

Sizi – Azərbaycan musiqi sənətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkarı, anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz ölkəmizdə milli simfonizmin yaradıcılarından biri kimi tanınırsınız. Musiqiniz vətəndaşlıq ruhu, dərin məzmunu və yüksək bədiiliyi ilə fərqlənir. Siz öz əsərlərinizdə dünya klassik musiqi ənənələri ilə yanaşı, Azərbaycan xalq müsiqisinin müxtəlif janrlarının, eləcə də muğam sənətinin bədii ifadə vasitələrindən bacarıqla istifadə edirsiniz. Sənətsevərlərin böyük rəğbətini qazanmış bir sıra əsərləriniz Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur.

60 illik səmərəli fəaliyyətiniz xalq və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ən yüksək mükafatınız isə ölkəmizin musiqi mədəniyyətinin inkişafına xidmət edən yetişdirmələrinizin nailiyyətlərindən duyduğunuz iftixar və sevinc hissidir.

Görkəmli bəstəkar, novator pedaqoq və tanınmış ictimai xadim kimi Sizin çoxşaxəli fəaliyyətiniz yeni musiqiçilər nəsli üçün əsil örnəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AMERİKADAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT CƏMİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

Çikaqo
4 avqust 1997-ci il

Hörmətli soydaşlarımız!

Mən çox məmnunam ki, respublikamızın hüdudlarından kənarda, o cümlədən Amerika Birləşmiş Ştatlarında azərbaycanlılar artıq bir-birinə yaxınlaşırlar, bir yerə toplaşırlar və cəmiyyətlər qururlar. Doğrudur, indi azərbaycanlılar dünyanın hər yerinə səpələniblər. Elə bir ölkə tapmazsan ki, orada azərbaycanlı olmasın: birində çoxdur, birində azdır. Ancaq təəssüflər olsun ki, ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar təşkilatlarla, bir-biri ilə yaxşı ünsiyyət qura bilmirlər.

Ölkəmiz dövlət müstəqilliyi əldə edəndən sonra, ondan əvvəl də, hələ Sovetlər İttifaqının tərkibində olan zaman da Amerika Birləşmiş Ştatlarında Azərbaycana qarşı fikir yaradan erməni lobbisi olubdur. Amerikada erməni lobbisi, diasporu güclüdür. Soruşuram ki, Amerika Birləşmiş Ştatlarında nə qədər erməni yaşayır? Biri deyir bir milyon, biri deyir ondan az.

Yerdən səs: Cənab prezident, Amerikada 700 min erməni yaşayır.

Heydər Əliyev: 700 min. Mən belə başa düşdüm ki, Siz Kaliforniyada yaşayırsınız, orada da ermənilər çoxdur. Mənə elə gəlir ki, Siz daha dəqiq bilərsiniz. Deyirsiniz ki, Amerikada 700 min erməni yaşayır. Amerika Birləşmiş Ştatlarının 300 milyon əhalisi vardır. Fikir verin. 300 milyon əhalisi olan bir ölkədə 700 min erməni Amerika Birləşmiş Ştatlarının siyasətinə təsir edə bilir. Doğrudur, biz deyirik ki, ermənilərlə azərbaycanlıların münasibəti pisdir. Ermənistanla Azərbaycan arasında münaqişə var, müharibə gedir. Keçmişdə də erməni-azərbaycanlı qırğınları olubdur. Ola bilər, ermənilər kiminsə xoşuna gəlməsin, ancaq ermənilər öz millətləri üçün çox dəyərlidirlər. Biz bunu etiraf etməliyik, deməliyik. Bunu nə üçün deyirəm?

Amerika Birləşmiş Ştatlarında nə qədər azərbaycanlı yaşadığını bilmirəm. Hər halda, mən bundan əvvəl iki dəfə Nyu-Yorka gəlmişdim, oraya azərbaycanlılar az miqdarda toplaşdılar. Mən Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gəlmişəm. Nyu-Yorkda, Vaşinqtonda, Hyüstonda olmuşam, indi də buraya, Çikaqoya gəlmişəm. Burada az miqdarda azərbaycanlı görürəm. Amerikada yaşayan azərbaycanlılar elə təkcə buraya toplaşanlardan ibarət deyildir. Ola bilər ki, hamı buraya gələ bilməyibdir. Siz deyirsiniz ki, cəmiyyət qurmusunuz. Bu cəmiyyətin nə qədər üzvü var? Amerikada yaşayan azərbaycanlılar Azərbaycan haqqında düşünürlərmi, yoxsa yox?

Amerikada yaşayan ermənilərin 99 faizi Dağlıq Qarabağın harada yerləşməsi barədə qətiyyən heç nə bilmir. Dağlıq Qarabağ dağlıq, kiçik bir yerdir. Bu bölgənin özündə yaşayan ermənilər bir balaca təhsil aldıqdan, orta məktəbi bitirdikdən sonra ayrı-ayrı şəhərlərə gedirlər, orada oxuyurlar və geri qayıtmırlar. Mən Sovet hökuməti vaxtında da Azərbaycana rəhbərlik edirdim və bunların hamısını bilirəm. Dağlıq Qarabağ ermənilərinin bir hissəsi Yerevanda qalır, amma əksəriyyəti Rusiyaya və başqa ölkələrə gedir. İndi Dağlıq Qarabağın özündə cəmisi 80 min erməni var. Ancaq harada erməni varsa, o, Dağlıq Qarabağ haqqında düşünür.

Dağlıq Qarabağda qaldırılmış bu məsələ tam qondarmadır. Onlar bunu qəsdən ifrat dərəcəyə gətirib çıxarıblar. Bu yaxınlarda mənə dedilər ki, Ermənistanda yaşayan ermənilər münaqişənin sülh yolu ilə qurtarmasını daha çox istəyirlər, nəinki Amerikadakı ermənilər. Amerikada yaşayan ermənilər deyirlər ki, gərək Dağlıq Qarabağ müstəqil olsun, Ermənistana bağlansın. Soruşan gərək, axı, sən Amerikada yaşayırsan, nə üçün belə deyirsən? Bax, milli bağlılığı onu belə hissiyyatlara gətirib çıxarıbdır.

Azərbaycanın ərazisinin 20 faizi işğal olunubdur. Bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Yeddi milyon yarım əhalisi olan ölkənin vətəndaşlarından bir milyonu qaçqındır, çadırlarda yaşayır. Bu, dəhşətli haldır. Dünyada ərazisində bu qədər qaçqını, köçkünü olan ikinci bir ölkə yoxdur. Amma gəlin görək, xaricdə yaşayan azərbaycanlılar bu dərdlə yaşayırlarmı, yoxsa yox? Bağışlayın, mən sizinlə açıq danışıram.

Bilirsiniz, mən Azərbaycana vaxtilə 14 il rəhbərlik etmişəm. Sonra 5 il Sovetlər İttifaqına rəhbərlik edən adamlardan biri olmuşam, Azərbaycana yenə də öz qayğımı göstərmişəm. Bundan sonra mən 6 il əziyyət-

lər çəkmişəm, cürbəcür məhrumiyyətlərlə üzləşmişəm. Siz bunların hamısını yəqin ki, bilirsiniz. Ancaq mən harada oluramsa-olum, ürəyim həmişə Azərbaycanladır. Mən 5 il Moskvada, Kremldə oturmuşam. Sovetlər İttifaqının ən yüksək vəzifəli şəxslərindən biri olmuşam. Mən bütün Sovetlər İttifaqı üçün məsul idim. Amma mənim ürəyim Azərbaycanda idi. Həmin 5 il içərisində Azərbaycan üçün çox işlər gördüm. Mən özümü tərifləmək istəmirəm. Azərbaycan üçün bəla ondan başladı ki, 1987-ci ildə ermənilər bizim azərbaycanlıların bəziləri ilə birlikdə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular.

Mən istefa verəndən cəmi 20 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı. Aqanbekyan adlı bir erməni var. O, ömründə nə Ermənistanda, nə də Dağlıq Qarabağda yaşayıbdır, həmişə Moskvada yaşayıbdır, alimdir. Həmin Aqanbekyan o vaxt gəlib Fransada bəyanat verdi ki, Dağlıq Qarabağ Ermənistana bağlanmalıdır və o, bu məsələni Qorbaçovla razılaşdırıbdır. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başladı. Azərbaycanın bəlaları da o vaxtdan başlandı.

O vaxt ermənilərin bir məqsədi var idi ki, Heydər Əliyevi Kremldən kənarlaşdırsınlar. Çünki bilirdilər ki, mən Moskvada oturmuşam və belə bir məsələnin qaldırılmasına yol verməyəcəyəm. Məni Kremldən kənarlaşdırdılar. Amma təkcə onlar yox, bizim bəzi bədxah azərbaycanlılar da bu işə kömək etdilər. Onlar birləşdilər, məni Kremldən kənarlaşdırdılar. Bundan sonra Azərbaycan nə günlərə düşdü.

Mən Azərbaycana 14 il rəhbərlik edərkən respublikamızı hansı səviyyələrə qaldırmışdım. Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişdirə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər sən bu rejimi dəyişdirə bilməzsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı, amma bayaq dediyim kimi, 1988-ci ildən Azərbaycanın tənəzzülü başlandı. Azərbaycanın başına bu bəlalar gəldi. Respublikamızın ərazilərinin bir qismi işğal olundu. Ölkədə bir rəhbər o birisini yıxdı, o birisi onu yıxdı. Azərbaycan bu günlərə qaldı.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Bu gün bundan əvvəlki görüşümdə mən prezident Linkoln haqqında danışırdım. Bəli, prezident Linkoln olmasaydı, o vaxtlar Amerika Birləşmiş Ştatları bəlkə də parçalanmışdı. Şimal ilə cənub müharibə aparırdı və ölkə parçalanırdı. Linkoln Amerika Birləşmiş Ştatlarını birləşdirdi. Azərbaycan da parçalanırdı. 1993-cü ildə Azərbaycan artıq parçalanmışdı.

Ölkədə vətəndaş müharibəsi başlanmışdı, qardaş-qardaşa güllə atırdı. Ermənistan silahlı qüvvələri gəlib bizim torpaqlarımızı işğal edirdi. Azərbaycanda isə adamlar bir-birinə atəş açırdı, bir-birini öldürürdü. Nə üçün? O istəyirdi hakimiyyətdə olsun, bu istəyirdi hakimiyyətdə olsun. Bizim bəlamız da, dərdimiz də budur. Bizim milli nöqteyi-nəzərdən çatışmazlığımız da budur.

Allaha şükürlər olsun ki, biz indi Azərbaycanda sabitlik yaratmışıq. Amma bu sabitlik nəyin bahasına yaranıbdır? Siz yəqin qəzetləri oxuyursunuz, bilirsiniz ki, biz o vaxt Azərbaycanda vətəndaş müharibəsinin qarşısını çətinliklə aldıq. Ancaq Ermənistan silahlı qüvvələri ölkəmizdəki bu vəziyyətdən istifadə etdilər, gəlib bir neçə rayonumuzu da işğal etdilər. Əlbəttə, işğal edəcəkdilər, çünki respublikanın daxilində adamlar bir-biri ilə vuruşurdular – o deyirdi hakimiyyətdə mən olacağam, bu deyirdi mən olacağam. Olan silahdan, sursatdan bir-birinə qarşı istifadə edirdilər. Ermənilərə atəş açılmırdı. Ona görə də Ermənistan silahlı qüvvələri gəlib torpaqlarımızın bir hissəsini işğal etdilər.

Biz üç ildən çoxdur ki, müharibədə atəşi dayandırmışıq. Ölkənin daxilində olan cürbəcür silahlı dəstələri ləğv etdik, sabitlik, rahatlıq yaratdıq. Mən bayaqkı görüşümdə də bunları danışdım. İndi Azərbaycanda iqtisadiyyat tamam sərbəst inkişaf edir. Ölkədə inflyasiya 1994-cü ildə 1600 faiz, 1995-ci ildə 84 faiz, 1996-cı ildə 6 faiz idi. 1997-ci ilin birinci yarısında isə inflyasiya sıfır faizdir. Təsəvvür edin, bu nəticələr torpaqlarımızın 20 faizinin işğal altında qaldığı, bir milyondan çox vətəndaşımızın qaçqın vəziyyətdə yaşadığı, onların çoxunun işsiz olduğu bir vaxtda əldə edilibdir.

Azərbaycanda milli valyuta möhkəmlənibdir. Son vaxtlar manatın dəyəri dollara nisbətən 15 faiz artıb. Xarici ticarətin həcmi 40 faiz artıb. Keçən il ölkə iqtisadiyyatında tənəzzül dayandı. İndi iqtisadiyyatda sürətli inkişaf gedir. Sənaye, kənd təsərrüfatı məhsulları istehsalı, ümumi daxili məhsul istehsalı artır. Biz özəlləşdirmə aparırıq, iqtisadiyyatı dəyişdiririk, torpaqları şəxsi mülkiyyətə, xalqa veririk. Bu barədə qanun qəbul etmişik.

Bilirsiniz ki, respublikamızda torpaqlar, mal-qara vaxtilə ümumiləşdirilmişdi. İndi bunların hamısı şəxsi adamlara verilibdir. Bunun da çox yaxşı nəticələri vardır. İndi Azərbaycanda ətin, südün, yağın haradan gəlməsi problemi yoxdur. Çünki bunların hamısı özəl sektordadır. Amma Sovet İttifaqı vaxtında biz bu çətinlikləri görürdük. Çünki bunların hamısını dövlət etməli idi. Dövlət isə bunları çatdıra bilmirdi. İndi torpağı da

paylayırıq. Şübhəsiz ki, bu proses bir-iki ilə başa çatacaq. Torpağın bir il bundan əvvəl paylandığı yerlərdə gözəl nəticələr əldə edilibdir.

Azərbaycanda iqtisadi islahatlar aparılır, demokratiya bərqərar olubdur. Ölkədə demokratik, dünyəvi cəmiyyət yaradırıq. Biz İslam dininə mənsubuq. Amma dinin ölkəmizdə hakim olmasına yol verə bilmərik. Bizim ölkəmiz açıq, mədəni ölkədir. Azərbaycanın qapıları Qərbə də, Şərqə də açıqdır, kim istəyir gəlsin. Amma bizim dərdimiz, çətinliyimiz nədir? Bax, bu həqiqəti sübut etdirə bilmirik.

Bilirsiniz ki, ABŞ Konqresi beş il bundan əvvəl Azərbaycana qarşı 907-ci düzəliş qəbul edibdi. Mən dörd ildir Azərbaycanın prezidentiyəm, dörd ildir çalışıram ki, bu maddə ləğv edilsin. Bəziləri mənə deyirdilər ki, bu, mümkün deyil. Amma mən Amerikaya bu rəsmi səfərim zamanı, Nyu-Yorkdan başlayaraq Çikaqoya qədərki bütün görüşlərimdə hiss etdim ki, bu sahədə böyük dəyişiklik yaranıbdır. Məsələn, Amerikanın şirkət rəhbəri ilə görüşümdə heç mən özüm söhbət açmasam da, o mənə deyir ki, biz 907-ci düzəlişin ləğv olunmasına çalışırıq. Bu, böyük dəyişiklikdir. Biz 907-ci düzəlişin ləğv olunması üçün çox işlər görürük.

Mən bu gün Amerikanın bir çox nüfuzlu şirkətlərinin rəhbərləri ilə görüşdüm. Onların bir çoxu ilə indiyədək görüşməmişdim. Amma bu görüşlərdə onların hər biri mənə dedi ki, 907-ci düzəlişin aradan qaldırılmasına biz də xüsusi səylər göstəririk. Bəli, prezident Bill Klinton da, Konqresdə Nümayəndələr Palatasının sədri cənab Qinqriç də, Xarici Əlaqələr Komitəsinin sədri cənab Gilman da mənə söz verdilər ki, 907-ci düzəlişin ləğv edilməsinə nail olacaqlar. Hamı mənə söz verdi ki, 907-ci düzəliş bu ilin sentyabr ayında ləğv olunacaqdır.

Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin bir qismini işğal ediblər, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan qaçqın düşüb, amma ermənilər burada məsələni tərsinə çeviriblər: guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ona görə də Konqres respublikamıza qarşı belə bir maddəni qəbul edibdir.

Görürsünüz, vəziyyət necə olub? Görək Amerikada yaşayan bir azərbaycanlı öz səsini qaldırıbmı? 907-ci düzəlişi Konqresdə kim keçiribdir? Ermənilər keçiriblər. Konqresmenlərin çoxu mənə deyir ki, biz o vaxt bu 907-ci düzəlişin nə olduğunu heç bilmirdik. Söyləyirlər ki, o vaxt gecə iclas qurtarhaqurtarda bu layihəni gətirdilər, biz də səs verdik, iclas qurtardı, çıxıb getdik. Bəli, bu maddəni Konqresdə ermənilər keçiriblər.

Yəqin siz bilirsiniz ki, prezident Bill Klinton məni Amerikaya rəsmi səfərə dəvət edəndən sonra ermənilər burada hay-küy saldılar. Birinci

olaraq cənab Klintona məktub yazdılar ki, Heydən Əliyevin Amerikaya səfərini ləğv edin. Bill Klintona 15-ə yaxın erməni təşkilatı məktub yazmışdı.

Bununla da kifayətlənmədilər, mənim haqqımda təbliğat kağızları yaydılar, tərcümeyi-halım, şəxsiyyətim haqqında cürbəcür böhtanlar, məni təhqir edən sözlər yazdılar. Mənim şəklim olan 50 mindən çox poçt kartı hazırlamışdılar. Klintona göndərsinlər ki, Heydər Əliyev Amerikaya gəlməməlidir.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının keçən ilin dekabr ayında Lissabonda keçirilən Zirvə görüşündə biz böyük bir qələbə əldə etdik. Ermənistan–Azərbaycan münaqişəsi baş verəndən bəri ilk dəfə nail olduq ki, ATƏT-in Zirvə görüşündə bu münaqişənin aradan qaldırılması üçün əsas prinsiplər qəbul edildi və Zirvə görüşünə toplaşmış 54 ölkənin dövlət və hökumət başçısından 53-ü həmin prinsiplərə səs verdi. Təkcə Ermənistan həmin prinsiplərə etiraz etdi.

İndi nə oldu? Biz Lissabonda o cür nailiyyət əldə etmişdik. Amma Azərbaycandakı müxalifət qüvvələri, qəzetləri yaydılar ki, guya biz Lissabonda məğlub olduq və s. Lissabondan Bakıya qayıdanda gördüm ki, camaat narahatdır. Dedim ki, narahat olmayın.

Mən böyük işlər görürəm. Müxalifətdə olan qüvvələr də başa düşürdülər ki, biz Lissabonda böyük nailiyyət əldə etmişik. Mən o vaxt da dedim, – Lissabonda qəbul edilən prinsiplər kiminsə məğlub olması, kiminsə qalib gəlməsi deyil, yox. Biz Lissabon Zirvə görüşündə öz dövlətimizin mövqeyini müdafiə etmək üçün çox əhəmiyyətli bir sənəd əldə etdik. Ermənistanda isə Lissabonda qəbul edilmiş bəyanata görə yas saxladılar. Hamıya məlum oldu ki, Ermənistan Lissabonda qəbul olunmuş sənədə indiyədək etiraz edir. Əgər bu, Azərbaycanın məğlubiyyətidirsə, zərərinədirsə, onda Ermənistan bu prinsipləri niyə dəstəkləmir? Yenə də deyirəm, ATƏT-in üzvü olan 54 dövlətdən 53-ü bunu dəstəklədi. Bundan savayı, prezident Bill Klintonla mənim imzaladığımız sənəddə yazılıb ki, Amerika Birləşmiş Ştatları Lissabonda qəbul olunmuş üç prinsipi dəstəkləyir. Lissabonda Amerikanın vitse-prezidenti bu prinsiplərə səs veribdir. Mən onunla orada görüşüb danışmışam. Amerikanın prezidenti Ağ evdə imzaladığımız sənəddə yazır ki, ABŞ bu prinsipləri dəstəkləyir.

Bir daha qeyd edirəm, görün ermənilər nə qədər narahat oldular ki, Lissabon Zirvə görüşündə qəbul edilmiş bəyanatdan sonra, siz bunu bilirsiniz, 15 erməni təşkilatı Bill Klintona etiraz məktubu yazdı ki, nə üçün Siz Lissabonda bu qərarı dəstəkləmisiniz? Demək, Ermənistanda bu

prinsiplərin əleyhinə çıxdılar. Amerikada yaşayan ermənilər Bill Klintonu ittiham etdilər, ona irad tutdular və tələb etdilər ki, o, bu prinsipləri ləğv etdirsin. Amma Azərbaycanın içində olan, özlərini müxalifət adlandıran qüvvələr hay-küy saldılar ki, "biz burada uduzmuşuq, Ermənistan tərəfi udub". Belə dərdimiz də vardır. Amma bunlar heç, ölkəmizin daxilində olan işlərdir, böyük şey deyil. Biz bunların öhdəsindən gəlirik. Yəni xalq hər şeyi görür, adamlar ağı qaradan seçirlər. İndi əvvəlki vaxt deyil.

Mən onu demək istəyirəm ki, görün ermənilər burada Ermənistan üçün necə vuruşurlar. Amma gəlin görək, buradakı azərbaycanlılar Azərbaycan üçün vuruşurlarmı, onlar bir yerə yığışırlarmı, bu işə səylərini qoyurlarmı?

Gərək ki, bizim bu görüşümüzdə kimsə dedi ki, Amerikada yaşayan azərbaycanlılar, türklər 150 milyard dollar sərvətə sahibdirlər. Bəs bu pul hara sərf olunur? Hamısı elə qarınamı sərf edilir, hamısı bu adamların daha da zənginləşməsinəmi sərf olunur? Gərək onlar bunun heç olmasa bir hissəsini özlərinin Vətəni olan Azərbaycana ayırsınlar.

Bilirsiniz, harada yaşayırsansa yaşa, Vətəndən, Ana torpaqdan şirin şey yoxdur. Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı, müsəlman olmamışdır. Bu da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev Siyasi Büronun üzvü olubdur və sairə. Bəli, olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayına qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla oldu. Çünki Azərbaycan mənim doğma Vətənim, torpağımdır. Ola bilərdi ki, bəlkə də başqa yerdə rahat yaşayardım. Amma Bakıya gəldim. Mənim vaxtilə yetişdirdiyim, tərbiyə etdiyim, vəzifəyə gətirdiyim adamlar Bakıda yaşamağıma mənə imkan vermədilər. Naxçıvana getdim. Əgər orada da yaşamağa qoymasaydılar, çıxıb bir dağda yaşayacaqdım, amma Azərbaycan torpağında yaşayacaqdım.

Mən 1993-cü ildə yenidən Bakıya gələndə də dedim , – ancaq ona görə gəlmişəm ki, xalqıma xidmət etmək istəyirəm. Mən bu xidməti etdim. İndi də edirəm. Bu sözü ona görə deyirəm ki, bəs kənarda yaşayan hər bir azərbaycanlı Azərbaycan üçün nə edir?

Bu görüşdə birinci çıxış edən dostumuz dedi ki, biz Azərbaycana nə etməliyik, Azərbaycan bizə nə etməlidir. Mən Vaşinqtonda gedib Kenne-

dinin qəbrini ziyarət etdim. Orada gözəl sözlər yazılıbdır. Con Kennedi prezident andı içərkən amerikalılara müraciətlə deyibdir: "Siz düşünməyin ki, Amerika sizə nə etməlidir. Düşünün ki, siz Amerikaya nə etməlisiniz". Bunlar çox müdrik sözlərdir. Bu sözlər elə bizim ölkəmizə də aiddir. Mən də Kennedinin bu sözləri ilə sizə deyirəm: Siz düşünməyin ki, Azərbaycan sizə nə etməlidir. Düşünün ki, siz Azərbaycana nə etməlisiniz. Çünki hər insan – əgər onun əli, qolu, gözü, başı üstündədirsə – harada olur-olsun yaşaya bilər. Bir az pis, bir az yaxşı yaşayar. Mən həyatın hər bir üzünü görmüşəm. Lap pis də, ağır da, lap yüksək şəraitdə də yaşamışam. Mən heç vaxt zəngin sərvət sahibi olmamışam. Çünki Sovet İttifaqında bu yox idi. Ancaq tutduğum vəzifəyə görə çox yüksək şəraitdə yaşamışam. Moskvada, Kremldə oturmuşam və böyük bir villada yaşamışam. Amma sonra oradan aşağıya düşmüşəm, gedib Naxçıvanda bir komada yaşamışam. Nə olsun? İnsan yaşayır. Mən də yaşadım.

Demək istəyirəm ki, insan harada olsa yaşayacaqdır. Şərt o deyildir. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir. Şərt budur. Mən həmişə belə yaşamışam. İndiyə qədər xalqım üçün əlimdən nə gəlib etmişəm, bundan sonra da edəcəyəm. Sizi də dəvət edirəm ki, bunu edəsiniz.

Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların bəziləri bəlkə də bugünkü müstəqil Azərbaycanda doğulmayıblar. Nə olsun ki, Azərbaycanda doğulmayıblar? Amerikada yaşayan ermənilər Ermənistanda doğulublar? Onlar Dağlıq Qarabağda doğulublar? Onların heç birisi Ermənistanda doğulmayıb. Dağlıq Qarabağda doğulmayıbdır. Amma ermənidirlər. Ona görə də Ermənistan haqqında düşünürlər. Ancaq Amerikada yaşayan azərbaycanlıların biri deyir mən İranda doğulmuşam, o biri deyir Turanda doğulmuşam. Biri deyir orada, o biri deyir burada doğulmuşam. Başqa biri deyir ki, əşşi, mənə nə var, arvadım ingilisdir. Moskvada yaşayan başqa birisi deyir ki, mənim arvadım rusdur, ona görə də azərbaycanlılığımı bir az itirmişəm. Bələləri də var. Harada doğulmusan, fərqi yoxdur, əgər sən azərbaycanlısansa, özünü azərbaycanlı hesab edirsənsə, demək, bilməlisən ki, harada doğulmağından, harada yaşamağından asılı olmayaraq, dünyada azərbaycanlıların indi bir müstəqil dövləti vardır. İkincisi yoxdur. Var? Varsa, deyin. Yoxdur.

Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Bu, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Təsəvvür edin, Azərbaycan prezidenti Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gəlib, müstəqil Azərbaycan

dövlətinin bayrağı hər yerdə dalğalanır. Mən Vaşinqtonda "Bleyer haus"da yaşadığım dörd gün ərzində Azərbaycanın bayrağı onun üstündə durmuşdu, hara gedirəm, orada Azərbaycanın bayrağını görürəm. Ağ evə gəlmişəm, Azərbaycan və Amerika dövlətlərinin bayraqlarının qarşısında ABŞ prezidenti ilə yan-yana oturmuşuq. Avtomobilimin içində Azərbaycanın bayrağı vardır. Mənim bu rəsmi səfərim müddətində burada Azərbaycanın dövlət himni dəfələrlə səslənibdir. Bunlar hamısı nə qədər böyük tarixi hadisələrdir!

Nə vaxt belə olub? Bu, Şah İsmayıl vaxtında da olmayıbdır. Baxmayaraq ki, Şah İsmayıl o vaxt Azərbaycanın padşahı idi.

Azərbaycan indi müstəqil dövlətdir, Birləşmiş Millətlər Təşkilatının üzvü olan 181 dövlətdən biridir. Biridir, ancaq çox dəyərli bir dövlətdir. İndi bütün dünya etiraf edir ki, Azərbaycan həm coğrafi-siyasi vəziyyətinə, həm təbii sərvətlərinə və bütün başqa amillərə görə dünyanın bir çox dairələrinin diqqətini cəlb edən bir ölkədir.

Azərbaycan müstəqil bir dövlətdir, ona görə də gərək hər bir azərbaycanlı nə mümkündür, onu etsin. Sizin vəzifəniz bu olmalıdır. Əlbəttə ki, Azərbaycan sizin dayağınızdır. Azərbaycan prezidenti kimi mən dünyada yaşayan hər bir azərbaycanlıya qayğı göstərməyə, hər bir azərbaycanlının dərdinə şərik olmağa hazıram. Mənim və dövlətimizin köməyinə ehtiyac duyan hər bir azərbaycanlıya kömək etməyə hazıram. Çünki o azərbaycanlıdır.

Azərbaycan Respublikasının prezidenti kimi, mənim üçün hər bir azərbaycanlı, harada yaşamasından, doğulmasından asılı olmayaraq, əzizdir. Mənim məsləhətim ondan ibarətdir ki, siz Azərbaycanla daha da sıx əlaqə saxlayasınız. İmkanınız olanda Azərbaycana gəlin.

Bir az bundan əvvəl mən "AMOKO" şirkətinin prezidenti ilə görüşdüm. Bu günlər mən "Motorola", "Katerpillar", "FMS" və digər şirkətlərin rəhbərləri ilə də görüşmüşəm. Kim bir il bundan qabaq Azərbaycanda olubsa və bu il yenə də respublikamıza gedibsə, deyir ki, sizin ölkənizdə nə qədər böyük dəyişikliklər baş veribdir. Axı, biz Azərbaycanı tikib yaratmışıq.

Həqiqəti demək lazımdır ki, 1920-ci ildən sonra – indi sovet hökumətinə pis də demək, onu tənqid etmək də olar, o dövrdə Azərbaycan sürətlə inkişaf edibdir. Bu həqiqətdir, bunu danmaq olmaz. Biz həmin o illərdə Azərbaycanda böyük iqtisadi potensial yaratmışıq. O cümlədən 1970-1980-ci illərdə, mən Azərbaycana rəhbərlik etdiyim dövrdə respublikamızda çox böyük iqtisadi potensial yaratmışıq. Fabriklər, zavodlar,

elektrik stansiyaları tikmişik. Biz indi, məsələn, elektrik enerjisi sahəsində də tamamilə müstəqilik, azadıq. Amma keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələrin əksəriyyəti belə deyildir. Ukrayna kimi böyük bir dövlət elektrik enerjisi böhranı içərisindədir. Çünki vaxtilə onun özünün elektrik stansiyaları olmayıbdır. Rusiyaya bağlı olubdur, indi Rusiya elektrik enerjisini kəsibdir. Deyir, pul verirsən verirəm, pul vermirsən vermirəm. Amma mən vaxtilə Azərbaycanda 9 elektrik stansiyası tikdirdim ki, biz Sovetlər İttifaqının ümumi şəbəkəsindən asılı olmayaq. Ona görə də biz sərbəstik. Doğrudur, həmin stansiyaların bəziləri köhnəlib, onları təmir etmək, modernləşdirmək lazımdır. Biz bunu edəcəyik. Amma bunun kökü, əsası var.

Biz o vaxt Azərbaycanda böyük iqtisadi potensial yaratmışıq. Bunlar hamısı yaranıb. 1988-1989-cu illərdə isə Azərbaycanda dağılma prosesi gedib, ölkəyə rəhbərliyə gələnlərin hər biri dağıdıb. İndi biz son illər yenə də yaradırıq. Respublikamıza gələnlər də bunların hamısını görürlər. Bu inkişafın səbəbi isə odur ki, biz adamlara sərbəstlik, azadlıq vermişik. İnsanlar özləri qururlar, yaradırlar, özlərinə binalar, yaşayış evləri tikirlər, mağazaları qaydaya salırlar, yaxşı ofislər inşa edirlər. Son iki-üç ildə Azərbaycanın, Bakının siması çox güclü surətdə dəyişib. Ona görə də Vətənə gəlin, bunlara baxın, görün, ziyarət edin.

Bilirsiniz, ermənilər harada yaşasalar da Ermənistana gedirlər, Eçmiədzini ziyarət edirlər, sonra isə deyirlər ki, biz getdik torpağımızı ziyarət etdik. Axı Sizin də Vətəniniz var. O, hamınızın Vətənidir. Bu, müstəqil Azərbaycan Respublikasıdır.

Bu əsrdə bizim ən böyük nailiyyətimiz nədir? Azərbaycanın öz dili var. Azərbaycan öz dilində yazır, oxuyur, danışır. Azərbaycanın dövlət dili, Ana dili Azərbaycan dilidir. Azərbaycanın bütün universitetləri, məktəbləri, elmi Azərbaycan dilindədir. Azərbaycanın zəngin mədəniyyəti var. Heç bir Şərq ölkəsinin bizim qədər böyük mədəniyyəti yoxdur. Üzeyir Hacıbəyovun, başqa bəstəkarlarımızın yazdığı əsərlərə bərabər əsərlər müsəlman Şərqinin hansı ölkəsində var? Görün nə qədər güclü ədəbiyyatımız, elmimiz vardır.

Akademiyanın prezidenti Fəraməz Maqsudov burada sizin aranızda əyləşib. Bu akademiya 50 il bundan əvvəl yaranıbdır. Amma XX əsrdə Azərbaycan elmi nə qədər inkişaf edibdir.

Mən Rusiyaya rəsmi səfərə getmişdim. Orada Elmlər Akademiyasına getdim, həqiqəti demək lazımdır ki, o, Sovetlər İttifaqının Elmlər Akademiyası adı altında Rusiyanın Elmlər Akademiyası 250 il bundan əvvəl

yaranıbdır. O, çox güclü elmi mərkəzdir. Mən getdim, oranı ziyarət etdim, Rusiyanın böyük alimləri qarşısında çıxış etdim. Amma elə bizim alimlərimiz də o alimlərə bərabərdirlər. Bunlar hamısı bizim millətimizin necə inkişaf etdiyini göstərir. Ona görə də Azərbaycan təkcə coğrafi anlayış deyil, Azərbaycan müstəqil dövlətdir, özü də möhkəm, güclü dövlətdir.

Mən bu gün bundan əvvəl keçirdiyim görüşdə dedim. Bəlkə bəziləriniz eşitməmisiniz, – bilin ki, Azərbaycan dövlət müstəqilliyini əlindən heç vaxt verməyəcəkdir. Heç vaxt!

Geriyə yol yoxdur. Sovet sosialist quruluşu Azərbaycanda bərpa oluna bilməz. Biz heç bir dövlətin himayəsi altına bir daha düşməyəcəyik. Bilin, bu, daha bəsdir!

Əsrlər boyu gah onun himayəsi altında olmağımız, gah bunun müstəmləkəsi olmağımız daha bəsdir!

Bundan sonra belə olmayacaqdır. Bunlar hamısı bizim həm gördüyümüz işlərdir, həm də qarşımıza qoyduğumuz məqsəddir. Amma bunu biz tək etməməliyik. Siz də buna qoşulmalısınız. Bunların hamısına nail olmaq üçün iş görməliyik. Bizim millətimizin bir mənfi xüsusiyyəti var: dedi-qodu, ədavət, bir-birinin ayağından çəkmək, bir-biri ilə münaqişə aparmaq, bir-birinə paxıllıq etmək və özü öz millətini ləkələmək.

Bilirsiniz, bizim bəzi adamlar var, gəlib burada, Amerikada otururlar, deyirlər ki, Azərbaycanda iqtisadi islahatlar getmir, demokratiya yoxdur, insan haqları pozulur, budur, odur. Bunu ermənilər Azərbaycan haqqında onsuz da deyir də, bəs deyil? Amma, indi görün, prezident Bill Klinton nə deyir. Biz Ağ evdə sənədləri imzalayarkən Bill Klintonun çıxışını siz eşitdiniz? Əgər eşitməmisinizsə, bizimkilər yazıblar, alın, götürün, baxın.

Biz Ağ evdə Amerika–Azərbaycan münasibətləri haqqında birgə bəyanat imzaladıq. Həmin bəyanatda göstərilir ki, Amerika Azərbaycan Respublikasının ərazi bütövlüyünü qoruyur, ona dəstək verir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir. Azərbaycan mütərəqqi yol tutubdur. Bunlar hamısı bizim imzaladığımız sənəddə öz əksini tapıbdır. Əgər bütün bu məsələlərə ən yüksək qiymət verən Amerika Birləşmiş Ştatlarıdırsa, onun prezidentidirsə, bu, Amerikanın və onun prezidentinin verdiyi qiymətdir. Amma bunun müqabilində bəziləri yenə də ermənilərin səsinə qoşulurlar. Bədxah adamların danışdıqları həmin sözləri ermənilər də deyirlər. Bu sözləri Azərbaycandan gəlmiş, burada oturan, yaxud da respublikamızın içində olan bəzi adamlar danışırlar.

Bilirsiniz, öz şəxsi məqsədlərinə nail olmaq üçün milləti ləkələmək, millətə böhtan atmaq lazım deyil. Milli mənafe hər şeydən üstün olmalıdır. Birinci milli mənafedir, sonra şəxsi mənafe. Yoxsa, sən kiməsə xoş gəlmək, kimdənsə acıq çıxmaq, kiməsə zərbə vurmaq üçün niyə millətini, ölkəni ləkələyirsən?

Biz böyük çətinliklə ayaq üstə durmuşuq. 1993-cü ildə vətəndaş müharibəsinin qarşısını aldıq, biz 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"ni imzaladıq. Ertəsi gün – sentyabrın 21-də həbsxanadan bir qrup cinayətkarı qaçırdılar. Sentyabrın 29-da mən Nyu-Yorka gələndən sonra bizim iki nəfər dövlət xadimimizi – parlament sədrinin müavini Afiyəddin Cəlilovu və polkovnik Şəmsi Rəhimovu terror yolu ilə öldürdülər. Elə bilirdilər ki, bizi bununla sarsıdacaqlar. Bunu bizim daxili qüvvələr etdilər. Onlar Azərbaycanda hakimiyyəti yenə də devirmək istəyirdilər. Amma onlar bizi sarsıda bilmədilər.

Bundan sonra o vaxt baş nazir vəzifəsini aparan Surət Hüseynov və xüsusi təyinatlı polis dəstəsindən olan cinayətkarlar dövlət çevrilişinə cəhd etdilər. Siz bu barədə eşitmisiniz, bilirsiniz, onların əlində çoxlu silah var idi. Amma məndə silah yox idi. Mən televiziya vasitəsilə xalqa müraciət etdim. İki saatın içində Prezident sarayının qarşısına yarım milyon adam toplaşdı. Onlar gəlib məni həmin o cinayətkarlardan müdafiə etdilər. Silahla yox.

Cinayətkarlara bu da dərs olmadı. Altı aydan sonra, 1995-ci ilin mart ayında yenidən istədilər bizi silah gücü ilə devirsinlər. Bunu həmin o xüsusi təyinatlı polis dəstəsi – oraya cinayətkarlar yığışmışdı – etmişdi. Biz bunun da qarşısını aldıq. Ondan sonra öz məqsədlərinə nail olmaq üçün mənim təyyarəmi raketlə vurmaq, məndən savayı 89 adamı da öldürmək istədilər. Allah buna imkan vermədi, başqa terror aktları da oldu.

Mən o vaxt demişəm, bu gün də deyirəm. Mən bu məsuliyyəti üzərimə götürərkən dərk etmişəm ki, xalqımın, millətimin yolunda həlak ola bilərəm. Mən xalqımın, millətimin yolunda nə vaxt lazım olsa qurban getməyə hazıram.

Biz bu qədər çətin yollar keçib Azərbaycanda nəhayət, ictimai-siyasi vəziyyəti, iqtisadiyyatı sabitləşdirmişik, demokratiya yolu ilə gedirik, bütün demokratik prinsipləri tətbiq edirik. Belə olan halda gəlib burada ayrı-ayrı yalan sözlər demək, danışmaq, yaxud qəzetlərə yazmaq, bunu bizim daxilimizdən etmək, – bunlar hamısı xalqımıza qarşı xəyanətdir, başqa şey deyildir.

Yenə də deyirəm, əgər kiminlə ədavətin varsa, bundan xalqın mənafeyinə zərbə vurmaq üçün istifadə etmə. Kiminlə ədavətin varsa, ədavətini apar.

Mən sizinlə səmimi, açıq danışıram. Ürəyim istəyir ki, dünya azərbaycanlıları daha birləşsinlər, daha da sıx olsunlar. Bu da çox lazımdır. Biz buna da nail olacağıq. Bəlkə bunun da qarşısında bəzi çətinliklər vardır.

Deyirsiniz ki, Kaliforniyada bir cəmiyyət yaratmaq istədiniz, konqres keçirdiniz. Siz əgər belə bir konqres, azərbaycanlıların konqresini keçirmək istəyirdinizsə, gərək Azərbaycan dövləti ilə əlaqəyə girəydiniz, Azərbaycan dövləti də sizə dəstək verəydi. Azərbaycan Prezidenti, ola bilər, sizi təbrik edərdi, yanınıza nümayəndə göndərərdi. Amma siz bunu etmədiniz. Əgər doğrudan da belə bir niyyətiniz olubsa, gərək bunu edəydiniz. Belə olmasın ki, bu o Azərbaycandandır, bu isə bu Azərbaycandandır. Fərqi yoxdur. Bizim aramızda bir Araz var. Rəhmətlik Şəhriyar bu barədə nə deyib, yadınızdadır? Biz bu il Şəhriyarın 90 illik yubileyini keçirəcəyik, buna hazırlaşırıq. İndi nə olsun ki, vaxtilə aramızı kəsdilər. Aramızı Araz kəsmədi, bizi parçaladılar. Nə olsun? Nə fərqi var ki, biri o tayda, biri bu tayda doğulubdur? Hamısı azərbaycanlıdır.

Ona görə də gəlin daha da birləşək, bir olaq. Bir daha deyirəm, bütün azərbaycanlıların indi dünyada bir Vətəni var. O da müstəqil Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu, müstəqil Azərbaycan Respublikasıdır, onun dövlətidir. Gəlin hamımız bu dövlətin, bu Vətənin ətrafında sıx birləşək. Kim harada yaşayır-yaşasın. Biz hamıya sərbəstlik veririk. İndi Azərbaycandan da kim istəyir, gedib harada yaşayır yaşasın. Keçmiş vaxt deyil, biz heç kimin qarşısını almırıq. Amma harada yaşayırsansa yaşa, öz Vətənini həmişə qəlbində saxla. Con Kennedinin sözünə uyğun desək, hər gün fikirləş, sən Azərbaycan üçün nə etmisən? Bu barədə hər gün fikirləş. Sağ olun. Təşəkkür edirəm.

AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ

Bakı şəhəri
17 avqust 1997-ci il

Əziz Müslüm!

Sizi – zəmanəmizin görkəmli müğənnisini yubileyiniz münasibətilə təbrik edirəm, Sizə səadət, cansağlığı və yeni-yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Sizin novatorluqla varisliyi ahəngdar şəkildə birləşdirən sənətiniz həyatımızda xüsusi yer tutur. İyirminci əsrin əvvəllərində Üzeyir Hacıbəyov ilə birlikdə peşəkar Azərbaycan musiqisinin təməlini qoymuş babanız Müslüm Maqomayevin ənənələrini davam etdirərək Siz bizim musiqi mədəniyyətinin çox zəngin imkanlarını daha da artırmısınız.

60-cı illərdə Sizi gənclərin sevimlisinə çevirmiş istedadınız bu gün də Yer kürəsinin bütün guşələrində adamların qəlbini fəth edir. Sizin ifanızda hər bir mahnı həyatın, məhəbbətin və xeyrin tərənnümünə çevrilir, zaman və məkan hüdudlarından kənara çıxır.

Güclü səsiniz, coşqun temperamentiniz və yüksək vokal mədəniyyətiniz, üstəlik daim təkmilləşməyə can atmağınız Sizi sönməz ulduza çevirmişdir. Çoxcəhətli istedadınız sayəsində Siz hər mahnıya təkraredilməz rövnəq verirsiniz, onun ifasını bir aktyorun teatrına çevirirsiniz. Məhz bu məziyyət xüsusi olaraq Sizin ifanız üçün yazılmış çoxlu mahnının yaranmasına səbəb olmuşdur. Bəstəkarlıq fəaliyyətiniz isə dövrün rəmzinə çevrilən, doğma diyarımız Azərbaycanı təcəssüm etdirən əsərlər meydana gətirmişdir.

Səhnə ifaçılığı, istedadınız bizə həm gözəl tamaşalar və mahnılar, həm də kinematoqrafiyada unudulmaz rollar bəxş etmişdir. Sizin estrada-simfonik orkestri yaratmağınız Azərbaycan mədəniyyətinin şanlı səhifələrindən birini təşkil edir.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafına çox böyük töhfə vermiş yaradıcılığınız, şübhəsiz, millətin qızıl fonduna daxil olmuşdur və hələ uzun illər ülvi sənətə xidmət etməyin parlaq timsalı olacaqdır.

Layiq görüldüyünüz çoxsaylı təltiflər və mükafatlar arasında ən qiymətlisi, şübhəsiz ki, Azərbaycan xalqının məhəbbətidir. Məhz bu məhəbbət Sizi musiqi sənətinin canlı əfsanəsi etmişdir.

Ömrünüz uzun olsun. Sizi bağrıma basıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ŞAİRİ MİRVARİD DİLBAZİYƏ

Bakı şəhəri
18 avqust 1997-ci il

Hörmətli Mirvarid xanım!

Sizi – Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini anadan olmağınızın 85 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Xalqımızın əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərini tərənnüm edən şeir və poemalarınız oxucular tərəfindən uzun illərdir ki, dərin rəğbətlə qarşılanır. Ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində poeziyanızın danılmaz rolu olmuşdur.

İyirminci əsrdə xalqın başına gəlmiş böyük faciələri öz yaradıcılığınızda canlı şahid kimi əks etdirməklə yanaşı, Siz daim nikbin şair qalaraq sabaha böyük ümid və inam ifadə edən əsərlər yaratmısınız. Qarabağ dərdi, Göyçə həsrəti, taleyin hökmü ilə bir-birindən uzaq düşmüş soydaşlarımızın ayrılıq ağrısı Sizin poeziyanızda tarix və ibrət dərslərinə çevrilərək gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edir.

Füsunkar Azərbaycan təbiətinin gözəlliklərinə həsr olunmuş hər bir misranız da oxucuları Vətənə, xalqa, ana dilimizə qırılmaz tellərlə bağlayır. Azərbaycan uşaq şeirinin inkişafındakı xidmətləriniz də yüksək qiymətə layiqdir. Sizin poetik tərcümələriniz sayəsində Azərbaycan oxucuları dünya poeziyasının bir çox gözəl nümunəsi ilə tanış olmaq imkanı əldə etmişdir.

Siz Azərbaycanın qadın şairlərinin poeziya ənənələrini davam etdirərək şeirimizin uca zirvələrini fəth etmisiniz. Buna məhz əsərlərinizə xas olan bəşərilik, şəxsiyyətinizdən irəli gələn nəciblik sayəsində çatmısınız.

Yetmiş illik ədəbi fəaliyyətiniz Vətənə sonsuz sədaqət, xalqa fədakar xidmət məktəbi olmuşdur. İnanıram ki, Siz poeziya həvəskarlarını müstəqil Azərbaycanımızı, onun azad xalqını tərənnüm edən yeni əsərlərlə bundan sonra da sevindirəcəksiniz.

Sizi bağrıma basıram, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

DAHİ BƏSTƏKAR FRİDERİK ŞOPENİN MUZEYİ İLƏ TANIŞ OLDUQDAN VƏ ONUN ƏSƏRLƏRİNİN MAHİR İFAÇISI BEYNƏLXALQ MÜSABİQƏLƏR LAUREATI, 23 YAŞLI RAFAEL LUŞÇEVSKİYƏ TƏŞƏKKÜRÜNÜ BİLDİRDİKDƏN SONRA SÖYLƏNMİŞ SƏMİMİ MİNNƏTDARLIQ SÖZLƏRİNDƏN

Varşava, Ostroqski qəsri
27 avqust 1997-ci il

...Şopenin musiqisi özlüyündə polyak xalqı üçün çox böyük fəxr və sərvətdir. Sizin ifanız isə bu dəyəri daha da artırır. Mən proqramla tanış oldum. Siz az bir müddətdə beynəlxalq miqyasda uğurlar qazana bilmisiniz. Musiqini, o cümlədən Şopenin sənətini sevən insan kimi deyə bilərəm ki, Siz bu nailiyyətləri tamamilə haqlı olaraq və ədalətli qazanmış, yəni həmin mükafatlara layiq görülmüsünüz. Bunu bu gün inandırıcı şəkildə nümayiş etdirdiniz. Bu gün bizə böyük zövq bəxş etdiyinizə görə sizə təşəkkür edir və yaradıcılıq fəaliyyətinizdə yeni uğurlar diləyirəm. Şübhə etmirəm ki, parlaq ifaçı, pianoçu kimi, o cümlədən Şopenin əsərlərinin gözəl ifaçısı kimi Sizi daha böyük mükafatlar, daha böyük şöhrət gözləyir. Çox sağ olun. İmkanınız olsa, Azərbaycana gəlin, mən Sizi dəvət edirəm. Azərbaycanda peşəkar incəsənətin, o cümlədən Şopen yaradıcılığının pərəstişkarları çoxdur. Hesab edirəm ki, Siz yaxşı dinləyici auditoriyası ilə qarşılaşacaq və razı qalacaqsınız. Sizi dəvət edirəm, gəlin. Sağ olun, Sizə uğurlar arzulayıram.

YUNESKO-nun BAŞ DİREKTORU
FEDERİKO MAYOR CƏNABLARINA

Bakı şəhəri, 3 sentyabr 1997-ci il

Hörmətli cənab Federiko Mayor, insanın bütün hüquq və vəzifələrinin həyata keçməsi, inkişaf və demokratiya üçün sülhün zəruri olduğunu bir daha təsdiq edən insanın sülh hüququ haqqında Bəyannamənin layihəsini diqqətlə öyrəndim və bu barədə mülahizələrimlə bölüşmək istəyirəm.

Sona çatmaqda olan XX əsr bəşər tarixində çox ziddiyyətli bir səhifədir. Bir tərəfdən elmin və texnikanın inkişafı insanların yaşayış səviyyəsini yüksəltməyə imkan yaratdı, digər tərəfdən isə həmin nailiyyətlər insanın özünə qarşı yönəldi. İnsanları kütləvi şəkildə məhv edə bilən silahların kəşf edilməsi bütün bəşəriyyəti böyük bir təhlükə altında qoydu. Bu gün insan hüquqlarının beynəlxalq ictimaiyyət tərəfindən ümumbəşəri bir dəyər kimi qəbul edilməsinə baxmayaraq, onlar bir çox yerlərdə kobudcasına pozulur və bu da yalnız ayrı-ayrı dövlətlərdə bərqərar olunmuş totalitar rejimlərlə əlaqədar deyil. İnsan hüquqlarını kütləvi şəkildə pozan başlıca amil müharibədir. Müharibələr nəticəsində insanların ən əsas hüququ – yaşamaq hüququ pozulur, onların yaşadıqları yerlər dağıdılır, mədəni sərvətlər məhv olunur, ailə üzvləri arasında əlaqələr kəsilir, insanlar öz yurdlarından didərgin düşür və böyük faciələrə düçar olur. Bütün bunlara bəraət qazandıra bilən heç bir səbəb yoxdur və ola da bilməz.

Yaxşı məlumdur ki, sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Sülh isə yalnız müharibənin olmaması demək deyil. Sülh həmçinin elə bir şəraitdir ki, bütün insanlar zorakılıqdan və qorxudan azad yaşayırlar. Hesab edirik ki, Bəyannamə layihəsində çox düzgün olaraq sülhün iki – beynəlxalq və daxili aspekti əks edilir.

Beynəlxalq aspektdə sülh bir tərəfdən dövlətlər arasında müharibələrin olmaması, digər tərəfdən isə xalqlar arasında qarşılıqlı hörmətə, etibara əsaslanan münasibətlərin mövcudluğu deməkdir.

Daxili aspektdə isə sülh məfhumu «vətəndaş sülhü» mənasını daşıyır ki, bu da vətəndaşların öz aralarında və vətəndaşlarla dövlət hakimiyyəti arasında münasibətləri ehtiva edir. Buna görə hər bir insanın sülh hüququ həm təhlükəsiz yaşamaq hüququ, həm də dövlətin idarə edilmə-

sində fəal iştirak etmək və dövlətin daxili və xarici siyasəti haqqında dolğun və obyektiv məlumat almaq hüququ deməkdir. Öz xalqının mənafeyinə qarşı yönəlmiş və ya bu mənafelərin digər xalqlara qarşı qoyulması siyasəti yolverilməzdir.

Biz inanırıq ki, insan hüquqlarını təmin edən demokratik dövlət müharibəni birinci başlamaz. Burada xüsusi qeyd etmək istəyirəm ki, 1988-ci ildən bəri davam edən Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində ərazimizin 20 faizi işğal edilmiş, 1 milyondan artıq vətəndaşımız öz yurdlarından didərgin düşmüş, on minlərlə insanlar həlak olmuş, mədəni sərvətlərimiz dağıdılmışdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası sülhsevər siyasət apararaq, 1994-cü ilin may ayından atəşkəsin əldə olunmasına, ölkədə siyasi sabitliyə, vətəndaş həmrəyliyinə nail olmuş və münaqişəni yalnız sülh yolu ilə həll etmək niyyətindədir. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın insan hüquqlarına nə qədər hörmət etməsinə əyani sübutdur.

Biz sülhü insan həyatında ən ülvi məqsəd hesab edirik və bu baxımdan onun layihədə yalnız insan hüququ kimi deyil, həm də hər kəsin vəzifəsi kimi müəyyən edilməsini dəstəkləyirik.

Hər bir insan dərk etməlidir ki, o, sülhün qorunmasına görə məsuliyyət daşıyır. Əgər bir kəs müharibənin mümkünlüyünü qəbul edirsə, deməli, onun başlanmasına rəvac verir. Digər tərəfdən isə sülhün öz-özünə bərqərar olacağını hesab etmək sadəlövhlük olardı, hər şey insanların özündən asılıdır. Əlbəttə, demək olar ki, hələ heç vaxt dünyada ümumi sülh olmayıb. Amma bunu deməklə biz belə bir sülhün mümkünsüzlüyünü sübut etmiş olmuruq. Əgər ideya gerçəkliyə uyğun gəlmirsə, bu hələ o demək deyil ki, ideya düzgün deyil. Odur ki, bütün dövlətlər, təşkilatlar və insanlar hərəsi öz səviyyəsində sülhün bərqərar olmasına və onun qorunub saxlanmasına çalışmalıdırlar.

Sülh dövlətlərin siyasəti ilə sıx əlaqədə olmaqla yanaşı, həmçinin və bəlkə də hər şeydən əvvəl elm, təhsil və mədəniyyət məsələsidir. Yaxşı məlumdur ki, müharibənin əsas səbəblərindən biri insanlar və xalqlar arasında dözümsüzlük şəraitidir. Dözümsüzlük isə insanı zorakılığa vadar edə bilər. Buna görə də başlıca məqsəd insanlar arasında sülh, ədalət, azadlıq, qarşılıqlı hörmət, humanizm və bərabərlik ideyalarının yayılması, müharibə təbliğatı, dini, milli, irqi və sairə zəminlərdə düşmənçilik və ya ədavət salmaq məqsədi güdən hərəkətlərin qadağan olunmasındadır.

Layihənin son bəndində göstərilir ki, bütün dövlətlər insanların sülh hüququnu təmin etmək üçün bütün tədbirləri, o cümlədən konstitusion,

qanunvericilik, inzibati, iqtisadi, sosial, mədəni xarakterli və digər tədbirləri həyata keçirməlidirlər.

Şübhə etmirəm ki, Azərbaycan Respublikasının 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında və digər qanunvericilik aktlarında bununla əlaqədar bir çox müddəaların olmasından xəbərdarsınız.

Belə ki, Konstitusiyanın müqəddiməsində Azərbaycan xalqının ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyəti bəyan edilir. Daha sonra Konstitusiyada təsbit edildiyi kimi, Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Konstitusiyaya görə Azərbaycan dövlətinin ali məqsədi insan hüquq və azadlıqlarının təmin edilməsidir. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılmasını və təbliğ edilməsini qadağan edir, həmçinin, insanları hər hansı bir diskriminasiyadan müdafiə edir. Sülhün qorunmasında mədəniyyətin danılmaz rolunu nəzərə alaraq qeyd etmək lazımdır ki, Konstitusiya hər kəsin mədəni sərvətlərindən sərbəst istifadə etmək hüququnu, eləcə də milli mənsubiyyətini qoruyub saxlamaq və ana dilindən istifadə etmək hüquqlarını təmin edir, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqatı və təbliğatı qadağan edir. Bu qadağanlar Azərbaycan Respublikasının cinayət qanunvericiliyində də öz əksini tapmışdır.

Biz inanırıq ki, bütün insanlar aralarında olan fərqlərə baxmayaraq, eyni tarixi köklərə malikdir və həyatda eyni məqsədlərə nail olmaq istəyirlər. Bəşəriyyətin keçmişi və bu günü bizə dəhşətli müharibələrdən xəbər verməyinə baxmayaraq, inanırıq ki, onun gələcəyi sülhdür.

Bu inama sadiq olaraq və bütün insanlara sülh arzulayaraq bildirmək istəyirəm ki, biz YUNESKO-nun insanların sülh hüququ haqqında Bəyannaməsinin qəbul edilməsi təklifini təqdirəlayiq hal hesab edirik və Bəyannamə layihəsini dəstəkləyirik.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət kimi bundan sonra da öz siyasətini yalnız sülhün bərqərar olmasına yönəldəcək və bu siyasətə sadiq qalacaqdır.

Dərin hörmət və ehtiramla.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

İLYAS ƏFƏNDİYEVİN «HÖKMDAR VƏ QIZI» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ*

Azərbaycan Milli Dram Teatrı
20 sentyabr 1997-ci il

Mən ilk əvvəl belə bir əsəri hazırlayıb xalqa çatdırdığınıza görə sizə təşəkkürümü bildirirəm. İhsan bəy, Sizə müraciət edirəm, buyurun, Azərbaycan mədəniyyəti ilə tanış olun.

İ h s a n b ə y D o ğ r a m a c ı: Bu əsər böyük bir tarixi tablodur və mən inanıram ki, Allah-təala Azərbaycanı əbədi müstəqil və payidar edəcəkdir.

H e y d ə r Ə l i y e v: Mən sizi təbrik edirəm. Azərbaycan Dövlət Dram Teatrı 125-ci mövsümünə başlayıbdır. Allah bunu bizə qismət edibdir. Azərbaycan teatrının 100 illik yubileyini sizinlə birlikdə təntənəli surətdə keçirmişik, bundan sonra 25 il yaşamışıq. Doğrudur, bu 25 il hamar yol olmayıbdır, enişli-yoxuşlu, çətin, əzab-əziyyətli keçibdir. Ancaq bizim çox böyük nailiyyətimiz ondan ibarətdir ki, nəhayət, Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail olubdur. Bu müstəqilliyə, azadlığa görə hər bir əzab-əziyyətə, itkiyə, hər bir qurbana razı olmaq olardı.

Çünki Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyətdir və çoxəsrlik tariximizdə bütün xalqımız üçün Allah tərəfindən göndərilmiş bir nemətdir. Ona görə də mən salonda olarkən, sizinlə görüşərkən keçən 25 ili xatırlayıram. 1973-cü ildə biz teatrın 100 illik yubileyini qeyd etdik, sonra da 25 il yaşadıq.

Bu gün siz çox gözəl bir əsər təqdim etdiniz. Mən sizi bu əsər, bu tamaşanız münasibətilə təbrik edirəm. Çox dəyərli və bu gün xalqımız üçün azımlı əsərdir. Şübhəsiz ki, biz bu gün ilk növbədə əsərin müəllifinin –

* Tamaşaya sentyabrın 21-də Bakıda açılacaq Pediatriya Cəmiyyətlərinin IV Beynəlxalq Konqresinin nümayəndələri, Türkdilli Ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, professor İhsan Doğramacı və digər xarici qonaqlar da baxmışlar.

böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik, onun xatirəsini yad etməliyik.

Belə başa düşürəm ki, bu onun son əsəri idi.

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri – bu gün sizin təqdim etdiyiniz əsər həyatımız üçün çox əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yəni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız, – o cümlədən mənə də, – heç hiss etmədim ki, nə qədər vaxt keçibdir. Bu da ona görədir ki, birincisi – əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İlyas Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir. Bunlar indi açılıbdır. Tarixçilər, bizim salnaməçilər bunları düzgün yazmağa başlayıblar. Ancaq bilirsiniz, indi hər bir adamın o tarix kitablarını oxumağa nə imkanı var, nə vaxtı. Bir də ki, biri oxuyur, o birisi oxuya bilmir. Bu baxımdan teatr, kino çox təsirli bir vasitədir. Tariximizin bu dövrü keçmişdə təhrif olunubdur. Bunu siz bilirsiniz. Biz bu dövrü yaşamışıq.

Bu gün mənim əziz dostum İhsan Doğramacıya danışırdım, – qonaqlardan biri soruşdu ki, keçmiş zamanlarda da belə bir pyesi tamaşaya

qoymaq olardımı? Dedim, ola bilməzdi. Çünki o vaxtlar bunun əksinə olan mövzuda tamaşalar göstərilirdi. Təəssüflər olsun. Bu, heç kimin günahı deyil – nə sizin, nə bizim, nə mənim, nə onun. Ümumiyyətlə, yaşadığımız dövrün, o dövlətin və quruluşun yaratdığı vəziyyət idi. Ancaq həqiqət ondan ibarətdir ki, 1964-cü ildə, siz bilərsiniz, Azərbaycanın Rusiyaya könüllü surətdə qatılmasının 150 illik yubileyi təntənəli qeyd olundu. Böyük bayram keçirdik, ona böyük əsərlər həsr edildi. Bu da olub.

Bilirsinizmi, biz gərək indi tariximizi düzgün araşdıraq, heç kimi günahlandırmayaq, günahkar axtarmaq lazım deyil. Əgər belə olsa, işlərimiz yaxşı gedə bilməz. Keçmişdə nə olubsa, olub-keçib. Yenə də deyirəm, o bayramı edənlər də günahkar deyillər. Çünki onlar həmin quruluşa, həmin sistemə xidmət edirdilər. O quruluş tarixi də başqa cür çatdırmışdı. Əgər bizdə sərbəstlik, azadlıq, demokratiya olsaydı, o vaxt tarixçilərdən biri, ikisi, üçü, dördü götürüb yazsaydılar ki, bu belə deyil, bəlkə də bunların qarşısını almaq olardı.

Amma o dövrdə, o sistemdə, o ideologiyanın təsiri altında bunu etmək mümkün deyildi. Mən bunu bir dəfə demişəm. Bir neçə il ondan sonra, 1968-ci ildə bizim böyük alimimiz, rəhmətlik akademik Ziya Bünyadov bir balaca cəhd göstərdi və demək istədi ki, biz o vaxt Rusiyanın tərkibinə könüllü daxil olmamışıq – bu, könüllü olmayıb, yəni özümüz müraciət etməmişik. Ona nəsə etmək istədilər, o tərəf-bu tərəfə çəkdilər, cəzalandırmaq istədilər. Mən ona kömək etdim. Çox böyük alim olduğuna, özü də ikinci dünya müharibəsinin qəhrəmanı olduğuna görə bəzi xeyirxah adamların, o cümlədən mənim yardımımla, – o vaxt mən burada DTK-ya rəhbərlik edirdim, – imkan vermədim ki, ona nəsə etsinlər. Belə bir hal olmuşdu. Yəni demək istəyirəm ki, hətta bu cür cəsarətli hallar da olurdu.

Ona görə də indi heç kəsi günahlandırmaq lazım deyil. Amma eyni zamanda bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsilə indi həqiqəti xalqa bildirmək lazımdır. Həqiqətin xalqa belə çatdırılması daha təsirlidir, xalq bunu qavraya bilir. Yenə də deyirəm, böyük bir kitabı götürüb oxumaq, ondan nəticə çıxartmaq olar. Amma bu o qədər də asan deyil. Lakin bunu ədəbiyyat dili ilə yazıb çatdırmaq, sizin kimi çox gözəl aktyorların ifasında bu vasitə ilə xalqa çatdırmaq çox əhəmiyyətlidir. Mən əsəri bu baxımdan çox yüksək qiymətləndirirəm – həm əsəri, bu faciəni, həm də sizin əsərə verdiyiniz bu quruluşu. Çox gözəl yaratmısınız – həm aktyorlar, həm rejissorlar, bütün aktyor ansamblı həddindən artıq gözəl ifa etdi. Mən sizi təbrik edirəm.

Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir. Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir, xalqımızı bu istiqamətdə tərbiyələndirir və əsasən gəncləri tərbiyələndirir. Bu baxımdan əsərin aktuallığı çox böyükdür. İndi hər bir adam bilsin ki, müstəqillik nədir və öz xalqının müstəqilliyini qorumayan adamların aqibəti necə olur. Məsələn, Cavad xan və İbrahim xan. Görürsünüzmü, ikisi də bizim xanlarımızdır. Bu nə deməkdir? Əsərin bir mənası da bundan ibarətdir ki, xalqımızı elə o vaxt, keçmiş tarixi dövrlərdə də bədbəxt edən içindəki çəkişmələr olub. Bu həqiqətdir ki, xanlar o vaxtlar bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəli, iddiada olmasaydılar, biri o birisinə hörmət edib hamısı birləşsəydilər buna nail ola bilərdilər. Düzdür, İbrahim xan bundan çox şikayətlənir ki, mən xanlıqları birləşdirmək istəyirəm, amma birləşmirlər. Əsərin bir yerində o deyir ki, xanlar qorxurlar ki, mən şah olaram. Bu da həqiqətdir. Çünki İbrahim xan da istəyirdi şah olsun, Kəlbalı xan, Cavad xan, Quba xanı Fətəli xan da, Şəki xanı da şah olmaq istəyirdi. Bəli, hər biri istəyirdi şah olsun. Ancaq bunlar bir yerdə olsaydılar, yığışıb hamısı deməydilər ki, gəlin bir nəfəri şah seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən bəlkə də xilas olmaq mümkün olardı. Amma bunlar olub-keçib. Xalqımız qurbanlar veribdir. Görürsünüzmü, İbrahim xanın həyatı nə qədər faciəlidir – oğlu və qızları ondan üz döndərdi, özü də öz səhvinin qurbanı oldu.

Bilirsiniz, bunlar o qədər ibrətamizdir ki! Məsələn, İbrahim xan bizim tariximizdə məlumdur. Bir sıra yazıçılarımız İbrahim xanın surətini yaradıblar, amma düzgün verməyiblər. Onları da günahlandırmaq olmaz, çünki onlar da həmin o ideologiyanın təsiri altına düşmüşdülər. Hətta «Vaqif» pyesində İbrahim xanın guya rus padşahının əleyhinə olduğu göstərilir. Həmin əsərdə o, Vaqifə deyir: «Vaqif, əlindəki o əsa nədir?» Cavabında isə Vaqif deyir ki, «Rusiya padşahı, o zülmkardan – Yekaterinadan bir hədiyyədir».

Yenə də İbrahim xan deyir: «De, sən hara, Rusiya hara, yoxsa satılmısan o kafirlara?» Bilirsinizmi, belə də yazılıbdır. Ona görə də bizim xalqımızı, millətimizi birləşdirmək üçün, bu çəkişmələrə son qoymaq üçün də bu əsər çox ibrətamizdir.

Bu çəkişmələr dünən də vardı, bu gün də var. 1988-ci ildən xalqımızın başına gələnlər, ermənilərin Azərbaycana təcavüz etməsi, Dağlıq Qarabağ məsələsini qaldırması nəyin nəticəsində oldu? Azərbaycanın içində gedən çəkişmələrin nəticəsində oldu. Əgər o vaxt Azərbaycan xalqı bir-

ləşsəydi, hamı bir olsaydı, ermənilərin qarşısını almaq mümkün olmazdımı? Onda torpaqlarımız işğal oluna bilərdimi?

Bunun bir qismi mənim həyatımla da bağlıdır. Məlumdur ki, mən Moskvada oturmuşdum və Azərbaycanı da müdafiə edirdim. Ancaq ermənilər bir tərəfdən, bizim Azərbaycandakı bədbəxtlər də bir tərəfdən Heydər Əliyevi Kremldən kənarlaşdırdılar. Məni kənarlaşdırandan 20 gün sonra bu hərəkat başlandı, üç aydan sonra Qarabağ faciəsi baş verdi. Məlumdur, mən demirəm ki, çox şey edə bilərdim. Çox şey də etmişdim. Bu Qarabağ hadisələri dəfələrlə qalxmışdı. Vaxtilə mən və məndən qabaqkı insanlar da bunun qarşısını almışdıq. Almağa da imkanımız var idi.

Bəs nə üçün belə oldu? Çəkişmələr nəticəsində. İndi təsəvvür edin, 1988-ci ildə faciə başlayıbdır, ermənilər iddia qaldırıblar, qərar çıxarıblar ki, Dağlıq Qarabağı Ermənistana birləşdirsinlər, Dağlıq Qarabağ Azərbaycana tabe deyil. Azərbaycana Moskvadan Vəzirovu yeni rəhbər göndəriblər. O bu işlərlə məşğul olmaq əvəzinə, başladı hər yerdən material toplamağa ki, Heydər Əliyev Azərbaycanda işləyəndə nə kimi «günahlar» edibdir. O vaxt Heydər Əliyev artıq istefaya getmiş bir adam idi, Moskvada adi vətəndaş kimi yaşayırdı. Nə istəyirdin sən bu Heydər Əliyevdən? Sən gərək o ermənilərlə mübarizə aparaydın. Amma tək bir o dövr deyil. Elə sonrakı illəri – 1990, 1991, 1992-ci illəri, 1993-cü ilin iyun ayını xatırlayın. Dörd il bundan öncə Azərbaycanda vətəndaş müharibəsi qalxdı. Nə üçün? Çünki hakimiyyət uğrunda mübarizə gedirdi. Necə ki, o vaxtlar xanlar birləşə bilmirdilər ki, kim şah olacaqdır, burada da o dedi ki, Azərbaycanda mən hakim olmalıyam, o birisi dedi ki, mən olmalıyam, bir başqası dedi ki, yox, mən olmalıyam. Hərənin əlində bir silahlı dəstə, biri Gəncədən, biri Lənkərandan, biri ordan, biri burdan qalxdı, Azərbaycanı vurdular, dağıtdılar. Vətəndaş müharibəsi getdi.

İndi dörd ildir ki, addım-addım, necə deyərlər, qarış-qarış yol gedirik ki, xalqımızı həmin vəziyyətdən çıxaraq. Bax, bunlara görə də mən hesab edirəm ki, bu əsər çox aktualdır. Hesab etmirəm ki, Azərbaycanda bu çəkişmələrə son qoyulub, insanlar daha bunları unudublar və yenidən belə şeylər cücərməyəcək. Yox, Azərbaycanda təhlükə həmişə var. Ona görə də xalqımızı bundan sonra da bu təhlükədən qorumaq, birləşdirmək və həmrəy etmək üçün, Azərbaycanın bu ağır dövründə hamının müstəqilliyimizi qoruyub saxlaması üçün bu əsərin çox böyük əhəmiyyəti var – həm pyesin, həm də sizin bu səhnədə yaratdığınız bu tamaşanın. Ona görə də çox həyəcanlıyam. Doğrusu, əsər haqqında eşitmişdim, məzmununu bilirdim, lakin bu dərəcədə təsəvvür etmirdim.

Bu gün çox böyük təəssüratlar altındayam. Hesab edirəm ki, bu, bizim mədəni həyatımızda çox əlamətdar bir hadisədir. Bu əsəri geniş təbliğ etmək lazımdır. Bizim gəncləri bu tamaşaya mütləq gətirmək lazımdır – universitetlərdən, məktəblərdən gəlsinlər, baxsınlar. Tamaşanı tez-tez qoymaq lazımdır və çalışmaq lazımdır bəstəkarı, aktyorları da ictimaiyyətimizə geniş tanıdaq. Çox gözəl oynadınız. Çox sağ olun, təşəkkür edirəm. Mən sizin hamınıza yeni-yeni uğurlar arzulayıram və çox məmnunam ki, bu gün gəldim, sizinlə bir də görüşdüm. Çox məmnunam ki, mənim dostlarım da burada oldular, tamaşanı gördülər.

İ h s a n b ə y D o ğ r a m a c ı: Mən də çox həyəcanlandım. Əlbəttə ki, bu əsəri tez-tez təkrarlamaq lazımdır. Təklifim budur ki, tamaşanı videolentə çəkmək, heç olmasa ayda bir dəfə televiziya vasitəsilə xalqa göstərmək lazımdır. Əsər çox mühüm mövzuya həsr olunub, Azərbaycanın müstəqilliyi baxımından çox ibrətamiz əsərdir.

P o l a d B ü l b ü l o ğ l u: Təklif edirəm ki, tamaşa Türkiyəyə aparılsın, orada da göstərilsin.

H e y d ə r Ə l i y e v: İhsan bəyin dediyi ilə Polad Bülbüloğlunun təklifi arasında ziddiyyət yoxdur. Azərbaycan üçün bu tamaşanın videolentə çəkilməsi lazımdır. Ancaq mən salonda oturarkən fikirləşdim ki, bu mövzuda tarixi bir kinofilm yaratmaq lazımdır. Doğrudur, vaxtilə biz tariximizi əks etdirən «Nəsimi», «Babək» kimi çox gözəl kinofilmlər yaratmışıq. O vaxt vəsaitimiz çox idi, indi yoxdur. Amma mən bu barədə düşünürəm. Eyni zamanda bir videofilm çəkmək olar ki, bunu vaxtaşırı versinlər. Ancaq mən hesab edirəm ki, İhsan bəy də Türkiyədə bizim bu böyük tamaşamızı təbliğ edər, Ankarada, İstanbulda göstərər. Qoy görsünlər.

Sağ olun, gecəniz xeyrə qalsın.

DAHİ AZƏRBAYCAN BƏSTƏKARI ÜZEYİR HACIBƏYOVUN «ARŞIN MAL ALAN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ*

Azərbaycan Dövlət Akademik
Opera və Balet Teatrı
21 sentyabr 1997-ci il

Mən sizi təbrik edirəm. Bu gün mənim dostum, qardaşım İhsan Doğramacı ilə və bu konqresə gəlmiş başqa xarici qonaqlarla birlikdə sizin ifanızda Uzeyir Hacıbəyovun «Arşın mal alan» operettasının yeni tamaşasına baxdıq. Hesab edirəm ki, bu, Azərbaycan teatrının həyatında çox böyük, əlamətdar hadisədir. «Arşın mal alan» operettasının qədim tarixi vardır. Mən salonda əyləşib tamaşaya baxdıqca düşünürdüm. Bu əsər 1911-ci ildə yazılıbdır, o vaxtdan indiyədək daim Azərbaycan teatr səhnəsində göstərilibdir, sonra isə film çəkilibdir. Bu əsər həm teatr tamaşası kimi, həm də kinofilm kimi təkcə respublikamızı yox, bütün dünyanı gəzibdir. Siz bu əsəri Azərbaycan Opera və Balet Teatrının səhnəsində çox məharətlə yenidən tamaşaya qoymusunuz. Bu, böyük yaradıcılıq nailiyyətidir. Bu nailiyyət münasibətilə sizi təbrik edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Üzeyir Hacıbəyovun bütün əsərləri ölməzdir. «Arşın mal alan» da ölməz sənət əsəridir. Bunu tariximizin ayrı-ayrı mərhələlərində böyük sənətkarlarımız yaşadıblar və bu əsər daim teatr səhnələrində göstərilibdir. Ancaq məlumdur ki, bu əsərin dünyada məşhur olması 1946-cı ildən – Azərbaycanın böyük sənət ustası, rejissoru Rza Təhmasibin quruluşu əsasında yaradılmış filmlə başlandı. Yəqin ki, həmin film xatirinizdədir. O, bütün dünyanı dolaşdı. Gənclər, ola bilsin ki, bunu bir o qədər xatır-

* Pediatriya Cəmiyyətlərinin IV Beynəlxalq Konqresinin rəsmi açılış mərasimindən sonra konqresin iştirakçıları və qonaqları üçün göstərilən tamaşadan sonra Prezident Heydər Əliyev, İhsan Doğramacı və digər xarici qonaqlar əsərin ifaçıları ilə görüşdülər.

lamırlar. Amma bizim nəsil üçün bu filmin dünyaya çıxması böyük hadisə idi. Bu bizi çox sevindirdi. Sevinirdik ki, «Arşın mal alan» artıq bütün dünyanı gəzir.

Bu gün sizin hazırladığınız bu tamaşaya baxarkən hesab edirdim ki, Üzeyir Hacıbəyov bu əsəri yazandan indiyə qədər bu operettanı daimsəhnəyə qoymuş incəsənət xadimlərini və bunu filmə çevirmiş incəsənət – teatr, kino xadimlərini böyük minnətdarlıqla yad etməliyik. Biz bunu heç vaxt unutmamalıyıq. Şübhəsiz ki, birinci növbədə xalqımızın ölməz bəstəkarı Üzeyir Hacıbəyovu unuda bilmərik. Sentyabrın 18-də Üzeyir Hacıbəyovun anadan olmasından 112 il keçdi. Biz 1995-ci ildə Üzeyir Hacıbəyovun 110 illik yubileyini böyük təntənə ilə qeyd etdik.

İhsan bəy, mənim xatirimdədir, Üzeyir Hacıbəyovun 90 illik, 100 illik, 110 illik yubileylərinin təntənə ilə qeyd edilməsi mənim rəhbərliyim altında keçirilibdir. Görün bu necə xoş bir tarixdir!

İ h s a n D o ğ r a m a c ı: İnşallah, Üzeyir Hacıbəyovun 200 illik yubileyini də qeyd edərik.

H e y d ə r Ə l i y e v: Biz sentyabrın 18-də Üzeyir Hacıbəyovun 112 illik yubileyini də qeyd etdik. 50 il bundan əvvəl, 1946-cı ildə böyük sənət ustası Rza Təhmasib «Arşın mal alan» filmini yaradıbdır. Yəqin ki, sizin heç biriniz onu görməmisiniz.

Y a ş a r N u r i y e v: O mənə dərs deyib. Mən onun tələbəsi olmuşam.

H e y d ə r Ə l i y e v: Ona görə də Soltan bəy rolunu yaxşı oynayırsan. Rza Təhmasib həm çox gözəl insan idi, həm də gözəl bir yaradıcı kollektiv yaratmışdı – bizim ölməz müğənnimiz Rəşid Behbudov, Gülçöhrə obrazını ilk dəfə filmdə ifa edən istedadlı aktrisa Leyla Bədirbəyli və s. İndi o sağdır, yaşayır. Vəli rolunu isə Lütfəli Abdullayev oynayırdı. O da bizim çox böyük sənətkarımız, aktyorumuz olub. Onlar vaxtilə bu əsərin tamaşasında çox gözəl oynamışdılar. Şübhəsiz ki, bu əsərdəki obrazları səhnədə çox aktyorlar ifa ediblər. Ancaq daha çox yadda qalan «Arşın mal alan» filmi olubdur. Ona görə ki, teatrda hər mövsümdə rolları müxtəlif aktyorlar ifa edirlər, amma filmdə bu belə deyil.

Siz yeni yaradıcı nəsilsiniz və onların davamçılarısınız. Bu əsəri XX əsrin sonunda yenidən səhnəyə qoymusunuz. Hesab edirəm ki, bu, çox gözəl alınıbdır. Mən çox şadam ki, siz bu əsəri yenidən tamaşaya qoymusunuz. Çünki «Arşın mal alan» operettası ölməzdir və salonda bu tamaşaya baxanlar sizi nə qədər böyük həvəs və maraqla alqışlayırdılar. Bizim

qonaqlarımız üçün bu yenidir. Onlar dilimizi bilməsələr də, tərcümə vasitəsilə sizi maraqla dinlədilər.

Yaxşı haldır ki, ifaçılar əsasən gənclərdən ibarətdir. Mənim yadıma Rza Təhmasib, Rəşid Behbudov düşür. «Arşın mal alan» filmi çəkiləndə mən də gənc idim. Ona görə də Rəşid Behbudova, Leyla Bədirbəyliyə və Lütfəli Abdullayevə böyük maraqla baxırdım. Sonra elə oldu ki, biz bir yerdə olduq, bir yerdə işlədik. Onların hər birinə də mənim böyük hörmətim olmuşdu. Mən respublikanın başçısı kimi onların xidmətlərini qiymətləndirmişdim.

Hazırda isə, görürsünüz, yeni gənc nəsil yetişibdir. Əsgər rolunu mərhum Rəşid Behdudovun yolu ilə gedən gənc müğənnimiz Azər Zeynalov gözəl ifa edir. Gülçöhrə rolunu ifa edən – teatrın solisti Zemfira İsmayılovanı birinci dəfədir ki, görürəm. Soltan bəy rolunun ifaçısı olan Yaşar Nuriyevi hamımız tanıyırıq. Asya, Vəli, Süleyman obrazlarını gənc aktyorlar çox gözəl ifa etdilər. Vaxtilə Cahan xala obrazını Münəvvər Kələntərli oynayırdı. Çox gözəl aktrisa idi. Şübhəsiz ki, siz də onların yolu ilə gedirsiniz. Gözəl dəsti-xəttiniz vardır.

Siz hələ gəncsiniz. Qarşınızda böyük yaradıcılıq yolu vardır. İstərdim ki, sizdən əvvəlki sənətkarlar – Lütfəli Ablullayev kimi, Rəşid Behbudov kimi, Leyla Bədirbəyli kimi və başqaları kimi öz üzərinizdə çalışasınız. Mən onları çox yaxından tanıyırdım, onlarla dost idim. Ona görə də görürdüm ki, onlar öz üzərlərində necə çalışırlar, necə işləyirlər, necə yeni nailiyyətlər əldə edirlər. Mən bunu sizə də tövsiyə edirəm.

Hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

RUSİYANIN VƏ AZƏRBAYCANIN XALQ ARTİSTİ, MÜASİR DÖVRÜN GÖRKƏMLİ MÜĞƏNNİSİ LYUDMİLA ZIKİNANIN KONSERTİNDƏN SONRA SƏHNƏ ARXASINDA ONUNLA GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ

Respublika sarayı
4 oktyabr 1997-ci il

Hörmətli Lyudmila Georgiyevna!

Mən Sizə «Rusiya» Dövlət Akademik Rus Xalq Ansamblının müşayiəti ilə gözəl çıxışınıza görə təşəkkür edirəm. Xalq Sizin üçün darıxmışdı, xalq Sizi əvvəlkitək sevir. 25 il bundan öncə, buraya ilk dəfə gəldiyiniz vaxtlarda Siz burada öz sənətinizə, öz şəxsiyyətinizə, öz səsinizə və mahnılarınıza, eyni zamanda Rusiyaya, rus xalqına məhəbbət və hörmət bəsləndiyini hiss etdiniz. Siz bunların hamısını 25 il əvvəl gördünüz. İndi biz müxtəlif ölkələrdəyik, vaxtilə tərkibində yaşamış olduğumuz ölkə daha yoxdur. Rusiyanın və Azərbaycanın, keçmişdə birlikdə olduğumuz respublikaların həyatında çox böyük dəyişikliklər baş vermişdir.

Lakin olduqca xoş, vacib və sevindirici haldır ki, bu hisslərin hamısı qalmışdır. Bu gün Siz bunu hiss etdiniz. Bu Sizə, Sizin sənətinizə, səsinizə və mahnılarınıza, bütövlükdə rus mədəniyyətinə olan dərin hisslərdir, ona görə ki, Siz həqiqi rus mahnısı və musiqisinin məhz ən incə hisslərinin olduqca parlaq tərcümanısınız. Biz bir-birimizi lap çoxdan tanıyırıq, mən Sizinlə Bakıda da, Moskvada da görüşlərimizi xatırlayıram. 25 il bundan öncə biz başqa respublikanın artistinə Azərbaycanın xalq artisti adı verilməsi haqqında ilk dəfə olaraq qərar qəbul etdik. Bu qərar bizi daha sıx bağlayıb doğmalaşdırdı. Bir görəydiniz, konsert zamanı tamaşaçılarla Sizin və ansamblınız arasında necə bir xoş ünsiyyət və necə bir yaxınlıq vardı. Bu yaxınlığı itirməmək, qoruyub saxlamaq çox vacibdir.

İndi bizim müxtəlif dövlətlərdə olmağımız zamanın hökmüdür, taleyin hökmüdür, burada təəccüblü bir şey yoxdur.

Mühüm olan bu deyil, başqa cəhətdir. Bir-birimizə olan dostluq hisslərini, qarşılıqlı rəğbəti və məhəbbəti qoruyub saxlamaq lazımdır. Bu gün bunlar həm sizin tərəfinizdən, həm də tamaşaçılar tərəfindən çox parlaq şəkildə nümayiş etdirildi.

Sizin Azərbaycana gəlişiniz, gözəl çıxışınız respublikamıza, xalqımıza, dövlətimizə çox dərin hörmətin ifadəsidir. Bununla eyni zamanda Sizə göstərilmiş hörmət, salonda müxtəlif adamların, müxtəlif yaşlardan, müxtəlif millətlərdən olan adamların Sizi hərarətli alqışlara, xoş hisslərə, gül-çiçəyə qərq etməsi Sizə, sizin şəxsiyyətinizə, Sizin sənətinizə çox yüksək ehtiram bəsləndiyinə sübutdur.

Siz gözəl müğənnisiniz, gözəl insansınız.

AYBƏNİZ XANIM VƏKİLOVAYA

Bakı şəhəri
8 oktyabr 1997-ci il

Hörmətli Aybəniz xanım!

Sizi 60 illik yubileyiniz münasibətilə salamlayır və ürəkdən təbrik edirəm.

Xalqımızın dahi şairi Səməd Vurğunun zəngin irsinin qorunub saxlanmasında və təbliğindəki xidmətləriniz əvəzsizdir. Sizin əməyiniz sayəsində sevimli şairimizin ev muzeyi Azərbaycan xalqının, poeziya pərəstişkarlarının mədəniyyət məbədinə çevrilmişdir. Siz Azərbaycanda təkcə böyük un övladı kimi deyil, eləcə də öz prinsipiallığı, dəyanətli və dəyişməz mövqeyi ilə səciyyələnən bir insan kimi tanınırsınız.

İnanıram ki, müasir Azərbaycan poeziyasında bütöv bir mərhələ təşkil edən Səməd Vurğun yaradıcılığının təbliği işində əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, nəcib işinizdə böyük uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MƏŞHUR MÜĞƏNNİ VƏ BƏSTƏKAR MÜSLÜM MAQOMAYEVİN YUBİLEY GECƏSİNDƏ NİTQ

Respublika sarayı
17 oktyabr 1997-ci il

Hörmətli dostlar, xanımlar və cənablar!

Biz bu gün burada Azərbaycanın zəngin mədəniyyətinin ən gözəl nümunələrindən, ən gözəl şaxələrindən biri olan Müslüm Maqomayevin yaradıcılığı ilə, onun mahnıları, əsərləri ilə yenidən görüşdük. Bu, xalqımızın, ölkəmizin həyatında əlamətdar hadisədir. Çünki Müslüm Maqomayev 35 ildir ki, öz sənəti, istedadı, gözəl səsi ilə Azərbaycan musiqisinin, mədəniyyətinin inkişaf etdirilməsində görkəmli xidmətlər göstərib, Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymağa çalışıbdır və bu sahədə də çox gözəl nailiyyətlər əldə edibdir.

Ona görə də bu gün hamımız böyük sevgi və məhəbbətlə bu möhtəşəm salona toplaşmışıq. Bu salonda olanların hamısı böyük məhəbbət və ehtirasla Müslüm Maqomayevin mahnılarını dinləyir, onun səsini dinləyirlər.

Azərbaycanın həyatında bu cür hadisələr xalqımızın nə qədər istedadlı və Azərbaycan mədəniyyətinin, incəsənətinin nə qədər zəngin olduğunu bir daha və bir daha nümayiş etdirir. Bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, mahnılarımız məhz belə fitri istedadlı şəxslər və onların fədakarlığı nəticəsində bu qədər yüksək zirvələrə qalxmışdır. Ona görə də mən əziz Müslüm Maqomayevi bu gün bir daha təbrik edərək, eyni zamanda bütün Azərbaycan xalqını, millətimizi bu böyük nailiyyətlə təbrik edirəm.

Mən sözlərimin birinci hissəsini ana dilimizdə, Azərbaycan dilində, dövlət dilimizdə dedim. Səhnədə olan və bu salonda oturan qonaqlarımız üçün tam aydın olmaqdan ötrü isə sözlərimin ikinci hissəsini rus dilində deyirəm.

Əziz Müslüm, əziz Tamara, hörmətli qonaqlar!

Siz bu gün bizim ictimaiyyətimizə, xalqımıza, respublikamıza yüksək sənətin, gözəl musiqinin daha bir parlaq nümunəsini, gözəl mədəniyyət nümunəsi bəxş etdiniz. Əziz Müslüm, biz bu gün buraya sənə, sə-

nin yaradıcılığına, şəxsiyyətinə və 35 illik yaradıcılıq, səhnə fəaliyyətin ərzində nail olduqlarına çox böyük məhəbbət və hörmət hissi ilə toplaşmışıq. Müslümün burada dediyi kimi, 35 il müğənninin həmişə eyni formada qalması, bəlkə də hətta bu formanı daim yaxşılaşdırması üçün, əlbəttə, böyük müddətdir. Biz bu gün şadıq ki, əzizimiz Müslüm bütün bu 35 ili çalışır, incəsənətimizi, mədəniyyətimizi zənginləşdirir və onun sənətinə pərəstiş edənlərin hamısını sevindirir.

Əziz Müslüm, avqustda mən sənə təbrik məktubu göndərərək öz fikirlərimi və hisslərimi qısaca şərh etmişdim. Həmin məktub bu gün burada oxundu, ancaq bugünkü günədək olan tarixi sanki yenidən vərəqlədiyim bu gecə o qədər həyəcanlandırıcıdır, elə hisslər doğurdu ki, mən səhnəyə qalxaraq sizi bir daha təbrik etməyi və burada deyilənlərə əlavə olaraq daha bir neçə kəlmə söyləməyi qərara aldım.

Bəli, biz bilməliyik, özü də həmişəlik bilməliyik ki, bax, burada dayanan Müslüm Maqomayev nadir və bənzərsiz müğənnidir, Allah vergisidir, ancaq eyni zamanda özünün gərgin, yorulmaq bilməyən zəhməti ilə cilalanmış istedaddır. Müslüm Maqomayevin Azərbaycan səhnəsinə ilk dəfə çıxması bizim xatirimizdədir, yəqin ki, burada oturanların da çoxunun yadındadır. Gənc, gözəl, hündürboy, amma çox arıq olan bu oğlan ilk dəfədən özünə böyük rəğbət oyatdı. Müslüm, Zabitlər evinin, Dənizçilər evinin ansambllarının tərkibindəki ilk çıxışların və bütün sonrakı mərhələlər mənim xatirimdədir. O vaxt çoxlarına elə gəlirdi ki, cavan oğlandır da, yaxşı oxuyur. Amma musiqi biliciləri dərhal qiymətləndirdilər ki, yox, bu oğlanın böyük və parlaq gələcəyi var. Xatirimdədir, o vaxt mən maestro Niyazi ilə söhbət edirdim. Şübhəsiz ki, o, Müslümü uşaq yaşlarından tanıyırdı.Mən ona istinad edirəm, çünki o zaman o, mənə və mənimlə bir yerdə olanlara dedi ki, bəli bu, Azərbaycan incəsənətində həqiqətən yeni, parlaq ulduzdur, həm də təkcə Azərbaycan incəsənətində yox.

Bəli, Müslüm həqiqətən Allahın istedad bəxş etdiyi, çox gözəl, bənzərsiz səsi, incəsənətə, mahnıya, müsiqiyə bağlı olan insandır. Əks halda o, bizim bütün bu illər ərzində tanıdığımız kimi ola bilməzdi. Ancaq eyni zamanda Müslüm bütün bu fitri keyfiyyətləri ilə yanaşı, Bakının, Azərbaycanın musiqi, incəsənət, mədəni mühitində idi. Ona görə də mən bu gün Müslümü, Tamaranı, bütün qonaqlarımızı dinləyərkən o vaxtları xatırlayırdım.

Əsrimizin əvvəlində musiqidəki, yüksək incəsənətdəki mühit məhz böyük Üzeyir Hacıbəyovun və böyük Müslüm Maqomayevin yaradıcılıq-

ları sayəsində çox güclü şəkildə özünü göstərirdi. Onlar gözəl məktəb yaratmışlar. Üzeyir Hacıbəyovun yaratdığı Azərbaycan Dövlət Konservatoriyasını götürək, – bizim müsiqiçilərimizin, bəstəkarlarımızın, incəsənətimizin görkəmli xadimlərinin böyük bir nəsli buradan keçmişlər və bütün əsr ərzində Azərbaycanı sevindirirlər, Azərbaycan xalqının musiqidə, incəsənətdə nəyə qadir olduğunu nümayiş etdirirlər. Məhz Üzeyir Hacıbəyov, Əbdülmüslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi, Rəşid Behbudov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Rauf Hacıyev, indi burada bizimlə bir yerdə olan Tofiq Quliyev və bir çox başqaları – məhz onlar və onların silahdaşları Azərbaycanda bu gözəl müsiqi mühitini, bu gözəl incəsənət mühitini yaratmışlar. Otuzuncu, qırxıncı, əllinci illərin və sonrakı illərin Azərbaycanı həqiqətən bununla məşhur idi. Bizim əzizimiz Müslüm də bax, bu mühitdə doğulmuş, boya-başa çatmış və belə böyük müğənni, böyük musiqiçi və böyük vətəndaş olmuşdur.

Onu fərqləndirən bir cəhət də istedadının çoxşaxəli olmasıdır. Onun gözəl səsi, əla ifa texnikası var. O, gözəl oxuyur, musiqi alətlərində gözəl çalır, çoxlu gözəl mahnılar bəstələyib. Gözəl şəkil çəkməsinə, heykəltəraşlıq istedadına gəldikdə, bu da məlumdur. Görün, bir insanda nə qədər çoxşaxəli, böyük istedad cəmləşibdir. Sevinirik ki, bizim Azərbaycanın belə övladı, Azərbaycan müsiqisinin, Azərbaycan incəsənətinin belə layiqli nümayəndəsi var və indiyədək olduğu və getdiyi bütün dünya ölkələrində özünü və bizim mədəniyyətimizi, musiqimizi və xalqımızı şöhrətləndirir.

Müslümün xidmətləri çoxdur, ancaq onun «Azərbaycan» mahnısını – özünün və gözəl xanımı Tamara Sinyavskayanın burada əla ifa etdikləri mahnını Müslümün ən böyük xidməti hesab edirəm. Bilirsiniz, böyük incəsənət ustaları bəzən cəmi bir əsər yaradaraq tarixi şəxsiyyətə çevrilirlər. Əgər Müslümün heç nəyi olmasaydı da, mənim fikrimcə o, təkcə «Azərbaycan» mahnısına görə ən yüksək hörmətə, ən böyük ehtirama layiqdir.

Şükürlər olsun, yurdumuza, respublikamıza, xalqımıza çoxlu şeirlər, mahnılar, çoxlu musiqi əsərləri həsr olunmuşdur. Onların hamısı gözəldir, hamısı bizi sevindirir. Ən başlıcası isə yurdumuza, vətənimizə – Azərbaycana həsr olunmuş hər bir belə mahnı, hər bir belə musiqi insanlarımızda, məsələn, şəxsən məndə vətənpərvərlik hissi, iftixar, sevinc hissi doğurur ki, bizim Azərbaycanımız var, Azərbaycana həsr edilmiş belə mahnılar, şeirlər var və bu gün müstəqil, azad Azərbaycan var.

Mənə elə gəlir ki, Müslüm Maqomayev bizim gözəl şairimiz Nəbi Xəzri ilə birlikdə bu mahnını yazanda onlar yəqin ki, gələcəyə baxmışlar, çünki bu mahnı həqiqətən azad, müstəqil Azərbaycanın himni kimi səslənir. Müslüm özü isə bu mahnını necə hissiyyatla ifa edir:

«Ömrümün mənasısan,
Qardaşlıq dünyasısan,
Anamın anasısan,
Azərbaycan!»

Şübhəsiz, bütün bunlar təkzibedilməz surətdə göstərir ki, Müslüm bizim fəxrimizdir, Müslüm bənzərsizdir. Biz Müslümə daha böyük yaradıcılıq gələcəyi arzulayırıq və şübhə etmirəm ki, Müslüm öz yaradıcılığı və işləri ilə bizi həmişə sevindirəcəkdir.

Ancaq mən Tamara Sinyavskaya haqqında da deməliyəm. Mən onların ailə qurduğu günləri xatırlayıram. Bu, iyirmi beş il öncə olmuşdur. Mənim yadımdadır, Müslüm və Tamara məhz Bakıda, burada Rusiya Federasiyasının mədəniyyət günləri keçiriləndə tanış olmuşdular.Görünür, o vaxt Tamara ər, Müslüm isə həyat yoldaşı axtarırdı. Onlar bir-birini məhz Bakıda tapdılar. Açığını deyirəm, mən Müslümə oğlum kimi münasibət bəsləyirdim və Azərbaycanın rəhbəri olan vaxtdan, yəni 1969-cu ildən etibarən onunla əlaqə saxlayıram. Onlar evlənəndə mən çox sevindim, onlar mənim qonağım oldular. Həmin vaxtdan onların həm yaradıcılığını, həm də, şübhəsiz, birgə həyatlarını müşahidə edirəm. Allaha şükürlər olsun ki, yaxşı, mehriban yaşayırlar, aralarında sözsöhbət yoxdur. Çünki belə adamlar ümumiyyətlə, çox nadir hallarda birgə yaşaya bilirlər. Ancaq görünür, onlar bir-birini həqiqətən elə seviblər və bir-birini elə tamamlayırlar ki, gözəl ailə qurublar. Şübhəsiz, biz şadıq ki, Müslümün belə gözəl, görkəmli müğənni, Böyük Teatrın aktrisası olan xanımı var. Müslümlə olduğu kimi, biz Tamara ilə də fəxr edirik, çünki o da bizə doğmadır, iyirmi beş ildir bizimlə bir yerdədir. O, bizə doğmadır və bizim tamaşaçımız elə hesab etmir ki, Tamara haradasa Moskvadadır, hesab edir ki, Tamara da həmişə Azərbaycandadır. Tamara Sinyavskaya qeyri-adi, gözəl müğənnidir, amma bizim üçün yaxşı gəlindir. Tamara, bu gözəl yubiley münasibətilə Sizi təbrik edirəm və düşünürəm ki, Sizinlə birlikdə biz Müslümün yaradıcılıq fəaliyyətinin qırx illiyini və ondan sonrakı daha başqa-başqa yubileylərini qeyd edəcəyik. Hər halda, mən buna ümid bəsləyirəm.

Müslüm, sağ ol ki, sənin lə birlikdə Böyük Teatrın bu cür gözəl müğənniləri gəliblər. Bilirsiniz, biz bu gün yenidən Böyük Teatrın ruhunu hiss etdik. Axı Böyük Teatr doğrudan da çox yüksək sənət deməkdir. İndi biz dünyada çox şeyləri bilirik, əvvəl az bilirdik, yalnız ölkəmizi – o vaxtkı Sovetlər İttifaqını tanıyırdıq. İnsan özününkünü heç vaxt qiymətləndirə bilmir. O vaxt biz də Böyük Teatrın nə demək olduğunu qiymətləndirə bilməmişik. Biz azad olduqdan, demək olar, bütün ölkələri gəzdikdən, başqa teatrlarla, o cümlədən dünyanın musiqi baxımından ən inkişaf etmiş ölkələrinin opera və balet teatrları ilə tanışlıqdan sonra deyə bilərik ki, bəli, Böyük Teatr rus mədəniyyətinin, rus musiqisinin, rus incəsənətinin şöhrəti və fəxridir. Şübhəsiz ki, Böyük Teatr bütün respublikalarda, o cümlədən də Azərbaycanda musiqi mədəniyyətinin inkişafına çox böyük təsir göstərmişdir. Biz Böyük Teatrın solistlərini həmişə sevinclə qarşılayırıq. Hesab edirəm ki, bizim dostlarımız, qonaqlarımız Müslüm Maqomayevin yubileyini qeyd etmək üçün buraya gəlmiş qonaqlarımızı bu gözəl salonun necə heyranlıqla, gurultulu alqışlarla qarşıladığını gördülər. Mən sizə təşəkkür edir və yaradıcılıq uğurları arzulayıram.

Bir halda ki, mən səhnəyə qalxmışam, hələ bir az danışacağam. Bizim veteranımız Lütfiyar İmanov haqqında heç cür deməyə bilmərəm. Bir görün, neçə ildir oxuyur. O, yaradıcılıq fəaliyyətinin neçə ildən ibarət olduğunu bilmir, hələlik deməyib. Amma necə gözəl oxuyur. Ən əsası isə odur ki, həmişə sıradadır, cavan, şuxdur, yaxşı formadadır.

Bizim Rauf Abdullayev (alqışlar). Görürsünüz, sözümü bitirməyə qoymurlar. Onun təkcə adını çəkəndə nə qədər alqışlar qopur və buna layiqdir. Çünki Azərbaycanda simfonik musiqinin inkişafında onun xidmətlərini hamımız bilirik, nə qədər işlər görüb, bu gün də görür və hesab edirəm ki, gələcəkdə bundan da çox edəcəkdir.

Bizim Rus Dram Teatrının gözəl aktrisası Lyudmila Duxovnaya buradadır. Biz rus dram teatrını həmişə sevmişik və indi də sevirik, orada vaxtilə çalışanları və bu gün rus teatrında işləyənləri heç vaxt unutmuruq, onlar da bizim üçün əzizdirlər. Lyudmila Duxovnaya onların cərgəsində fəxri və xüsusi yer tutur.

Görün, bu gün necə bir rəngarənglik var – Böyük Teatr, yüksək peşəkarlığa malik opera sənəti, simfonik orkestr və bizim ölməz musiqi alətimiz olan tar. Mən hesab edirəm, xalqımızın – Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, bizim əcdadlarımız belə bir musiqi aləti yaradıblar və o yaşayır, milli hisslərimizi gözəl, hər hansı bir alətdən daha yaxşı

ifadə edir. Bizim Ramiz Quliyev və onun gözəl oğlu Əyyub bu alətdə əla çalırlar.

Rəşid Behbudovun qızının öz atasının ənənələrini səhnədə davam etdirməsi, şübhəsiz ki, məni sevindirir. Rəşidi hamının sevdiyini ailəniz yəqin ki, bilir. Ümumiyyətlə, Azərbaycanda ona sonsuz məhəbbət vardır. Ancaq mən öz hisslərimdən danışa bilərəm – mən onu çox sevirdim, uzun illər ərzində onunla dostluğum olub. O, məhz müğənni, artist kimi, Azərbaycan mahnılarının və Azərbaycanın gözəl opera ariyalarının solo ifaçısı kimi mənim üçün çox sevimli və əziz adam idi. Eyni zamanda o, gözəl insan idi. Onunla dəfələrlə görüşmüşəm. Mən şadam ki, vaxtilə mahnı teatrı yaratmaqda ona kömək etmişəm, öz yaradıcılığını daha dolğun şəkildə açıq göstərməsi üçün əlimdən gələni etmişəm. Onun yubileyi düz bir ildir davam edir və Rəşid Behbudovun səksən illiyinə həsr edilmiş yekun yubiley tədbirləri, şübhəsiz ki, ən yüksək səviyyədə keçiriləcəkdir. Xoşdur ki, onun qızı bu gün burada Müslüm Maqomayevlə birlikdə bu cür gözəl çıxış etdi.

Biz Müslümlə razılaşmışdıq ki, bu gün danışıq az, mahnı isə çox olsun. Amma belə oldu ki, siz məni yenə danışmağa vadar edirsiniz. Bəli, Azər Zeynalov həqiqətən cavan, ancaq çox ümidverici müğənnidir. Mən hesab edirəm ki, onun gözəl gələcəyi var və o öz istedadını, bacarığını və öz sənətini artıq nümayiş etdiribdir. Təsadüfi deyil ki, o, belə tezliklə bu cür nüfuz, hörmət və məhəbbət qazanıbdır. Mən şadam ki, bizdə Bülbül, Rəşid Behbudov, Müslüm Maqomayev, Azər Zeynalov nəsillərinin əlaqəsi qırılmır. Baxın, silsilə qırılmır. Bu, böyük xoşbəxtlikdir.

Hesab edirəm ki, bizim simfonik orkestr və simfonik orkestrin musiqiçiləri ən fədakar insanlardır. Bütün çətinliklərə baxmayaraq, onlar öz peşələrindən, öz sənətlərindən ayrılmırlar. Bizim simfonik orkestr yaşayır və yaşayacaqdır. Mən demişəm və bu gün də təntənəli surətdə vəd edirəm – bizim simfonik orkestrə ən əlverişli şərait yaratmaq üçün tədbirlər görəcəyik ki, o, fəaliyyət göstərsin.

Bir daha təbrik edirəm.

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ YAŞLI NƏSİLDƏN OLAN YAZIÇILARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

Prezident sarayı
28 oktyabr 1997-ci il

Adətən biz bu salonda dövlət işləri ilə əlaqədar olan məsələləri müzakirə etməyə toplaşırıq. Ancaq mənim burada olduğum zamanda ilk dəfədir ki, yazıçıların böyük bir nümayəndə heyəti ilə görüşürəm. Bunu özüm üçün çox əlamətdar hadisə hesab edirəm.

Sizin, demək olar, hamınızla uzun illərdir ki, şəxsən tanışam, bir yerdə yaşamışıq, işləmişik, bir yerdə çox işlər görmüşük. İndi də bir yerdəyik, ancaq tez-tez görüşməyə imkan olmur. Sizin də imkanınız olmur, başınız qarışıqdır, mənim də imkanım olmur. Ancaq indi hadisələr məcbur edibdir. Siz istəsəniz də, istəməsəniz də, mən də istəsəm də, istəməsəm də görüşmək lazımdır. Çünki siz yeni, növbəti qurultayın ərəfəsindəsiniz.

Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqlarını həmişə sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır.

Biz məmnun olmalıyıq ki, həyatımızın bu keçid, ağır dövründə də bu hissiyyatlar, münasibətlər dəyişməyibdir. Mən belə hesab edirəm. Şübhəsiz, mədəniyyətə, ədəbiyyata həm xalq, insanlar, həm də dövlətlər tərəfindən qayğı həmişə lazımdır. Bu qayğı mənəvi nöqteyi-nəzərdən keçmiş zamanlara nisbətən bəlkə indi də azalmayıbdır. Amma ola bilər bəzi maddi imkanlar nöqteyi-nəzərindən o qədər deyildir. Ancaq bunlar hamısı keçicidir, daimi deyildir. Hesab edirəm bizim ədəbiyyatımız, mədəniyyətimiz əsrlər boyu çox ağır sınaqlardan, mərhələlərdən keçərək, ya-

şadığı kimi, bu gün də bu çətin dövrü birlikdə yaşayıb keçəcəyik. Güman edirəm ki, sizin qurultayınız da bu məsələlər ətrafında fikir mübadiləsi aparacaqdır.

Şübhəsiz ki, mən sizin qurultayın işlərinə qarışmaq fikrində deyiləm və bilirsiniz ki, keçmiş zamanlarda da qarışmamışam. Keçmiş zamanlarda, totalitar rejim dediyimiz vaxtda ən toxunulmaz yerlərdən biri bizim yazıçılar, mədəniyyət sahəsi olubdur. O vaxt bizim mədəniyyətdə, ədəbiyyatda, ümumiyyətlə, bu mühüm mədəni sahədə bir ideoloji xətti-hərəkət vardısa, indi bu da götürülübdür, yoxdur. Bir partiyanın ideologiyası yoxdur, bir hakim ideologiya yoxdur. Hamımızın bir ideologiyası var: Azərbaycan müstəqilliyi və müstəqilliyin əbədiliyi. Ona görə də indi yazıçılar və Yazıçılar Birliyi daha da sərbəst, müstəqildir. Ancaq buna baxmayaraq, sizin bir oxucunuz kimi, eyni zamanda ədəbiyyatı sevən adam kimi, bir də ki, dövlət başçısı olaraq bu məsələlərdən kənarda qalmamaq üçün bu gün bu görüşə gəlmişəm. Sizi dinləmək istəyirəm.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

İki gündən sonra, ayın 30-da Azərbaycan yazıçılarının X qurultayı toplaşacaq. Mən bugünkü görüşü tarixi görüş hesab edirəm. Ona görə ki, X qurultay olsa da, Azərbaycan yazıçıları ilk dəfə müstəqil Azərbaycanda öz qurultaylarına toplaşırlar və bu qurultayda ilk dəfə olaraq müstəqil Azərbaycanın Prezidenti iştirak edəcəkdir.

Son 25 ildə, bizim V qurultaydan, yəni 1971-ci ildən başlayaraq, hörmətli Heydər Əliyev istisnasız olaraq yazıçıların bütün qurultaylarında iştirak və çıxış edibdir. Amma bu dəfə o, ilk dəfə olaraq müstəqil Azərbaycanın Prezidenti kimi müstəqil Azərbaycanın yazıçılarının qurultayında iştirak edəcək və mən çox arzu edərdim ki, çıxış da eləsin.

Cənab Prezident, qurultay ərəfəsində bizi topladığınız üçün Sizə təşəkkür edirəm. Şübhəsiz, burada fikir mübadiləsi olacaqdır. Mən demək istədiklərimi, bütün fikirlərimi burada açıqlayıb Sizin vaxtınızı, görüş iştirakçılarının vaxtını almaq istəmirəm. Çünki qurultayın açılışında çıxış edəcək, Yazıçılar Birliyinin fəaliyyəti haqqında orada daha ətraflı danışacağam.

Yalnız onu demək istəyirəm ki, on ildir mən Yazıçılar Birliyinə rəhbərlik edirəm. Birinci dəfə 1987-ci ildə plenumda birinci katib, sonra–1991-ci ildə sədr seçildim. Hər işdə olduğu kimi, yəqin ki, bizim işimizdə də nöqsanlar, çatışmayan cəhətlər də vardır. Amma birincisi, ən başlıcası onu hesab edirəm ki, mən və Yazıçılar Birliyinin rəhbərliyi, katibliyi, ağsaqqallar şurası əsas bir işə nail olduq ki, Yazıçılar Birliyi parçalanmadı, Moskvada, başqa respublikalardakı kimi bir-biri ilə əmlak, fond davası, mətbuat davası üstündə parcalanmış bir təşkilata çevrilmədi, öz bütövlüyünü saxladı.

İkincisi, biz jurnallarımızı saxlaya bildik. Ən çətin vaxtda, dövlətin köməyi olmayanda belə, binamızın müəyyən mərtəbələrini kirayə verməklə jurnallarımızı saxladıq. Son illərdə isə Sizin qayğınız nəticəsində jurnallarımızdan ikisi «Azərbaycan» və «Qobustan», «Ədəbiyyat qəzeti» dövlət büdcəsinə qəbul olundu. Bununla da ədəbiyyatımızı yaşatdıq. Çünki nəşriyyatlarımız çox vaxt məcburən kommersiya qanunları ilə işləməli olur və ədəbi meyarlarla, ölçülərlə işləyən yeganə nəşr forması bizim ədəbi orqanlarımız «Azərbaycan», «Literaturnıy Azerbaydjan», «Ulduz», «Qobustan» jurnalları və «Ədəbiyyat qəzeti»dir.

Cənab prezident, vaxtilə 30-cu illərdə belə bir absurd şüar vardı: «Əmək qabaqcılları-ədəbiyyata!», yəni, sən yaxşı çilingər, yaxşı inşaatçı-sansa, gərək roman, yaxud poema yazasan. Çox cəfəng fikir idi. Düzdür, o adamların içərisindən də istedadlılar çıxdı, amma şüarın özü absurd idi. İndi də elə bir dövr gəlib, belə bir şüar ortaya çıxıb ki, «Kimin pulu var-ədəbiyyata!», kitabını çap etdirməyə kimin pulu var, buyurub gəlsin, roman adı ilə cızma-qara yazsın, nə bilim nə yazsın, beləliklə də həqiqi yazıçılar, doğrudan da xalqın ədəbiyyatını yaradanlar kənarda qalsın.

Bu cəhətdən bizim jurnalların, qəzetin büdcəyə daxil edilməsi ədəbiyyatımızı, dilimizi, mədəniyyətimizi yaşadır.

Bəzən məsələ qalxır ki, əvvəlki Yazıçılar Birliyi ilə indiki Yazıçılar Birliyi arasında uçurum var, ya yoxdur, əvvəl elə idi, indi belədir. Mən buna cavab versəm deyərdim, bəli, uçurum var, ona görə ki, əvvəl Yazıçılar Birliyi sovet sistemində yaranmış təşkilat idi, o sistemin qanunları ilə yaşayırdı, o qanunlarla imtiyazları vardı, imtiyazlar verə bilirdi. Təəssüf ki, indi bu imtiyazlar yoxdur. Sizinlə söhbətimiz zamanı da mən dedim ki, biz bu on il ərzində 100-dən artıq yazıçıya mənzil vermişik. Amma indi 15 yazıçımız növbədədir və sizin yardımınızla onların da mənzil şəraiti düzəlsə, bu, xüsusilə cavan yazıçıların problemlərini aradan qaldıra bilər.

Deməyə söz çoxdur, qurultayda çıxışımda da deyəcəyəm. Hələlik isə Sizə bir daha təşəkkür etmək istəyirəm. Başqa yoldaşlarımı dinləmək istəyirəm, lazım olsa axırda bir də çıxış edərəm. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Şübhəsiz ki, əsas söhbət qurultayda gedəcək. Mən istəməzdim bizim bugünkü görüşümüz elə olsun ki, söhbət aparılsın, qurultaya söz qalmasın. Ona görə elə etmək lazımdır ki, əsas sözlər qurultaya qalsın. Amma bu gün, sadəcə, sərbəst söhbətdir, fikir mübadiləsidir. Birincisi, buraya toplaşanlar bizim xalq şairlərimizdir, – ikincisi, hörmətli, – bəlkə də xalq şairi adı almayıblar, amma alacaqlar, mən belə düşünürəm, – şairlərimiz, ədəbiyyatda çox böyük xidmət göstərmiş insanlardır. Ona görə belə bir görüş keçirilir. Mən Anardan xahiş etdim ki, əgər etiraz olmasa, mümkün olsa, sabah da gənc yazıçılarla, şairlərlə görüşmək istərdim. Çünki burada oturanların bir çoxu bir otuz il bundan qabaq gənc idilər. O vaxtkı yaşlılardan, deyəsən, heç kim qalmayıb, təkcə Mirvarid xanım buradadır. Vaxtilə Anar, Yusif, Elçin və başqaları ilə gənc nəslin nümayəndələri kimi görüşürdük. Mən hesab edirəm, indi də gəncdirlər, çünki özüm də gəncəm. Ancaq necə olur-olsun, özümüzü nə qədər gənc hiss etsək də, yaş özünü göstərir, gün keçir, ay keçir, il keçir, yaş üst-üstə gəlir.

Onu demək istəyirəm ki, sizinlə tanışam, amma gənclərin əksəriyyəti ilə tanış deyiləm. Bəlkə də bəzilərinin yazılarını oxumuşam, amma üzüzə görüşməmişəm. Ona görə də xahiş etmişəm ki, imkan olsa, onlarla da görüşək.

Kimin sözü, arzusu varsa, buyursun. Mən də hesab edirəm ki, bizim Yazıçılar Birliyinin ən böyük nailiyyəti ondan ibarətdir ki, bu keçid, sınaq dövründən itkisiz keçibdir. Yəni, Birlik dağılmayıb, pozulmayıbdır. Bunun özü böyük şeydir. Birlik nə vaxt, hansı ictimai-siyasi quruluş zamanı yaranıbdır, – bu o qədər əhəmiyyətli deyildir. Amma bunun yaranması böyük bir müsbət hadisədir, yaşaması da böyük nailiyyətdir. Keçid dövründə ki, Birlik özünü saxlayıb, parçalanmayıb, dağılmayıbdır və yaşayır, – güman edirəm, bundan sonra daha da yaxşı yaşayacaqdır, – bunun özü böyük nailiyyətdir. Şübhəsiz ki, bu sizin hamınızın xidmətidir.

Ancaq nə etmək lazımdır ki, Birlik bundan sonra daha da yaxşı yaşasın? Kitabların çapı ilə əlaqədar Anar tamamilə doğru deyir. İndi vəziyyət belədir. Məsələn, bir neçə vaxt bundan öncə görürəm ki, keçmişdə rayon prokuroru olmuş adam haqqında böyük bir kitab yazılıbdır. Şübhəsiz, hər adam haqqında kitab yazmaq olar. Ancaq o adamlar ki, həqiqətən böyük xidmətləri olub, gərək onların haqqında yazılsın, sonra

da o biriləri haqqında. Amma nə təhər olur? Çünki indi onun ya oğludur, ya da kimidir, – qohumudur-əqrəbasıdır, – imkanı, pulu var, kitabı yazıb, çox da yaxşı, keyfiyyətli çap etdiribdir. Bunun zərəri, şübhəsiz, ondan ibarətdir ki, subyektiv xarakter daşıyır. Məsələn, oğuldur, ya nə bilim, qohum-qardaşdır, prokuror atası haqqında elə şeylər yazıb ki, elə bil Azərbaycanı yaradanlardan biri budur. Şübhəsiz ki, bunlar zərərli şeylərdir. Məsələn, hərdənbir mən televizorda görürəm, qəzetlərdə hərdənbir rast gəlir, – qəzetlərə daim baxa bilmirəm, – bizim elm, mədəniyyət xadimləri, həyatlarını dəyişmiş insanlar, yazıçılar haqqında verilişlər verir, yazılar yazırlar. Bunlar yaxşıdır, mən bunu müsbət hal hesab edirəm. Bəziləri var ki, o qədər də məşhur olmayıblar, amma müəyyən xidmətləri olubdur, onu xalqa göstərirlər. Bunun özü yaxşıdır. Amma orada-burada rayon prokuroru işləmiş, prokuror da pis vəzifə deyil, adam haqqında böyük bir kitab yazılsın, bizim dəyərli yazıçılar, elm, mədəniyyət xadimləri haqqında isə kitabların yazılması çətin olsun, ya mümkün olmasın – əlbəttə ki, bu, qeyri-normal vəziyyətdir. Ancaq bunlar da keçicidir, keçəcəkdir, hamısı keçəcəkdir.

Qabil, sən deyəsən danışmaq istəyirsən.

Q a b i l: Məndə o cəsarət ola bilməz.

H e y d ə r Ə l i y e v: Nə cəsarət, burada cəsarətli olmaq üçün böyük bir şey yoxdur ki.

XALQ ŞAİRİ QABİLİN ÇIXIŞI

Möhtərəm prezidentimiz Heydər müəllim!

Düzdür, Siz qeyd edirsiniz ki, Azərbaycanın müstəqilliyi şəraitində ilk dəfədir yazıçıları qəbul edirsiniz. Bu, öz yerində. Amma bu qəbul məsələsi Sizin şəxsiyyətinizdən, fitrətinizdən gəlir.

Siz 1976-cı ildə də bu ölkənin rəhbəri idiniz. O dövrün imkanları, verdiyi səlahiyyətlər daxilində Azərbaycanın rəhbəri idiniz. Partiya Mərkəzi Komitəsinin birinci katibi rəhbər sayılırdı. Siz bizi yığdınız, bu bina yox idi. Bir detal yadıma gəlir, – bilmirəm deyim, ya deməyim, – çay gətirirdilər, qoca bir rus arvad çay paylayırdı.

H e y d ə r Ə l i y e v: Bu gün çay yoxdur? Demək istəyir ki, indi niyə çay yoxdur. Görün çay niyə yoxdur?

Q a b i l: Siz buyurdunuz ki, mən qəsdən bu arvada çay paylatdırıram ki, fikriniz ayrı yerdə qalmasın, diqqətlə qulaq asasınız. Siz orada de-

diniz ki, yazıçıların qurultayı başlayacaq, sözünüzü, dərdinizi, arzularınızı, qayğılarınızı indi deyin, şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq.

İndi o şəkildə olmasa da, mən hamının adından Sizə təşəkkür edirəm. Bu həqiqətdir, tərif deyil, faktdır. Siz, ümumiyyətlə, yazıçıları həmişə qaldırırsınız. Siz Müslüm Maqomayevin yubileyində Nəbi müəllimin şeirini dediniz, ona «bizim gözəl şairimiz» deməklə o sözü hamımıza dediniz. Bu, quruluşdan irəli gəlmir, Sizin şəxsiyyətinizdən, fitrətinizdən gəlir. Ona görə də mən Sizə bir daha təşəkkür edirəm. Sizin qayğılarınızı, xidmətlərinizi, Bəxtiyar müəllimə, Nəbi müəllimə, bəndeyi-həqirə, Balaş müəllimə, Məmməd Araza göstərdiyiniz qayğıları sadalamıram, – bunlar hamısı öz yerində. Sizə dönə-dönə təşəkkür edirik.

Anar müəllim çox doğru dedi ki, indi kimin maddi imkanı varsa, dədəsi, babası, özü haqqında kitab çap edir. Siz demişkən, bəlkə babası da, dədəsi də yaxşı adamdır. Yazıçılar Birliyi vacib təşkilatdır. Siz onu da çox düzgün qeyd elədiniz ki, nə şəraitdə, haçan yaranmasından asılı olmayaraq, Yazıçılar Birliyi bizim böyük limanımızdır, körpüdür, gəlib mənəviyyatımızla ona yan alırıq. Yazıçılar Birliyini möhkəmləndirmək, onun əleyhinə olan danışıqları yığışdırmaq lazımdır. Bütün müxalifət qəzetlərində Yazıçılar Birliyinin əleyhinə yazırlar. Mən qəbul komissiyasının üzvüyəm, axın-axın cavanlar Birliyə qəbul olunmaq istəyirlər.

H e y d ə r Ə l i y e v: Varmı? Bu çox gözəldir.

Q a b i l: Bir tərəfdən də deyirlər ki, Yazıçılar Birliyi lazım deyildir. Yazıçılar Birliyinin maddi bazasını möhkəmləndirmək, poliklinikasını dövlət büdcəsinə keçirmək lazımdır. Yazıçılar Birliyinin nəzdində nəşriyyat açılmalıdır ki, adlı-sanlı, ancaq təkcə ad-sanına görə yox, yaxşı əsərinə görə tanınan yazıçılar kitablarını çap etdirə bilsinlər, qapı-qapı düşməsinlər. Mənim son iki-üç əsərimi dövlət nəşriyyatları çap edibdir. Hamı mən yaşa gəlməyib, cavan adam da kitabını görmək istəyir. Mən yaşda adi adamın, mənim qədər tanınmayan adamın da mənəvi haqqı var ki, kitabını görsün. Yazıçılar Birliyinin nəşriyyatı olsa, o kitablar çap olunar.

Demək də olmur, bilirsiniz ki, yazıçıların Yaradıcılıq evi qaçqınlara verilib. O gün olsun onlar yerlərinə-yurdlarına qayıtsınlar. Yaradıcılıq evindən istifadə edə bilmirik, oranı təmir etmək lazımdır. Bunlar vacib söhbətlərdir.

Məclis məni tutub, bilmirəm sözümün dalını necə deyim. Xülaseyi-kəlamla onu demək istəyirəm ki, yazıçılar hər dövrdə bütün nazirlərdən qiymətli olublar. Yazıçılar Birliyinin birinci katibləri, sədrləri hər hansı bir nazirdən hörmətli, qiymətli olublar. Çünki yazıçı xalqın düşünən bey-

ni, ürəyi, danışan dili, mənəvi aləmidir. Rəssamın şəklinə baxırsan – əladır, amma sözü qalır ürəyində, bəstəkar musiqi bəstələyir – əladır, amma danışmağa gələndə…

Özümlə əlaqədar bir söz deyim. 71 yaşım var. Üzr istəyirəm, təvazökarlıqdan uzaq olmasın, mənim «Nəsimi» kitabımı dövlət mükafatına təqdim etmiş, gətirib Sizin qarşınıza qoymuşdular. Rusca demişdiniz ki, «bu, bütöv bir kitabxanadır, bunu yazmağın özü böyük şeydir». Mənim kitabımı və «Nəsimi» filmini, – çox gözəl filmdir, – bir yerdə müzakirəyə qoymuşdular. Orada dedilər ki, filmin lentləri pozula, qalmaya, rəngləri dəyişə bilər, amma bu, şair haqqında kitabdır, min il yaşayacaq, vərəqləri cırılsa da qalacaqdır.

Ona görə yenə demək istəyirəm ki, yazıçıya qiymət Sizin başınızın ucalığıdır, savab işdir. Yazıçı xalqın danışan dilidir. Biz həmişə Sizə, Sizin fəaliyyətinizə xeyir-duaçıyıq. Hamımız televizora baxırıq. Görürük ki, bir dəqiqə vaxtınız yoxdur – o gedir, bu gəlir, onu qarşıla, bunu yola sal, təyyarədən düş, təyyarəyə min. Siz iki daşın arasında bu gün bizi qəbul etdiniz və açıq söhbətə cəlb edirsiniz. Ona görə də Sizə dərin təşəkkürümü bildirirəm. Sağ olun.

YAZIÇI ƏKRƏM ƏYLİSLİNİN ÇIXIŞI

Düzü, heç bilmirdim ki, bu gün bu məclisdə olacağam. Təxminən bir saat bundan qabaq məlumat aldım. Uzun fasilədən sonra, hazırlıqsız çıxış olduğundan bir az ehtiyat edirəm. Amma mənə elə gəlir ki, bugünkü gündə danışmaq üçün böyük hazırlığa ehtiyac yoxdur.

Ötən yazıçılar qurultayından altı il keçibdir. Elə-belə baxanda altı il böyük vaxt deyil. O biri qurultaylar arasında da dörd-beş il vaxt keçirdi. Əlbəttə, onda vaxtı bu cür hiss eləmirdik. Mən elə bilirəm, bəlkə də bunu sonradan dərk edəcəyik ki, bu altı ildə bizim varlığımızdan, mənəviyyatımızdan, insani taleyimizdən və xalqımızla bir yerdə həyatımızdan nə boyda bir epoxa keçibdir. Çünki bu məzmunda, bu mündəricədə, bu dərəcədə faciəli, kədərli, bu dərəcədə sevincli altı il, bilmirəm, hansı nəslin həyatında ola bilər. Bu, böyük altı il idi.

Biz bu altı ildə hamımız bir yerdə, – mən heç kəsi ayırmıram, – çox inandığımız şeylərdən uzaqlaşdıq, çox inandığımız şeylərin boşluğunu gördük. Varlığımızda həddən çox bir yeniləşmə baş verdi. İnanın ki, bəlkə insan 50 il yaşayıb bu duyğuları keçirə bilməzdi.

Altı il bundan qabaq Azərbaycan yazıçılarının qurultayında mən çıxış elədim. Hörmətli Prezidentimiz, bizim hamımızın həmişə qayğısını çəkən Heydər Əliyev də həmin qurultayda iştirak edirdi, zalda oturmuşdu. Hamısı yadınızdadır, – filarmoniyanın binası idi. Mən orada bir söz dedim. Çıxışımı yazmamışdım, yadımda deyil. Amma bir fikrim yadımdadır ki, belə bir söz dedim. Zala üzümü tutub dedim ki, bir vaxt deyirdiniz ki, gəlin Heydər Əliyevin ətrafında birləşək, indi deyirsiniz ki, gəlin Mütəllibovun ətrafında birləşək. Bəs haçan biz Allahımızı tapacağıq, o Allahın altında bir yerə yığışacaq və bir amala, bir məqsədə, bir məzhəbə qulluq edəcəyik? Həmin qurultayda belə bir söhbət oldu. Dediklərimdən əlavə, bir fikir yadımda qalıbdır. Hətta o da yadımdadır ki, indiki hörmətli prezidentimiz o vaxt mən çıxış edəndən sonra, – müşahidə etdiyim budur, inanmıram ki, səhv edəm, özünün də nadir yaddaşı var və bilir, zalı tərk elədi. Sonra Rəfiq Zəka deyəcəkdi ki, mən çıxdım, cangüdən kimi müdafiə elədim və yola saldım.

Bu bizim taleyimizin, həyatımızın olaylarıdır, gündəlik işləridir. Bilirsiniz, indi heç kəs inkar eləmir ki, Azərbaycanda böyük quruculuq həyatına qayıdış başlayır, yəni dağıntılardan bezmiş bir millət öz taleyini qurmağa başlayır. Məlum məsələdir ki, bu işin başında kim gedir, bu işə kim rəhbərlik edir, o dağıntılardan üzümüzü quruculuğa kim döndərir. Məsələn, mən abadlığı görəndə daxilən abad oluram, hamımız da daxilən abad oluruq. Yəni, fiziki, məişət abadlığı, gündəlik abadlıq mənəviyyatımızı da abadlaşdırır. Evdən çıxıb işə gedincə yolda beş-altı yerdə görürəm ki, kimsə bağda gül əkir, kimsə bulvara torpaq tökür, kimsə nə iləsə məşğuldur və biz Azərbaycanımızı quruculuğa qaytarırıq.

Zaman göstərir ki, mənəviyyat quruculuğu daha çətindir. Hərdən mənə elə gəlir ki, bəlkə də səhv edirəm, mənəviyyat quruculuğumuzu dürüst, yəni o sökülməz, dağılmaz, möhkəm bina üstündə qura bilmirik. Mənim daxili narahatlığım həmişə bundan ibarət olubdur. Elə bilirəm ki, mənəviyyatımızı da möhkəm, dönməz şəkildə, gələcəkdə kimlərisə özümüzə güldürmədən, güclü əsaslar üstündə qurmalıyıq və mənə elə gəlir ki, buna dürüst yol da göstərilir. Fəqət bir çox hallarda özümüz bu düz yolu əyə-əyə harasa aparıb çıxarırıq.

Əlbəttə, ürəyimdə söz çoxdur, bolluca söz var. Onlardan bəzisini pərakəndə də olsa, deyirəm. Hörmətli Prezident, yaradıcı adamlar və bütün bədii yaradıcılıq adamları harmoniya adamlarıdır. Yəni onlar harmonik dünyada daha fəal, güclü yaradıcılıqla məşğul ola bilirlər. Hamı

kimi, Azərbaycan xalqının bir övladı, bir vətəndaşı kimi mən Azərbaycanda ictimai sabitliyin bərpa olunması sahəsində gördüyünüz böyük işlərə, yəni yuxusuz gecələrinizə, kəfəni çiynində bu xalqın meydanına çıxıb onu böyük fəlakətlərdən qurtardığınıza görə Sizə minnətdarlığımı bildirirəm. Siz Azərbaycanda bu ictimai sabitliyi bərpa etməklə bizim hamımıza, hər kəsin öz işini görməyinə böyük şərait yaratdınız. Əlbəttə, bunun arxasında ictimai harmoniyanı yaranmış hesab etsək, dalınca mütləq sosial həyatın harmonik quruluşu başlanmalıdır. Sosial həyatımızda bunu başlamaq, güman ki, gələcəyin işidir və inanıram ki, Azərbaycan xalqı Sizin rəhbərliyiniz altında bu böyük işə, çətinliklə də olsa, gec-tez mütləq nail olacaqdır.

Hörmətli prezident, hörmətli dostlar. Mən Gertsenin bir fikrini demək istəyirəm. Onun məşhur fikri var, yazıçılar haqqında deyir ki, biz həkim deyilik, ağrıyıq. Biz cəmiyyətin ağrısıyıq. Ağrılarımız müxtəlif şəkildə təzahür edir. Biz cəmiyyətin ağrıyan yerləriyik və bizim ağrılarımızı duyan, yazıçı ağrısını, diaqnozunu dəqiq müəyyən edən rəhbərlər, mənə elə gəlir ki, heç vaxt öz siyasətlərində uduzmurlar, xalqın gələcəyini qurmaq üçün ciddi yollar açа bilirlər.

Son olaraq qurultay barədə bir-iki kəlmə demək istəyirəm. Hamı – burada oturanlar da, oturmayanlar da bilir ki, əgər mülkiyyəti yoxdursa, ictimai bir şeyə nail ola bilməyəcəkdir. Bilirsiniz ki, indi Azərbaycanda mülkiyyət bölgüsü gedir və bu, təbii işdir. Biz ha deyək ki, bizim mülkiyyətimiz əsərlərimizdir, böyük dahiyanə əsərlər yaradırıq, bu dünyanı qurub qoymuşuq. Mən bir dəfə yazmışdım ki, Füzulinin ölümündən Vaqifin doğulmasına qədər 160 il vaxt keçib,160 ildə ədəbiyyat ölməyib, ədəbiyyat ölmür. Mən Yazıçılar Birliyinin üzvüyəm, nə isə dağı-dağ üstə qoyuram, bizdən yalnız əsərlər qalacaq. Ona görə də indi ha hap-gop edək ki, bizim mülkiyyətimiz əsərimizdir, bu zəmanədə bu mümkün deyildir. Mənə elə gəlir ki, əgər qurultay Yazıçılar Birliyinin mülkiyyətinin nədən ibarət olduğunu özü üçün aydınlaşdırsa, yaxşı olar. Məsəl var ki, fərli oğul neynir ata malını, fərsiz oğul neynir ata malını. Fərli oğula onsuz da ata malı lazım deyil, gedib özü qazanacaq, fərsiz oğul da ata malını dağıdacaq. Mən arzu edərdim ki, biz fərsiz oğullar olmayaq.

Sizə dərin təşəkkürümü bildirir və güman edirəm ki, fərsiz oğulların içərisindən fərli oğulları seçməyə istedadınız kifayət qədər çatar. Mən Sizin qarşınızda çox çıxış etmişəm. Naxçıvanda da iki dəfə görüşünüzdə olmuşam. Güman edirəm ki, əgər Azərbaycan yazıçıları Sizin onlara gös-

tərdiyiniz qayğının istər fəlsəfi, istər siyasi, istərsə də estetik-etik mahiyyətini dərk etsələr, bizim işdə xeyli irəliləyiş ola bilər. Çox sağ olun, diqqətiniz üçün təşəkkür edirəm.

RESPUBLİKA MƏTBUAT VƏ İNFORMASİYA NAZİRİ, YAZIÇI SİRUS TƏBRİZLİNİN ÇIXIŞI

Mən qurultaya getməyəcəyəm, ona görə də sözlərimi burada demək istəyirəm. Qurultaya getməməyimin də çox əsaslı, tutarlı səbəbi var.

Bu gün burada məndən əvvəl çıxış edənlər öz təşəkkürlərini bildirdilər ki, dünyanın ən böyük siyasətçilərindən biri vaxt tapıb qurultay qabağı Azərbaycanın yazıçıları ilə görüşür. Axı əslində yazıçı özü də siyasətçidir, xalqın ən ağır vaxtlarında əvvəl öz yolunu müəyyən edir ki, kiminlədir. Yadınızdadır, faşizm baş qaldıran dövrdə Qorkinin böyük bir məqaləsi var idi: «Kiminləsiniz, ədəbiyyat, incəsənət xadimləri?». Yazıçı özünü müəyyən edəndən sonra insanları, xalqını, millətini düz yola aparmalıdır.

Bizim qonşumuz Gürcüstanda Zviad Qamsaxurdianı prezident seçən ərəfədə gürcü xalqının böyük filosofu Merab Mamardaşvili elan etdi ki, mənim xalqım Zviad Qamsaxurdiaya səs versə, xalqımın əleyhinə çıxacağam. O zaman qara qüvvələr Merab Mamardaşvilini Gürcüstandan qovdular, getdi, Moskvada hava limanında ürəyi partladı. Amma gürcü xalqı bu gün onun qarşısında baş əyir. Ona görə də Şevardnadze tez qayıtdı Gürcüstana, çünki Merab Mamardaşvili kimi ziyalılar var idi.

Bəs bizdə nə baş verdi? Əkrəmin bir cümləsinə görə ona təşəkkür edirəm ki, heç olmasa, cəsarəti çatdı, etiraf elədi ki, bir çox inandıqlarımızdan dönməyə məcbur olduq. Bəli, Əkrəm Əylisli, sən Əbülfəzə də inanırdın. Sənin cümlən idi, yazırdın ki, mən bu iqtidara pənah gətirmişəm. Mən bir ziyalı kimi fəxr edirəm ki, Əkrəm, o zaman sənə zəng edib dedim ki, kimə pənah gətirmisən, Pənah Hüseynova? Bilirsən ki, sənə nə boyda hörmətim var. Sən səhv edirdin və sənin səmimiyyətinə inanıram. Amma bəziləri səhv yox, riyakarlıq edirdilər və bu gün də edirlər.

H e y d ə r Ə l i y e v: Sirus, bir balaca sakit danışa bilərsənmi? Mən istəyirəm söhbətimiz mülayim keçsin.

S i r u s T ə b r i z l i: 1983-cü ildə məni yazıçı danosu ilə işdən çıxardıblar. Mən o qurultaya necə gedə bilərəm? Kimlər çıxardıblar – Sizdən ev alanlar, orden, medal alanlar. Dedilər ki, Siz Nəbi Xəzrini gözəl

şair adlandırdınız. Mən istərdim ki, o gözəl şair ağır günlərinizdə Sizin yanınızda olaydı. Budurmu ədəbiyyat? Bizim Mirzə Cəlilimiz, Sabirimiz olub. Biz məəttəl qalırdıq. Mən oxuyanda ki, Fikrət Qocanı Heydər Əliyev az qala o dünyadan qaytarıb, – özü yazır, – təəccüb edirdim: Bəs bu hadisələr baş verəndə, heç nə yox, bir ziyalı kimi zəng edəydi ki, ay Sirus, sən çox düz eləyib, bu işləri görürsən.

Heydər Əliyev: Sirus, bir dəqiqə dayan, xahiş edirəm. Azərbaycanda yaxşı bir söz var: Keçənə güzəşt deyərlər.

Sirus Təbrizli: Mən Sizinlə razıyam. Amma bunun gələcəyi var.

Heydər Əliyev: İndi əgər biz burada keçmişimizi qurdalasaq, qaldırsaq, – nə təhər oldu, nə cür oldu, bunlar bizə xeyir gətirməyəcəkdir. Allaha şükür olsun ki, müstəqil dövlətimiz var. Allaha şükür olsun ki, ictimai-siyasi sabitlik yaranıbdır. Allaha şükür olsun ki, tam sülh olmasa da, sülh şəraitində yaşayırıq. Allaha şükür olsun ki, hamımız bir yerdəyik. Vaxtilə kimin başına nə gəlib, nə təhər olub, filan olub – bunlar keçmişdə qalıbdır. Mən bunları unuduram. Xahiş edirəm siz də unudasınız.

Sirus Təbrizli: Siz unudursunuz, biz gələcək naminə bunları unutmamalıyıq. Mən Sizinlə razıyam. İstəmirəm qurultaya gəlib orada bu sözləri danışam, amma burada deməliyik. Nəyə görə? Çünki bu gün də yazıçı qəzetdə müsahibə verir, ondan soruşurlar ki, dünyada siyasətçi kimi sən kimi qəbul edirsən, deyir ki, Kolu, bir də İsa Qəmbəri.

Heydər Əliyev: Bu, onun fikridir. İndi fikir azadlığıdır.

Sirus Təbrizli: Azadlıqdır, amma fikrin dalınca gedənlər var. Bu fikrin dalınca getdilər, sonra Azərbaycan düşdü belə bəlaya.

Heydər Əliyev: Sirus, qardaş, qulaq as, bu fikir azadlığı mütləq olmalıdır. Fikir azadlığı, söz azadlığı keçmişdə bizdə olmayıb, amma indi, bundan sonra da olmalıdır. İndi sən heç kəsə hökm edə bilməzsən ki, sənin kimi fikirləşsin. Kimi dedin, – Kol, bir də kim, – İsa Qəmbərov? O, elə fikirləşir, istəyirsən ki, sənin kimi fikirləşsin? Bu ola bilməz, axı mümkün deyil.

Sirus Təbrizli: O fikirlə biz gəldik, faciəyə düşdük axı. Bəs sabahı nə olacaq?

Heydər Əliyev: Yaxşı, düşdün, düşdün də. Bilirsən, Sirus, sən özün demokratiya tərəfdarısan, elədir?

Sirus Təbrizli: Bəli. Mən demokratiya tərəfdarıyam, özü də demokratam. Bunu Siz də bilirsiniz, burada oturanlar da bilir.

Heydər Əliyev: Bəli, sən o vaxt Azərbaycanda milli azadlıq hərəkatının qabaqda gedənlərindən birisən, elədirmi? Meydanlarda söz

deyirdin, çıxış edirdin. O vaxtlar sənin dediyin sözlərlə razı olmayanlar var idi, – Azərbaycanın rəhbərləri, elədirmi? Amma yaxşı ki, onlar səni həbs eləmədilər, sağ qaldın.

S i r u s T ə b r i z l i: Onlar bu demokratlardan çox kişi çıxdılar. Bugünkü demokratlar həbs nədir, Siz bilirsiniz ki, Naxçıvanda bizim başımıza nə oyun gətirdilər.

H e y d ə r Ə l i y e v: Bilirəm, bilirəm. Ona görə bu fikir azadlığı, söz azadlığı bizim həyatımızın əsasını təşkil etməlidir. Kim nə cür düşünür, o cür də düşünsün. Heç kəsi məcbur etmək olmaz. Sadəcə, biz çalışmalıyıq ki, öz fikrimizin daha da doğru, düzgün olduğunu sübut edək və insanları bu fikrə şüurlu inandıraq. Amma hökm etmək ki, sən bunu demə, onu de, onu demə, bunu de – bu, artıq indi mümkün deyildir. Keçmiş kommunist rejimində də, – mən o dövrdə işləmişəm, – məhz o vaxtda da çalışırdım ki, insanlar sərbəst danışsınlar. Mənim o vaxtda da fikrim belə olub. Ancaq onda bir adamın, iki adamın fikri ilə ümumi şərait yaratmaq olmazdı.

Amma indi bizdə demokratik dövlətdir. Biz Konstitusiya qəbul etmişik və Konstitusiyamızda yazmışıq ki, söz azadlığı, mətbuat azadlığı, fikir, vicdan azadlığı, insanların bütün azadlıqları bizim həyatımızın əsas prinsipləridir. Ona görə biri deyir ki, Kolu ən yüksək siyasətçi hesab edir, sabah o birisi deyəcək ki, Sirus Təbrizlini ən gözəl şair hesab edir. Onda adam gərək ondan incisin?

Bunlar xırda məsələlərdir. Gəlin vaxtımızı bunlara sərf etməyək. Gəlin vaxtımızı ona sərf edək ki, bundan sonra nə edək? İndiyədək nə olub, hamısı geridə qalıb. Yenə də deyirəm, keçənə güzəşt etmək lazımdır, irəliyə baxmaq lazımdır.

Bu gün buraya, bu salona Azərbaycanın ən mötəbər adamları toplaşıblar. Bu, tarixi bir hadisədir. Mənim üçün də tarixi hadisədir. Hər birimiz yaşayırıq, gedirik. Bəli, mən 1997-ci ildə, əsrin sonunda Azərbaycanın ən mötəbər şairləri, yazıçıları ilə görüşürəm. Bu mənim üçün tarixi bir hadisədir. Dəfələrlə demişəm, vaxtilə mən, məsələn, Səməd Vurğunun şeirlərini oxuyurdum, sonra onun üzünü görəndə yadımda saxlayırdım, yoldaşlarıma dəfələrlə deyirdim ki, mən Səməd Vurğunu görmüşəm. Hələ əl verib görüşməmişdik, amma mən deyirdim ki, Səməd Vurğunu görmüşəm. Bunun özü böyük bir hadisə idi.

Ona görə bugünkü görüş də bir hadisədir. Çünki burada oturanlar Səməd Vurğunun yolunu bu gün də davam etdirən, Azərbaycan ədəbiyyatını onun kimi inkişaf etdirən insanlardır. Ona görə də gəlin bu

azadlıqları heç kimin əlindən almayaq. Hamı azad olsun. Kim nə fikir söyləyir – söyləsin, kim nə deyir – desin. Ancaq bu azadlıq nəticəsində – fikir azadlığı, söz azadlığı nəticəsində biz həqiqətə gələ bilərik.

Bağışlayın, mən üzr istəyirəm, istədim ki, istiqaməti bir balaca dəyişim.

S i r u s T ə b r i z l i: Çox sağ olun. Bilirsiniz ki, Sizin fikirləriniz bütün ziyalılar kimi, mənim üçün də həmişə meyardır. Siz təkcə fikir adamı deyilsiniz, həm də bir şəxsiyyət kimi əməl adamısınız və dediklərinizə sadiq bir insansınız. Mən də dünənə boylanıb narahatçılıqdan bu çıxışı edirəm, özü də burada edirəm.

H e y d ə r Ə l i y e v: Bilirsən, Sirus, bağışla, yenə üzr istəyirəm. İndi yadına saldın ki, o vaxt səni işdən çıxartdılar?

S i r u s T ə b r i z l i: Bəli.

H e y d ə r Ə l i y e v: Yazıçılar İttifaqından?

S i r u s T ə b r i z l i: Bəli, yazıçının danosu ilə yazıçılar məni işdən çıxartdılar.

H e y d ə r Ə l i y e v: Yaxşı. Əlbəttə, hər bir adam üçün onun işi çox əzizdir. Əgər onu işdən ədalətsiz çıxardıblarsa…

S i r u s T ə b r i z l i: Sonra da Sizi işdən çıxartdılar.

H e y d ə r Ə l i y e v: Yaxşı, səni işdən çıxartdılar. Axı məni də işdən çıxartdılar. Mən neyləyim ki, çıxartdılar da. Məni işdən çıxartdılar, əziyyət çəkdim. Amma indi, bu gün səmimi dostyana danışırıq. Vallah, billah, fikirləşirəm ki, nə yaxşı çıxartdılar!

S i r u s T ə b r i z l i: Mən də elə fikirləşirəm ki, nə yaxşı məni işdən çıxartdılar. Döyülə-döyülə bərkidik.

H e y d ə r Ə l i y e v: Bəli, məni işdən çıxartdılar, o günləri, o çətinlikləri gördüm, onların hamısına dözdüm. Bunlar hamısı həyatdır. Həyatın yüksəlişi də olur, aşağıya düşməyi də olur, enişi də, yoxuşu da, çətinliyi də, gözəl günləri də olur. Nə olar ki, işdən çıxartdılar, indi sən millət vəkilisən, nazirsən. Görürsən!

S i r u s T ə b r i z l i: İnanın ki, o keçmişə görə mən sevinirəm. Mən o anları gözümün qabağına gətirirəm, fikirləşirəm ki, Heydər müəllim, Sizin kimi güclü insanlar bu cür təzyiqlərə dözürlər. Həyat bəzilərini döyür Koroğlu edir, bəzilərini döyür Keçəl Həmzə edir, bəzilərini də tamam məhv edir. Amma danoslardan, haqsızlıqlardan nə qədər insanlar məhv oldular. Bu, bu gün də davam edir, var.

İcazə verin mən çıxışımı bir-iki kəlmə ilə qurtarım. Həqiqətən də həyatımda Yazıçılar İttifaqında, o mənəviyyat ocağında mənə qarşı haqsızlıq edildi. Özü də əgər mənim bir günahım olsaydı, əgər mən gedib

kimdənsə rüşvət alsaydım, haradasa yalan danışsaydım, ikiüzlülük etsəydim – bu, başqa məsələ. Hamı bilirdi, burada Ayaz Vəfalı oturub, o da bilir ki, mən o qəzetdə necə işləyirdim. Nə üçün, özü də yazıçının danosu ilə yazıçılar mənə divan tutdular?

Mən çox təəssüf edirəm ki, bu gün Mirzə İbrahimov, İsmayıl Şıxlı sağ deyillər. Mən onların gözlərinə bir baxmaq istərdim. Nəhayət, bu, bu gün də davam edir. Niyə davam edir? Cənab prezident, mən deyim. Sizin gözünüzün qabağında olubdur. Mən partiya biletimi verəndə o vaxtkı kommunist rejimi məni təqib edibdir, mənim Yazıçılar İttifaqım məni müdafiə etməyibdir. Mən Naxçıvanda olanda İskəndər çıxıb qışqırırdı ki, Sirusu Bakıya buraxmayacağam. Mən gözləyirdim, mənim Yazıçılar Birliyim bir bəyanat versin ki, Sirusdan nə istəyirsiniz? Mən yenə də tək qaldım. Yəni Yazıçılar Birliyində məni müdafiə edən adam tapılmadı. Bir yazıçı, qələm dostum demədi ki, axı bu yol düz yol idi. Ona görə də Siz məni bağışlayın, mən bunu deməliyəm. Bu kiçik məclisdə demək istəyirəm ki, bu bizim dərdimizdir.

Ona görə mən çıxışımı bu sözlərlə qurtarmaq istəyirəm ki, hər dəfə qurultaylarda müəyyən adamlar barədə müəyyən qruplar arasında müəyyən çəkişmələr gedir ki, kim olacaq, rəhbərliyə kim seçiləcək. Bu, həmişə olubdur. Mən bu intriqaları həmişə görmüşəm. Hiss edirəm ki, elə bu ərəfədə də bu cür söhbətlər gedir. Məsələ kimin olmağında deyil. Mən belə başa düşürəm ki, biz özümüz daxilən dəyişməliyik. Çünki Azərbaycan artıq müstəqil dövlətdir. Müstəqil dövlətin yazıçıları, ziyalıları xalqı düz yola aparmalıdır, xalqın ağır vaxtında ona düz söz deməlidirlər, dünən birini, bu gün bir başqasını…Bayaq Əkrəmin dediyi çox cəsarətli söz idi. Bəli, biz yaratdığımız həmin totemlərdən, bütlərdən sonra boyun qaçırmalı oluruq. Ancaq mən yazıçılarımıza daxilən dəyişməyi arzulayıram.

Bu gün Siz kitablardan danışırsınız. Mən kitab siyasəti ilə məşğul olan nazirlikdəyəm. Mənim kitabım yoxdur. Mən fəxr edirəm ki, mənim kitabım yoxdur. Çünki o dövrdə ki, mən yaşamışam, əksəriyyət məcbur idik ki, görək nə yazaq. Bir dəfə mən Tarkovskinin bir sözünü eşitdim, – «kitab iş deyil, əməldir». Yazıçı öz həyatı ilə hərəkət etməlidir. Özü olmayanın sözü olmur. Mən belə bir mötəbər binada, belə bir şəxsiyyətin yanında yalan danışa bilmərəm, ürəyimdə olanları gizlədə bilmərəm. Mən Sizə hörmət edib bu sözləri deyirəm. Cənab prezident, mən də ürəyimdə kin gəzdirmirəm. İndiyədək qoy biri desin. Fəxr edirəm ki, mən meydanda Nemət Pənahlı ilə ziyalıların üstündə tutuşurdum. Deyirdim ki, Nemət, Ziya Bünyadovu, Bəxtiyar Vahabzadəni sən millətin içində

təhqir edə bilməzsən, onlar iş görəndə biz hələ əlimizə qələm almamışdıq. Mən bunlarla fəxr edirəm və Sizin qarşınızda alnım açıqdır.

Mən qələm yoldaşlarımızı bir şeyə çağırıram: xalqın ağır vaxtında yolumuzu müəyyən edək və xalqa düz söz deyək. Bunun üçün hər şey ola bilər. Bizdən əvvəl Mirzə Cəlilin, başqalarının başına nələr gəlməyibdir? Amma o düz sözlə qazanılan hörmət bütün vəzifələrdən yüksəkdir. Bu gün burada şəxsən mənim qələm dostlarım oturublar. Mən bu gün millət vəkiliyəm, nazirəm. Amma mən o qələmimlə qazandığım hörməti hər şeydən üstün tuturam. Ona görə də bu qurultayda özüm olmasam da, kimin oturmağından asılı olmayaraq, rəhbər dəyişmək yox, özümüzü dəyişək. Sağ olun.

Y u s i f S ə m ə d o ğ l u (Azərbaycan Yazıçılar Birliyinin birinci katibi**):** Heydər müəllim, mən bir arayış vermək istəyirəm. Olarmı?

H e y d ə r Ə l i y e v: Əlbəttə, olar. Bəli, sərbəst danışıqdır.

Y u s i f S ə m ə d o ğ l u: Sirus tamamilə haqlıdır. O vaxt Yazıçılar İttifaqı onun əleyhinə çox haqsız iş gördü, onu «Ədəbiyyat qəzeti»ndən işdən çıxartdı. Sizin dediyiniz kimi, həmişə bir şeyin mənfi cəhətini də, müsbət cəhətini də demək lazımdır. Sirus, axı sən sonra «Azərbaycan» jurnalında işə qəbul olundun. Mən o vaxt səni işə qəbul etdim və uzun müddət orada işlədin. Yəni bir haqsızlığa görə bütün Yazıçılar İttifaqının üstündən qara xətt çəkmək düzgün deyil.

H e y d ə r Ə l i y e v: Yəni əgər oradan çıxmasaydı, bu cür mötəbər jurnalda işə girə bilməyəcəkdi.

Mirvarid xanım, buyurun. Xahiş edirəm, oturub danışın. Qoyun mikrofonu Sizə yaxınlaşdırsınlar.

XALQ ŞAİRİ MİRVARİD DİLBAZİNİN ÇIXIŞI

Əziz Heydər Əliyev!

Sizin bir sözünüz mənim xəyalımda çox acı xatirələr əmələ gətirdi. Siz dediniz ki, yaxşı oldu, məni işdən çıxartdılar. Yadımdadır, mən Pirşağıda idim. Səhər tezdən dəniz qırağında dəhşətli bir partlayış oldu. Maşını yandırdılar, içindəki adamların hamısını öldürdülər. Sonra gedib həmin adamın evini partlatdılar. Onda xalqın səsi mənim yadımdadır. Onlar əllərini göyə tutub dedilər ki, ya rəbbi, bizə sözü kəsərli, sözü ötən bir başçı göndər, Heydər Əliyevi bizə başçı göndər. Sizi o vaxt respublikaya göndərsəydilər Azərbaycanın başına heç bir fəlakət gəlməzdi.

Çox pis oldu ki, o zaman Sizi işdən çıxartdılar. Sizi işdən çıxardan adamlar xalqın övladları deyildilər. Onlar bizim xalqımızı duya bilməzdilər. Sizi o vaxt işdən çıxartmasaydılar, heç Qarabağ faciəsi də olmayacaqdı.

H e y d ə r Ə l i y e v: Düzdür.

M i r v a r i d D i l b a z i: Biz, uşaqlarımız küçələrə çıxa bilmirdik. Uşaqlar küçəyə çıxanda anaları deyirdi, ya rəbbi, bunlar necə qayıdacaqlar, nə vaxt qayıdacaqlar? Allaha çox şükür ki, Siz gəldiniz. Mənim ən böyük arzum odur ki, Sizin müharibəsiz yaratdığınız sülh müqaviləsi tezliklə bu stolun üstünə qoyulsun və bizi çağırın, Sizi təbrik edək.

Əziz Heydər Əliyev, tarixdə ən çox şairə yetirən xalq Azərbaycan olubdur. Heç bir yerdə Azərbaycan xalqı qədər şairə yetirən xalq olmayıbdır. Lakin bu şairələrin taleyini Siz hamınız bilirsiniz. Mən heç kəsin qarşısında bu haqda danışmaq, məruzə etmək istəmirəm. XX əsrin əvvəllərindən, sovet quruluşu dövründə iki şairə yetişib. Onlardan biri Nigar xanım Rəfibəylidir, digəri Mirvarid Dilbazidir.

Azərbaycan Respublikasının 15 illiyində nümayəndələr göndərilirdi. Dedilər ki, şairələr də getsinlər. Fikirləşdilər ki, Mirvarid xanım, Nigar xanım əsil-nəcabətlərinə görə gedə bilməzlər. Sona xanım adlı bir təyyarəçi var idi, onun adına gözəl bir şeir yazdılar, aparıb tribunaya çıxartdılar ki, Azərbaycan şairəsi gəlib. Odur ki, Sizin Azərbaycan şairələrinə – mənə verdiyiniz yüksək mükafat təkcə Mirvarid Dilbaziyə deyil, Azərbaycanın yetirdiyi şairələrin əməyinə verilən tarixi qiymətdir. Siz mənə ən böyük qiyməti vermisiniz.

Mən Sizə bütün ömrüm boyu təşəkkür edirəm. Camaat Sizin mənə orden verdiyinizi eşidəndən, göndərdiyiniz təbrik məktubunu oxuyandan bəri tez-tez mənə müraciət edir ki, bizim bu dərdimizi Heydər Əliyevə de. Cavab verirəm ki, ay balam, Heydər Əliyev bütün ömrünü Sizin dərdinizin həll olunmasına həsr edib. Bizim dərdimiz nədir? Millətimiz azad olsun, torpaqlarımız erməni əsarətindən xilas edilsin, əsirlərimiz qurtarsın, Vətənə qayıtsın. Heydər Əliyev bütün həyatını, ömrünü bunların uğrunda – dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edibdir. Xırda-xırda məsələlərdən ötrü gedib onun vaxtını almağa dəyməz.

Heydər Əliyev, Allah Sizi var eləsin! Çox sağ olun!

Doğrudan da yaramaz ki, biz xırda məsələlərlə Sizin vaxtınızı alaq. Biz gərək Sizə ancaq böyük işlərdən danışaq. Hörmətli prezident, gördüyünüz böyük işlərə görə çox sağ olun.

Bilmirəm, hansı əsərdəsə göstərilir ki, balaca bir çaqqal öküzü parçalayır. Hiyləgərlər bizim də ətrafımızda vardır. Camaata demək lazım-

dır ki, ey camaat, aldanmayın. Axı camaatımızın hamısı alim deyil. Bəzən elə adam elə söz danışır ki, elə bil ürəyimizə bıçaq sancılır. Xahiş edirəm, gəlin yalanların üstünü açaq.

Mən bu sözləri ona görə danışmıram ki, Siz mənə orden vermisiniz. Siz katib olan vaxt rüşvətxorluğa qarşı ciddi mübarizə aparanda mən Sizə neçə-neçə şeir yazmışdım. Siz vəzifədə olduğunuza görə mən bunları nəşr etdirmədim.

Bir dəfə evimdə televizorun qarşısında oturmuşdum, yanımda da adı yadımdan çıxan mötəbər bir şəxs var idi. Televiziyaya bir kişi çıxartdılar. O nə orta yaşlı, nə də cavan deyildi. Heydər Əliyev, bax, o vaxtlar bir çox sarsaqlar, tutulanlar, rüşvətxorlar ermənilərə qoşulub Sizə ittihamlar yağdırırdılar. Televiziyada çıxış edəni belə təqdim etdilər ki, bax, bu, Heydər Əliyevin qurbanı olub. O da başladı boş-boş sözlər danışmağa.

Mənim yanımda oturan mötəbər kişi mənə dedi ki, ay başına dönüm, televiziyada bu danışanı mən yaxşı tanıyıram. O, rüşvətxorun, oğrunun biridir. Onun satmadığı bir obyekt qalmayıb. Görəsən Heydər Əliyevin günahı nədir?

O vaxt mən Sizə daha bir şeir yazdım:

Şücaətli əzizim!
Vətənimiz də birdir, torpağımız da bizim.
Üstü mavi zolaqlı bayrağımız da bizim…
İkiüzlü olanı iki yandan vurursan.
İkisözlü olanı bir sözlə susdurursan,
Amansızsan yalana, əliəyri olana.

Bayaq da dedim, o vaxt mən Sizə neçə-neçə belə şeirlər yazmışdım.

Vaqif müsəlman dininin müqəddəs ziyarətgahlarına öz məhəbbətini izhar edərək yazırdı ki, «Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm, bir zaman kuyidə ziyarətimdir». O, bu dini sevirdi, ona inanırdı. Hörmətli Prezident, Sizə də deyilən sözlərin heç biri yaltaqlıq deyil, Sizə olan inamdır, Sizə olan məhəbbətimdir.

Hörmətli prezident, sağ olun, var olun. O gün olsun ki, sülh müqaviləsi ortaya qoyulsun, biz də gəlib Sizi təbrik edək.

H e y d ə r Ə l i y e v: Sağ olun, Mirvarid xanım. O şeirləri mənə göndərin. Çox yaxşı şeirlərdir. Yəqin ki, onlar məndə yoxdur.

M i r v a r i d D i l b a z i: Sizə həsr etdiyim belə şeirlər çoxdur.

O vaxt, Vaqifin qəbrini o vəziyyətdən çıxarıb gözəl məqbərə tikdirəndə mən Sizə böyük bir məktub yazmışdım. Atanın qəbri pis olanda oğullarını ittiham edirlər. Şairin qəbri pis olanda rəhbərləri ittiham edirlər. Neçə yüz il keçdi, tacirlər, milyonerlər, katiblər gəldi, heç yada salan olmadı ki, bəs bu kişinin qəbrinin torpaqlarını niyə küləklər aparır? Mən onda yazmışdım ki, onun varisi Heydər Əliyev 200 ildən sonra gəldi.

Hörmətli prezident, Siz vəzifədəsiniz. Mənim dünyada heç bir maddi təmənnam yoxdur. Bircə mənəvi təmənnam var ki, Siz bu milləti bu fəlakətdən xilas edəsiniz. Mənim bundan artıq deməyə sözüm yoxdur.

H e y d ə r Ə l i y e v: Sağ olun.

Mirvarid Dilbazi: Mənim bir şeirim də var. Respublikada dövlət çevrilişinə cəhd göstəriləndə Siz qaçmadınız, qapınızda duran təyyarəyə minib başqa ölkəyə getmədiniz. Onda mən yazdım ki:

Başın göyə dayaqdır, ayağın yerə,
Gərib gen sinəni sərt zərbələrə,
Çiyinlərin üstə Vətən torpağı,
Torpaqdan güc aldın anteysayağı.
Qoymadın tökülsün sən qardaş qanı,
Qurtardın bölümdən Azərbaycanı!

Bunun davamı da var. Bu mənim Sizə olan məhəbbətimdir. Bunları mən ona görə çap etdirməmişəm ki, deməsinlər, Mirvarid Dilbazi görəsən Heydər Əliyevdən nə istəyir? Mənə heç bir şöhrət də lazım deyil. Mənim həyatımın son günləri, son dəqiqələridir.

H e y d ə r Ə l i y e v: Yox, sonu deyil. Hələ qarşıda böyük həyatınız var.

Mirvarid Dilbazi : Çox sağ olun. Vaxt var idi ki, Natəvanın qəbrinin üstündən mərmər daşı çıxartmışdılar, – Siz bunu məndən yaxşı bilirsiniz, – amma sonra Siz orada gözəl bir abidə yaratdınız. Mən o abidəni görəndə elə bildim ki, Natəvan qarşıma çıxdı, – qarşısında qələmi, sanki kağız çıxarıb nəsə yazacaq. Onun mərmərdən tökülmüş büstü də gözəldir. Bunlar hamısı Sizin xidmətlərinizdir.

Səməd Vurğunun şeirlərini dərs kitablarına salmırdılar. Siz Səməd Vurğun üçün çox iş gördünüz. Siz Qazaxda Səməd Vurğuna çox böyük bir müzey açdınız. Biz hər il oraya gedib-gəlirdik.

Siz Süleyman Rüstəmə yeni həyat verdiniz. Süleyman Rüstəmin «Təbriz şeirləri» unudulmazdır. O, milli, xəlqi şair olubdur, millətinə nə qədər xidmət edibdir.

Vaxtınızı çox almaq istəmirəm. Hər bir şairin ideyası varsa, o da insandır. İdeyasız insan insan deyil.

Çox sağ olun. O dövrdə kişilər var idi – Süleyman Rüstəm, Rəsul Rza və başqaları. Çox sağ olun ki, Siz onları dərindən qiymətləndirirsiniz. Çox sağ olun, var olun.

H e y d ə r Ə l i y e v: İndi də kişilər var. Bu kişilər burada oturublar. Bizim gözəl qadınlarımız var, onların ən gözəllərindən biri də sizsiniz. Ona görə də o dövrdə də olub, bu gün də var.

M i r v a r i d D i l b a z i: Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Adətən, insanlar öz yanında, gözünün qabağında olanı qiymətləndirmir, keçmişdəkini, yaxud uzaqda olanı qiymətləndirir. Amma həyatdır, heç birimiz burada daimi deyilik. Mən şübhə etmirəm ki, gələcək nəsillər bu gün burada, bu salonda oturanların hamısını yüksək qiymətləndirəcəklər.

Səməd Vurğun 50 yaşında, 40 il bundan əvvəl vəfat edib. Biz onun 90 illiyini qeyd etdik. Amma Səməd Vurğun bəlkə də heç yaşadığı zaman, yaxud həyatdan gedəndən sonrakı ilk illərdə xalqın məhəbbəti nöqteyi nəzərindən bu qədər yüksək zirvələrə qaldırılmamışdı, nəinki indi qaldırıldı. Bilirsiniz, olur, tarixin elə zamanları olur ki, unudur, amma sonra xatirinə salır.

M i r v a r i d D i l b a z i: Əziz Heydər Əliyev, o vaxt Səməd Vurğun can verəndə Fadeyev demişdi ki, ancaq yüz illərdən bir belə istedadlar doğulur.

H e y d ə r Ə l i y e v: Tamamilə doğrudur.

YAZIÇI ELÇİNİN ÇIXIŞI

Hörmətli Prezident!

Əziz qələm dostlarım!

Təbii ki, mən də bu görüşü, söhbəti çox yüksək qiymətləndirirəm və buna görə, cənab Prezident, Sizə dərin təşəkkür və minnətdarlığımı bildirirəm. Tale belə gətirib ki, vəzifəmlə əlaqədar bizim hörmətli Prezidenti müşahidə etmək imkanlarım qələm dostlarıma nisbətən daha artıqdır. Ona görə də bunu deməliyəm və bunu deməklə sizin üçün, – qələm dostlarımı nəzərdə tuturam, – yeni bir Amerika kəşf etmirəm. Azərbaycan Respublikasının prezidenti Azərbaycan xalqının inkişafını, rifahını, Azərbaycan Respublikasının çiçəklənməsini bəlkə də ilk növbədə, – ola

bilər yanılıram, amma hər halda güman edirəm, təəssüratım məni aldatmır, – Azərbaycan mədəniyyətinin, mədəniyyəti böyük mənada, ədəbiyyat da daxil olmaqla deyirəm, çiçəklənməsi, inkişafı ilə, bu çətin vaxtda Azərbaycan mədəniyyəti naminə nəsə eləməklə ölçür, onunla görur.

Bir müşahidəmi də demək istəyirəm, – hörmətli Prezidentlə bəzən telefon danışıqlarında və yaxud bilavasitə danışıqlarda açıq-aşkar müşahidə etmişəm ki, dediyim geniş mənada mədəniyyətdən söhbət düşdükdə, ədəbiyyatdan söhbət düşdükdə məndə elə bir təəssürat yaranır ki, cənab Prezident elə bil mənən bir az dincəlir. Əgər bu iş-gücün, problemlərin çoxluğu içində «dincəlmək» sözü yerinə düşürsə. Həqiqətən belədir və bir qələm əhli, yazıçılıqla, yazı-pozu ilə məşğul olan adam kimi, sözsüz ki, buna mən daxilən çox sevinirəm, məndə daxilən böyük ruh yüksəkliyi əmələ gəlir.

Doğrudan da, burada qurultaylardan, cənab Prezident ilə Azərbaycan yazıçıları arasındakı münasibətdən söhbət getdi. Bunların hamısı mənim də gözümün qabağındadır. Bu münasibətlərdə ilk növbədə bir sabitlik var. Biz hörmətli Heydər Əliyevi o qurultaylarda həm xitabət kürsülərində görmüşük, həm rəyasət heyətində, həm də sadəcə parterdə oturan görmüşük.

Elə bilirəm ki, respublika miqyasında yeganə böyük toplantılar idi ki, Heydər Əliyev həm yuxarıda, həm aşağıda oturub, bilavasitə özü görüb, təmasda olub, bütün bu tədbirlərdə bilavasitə iştirak edibdir.

Qurultaylardan ki, söhbət düşdü, mənim də gözümün qabağına gəlir. Burada Anar dedi, 1971-ci ildən bu tərəfə olan qurultaylar – 1971-ci ildə, 1976-cı ildə, 1981-ci ildə, 1986-cı ildə, 1991-ci ildə olan qurultaylar gözümün qabağına gəlir. Tam inamla deyirəm ki, şübhəsiz, Azərbaycan milli ictimai fikrinin formalaşmasında, Azərbaycanın milli özünüdərkində, milli özünüifadəsində bu qurultayların çox mühüm rolu olubdur.

Mən nəyi demək istəyirəm? İndi burada ən cavanı Vaqif Cəbrayılzadədir, bunlar hamısı onun da gözünün qabağındadır. Çingiz Abdullayev gülür, Çingiz yaşda ondan da kiçikdir. Bu qurultaylar, bu böyük toplantılar sovet dövründə, sovet Azərbaycanı dövründə çox zaman kosmopolit xarakter daşıyırdı. Kosmopolit xarakter deyəndə, həm dini nöqteyi-nəzərdən, həm ümumi Sovet İttifaqı qarşısındakı problemlər – təsərrüfat problemləri nöqteyi-nəzərindən deyirəm. Amma Azərbaycan yazıçılarının qurultayları həqiqətən milli özünüdərkin, özünüifadənin, milli münasibətin ifadəsi idi. Şübhəsiz, gün işığı kimi aydın həqiqətdir ki, burada da o dövrün rəhbərinin və rəhbərliyinin rolu var idi. Başqa cür mümkün deyildi.

Misal üçün, əgər 1971-ci ildə bu gün burada oturanların çoxundan yaş etibarilə cavan olan birinci katib, respublikanın rəhbəri Heydər Əliyev gəlib Azərbaycan dilində çıxış edirdisə, – o məruzə yadınıza gəlir, – Azərbaycan problematikasını qaldırırdısa, bu, doğrudan da Azərbaycan ictimai fikrinin formalaşmasında böyük bir hadisə idi. Mənim yadıma gəlir, bunu bir neçə dəfə yazmışam və demişəm də, – doğrudan da hesab edirəm ki, mühüm məsələdir. 1981-ci ildə keçmiş Dzerjinski klubundakı qurultayda, – o, elə bir dövr idi ki, Azərbaycanda, Azərbaycan xalqının problematikasında onun gələcəyi üçün bir nömrəli problemlərdən olan Cənub mövzusu yasaq idi. Təbii ki, Moskvanın təzyiqi, istəyi və Qlavlitdən tutmuş bir sıra redaktorlara qədər Moskvanın dediyi ilə oturub-duran kiçik işçilərin iştirakı ilə bu, yasaq idi. Heydər Əliyev çıxışında, – hesab edirəm ki, doğrudan da tarixi çıxış idi, – Cənub məsələsini necə qaldırdı? Cənub məsələsinə Azərbaycan yazıçılarının diqqətini necə cəlb etdi? Xüsusi bir vəzifə yaratdı ki, o da Yazıçılar İttifaqının katibi vəzifəsi idi və bizim hörmətli Balaş Azəroğlu da o vəzifəyə seçildi – Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi.

Əlbəttə, bütün bunlar bir tərəfdən tarixi faktdır, hesab edirəm, Azərbaycanın yeni tarixinin son 30 ilinə yazdığı çox gözəl, qiymətli səhifələrdən biridir. O biri tərəfdən də, məsələn, şəxsən mənim üçün, burada «parlaq» sözünü işlətdim, – çox parlaq hadisələrdən biridir.

Amma bu gün bu barədə söhbət getdi, – biz müstəqil Azərbaycanın yazıçılarının ilk qurultayını keçiririk. Yəni, müstəqil Azərbaycan Respublikası öz yazıçılarının ilk qurultayını keçirir. Əslində bu, Azərbaycan Yazıçılar Birliyinin yox, Azərbaycan yazıçılarının qurultayıdır. Aradan keçən altı ili mən də gözümün qabağına gətirəndə, hesabat nöqteyi-nəzərindən bu illəri xatırladıqda Əkrəm Əylislinin dediyi bir fikirlə şərikəm ki, əslində bu altı ilin daxilindəki hadisələr, ziddiyyətlər, dramatik hadisələr, – gurultulu çıxmasın, hətta bəzi məqamlarda Şekspir qələminə layiq hisslər, həyəcanlar olan hadisələr – vaxt nöqteyi-nəzərindən, zaman etibarilə elə bil ki, altmış ilə bərabərdir.

Mən bu nöqteyi-nəzərdən ədəbiyyatımıza baxanda bir məsələyə diqqəti cəlb etmək istəyirəm. Bu da nədir? Ədəbiyyatımızın bu günü və gələcəyi naminə, qələm əhli kimi, şəxsən özüm daxil olmaqla, bizim yaratdığımız şərait – yəni biz nə eləmişik? Həm Yazıçılar Birliyi nə edib, həm mən – Elçin nə eləmişəm, deyək ki, həm Qabil, həm Fikrət Qoca nə eləyibdir? Yəni, daxili bir hesabat nə olub, necə olubdur. Bu nöqteyi-nəzərdən, birinci özüm daxil olmaqla, görürəm ki, ilk növbədə ədəbiyyata

təəssübkeşlik hissiyyatı elə bil bir az arxa plana keçibdir. Başqa məsələlər, problemlər ədəbiyyat təəssübkeşliyini üstələyibdir.

Üzr istəyirəm, vaxtı bir az çox alıram, amma bunları burada demək istəyirəm. Vaxtilə hakim bir ideologiya var idi. Bu hakim ideologiya xüsusən 30-cu illərdə, elə sonrakı dövrlərdə də istedadlı olub-olmamağından asılı olmayaraq, insanları istedadlı yazıçı vəzifəsinə təyin edirdi. Məsələn, deyirdi ki, sən dünənəcən tramvay sürəndin, bu gün təyin olunmusan istedadlı Azərbaycan yazıçısı vəzifəsinə. Yaxud, bir pyes yazmısan, xalq düşmənlərini ifşa eləmisən, onda sən təyin olunursan görkəmli Azərbaycan yazıçısı vəzifəsinə. O xalq düşmənini necə, hansı bədii estetik səviyyədə ifşa eləmisən, yaxud nə üçün ifşa eləmisən, bunun prokuroru, vəkili kimdir ki, bundan söhbət getmirdi.

Yaxud Sov.İKP Mərkəzi Komitəsi, deyək ki, camışçılığın inkişafı haqqında qərar qəbul edirdi. Artıq bunun ədəbiyyat nöqteyi-nəzərindən 50-ci illərə də, 60-cı illərə də, hətta bəzən sonrakı illərə də dəxli var. Sov.İKP Mərkəzi Komitəsi Nazirlər Soveti ilə birlikdə camışçılığın inkişafı haqqında qərar qəbul edirdi. Azərbaycan ədəbi tənqidi və yaxud Sovet ədəbi tənqidi nə edirdi? Sovet ədəbi tənqidi partiyanın qərarının bədii ədəbiyyatdakı təcəssümünü tələb edirdi. Bu zaman ədəbiyyata heç bir dəxli olmayan əsərlər meydana çıxırdı. Mən onların üzərində dayanmaq istəmirəm, hamınız bunu çox gözəl bilirsiniz. O əsərlərin qəhrəmanları, misal üçün, bir camışdan üç bala alırdısa, olurdu müsbət qəhrəman, gözəl, yüksək səviyyəli bir qəhrəman, yazıçının böyük nailiyyəti. Amma bu, hansı bədii-estetik səviyyədə idi – bunun fərqinə varan yox idi.

Şübhəsiz ki, o dövrdə eyni zamanda istedadlı ədəbiyyat da yaranırdı. O istedadlı ədəbiyyatın yaranması prosesi Azərbaycanda 70-ci illərdə özünü çox parlaq şəkildə büruzə verdi. Dissident ədəbiyyatından çox danışırlar. Düzdür, Azərbaycanda xüsusi demək olmaz ki, filan bir dissident roman yazdı, xaricdə çap olundu. Azərbaycanda çap olunmadı və yaxud bir poema yazdı, xaricdə çap olundu, Azərbaycanda olunmadı. Amma mən bunun şahidiyəm, dostlarım da bilir, – Anar, Yusif, Əkrəm burada əyləşiblər, – hamısı şahiddir ki, biz o vaxt tez-tez Moskvaya, başqa respublikalara gedirdik, orada bizə deyirdilər ki, Azər Moskvada işləyirdi, bunu təsdiq edə bilər,– siz nə edirsiniz, Azərbaycanda nə baş verir? Yəni, o əsərlər ki, Moskvada dissident ədəbiyyatı nümunələri sayılırdı, o əsərlər Azərbaycanda, adlarını da bilirsiniz, kifayət qədər də həcmi olan əsərlər idi, həm şeirdə, həm nəsrdə, hətta dramaturgiyada olan əsər-

lər idi, – həmin «Azərbaycan», «Ulduz» jurnallarında, «Ədəbiyyat» qəzetində çap olunur, Əzizbəyov adına teatrda tamaşaya qoyulurdu və s. Doğrudan da bu, olan bir şeydir və bunun üstündən keçmək olmaz. Ona görə keçmək olmaz ki, mümkün də deyildir. Çünki Azərbaycanın bugünkü özünüifadəsində bunun çox böyük rolu var.

Amma indi necə vəziyyət əmələ gəlib? İndi elə bil ki, qələm dostlarım da, – bu gün söhbət ədəbiyyatdan gedir, – ədəbiyyat adamları arasında, bəlkə səhv edirəm, elə bil ki, bir az özlərini itiriblər. Şübhəsiz ki, bunun böyük səbəbləri var. Həm də maddi səbəbi var.

Dünənə qədər əsərlər çap olunurdu, qonorarları alınırdı. Buna görə də yazıçıların heç bir vəzifədə və başqa yerdə işləməyinə ehtiyac yox idi. Bu qonorarlar onların ailələrini, özlərini yaşatmaq üçün kifayət idi.

Bu gün həm maddi, həm də mənəvi çətinliklər ortaya çıxıb. Hətta ən istedadlı, görkəmli yazıçı özünü axtarmağa başlayıbdır. Məsələn, Əkrəm Əylislinin çıxışı barədə bu gün burada söhbət açdılar. Əkrəm Əylislinin bu son altı ildə, hətta ondan əvvəlki illərdə – Yazıçılar İttifaqında işlədiyi dövrdən bugünkü günə qədər gəldiyi yolu nəzərə alaraq mən deyə bilərəm ki, bu yol tamamilə ziqzaqdan ibarət bir yoldur. Mən bunu pis mənada yox, yaxşı mənada deyirəm. Mən bunu qələm dostumun özünü axtarışı kimi hesab edirəm. O, özünü, həqiqəti axtarır. Bu nöqteyi-nəzərdən elə bil yazıçılar özlərini itiriblər. Həm maddi cəhətdən böyük çətinliklərə, həm də dediyim həmin o altı ilin içərisinə sığmayan böyük problematika ilə, əgər belə demək mümkünsə, həmin altı ilin ehtivasına sığışmayan 60 ilin, bəlkə də 100 ilin problematikası ilə qarşılaşıblar. Əlbəttə, bu nöqteyi-nəzərdən Azərbaycan ədəbi prosesinin bugünkü zəifliyinin, hətta mən deyərdim ki, bugünkü ölgün vəziyyətin səbəbləri vardır. Şübhəsiz ki, burada Yazıçılar Birliyi, Nizami adına Ədəbiyyat İnstitutu daha artıq dərəcədə fəal olmalıdırlar. Amma ilk növbədə, mən özüm də daxil olmaqla, bizim hər birimiz fəal olmalıyıq.

Heydər Əliyeviç, mən Sizə deyim, bu gün ədəbi meyarlar, demək olar ki, itib, yəni bu gün ədəbiyyatda elə bir deqradasiya prosesi gedir ki, onun qarşısını almaq inzibati nöqteyi-nəzərdən mümkün deyildir. Onun qarşısını qərarlarla almaq mümkün deyil. Bunun qarşısını ancaq əsil ədəbiyyatın təəssübünü çəkməklə almaq mümkündür.

Məsələn, Siz də dediniz, bu gün bir nəfər prokuror haqqında kitab çıxır. Məlum olur ki, belə böyük-böyük kitabların Mətbuat və İnformasiya Nazirliyinə dəxli yoxdur. Kiminsə pulu var, gedib hansısa bir şəxsi nəşriyyatda çap etdirir. Məlum olur ki, bir yazıçı var imiş, sən demə,

onun 10 romanı var imiş, Sovet İttifaqı, Sovet Azərbaycanı vaxtında bunu sıxışdırıblar, kitablarını çap etməyiblər. O bunları indi çap elətdirir, cildləri çıxır. Digər tərəfdən, şeir naminə heç bir şey olmayan cild-cild, ensiklopediya boyda kitablar çap olunub. Təkrar edirəm, bunların qarşısını nə ilə almaq olar? Sovet dövrü deyil ki, qərar çıxarasan və yaxud digər işlər görəsən. İnzibati yolla buna nə deyəsən? Deyəsən, get onu tut ki, nə üçün bu kitabı çap etmisən? Burada nə etmək olar? Ancaq və ancaq ədəbiyyatın təəssübünü çəkmək.

Mən, necə deyərlər, yeni Amerika kəşf etmirəm, ürəyimin içində olan sözləri deyirəm. Siz bunları məndən də yaxşı bilirsiniz. Amma bu məsələdə hər birimiz fərdi surətdə daha artıq dərəcədə fəallıq göstərməliyik. Düzdür, mən başa düşürəm ki, bu gün belə imkanlar azdır. Nə üçün? Ona görə azdır ki, dünən «Azərbaycan» jurnalının 76 min tirajı var idi, bu gün onun min nüsxə tirajı var. «Ədəbiyyat» qəzetinin dünən 56 min tirajı var idi, bu gün min nüsxə tirajı var. Deyək ki, mən – Elçin ədəbi proses barədə bir məqalə yazmışam, hansısa bir əsərə qiymət vermişəm, ya tənqid, ya da tərif vermişəm. Bir var bu, 76 min tirajlıq jurnalda çap olunsun, bir də var min nüsxə tirajı olan jurnalda. Qeyd etmək lazımdır ki, o da az əhəmiyyətli deyil ki, mənim bu məqaləm 76 min nüsxə tirajlıq jurnalda çap olunmuşdursa, onda mən qonorar alıram və növbəti məqaləmədək uşaqlarımı dolandırıram, daha sonra yeni bir məqalə yazıram. Amma bu, min nüsxə tirajlıq jurnalda çap edilirsə, əlbəttə, müəyyən məhdudiyyətlər ortaya çıxır.

Bütün bunlara baxmayaraq, burada oturanlardan hər birimiz – möhtərəm Prezident dedi ki, buradakılar bizim hörmətli qələm sahiblərimizdir – gərək bu altı ildə ədəbiyyatın təəssübünü çəkmək nöqteyi-nəzərindən edə bildiklərimizi etmişikmi? Heç bir şey etməmişik. Mən bunu birinci özümə deyirəm, – heç bir şey eləməmişik. Ona görə də o cür qrafoman ədəbiyyatı baş alıb gedir. Mən Sizi inandırıram, bu qrafoman ədəbiyyatının qarşısı alınmasa, bu deqradasiya bizi ən geridə qalmış ölkələrin səviyyəsinə aparıb çıxaracaq.

Mən çox arzu edirəm ki, bizim Yazıçılar Birliyinin qurultayında bu ətrafda söhbət getsin. Şübhəsiz ki, belə də söhbət gedəcəkdir. Mən çox arzu edirəm ki, Yazıçılar Birliyi də, Nizami adına Ədəbiyyat İnstitutu da, qəzet redaksiyaları da ilk növbədə «Ədəbiyyat» qəzeti, «Azərbaycan», «Ulduz» jurnalları bütün böyük çətinliklərə baxmayaraq, bu qurultaydan sonrakı dövrdə daha artıq dərəcədə ədəbiyyatın təəssübünü çəkməyə diqqət yetirsinlər. Yenə də deyirəm, mən çox gözəl başa düşürəm ki, ic-

lasda ədəbiyyat yaranmır, «yaxşı əsər yaz» deməklə heç kim gedib oturub yaxşı əsər yazmayacaq. Əgər yazıçının qabında bir şey varsa, ona heç nə demədən gedib yazacaq və gətirib verəcək. Amma bütün bunlarla bərabər, mən çox arzu edirəm ki, gələcəkdə daha artıq dərəcədə ədəbi disputlar keçirilsin, ədəbiyyat söhbəti getsin, ədəbiyyat müzakirəsi olsun, hətta mən bu sözü deməkdən çəkinmirəm ki, ədəbiyyat davası olsun, amma sağlam dava olsun. Çox sağ olun, təşəkkürümü bildirirəm.

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ GƏNC NƏSİLDƏN OLAN YAZIÇI VƏ ŞAİRLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

Prezident sarayı
29 oktyabr 1997-ci il

Mən bu gün belə bir ifadə işlətmək fikrinə gəlmişəm: Bu günlər Azərbaycanda ədəbiyyat günləridir.

Dünən Yazıçılar Birliyinin rəhbərləri, üzvləri, xalq şairləri ilə, yaşlı nəslə mənsub şair və yazıçılarla görüşümüz oldu. Xahiş etdim ki, gənclərlə də görüşək. Bu mənim keçmişdə belə məsələlərə münasibətimlə müəyyən dərəcədə bağlıdır. Keçmiş zamanlarda da Yazıçılar İttifaqı ilə çox sıx əlaqədə olmuşam. Yazıçılarla vaxtaşırı görüşlərim olurdu, – yaşlılarla da, gənclərlə də görüşürdük. Şübhəsiz ki, birlikdə də görüşlərimiz olurdu. Bəzən gənclərin və yaşlıların öz problemləri olur. İndi kimin gənc və kimin yaşlı olduğunu demək çətindir. Mən bunu dünən dedim, – vaxtilə biz Anar, Elçin, Yusif və başqaları ilə gənc nəslin nümayəndələri kimi görüşürdük, indi isə onlar ədəbiyyatımızın ağsaqqalları da olmasa, hər halda yetkin nəslə, yəni yaşlı nəslə mənsub hesab olunurlar. Kiminin 50-dən yuxarı, kimininsə 60-a yaxın yaşı var. Bunlar gözlərimin qabağında böyüyüblər.

İki-üç gün bundan öncə mənə bir kitab göstərdilər. Baxıram, kitabda Elçinlə, hansısa bir şairlə, daha kiminləsə mənim də şəklim var. Elçin o vaxt gənc idi, qara, qıvrım saçları vardı. Elçin, o şəkli görmüsənmi?

E l ç i n: Görmüşəm. Nizami Xudiyevin kitabında verilib. Yeri gəlmişkən deyim ki, yaxşı kitabdır.

H e y d ə r Ə l i y e v: Hə, Nizami Xudiyevin kitabıdır. Mən hələ oxuya bilməmişəm. Bilirəm, Azərbaycan dilinə həsr olunub. Bu da mənim üçün ən dəyərli mövzulardan biridir. Hardansa toplanmış nadir şəkillər kitabda verilmişdir. İndi belədir, həmişə cavan qalmaq olmur.

Əsrimizin sonunda Azərbaycanın gənc yazıçıları ilə görüşə gəlmişəm. Əksəriyyətinizlə şəxsən tanış deyiləm. Təəssüflər olsun ki, sizin əsərlərinizi oxuya bilməmişəm. Həqiqəti etiraf etməliyəm. Ancaq bilirəm ki,

həyatımızın ən ağır illərində, əsrin əvvəllərində, yaxud Oktyabr çevrilişindən sonrakı dəyişikliklər dövründə, 1937–1938-ci illərin çətin repressiya şəraitində Azərbaycanda yazıçılar nəsli ara vermədən bir-birini əvəz edib. İtkilər, repressiyalar nəticəsində dünyasını dəyişənlər olubdur. Ancaq yazıçılar nəsli ardıcıl olaraq yaşayıb və inkişaf edibdir.

İndi də biz tariximizin çətin, mürəkkəb keçid dövrünü yaşayırıq. Çox sevindirici haldır ki, bu dövrdə də bizim yazıçılar nəsli daim yaşayır, yaradır, nəsillər arasında boşluq yoxdur.

Dünən mənə dedilər ki, Yazıçılar Birliyinə üzv qəbul olunmaq üçün 100-dən artıq müraciət var. Bu, sevindirici haldır. Çünki indi yazıçıların sosial vəziyyətinə qayğı və yaxud maddi imkanlar keçmişə nisbətən çətinləşib, yaxud da yox dərəcəsinə gəlib çatıbdır. Amma belə bir vəziyyətdə yazıçı və şair olmaq, özünü bu sənətə həsr etmək, yazıçılar ittifaqlarının bəzi yerlərdə, hətta dağıldığı halda bu ittifaqa qəbul olunmaq, ona üzv olmaq istəyən gənclər Azərbaycanda çoxdursa, bu, mədəniyyətimiz və ədəbiyyatımız üçün olduqca sevindirici haldır.

Dünən səmimi söhbət etdiyimiz şəxslərin hamısı ilə tanışam. Çünki uzun illərdir ki, bir yerdə olmuşuq, vaxtaşırı görüşmüşük, onların əsərlərinin əksəriyyətini oxumuşam. Amma sizin çoxunuzla ilk dəfədir ki, üzbəüz görüşürəm. Bu da mənim üçün çox əhəmiyyətlidir. Güman edirəm ki, yaşlı nəsillə olduğu kimi, sizinlə də aramızda əlaqələr yarana bilər və biz ədəbiyyatımızın inkişafı naminə bu əlaqələrdən istifadə edə bilərik. Hesab edirəm ki, görüşümüzün məqsədi bundan ibarətdir. Görüşümüzü konkretləşdirmək üçün indi kimsə nə isə deməli, məlumat verməlidir. Buyurun.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARIN ÇIXIŞI

Möhtərəm Prezident!

Möhtərəm görüş iştirakçıları!

Hörmətli Prezidentimizin dediyi kimi və sizin bildiyiniz kimi, dünən belə bir görüş oldu. Belə gərgin vaxtda imkan tapıb bu görüşü keçirdiyinə görə dünən prezidentimizə hamımızın adından təşəkkür etdim və indi də gənc yazıçılarla görüşə görə təşəkkür edirəm. Burada ədəbiyyatımıza öz səsi ilə gələn istedadlı şairlərimiz, nasirlərimiz, tənqidçilərimiz toplaşıblar. Bu o demək deyil ki, burada olmayanlar istedadsız-

dır, yaxud da az istedadlıdır. Hamını dəvət etmək mümkün deyil. Ona görə də istədik ki, Siz bir qrup ilə görüşəsiniz. Onlar qurultayda da iştirak edəcəklər.

Yazıçılar Birliyi cavanlarla bağlı müəyyən işlər görür. Vaqif Yusifli o qədər cavan deyil, amma gənclərin yaradıcılığı ilə məşğul olur. Mən ondan xahiş etdim ki, burada məlumat versin. Yazıçılar Birliyində bir müşavirə keçirdik, orada da tənqidçi, həmin Vaqif Yusifli cavanların yaradıcılığı haqqında danışdı. Sonra gənclərin özləri danışdılar. Cavan yazıçı Rafiq Tağının və cavan şair Adil Mirseyidin əsərlərinin müzakirəsini keçirdik. Mən başa düşürəm ki, daha çox iş görmək olardı. Amma indi sezilən işlər bunlardır.

Bundan başqa, Yazıçılar Birliyinin Natəvan adına klubunda «Avanqard» adlı cavanlar birliyi toplaşır. Orada əsasən yaradıcılıq söhbətləri aparırlar, arabir Yazıçılar Birliyini də tənqid edirlər. Mən də bundan çox razıyam. Çünki demokratiyadırsa, tənqid də olmalıdır.

Güman edirəm ki, buraya toplaşanların taleyini heç kəs əvvəlcədən xəbər verə bilməz. Amma mən arzu edərdim ki, onların yaradıcılıq taleyi uğurlu olsun və gələn görüşlərdə, hörmətli Prezident, bugünkü gənclər Sizinlə artıq ağsaqqallar kimi görüşsünlər və onlardan sonra gənc nəsil gəlsin. Hələ ağsaqqal olana qədər onlar cavandırlar, burada çıxış edib öz sözlərini deyə bilərlər.

Mən xahiş edərdim ki, Vaqif Yusifli onların yaradıcılığı haqqında qısa məlumat versin.

TƏNQİDÇİ VAQİF YUSİFLİNİN ÇIXIŞI

Hörmətli Prezident!

Hörmətli görüş iştirakçıları!

Çağdaş Azərbaycan ədəbiyyatının cavan nəsli ilə keçirilən belə bir görüş, heç şübhəsiz, ədəbi-tarixi bir görüşdü və belə bir missiyanın yerinə yetirilməsidir.

Hörmətli Prezidentimiz əvvəlki illərdə də cavanların yaradıcılığı ilə ciddi maraqlanmış, onların ayrı-ayrı əsərlərinə, bütöv yaradıcılıqlarına öz münasibətini bildirmişdir.

Yazıçıların X qurultayı ərəfəsində ədəbiyyatımızın gələcəyi olan istedadlı gəncliyin ölkə prezidentinin məsləhət və tövsiyələrini, xeyir-dualarını eşitməsi xoşdur.

Qədim yunan filosofu Sokratın belə bir məşhur kəlamı var: «Bircə şey bilirəm ki, heç bir şey bilmirəm». Əslində bu müdrik kəlamı söyləyənə qədər Sokrat çox şey bilirdi, zəmanəsinin ən böyük filosofu səviyyəsinə yüksəlmişdi. Lakin çox bilməyi ilə öyünmürdü və bildiklərini bilmədiklərinin müqabilində dəryadan, ümmandan bir zərrə hesab edirdi.

Bu gün hər bir gəncin söz eşitməyə, öz yaradıcılığı barədə hansısa bir tövsiyəni eşitməyə doğrudan da böyük ehtiyacı vardır. Əlbəttə, onların istedadının, yaradıcılığının daha da çiçəklənməsi, üzə çıxması üçün belə bir görüşdən çox şey gözləyirlər. Hörmətli Prezident, onların adından Sizə öz minnətdarlığımızı bildiririk.

Mən əvvəlcə hörmətli prezidentimizi buradakı gənclərin adları ilə tanış etmək istəyirəm. Burada ədəbiyyatın müxtəlif janrlarında yazıb-yaradan gənclər əyləşiblər. Gənc nasir Mübariz Cəfərlinin bir neçə hekayə və povest kitabı çıxıb. Onun yanında oturan Orxan Fikrətoğlu gözəl şairimiz Fikrət Sadığın oğludur, bir neçə hekayələr kitabının müəllifidir. Daha sonra «Ulduz» jurnalının baş redaktoru, gözəl şairimiz Ələkbər Salahzadə, «Ədəbiyyat qəzeti»nin redaktor müavini, gənc tənqidçi Tehran Əlişanoğlu, gənc şair Əjdər Ol, orijinal yazıları ilə diqqəti cəlb edən gənc şair Salam Sarvan, Əlizadə Nuri, Saday Şəkərli, gənc tənqidçi Nizaməddin Mustafa, gənc şair Yalçın Qoca, gənc şair və tərcüməçi Mahir Qarayev, gənc tənqidçi, ədəbiyyatşünas Şəlalə Həsənova, gənc şairə Mahirə Abdullayeva, yaşı az olsa da öz elmi yazıları ilə professorluq səviyyəsinə çox tez yüksələn tənqidçi, ədəbiyyatşünas Nizami Cəfərov, özünü gənclikdən qətiyyən ayırmayan filologiya elmləri doktoru, professor Rafael Hüseynov. Bu tərəfdən əyləşənlər – Xeyrəddin Qoca, yaradıcılığa yeni başlayan Səyyad Aran.

H e y d ə r Ə l i y e v: O, yaşına görə cavan hesab olunur, yoxsa yaradıcılığına görə?

V a q i f Y u s i f l i: Yaradıcılığına görə.

H e y d ə r Ə l i y e v: Yaradıcılığına görə. Ola bilər, yaşı 60 olsun, yeni yaradıcılığa başladığına görə gənc hesab olunsun.

V a q i f Y u s i f l i: Daha sonra – lap gənc, istedadlı şair, ilk şeir kitabının müəllifi İlqar İlkin, adı çəkilən «Avanqard» ədəbi birliyinin rəhbəri Dəyanət Osmanlı, iki şairə bacımız – Səhər və Təranə, gənc şair Əkbər Qoşalı, cavan şair Mətləb Ağa, bu yaxınlarda 40 yaşını qeyd edən gözəl şairimiz Rüstəm Behrudi.

H e y d ə r Ə l i y e v: Neçə yaşını qeyd edib?

V a q i f Y u s i f l i: 40 yaşını.

H e y d ə r Ə l i y e v: Behrudi, tanıyıram, görüşmüşük.

V a q i f Y u s i f l i: Daha sonra – gənc şair Maarif Soltan, Vaqif Bəhmənli, – o da gəncdir, gənc nasir Saday Budaqlı, tənqidçi Arif Əmrahoğlu, şair Akif Əhmədgil, bu tərəfdən – gənc şairlər Akif Səməd, Musa Urud, Əlabbas Bağırov, tənqidçi Cavanşir Yusifli.

Hörmətli Prezident, əlbəttə, ədəbiyyatı nəsillər üzrə təsnifləşdirmək, cavan, orta nəsil, yaşlı nəsil bölgüləri ilə bir-birindən seçmək, ayırmaq, fərqləndirmək heç bir zaman xeyir verməyib. Müxtəlif dövrlərdə ədəbiyyatda bu cür ayrı-seçkilik bəzən cavanların istedadları qarşısında bir sədd çəkib. Heç şübhəsiz, ədəbiyyatı nəsillər yox, müxtəlif nəsillərin yaratdığı əsərlər, ən yaxşı əsərlər tanıdıb. Yəni ən yaxşı əsərlərin nə cavanı, nə orta yaşlısı, nə də qocası olur. Ən yaxşı əsərlərin əbədisi olur, uzunömürlüsü olur. Amma bir fakt, bir həqiqət danılmazdır ki, ədəbiyyatda şərti mənada işlədilən «yeni nəsil» ifadəsi daha çox ədəbiyyatda yenilik, novatorluq məfhumu ilə çarpazlaşır. Yəni ədəbiyyata yeni nəsil gəlirsə, bu yeni nəsil gərək ədəbiyyata yeni səs, hava, çalar, yeni ideyalar gətirsin. Əgər o, yeni ideyalar gətirirsə, yeni səs ilə fərqlənirsə, bir üslub yeniliyi yaradırsa, fərdi dəsti-xətti ilə seçilirsə, – bu, ədəbiyyatda yaşayır, əgər seçilmirsə yaşamır. Ədəbiyyat tarixindən buna çoxlu misal gətirmək olar.

20-ci illərin axırlarını, 30-cu illərin əvvəllərini xatırlamaq kifayətdir. Bu illərdə ədəbiyyata yeni nəsil – Azərbaycan sovet ədəbiyyatının yaradıcıları hesab olunacaq gənclər gəlmişdilər: Şairlərdən Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Məmməd Rahim, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, nasirlərdən Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Əbülhəsən, Ənvər Məmmədxanlı və başqaları.

H e y d ə r Ə l i y e v: Rəsul Rzanı yaddan çıxartdın.

V a q i f Y u s i f l i: Üzr istəyirəm, Rəsul Rza.

A n a r: Onu mən tapşırmışam, deməsin.

H e y d ə r Ə l i y e v: Niyə? Sənin ixtiyarın yoxdur bunu etməyə.

V a q i f Y u s i f l i: Çox keçmədən, elə 30-cu illərin əvvəllərində onlar öz yaradıcılıqları ilə ədəbi mühitdə özlərinə yer tapdılar və bir nəsil kimi formalaşdılar. Müharibə illərində və sonrakı dövrdə ədəbiyyata ikinci bir nəsil gəldi – Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Arif, Qabil, İsmayıl Şıxlı, İsa Hüseynov, Sabir Əhmədli, Hüseyn Abbaszadə, Vidadi Babanlı, Adil Babayev. Çox keçmədən bu nəsil də öz istedadı sayəsində ədəbiyyatın aparıcı qüvvələrinə çevrilməyə başladı.

50-ci illərin ortaları, 60-cı illərin əvvəllərində Azərbaycan ədəbiyyatının müxtəlif nəsilləri içərisində yeni bir nəsil seçilməyə başladı – Əli Kərim, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza, Cabir Novruz, Fik-

rət Sadıq, Yusif Səmədoğlu, Anar, Fikrət Qoca, Əkrəm Əylisli, Tofiq Bayram, Fərman Kərimzadə, İsi Məlikzadə, Elçin, İsa İsmayılzadə, Ələkbər Salahzadə. Bu nəsil öz yaradıcılığı ilə ədəbiyyatımızı xeyli zənginləşdirdi.

Daha sonrakı onillikdə, 70-ci illərdə də ədəbiyyat beləcə – yeni səslər, nəfəslər, yeni hava ilə diqqəti cəlb etdi. Nəhayət, bu gün buraya toplaşan ədəbi gəncliyi yeni nəsil hesab etməyə tam mənəvi haqqımız var. Mən bu gün bir tənqidçi kimi bu ədəbi nəsil haqqında bədgüman deyiləm. Yəni çağdaş Azərbaycan ədəbiyyatının bu cavan qolu sənətin sabahına, XXI əsrin ədəbiyyatına müəyyən dərəcədə bir inam yaradır. Bu inamı onlar öz yaradıcılıqları ilə, dünyaya, gerçəkliyə, həyata yeni, orijinal baxışları ilə yaratmışlar.

Onların içərisində ola bilsin, ədəbiyyat aləmində, sənət aləmində müəyyən mənada hələ öz cığırını çox çətinliklə tapan, hələ eksperimentlərə uyan, axtarışlar aparan gənclər var. Ümumiyyətlə, ədəbi proses, ədəbiyyat çox çətin, əzablı, üzüntülü prosesdir. Ədəbiyyatda möhkəmlənmək o qədər də asan deyil. Mən gənclərin yaradıcılığını sırf ayrıca bir kontekstdə, yaxud ədəbiyyatın ümumi kontekstində izləyəndə belə bir qənaətə gəlirəm ki, ölkədə, məmləkətdə baş verən bütün bu çətinliklərə, məhrumiyyətlərə, ağrılara baxmayaraq, bizdə maraqlı bir ədəbi nəsil yetişir. Bu cavan nəsil özündən əvvəlki ədəbi ənənələrə arxalanaraq, onlardan güc alaraq, faydalanaraq üzü gələcəyə doğru gedir, bu ənənələri yaşada-yaşada tarixi bir missiyanı yerinə yetirir. Bir tərəfdən bizim xalq şeirimizə, aşıq şeirimizə söykənən cavanlar var, – onlardan istifadə edirlər, aşıq şeirini sanki yeni biçimdə, yeni formada dirçəldirlər. Bir tərəfdən klassik ədəbiyyatımıza üz tutulur. Bir tərəfdən uzun müddət bizdə yasaq edilmiş azərbaycanlılıq, türkçülük ideyaları haqlı şəkildə qabardılır. Bu şeirlər bizi öz kökümüzə, ilkinliyimizə qayıtmağa səsləyir. Eyni zamanda Qərb ədəbiyyatından, Qərb poeziyası ənənələrindən istifadə edilir. Halbuki əvvəllər bir çox şairlərimizi buna görə qınayırdılar.

Azərbaycan ədəbiyyatı sırf özünə qapılmış ədəbiyyat deyildir. Azərbaycan ədəbiyyatı həm milli kökləri ilə, həm də başqa xalqların ədəbiyyatından istifadə yolu ilə yaşayan, özünü yaşadan, milli varlığını sübut edən bir ədəbiyyatdır ki, bizim ədəbiyyatımızın cavan qolu bu ənənələri yaşada bilir. Əsasən 80-cı illərdə, 90-cı illərin əvvəllərində ədəbiyyata gələn bu gənclərin taleyi çox ağır, üzüntülü prosesdən keçdi. Onlar yazmaqdan, düşünməkdən daha çox, xalqın ağrı-acıları ilə yaşadılar, yurd itkisinə, torpaq ağrısına göynəyib, çörək dərdi çəkdilər. Onlar hətta şəhid verdi-

lər. Bizim iki şəhid şairimiz (bəlkə də üçdür, üçüncüsünü bilmirəm) – Nizami Aydın, Ülvi Bünyadzadə kimi şairlərimiz vardı. Mən deyərdim heç bir ədəbi nəsil bu qədər mürəkkəb, dramatik, faciəli tale yaşamamışdır, həyat heç bir ədəbi nəsli bu qədər sıxmamışdır, sınağa çəkməmişdir. Ona görə də onların şeirlərində, nəsr əsərlərində kədərin, hüzn və ələmin, ağrının olması təbiidir. Nə yaxşı ki, bu ağrı, bu hüzn, ələm, bu kədər heç də sırf nostalgiyadan irəli gəlmir. Bu eyni zamanda dərdin böyüklüyündən, 20 Yanvar faciəsindən, Xocalı soyqırımından, məmləkətimizin düşdüyü ağır vəziyyətdən irəli gəlir və onların şeirlərində yaşayır.

Ustad şairimiz Rəsul Rza vaxtilə yazmışdı:«Şer yazan cavanlar arasında ilhamla, istedadla ədəbiyyata gələnlər olduğu kimi, adicə həvəsə düşüb gələnlər də var». İnsanda mövcud olan bütün bacarıq və qüvvə, adətən, gənclik dövründə sürətlə üzə çıxır. Belə bir vaxtda ilk hekayəsini, şeirini, mahnısını bəstələmiş, ilk lövhəsini çəkmiş bir gənc sənətkara kömək etmək, qayğı göstərmək lazımdır. Mən bir də ustad şairimizin «qayğı sözü, qayğı özü» məşhur kəlamını yada salmaq istəyirəm. Gənclərin yaradıcılığından söz düşəndə bu ifadə aforizm kimi səslənir. Bəzən «qayğı» sözünü işlədiblər, lakin gənclərə qayğı göstərməyiblər. Eyni zamanda bu sözü real və praktiki şəkildə həyata keçirmək barədə düşünüblər, bəzən də düşünməyiblər.

Hörmətli prezident, bu gün bilavasitə ədəbi gəncliyin qayğıları və problemləri ilə bağlı mən ancaq bir məsələni Sizin nəzərinizə çatdırmaq istəyirəm. Ola bilsin, bizim gənclərimiz – cavan şairlər, yazıçılar onları düşündürən qayğılarla, problemlərlə əlaqədar öz sözlərini deyəcəklər. Qoqolun belə bir sözü var: «Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var». Gələcəyimiz, yəni ədəbiyyatımızın gələcəyi doğrudan da bu gənclikdən asılıdırsa, onda bu gəncliyin ümumi yaradıcılıq problemlərinin həllinə yönəldilmiş səylər bir yerdə birləşməlidir. Vaxtilə bizdə «Ulduz» jurnalı nəşr olunurdu. İndi maliyyə çətinlikləri üzündən həmin jurnalın ildə bir nömrəsi çıxır.

60-cı illərin axırlarını, 70-ci illərin əvvəllərini yadımıza salaq. Həmin dövrdə ədəbiyyata gələn və indi onun aparıcı qüvvəsinə çevrilən Anar, Əkrəm Əylisli, İsi Məlikzadə, başqa yazıçılarımız, şairlərimiz məhz həmin jurnalda formalaşdılar, böyük ədəbiyyat meydanına gəldilər. «Azərbaycan» jurnalı da müəyyən mənada bu missiyanı yerinə yetirirdi. Ancaq «Azərbaycan» jurnalında daha çox yaşlı sənətkarların yazıları çıxırdı. «Ulduz» jurnalı isə ancaq gəncliyi öz ətrafında birləşdirirdi. Bu funksiyanı o, 1993-cü ilə qədər yerinə yetirdi. İndi həmin jurnal çox

ağır vəziyyətdədir. Yəni tək «Ulduz» jurnalını demirəm. Gənclərin yaradıcılıq səylərini qiymətləndirmək üçün «Ulduz», belə bir jurnal mütləq lazımdır.

Mən Fikrət Qocanın 1995-ci ildə keçirilən yubileyini xatırlayıram, orada «Azərbaycan» jurnalından və «Ədəbiyyat qəzeti»ndən söz düşdü. «Azərbaycan» jurnalı 1992-ci ildən bəri fasilələrlə çıxırdı. 1995-ci ildə həmin jurnalın bir nömrəsi nəşr olundu. 1923-cü ildən bəri çıxan və Azərbaycan ədəbiyyatının güzgüsü adlandırılan həmin jurnal bu kökə düşmüşdü. Belə bir məqamda hörmətli prezidentimizin bir sözü ilə jurnal yenə öz axarına düşdü. «Ədəbiyyat qəzeti» də hər həftə çıxır. «Qobustan» jurnalı da daxil olmaqla bu üç ədəbi nəşrin çıxması ədəbiyyatın yaşaması deməkdir. Ədəbiyyat jurnallarda yaşayır, jurnal-qəzet ədəbiyyatın güzgüsüdür, saf aynasıdır. Məhz ədəbi gəncliyi də bu nəşrlər ətrafında birləşdirmək, səyləri bu istiqamətə yönəltmək daha məqsədəuyğundur.

Mən çıxışımı hörmətli Prezidentə yenə də öz minnətdarlığımı bildirməklə bitirirəm. Böyük Hüseyn Cavidin bir misrası yadıma düşür:«Türkün nicatı – yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət». Mədəniyyətimizi yaşatmaq istəyiriksə, onun bir qolu da bizim cavan şairlərdir, yazıçılardır, sənətçilərdir, bəstəçilərdir. Ümid edirəm ki, mədəniyyətimiz yaşayacaq, XXI əsrdə də öz ənənələrini davam etdirəcəkdir.

Heydər Əliyev: Çox yaxşı məruzə elədi. Hesab edirəm ki, bu, elə qurultayın məruzəsidir. Bu, sənin edəcəyin məruzənin əsasıdır.

Anar: Mən məruzə etməyəcəyəm, giriş sözü deyəcəyəm. Dörd məruzə olacaq, onlardan ikisini cavanlar edəcəkdir.

Heydər Əliyev: Yaxşı məruzə etdi, hesab edirəm, yaxşı məlumat verdi. Çox gözəl. Dünən söhbətimiz iki saatdan çox – iki saat yarım çəkdi.

Fatma Abdullazadə (*Prezidentin İcra Aparatının şöbə müdiri)*:İki saat 45 dəqiqə.

Heydər Əliyev: İki saat 45 dəqiqə. İndi bu gün də yəqin iki saat burada ola bilərik. Mən iki saat ayırmışam. Bəlkə də çox oldu. Amma elə edin ki, çox olmasın. Mənim başqa işlərim də var. Bunun özü qurultayın parçalarıdır. Kim söz demək istəyir, kimin sözü var?

Birincisi, dərhal «Ulduz» jurnalı haqqında demək istəyirəm. Dediniz ki, jurnal ildə bir dəfə çıxır. Niyə? Vəsait çatmır?

Anar: Bəli, vəsait çatmır.

Heydər Əliyev: Aydındır. İldə neçə dəfə çıxara bilərsiniz?

Vaqif Yusifli: On iki dəfə.

H e y d ə r Ə l i y e v: Jurnalın bu qədər nömrəsini buraxmaq üçün əsərləriniz var?

A n a r: Yox, on ikiyə çatmaz. Altı nömrə buraxmaq olar. Əgər vəsait olarsa.

H e y d ə r Ə l i y e v: Altı nömrə. Yaxşı, bunu mən nəzərə alaram.

E l ç i n: Bunlar aylıq jurnallardır.

H e y d ə r Ə l i y e v: Bilirəm, aylıq jurnallardır.

E l ç i n: «Ulduz» jurnalında, mən elə hesab edirəm ki, doğrudan da bir-birindən seçilən, müxtəlif istiqamətli, Vaqif Yusiflinin dediyi kimi, müxtəlif təmayüllərdə işləyən cavanlar var. Ələkbər Salahzadə «Ulduz» jurnalının baş redaktorudur. Əvvələn, çox istedadlı şairlərdən biridir, ikincisi də, bu işləri bilən bir adamdır. Mən belə hesab edirəm ki, əgər Siz «Azərbaycan» jurnalına, «Qobustan»a, «Ədəbiyyat qəzeti»nə elədiyinizi «Ulduz» jurnalına da etsəniz, onda bu jurnalın ayda bir dəfə çıxmaq imkanı olar. Yəni 70-ci illərdə, Sizin o vaxtınızda yaranmış ənənə davam edə bilər.

H e y d ə r Ə l i y e v: Axı dedilər ki, «Azərbaycan» jurnalı çıxır, lakin tirajı azdır. Elədirmi?

E l ç i n: Bəli, tirajı azdır.

H e y d ə r Ə l i y e v: Niyə azdır? Kağız çatmırmı, yoxsa jurnal satılmır? Səbəbi nədir?

A n a r: Əvvələn, vəsait çatmır, ikincisi də maraq azalıb. Hətta jurnalın çıxan nömrələri bəzən satılmır. «Ulduz» və «Azərbaycan» jurnallarının ildə 12 nömrəsi buraxılsa daha yaxşı olardı. Amma mən reallığı bilirəm və deməliyəm ki, «Azərbaycan» jurnalı bədii meyarları nəzərə almaq şərtilə yalnız ildə altı nömrə buraxıla bilər. Əgər indiki ədəbi qüvvələrlə 12 nömrənin buraxılmasını təmin edə bilərlərsə, necə deyərlər, «kor nə istər, – iki göz, biri əyri, biri düz». Mən reallıqdan çıxış edərək bunu deyirəm.

H e y d ə r Ə l i y e v: Mən belə bir fikrə gəlirəm ki, bəlkə də biz bu jurnalları, bu əsərləri televiziya vasitəsilə yaxşı təbliğ etmirik. Bir var ki, ayrı-ayrı əsərlər barədə ədəbi verilişlər hazırlansın, bir də var ki, jurnalın hər bir nömrəsi təbliğ olunsun, orada dərc edilən əsərlərin məzmunu haqqında məlumat verilsin. Yəni insanlarda marağı artırmaq üçün. Televiziyada deyilsə ki, «Ulduz» jurnalı çıxıbdır, orada bu hekayə, şeir dərc olunubdur, – onda oxucuların da marağı artacaqdır. Həyat keçən dövrə nisbətən çətindir. İnsanları da qınamaq olmaz, bəziləri necə yaşamaq haqqında fikirləşir. Ancaq mən hesab edirəm ki,

biz bu təbliğatı da gücləndirsək yaxşı olar. Yaxşı, bu problemi mən həll edərəm.

Fatma Abdullazadə: Cənab Prezident, başlıca şərtlərdən biri ondan ibarətdir ki, bu jurnalların poliqrafik səviyyəsi yüksəldilməlidir. Açıq deyək ki, müasir oxucu yüksək poliqrafik səviyyədə çap olunmuş jurnalları izləyir.

Heydər Əliyev: Bəli.

Fatma Abdullazadə: Vaxtilə qəzet kağızında çap olunan maraqlı bir romanı birnəfəsə oxuyurdular. Amma bu gün hansısa bir firmanın buraxdığı «Biznes daycest» poliqrafiya baxımından müqayisəolunmaz dərəcədə yüksək səviyyədə çıxır. Bu jurnallarla bağlı olaraq, poliqrafiyada dönüş yaranmalıdır.

Heydər Əliyev: Daha kimin nə sözü var?

Təranə Hacılı (*«Qar çiçəyi» ədəbi birliyinin üzvü*): Möhtərəm Prezident, Siz qeyd etdiniz ki, ən populyar kütləvi informasiya vasitəsi kimi, televiziyanın bu sahədə mühüm rolu ola bilər. Mən bir təklif vermək istərdim. Ümumiyyətlə, indi televiziyada gənclik dedikdə daha çox rəssamlar, idmançılar, müğənnilər təbliğ olunurlar. Çox təsadüfi hallarda ədəbi gəncliyə yer verilir. Təklif edirəm ki, əgər mümkünsə televiziya verilişlərindən biri ədəbi gənclik üçün ayrılardı və bu televiziya verilişini ənənəvi qaydada diktorlar, yaxud telejurnalistlər deyil, ədəbi gəncliyin özü təqdim edəydi.

Heydər Əliyev: Yaxşı təklifdir, çox gözəl təklifdir. Hesab edirəm ki, bunu etmək olar. Bunu da mən qəbul edirəm, yəni mən bizim dövlət televiziyasına sərəncam verərəm. Mən 60-cı, 70-ci illəri xatırlayıram. O vaxt televiziyada bütün nəsillərdən olan, o cümlədən gənc nəsildən olan yazıçılarımız, şairlərimiz tez-tez çıxış edirdilər. Elə sizin özünüz televiziyada tez-tez çıxış edirdiniz, öz əsərləriniz haqqında, ümumiyyətlə, ədəbiyyat problemləri haqqında danışırdınız. Ədalət naminə demək lazımdır ki, son vaxtlar bizim televiziyanın işləri yaxşılaşıbdır. Mənim fikrim belədir. Gənclər haqqında cürbəcür çoxlu verilişlər verirlər. Hətta orada evlənmək problemi haqqında da maraqlı bir veriliş göstərildi. Televiziya belə məqamlara toxunursa, bu, çox gözəldir. Həyatda elə sahələr var ki, keçmişdə biz adətən bu barədə danışmırdıq. Guya ki, bundan danışmaq ayıbdır və ya insanlar utanırlar. Guya ki, heç kim evlənmir. Amma hər bir gənc sevir, hər bir gənc tanış olur – qız oğlanla, oğlan qızla, hər bir gənc evlənir. Belə olmasa həyat olmaz ki! Yaxşı. Bu, çox lazımlı mövzudur. İndi mən televi-

ziyaya daim baxa bilmirəm. Təsadüfən bir-iki dəfə televiziyada gəncliklə bağlı belə verilişlərə baxarkən çox sevindim. Özü də adi adamları televiziyaya gətirirlər, onlar həyatları haqqında danışırlar. Bunlar çox gözəldir.

Yəni bu mənada deyirəm ki, bəlkə də mənim tam təəssüratım yoxdur, çünki hamısını əhatə edə bilmirəm. Amma gördüklərimdən belə nəticəyə gəlirəm ki, gəncliklə əlaqədar çox yaxşı verilişlər verilir. Bu, təkcə gəncliyə aid deyil. Hesab edirəm ki, bizim ədəbiyyatımızla, bədii əsərlərimizlə əlaqədar verilişlər verilməlidir. Özü də onlar daimi, silsilə verilişlər olmalıdır. Yaxşı olardı ki, burada deyildiyi kimi, şairlər, yazıçılar danışsınlar, özləri öz şeirlərini oxusunlar, hekayələri haqqında məlumat versinlər, tənqidçilər, ədəbiyyatşünaslar bu verilişlərdə iştirak etsinlər. Bunu etmək lazımdır. Düzgün təklifdir.

ŞAİR RÜSTƏM BEHRUDİNİN ÇIXIŞI

Prezidentimiz dedi ki, məni tanıyır. Biz Naxçıvanda görüşmüşük.

H e y d ə r Ə l i y e v: Behrudi, ordubadlısan da?

R ü s t ə m B e h r u d i: Bəli, ordubadlıyam.

H e y d ə r Ə l i y e v: Özü də soruşdum ki, bu Behrudi nədir? Dedin ki, kəndimizin adıdır. Yadındadırmı?

R ü s t ə m B e h r u d i: Bəli, yadımdadır. Sizə o vaxt kitablarımı da bağışlamışdım.

H e y d ə r Ə l i y e v: Bağışlamışdın.

R ü s t ə m B e h r u d i: Siz o vaxt Türkiyədən gəlmiş valiyə dediniz, o məni Ankaraya apardı. İndi mən başqa məsələdən danışmaq istəyirəm. On il bundan əvvəl, bilmirəm, Anar müəllimin, yoxsa Əkrəm müəllimin Hollandiya ilə bağlı bir yazısını oxumuşdum.

A n a r: Mən Hollandiyada olmamışam.

R ü s t ə m B e h r u d i: Ola bilsin ki, Əkrəm müəllimin yazısı idi. Sizin nəsildən olan bir yazıçının sözləri idi ki, Hollandiyada bir hekayəsi çap olunan müəllif ölənə qədər dövlətin nəzarətinə götürülür və ona kömək edilir. Ola bilsin ki, orada istedadlı adam azdır, amma Azərbaycanda çoxdur. Anar müəllim, bir il bundan əvvəl Tofiq Qaraqayaya və Əlisəmid Kürə Yazıçılar Birliyi ev verib. Onlar məndən xahiş etdilər möhtərəm prezidentə deyim ki, onların mənzil məsələsi həll olunsun. Bütün ömürləri boyu kirayədə yaşayan bu adamların mənzillərini qaçqınlar tu-

tublar. Mən özüm də qaçqın kimiyəm, heç vaxt evim-eşiyim olmayıbdır. Özümə ev istəmirəm, heç kimə ehtiyacım yoxdur.

H e y d ə r Ə l i y e v: Evin-eşiyin olmayıb, amma qaçqın deyilsən?

R ü s t ə m B e h r u d i: Ordubadda evim var, istəsəm gedib orada yaşayaram. Ancaq bu adamlar məndən xahiş etdilər ki, mən bu sözü burada işlədim. Möhtərəm prezidentə deyim ki, bunu həll etsin. Bu onlar üçün çox böyük problemdir.

A n a r: Sən yaxşı mənim yadıma saldın. Mən ev məsələsini ona görə qaldırmadım ki, dünən prezidentlə bu barədə söhbət olub. Bu iki nəfər ki, var – Əlisəmid Kür və Tofiq Qaraqaya, bunlara mənzil veriblər, qaçqınlar isə gəlib tutublar. Problem bundar ibarətdir.

R ü s t ə m B e h r u d i: Mənim xoşum gəldi ki, burada məddah şair, yazıçı görmədim. Mən bir dəfə qəzetdə yazmışdım ki, Azərbaycanın bütün məddah şairləri və yazıçılarının hamısının adından bu millətdən üzr istəyirəm. Bir də görürsən ki, küçədən keçənin biri götürüb Heydər Əliyevə şeir yazır.

Mən ürəyimdən keçən sözləri demək istəyirəm. Prezidentimizin ona ehtiyacı varmı? Dünya-aləm bilir ki, Heydər Əliyev kimdir. Onu da bəyənirəm ki, prezidentin haqqında məddahlığa yol verməmək barədə rəsmi göstəriş var. Bütün nəsillər bilir ki, Heydər Əliyev kimdir. Çox sevinirəm ki, o məddahları burada görmədim.

Yazıçılar İttifaqının rolundan danışmaq istəyirəm. Mən dünyanın bir neçə ölkəsində – Almaniyada, Belçikada olmuşam, bu ölkələrdə kitablarım çıxıb. Orada Yazıçılar İttifaqı kimi dövlət səviyyəli heç bir qurum görmədim. Türkiyədə Yazıçılar Birliyi var, amma dövlətin deyil. Beş-on yazıçı bir yerə toplaşaraq belə bir cəmiyyət yaradır. Bəlkə bizdə də lazımdır, – mən belə fikirləşirəm. Bəlkə heç lazım deyil. Anar müəllimin vaxtında mən Yazıçılar İttifaqının üzvü olmuşam. Bu təşkilatdan heç nə görməmişəm…

Anar müəllim, mən bilmək istəyirəm, – bu Yazıçılar İttifaqı lazımdır, ya yox? Mən bunu Yazıçılar İttifaqının üzvlərindən soruşmaq istəyirəm.

Müharibə dövründə mən cəbhəyə çox gedib-gəlirdim. Avtomatım da vardı. Sədərəyə getmişdim. Anar müəllim də orada idi. Cəbhədə bir nəfər şair və yazıçını döyüşçü kimi görmədim. Mən Tərtərdən vurub Qazaxdan çıxırdım. Əslində hamımız getməliydik. Mən üzr istəyirəm, əsgəri girdiyi torpaqdan yalnız əsgər çıxara bilər.

Bu gün Heydər Əliyev müharibəni saxlayıb, barışığa getmək istəyir. Amma barışıq yolu uzun bir yoldur.

Vətənimizin indiki ağır dövründə hər birimiz döyüşçü olmalıyıq. Hər bir şair döyüşçüdür, qabaqda getməlidir. Məsələn, rəhmətlik Rəsul Rza, Səməd Vurğun o vaxt cəbhəyə gedirdi. Bizim birimiz də cəbhədə ölmədik.

Öz yaradıcılığım barədə onu bildirmək istəyirəm ki, çoxlu kitablar yazmışam, bunlar alman, fransız dillərində də nəşr olunubdur.

Möhtərəm Prezident, qardaşımın öldürülməsi məsələsinin araşdırılmasında kömək göstərməyinizi xahiş edirəm.

Qələm dostlarımın məişət məsələlərinə toxunaraq demək istəyirəm ki, burada oturan cavanların çoxunun evi-eşiyi yoxdur. Anar müəllim, siz bunu bilirsiniz. Burada əyləşənlər Azərbaycanın milli sərvətidir. O adamlar hamısı küçədədir.

Mən bunlarla bir yerdə oturub-duran, onların halına yanan adamam. Bu adamlara kömək etmək lazımdır. Azərbaycanın gələcəyi bir sərhəddə keşik çəkən döyüşçüdən, bir də bu adamlardan asılıdır.*

* Görüşdə şairə Mahirə Abdullayeva, şair Əjdər Ol, yazıçı-jurnalist Səyyad Aran, filologiya elmləri doktoru, prof.Nizami Cəfərov, tənqidçi Şəlalə Həsənova, yazıçı, filologiya elmləri doktoru, prof. Rəfael Hüseynov, şair Musa Urud, şair İlqar İlkin, Dəyanət Osmanlı, Salam Sarvan da çıxış etmişlər.

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYINDA NİTQ

Prezident sarayı
30 oktyabr 1997-ci il

Hörmətli qurultay iştirakçıları!
Əziz yazıçılar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi qəlbdən salamlayıram və yazıçılar qurultayının işinin müvəffəqiyyətlə getməsi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Yazıçılar qurultayının işə başlaması və bu salona çoxsaylı nümayəndələrin toplaşması, Azərbaycan ədəbiyyatının problemlərinin, eyni zamanda respublikamızın həyatının bəzi sahələrinin müzakirə olunması ictimaiyyətimizin, cəmiyyətimizin həyatında əlamətdar bir hadisədir.

Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan gəlib bizə çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil. Çünki bizim xalqımız birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çox əsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillər də bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən. Bu, xalqımızda bu gün, dünən deyil, əsrlərdən əsrlərə keçib gələn bir ənə-

nədir, şeirə, şairə, söz ustasına, zəkalı insana həmişə hörmət, böyük ehtiram olubdur.

Məmnuniyyət hissi ilə demək olar ki, XX əsrdə – çox mürəkkəb, ziddiyyətli proseslərlə, böyük dəyişikliklərlə, müharibələrlə, faciələrlə dolu olan əsrdə də bizim xalqımızın bu gözəl ənənəsi nəinki yaşayıbdır, hətta cəsarətlə demək olar ki, daha da yüksəklərə qalxıbdır. Buna görə də bizim Azərbaycanda ədəbiyyata, şairə, yazıçıya böyük hörmət var. Böyük şairimiz Səməd Vurğun bu barədə bir şeir də yazıbdır. Bəli, bu dəyərli sözləri Səməd Vurğun əsaslı deyibdir. Həqiqətən belədir. O, bunu birinci növbədə öz yaradıcılığına olan münasibətdə görübdür. O, eyni zamanda bunu tarix boyu yaşayıb-yaratmış və bizə böyük irslər qoymuş şairlərimizə, yazıçılarımıza xalqımızda olan hörmət və ehtiramda görübdür.

Məhz buna görə də Azərbaycan yazıçılarının növbəti qurultayı bu gün çox mütəşəkkil və yüksək məzmunlu səviyyədə keçir. Hesab edirəm ki, bu da öz nəticələrini verəcəkdir.

Burada çıxışların çoxunda keçmiş qurultaylar və o qurultaylarda deyilən sözlər, baş vermiş hadisələr xatırlandı. Mən də onları xatırlayıram.

Mən çox sevinirəm və xoşbəxtəm ki, ilk dəfə Azərbaycanın yazıçılarının qurultayında 27 il bundan əvvəl nitq söyləmişəm, o qurultayın iştirakçısı olmuşam və ondan sonrakı qurultaylarda da daim iştirak etmişəm, yazıçılarmızla, şairlərimizlə, mədəniyyət xadimləri ilə bir yerdə olmuşam, bu gün də sizinlə bir yerdəyəm. Bunun da səbəbi var. Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə – o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu «oxumuşam, unutmamışam» sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam.

Mən 1971-ci ildə Azərbaycan yazıçılarının qurultayında ilk dəfə Azərbaycanın rəhbəri kimi iştirak edirdimsə, ondan əvvəlki qurultaylarda da kənarda olmamışdım. O zaman mən Azərbaycanın rəhbəri deyildim, başqa vəzifələr tuturdum, ancaq yazıçıların qurultayını daim iz-

ləyirdim və imkan olanda gəlib salonda oturub yazıçıları dinləyirdim. Mən hər dəfə yazıçılarımızın görüşlərinə gedirdim və onlarla görüşməyi özüm üçün böyük bir hadisə hesab edirdim.

Bu, həmin məsələyə mənim şəxsi münasibətimdir. Ancaq eyni zamanda 1969-cü ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır. Mən məhz bunlara görə yazıçıların bütün qurultayları ilə bağlı olmuşam, onlarda iştirak etmişəm. Çox məmnunam ki, siz onları unutmamısınız, xatırlayırsınız.

Ancaq bir halda ki, mən söhbəti bu tərəfdən başladım, onu qeyd etmək istəyirəm ki, qurultay işə başlayandan mən burada oturmuşdum, sizə diqqətlə qulaq asırdım, fikirləşirdim, çox şeyləri xatırlayırdım. Yazıçılar Birliyi ilə bu əlaqələrimi şəxsən mən özüm üç mərhələyə bölürəm. Birinci mərhələ həmin illərdir ki, – xatirimdədir, bir dəfə biz o vaxtkı Siyasi Maarif evində qurultay keçirdik, sonra başqa yerdə keçirdik. Xatırladılar, 1981-ci ildə burada, bu salonda keçirdik, – o mərhələ idi ki, mən Azərbaycana rəhbərlik edirdim və qurultayın işində Azərbaycanın rəhbəri kimi iştirak edirdim.

İkinci mərhələ 1991-ci ildə sizin qurultayın işində mənim qısa müddətdə iştirak etməyimdir. Yadınızdadır ki, o zaman mən vəzifədə deyildim, amma siz məni qurultayınıza yenə dəvət etdiniz. Üçüncü mərhələ isə indiki mərhələdir, Azərbaycanın dövlət müstəqilliyi, azadlığı şəraitində keçirdiyimiz ilk qurultaydır və mənim burada iştirak etməyimdir.

Mənim həyatımda çox çətin dövrlər, anlar olubdur. Ancaq bununla yanaşı, tale çox vaxtlarda mənə kömək edibdir və mənim arzularımı yerinə yetiribdir. Ona görə də görürsünüzmü, mən bu üç mərhələdə bu qurultaylarda iştirak edirəm.

Hər dövrün özünəməxsus əhəmiyyəti, mənası vardır. Mən özümün özüm üçün müəyyən etdiyim bu dövrlərin, – ola bilər, kimsə bununla razı olmasın, ancaq bu mənim şəxsi fikrimdir, – hər birinin həm yazıçılarımız üçün, həm də Azərbaycanın həyatı üçün, o, cümlədən şəxsən mənim bu işə münasibətim üçün çox əhəmiyyətli, çox məhsuldar olduğunu görürəm.

Əgər 70-ci illəri, 80-cı illərin əvvəlini götürsək, o vaxt biz Sovetlər İttifaqı deyilən bir ölkədə yaşayırdıq. Sovetlər İttifaqının tərkibindəki 15 müttəfiq respublikadan biri də Azərbaycan idi. Biz kommunist rejimi, so-

sialist quruluşu şəraitində yaşayırdıq. Bizim hamımız o dövrün yetişdirməsiyik, bəhrəsiyik. Bəlkə də bu salonda oktyabr inqilabından əvvəl dünyaya gəlmiş adamlardan təkcə Mirvarid xanımı görmək olar. O birilərin hamısı ondan sonra dünyaya gəliblər. Ancaq Mirvarid xanım oktyabr inqilabından əvvəl dünyaya gəlibsə də, onun da fəaliyyəti məhz oktyabr iqilabından sonra yaranmış quruluş çərçivəsində keçibdir. Biz o quruluşda, o həyatda, o dövlətdə, o şəraitdə yaşamışıq, təhsil almışıq, böyümüşük və respublikamızı, xalqımızı yaşatmışıq. Ona görə də o dövrlərdə əldə olunan nailiyyətləri inkar etmək olmaz, – bu, cinayət olardı. Onu unutmaq da olmaz.

Mən hesab edirəm ki, çox işlər görülübdür. Əgər o dövr olmasaydı, bu gün burada, bu salonda Yazıçılar Birliyinin 500-dən artıq üzvü, yaxud da nümayəndəsi iştirak etməzdi.

İngiltərədən, Edinburq Universitetindən gələn qonağımız, professor burada çıxış edərkən dedi ki, neçə ölkədə olubdur. O, inkişaf etmiş hansı ölkədə bu qədər yazıçı, bu qədər qurultay nümayəndəsi görübdür? Bu elə boş yerdən əmələ gəlməyibdir. Bəli, bunu o dövr, dövrün imkanları yaradıbdır. İnsanlar, bizim Azərbaycan yazıçıları, şairləri də öz istedadlarına, aldıqları təhsilə və bu sənətə sadiqliklərinə görə bu yolu seçiblər, yazıçılıqla məşğuldurlar və böyük işlər görüblər.

Bayaq dediyim ikinci dövr mənim üçün maraqlı olmuşdur. Çünki, bu 1991-ci ilin əvvəli idi. Unutmamışamsa, martın 21-i idi. Bu elə bir vaxt idi ki, Azərbaycan çox ağır bir dövr yaşayırdı. Ermənistanın Azərbaycana təcavüzü və ölkəmizin torpaqlarının – Dağlıq Qarabağın işğalının başlanması dövrü idi. Qanlı 20 Yanvar faciəsinin – sovet hakimiyyəti tərəfindən Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzün ağrılarını yaşadığımız bir dövr idi. Bu dövr eyni zamanda Sovetlər İttifaqının dağılması prosesinin getdiyi bir dövr idi. Azərbaycanda vəziyyət həddindən artıq gərgin, çətin idi.

Çox sevindirici haldır ki, məhz o vaxt, o çətin zamanda, dövrdə siz yazıçılar öz sənətinizə sadiq qalaraq o qurultaya toplaşmışdınız. İş elə gətirdi ki, mən sizin qurultayda oldum. Çünki bilirsiniz ki, o vaxt mən Naxçıvanda yaşayırdım. Oradan Azərbaycan Ali Sovetinə deputat seçilmişdim və Ali Sovetin sessiyasında iştirak etmək üçün fevralın əvvəlində Bakıya gəlmişdim.

Mən fevralın əvvəlində bir sessiyada iştirak etdim, sonra martın əvvəlində keçirilən sessiyada iştirak etdim. Ondan sonra bir müddət burada qaldım. Martın sonunda yenə də Naxçıvana döndüm.

O vaxt Elmira xanım Axundova gəlib mənə bildirdi ki, yazıçılar qurultayı keçəcək, Sizi oraya dəvət edirlər. Elmira xanım Axundova çox dəyərli bir insandır. Xatirimdədir, 1970-ci illərdə Yazıçılar İttifaqında çox əhəmiyyətli işlər görürdü. Sonra isə öz jurnalistlik fəaliyyətini də buna əlavə etmişdi. Mən Naxçıvanda ağır bir dövrdə yaşadığım zaman onunla görüşmüşdüm. O, oraya «Literaturnaya qazeta» üçün məndən müsahibə almağa gəlmişdi. Doğrudur, mən ona dedim ki, nahaq gəlmisən, çünki mən verdiyim müsahibəni «Literaturnaya qazeta» dərc etməyəcək.

O, çox təkid etdi ki, «Literaturnaya qazeta» bu müsahibəni dərc edəcəkdir. Amma mənə olan münasibəti bildirdim. Mən müsahibəni verdim, ancaq qəzet onu dərc etmədi. Demək, mənim sözüm doğru çıxdı. Elmira xanım çox cəhd göstərdi, vəziyyət dəyişəndən sonra bu müsahibəni dərc etdirdi. O, Bakıda da mənimlə əlaqə saxlayırdı. Bu məni sevindirirdi ki, belə insanlar var, o ağır dövrümdə mənimlə əlaqə saxlamağa qorxmurdular, çəkinmirdilər.

Elmira xanım mənə bildirdi ki, Yazıçılar Birliyinin qurultayı var, məni oraya dəvət ediblər. Mən dedim ki, Elmira xanım, çox sağ olun, ancaq güman edirəm, mənim oraya gəlməyim lüzumsuzdur. Çünki indi mən burada kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim. Eyni zamanda o, elə bir dövr idi ki, o vaxt həm Sovetlər İttifaqının rəhbərliyində, həm də Azərbaycanın rəhbərliyində mənə qarşı çox ədalətsizliklər edirdilər. Mənim əleyhimə böhtanlar quraşdırırdılar və yayırdılar. Mən çox böyük təzyiq və təqib altında idim. Elmira xanım məni çox inandırdı ki, yox, sizi qurultaya dəvət ediblər. Fikirləşdim ki, bəlkə xatir naminə dəvət ediblər, bilirlər ki, getməyəcəyəm. Sonra da məlum olacaq ki, dəvət etdilər, mən gəlmədim. Ondan xahiş etdim, dedim ki, sən bir daha dəqiqləşdir. Sonra o mənə zəng edib dedi ki, mən Anar müəllimlə bu barədə danışdım. Anar müəllim dedi ki, biz onu ürəkdən dəvət etmişik, bu, formal bir xarakter daşımır, ona görə də əgər gəlsə, biz məmnun olarıq. Mən bundan sonra ürəkləndim, dedim ki, əgər belədirsə, pis olmaz, gedim görüm yazıçılar necədirlər. Gəldim. Bunu burada xatırlatdılar, – siz məni hörmətlə rəyasət heyətinə dəvət etdiniz. Bu təklifi gərək ki, şair Məmməd Aslan vermişdi. Ancaq mən təşəkkür edib dedim ki, indi də aşağıda oturub yuxarıya baxmaq istəyirəm. O vaxt mən salonda oturarkən çox düşünürdüm. Gərək ki, mənim sağımda Xəlil Rza, solumda isə Rəfiq Zəka oturmuşdular. Ətrafımda da yazıçılar var idi, çox mehriban söhbət edirdik.

Mən bu faktı niyə bir də xatırlayıram? Çünki müqayisə etmək istəyirəm. Mən o dövrdə, fevral-mart aylarında Ali Sovetin sessiyasında

olmuşdum. Xatirinizdədir, Ali Sovetin sessiyasında o salonda oturanların 99 faizi mənimlə bir yerdə və mənim rəhbərliyim altında işləmiş adamlar idilər. Ancaq orada mənə çox hörmətsizlik etdilər, pis münasibət göstərdilər. Hətta mənim çıxışımı da kəsdilər və mənim çıxışımdan sonra cürbəcür böhtançı çıxışlar da etdilər. O cümlədən, o vaxt bir yazıçı da deputat idi, o da bunu etdi. Yəni o vaxt mənim orada müdafiəyə ehtiyacım yox idi. Bilirdim ki, mənə qarşı belə edəcəklər. Ancaq o vaxt cəsarət edib çox kəskin çıxış edən Bəxtiyar Vahabzadə oldu.

Yəni mən yenə də özümün ədəbiyyatla bağlılığımı və ədəbiyyatla məşğul olan şəxslərin başqalarına nisbətən daha sədaqətli olduğunu qeyd etmək istəyirəm. Şübhəsiz ki, mən Bəxtiyar Vahabzadəyə bir hörmətli şair kimi həmişə hörmət etmişdim və işlədiyim zaman bizim işgüzar əlaqələrimiz olmuşdu. Ancaq o salonda oturanların əksəriyyəti ilə mən gecə-gündüz bir yerdə işləmişdim. Onlar böyük vəzifələr almışdılar. Bəxtiyar Vahabzadə şair idi, şair olaraq da qalıbdır, indi də şairdir. Onun şairlikdən savayı bir vəzifəsi yoxdur. Ancaq baxın, – o, həmin insanların münasibəti, bu da şairin münasibəti.

Nəhayət, Ali Sovetdə, o sessiyada, o salonda, – hansı ki, həmin binanı vaxtilə mən tikib yaratmışdım, o salonda ki, orada məni həmişə böyük hörmət, ehtiramla qarşılayırdılar, – ancaq orada mənə qarşı o qədər hörmətsizlik və ədalətsizlik olduğu halda, Filarmoniyanın salonunda, yazıçıların qurultayında mənə çox mehribanlıq, çox istiqanlılıq, çox yüksək hörmət göstərildi. O vaxt mənim imkanım olmadı ki, belə geniş təşəkkür edim. Altı il keçəndən sonra məhz o hadisəyə görə mən sizin hamınıza təşəkkür edirəm. Çox sağ olun.

İndi isə bizim bu qurultayımız tamam başqa bir şəraitdə keçir. Keçmiş zamanlarda nə qədər böyük nailiyyətlər əldə etmişiksə də, mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən – hamısından üstündür. Çünki müstəqil Azərbaycan Respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar. Bu, çox sevindirici haldır.

Bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir. Ona görə də bu qurultay başqa qurultayların davamı olmaqla yanaşı, onuncu qurultaydır və əvvəlki doqquz qurultayın hamısından üstündür.

Biz eyni zamanda 63 il müddətində – 1934-cü ildən indiyədək yazıçılar qurultaylarının keçdiyi yolu da yüksək qiymətləndirməliyik. Biz bunu heç vaxt unutmamalıyıq. Bu gün natiqlərdən biri, gərək ki, Qabil müəllim dedi, – o söylədi ki, Bəxtiyar müəllim rəyasət heyətində dedi ki, vaxtilə burada Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mehdi Hüseyn və başqaları əyləşirdilər, indi biz əyləşmişik. Bəli, onların hər biri çox böyük yazıçı, şair, şəxsiyyət olub. Onlar XX əsr Azərbaycan ədəbiyyatının yaranmasında böyük xidmətlər göstəriblər.

Bilirsiniz, bu gün ümumiyyətlə müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Hər bir müstəqil dövlət müstəqil olmaq üçün bir neçə amillərə malik olmalıdır – onun müstəqil yaşaması üçün ərazisi, iqtisadiyyatı, təbii sərvətləri olmalıdır, müstəqil dövləti qoruyan ordusu olmalıdır, daxili vəziyyəti qoruyan qüvvələri olmalıdır, silahı, pulu, valyutası olmalıdır. Bunlar hamısı olmalıdır. Bunlar olmasa müstəqil dövlət ola bilməz.

Sovetlər İttifaqı dağılarkən Azərbaycanda da çoxları şübhə edirdilər ki, Azərbaycan müstəqil yaşaya bilər, yoxsa yaşaya bilməz. O vaxt Sovetlər İttifaqını qoruyub saxlamaq istəyənlər sübut etməyə çalışırdılar ki, heç bir respublika müstəqil yaşaya bilməz. Çünki bu respublikalar bir-birilə çox sıx bağlıdırlar. Əgər bunlar ayrılsalar, bu iqtisadi əlaqələr pozulsa, bu respublikalar müstəqil yaşaya bilməyəcəklər. Bu fikirlərin müəyyən əsası var idi. Mən bunu bəlkə də başqalarından yaxşı bilirəm. O vaxt sovet hakimiyyətinin siyasətinin əsas cəhətlərindən biri də bu idi – Sovetlər İttifaqının ərazisində olan bütün respublikaların iqtisadiyyatı bir-biri ilə o qədər bağlı idi ki, hansısa bir respublika ayrılmaq istəsə, bu, onun üçün mümkün olmasın, yaxud da böyük çətinliklər yaratsın. Burada həqiqət var idi. Ancaq bu həqiqət o dərəcədə deyildi ki, doğrudan da ayrılmaq mümkün olmasın.

Respublikaların bir-birindən fərqi var idi. Əgər iqtisadi nöqteyi-nəzərdən götürsək, o vaxtlar – Sovetlər İttifaqı dağılarkən təhlil aparılmışdı və bu təhlil göstərmişdi ki, on beş respublikadan iki respublika tam müstəqil yaşaya bilər. Onlardan biri Rusiyadır, ikincisi Azərbaycandır. Bunlar, bu qiymətlər iqtisadi nöqteyi-nəzərdən verilir. Şübhəsiz ki, indi Azərbaycanın iqtisadi potensialı, ərazisi, təbii sərvətləri, başqa imkanları olmasaydı, müstəqil yaşaya bilməzdi.

Düzdür, bizim müstəqilliyimizin qarşısında çox çətinliklər oldu, ancaq müstəqil yaşadıq və yaşayırıq. Ona görə də bizim iqtisadi potensia-

lımız bizim sərvətimizdir. Bizim yeraltı sərvətlərimiz milli sərvətlərimizdir. Ölkəmizin təbiətinin bizə verdiyi faydalar milli sərvətimizdir. Ancaq bunlarla yanaşı, Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da – intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır. Onlar bəşər mədəniyyətini əsrlərdən əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar.

Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov – bunlar hamısı XX əsrə qədər yaşayıb-yaradıblar. Amma XX əsrdə də bizim böyük şəxsiyyələrimiz olubdur. XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatının çox böyük, zəngin bir dövrü olubdur. Bu gün ədəbiyyatımız haqqında danışarkən biz bu dövrü çox yüksək qiymətləndirməliyik.

Bilirsiniz, bizim mədəniyyətimiz, ədəbiyyatımız özünəməxsus xarakter daşıyır. Öz kökümüzə görə biz Şərq, İslam ölkəsiyik. Çoxları hesab edirlər ki, biz Asiya qitəsində yerləşən bir ölkəyik. Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX–XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olublar. Bunların nəticəsində keçən əsrin ortalarında Azərbaycanda teatr yaranıbdır. Azərbaycanda teatr yarananda heç bir Şərq ölkəsində teart olmayıbdır. Yaxud, bu əsrin əvvəllərində Azərbaycanın ilk milli operası yaranıbdır. Şərq aləmində ilk opera əsərini dahi Üzeyir Hacıbəyov yaradıbdır.

Biz indi latın əlifbasına keçirik. Görürsünüz ki, keçmək də çətindir. Bu barədə qərar qəbul edilərkən nə qədər müzakirələr gedirdi. Kimi deyirdi keçək, kimi deyirdi keçməyək. Hətta bəziləri deyirdi ki, gəlin ərəb əlifbasına qayıdaq. Xatirinizdədir, 1990–91-ci illərdə belə söhbətlər gedirdi. Qərar qəbul olunub, ancaq biz latın əlifbasına keçə bilmirik. Mən

göstəriş vermişəm və bütün dövlət sənədləri latın əlifbası ilə yazılır. Ancaq onları başqa yerlərə göndərəndə çoxları oxumaqda çətinlik çəkirlər. Nə üçün belə olubdur?

Bu təbiidir, çünki bir əlifbadan başqasına keçmək asan deyil. Mənim xatirimdədir, 1939-cu ildə latın əlifbasından kiril əlifbasına keçəndə nə qədər böyük çətinliklər yarandı, – bilmirəm, burada oturanların bəlkə də bir çoxu onu xatırlamır, amma mənim xatirimdədir, bəli, mən orta məktəbi Azərbaycan dilində latın əlifbası ilə bitirmişəm, – indi də bu, həm təbii, həm də çətin prosesdir. Amma biz bu yolu keçəcəyik. Ancaq baxın, keçən əsrin, XIX əsrin ortalarında Mirzə Fətəli Axundov Azərbaycanda latın əlifbasını tətbiq etməyə çalışıbdır. Onun bu barədə fəaliyyəti məlumbur. Mən onun bir neçə məktubuna baxdım, arxivdəki məktublarının bəziləri ilə tanış oldum. Bunu keçmişdə də bilirdim, amma bu son zamanlar mən onu xatırladım, hafizəmdə bir daha təzələdim. O nə qədər uzaqgörən bir insan imiş! Çünki latın əlifbasını tətbiq etmək istəmişdir.

Xatirinizdədir ki, o, Tbilisidən İstanbula getmiş, iki ay çalışmış, hətta ona orada bir orden də vermişdilər, amma latın əlifbasını qəbul etməmişdilər.

Bu gün demək lazımdır ki, məhz sovet hakimiyyəti dövründə o vaxtkı insanlar 1926-cı ildə Azərbaycanda latın əlifbasının tətbiq edilməsinə nail oldular. Lakin ondan təxminən 10-11 il sonra latın əlifbasını bizim əlimizdən aldılar. İndi biz Mirzə Fətəli Axundovun XIX əsrin ortalarındakı arzularını, niyyətlərini həyata keçiririk. Amma ümidvaram ki, bunu əlimizdən daha heç kim ala bilməyəcəkdir. Çünki biz artıq müstəqil bir dövlətik və müstəqilliyimiz də daimidir, əbədidir.

Mən bu fikirlərlə XIX əsrin və XX əsrin Azərbaycan ədəbiyyatı üçün nə qədər məhsuldar olduğunu bildirmək istəyirəm. Bu gün biz burada qurultay keçirərək müasir ədəbiyyatımız haqqında danışarkən bu ədəbiyyatı yaradanları, bu ədəbiyyatı inkişaf etdirənləri daim hörmət, ehtiram, münnətdarlıq hissi ilə yad etməliyik. Ona görə də təsadüfi deyil ki, biz Azərbaycanda yazıçıların, şairlərin yubileylərinin keçirilməsini böyük əhəmiyyətli bir hadisə hesab edirik. Bəziləri indi də buna bir az kəc baxırlar, «bu yubileylər nəyə lazımdır, indi bizim həyatımız çətindir, ağırdır», – deyirlər. Ancaq mən bu fikirlərlə heç vaxt razı olmamışam, bu gün də razı deyiləm. Əminəm ki, keçirilən hər bir belə yubiley bizim həyatımızda çox böyük yeni hissiyyatlar doğurur, yeni qüvvələr meydana gətirir. Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin

yubileylərini keçirəcəyik və hər bir belə yubiley xalqımızın bayramı olacaqdır.

Azərbaycanda yazıçıya, şairə hörmət və ehtiramın geniş olması haqqında fikirlərimi tamamlamaq üçün bir-iki məqama da toxunmaq istəyirəm. Azərbaycanda şairlərə, yazıçılara qoyulan heykəllər qədər heç bir insana heykəllər qoyulmayıbdır. Bunun özü ədəbiyyata, şairə, şeirə, yazıçıya nə qədər böyük hörmətin olduğunu göstərir.

Burada Şuşanı, Vaqifin məqbərəsini yada saldılar. Bu mənim üçün çox əzizdir. Bəli, Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də ümumiyyətlə ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi. Biz nəhayət, çox çətinliklərdən sonra Hüseyn Cavidin məqbərəsini Naxçıvanda ucaltdıq. Azərbaycanda heç bir tarixi şəxsiyyətə məqbərə yoxdur, ancaq şairə, yazıçıya var. Amma gəlin açıq danışaq, bu xalqı yaşadanlar tək şairlər, yazıçılar olmayıbdır. Azərbaycanın padşahları da, sərkərdələri də, xanları da olubdur. Xanlıqlar zamanı müxtəlif dövlətlər olub, bu dövlətlərin başçıları olubdur. Azərbaycanın böyük dövlət xadimləri olubdur. Amma indi onların hansının heykəli, yaxud məqbərəsi var? Amma şairlərin, yazıçıların var və olmalıdır, olacaqdır.

Mən bu fikirləri sizə çatdırmağa bəlkə çox vaxt sərf etdim, ancaq mən bununla sizə də, bizim cəmiyyətimizə də bir daha bildirmək istəyirəm ki, Azərbaycanda ədəbiyyata, mədəniyyətə daim böyük hörmət olubdur. Bu keçid dövründə, həyatımızın ağır dövründə də hörmət, qayğı var və bundan sonra da olacaqdır.

Qayğılar haqqında biz son görüşlərdə də danışdıq. Mən üçüncü gündür ki, ədəbiyyatla məşğulam. Bəziləri birinci gündür qurultaydadırlar, mən isə üç gündür ki, qurultaydayam, amma bundan məmnunam. Baxmayaraq ki, mənim başqa çox vacib işlərim qalıbdır, ancaq mən heyifsilənmirəm. Dünən də, bundan əvvəlki gün də və bu gün də sizinlə birgə keçirdiyim saatları, vaxtı özüm üçün çox əhəmiyyətli hesab edirəm. Güman edirəm ki, bunların da nəticələri olacaqdır.

Bu günlər yazıçıya, ədəbiyyata qayğılar haqqında danışıldı. Siz bilirsiniz ki, keçmiş dövlət çərçivəsində bu qayğıları göstərmək çox çətin bir şey deyildi. Biz bunu edirdik və sizin hamınız da o qədər öyrənmişdiniz, elə bilirdiniz ki, şair anadan gələndən belə qayğı ilə əhatə olunmalıdır. Amma unutmuşdunuz ki, Füzuli də çox ağır vəziyyətdə yaşamışdır. Füzuli o şəraitdə yaşayıb-yaratmışdırsa, heç kəs deyə bilməz ki, onun çox böyük imkanları olmuşdur. Yaxud, götürün Mirzə Ələkbər Sabiri. O,

hansı şəraitdə yaşayıb-yazmışdır – məlumdur, elədirmi? Yaxud, götürək Mirzə Cəlil Məmmədquluzadəni. O, hansı şəraitdə yaşayıbdır? Siz də bilirsiniz ki, ömrünün son illərində o, qəzetləri, bəzi kitablarını qış vaxtı peçdə yandırıb, onun istisinə qızınırmış. Bunu ki, bilirsiniz. Bu, bizim dövrümüzdə, 1932-ci ildə olubdur. Belə də olubdur.

Ancaq son dövrdə ümumiyyətlə dövlətin yazıçılar, şairlər üçün yaratdığı şərait artıq o qədər qanuniləşmişdi ki, hamı hesab edirdi daim belə olacaq, belə də olmalıdır. Ancaq o quruluş dağıldı, biz o sistemdən imtina etdik və buna da heç vaxt heyifsilənməməliyik. Əksinə, sevinməliyik. Sevinməliyik ki, o quruluş, Sovet İttifaqı dağıldı. Sevinməliyik ona görə ki, əgər dağılmasaydı, biz dövlət müstəqilliyimizi əldə edə bilməzdik, bu mümkün deyildi. Ancaq bir halda ki, biz onun dağılmasını istəyirdik və istəyirdik ki, milli azadlığa çıxaq, müstəqil dövlət olaq, demək, bunun əzab-əziyyətini də çəkməliyik. Başqa cür ola da bilməz. Bu təbiidir.

Ancaq tərəziyə qoyanda – hansı ağır gəlir, hansı yüngül gəlir, – hamı bir səslə deyəcəkdir ki, bəli, müstəqillik naminə biz hər şeyə dözməliyik, müstəqillik naminə hər çətinliyə, hər əzab-əziyyətə dözməliyik. Ancaq bu çətinliklər daimi deyildir. Bunların da sonu var, bunlar müvəqqətidir. Mən bu gün bunu bir daha deyirəm və hesab edirəm ki, biz bu çətinliklərdən keçib gedəcəyik. Ancaq bu şəraitdə də biz keçmiş ənənələrə istinad edərək, – yəni siz onlara vərdiş etdiyinizə görə və biz də hesab edərək ki, doğrudan da gərək yazıçılar bu keçid dövründən bir balaca yüngül keçsinlər, – əlbəttə ki, imkan dairəsində müəyyən qayğılar göstərmək lazımdır.

Bəziləri haqqında burada dedilər. Bəziləri haqqında da mən fikirlərimi dünən və srağagün görüşlərdə bildirmişəm. Dünən də dedim və bu gün də bildirirəm ki, bu qurultay qurtarandan sonra mən onun yekunları ilə əlaqədar qərar qəbul edəcəyəm. Göstəriş vermişəm ki, belə bir qərar layihəsi hazırlasınlar. O qərarda imkan daxilində, nə mümkündür – nəzərdə tutulacaq. Məsələn, söz verdim ki, «Ulduz» jurnalının çıxmasını təmin edəcəyəm. Gənc yazıçılar var, onlar çətin şəraitdə yaşayırlar. Mən etiraz etmirəm, əgər Yazıçılar Birliyi zəmanət versə ki, bir il içərisində bunların hərəsi bir yaxşı əsər yarada bilər, mən bir il müddətinə onlara yüksək məvacib təyin edə bilərəm. Onlar bu məvacibi alsınlar, əsəri yazsınlar, əsər doğrudan da çox yaxşı olsa, ona da mükafat verərik.

Yəni belə addımlar atmaq olar. Yaxud mən bu günlərdə çox düşünürəm, – doğrudur, əgər mən bu qərarı qəbul etsəm, bir az təhlükəlidir, ancaq belə fikrə gəlmişəm ki, edəm, – ola bilər, bizim bir qrup ədəbiyyat,

mədəniyyət xadimlərinə dövlətin, prezidentin ehtiyat fondundan xüsusi maaş təyin edim. Məsələn, bu maaş nə qədər ola bilər – on, on beş, iyirmi nəfərə. Bilirsiniz, bu, yenə bizim büdcəmizdən asılı olacaq ki, orada nə var. Ondan asılı olacaqdır (*Yerdən səs:* 500 nəfərin hamısına). Görürsünüz, dedim ki, bu təhlükəlidir. Gərək bunu deməyəydim. Ancaq güman edirəm ki, ayrı-ayrı addımlarla müəyyən bir dəyişiklik əldə etmək olar.

Amma bir söz də demək istəyirəm. Bunu əvvəlcədən deyirəm, – heç bir şeydə heç bir güzəşt olmayacaqdır. Bunu bilin. Bu mövzunu sonra sizə daha da geniş izah edəcəyəm. Biz sərbəst bazar iqtisadiyyatına gedirik. Sərbəst bazar iqtisadiyyatında bir adama güzəşt eləsən, o birisinə də eləmək lazımdır. Bilirsiniz, bu, bütün sistemi pozur. Heç bir güzəşt olmayacaqdır. Güzəştlə kim nə ala bilər – biz çalışırıq ki, bunu başqa vasitələrlə çatdıraq. Ancaq buna güzəşt olsun, ona güzəşt olsun – bunu etmək mümkün deyildir. Bunu açıqca bilin. Mən çox açıq danışan adamam. Həmişə, söz xoş gəlməsə də, mən onu açıq deməliyəm. İndi bizim maliyyə sistemimiz elədir ki, biz bütün güzəştləri ləğv etdik və edirik. Sona qədər ləğv edilməlidir, heç bir güzəşt qalmamalıdır. Çünki güzəşt ancaq sosialist iqtisadi sisteminə aiddir. Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat sistemində güzəşt ola bilməz. İnsanlara başqa vasitələrlə kömək etmək olar. Amma güzəşt kimi yox, güzəşt olmayacaqdır. Biz başqa vasitələrlə kömək etməyə çalışacağıq.

Bizim qarşımızda çox vəzifələr durur. Şübhə yoxdur ki, bu vəzifələrin həyata keçirilməsində Yazıçılar Birliyi, hər bir yazıçı, hər bir ədəbiyyat adamı gərək kənarda qalmasın, bizimlə bir yerdə olsun.

İdeologiya, milli ideologiya haqqında danışdılar. İndi keçmiş kommunist rejimində partiya tərəfindən hazırlanmış ideologiyamız yoxdur. Buna ehtiyac da yoxdur. Bizim ideologiyamız iki il bundan öncə Azərbaycanın qəbul etdiyi dövlət Konstitusiyasında öz əksini tapmışdır. Əsas o Konstitusiyadır. Çünki keçmişdə bizdə qanun işləmirdi, dövlətin, partiyanın ideoloji prinsipləri, partiyanın ideoloji qərarları əsasında iş gedirdi. Amma indi qanun işləməlidir, çünki biz hüquqi dövlət qururuq. Əsas qanun da bizim Konstitusiyamızdır. Konstitusiyanı yaxşı bilmək, yaxşı təbliğ etmək lazımdır. Konstitusiyada yazılıb: Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Bəlkə bunlar sadə sözlərdir, artıq hamı üçün məlum sözlərdir. Amma bu sözlərin arxasında onu həyata keçirmək üçün çox böyük və gərgin iş durur. Böyük və gərgin iş də aparılmalıdır.

Biz bu işi aparırıq. Ancaq demokratik, hüquqi, dünyəvi dövlət qurmaq bir ilin, iki-üç ilin işi deyildir. Bunun üçün zaman lazımdır. Mən bu-

nu görüşərkən də dedim, – üç-dörd gün öncə Türkiyə Cümhuriyyətinin 74 illik yubileyi münasibətilə Türkiyə televiziyası ilə bizim əziz və hörmətli dostumuz Süleyman Dəmirəlin böyük bir söhbətini dinlədim. O, 74 ildə Türkiyə Cümhuriyyətinin həyat yoluna təhlil verirdi. Göstərirdi ki, Osmanlı imperatorluğunun külü üzərində yaranan Türkiyə Cümhuriyyəti 74 il içərisində nə qədər çətin mərhələlərdən keçib gəlibdir. İndi qüdrətli, böyük bir dövlətdir, Dünya Birliyində özünəməxsus yeri tutubdur, ancaq onun bu gün də nə qədər problemləri , sıxıntıları, çətinlikləri var. Prezident Süleyman Dəmirəl televiziya ilə bunlar haqqında açıq-aşkar danışırdı. Sabahısı gün mən onunla telefonla danışarkən, bu barədə öz münasibətimi bildirərkən o mənə dedi və mən də belə düşünürəm ki, bəli, həmin yol, eyni zamanda Türkiyənin qarşısında duran bugünkü məsələlər elə bizim də qarşımızda durur. O yolu biz də keçməliyik.

Əlbəttə, Türkyiə kimi bir dövlətin, cümhuriyyətin qurulması, inkişafı bizim üçün böyük örnəkdir. Ancaq xalqımızın, ölkəmizin, dövlətimizin özünəməxsus xüsusiyyətləri var. Biz dünya təcrübəsindən istifadə edirik və etməliyik. Ancaq öz milli, mənəvi ənənələrimiz əsasında, xalqımızın, həyatımızın xüsusiyyətlərini nəzərə alaraq öz dövlətimizi qururuq və quracağıq. Ona görə indi ən ümdə vəzifəmiz, ən şərəfli borcumuz hüquqi, dünyəvi, demokratik dövlət yaratmaqdır.

Bu işdə hamımız çalışmalıyıq, bir olmalıyıq. Siyasi dünyabaxışından asılı olmayaraq, – kim hansı partiyaya mənsubdur, hansı siyasi dünyabaxışı var – bundan asılı olmayaraq, bu məqsəddə biz hamımız bir olmalıyıq. Azərbaycanın başqa yolu yoxdur. Azərbaycan başqa yolla getməyəcək.

İqtisadiyyatın sahəsində biz artıq bunu elan etmişik və həyata keçiririk. Biz köhnə iqtisadi sistemdən imtina etmişik, keçid dövrünü yaşayırıq. İqtisadiyyatımızı yeni iqtisadi sistem əsasında qururuq. Artıq bizim nailiyyətlərimiz də var. Bazar iqtisadiyyatıdır, sərbəst iqtisadiyyatdır, iqtisadi islahatların həyata keçirilməsidir, – biz bu işləri görürük, əməli nəticələrini alırıq. Nəticələr də sevindiricidir.

Məsələn, iqtisadiyyat haqqında bir neçə rəqəmi sizə çatdırmaq istəyirəm ki, bugünkü vəziyyətimiz sizin üçün daha da aydın olsun. Ümumiyyətlə Azərbaycanda iqtisadiyyat həm Ermənistanın təcavüzü nəticəsində, həm də daxildə gedən ictimai-siyasi proseslər nəticəsində həddindən artıq pozulmuşdur. Keçmiş Sovetlər İttifaqına mənsub olan respublikalar içərisində, demək olar, iqtisadiyyatı ən pozulmuş, ən dağıdılmış respublika Azərbaycan Respublikasıdır. Bir tərəfdən Ermənistanın təc-

avüzü, müharibə bunu dağıdıb, ikinci tərəfdən də daxildə siyasi çəkişmələr, hərc-mərclik, özbaşınalıq, hakimiyyətsizlik, çəzasızlıq – bunlar hamısı Azərbaycanın iqtisadiyyatını dağıdıbdır. Mən sizə dedim, Sovetlər İttifaqı dağılarkən böyük alimlər təhlil etdilər ki, iki respublika öz iqtisadiyyatına görə müstəqil yaşaya bilər – Rusiya, bir də Azərbaycan. Amma Azərbaycanın iqtisadiyyatı təxminən 1989-cu ildən, 1990-cı ildən o qədər dağıldı ki, indi biz, əlbəttə, o imkanları çoxdan itirdik.

Ancaq həyata keçirilən təbdirlər öz müsbət nəticəsini verir. Ona görə də biz bu yolla getməliyik, yəni sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməliyik. Biz bu sahədə çox işlər görmüşük – qanunlar, qərarlar qəbul etmişik, fərmanlar verilibdir, onlar həyata keçirilir. Biz özəlləşdirmə aparırıq, torpağın özəlləşdirilməsini, torpaq islahatı aparırıq. Torpağın özəlləşdirilməsi haqqında qəbul etdiyimiz qanun ən radikal və eyni zamanda ən lazımlı və çox faydalı bir qanundur. Biz artıq onun nəticələrini görürük.

Təəssüf hissi ilə deyə bilərik ki, bizə bənzər olan bəzi respublikalarda hələ bu qanunu qəbul edə bilmirlər. Biz isə bunu qəbul etmişik, həyata keçiririk və nəticələrini görürük. İqtisadiyyatı sərbəstləşdirmişik, xarici ticarət sərbəstləşibdir və bunların nəticəsində Azərbaycana xarici sərmayə gəlir, xarici ölkələrin şirkətləri Azərbaycana gəlirlər. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatı canlandırıbdır.

Məsələn, iqtisadiyyatın göstəricilərinin bir neçəsini sizə deyim. 1989–1990-cı illərdən ümumi daxili məhsul istehsalı ilbəil 15-20 faiz aşağı düşürdü. 1995-ci ildə biz bunu dayandırmışıq. 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz, 1997-ci ilin doqquz ayında 5 faiz artıbdır. Bu çox yaxşı göstəricidir. Bəlkə hələ çoxları hiss etmir, amma bu, ümumi iqtisadiyyatımıza təsir edir.

Əvvəlki illərdə sənaye istehsalı hər il 20–25 faiz aşağı düşürdü. Biz keçən il onu dayandırmışıq. Sənaye istehsalı bu il az da olsa – 1 faizdən bir qədər az artıbdır. Kənd təsərrüfatında heyvandarlıq sektoru tamamilə özəlləşdirilibdir. Bunun nəticəsində əhalinin ərzaqla – ətlə, südlə təmin olunması problemi aradan götürülübdür. Biz bunu daxili imkanlarımız vasitəsilə edirik. Torpaq islahatı gedir. Bunların nəticəsində kənd təsərrüfatı istehsalı bu il artmağa başlayıbdır.

Maliyyə sahəsində gördüyümüz işlər öz nəticəsini veribdir. 1994-cü ildə bir ildə 1600 faiz inflyasiya olmuşdur. 1995-ci ildə bu 84 faiz, 1996-cı ildə 6 faiz idi. Amma bu ilin doqquz ayı keçib, inflyasiya isə sıfırdır. İnflyasiyanı tamamilə boğduğumuz zaman bazarda qiymətlər də qalx-

mır, bahalaşmır. Əhalinin orta əmək haqqı təxminən 50 faiz artıbdır. Mədəniyyət sahəsində işləyən insanların əmək haqqı doqquz ay müddətində təxminən 60 faiz artıbdır və bu meyil davam edir.

Xarici ticarət sərbəstləşdirildiyinə görə onun həcmi xeyli artıbdır. Azərbaycana xarici investisiyalar çox gəlir. Keçən il Azərbaycana gələn xarici investisiyanın həcmi 600 milyon dollar olubdur. Bu sahədə Azərbaycan MDB dövlətləri içərisində Rusiyadan sonra ikinci yerdədir. Amma adambaşına investisiyanın həcminə görə Azərbaycan birinci yerdədir. Bu ilin doqquz ayında Azərbaycana 700 milyon dollar xarici investisiya gəlibdir. Əgər keçən il Azərbaycanda 290 xarici şirkət fəaliyyət göstərirdisə, – mənə bu ilin doqquz ayının yekunlarını veriblər, – indi 500-dən artıq xarici şirkət fəaliyyət göstərir. Bu şirkətlərdə təxminən 15 min yerli adam işləyir.

Burada natiqlərdən biri belə fikir söylədi ki, o şirkətlərdə azərbaycanlılar nə üçün az maaş alır, xaricdən gələnlər isə çox maaş alırlar? Bəli, bu problemlər var. Eyni zamanda onlarda azərbaycanlıların sayını artırmaq problemi var. Biz bununla məşğuluq və xarici şirkətlərə şərt qoymuşuq ki, şirkətlərdə işləyənlərin əksəriyyəti yerli adamlar olmalıdır. Amma eyni zamanda onların özlərinin xüsusi mütəxəssisləri var, onları buraya gətirməli, işlətməlidirlər, bunsuz öz işlərini apara bilməzlər. Biz bunun qarşısını ala bilmərik. Amma onlarla əlaqələrimizdə qoyduğumuz şərt ondan ibarətdir ki, maksimum yerli adamlar işləsin və yerli adamlar da işləyirlər. Əgər indi bu şirkətlərdə 15 min azərbaycanlı işləyirsə, onların hər biri bizim başqa yerlərdə olan maaşa nisbətən yüksək maaş alırsa, bu, insanların həyat səviyyəsini nə qədər artırır.

Bilirsiniz ki, neft müqavilələri imzalamışıq. Üç il bundan öncə birinci neft müqaviləsini imzalayanda bəziləri buna inanmırdı, bəziləri qısqanclıq göstərirdi, bəziləri də açıq şəkildə bunun əleyhinə çıxırdı. Bizim o müqaviləmizi, demək olar, blokadaya almaq istədilər, – ala bilmədilər. İstədilər onun qarşısını alsınlar, – ala bilmədilər. Biz işimizi gördük və nəhayət, indi həmin o müqavilə nəticəsində neft hasil olub və noyabrın 12-də biz «Çıraq» yatağından ilk neftin hasilatını böyük mərasim, təntənə ilə qeyd edəcəyik. Mən bütün şirkətlərə, dövlət başçılarına dəvətnamə göndərmişəm, onları dəvət etmişəm.

Əgər üç il bundan qabaq Azərbaycanda bir müqavilə imzalandısa, indi 10 müqavilə imzalanıbdır. Ondan sonra üç il müddətində 9 müqavilə imzalanıbdır. 10 müqavilənin təxmini kapital qoyuluşu, yəni sərmayə qoyuluşu, dəyəri 30 milyard dollardır. Təsəvvür edin, əgər 30 milyard

sərmayə qoyulacaqsa, ondan neçə qat artıq gəlir götürüləcəkdir. Bunlar hamısı Azərbaycanın gələcəyi üçündür. Şübhə etmirəm ki, biz bu addımlarımızla Azərbaycanın gələcəyini də təmin edəcəyik.

İlk müqavilənin həyata keçirilməsi təkcə neftin çıxarılması demək deyildir. «Çıraq» yatağından Səngəçal terminalına 179 kilometrlik neft kəməri çəkmişik. Səngəçalda böyük terminal tikmişik, bütün o yataqlardan çıxan nefti oraya gətirib başqa neft kəmərləri ilə ixrac etmək olar. 1996-cı ilin yanvarında Rusiya ilə imzaladığımız saziş həyata keçirilib və şimal istiqamətində neft kəməri işə başlayıbdır. Biz bu neft kəməri ilə Qara dənizin Novorossiysk limanına gündə 2500 ton neft ixrac edirik. Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına 860 kilometr uzunluğunda neft kəməri çəkirik, gələn ilin oktyabrında hazır olacaqdır. Bunlar hamısı bir neçə ildən sonra başqa yataqlardan çıxan neftin dünya bazarlarına çıxarılmasını təmin edəcəkdir. Təkcə bizim sektorda yox, hesab edirəm ki, Qazaxıstandan çıxan neftin də, güman edirəm, gələcəkdə Türkmənistandan çıxan neftin də dünya bazarlarına ixrac olunmasının ən əlverişli yolu Azərbaycan üzərindən Avropaya, Türkiyəyə gedən neft kəmərləri olacaqdır. İqtisadiyyatımızın bugünkü gercəkliyi bunlardır.

Bununla yanaşı olaraq, iqtisadiyyatımızda çox ciddi dəyişikliklər əmələ gətirən bir tədbir də ondan ibarətdir ki, biz – Azərbaycan Gürcüstan, Mərkəzi Asiya dövlətləri ilə birlikdə Asiya – Avropa nəqliyyat dəhlizi yaratmışıq. İndi Mərkəzi Asiyadan Avropaya gedən yüklərin bir qismi, gələcəkdə isə çox hissəsi bu yolla gedəcəkdir. Yəni Mərkəzi Asiyadan Türkmənistanın Türkmənbaşı limanına, oradan Xəzər dənizi vasitəsilə gəmi-bərələrlə Bakı limanına, buradan dəmir yolu vasitəsilə Gürcüstanın Poti limanına, oradan da Qara dəniz vasitəsilə Avropanın bir çox ölkələrinə gedəcəkdir. Gələcəkdə Qazaxıstandan Xəzər dənizinin dibi ilə Bakıya yeni bir neft kəməri çəkilməsi də nəzərdə tutulubdur. Bunlar hamısı Azərbaycanın öz təbii sərvətlərindən istifadə olunması ilə yanaşı, Azərbaycanı Mərkəzi Asiya ilə birləşdirən böyük bir bölgəyə çeviribdir. Buradan gedən nəqliyyat yolları, həm boru xətləri – neft və qaz kəmərləri, şübhəsiz ki, Azərbaycanın iqtisadiyyatına çox böyük müsbət təsir göstərəcəkdir.

Bizim iqtisadi islahatlarımız və gördüyümüz dünya miqyaslı qlobal işlərimiz bir neçə vaxtdan, qısa müddətdən sonra iqtisadiyyatımıza böyük dəyişikliklər gətirəcəkdir. Onda bizim ədəbiyyata, mədəniyyətə olan qayğımızı da artırmağa imkanımız olacaqdır. Ancaq yenə də deyirəm, indiki mövcud şəraitdə də əlimizdə olan imkanlardan istifadə edəcəyik.

Burada fondun yaranması haqqında da fikir söyləndi. Mən bunu görüşdə də dedim. Bir neçə ildir belə təkliflər alıram ki, bir fond yaransın – «Heydər Əliyev fondu» – və bu fonddan mədəniyyətin, istedadlı adamların, ədəbiyyatın inkişafına və başqa sahələrə yardım üçün istifadə olunsun. İndi artıq görürəm ki, doğrudan da belə bir fondun yaranması zəruriyyəti gəlib çatıbdır, baxmayaraq ki, bir neçə ildir bu söhbət gedir. Sizinlə görüşlərdən sonra mən yəqin ki, bu fondun yaranması haqqında də qərar qəbul edəcəyəm. Əgər bunu edə bilsəm, onda, şübhəsiz ki, bu mənbədən də sizə yardımlar, kömək etmək imkanı olacaqdır.

Ancaq bunlarla yanaşı, bizim ən əsas vəzifəmiz, ən ümdə borcumuz Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, ərazi bütövlüyünü bərpa etmək və yerindən-yurdundan didərgin düşmüş bir milyona qədər Azərbaycan vətəndaşını öz evinə, yurduna qaytarmaqdır.

Bu sahədə görülən işlər sizə məlumdur. Biz mətbuat, televiziya vasitəsilə bunları ictimaiyyətə, o cümlədən sizlərə çatdırırıq, bunu bilirsiniz. Ancaq bu görüşdən istifadə edərək onu demək istəyirəm ki, birincisi, məmnunam ki, siz atəşin dayandırılması haqqında qəbul etdiyimiz qərarı bəyəndiniz və bunu bəyəndiyinizi bu gün də bildirirsiniz. Bu, bizim üçün çox vacibdir.

1988-ci ildən Azərbaycana təcavüz başlanmışdır. Hesab edirəm ki, bu təcavüzün qarşısını almaq olardı. Ancaq o vaxt bunun qarşısı alınmadı. Əgər bu təcavüzün qarşısı dövlət – o vaxtkı Sovet İttifaqı tərəfindən alınmadısa, Azərbaycan xalqı öz torpaqlarını qorumağa qadir bir xalqdır, ancaq bunu təşkil etmək lazım idi. Amma o illərdə bu da təşkil olunmadı. Xatirinizdədir, 1989-cu ildə Ermənistanda xalq silahlanmışdı. Hətta o vaxt Sovetlər İttifaqının prezidenti Qorbaçov Ermənistanda əhalinin tərksilah edilməsi haqqında xüsusi bir fərman verdi. Nə üçün Ermənistanda xalq silahlanmışdı? Nəyə görə? Aydındır ki, burada, Azərbaycanda düşünmək lazım idi ki, məhz Azərbaycana təcavüz etmək üçün. 1988-ci ilin əvvəlində artıq Qarabağ münaqişəsi başlanmışdı. Demək, hətta daim Ermənistana havadarlıq, himayəçilik edən Sovet İttifaqı rəhbərliyi və şəxsən Qorbaçov 1989-cu ildə elə bir məcburiyyətə gəldi ki, Ermənistanda əhalidə olan qeyri-qanuni silahların yığılması barədə fərman verdi. Gərək onda burada hamı ayılaydı ki, Ermənistan nə üçün bu qədər silah əldə edibdir. Ancaq burada insanlar ayılmadılar, onun qarşısını almaq üçün lazımi qüvvə toplamadılar. Amma bunu etmək olardı.

Doğrudur, Qorbaçovun fərmanı yerinə yetirilmədi, Ermənistanın əhalisi öz silahlarını əlindən vermədi, bunlar hamısı Azərbaycanın tor-

paqlarının zəbt edilməsində istifadə olundu. Bunlar hamısı keçmişdə buraxılmış bağışlanmaz səhvlərdir. Azərbaycanın torpaqları bunların nəticəsində işğal olundu.

20 Yanvar faciəsi. 20 Yanvar Azərbaycanın tarixində ən dəhşətli faciədir. Bunu Azərbaycana qarşı etdilər, o vaxtkı sovet hakimiyyəti bunu başqa heç bir xalqa qarşı etmədi. Bunu etdi ki, Azərbaycanın iradəsini qırsın və təəssüflər olsun ki, çoxlarının da iradəsi qırıldı. Beləliklə, Azərbaycan torpaqlarını müdafiə etmək mümkün olmadı. Daxildə gedən ictimai-siyasi proseslər, hakimiyyət mübarizəsi, çəkişmələr, vuruşmalar – bunlar hamısı imkan verdi ki, Azərbaycanın torpaqları işğal edilsin.

B ə x t i y a r V a h a b z a d ə: Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, Heydər müəllim. O vaxt əmr çıxdı ki, Azərbaycanda ov, quş tüfəngləri də yığılsın.

H e y d ə r Ə l i y e v: Bəli, doğru deyirsiniz. İş bundadır ki, bizimkilər ov tüfənglərini yığdılar, amma ermənilər böyük-böyük silahları yığmadılar. İş də bundadır.

Bilirsiniz, yanvar hadisələri haqqında danışanda həmişə mənim əsəblərim çox coşur və rahat danışa bilmirəm. Çünki bu, xalqımıza qarşı elə bir dəhşətli cinayət idi ki, bunu heç vaxt unutmaq olmaz, heç vaxt unutmamalıyıq. O vaxt bizim dövlət adamları bunun əleyhinə çıxmadılar, bu barədə öz sözlərini deyə bilmədilər, üstünü örtüb basdırmağa çalışdılar. Ancaq siz – ədəbiyyat adamları və xüsusən yenə də Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi insanlar o təcavüzün qarşısına çıxdılar.

Yenə də gəlin açıq danışaq, bir halda ki, mən bu mövzuya toxundum, bunu deməyə bilmirəm. Bizim xalqımız yenə də ardıcıl olmadı. Bir müddətdən sonra bizdə ehtiraslar soyudu.

(*yerdən səs:* gözləri qorxdu). Bəli, amma gərək qorxmayaydı. Bəli, Xəlil Rzanı da tutdular, başqalarını da tutdular. Nə olsun tutdular? Tutulmaq da olar, qurban da getmək olar. Amma gərək xalqın naminə iradəni itirməyəsən.

Mən bunu bir dəfə demişəm, bir də deyirəm. Ondan bir il öncə, 1989-cu ildə Tbilisidə bir hadisə olmuşdu – meydanda on beş nəfər adam həlak olmuşdu. O vaxt Gürcüstanın qabaqcıl insanları, o cümlədən mədəniyyət xadimləri Ali Sovetin sessiyasında Qorbaçovu məcbur etdilər ki, gürcü xalqından üzr istəsin. Amma bizim xalqımızdan üzr istəmədilər. Əksinə, çalışdılar ki, bu hadisənin üstünü basdırsınlar və basdırdılar. Bunlar hamısı faciələrə gətirib çıxardı.

Nəhayət, 1993-cü ildə, 1994-cü ilin əvvəlində torpaqlarımızın müdafiəsi üçün bizim qızğın döyüşlərimiz getdi. Ancaq o vaxt biz belə fikrə gəldik ki, atəşi dayandırmaq daha düzgündür, nəinki bu müharibəni davam etdirmək. Üç il beş aydır ki, atəş yoxdur, sülhdür. Yəni atəşkəsdir, tamam sülh yoxdur. Hesab edirəm ki, bu, müharibədən qat-qat yaxşıdır.

Ancaq bu o demək deyil ki, biz yaranmış vəziyyətlə razılaşmışıq, yox. Biz danışıqlar aparırıq və sizə məlumdur ki, son addımlarımız da çox uğurlu olmuşdur. Xüsusən 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə bir çox uğurlu nəticə əldə etdik: ilk dəfə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin prinsipləri qəbul olundu. Ondan sonrakı proseslər, hesab edirəm, müsbət istiqamətdə gedir. Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika, Fransa yeni təkliflər veriblər. Son təklif məsələnin iki mərhələdə həll olunmasıdır. Yəni, birinci mərhələdə Dağlıq Qarabağ ətrafında zəbt olunmuş altı rayonun işğalçı qüvvələrdən azad edilməsi, ikinci mərhələdə Laçın, Şuşa rayonlarının işğalçı qüvvələrdən azad olunması və bununla bərabər Dağlıq Qarabağın statusunun müəyyən edilməsi.

Biz bu təkliflərə razılıq vermişik. Ermənistanın rəhbərliyi də buna razılıq veribdir. Bildirmək istəyirəm ki, indiyə qədər Ermənistan rəhbərliyi belə təkliflərin heç birinə razılıq vermirdi. Bilirsiniz, 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə bizim apardığımız çox gərgin işlərin nəticəsində Lissabon bəyanatı qəbul olunandan sonra Ermənistan prezidenti bəyanat verdi ki, o, qəbul edilən sənədlə razı deyil, Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində ola bilməz. Bir çox sözlər dedi ki, guya Dağlıq Qarabağ soyqırımı təhlükəsi altında olacaq və Dağlıq Qarabağ mütləq müstəqil olmalıdır. Amma bir neçə ay keçəndən sonra – indi Ermənistanın rəhbərliyi bu təklifə razılıq veribdir.

Biz bunu indiki mərhələdə münasib təklif hesab edirik və bu sahədə danışıqlar aparacağıq. Doğrudur, bu danışıqlar da çətin olacaq. Çünki prinsip etibarilə onlar da razılıq veriblər, biz də razılıq vermişik. Ortada Dağlıq Qarabağın adamları var, onlar bununla tam razı deyillər. Müzakirə zamanı həm onlar, həm də biz tərəfdən ayrı-ayrı məsələlər meydana çıxacaqdır. Bu, o qədər asan, hamar keçməyəcəkdir. Ancaq hesab edirəm ki, bu, məsələnin sülh yolu ilə həlli üçün ən münasib yoldur və biz bu yolla getməliyik.

Bu yolla getməkdə də artıq dünya dövlətlərinin dəstəyini almışıq. Bilirsiniz ki, bu son dörd il içərisində Azərbaycanın dünya miqyasında mövqeləri tamamilə dəyişibdir. Yəqin mətbuatdan, televiziya verilişlərin-

dən bunu görürsünüz. Məsələn, Ermənistana həmişə çox sıx münasibət göstərən Fransa hökuməti və onun prezidenti Minsk qrupunun həmsədri olmaq vəzifəsini öz təşəbbüsü ilə üzərinə götürdü. Prezident Jak Şirak ilə görüşlərim məni belə qənaətə gətirib ki, o, məsələnin həqiqətən ədalətlə həll olunması mövqeyində durur.

Bilirsiniz, Amerikanın prezidenti avqustun 1-də mən onunla görüşdüyüm zaman bu barədə öz fikirlərini qəti bildirib və bizim imzaladığımız birgə bəyanatda yazılıb ki, məsələ Lissabon prinsipləri əsasında həll olunmalıdır.

Mən Rusiyanın prezidenti ilə bir neçə gəfə görüşlər, danışıqlar keçirmişəm. Son dəfə Kişinyovda, Moldovada görüşümüz olubdur. Rusiya da, prezident Boris Yeltsin də bu mövqeyindən çəkilmir və məsələnin Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar çıxır, bu barədə öz səylərini qoyur.

Beləliklə, bu məsələnin həll edilməsi üçün indiyə qədər mümkün olmayan bir şərait yaranıbdır. Ancaq hələ bu da məsələnin həll olunması deyildir. Qarşımızda çox çətin danışıq prosesi var. Biz danışıq prosesini bu prinsiplər əsasında aparacağıq. Güman edirəm, siz də razı olarsınız ki, məhz bu yolla məsələnin həllinə nail olaq. Təsəvvür edin, əgər işğal olunmuş altı rayon azad edilsə, insanlar oraya qayıtsa, orada həyat başlasa, bu, ümumiyyətlə, məsələnin həlli üçün böyük bir hadisə olacaqdır. Ondan sonra ikinci mərhələni həll edə bilsək, bu, tamamilə məsələnin sülh yolu ilə həllinə gətirib çıxaracaqdır.

Bilirsiniz, mən bunu bir neçə dəfə demişəm və sizin də qarşınızda deyirəm. Tale Ermənistanla Azərbaycanın qonşu yaşamasını bizə qismət edibdir. Biz bu qonşuluqdan çəkilə bilmərik, Ermənistan da çəkilə bilməz. Bu qonşuluqda biz sülh yaratmalıyıq və sülh şəraitində yaşamalıyıq – şübhəsiz ki, Azərbaycanın milli mənafelərinə, ərazi bütövlüyünə heç bir zərər dəymədən. Azərbaycanın ərazi bütövlüyünü, milli mənafelərini qoruyaraq, biz eyni zamanda sülhə nail olmalıyıq. Çünki daim müharibə şəraitində, müharibə təhlükəsində yaşamaq, daim düşmənçilik münasibətləri şəraitində yaşamaq mümkün deyildir. Biz bunu dərk etməliyik.

Azərbaycanın təbii sərvətləri, iqtisadiyyatımızın perspektivləri o qədər böyük imkanlar yaradır ki, əgər biz tam sülh əldə edə bilsək, bu imkanlardan səmərəli istifadə edə bilərik, müstəqil dövlətimiz də yaşayar, xalqımızın rifahı da yaxşılaşar və Qafqazda da sülh əldə etmək mümkün olar.

Ümumiyyətlə, Qafqaz indi dünyanın ən çətin, ağır, ən qarışıq bir bölgəsidir. Biz Qafqazın şimalında, yəni Şimali Qafqazda da sülhün bərqə-

rar olmasını istəyirik. Dağıstanla qonşuyuq, orada da sabitliyin əldə olunmasını istəyirik. Başqa qonşularımızla da sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyirik. Ümumiyyətlə, bölgəmizdə sülhün təmin edilməsini istəyirik. Budur bizim siyasətimiz, gördüyümüz işlər. Amma bu işlər asanlıqla həyata keçirilmir, çox böyük zəhmət, çox böyük vaxt tələb edir və mən hesab edirəm ki, bu işin naminə çəkilən zəhmət və itirilən vaxt heç də hədər deyildir. Çünki bu, bizim əsas məqsədimiz, vəzifəmizdir.

Bu sahədə də sizin dəstəyinizə, köməyinizə ehtiyacımız var. Mədəniyyət, ədəbiyyat gərək daim dövlətlə bir yerdə olsun. Bu baxımdan sizə bir neçə fikrimi demək istəyirəm. Keçmiş qurultaylardan fərqli olaraq, görürsünüz ki, mən sizə «hansı mövzuda yazmalısınız, nə cür yazmalısınız» kimi göstərişlər, heç məsləhətlər də vermək istəmirəm. Vermək istəmirəm, heç olmayacaq da. Siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik, azadlıq şəraitində nə cür istəyirsinzsə, o cür də yazın. Hansı mövzunu götürürsünüz götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Mən bunu sizə tam qətiyyətlə deyirəm.

Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbacanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə, vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu, çox vacibdir, çox lazımdır.

Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız, öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatları çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır.

Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun əsərlərindən də, Rəsul Rzanın əsərlərindən də, Süleyman Rüstəmin əsərlərindən də, Məmməd Rahimin əsərlərindən də, Osman Sarıvəllinin əsərlərindən də, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin əsərlərindən də keçibdir.

(*Yerdən səs:* Məmməd Səid Ordubadinin). Mən son vaxtı deyirəm, bəli, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı – bunlar şübhəsizdir. Mən 40-cı, 50-ci illəri, yəni 1937–38-ci illərdən sonra yaranmış ədəbiyyatı sayıram. Əsrin əvvəlində – 1910-cu, 1920–30-cu illərdə bizim böyük şairlərimizin, yazıçılarımızın əsərləri ancaq millilik, vətənpərvərlik, millətçilik hissləri ilə yazılmışdır.

Ancaq sonrakı dövrü mən ona görə xüsusi vurğulayıram ki, 1937-38-ci illərdə bizim ədəbiyyatımıza böyük zərbə vuruldu, böyük itkilərimiz oldu. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Çəmənzəminli və başqaları. Anar dedi ki, 27 şair və yazıçı 1937-38-ci illərin qurbanları oldu. Ancaq mən ondan sonrakı ədəbiyyatı inkişaf etdirən yazıçılarımızı, şairlərimizi deyirəm. Onların əsərlərində milli hissiyyatlar həmişə olubdur. Elə burada, rəyasət heyətində oturan şairlərimizin, yazıçılarımızın əksəriyyətində biz bunları hiss etmişik.

Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, Vətəninə, torpağına məhəbbət hissi yaradır. Yaxud torpaq, Vətən haqqında yazılan şeirlər. Müharibə vaxtı, – mən İkinci dünya müharibəsini, Vətən müharibəsini deyirəm – şairlərimizin, yazıçılarımızın vətənpərvərlik haqqında yazdığı əsərləri götürək. Onda vətənpərvərlik deyəndə, hər kəs öz vətənini hesab edirdi. Azərbaycanlı hesab edirdi ki, o, azərbaycanlıdır, vətənpərvərdir, təkcə Sovet İttifaqını nəzərdə tutmurdu ki!

İndi yaşa dolmuş və 60–70-ci illərdə gənc olan yazıçılarımız və şairlərimiz də bu sahədə çox böyük xidmətlər göstərmişlər. Məsələn, mən «Qobustan» jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazımi şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm – «Qobustan» jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə «Qobustan» jurnalı deyildi, «Azərbaycan» jurnalını, «Ulduz» jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu dərc etdirirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən – Azərbaycanın rəhbəri olduğum zamandan in-

diyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır. Həqiqətdir, elədirmi?

Amma keçən şeyləri indi açmaq olar. Gəlib nə qədər şikayət edirdilər, elə sizin özünüzün içərinizdən. Biri gəlirdi, deyirdi bu, pantürkistdir, biri deyirdi bu, paniranistdir, biri deyirdi, nə bilim, bu, Türkiyənin casusudur, biri deyirdi bu, İranın casusudur, biri deyirdi bu, sovet hökumətinin əleyhinədir, biri deyirdi bunun babası da sovet hökumətinin əleyhinə olub, özü də sovet hökumətinin əleyhinə gedir. Nə qədər gəlirdilər, deyirdilər və nə qədər çalışırdılar ki, bu əsərlərin qarşısını alsınlar. İki nöqteyinəzərdən əsərlərin qarşısını almaq istəyirdilər: birincisi, guya millətçilik və vətənpərvərlik hissi ilə dolu olan əsərlərin, ikincisi də o vaxtlar bizim həyatımızda olan mənfi halları tənqid edən əsərlərin qarşısını almaq istəyirdilər. Amma siz də bilirsiniz ki, 1969-cu ildə mən Azərbaycana rəhbər seçilən gündən Azərbaycanın həyatında olan eybəcərlikləri, mənfi cəhətləri daim tənqid etmişəm və onlarla mübarizə aparmışam. Ona görə də gəlib mənə deyəndə ki, Anar «Şəhərin yay günləri» pyesi yazıbdır, orada bizim quruluşun əleyhinə gedir, filan edir, dedim – yaxşı, gedib baxaram. Gəldim, baxdım, çox da tərifləmədim, mükafat da verdim.

Yaxud da ki, bir film vardı – «Bir cənub şəhərində» – 70-ci ildə qadağan eləmişdilər. Onu Rüstəm İbrahimbəyovla Eldar Quliyev çəkmişdilər.

Mən onda hələ respublikanın rəhbəri deyildim, KQB-nin başçısı idim. Gedib baxıb gördüm ki, çox yaxşı filmdir, əsl həqiqətləri göstərir. Sonra o filmə yol açdıq, film də çox böyük uğurla yaşadı.

Yaxud Rüstəm İbrahimbəyov «İstintaq» filmini çəkmişdi. Onun əleyhinə nə qədər çıxışlar etdilər. Amma o filmin mövzusunu mən özüm vermişdim. Yəni mən bu mövzunu birbaşa verməmişdim. Mənim gördüyüm işləri, apardığım mübarizəni, ifşa etdiyim mafiozları, korrupsiyaçıları, rüşvətxorları Rüstəm İbrahimbəyov filmə çəkmişdi. Çox gözəl, yaxşı bir film yaratmışdı. Bəli, həmin filmə o vaxtlar SSRİ-nin dövlət mükafatını verdilər. Bu, həm də bizim hörmətimizi, nüfuzumuzu yüksəltdi. Amma gəlib mənə onun əleyhinə nə qədər sözlər dedilər. Mən iki dəfə o filmə baxdım. Bütün büro üzvlərini yığdım, gəldilər baxdılar. Qurtarandan sonra hərə bir fikir söylədi. Dedim, gedin. Filmi isə ekranlara buraxdıq.

Mən bu gün deməliyəm ki, Azərbaycanda dissident olmayıbdır. Amma sizin çoxlarınız dissident olmusunuz. Sizin dissident olmağınızı müsbət mənada deyirəm. Yaxşı ki, siz dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni

qaldıra bilməzdiniz. Əgər Bəxtiyar Vahabzadə dissident olmasaydı, Azərbaycan xalqının, gənclərin şüuruna təsir edə bilməzdi. Əgər Xəlil Rza dissident olmasaydı, onun əsərlərinin təsiri güclü olmazdı. Bu gün bunları müsbət qiymətləndiririk. Əgər o vaxtlar onlar təqib olunmayıbsa, başqa yerlərdə olduğu kimi, onları dissident adlandırmayıblarsa, onları nədənsə məhrum etməyiblərsə, demək, bu da bizim nailiyyətimizdir, bu da bizim o vaxtlar, çətin dövrdə apardığımız düzgün siyasətin nəticəsidir.

A n a r: Heydər müəllim, bağışlayın, sözünüzü kəsirəm. Bir dəfə Siz özünüz dediniz ki, o vaxt elə ən böyük dissident mən özüm olmuşam.

H e y d ə r Ə l i y e v: O da doğrudur. Düzdür, mən nə şeir yazanam, nə roman yazanam, nə hekayə yazanam. Mən ömrüm boyu siyasətlə məşğul olmuşam. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Heç də təsadüfi deyil ki, kommunist partiyasına o qədər xidmət edən bir adam – yəni mən, həqiqətən kommunist partiyasına xidmət etmişəm – 1990-cı ilin yanvar hadisələrindən sonra kommunist partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında kommunsit partiyasını tərk etdim. Mən adicə tərk etmədim, mənim bu barədə bəyanatım qəzetlərdə dərc olunub, oxumusunuz. Mən ittiham verdim, bildirdim ki, niyə görə kommunist partiyasını tərk edirəm.

Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyfsilənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm.

Mənim bu gün sizə müraciətim ondan ibarətdir ki, çox sağ olun ki, indiyədək xalqımızı vətənpərvər etmisiniz, millətini sevən etmisiniz, millətinin qayğısına qalan etmisiniz. Xalqımızın əksəriyyəti belədir. Ancaq bu proses davam etməlidir. Xalqımızı daha da vətənpərvər etmək lazımdır. Bilirsiniz, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsinə dözə bilmirəm. Dözə bilmirəm ki, Azərbaycan əsgəri erməni əsgərindən gücsüz olubdur, geri çəkilibdir. Bu, daim mənə əzab verir. Nə üçün, nəyə görə? Bizim xalqımız ermənilərdən zəifmi xalqdır? Və yaxud respublikamız Ermənistan Respublikasından kiçikdirmi? Doğrudur, bunun başqa səbəbləri var. Mən bunu dəfələrlə demişəm.

Moskva Ermənistana həmişə kömək edibdir, təəssüflər olsun ki, bu gün də kömək edir. Buna baxmayaraq, bizim xalqımız qadirdir ki, bir qarış torpağımızı da Ermənistana verməsin. Biz buna qadirik. Olan olub,

keçən keçib. Amma indi gərək biz ordumuzu möhkəmləndirək. Ona görə yox ki, biz müharibə etmək istəyirik. Mənim siyasətim bölgədə sülh yaratmaqdır, həmçinin Ermənistanla da sülh, qonşuluq əlaqələri yaratmaqdır. Kim bunu nə cür qiymətləndirir, qoy qiymətləndirsin. Bu, mənim siyasətimdir. Bir müstəqil dövlət kimi Azərbaycanın gərək güclü ordusu olsun. Ona görə ki, əgər kimsə yenidən Azərbaycan torpağına hücum etmək istəsə, onun qarşısını ala bilək, biz keçmiş vəziyyətə düşməyək. Onun üçün də biz gənclərimizi daha da çox vətənpərvərlik hissiyyatları ilə tərbiyələndirməliyik. Siz gərək ordumuzla yaxın əlaqədə olasınız. Burada kimsə sizi ittiham etdi ki, cəbhəyə getmisiniz, şəhid olmusunuz, ya yox? Şairin şəhid olması lazım deyil. Amma şairin daim ordunun içərisində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, müstəqilliyin nə demək olduğunu anlatması çox vacibdir. Bir var ki, bunu əsgərə komandir desin və yaxud məndən eşidə, bir də var ki, hörmətli şair, yazıçı gedib öz bədii fikri, sözü ilə onu anlatsın ki, sən müstəqil Azərbaycanın keşiyindəsən.

Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək. Mən bir daha deyirəm: XX əsrin sonunda Azərbaycan xalqının dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir, əvəzsiz bir töhfədir. Bizim borcumuz bunu möhkəmləndirmək, yenilməz etmək, əbədi, dəyişməz etməkdir. Biz müstəqilliyimizi yenidən əldən verə bilmərik. Bunu ona görə deyirəm ki, bizim müstəqilliyimizə göz dikənlər var. Bunu ona görə deyirəm ki, Azərbaycan təbii sərvətlərinə görə, coğrafi vəziyyətinə görə çox dairələrin maraq mərkəzinə dönübdür. Ona görə də dövlətimizi möhkəm qurmaq, ölkəmizi qorumaq, saxlamaq, hər bir vətəndaşı vətənə sadiq etmək bizim borcumuzdur.

Mən oktyabrın əvvəllərində təklif verdim. Mənim təşəbbüsümlə Milli Məclis oktyabr ayının 17-də «Amnistiya haqqında» böyük bir qərar qəbul etdi. Bu qanun hərbi cinayət etmiş, ordudan fərarilik etmiş və yaxud başqa cinayətlər etmiş gənclər haqqındadır. Bu qərar ilə 7 min adam – onların əksəriyyəti gəncdir – cəzadan azad olunacaqdır. 1700 nəfəri hazırda cəza yerlərindədir. Onlar azad ediləcəkdir. 1300 nəfərin işi məhkəmədədir – onların işləri xətm ediləcək, azad olunacaqlar. 3000 nəfər fərarilik etdiklərinə görə axtarışdadır. 100 nəfəri isə yoxlamadadır. Beləliklə, onlar cəzadan azad ediləcəklər. Buraya gələrkən məlumat aldım ki, artıq

460 nəfər azad olunubdur. Bundan əlavə, 30 min gənc 1991-ci ildən başlayaraq ordunu tərk edibdir. Yəqin indi haralardasa gizlənirlər. Onların haqqında cinayət işi başlanmayıbdır. Ancaq bizim hərbi hissələrdə qeydiyyatda var ki, bu sayda adam ordunu tərk edibdir. İndi araşdırma gedəndə onlar da cəzadan azad olunacaqlar. Beləliklə, 37 min adam həmin əfv qərarı ilə cəzalardan xilas oldu. Onların demək olar ki, əksəriyyəti gənclərdir, əksəriyyəti ordudan fərarilik etmiş adamlardır.

Mən nə üçün belə bir təşəbbüs etdim? Bir tərəfdən, bunlar cinayət ediblər, ordunu, səngəri tərk ediblər, öz vətəndaşlıq borclarından yayınıblar, qaçıblar.

Demək, cinayət ediblər. Amma mən təklif verdim və onları əfv etdim. Onu nəzərə aldım ki, həmin illər Aərbaycanda o qədər özbaşınalıq olubdur, o qədər qanunsuzluq olubdur, o qədər ədalətsizlik olubdur ki, bəlkə də bunların bir çoxu elə bir şəraitdə belə bir cinayət yoluna gedibdir.

İndi biz artıq sülh şəraitində yaşayırıq. Bu qədər adamları həbsxanada saxlamaq və yaxud 30 min nəfəri – indi onların yerləri məlum deyil, orda-burda gizlənirlər – belə bir şəraitdə saxlamaq bizim üçün xeyir deyil, əksinə, zərərlidir. Şübhəsiz ki, mən bu addımı humanistlik nöqteyi-nəzərindən atdım. Bunların hamısı olacaq. Hesab edirəm ki, bu ilin sonunadək, gələn ilin əvvələrinə qədər bütün məsələlər həll ediləcək və həmin adamlar cəzadan azad olacaqlar. Ancaq lazımdır ki, bundan sonra yenə təkrar olmasın, yeni hərbi cinayətlər olmasın, yenidən ordunu qoyub qaçmasınlar, yenidən səngəri qoyub qaçmasınlar, yenidən silahı götürüb qaçmasınlar. Şübhəsiz ki, bunun qarşısını almaq ordunun borcudur, eyni zamanda sizin də borcunuzdur, bütün cəmiyyətimizin də borcudur. Hər bir valideynin borcudur övladını uşaqlıqdan düzgün tərbiyə etsin ki, o böyüyəndə öz vətəndaşlıq borcunu yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət etməyən gənc cəmiyyətdə özünə layiqli yer tutmamalıdır.

Dünən gecə televiziya ilə oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin milli bayramını göstərirdilər. Mən o verilişə baxırdım. Ankaradan Türkiyənin ordusunu göstərirdilər. Nə qədər qəhrəman bir ordudur, nə qədər yenilməz bir ordudur! Bəli, böyük öndər Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri də odur ki, öz qəhrəmanlığı ilə türk əsgərini qəhrəman etdi. Türk əsgəri 74 illik cümhuriyyət içində, hürriyyət içində, demokratiya içində yenilməzdir. Biz bundan öyrənməliyik, bu örnəkdən də istifadə etməliyik. Azərbaycanın əsgəri də elə olmalıdır. Yenə də deyirəm ki, bizim dost, qardaş ölkənin ordusunda olan qanun-

qaydaya, intizama, orada Türkiyə Cümhuriyyətinə, Türkiyənin bayrağına, Türkiyənin Konstitusiyasına olan sədaqətə baxın. Çox sevindirici, heyranedici bir haldır. Şübhəsiz ki, 74 illik tarixi olan bir ordu ilə iki illik tarixi olan bir ordunu müqayisə etmək düzgün olmazdı. Ancaq mən bunu bir örnək kimi deyirəm. Biz gərək bir təcrübə kimi bundan istifadə edək. Bu sahədə sizin böyük imkanlarınız var.

İkinci dünya müharibəsində – Böyük Vətən müharibəsində Azərbaycandan gedən 300 min adam həlak oldu, geri qayıtmadı. Xatirinizdədir, bunu dəfələrlə deyiblər. Onların bəzilərinin öləndən sonra cibindən Səməd Vurğunun, Rəsul Rzanın şeirləri çıxmışdı. Demək, şeir, şair sözü, yazıçı sözü hər şeydən təsirlidir. Ona görə də istərdim ki, bu sahəni siz daim öz diqqətinizdə saxlayasınız. Mən bu sözləri bir sizə demirəm. Bütün Azərbaycan xalqına müraciət edirəm. Hər ataya, anaya müraciət edirəm, hər bir valideynə müraciət edirəm, eyni zamanda hər bir gəncə müraciət edirəm.

Azərbaycanın daim sülh şəraitində yaşaması üçün, Azərbaycanın müstəqil dövlət kimi daim yaşaması üçün onun qüdrətli ordusu olmalıdır. Ordunun qüdrəti təkcə silahda deyil, onun gücündə deyil. Ordunun əsas qüdrəti hər bir əsgərin mənəviyyatındadır, hər bir əsgərin şücaətindədir, hər bir əsgərin xalqına, torpağına, vətəninə sədaqətindədir.

Biz xalqımızda, gənclərimizdə, ordumuzda, hər yerdə bu sədaqət hissini yaratmalıyıq.

Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər təriflər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də tərifləyirəm. Siz buna layiqsiniz.

Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? (*Yerdən səs:* Bəli, tamamilə doğrudur).

Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət, xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz za-

man da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir. Doğrudur, vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. Onun da səbəbləri məlumdur.

Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı.

Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi.

İndi bizim çox gözəl dilimiz var. Burada professor Hacıyev çıxış edərək türk yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o birisi danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə – Türkiyədə də dilimizi – Azərbaycan dilini çox sevirlər. Azərbaycanda mövcüd olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir.

İndi baxın, dövlətin bütün sahələrində sırf Azərbaycan dilində danışırıq və lazım olan bütün xüsusi terminləri də Azərbaycan dilində ifadə edirik. Azərbaycan dili respublikamızda artıq öz yerini tutubdur. Xarici ölkələrin nümayəndələri də bizim dili bilməyərək, sadəcə onu eşidərək, dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var! Doğrudan da bu belədir. Bəlkə də biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir!

Bilirsiniz, mən bunu dəfələrlə demişəm və bu gün fürsətdən istifadə edib yenə də deyirəm: biz türkdilli xalqların ailəsinə mənsub olan bir xal-

qıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur.

O ki, qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki, respublikamızda hansısa kolleclərdə ingilis dilində dərs keçilir, – bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat olmaq lazım deyil. Siz ingilis dilində dərs keçilən kolleclərin sayını götürsəniz və bizim Azərbaycan dilində dərs keçilən məktəblərin sayı ilə müqayisə etsəniz, görəcəksiniz ki, bu kolleclər azlıq təşkil edir. Amma mən bu barədə mübahisə etmək istəmirəm. Bir halda ki, burada belə bir fikir söylənilibdir, buna diqqət yetirmək lazımdır. Reklam və məktəb məsələlərinə diqqət yetirmək lazımdır.

Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Amma birinci növbədə öz ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da belələri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam.

Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Mən öz azərbaycanlılarımızı məcbur edə bilmirəm ki, Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri cənab Bloxin də burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir.

Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmir-

dim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, İngiltərənin səfiri öyrənir, Fransanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir.

O ki, qaldı şirkətlərdə hansı dildə danışmaq məsələsinə – bəli, onlar öz işlərini aparmaq üçün o dilləri bilən adamları işə qəbul edirlər. Amma deyə bilmərəm ki, sən öz işini niyə ingilis dilində aparırsan, Azərbaycan dilində apar. O öz şirkəti ilə yazışma aparır, başqa sənədlər var və s. Bunu öz dilində aparmalıdır. Eyni zamanda sizə deyə bilərəm ki, o şirkətlərin nümayəndələri mənə yazdıqları məktubları iki dildə – həm öz dillərində, həm də Azərbaycan dilində yazırlar. Yəni onların çox yaxşı tərcüməçiləri var. Mən hərdən fikir verirəm – çox dəqiq tərcümə edirlər. Onlar məktubu mənə iki dildə göndərirlər və bəzən də özləri mənə təklif edirlər ki, dərhal bunu oxuya bilim.

Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!

Hörmətli dostlar!

Mən bu gün sizinlə çox açıq, səmimi söhbət aparıram. Ürəyimdə olan sözləri sizə dedim. Güman edirəm ki, dediyim sözlər bir daha onu göstərir ki, mən bir dövlət başçısı kimi ədəbiyyata, mədəniyyətə indiyə qədər olduğu kimi, bundan sonra da qayğımı göstərəcəyəm və sizin hər birinizin yaradıcılığınızın uğurlu olması üçün yardımımı əsirgəməyəcəyəm. Bilmirəm, bəlkə də mən çıxışımı qurtarandan sonra siz yenə danışacaqsınız. Ancaq mən bu gün sizinlə bərabər keçirdiyim saatlardan, gündən çox razıyam və sizə təşəkkür edirəm ki, məni səbrlə, diqqətlə dinlədiniz. Mən də öz ürəyimdə olan sözləri sizə çatdırdım.

Sizə cansağlığı arzu edirəm. Ədəbiyyatımıza yeni uğurlar arzu edirəm. Heç şübhə etmirəm ki, Azərbaycan ədəbiyyatı XX əsri uğurla sona çatdıracaq və XXI əsrdə dünya, bəşər ədəbiyyatına gözəl nümunələr verəcəkdir. Sağ olun.

M.F.AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT KİTABXANASINDA «AZƏRBAYCAN QAÇQINLARI» FOTOALBOMUNUN TƏQDİMATI MƏRASİMİNDƏ NİTQ

M.F.Axundov adına Respublika Kitabxanası
5 noyabr 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin həyatını əks etdirən fotoşəkillərdən ibarət kitabın yaranması və təqdim olunması təqdirəlayiq, əlamətdar bir hadisədir. 1988-ci ildən, Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayandan indiyə qədər Azərbaycanın həyatında qaçqınlar və məcburi köçkünlər amili yaranmışdır. Təəssüflər olsun ki, qaçqınların və məcburi köçkünlərin sayı ilbəil artmışdır. İndi onların sayı artıq 1 milyon nəfərdir.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində yaranmış hərbi münaqişə ölkəmizə çox ağır zərbələr vurmuşdur. Bu hərbi təcavüz Azərbaycanın iqtisadiyyatına, həyatının bütün sahələrinə və vətəndaşlarına böyük zərbələr vurmuşdur. Azərbaycan əsrin sonunda – 1988-ci ildən başlayaraq indiyə qədər üzləşdiyi bu ağır faciə XX əsrdə xalqımızın başına gəlmiş bəlalardan, faciələrdən ən dəhşətlisi, ən ağırı, ən zərərlisidir. Biz bu faciənin mənfi, dəhşətli nəticələrini həyatımızın bütün sahələrində hiss edirik. Onun ağır nəticələri o cümlədən insanların, vətəndaşlarımızın həyatında çox təsirli şəkildə hiss olunur.

Dünyada, Yer kürəsinin bir çox yerlərində qaçqınlar və köçkünlər mövcuddur. Ancaq Azərbaycanın, 7 milyon əhalisi olan ölkəmizin vətəndaşlarından 1 milyonu qaçqın və köçkün vəziyyətində yaşayır. Hesab edirəm ki, dünyanın heç bir yerində belə bir hadisə yoxdur.

Biz müharibə nəticəsində çoxlu şəhidlər, itkilər vermişik. Bu, xalqımız üçün ağır yaradır. Torpaqlarımızın işğal olunmuş hissəsində əsrlər boyu yaranmış varidatımız dağıdılıbdır, tarixi abidələrimiz təhrif olunubdur, məhv edilibdir. Orada yaşamış insanların qəbiristanlıqları dağıdılıbdır. Bunların hamısı bizim üçün ağır yaradır. Bütün bunlarla bərabər, insanların evindən, yerindən-yurdundan zorla çıxarılması, onların

didərgin düşməsi, varını-yoxunu, ailə üzvlərindən çoxunu itirməsi və bir neçə ildən bəri çadırlarda, vaqonlarda, yaşayış üçün yararlı olmayan ayrı-ayrı yerlərdə ağır vəziyyətdə yaşaması bizim həyatımızda, Azərbaycan xalqının, hər bir vətəndaşımızın qəlbində olan böyük bir yaradır.

Təəssüflər olsun ki, biz Azərbaycan xalqının düşdüyü bu ağır vəziyyəti, insanların o çətin şəraitdə yaşamasını, qaçqınların bu ağır vəziyyətini dünya ictimaiyyətinə lazımi qədər çatdıra bilməmişik. Təəssüf ki, Ermənistan–Azərbaycan münaqişəsində kimin günahkar olmasını da son illərə qədər hələ sübut etmək mümkün olmamışdı. Ermənistan Azərbaycana təcavüz etdiyi, respublikamızın torpaqlarını işğal etdiyi halda bəzi beynəlxalq təşkilatlarda, bəzi ölkələrdə, dünyada hesab edilirdi ki, Azərbaycan Ermənistanı blokadaya alıbdır, guya Azərbaycan Ermənistana əziyyət verir, guya Azərbaycanın düzgün olmayan siyasəti nəticəsində Ermənistanda insanlar pis yaşayırlar. Bəzi hallarda belə təsəvvür yaranırdı ki, burada Azərbaycan Ermənistandan daha çox günahkardır.

Məlumdur ki, son illər Azərbaycan dövlətinin, hökumətinin apardığı siyasət nəticəsində beynəlxalq təşkilatlarda, dünya ölkələrinin tam əksəriyyətində artıq bu məsələ aydınlaşıbdır. Kimin təcavüzkar olması və kimin təcavüzə məruz qalması artıq məlumdur.

Bizim apardığımız ardıcıl siyasət nəticəsində ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində qəbul edilmiş bəyanat da buna əyani sübutdur. Ancaq təəssüflər olsun ki, dövlət səviyyəsində aparılan bu ardıcıl siyasətlə bərabər, respublikamızın başqa təşkilatları, ictimai təşkilatları tərəfindən Azərbaycanın həqiqətlərini dünyaya yaymaq üçün lazımi işlər keçmişdə görülməyibdir, indi çox az görülür. Qaçqınların, məcburi köçkünlərin vəziyyəti haqqında dünya ictimaiyyətinə daim ətraflı, müfəssəl məlumat vermək və dünya ictimaiyyətini bu problemə cəlb etmək, onu daim diqqət mərkəzində saxlamaq üçün, yenə də deyirəm, Azərbaycanın müvafiq təşkilatları və ictimaiyyəti, ictimai təşkilatları lazımi iş görə bilməyiblər.

Bu gün burada təqdim olunan kitab Azərbaycanda yaşayan köçkünlərin və qaçqınların vəziyyətini müəyyən qədər əks etdirir. Hesab edirəm ki, bu, həmin məsələni, yəni qaçqınların vəziyyətini bu qədər geniş əks etdirən ilk kitabdır. Ancaq mən hesab edirəm ki, Azərbaycanda yaşayan qaçqınların, məcburi köçkunlərin, çadırlarda ağır şəraitdə yaşayan insanların vəziyyətini əks etdirmək üçün bir neçə belə kitab lazımdır. Bu məsələ heç vaxt bir kitaba sığmaz. Ancaq indiyə qədər, demək olar ki,

heç bir şey olmadığına, yaxud bu barədə az vəsaitlər olduğuna görə biz bu kitabı yüksək qiymətləndiririk.

Mən fürsətdən istifadə edib, bu münasibətlə bildirmək istəyirəm ki, Azərbaycanda – həm hökumətdə, həm də ictimai təşkilatlarda – qaçqınların və köçkünlərin vəziyyəti ilə məşğul olan orqanlar qeyri-qənaətbəxş işləyirlər. Azərbaycanda qaçqınların və köçkünlərin vəziyyəti ilə məşğul olan xüsusi dövlət komitəsi, böyük bir nazirlik var. Nazirlər Kabinetində bu məsələ ilə məşğul olan böyük bir şöbə var. Bir çox ictimai təşkilatlar bu məsələ ilə məşğul olmalıdırlar. Ancaq mən hesab edirəm ki, bu təşkilatlar, bu orqanlar üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmirlər. Mənim bu sözlərim qaçqınlara və məcburi köçkünlərə daimi göstərilməli olan diqqət, qayğı və humanitar yardımlar məsələsinə də aiddir. Eyni zamanda qaçqınların və köçkünlərin vəziyyətini həm Azərbaycan ictimaiyyətinin, həm də dünya ictimaiyyətinin daim diqqət mərkəzində saxlamaq və dünya ictimaiyyətinə daim çatdırmaq sahəsinə də aiddir.

Belə olan halda qaçqınların, məcburi köçkünlərin vəziyyətinə getgedə diqqət azalır, onların yaşaması üçün göstəriləcək yardımların miqdarı azalır və beləliklə, bu məsələ – bizim həyatımızın ən faciəli bir cəhəti – adiləşir. Təsadüfi deyil ki, beynəlxalq humanitar təşkilatlar da Azərbaycanda olan qaçqınlara, köçkünlərə öz yardımlarını azaldırlar, bu məsələyə öz münasibətlərini soyudurlar. Təəssüf ki, bizim dövlət, hökumət orqanları bu işlərə diqqət yetirmirlər. Bəziləri belə düşünürlər ki, artıq bir çox il keçibdir, qaçqınlar və məcburi köçkünlər öz vəziyyətlərinə alışıblar, çadırlarda, dəmir yolunun üzərində, vaqonlarda yaşamağa öyrəşiblər, dözümlü olublar və dözürlər, ona görə də bunların yaşayışını xırda-xırda elə normal hesab etmək lazımdır. Mən belə meyilləri hiss edirəm. Ona görə də mən bu sözləri bu gün həyəcanla, çox narahatlıqla nəinki burada toplaşanlara, ümumiyyətlə, bütün ictimaiyyətimizə çatdırmaq istəyirəm.

Əgər biz işğal olunmuş torpaqlarımızın azad edilməsinə nail ola bilməmişiksə və yerindən-yurdundan didərgin düşmüş insanları öz evlərinə, yurdlarına qaytara bilməmişiksə, demək, bu problem həll olunmayıbdır. Demək, biz qaçqınlara və köçkünlərə daha da borcluyuq və onlara daha da diqqətli olmalıyıq. Çünki insan bir ay, iki ay, bir il belə vəziyyətə dözür. Ona görə dözür ki, onda ümid var ki, o bu vəziyyətdən tezliklə çıxacaq. Ancaq bir il, iki il, üç il, dörd il olanda o, ümidini itirə bilir. Amma gərək biz imkan verməyək ki, insanlar ümidini itirsinlər. Apardığımız böyük işlərlə yanaşı – yəni işğal edilmiş torpaqlarımızın azad olunması sahəsində apardığımız böyük işlərlə yanaşı – biz gərək qaçqınlara, köçk-

ünlərə daim diqqət, qayğı göstərək. Gərək onlara diqqətimizi, qayğımızı, köməyimizi keçən illərə nisbətən daha da artıraq.

Təəssüf ki, vəziyyət belə deyil. Ona görə də mən bu gün bu məsələ barəsində belə həyəcanla danışıram. Mən qaçqınların, məcburi köçkünlərin işi ilə məşğul olanda bütün orqanlardan – hökumət, dövlət orqanlarından tələb edirəm ki, onlar öz işlərində buraxdıqları səhvləri aradan qaldırsınlar, öz vəzifələrini layiqincə yerinə yetirsinlər və bu sahədə öz işlərində ciddi dönüş yaratsınlar.

Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalıdır. Baş nazirin müavini İzzət Rüstəmov – bu məsələyə məsul və həmin vəzifəyə məhz bu məqsədlə təyin edilmiş şəxs gərək bilsin ki, görülən işlər bizi qane etmir. Bu işlərlə daha da ciddi və konkret məşğul olmaq lazımdır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Qəhrəmanovu mən bir dəfə tənqid etmişdim, bu gün bir daha deyirəm – vəziyyəti kökündən düzəltməlidir və biz bu komitənin, bu böyük hökumət orqanlarının işinin nəticələrini görməliyik.

Nazirlər Kabineti bu məsələni daim diqqət mərkəzində saxlamalıdır və vaxtaşırı, bəlkə də ardıcıl surətdə, müəyyən bir plan əsasında bu məsələlərin vəziyyətini dinləməli, müzakirə etməli, lazımi tədbirlər görməlidir və lazım olan vaxtlarda mənə məlumatlar və öz təkliflərini verməlidir.

Mən ictimai təşkilatlara müraciət edirəm. Onlar da bu sahəyə öz münasibətlərini tamamilə dəyişdirməlidirlər. Qaçqınların, köçkünlərin vəziyyətini unutmaq olmaz. Unutmaq olmaz ki, biz daim onların yanında olmalıyıq, biz onlarla bir yerdə olmalıyıq, onlarla tez-tez görüşməliyik, qaçqın düşərgələrində olmalıyıq, onların vəziyyətini bilməliyik və onlara əlimizdən gələn yardımı etməliyik.

Mən beynəlxalq humanitar təşkilatlara müraciət edirəm və rica edirəm ki, onlar Azərbaycanın bu vəziyyətinə öz diqqətlərini daha da artırsınlar, öz münasibətlərini zəiflətməsinlər, göstərdikləri yardımları da mütəşəkkil etsinlər. Bəzən bunlar pərakəndə xarakter daşıyır və bəzən də bir sıra səbəblərdən, yardımların qaçqınlara çatdırılması ilə məşğul olan ayrı-ayrı Azərbaycan vətəndaşlarının günahı üzündən, yaxud da ki, onların qeyri-qanuni hərəkətlərinə görə bu yardımlar qaçqınlara, köçkünlərə vaxtlı-vaxtında çatmır.

Qaçqınlar, məcburi köçkünlər Azərbaycanın bir çox inzibati bölgələrində yaşayırlar və bu inzibati rayonların, şəhərlərin icra orqanları, icra hakimiyyəti başçıları var. Mən onlardan tələb edirəm ki, qaçqınlara və

məcburi köçkünlərə qayğı və diqqəti artırsınlar, onların üzərinə bu sahədə qoyduğumuz vəzifələri layiqincə yerinə yetirsinlər.

Şübhəsiz, bu gün burada təqdim olunan kitabı geniş yaymaq mümkün olsa, bu, Azərbaycandakı qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, dünyada təəssüratı daha da dəqiqləşdirəcəkdir. Ancaq tam təəssürat yaratmaq üçün gərək bu iş ardıcıl, mütəmadi getsin, epizodik xarakter, kompaniya xarakteri daşımasın. Hələ ki, Azərbaycanda qaçqınlar, köçkünlər var, hələ ki, münaqişə qurtarmayıbdır, bu məsələ ilə hamımız daim, ardıcıl məşğul olmalıyıq.

Qaçqınların, köçkünlərin vəziyyətini bilməyən adamlar üçün əlbəttə ki, bu kitab geniş təəssürat yaradır. Amma bizim üçün, yəni qaçqınların, məcburi köçkünlərin vəziyyətini gözü ilə görmüş adamlar üçün bu kitab çox kiçik bir şeydir, azdır. Yəni mən bu kitabda qaçqınların o ağır vəziyyətini tamamilə ağır görmürəm. Yenə də deyirəm, bu kitab kənar adamlarda böyük təəssürat yaradacaqdır. Amma bizim borcumuz odur ki, bütün bu mənzərəni – Azərbaycanın həyatında olan, qaçqınlarla və köçkünlərlə əlaqədar yaranmış mənzərəni bütün dünyaya çatdıraq. Onun üçün bir kitab yox, bir neçə kitab yaranmalıdır, bəlkə seriyalar olmalıdır, bəlkə də hər bir qaçqın düşərgəsi haqqında bir kitab yaratmaq lazımdır. Buna heç bir şeyi əsirgəmək lazım deyil. Bunun üçün hər bir vəsaitdən istifadə etmək lazımdır.

Hesab edirəm ki, Nazirlər Kabineti Prezidentin İcra Aparatı ilə bərabər belə kitabların yaranmasının proqramını hazırlamalıdır, tərtib etməlidir. Bu proqram əsasında bir çox seriya belə kitablar yaranmalıdır. Mən bayaq fikirlərimi dedim. Ancaq başqa fikirlər də ola bilər. Bu fikirlərin əsasında bu məsələnin çərçivəsini genişləndirmək olar. Bunun üçün də həm humanitar təşkilatlardan, həm ictimai təşkilatlardan, həm də dövlətdən, hökumətdən lazımi vəsait ayırmaq mümkündür. Biz bunu edə bilərik. Burada çətinlik olmayacaqdır. Ancaq bu işi görmək lazımdır.

Məlumdur ki, biz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması uğrunda çalışırıq və bu sahədə müəyyən irəliləyişlər mövcuddur. ATƏT-in Minsk qrupunun son təkliflərini Azərbaycan da, Ermənistan da əsasən qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin nümayəndələri bu günlərdə yenidən bizim bölgəyə gələcəklər, danışıqlar aparacağıq. Hesab edirik ki, məsələnin sülh yolu ilə həll olunması müəyyən bir relslər üzərinə düşübdür. Biz bunu sadəcə, sürətləndirməliyik və qarşıda olan maneələri aradan götürməliyik.

Şübhəsiz ki, işğal olunmuş rayonlar bunların nəticəsində işğalçı hərbi dəstələrdən azad ediləcəkdir. Bilirsiniz ki, birinci mərhələdə, işğal edilmiş altı rayonun azad olunması və oradan zorla köçürülmüş, çıxarılmış insanların öz yerlərinə qayıtması nəzərdə tutulubdur. Ancaq bu, müəyyən vaxt tələb edən bir prosesdir.

Nə qədər ki, biz bu münaqişəyə son qoymamışıq, nə qədər ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyibdir, nə qədər ki, bu qaçqınlar, məcburi köçkünlər öz yerlərinə, yurdlarına qayıtmayıblar, bu problem Azərbaycanın bütün orqanlarının – hökumətin, dövlətin, ictimaiyyətin, hər bir vətəndaşın diqqət mərkəzində olmalıdır. Hamı çalışmalıdır ki, qaçqınların, köçkünlərin indiki vəziyyətinin müəyyən qədər normal saxlanması üçün öz yardımını etsin. Hamımız ardıcıl surətdə çalışmalıyıq ki, Azərbaycanın bugünkü mənzərəsi, məcburi köçkünlərin, qaçqınların belə ağır vəziyyətdə olması dünyanın hər bir guşəsinə, ölkəsinə, hər bir dövlət başçısına, hər bir beynəlxalq təşkilata çatsın. Beləliklə, biz sülh yolu ilə ədalətin qələbəsinə nail olacağıq.

Bu gün təqdim olunan kitabın yaranmasında zəhmət çəkmiş bütün təşkilatlara, şəxslərə təşəkkür edirəm. Bu təşəbbüsü qiymətləndirirəm. Hesab edirəm ki, çox gec də olsa, belə bir təşəbbüs və bugünkü təqdimat mərasimi bu sahədə gələcəkdə görüləsi işlər üçün təkanverici bir məqamdır.

Ümidvaram ki, bu mərasimdə iştirak edən xarici ölkələrin səfirliklərinin, beynəlxalq təşkilatların nümayəndələri bu kitabın yayılmasında, təbliğ olunmasında öz xidmətlərini göstərəcəklər, ümumiyyətlə, bu gün burada meydana çıxmış məsələlərin həll olunmasında Azərbaycan Respublikasına, xalqına və yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarına yardımçı olacaqdır. Sağ olun.

ƏLİLLƏRİN III RESPUBLİKA YARADICILIQ SƏRGİ-MÜSABİQƏSİNİN AÇILIŞINDA ÇIXIŞ

Tofiq İsmayılov adına Uşaq Yaradıcılığı Sarayının rəngkarlıq və tətbiqi sənət sərgisi salonu
6 noyabr 1997-ci il

Əziz bacılar, qardaşlar, sərgi iştirakçıları!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı bu gün respublikamızın vətəndaşlarından fiziki cəhətdən zəif olan insanların işlərinin nəticəsinin bu qədər gözəl nümayiş etdirilməsi və belə bir sərginin açılması münasibətilə təbrik edirəm.

Bu sərgi, burada nümayiş etdirilən eksponatlar insana çox böyük təsir bağışlayır. Birincisi, öz yüksək estetik keyfiyyətinə görə təsir bağışlayır. Həqiqətən burada təqdim olunan hər bir əsər böyük hisslər doğurur. Bu əsərləri yaradanlar peşəkar rəssamlar, yaxud peşəkar sənətkarlar deyillər. Ancaq işlər onu təsdiq edir ki, bu əsərlərin hamısı yüksək peşəkar səviyyədədir. Demək, bu əsərləri yaradan adamların fitri istedadı, incəsənətə və burada təqdim edilən sənət nümunələrinin yaranmasına olan həvəsi, onların fədakarlığı, çalışqanlığı belə nümunələr yaradıb bu sərgiyə təqdim etmələrinə imkan veribdir. Əgər nəzərə alsaq ki, bu əsərlərin müəllifləri bu və ya başqa cəhətdən fiziki çətinlik keçirirlər, fiziki çatışmazlığa məruz qalıblar, onda bu əsərlərin nə qədər qiymətli və bu insanların nə qədər böyük hörmətə layiq olduğu daha da aşkar olur. Mən bu əsərləri yaradanlara, burada nümayiş etdirməyə gələnlərə, sərgidə görüşdüyüm insanlara, bu əsərlərin müəlliflərinə hörmət və ehtiramımı bildirir və onları bu nailiyyətləri münasibətilə təbrik edirəm.

Bu əsərlər və ümumiyyətlə, sərgi bir daha onu sübut edir ki, insan nə qədər böyük istedada və böyük potensiala malikdir. Bu onu göstərir ki, biz hələ insanların nə qədər böyük potensiala malik olmasını bəlkə də tam dərk edə bilməmişik. Əgər insanın əlləri yoxdursa, ayaq barmaqları ilə şəkil çəkir və o şəkil hər bir rəssamın şəklindən də bəlkə yaxşıdır, yaxud elə onun səviyyəsindədir. Bu onu göstərir ki, insan nəyə qadirdir. İradə, öz gücünə inam, öz imkanlarından istifadə etmək üçün çalışqanlıq

– bunlar hamısı insanlarda olan daxili potensialı büruzə verir və belə əsərlərin yaranmasına gətirib çıxarır.

Doğrusu, mən bu gün çox heyran oldum. Çox heyran oldum. İlk dəfə deyil mən belə sərgiləri görürəm, seyr edirəm. Ancaq buna baxmayaraq, hər dəfə onlar məni heyran edir. Güman edirəm, bu sərginin iştirakçılarının hamısı mənimlə eyni fikirdədirlər. Sərgi məni sevindirir. Sevindirir ona görə ki, insan nə qədər çətinlik çəksə də, onu yaşadan həmişə həyata olan inamıdır, nikbinliyi, iradəsidir. Əgər insanda iradə, həyata inam varsa, öz daxili qüvvələrinə inam varsa, insan çox şey edə bilər.

Əgər fiziki cəhətdən çatışmazlığı olan insanlarımız bu cür əsərlər yarada bilirsə, demək, bizim tam sağlam olan insanlarımız nələr yarada bilərlər. Təkcə rəsm əsərləri, incəsənət əsərləri yox, həyatımızın bütün sahələrində nələr yarada bilərlər. Bunlar hamısı indi, Azərbaycanda müstəqil dövlət, demokratik dövlət quruculuğu prosesində çox vacibdir. Hesab edirəm ki, bu sərginin iştirakçıları öz əsərləri ilə nəinki özlərini, özlərinin varlığını ictimaiyyətdə təsdiq edirlər, eyni zamanda onlar ictimaiyyətə, xalqımıza göstərirlər ki, insan nəyə qadirdir.

Bizim qədim tariximiz bunu dəfələrlə sübut edib ki, insan çox şeyə qadirdir. Biz qədim «Fərhad və Şirin» əfsanəsindən bilirik ki, bir insan dağı da yarıb keçə bilər. O əfsanə də əfsanə deyil, həqiqətdən götürülmüş bir əhvalatdır. Bizim tariximizdə belə nümunələr çox olubdur və bugünkü həyatımız belə nümunələri daha da geniş nümayiş etdirir. Bunu nümayiş etdirənlərin də bir çoxu məhz bu sərginin iştirakçılarıdır.

Mən deyə bilmərəm bu əsərlərin hansı hansından yaxşıdır, – bəlkə də münsiflər heyəti müəyyən edəcək, – amma güman edirəm, onların da qarşısında çox çətin bir vəzifə durur. Çünki bunların hərəsinin özünəməxsus xüsusiyyəti, keyfiyyəti, hərəsinin özünəməxsus dəyəri, gözəlliyi var. Ona görə də bunları bir-birindən seçmək çox çətin olacaqdır. Ancaq münsiflər heyəti bu əsərləri seçib müəyyən edəndən sonra və onların qiyməti təyin olunandan sonra mən də mütləq bu əsərlərdən öz evim üçün almaq fikrindəyəm. Ancaq bunu indi etmək istəmirəm, çünki hansını istəsəm, mənə deyəcəklər ki, qiyməti belədir. Qoy bunu münsiflər müəyyən etsinlər, qiymət elan olunsun, ondan sonra mən də bir vətəndaş kimi gəlib, hansı daha xoşuma gələrsə, onları alacağam. Şübhəsiz, hesab edirəm ki, bizim vətəndaşlarımız burada olan incəsənət nümunələrini həvəslə alacaqlar, çünki hamısı gözəldir.

Bu sərgi eyni zamanda göstərir ki, Azərbaycanda əlillərə, fiziki cəhətdən çatışmazlığı olan insanlara indi həqiqətən qayğı göstərilir. Bunlar məhz bu qayğının nəticəsində bu işləri görə biliblər. Mən deyə bilmərəm ki, biz bu

qayğını tamamilə təmin edə bilirik. Əgər belə deməydim, bu, ədalətli olmazdı. Çatışmazlıqlarımız hələ çoxdur. Müharibə əlillərinə, torpaqlarımızın müdafiəsində şikəst olmuş adamlara, fiziki cəhətdən zədə almış insanlara qayğımız hələ istənilən səviyyədə deyildir. Biz bunu artırmalıyıq. Bunu həm dövlətin ümumi proqramlarında artırmalıyıq, həm də ki, ümumi proqramlarımızın həyata keçirilməsində müvafiq orqanlar bunu etməlidir.

Təəssüf ki, bəzən belə olur: bu sahəyə, bu təbəqəyə qayğı göstərilməsi üçün ayrılan maddi və maliyyə vəsaitləri öz ünvanlarına çatmır. Bu da həqiqətdir. Ona görə də biz bu nöqsanları aradan qaldırmalıyıq. Bir tərəfdən dövlət, hökumət proqramlarımızda bu sahəyə daha da çox vəsait ayırmaq və bu sahədə daha çox işlərin görülməsi üçün lazımi tədbirlər görməliyik. Amma bununla bərabər, bizim müvafiq orqanlarımız – nazirliklər, yerli icra hakimiyyəti orqanları, başqa hökumət orqanları bu hökumət, dövlət proqramlarının həyata keçirilməsinə sədaqətlə xidmət etməli, əyintilərə yol verməməlidirlər. Bu sahə bizim üçün çox vacib sahədir.

Əmin ola bilərsiniz, – bunu sizə və sizin simanızda Azərbaycanın bu təbəqədən olan insanlarının hamısına deyirəm, – biz bundan sonra da birinci növbədə Vətənin, torpağın müdafiəsində şikəst, əlil olmuş insanlara və onlarla bərabər, fiziki cəhətdən çatışmazlığı olan insanların hamısına qayğını və diqqəti ilbəil artıracağıq və bu, gələcəkdə proqramlarımızda daha da görkəmli yer tutacaqdır. Ümidvaram ki, Azərbaycanın dövlət və hökumət orqanlarının hamısı mənim bu çağırışımı layiqincə yerinə yetirəcəklər və biz əlillər, şikəst adamlar üçün, fiziki çatışmazlığı olan insanlar üçün – onların yaşaması, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq.

Mən sizin hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı arzu edirəm. Siz qəhrəman insanlarsınız, – mən sərgi iştirakçılarını nəzərdə tuturam, – siz qəhrəman, şücaətli insanlarsınız. Belə çətinliklərin öhdəsindən gələrək bu cür gözəl işlər görürsünüzsə, siz böyük hörmətə və ehtirama layiq insanlarsınız. Sizə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

Mən bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini də qeyd etmək istəyirəm. Nazirlik bu sahədə çox iş görür və o işi də yüksək qiymətləndirirəm. Son vaxtlar nazirliyin işi güclənibdir və lazım olan tədbirləri həyata keçirirlər. Ancaq dediyim tənqidlər hamıya, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də aiddir. Əldə etdiyiniz nailiyyətlərə görə mən məmnun olduğumu bildirir, ancaq sizdən də, bütün hökumət və dövlət orqanlarından da tələb edirəm ki, işləri bundan sonra daha da yaxşı aparasınız.

XALQ ARTİSTİ TOFİQ QULİYEVƏ

Bakı şəhəri, 7 noyabr 1997-ci il

Hörmətli Tofiq Quliyev!

Sizi – milli mədəniyyətimizin inkişafında böyük xidmətləri olan görkəmli bəstəkarı və ictimai xadimi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin yaratdığınız əsərlər dəyərli sənət nümunələri olmaqla yanaşı, xalqımızda milli özünüdərkin, milli süurun möhkəmləndirilməsi işinə xidmət etmişdir.

Siz musiqi tarixinə Azərbaycan estradasının banisi kimi daxil olmusunuz. X əsrdə yaranmış musiqi formalarından məharətlə istifadə etməklə Siz Azərbaycan müsiqisinə tamamilə yeni janrlar gətirmisiniz. Geniş diapazona malik yaradıcılığınız Sizə minlərlə dinləyicinin tükənməz məhəbbətini qazandırmışdır. Yüksək sənətkarlıqla yaratdığınız mahnılar, operettalar, estrada və kino müsiqisi Azərbaycanın musiqi xəzinəsinin qızıl fonduna əbədi daxil olmuş və mədəniyyətimizə geniş şöhrət gətirmişdir.

Sizin mənalı həyatınız və zəngin yaradıcılığınız neçə-neçə nəsil üçün, xüsusən gənc sənətçilər üçün xalqa sədaqətli xidmətin nümunəsi olmuşdur. Uzun illər rəhbərlik etdiyiniz Azərbaycan Bəstəkarlar İttifaqı yüksək təşkilatçılıq qabiliyyətiniz, gözəl insani keyfiyyətləriniz sayəsində ölkəmizin mötəbər mədəniyyət ocaqlarından birinə çevrilmişdir. Azərbaycanda bəstəkar kadrlar yetişdirmək sahəsində Bakı Musiqi Akademiyasının professoru kimi, fəaliyyətiniz də yüksək qiymətə layiqdir.

Nadir fitri istedad, böyük zəhmətsevərlik, xalqımızın zəngin musiqi ənənələrinə sonsuz sədaqətlə səciyyələnən çoxşaxəli yaradıcılığınız sayəsində Siz Azərbaycan musiqi sənətinin canlı klassikinə çevrilmisiniz. Sizin müasiriniz olmaq hər bir azərbaycanlının qəlbini qürur və iftixar hissi ilə doldurur.

Əziz Tofiq!

Bu yubiley gününüzdə Sizi bağrıma basıram, Sizə dərin ehtiramımı bildirir, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN «HARA GEDİR BU DÜNYA?!» PYESİNİN TAMAŞASINDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Milli Dram Teatrı
7 noyabr 1997-ci il

H e y d ə r Ə l i y e v: Müvəffəqiyyətlə keçən tamaşaya görə sizin hamınızı təbrik edir, təşəkkürümü bildirir və yeni uğurlar arzulayıram.

Bəxtiyar müəllim, bu pyes əvvəllər də elə indiki quruluşda nümayiş etdirilmişdirmi?

B ə x t i y a r B a h a b z a d ə: Bəli, həmin quruluşdur. Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, bəstəkarı Adil Bəbirovdur. Bu pyes 1991-ci ildə bir neçə dəfə tamaşaya qoyulub. Sonra Türkiyədə onun beş tamaşası oldu. Daha sonra teatrın kollektivini Kiprə dəvət etdilər, orada da iki tamaşa göstərildi. Pyesin tamaşaları həm Türkiyədə, həm də Kiprdə böyük rəğbətlə qarşılandı.

H e y d ə r Ə l i y e v: Bu mövzu bu gün də öz aktuallığını itirməyibdir. İnsan nə qədər yaşayacaqsa, bu mövzu bir o qədər də aktual olacaqdır.

Bəxtiyar Bahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Bəxtiyar Bahabzadə adətən şeirlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. O, 1970-ci illərdə də çox uğurlu əsərlər yazmışdı, 1991-ci ildə də belə bir əsər yaradıbdır.

Mən bu tamaşanı çox böyük maraqla, həvəslə izlədim. Doğrudur, bu pyesin məzmunu ilə mən əvvəldən tanış deyildim, ona görə də hadisələrin gedişini bəzən tuta bilmirdim ki, sonra nə olacaq. Mənə belə gəlir ki, əsərin ən böyük keyfiyyəti elə bundan ibarətdir. Bəzən tamaşaya bir az baxandan sonra hadisələrin sonrakı gedişini və nə ilə sona çatacağını təxminən bilirsən. Amma düzü, mən bu tamaşada bunu tuta bilmədim. Tamaşanın ortasında bir yerdə ixtiraçı alimin monoloqu qurtaranda elə bildim ki, tamaşa da bununla başa çatacaq. Sonra gördüm ki, yox, tamaşa hələ davam edir. Bunun özü müəllifin böyük ustalığının dərinliyini, məharətini, eyni zamanda bu mövzunun açılmasının qeyri-sadəliyini

göstərir. Tamaşaçının, ümumiyyətlə, kitab oxuyan adamın diqqətini bütün başqa cəhətlərlə yanaşı bu, həmişə cəlb edir. Əsərin daxili mənası, məzmunu şübhəsiz ki, çox əhəmiyyətlidir. Məndə belə bir təsəvvür yarandı ki, bu, fəlsəfi, psixoloji bir əsərdir, eyni zamanda elmi əsərdir.

Bilirsiniz, adətən tamaşaya gəlirlər ki, əsərdə bir münaqişə olsun, yaxud da oynamaq, çalmaq – şənlik olsun. Bəlkə də belə bir əsər hər bir tamaşaçının diqqətini cəlb edə bilməz. Belə bir əsərin öz tamaşaçısı lazımdır. Ancaq eyni zamanda, hesab edirəm ki, hər bir insan – yaşlı da, cavan da, gənc də, qadın da, kişi də bu tamaşaya diqqətlə baxdıqca onların hamısında böyük maraq oyanacaq. Çünki bu tamaşa həyatı əks etdirir. Bəxtiyar müəllim belə bir əsər yazmaqla insan yaranandan indiyədək adamların arasında, onların həyatında gedən psixoloji prosesi əks etdirmək istəyib. Hesab edirəm ki, o, buna nail olubdur.

İnsan həyatında, cəmiyyətdə gedən bu proseslər təəssüf ki, bir tərəfdən təbii proseslərdir – necə ki, təbiətin qanunları təbiidir və heç kəsdən asılı deyil. Biz indi artıq görürük – siz bu gün burada göstərdiyiniz, əcdadından indiyədək ən yüksək səviyyəyə qalxmış insan və insan cəmiyyəti, onun xüsusiyyətləri, keyfiyyəti heç kəsdən asılı deyil.

Bu əsərdən doğan məna ondan ibarətdir ki, gərək hər bir insan nə olur-olsun, paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizə aparsın, insana xas olan mənfi keyfiyyətlərdən insanları xilas etməyə axıra qədər çalışsın. Bizim yaşadığımız planetdə insanın tarixini heç kəs bilmir. İnsan neçə min-min illərdir yaşayır. Hər bir insanın isə kiçik – altmış, yetmiş, səksən, doxsan il ömrü var, bəziləri yüz yaşa qədər ancaq yaşaya bilir. Bunun da bir hissəsi uşaqlıq dövrüdür, bir hissəsi yuxudur, son hissəsi də onun yaşlı dövrünə düşür. İnsan sadəcə olaraq yaşamaq üçün mübarizə aparır, başqa bir imkanı olmur. Bu, insanın ömrüdür. Amma insan cəmiyyətinin ömrünü heç kəs bilmir. Yer üzündə neçə yüz min illərdir ki, insan yaşayır və insan cəmiyyəti mövcuddur. İbtidai icma dövrü – tarixçilər yazıblar – neçə min illər bundan öncə olubdur.

Bu gün siz Bəxtiyar müəllimin yazdığı sözləri ifa edib bizə sübut etmək istəyirsiniz ki, o vaxtlar hər şey düz, pak olubdur, eyni zamanda, özünüz də inkar edirsiniz ki, yox, belə olmayıbdır. Həm deyirsiniz, həm də inkar edirsiniz. Yəni bunları Bəxtiyar müəllim belə yazıb, siz isə onları səhnədə ifa edirsiniz və bizə göstərirsiniz.

Həyatın prosesləri çox mürəkkəbdir. Ancaq o da təbiidir ki, insan cəmiyyətində eybəcərliklər əsrlərdən-əsrlərə keçərək daha da çox artır. Bilirsiniz, mən indi bu tamaşaya baxanda Cəlil Məmmədquluzadənin

«Ölülər» əsəri yadıma düşür. O, çox böyük fəlsəfi, həyati və çox dəyərli bir əsərdir. Cəlil Məmmədquluzadə «Ölülər» əsərində insanların şəxsi xüsusiyyətlərini, onların mənəviyyatını necə göstərirdi? Yəni bu, hər bir əsrdə olubdur. Bizim XX əsrdə də belədir. Mən bu tamaşanı izlədikcə fikirləşirəm, vəzifə nədən ibarətdir – bunu qəbul etmək, onunla razı olmaq, yaxud da ki, mübarizə aparmaq lazımdır? Əsərin də ana xətti ondan ibarətdir ki, əsas qəhrəman Laçın bu mübarizəni aparır və öz fikrində, əxlaqında axıra qədər qalır. Demək, insanları bu nümunədə tərbiyə etmək lazımdır.

Bu, asan deyil, çox çətindir. Mən öz həyatımdan deyə bilərəm ki, çox çətindir. Bilirsiniz ki, mənim gördüyüm işlər bir, iki, on ili əhatə etmir. Mən təxminən 30 ildir ki, respublikaya rəhbərlik etməyə başlamışam. Ancaq mən ondan əvvəl də, gənc vaxtlarımdan həyatın bütün bu eybəcərlikləri ilə mübarizə aparmağa çalışmışam. Hansısa bir mərhələdə nəyəsə nail olmaq olur. Sonra isə kimsə gəlib onu pozur. Məsələn, öz həyatımın tarixindən desəm, 1970-ci illərdə burada işləyəndə biz çox şeylərə nail ola bildik. Amma sonrakı dövr gəldi, bütün bunların hamısını dağıtdı.

Şübhəsiz ki, bizim həyatımızda indi çox müsbət cəhətlər var. Bu da ondan ibarətdir ki, xalqımız azaddır, müstəqildir. Bizim müstəqil dövlətimiz var. Tariximizdə ilk dəfə sabit, müstəqil bir dövlətdə yaşayırıq. Biz həyatımızı yenidən qururuq, dövlət quruculuğunun yeni prosesi gedir, iqtisadiyyatımız yenidən qurulur. Bunlar hamısı həyatın müsbət cəhətləridir. Amma bununla yanaşı, bu əsərin əsas ana xətti olan xeyirlə şər yanyanadır, o həyatı zibilləyən mənfi cəhətlər var və təəssüf ki, onlar azalmayıb, əksinə, artıb və artmaqdadır. Onlar da özlərini haqlı sayırlar. Elə tamaşada Nərgizin sözləri ilə deyilir ki, bu maaşla dolanan kimdir? Başa düşürsünüz, amma maaşla dolanan var. Bəxtiyar müəllim, altı faiz deyil, əhalinin əksəriyyəti maaşla dolanan adamlardır. Bir milyon qaçqınımızın heç maaşı da yoxdur, onlar verilən köməklə yaşayır, dolanırlar. Yeddi milyon əhalidən bir milyonu qaçqındır. Yaxud, orada az məvaciblə dolanan adamlar var. Bunlar var. Ona görə də Bəxtiyar müəllim bu əsərdə rəqəmləri bir az əks tərəfə «şişirdibdir».

B ə x t i y a r V a h a b z a d ə: Elə mən özüm də maaşla dolananlardanam.

H e y d ə r Ə l i y e v: Təəssüf ki, cəmiyyətdə qanunu pozanlar, əxlaqsızlıq, mənəviyyatsızlıq edənlər də var. Bələləri insanı o qədər incidir ki, həmin adam hər şeyi artıq qara rəngdə görür. Amma həyat tam qara deyil. Həyatın işıqlı tərəfi də, qaranlıq tərəfi də, gözəl tərəfi də, insanları

incidən tərəfi də var. Ona görə bu məsələdən belə nəticə çıxarmaq olar ki, biz indiyə kimi nə qədər çalışmışıqsa, bundan sonra da hər bir insan cəmiyyətimiz, hər bir adamın əxlaqının təmizlənməsi uğrunda mübarizə aparmalıdır və heç vaxt ümidsiz olmamalıdır.

Mən Bəxtiyar müəllimə bildirmək istəyirəm – bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar.

Əsərdə kökə qayıtmaq məsələsi var, mən onun mənasını belə anlayıram ki, kökümüzə olan o müsbət cəhətləri götürmək lazımdır. Mən də sizinlə razıyam ki, tamaşadakı kimi, ibtidai icma quruluşuna qayıtmayacağıq. Bu, mümkün deyil. Hansınız istəsəniz, bu, mümkün deyil. Mən yenə də Cəlil Məmmədquluzadənin «Ölülər» əsərinə qayıdıram. Orada da əvvəl hamısı istəyir ki, Şeyx Nəsrullah onun qohum-qardaşını diriltsin. Sonra hər birinə başa salanda ki, bu diriləndə nə olacaq – onda hamı imtina edib deyir ki, yox, diriltmə. İndi Bəxtiyar müəllim də bu əsərində deyir ki, kökə qayıdın. Sizin hər biriniz nəticəni başa düşəndə, onda nə cür olacaq? Onda deyəcəksiniz ki, yox, indi nə cür var, qoy elə yaşayım.

Cəmiyyət daim inkişaf edəcəkdir. Gələcək nəsillər daha da yaxşı yaşayacaqlar. Biz edə bilmədiyimizi gələcək nəsillər edəcəklər. Amma gələcək nəsillərə şərait yaratmaq üçün biz gərək bu mübarizəmizi aparaq. Bəli, tamaşada Laçın rolunu oynayan mübarizə aparmaq üçün bunların hamısını – Bəxtiyar müəllimin sözlərini çox gözəl ifa etdi. Şübhəsiz ki, belə əsərlər mübarizə aparmaq üçün bizə kömək edir. Bunlar bizə lazımdır, əhəmiyyətlidir.

Bəxtiyar müəllim, mən Sizi bir daha təbrik edirəm. Çox gözəl bir əsər yaratmısınız. Bu vacibdir. Bu mövzu bu gün də, on il bundan sonra da aktual olacaqdır. Mən bədbin deyiləm, nikbinəm və bu əsərin ümidsizlik nüansları, notları ilə də razı deyiləm. Çünki insan ümidlə yaşamalıdır. İnsan inanmalıdır ki, hər şeyə nail olmaq – cəmiyyəti də düzəltmək, insanların əxlaqındakı mənfi cəhətlərdən də insanı xilas etmək, onu tam mükəmməl etmək olar. Bizim borcumuz mükəmməl insan, mükəmməl insan cəmiyyəti yaratmaqdır və bunun uğrunda mübarizə aparmaq lazımdır. Bax, bu əsər də bütün bunlara kömək edir.

Ramiz Novruzov (əməkdar artist): Ulu əcdadlarımız deyiblər ki, keçmişlərin səhvlərini gələcək düzəltməlidir, ataların səhvlərini oğullar düzəltməlidir.

H e y d ə r Ə l i y e v: Bəli, Bəxtiyar müəllimin əsəri haqqında öz fikirlərimi dedim. Sizin hamınız da rollarınızı çox gözəl ifa etdiniz. Mən yenə də deyirəm, bu əsər adi tamaşaçı üçün çox çətin qavranılan bir əsərdir. Amma həm rejissorun, həm sizin hamınızın birlikdə ifaçılıq sənətiniz insanı doğrudan da gərginlikdə saxlayır. Mən iki saatdan artıq davam edən bu tamaşanı çox diqqətlə, gərgin vəziyyətdə dinləyirdim. Sizin bu artistlik, ifaçılıq məharətiniz əsərin bu qədər canlı görünməsinə kömək etdi.

Güman edirəm ki, Bəxtiyar müəllim inciməz – bu əsəri səhnədə görməyən adam kitabı oxusa, bu təəssüratı ala bilməz. Məsələn, siz özünüz yazdığınız şeiri kitabdan oxuyanda ola bilər ki, onu yarıya qədər oxuyasan, yarısını oxumayasan.Elə bu əsərin özü də mürəkkəb əsərdir.

Mən vaxtilə Hötenin «Faust» əsərini götürüb oxumağa başladım, heç yarısına çatmadım, onu kənara atdım. Çünki çətin idi. Fəlsəfi əsərlər həmişə çətin olur. Səhnədə sizin ifanız Bəxtiyar müəllimin bu əsərinin məzmununu, mənasını, əhəmiyyətini çox gözəl açıbdır. Quruluşçu rejissorun da işi təqdirəlayiqdir və hər birinizin ifa etdiyiniz rollar da çox gözəldir. Mən tamaşaya çox diqqətlə baxırdım. Hərə öz rolunu yaxşı ifa edirdi. Hamınızı təbrik edirəm və təşəkkür edirəm ki, bizə bu gün yeni bir tamaşa təqdim etdiniz. Çox sağ olun.

K a m a l X u d a v e r d i y e v (xalq artisti): Hörmətli prezident, icazə verin, biz də adımızdan Sizə təşəkkürümüzü bildirək. Arzu edirik ki, teatrımıza tez-tez gələsiniz. Çünki Sizin hər gəlişiniz bizə ilham verir, bizi yeni uğurlara çağırır.

Siz yazıçıların qurultayındakı nitqinizdə də teatrımızın adını çəkdiniz. Qeyd etdiniz ki, gələn il teatrın 125 illiyi qeyd olunacaqdır. Biz də Sizə söz veririk ki, Dövlət Akademik Milli Dram Teatrını qoruyub saxlayacağıq, onu gənc nəslə təhvil verəcəyik.

Hörmətli prezident, mən Sizi Konstitusiya günü münasibətilə və ilkin neftin hasil olması münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, Allah Sizi xalqımızın üzərindən əskik etməsin.

Hörmətli prezident, teatrımızın repertuarında Şekspirin «Kral Lir» əsərinin tamaşası var. Biz bu tamaşa ilə Moskvada qastrolda olanda ona baxmağa Sizin imkanınız olmadı. Biz oradan çox gözəl təəssüratla qayıtdıq. Xahiş edirəm, əgər imkan tapsanız, gəlib həmin tamaşaya baxasınız.

H e y d ə r Ə l i y e v: Bəli, Şekspirin «Kral Lir» əsərinin tamaşasına baxmaq lazımdır. O vaxt eşitmişdim, siz bu əsərin tamaşasını yaxşı göstərmisiniz.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, bayaq «Ölülər» əsəri haqqında dediniz. Moskva Universitetinin professoru Əziz Şərif var idi, çox ağıllı adam idi.

Heydər Əliyev: Bəli, mən onu yaxşı tanıyırdım və onunla bir neçə dəfə görüşmüşdüm.

Bəxtiyar Vahabzadə: O danışırdı ki, Azərbaycanda hamı «Ölülər» əsərinin necə qurtaracağını bilir. Deyirdi ki, Moskva Universitetində SSRİ xalqları ədəbiyyatından mühazirə oxuyanda tələbələrə söyləyirdim ki, «Ölülər» əsərində belə bir vəziyyət var – Şeyx Nəsrullah deyir: «Mən gəlib ölüləri dirildəcəyəm», camaat da gəlir, amma sonra hamı imtina edir. İndi gedin fikirləşin, o biri həftə mənə deyərsiniz görüm, dramaturq bu əsərdə hadisələri necə qurub ki, heç kəs öz qohumunun, övladının, atasının, anasının dirilməyinə razı deyil. Tələbələr gedib bir həftə fikirləşəndən sonra gəlib deyirdilər ki, professor, bilə bilmədik, Siz Allah, deyin görək dramaturq həmin vəziyyətdən necə çıxır? Mən bu məsələni izah edəndə tələbələr dəhşətə gəlirdilər.

Bizim Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundov, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi dramaturqlarımız – biz onların bulağından su içirik – çox xariquladə əsərlər yaradıblar. Hüseyn Cavidin «İblis», Cəfər Cabbarlının «1905-ci ildə», «Almaz» pyesləri nə qədər böyük əsərlərdir.

Heydər Əliyev: Bəxtiyar müəllim, Siz tamamilə düz deyirsiniz. Bizim dramaturgiya çox güclüdür. Mən yazıçıların qurultayında da, əvvəl də bunu demişəm. Bilirsiniz, biz bəlkə də bunu qiymətləndirmirik – öyrənmişik ki, bu belə olub, elə belə də olar. Amma belə deyil. Müsəlman, islam dünyasında 125 il bundan əvvəl ilk dəfə teatr yaradılması və Mirzə Fətəli Axundov tərəfindən səhnə əsəri yazılması böyük hadisədir, inqilabdır. O vaxt nə sosialist inqilabı var idi, nə də XX əsr deyildi. Görün nələr yaradıblar. Buna görə də Azərbaycanın teatrı, dramaturgiyası, incəsənəti çox böyük qiymətə layiqdir. Bunlar barədə çox danışmaq olar.

Sizin əsasən 1960, 1970, 1980-ci illərdə, o cümlədən 1990-cı illərdə yaratdığınız əsərlərin hamısı qiymətlidir. Siz ədəbiyyatı məndən yaxşı bilirsiniz. Bayaq «Ölülər» əsərinin adını çəkdim. Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, «Ölülər» kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir.

İradə Həsənova *(aktrisa):* Hörmətli prezident, mən Sizə, Bəxtiyar müəllimə, Məmməd Araza, Ramiz Rövşənə göstərdiyiniz qayğ-

ıya görə dərin təşəkkürümü bildirirəm. Sizə cansağlığı arzu edirəm. Bir də arzum budur ki, hansı dövlətə, ölkəyə səfərə getsəniz, həmişə sözünüz keçərli olsun.

L a l ə z a r M u s t a f a y e v a (*aktrisa):* Hörmətli prezident, tamaşalara gəlib baxmağınız bizim üçün çox əhəmiyyətlidir. Amma mənə elə gəlir ki, gərgin işinizə baxmayaraq vaxtınızı bizə sərf etməyinizin, ekranda bizi izləməyinizin, sonra zəng vurub təbrik etməyinizin qiyməti ölçülməzdir. Hörmətli prezident, çox sağ olun, hamımız Sizə minnətdarıq.

H e y d ə r Ə i y e v: Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Azərbaycan Milli Dram Teatrı bundan sonra da yaşayacaqdır. Biz onu saxlayacağıq. Biz ümumiyyətlə teatrsız, incəsənətsiz, televiziyasız yaşaya bilmərik. Siz öz sənətinizlə bütün insanlara çox böyük xidmət edirsiniz. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Bakı şəhəri
10 noyabr 1997-ci il

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat məbləğində ömürlük 30 fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdçülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

VOKALÇILARIN BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNƏ

Bakı şəhəri
17 noyabr 1997-ci il

Vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsinin iştirakçılarını salamlayır və bu əlamətdar hadisə münasibətilə bütün musiqisevərləri ürəkdən təbrik edirəm.

Bülbül sənəti Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. O, Azərbaycanın professional vokal sənətinin banisidir. Onun çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxşı ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir. Bülbülün böyük fitri istedadı, pedaqoq, musiqişünas alim və ictimai xadimə xas yüksək keyfiyyətləri ona Azərbaycan xalqının əbədi məhəbbətini qazandırmışdır.

Bu gün müstəqil Azərbaycan dövlətinin paytaxtı Bakı şəhərində Azərbaycanın dahi müğənnisinin 100 illik yubileyi şərəfinə belə mötəbər bir müsabiqənin keçirilməsi böyük məmnunluq hissi doğurur. Müsabiqənin münsiflər heyətinin tərkibində dünyanın adlı-sanlı musiqi xadimlərinin olması, xarici ölkələrin gənc ifaçılarının iştirakı təkcə böyük ustadın yaradıcılığına deyil, eləcə də bütövlükdə Azərbaycanın zəngin musiqi mədəniyyətinə dünyada dərin maraq olduğunu nümayiş etdirir.

Ümid edirəm ki, vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsi yeni istedadlar üzə çıxaracaq, gözəl ənənəyə çevrilərək dünya xalqları mədəniyyətlərinin qarşılıqlı zənginləşməsi işinə öz töhfəsini verəcəkdir.

Müsabiqəni təşkil edənlərə, onun iştirakçılarına, Bülbül yaradıcılığının bütün pərəstişkarlarına cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

GÖRKƏMLİ BƏSTƏKAR, AZƏRBAYCANIN XALQ ARTİSTİ TOFİQ QULİYEVİN 80 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

Respublika sarayı
19 noyabr 1997-ci il

Əziz Tofiq!

Mən sənin 80 illik yubileyin münasibətilə sənə təbrik məktubu göndərmişəm. Onu da bil ki, mən göndərdiyim və ümumiyyətlə, yazdığım məktubların hamısını əvvəldən axıradək özüm yazıram. Siz də, hamınız da bilirsiniz ki, mənim dediyim sözlərin də hamısı öz beynimdən gələn sözlərdir, heç vaxt əlimdə kağız olmayıbdır. Sənin bu yubileyini belə təntənəli şəkildə keçirməklə biz hamımız borcumuzu yerinə yetirmişik. Bəlkə də mən buraya qalxmazdım. Ancaq hesab edirəm, sən bu yubileydə mənim haqqımda o qədər sözlər dedin ki, mən buraya gəldim sənə deyəm ki, bu sənin yubileyindir, bu gün sənin günündür.

Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar – şairlər, yazıçılar, alimlər, sərkərdələr, siyasətçilər bəxş etmişdir. Əziz Tofiq, onların sırasında sənin xüsusi layiqli yerin var.

Bu gün bu təntənəli mərasimdə, bu gözəl axşamda biz sənin həyatını başdan-ayağa izlədik. Əziz qardaşım, 80 yaşın tamam olarkən fəxr edə bilərsən ki, sən şərəfli bir ömür yaşamısan, böyük işlər görmüsən, xalqına sədaqətlə xidmət etmisən və xalqın üçün gözəl əsərlər yaratmısan. Ona görə biz hamımız sənə minnətdarıq, təşəkkür edirik. Sənin yaratdığın əsərlərə, xalqımıza bəxş etdiyin gözəl mahnılara, musiqinə, bəstəkarlığına, təşkilatçılığına, Azərbaycanın ictimai həyatında daim fəal iştirak etdiyinə görə sənə təşəkkür edirik. Sən böyük işlər görmüsən. Bugünkü bu mərasim sənin üçün bəlkə də azdır. Sən bundan da böyük şöhrətə və hörmətə layiqsən.

Azərbaycan xalqı 60 ildir ki, sənin mahnılarının təsiri altında yaşayır. Sənin mahnıların bizim xalqımıza, təkcə bizim xalqımıza yox, bəşəriyyətə, dünyaya böyük töhfələrdir. Sənin mahnıların, musiqin bizim xalqımıza sevinc gətirir, ilham verir, hər bir insan üçün yaşamağa, yaratmağa güc verir.

Musiqi ümumiyyətlə, insan üçün çox əziz olan bir sənət nümunəsidir. Musiqinin hər bir sahəsi həmişə insanlar tərəfindən sevilibdir. Ancaq mahnı, şərqi insanlara daha yaxın olubdur. Yəni əgər opera musiqisini, simfonik musiqini bir çox adamlar qəbul edir, ancaq o hamıya çatmırsa, amma mahnı və xüsusən sənin kimi bəstəkarın mahnıları demək olar ki, insanları – kiçikdən böyüyə qədər, cocuqdan yaşlıya qədər, qadını da, kişini də, hamını sevindirir və hamıya təsir edir. Ona görə də mahnı daim yaşayır.

Tofiq, sən fəxr edə bilərsən ki, 80 yaşını belə gümrah, sağlam, gözəl şəraitdə keçirirsən. Sən bundan sonra da yaradacaqsan, yazacaqsan, bizi sevindirəcəksən, yeni-yeni mahnılar, musiqilər yaradacaqsan. Mən sənə cansağlığı arzu edirəm. Sənə yeni yaradıcılıq uğurları arzu edirəm.

Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır.

Eşq olsun musiqiyə! Eşq olsun incəsənətə! Yaşasın Tofiq Quliyev!

AMERİKADA NƏŞR EDİLƏN "AZƏRBAYCAN İNTERNƏŞNL" JURNALININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

M.F.Axundov adına Respublika Kitabxanası
20 noyabr 1997-ci il

Hörmətli xanımlar və cənablar, dostlar!

Bugünkü mərasim "Azərbaycan internəşnl" jurnalının beşillik fəaliyyətinin qeyd olunmasına həsr edilmişdir.

Son illər belə bir ənənə yaranıbdır ki, yeni bir maraqlı kitab, yaxud jurnal, toplu, məcmuə, başqa bir əsər meydana çıxan zaman onun təqdimat mərasimi keçirilir. Bu ənənədən fərqli olaraq "Azərbaycan internəşnl" jurnalı beş il bundan əvvəl özünün ilk addımlarını atıbdır və heç bir təqdimat mərasimi keçirməyibdir. Ancaq ötən illərdə ilbəil öz fəaliyyətini artırıb, gücləndirib və jurnalı çox yüksək səviyyəyə qaldırıbdır. Hesab edirəm ki, indi jurnalın fəaliyyətinə qiymət vermək üçün bu mərasim çox lazımlı bir mərasimdir.

Mübaliğəsiz demək olar ki, "Azərbaycan internəşnl" jurnalı müstəqil Azərbaycanın həyatında, ümumiyyətlə, dünya Azərbaycana məxsus olan çox əlamətdar və nadir bir hadisədir. Azərbaycan daim öz milli mədəniyyətini, nailiyyətlərini xalqımızın ənənələrini dünya xalqlarına, ictimaiyyətinə tanıtmağa çalışmışdır. Bu sahədə Azərbaycanın mütəfəkkir insanlarının tarix boyu göstərdikləri xidmətləri biz daim qiymətləndirməliyik. Ancaq bu səylər nə qədər olmuşdursa Azərbaycan dünyada, dünya xalqları içərisində indiyədək heç vaxt tanınmamışdır.

Sübhəsiz ki, indi dünyada tanınmağımızın ən əsas səbəbi Azərbaycanın dövlət müstəqilliyi əldə etməsidir və dövlət müstəqilliyi əldə edəndən sonra bir müstəqil dövlət kimi Azərbaycanın Dünya Birliyinə daxil olmasıdır. Ancaq bu fakt da yəni bu hüquqi, siyasi akt da özözlüyündə Azərbaycanı dünyada istədiyimiz kimi heç vaxt tanıda bilməz. Bunun üçün daim ardıcıl, çoxsahəli işlər görmək lazımdır. Bu işlər bütün sahələrdə aparılmalıdır. Dövlət orqanları, bizim ictimai təşkilatlarımız, mədəniyyət, elm xadimlərimiz – hamımız birlikdə Azərbaycanı dünyaya

açmağa, tanıtmağa çalışmalıyıq, Azərbaycanın həqiqətlərini dünyanın hər bir guşəsinə çatdırmağa çalışmalıyıq.

Bu, indi xüsusən ona görə daha da çox lazımdır ki, Ermənistanın Azərbaycana təcavüzü başlayandan, Ermənistan–Azərbaycan münaqişəsi davam etdiyi dövrdə Ermənistanın tərəfdarları, dünyada olan erməni diasporunun təbliğat maşını çox güclü olmuşdur. Onlar Azərbaycana təcavüz etdikləri, torpaqlarımızı işğal etdikləri, işğal olunmuş ərazilərimizdən bir milyon insanı öz yerindən-yurdundan zorla didərgin saldıqları halda Azərbaycanı məhkum etməyə çalışmışlar, Azərbaycan haqqında yalan, iftiralar, böhtanlar yaymışlar. Təəssüf ki, Azərbaycanın təbliğatı olmadığına görə, yaxud da çox zəif olduğuna görə onlar üstünlük əldə edə bilmişlər və öz istədiklərinə nail olmuşlar. Yaranmış şərait bir tərəfdən bizim vəziyyətimizi çox mürəkkəbləşdirmişdir, ikinci tərəfdən də Azərbaycan haqqında dünyaya məlumat verməyin, Azərbaycanı dünyaya tanıtmağın nə qədər vacib, zəruri, əhəmiyyətli olduğunu bir daha sübut etmişdir.

Qeyd etmək lazımdır ki, son illər bu sahədə çox işlər görülmüş, birinci növbədə Azərbaycanın ardıcıl xarici siyasəti, ardıcıl, çox təşəbbüskar, doğru-düzgün xarici siyasəti Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında sıx əlaqələr əməkdaşlıq yaratmış və Azərbaycanın həqiqətlərini dünyaya çatdırmağa böyük imkanlar açmışdır.

İnformasiya orqanlarımız da, ictimai təşkilatlarımız da və bizim Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı, elmi təşkilatlarımız, Elmlər Akademiyası və başqaları da bu sahədə bir çox işlər görmüş və müəyyən nailiyyətlər əldə etmişlər. Ancaq bunlar heç də yetərli deyil, hələ çox iş görülməlidir. Çox səylər qoymalıyıq ki, Azərbaycanı hər yerdə, hər ölkədə olduğu kimi tanısınlar, bilsinlər, Azərbaycan xalqının tarixini, nailiyyətlərini, xüsusiyyətlərini, keyfiyyətlərini həqiqətən bilsinlər.

Hələ çox iş görülməlidir, bir də ona görə ki, təəssüflər olsun ki, bizim xarici düşmənlərimizlə yanaşı, Azərbaycanın daxilində olan, bəzən guya müxalifət mövqeyində duran bəzi qüvvələr öz şəxsi məqsədləri naminə, öz şəxsi məqsədlərinə çatmaq üçün Azərbaycanı bir çox yerlərdə ləkələməyə, Azərbaycanın həqiqətləri haqqında yalanlar, iftiralar yaymağa çalışırlar. Bu da həmin o düşmən qüvvələrinin səyləri ilə üst-üstə gələrək Azərbaycanın həqiqətlərinə kölgə salır.

"Azərbaycan internəşnl" jurnalının fəaliyyəti xüsusi qiymətə layiqdir. Çox qətiyyətlə demək olar və bunu etiraf etməliyik ki, indiyə qədər xarici ölkələrdə dərc olunan, nəşr edilən cürbəcür nümunələr – kitablar,

jurnallar içərisində "Azərbaycan internəşnl" jurnalı qədər Azərbaycan haqqında dolğun, düzgün və çox parlaq, gözəl, cazibədar məluma yayan jurnalımız, toplumuz olmayıbdır.

Maraqlı, sevindirici cəhət də bundan ibarətdir ki, jurnalı nə Azərbaycanın dövlət orqanları, nə bir ictimai təşkilat, nə də respublikamızdakı hansısa bir təşkilat yaradıb. Bu jurnalı yaradanlar Azərbaycanı sevən, ona ürək yandıran, Azərbaycanla dostluq edən iki şəxs – xanım Betti və Piruz Xanlıdır. Onlardan biri amerikalı, o birisi isə azərbaycanlıdır, amma Amerika vətəndaşıdır. Onlar şəxsi təşəbbüs göstəriblər və öz fədakarlıqları nəticəsində o jurnalı yaradıb, indi belə bir yüksək səviyyəyə gətirib çıxarıblar.

Mən xanım Bettinin və Piruz Xanlının təşəbbüsünü və ötən illərdə gördükləri işləri, Azərbaycana göstərdikləri münasibəti, dostluğu və ölkəmiz haqqında çəkdikləri bu qədər zəhməti çox yüksək qiymətləndirirəm. Onların gördükləri iş, əldə etdikləri nailiyyət onu göstərir ki, insan bir işə həvəslə, ürəklə, canla yanaşarsa, həqiqətən xalqa xidmət etmək istəyərsə, o, çox işlər görə bilər. O, təkbaşına da çox işlər görə bilər.

Azərbaycanda nə qədər nəşriyyat orqanları, ictimai təşkilatlar, cürbəcür nə qədər kitab, jurnal buraxanlar var. Onlardan indi hansı gəlib buna bərabər bir nümunəni ortaya qoya bilər ki, Amerika Birləşmiş Ştatlarında belə bir jurnalın yaranmasını və bu qədər yüksək səviyyəyə çatmasını təmin edə bilsin? Heç birisi yoxdur. Əgər kiminsə varsa, ortaya çıxarsın, meydana qoysun.

Bu jurnalın yaranması və onun varlığı, bugünkü səviyyəsi məni həddindən artıq sevindirir. Bu, eyni zamanda onu göstərir ki, insan nəyə qadirdir. Bu, eyni zamanda onu göstərir ki, bizim Azərbaycanın cürbəcür təşkilatlarının, böyük-böyük imkanlara malik olan təşkilatlarının istifadə olunmamış nə qədər imkanları var.

Bu gün biz bu jurnalın ilk nömrəsinə də, son nömrəsinə də baxdıq. Mən 1993-cü ildən bu jurnalın hər nömrəsini oxuyuram, ona baxıram, müşahidə edirəm. Bu jurnalın ayba-ay hər nömrədən-nömrəyə keyfiyyətinin artmasını, onun səhifələrinin genişlənməsini görürəm. Görürəm ki, bu jurnal günbəgün nə qədər inkişaf edir, genişlənir və Azərbaycanın həyatını nə qədər geniş əhatə etməyə gəlib çatıbdır.

Bu insanlar – xanım Betti və Piruz Xanlı öz işlərinə sadiqdirlər, ancaq eyni zamanda onlar Azərbaycanın ən gözəl dostlarıdır, Azərbaycanın həqiqətlərinə, xalqımızın bugünkü həyatına sadiqdirlər. Ona görə də mən onlara səmimi-qəlbdən təşəkkür edirəm.

"Azərbaycan internəşnl" bütün parametrlərinə, xüsusiyyətlərinə görə dünyada, ən inkişaf etmiş ölkələrdə nəşr edilən yüksək səviyyəli jurnallarla rəqabət apara bilən bir jurnaldır. Sovetlər İttifaqı mövcud olan zaman ABŞ-da bir "Amerika" jurnalı çıxırdı və o da siyahı ilə abunə yazdırılıb paylanırdı. Mənim xatirimdədir, bu "Amerika" jurnalına abunə yazılmaq üçün Azərbaycana da müəyyən limit verilirdi və keçmiş Azərbaycan hökumətində də bunun üçün siyahı tərtib edilirdi. Kim bu siyahıya düşər, kim də düşə bilməzdi. Həmin jurnalı kim ala bilirdisə, o özünü xoşbəxt hesab edirdi. Bu jurnalın qiyməti də sovet jurnallarının qiymətinə nisbətən çox baha idi. Çoxları onu oxuyub mənasını başa düşmürdülər.

Həmin jurnal çox nəfis nəşr olunurdu, oradakı rəsmlər, fotoşəkillər çox gözəl idi, bir də Amerikanın həyatından cürbəcür mənzərələr verilirdi. Biz o vaxt Amerikanın həyatını o qədər də yaxşı bilmirdik. Ona görə də insanlar bu jurnala çox böyük maraq göstərirdilər. Həmin jurnal mənim yaxşı xatirimdədir. O vaxt biz bu jurnalı daim alırdıq, baxırdıq, vaxt olanda ayrı-ayrı məqalələri oxuyurduq.

Bəli, o jurnal mənim yadımdadır. Doğrudur, Amerikada onun keyfiyyəti sonralar nədənsə get-gedə aşağıya düşdü. Ancaq o vaxt həmin o "Amerika" jurnalının həsrətini çəkən azərbaycanlılar – yəqin, həmin adamlardan indi bu mərasimdə iştirak edənlər də var – bu "Azərbaycan internəşnl" jurnalını əllərinə alsınlar və əgər arxivlərində varsa, gedib o jurnalı çıxarsınlar, müqayisə etsinlər. "Azərbaycan internəşnl" ondan qat-qat üstün səviyyədə nəşr olunan bir jurnaldır.

Jurnalın yüksək qiyməti onun yalnız nəşr keyfiyyəti ilə bağlı deyil. Mənim bu jurnala verdiyim yüksək qiymət onun məzmunu ilə əlaqədardır. Bu, nə qədər məzmunlu jurnaldır! Azərbaycanın tarixi, mədəniyyəti, müasir həyatı, ölkəmizin ayrı-ayrı görkəmli şəxsiyyətlərinin əsərləri, onların yaradıcılığı, Azərbaycanın həyatının cürbəcür mənzərələri və çoxlarımızın tanımadığımız, çoxdan unutduğumuz səhifələr – hamısı bu jurnalda böyük ustalıqla, məharətlə, deyə bilərəm ki, çox böyük sevgi ilə, məhəbbətlə açılıb, dərc olunub. Bu məni heyran edir.

Biz bir neçə il bundan əvvəl burada Azərbaycan qaçqınlarının vəziyyətinə həsr olunmuş fotoalbomun təqdimat mərasimini keçirdik. Ancaq təəssüf ki, o, gec bir zamanda oldu. "Azərbaycan internəşnl" jurnalı iki nömrəsini Azərbaycan qaçqınları mövzusuna həsr edibdir və nə qədər məzmunlu, mənalı fotoşəkillər tapıb dərc edibdir. Şübhəsiz ki, bax, bunu oxuyan hər bir insan Azərbaycanda qaçqınların olduğunu və onların nə vəziyyətdə yaşadığını çox gözəl dərk edə bilir.

"Azərbaycan internəşnl" jurnalında Azərbaycanın parlaq nailiyyətləri, tarixinin parlaq səhifələri necə gözəl əks olunur! Mən sonuncu nömrəyə baxdım. Burada Azərbaycan kinosunun tarixindən bir çox səhifələr, bir çox məşhur kinofilmlərimiz, onların ayrı-ayrı kadrları haqqında çox gözəl rəngli fotoşəkillər verilibdir. Orada "Nəsimi", "Babək", "Arşın mal alan", "Məşədi İbad" və başqa kinofilmlərimiz, kino xadimlərimiz haqqında fotoşəkillər dərc olunubdur. Bılirsiniz, onlara baxanda çox şeyləri unutduğumuzu görürük. Bizim mədəniyyətimizin bütün sahələri, o cümlədən kinematoqrafiya sahəsi nə qədər zəngindir, nə qədər gözəl işlər yaranıbdır. Bunu bizim özümüz bilirik, amma çoxları indi unudubdur. Ancaq bunları Amerika da, İngiltərə də, Almaniya da, Fransa da bilməlidir. Bütün dünya bilməlidir, ki, Azərbaycan xalqının mədəniyyəti bu qədər yüksək səviyyələrə qalxıbdır.

Bu jurnalın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, bizim çoxlarımızın həyatımızda olan, bəzən görmədiyimiz gözəl hadisələri gedir, tapır, çıxarır, öz səhifələrində göstərir. Bu məlumatlar bəzən bizə, o cümlədən mənə də jurnal vasitəsilə gəlir. Bu da çox maraqlıdır.

Məsələn, bir gənc müğənnimiz var – Surxay Əsgərov. O, iki ildir ki, meydana çıxıbdır, çox gözəl gələcəyi olan bir gəncdir. Şəxsən mən Surxay Əsgərov haqqında ilk məlumatı bu jurnaldan almışam. Betti xanım bu jurnalı mənə təqdim edərkən Surxay Əsgərov haqqında geniş məlumat veribdir. Bundan sonra, gərək ki, bir axşam incəsənət muzeyində konsertini düzəltmişdilər. Mən orada Surxay Əsgərovu dinləyib onun istedadı ilə tanış olmuşam.

Bu jurnal həm Üzeyir Hacıbəyovu, Rəşid Behbudovu, Niyazini, həm bizim böyük şairlərimizi, rəssamlarımızı təbliğ edir, həm də bu gün meydana gələn gənc istedadlarımızı təbliğ edir. Bu, nə qədər gözəl təşəbbüsdür, işdir!

Mənim bu jurnal haqqında o qədər böyük təəssüratım var ki, bütün bunlar barədə çox danışmaq olar. Ən mühüm cəhət bir də ondan ibarətdir ki, bu jurnal artıq 47 ölkədə yayılır, 7 min nüsxə tirajla nəşr olunur. Demək, bu jurnal 47 ölkədə, özü də yüksək dövlət dairələrində, ictimai təşkilatlarda, böyük biznes, maliyyə mərkəzlərində yayılır. Bu, çox əhəmiyyətlidir.

Jurnalın gördüyü çox gözəl işlərdən biri də Azərbaycan musiqisinin kompakt disklərə yazılması və dünyaya yayılmasıdır. Xanım Betti bu barədə geniş məlumat verdi. Bu bizim üçün çox faydalı bir işdir. Onlar şəxsən mənə də kömək ediblər. Mən indi məni ziyarət edən qonaqlara "Azər-

baycan internəşnl" jurnalını və Azərbaycan bəstəkarlarının gözəl musiqi əsərlərindən ibarət kompakt diskləri hədiyyə verirəm.

Bu jurnalı nəşr edənlərin fəaliyyətinin ən gözəl cəhəti bir də ondan ibarətdir ki, onların nə redaksiya heyəti, nə böyük ştatı, nə katibləri, nə də çoxlu telefonları var. Heç bir şeyləri yoxdur. Ər-arvad – Betti xanım və Piruz Xanlı, bir də bizim alimimiz Məzahir onlarla birlikdə bu jurnalı yaradırlar. Görün onlar nə qədər gözəl nümunə göstərirlər! Respublikamızda bir jurnalın, qəzetin çıxması üçün deyirlər ki, buna böyük ştat, avtomobil vermək, tez telefon çəkmək, özü də hökumət telefonu çəkmək, sonra başqa şeylər lazımdır. Amma qəzetin də, jurnalın da keyfiyyəti yoxdur, çoxları da heç onu oxumurlar. Ancaq görürsünüz, bu iki-üç adam nə qədər iş görür.

Bunlar hamısı ona görə mümkün olur ki, onlar Azərbaycanı çox sevirlər, ölkəmizə çox ədalətli münasibəti olan insanlardır və öz işlərinin çox böyük entuziastlarıdır. Yalnız və yalnız böyük entuziastlar möcüzələr yarada bilərlər. Onlar məhz bu cür insanlardır. Ona görə də mən onları xüsusi qiymətləndirirəm.

Ümid etmək olar ki, bu jurnal daim yaşayacaq, təkcə Amerika Birləşmiş Ştatlarında yox, dünyanın bir çox ölkələrində Azərbaycanın həqiqətlərini gündən-günə daha da parlaq şəkildə yayacaqdır. Ümid edirəm ki, bu jurnalın illik sayı da artacaqdır. Onlar bu jurnalı ildə dörd dəfə buraxırlar. Çox arzu edərdim ki, onlar işlərini, jurnalın sayını bir az artırsınlar, onun sayı ildə bəlkə beş, altı dəfə olsun. Bunu da edəcəklər. Çünki birinci nömrədən sonuncuya qədər olan böyük inkişafı görərkən hesab edirəm ki, qarşıdakı iki-üç il içərisində onlar jurnalı həm sayca, həm keyfiyyətcə, həm də məzmunca daha da yüksəklərə qaldıracaqlar.

Jurnalın son xidmətlərindən biri də Azərbaycan prezidentinin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərinə həsr olunmuş, onların yaratdığı və burada təqdim etdikləri kitabdır. Bu kitab da çox yüksək səviyyədə yaranıbdır. Hesab edirəm ki, jurnal kimi, bu kitab da Azərbaycanın bugünkü həyatının həqiqətlərinin, xarici siyasətimizin və Azərbaycan Amerika Birləşmiş Ştatları əlaqələrinin dünyada təbliğ olunması üçün çox dəyərli xidmətlər edəcəkdir.

Mən Sizi, xalqımızı, vətəndaşlarımızı Azərbaycan üçün çox böyük əhəmiyyətli olan "Azərbaycan internəşnl" jurnalının əldə etdiyi nailiyyətlər münasibətilə təbrik edirəm. Mən bu jurnalı yaradıb bu qədər yüksək səviyyəyə çatdıran insanları – xanım Bettini, dostumuz Piruz Xanlını ürəkdən təbrik edirəm. Onlara təşəkkür edirəm və bu xeyirxah işlərində yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

XALQ YAZIÇISI HÜSEYN ABBASZADƏYƏ

Bakı şəhəri
22 noyabr 1997-ci il

Hörmətli Hüseyn Abbaszadə!

Sizi – Azərbaycanın xalq yazıçısını anadan olmağınızın 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Yaradıcılığa faşizmə qarşı müharibə illərində bir əsgər kimi başlayaraq Siz vətənpərvərlik mövzusuna həmişə sadiq qalmısınız. Qəzet və jurnalların baş redaktoru olduğunuz dövrdə də yaratdığınız əsərlər respublikada ədəbi prosesin inkişafına öz töhfəsini vermişdir. Bu əsərlər gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların hərtərəfli şəxsiyyət kimi yetişməsi işinə xidmət etmişdir.

Uzun illər Azərbaycan Yazıçılar İttifaqının katibi kimi fəaliyyətiniz də böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunuzu göstərir.

İnanıram ki, Siz müstəqil Azərbaycanın ədəbi həyatında bundan sonra da fəal iştirak etməklə yaradıcılığınızın pərəstişkarlarını yeni əsərlərlə sevindirəcəksiniz. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCAN YAZIÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Bakı şəhəri
24 noyabr 1997-ci il

Azərbaycan yazıçılarının yaradıcılıq imkanlarının genişləndirilməsi üçün onlara dövlət qayğısını artırmaq, respublikada ədəbi mühiti canlandırmaq məqsədilə və Azərbaycan Yazıçılar Birliyinin onuncu qurultayında irəli sürülmüş fikir və təklifləri nəzərə alaraq qərara alıram:

1. Azərbaycan yazıçılarının «Azərbaycan», «Qobustan», «Ulduz», «Literaturnıy Azerbaydjan» jurnallarının və «Ədəbiyyat» qəzetinin nəşri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilsin.

2. Azərbaycan Respublikasının istedadlı gənc yazıçıları üçün ayda beş yüz min manat məbləğində on fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdçülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

– 1998-ci ildən başlayaraq hər il üzrə dövlət büdcəsi layihəsində bu fərmanın birinci bəndində adı çəkilən qəzet və jurnalların nəşrini təmin etmək üçün müvafiq məbləğdə dotasiya ayrılmasını nəzərdə tutsun;

– Azərbaycan xalqının ədəbi irsinin təbliği və müasir yazıçıların əsərlərinin çapı işini yaxşılaşdırmaq məqsədilə nəşriyyat, poliqrafiya və kitab satışı işlərinin yenidən qulurması və təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

VOKALÇILARIN PROFESSOR BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNİN QALİBLƏRİNƏ MÜKAFAT VƏ DİPLOMLARIN TƏQDİM EDİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Opera və Balet Teatrı
1 dekabr 1997-ci il

Mən sizin hamınızı bizim görkəmli müğənnimiz Bülbülün xatirəsinə həsr olunmuş müsabiqədə yüksək yer tutduğunuza görə təbrik edirəm. Bu, Azərbaycanda həmin qəbildən ilk müsabiqədir, bu, bizim üçün çox əlamətdar hadisədir və buna böyük əhəmiyyət veririk. Hesab edirəm bizim ictimaiyyətimiz çox məmnundur ki, on beş gündür müsabiqədə seçmə gedir. Siz finişə çıxaraq qalib gəlmiş, fəxri yerlər, prizlər, mükafatlar qazanmısınız. Ən başlıcası isə bu gün hamınız gözəl çıxış etdiniz.

Siz gördünüz ki, Azərbaycan dinləyiciləri klassik musiqini, yüksək vokal sənətini əvvəlki kimi yenə də sevirlər. Siz də bu gün təkcə salondakıları deyil, bütün respublikaya, – çünki bu gecə birbaşa translyasiya edilirdi, – böyük sevinc bəxş etdiniz. Buna görə sağ olun. Ümidvaram ki, bu hadisə Azərbaycanın mədəni həyatının məhz beynəlxalq müsabiqələr keçirilməsi istiqamətində daha da canlanmasının başlanğıcı olacaqdır. Bu gün öyrəndim ki, növbəti müsabiqəni üç ildən sonra – 2000-ci ildə keçirməyi qərara almısınız. Biz üç ildən sonra yeni istedadlarla və yəqin ki, sizinlə də görüşü gözləyəcəyik.

Sizi təbrik edirəm. Gözəl fəxri münsiflər heyətini və bizim sevimlimiz İrina Konstantinovna Arxipova başda olmaqla bu on beş gündə burada çalışanların hamısını təbrik edirəm. Sizə səadət, yeni yaradıcılıq uğurları arzulayıram.

İ r i n a A r x i p o v a: Çox hörmətli Heydər Əliyeviç, respublikanın bu ağır dövründə incəsənətə, mədəniyyətə və müsabiqənin bütün iştirakçılarına göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirirəm.

ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bakı şəhəri
2 dekabr 1997-ci il

Azərbaycan mədəniyyətinin inkişafında, milli və dünya klassik musiqisinin təbliğində Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin rolunu nəzərə alaraq, onun maddi-texniki bazasını möhkəmləndirmək və işçilərinin sosial təminatını yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin işçilərinin aylıq vəzifə maaşları 1998-ci ilin yanvarın 1-dən orta hesabla dörd dəfə artırılsın.

2. Azərbaycan Respublikasının 1998-ci il dövlət büdcəsindən orkestrin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün 500 milyon manat məbləğində vəsait ayrılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ XADİMİ, PROFESSİONAL VOKAL SƏNƏTİMİZİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ MÜĞƏNNİNİN BAKIDAKI XATİRƏ EV-MUZEYİNDƏ ÇIXIŞ

3 dekabr 1997-ci il

Dekabrın 3-də Azərbaycan Prezidenti Heydər Əliyev Fəxri xiyabanda dahi müğənni Bülbülün qəbrini ziyarət etmiş, daha sonra Bülbülün Bakıdakı xatirə ev-muzeyinə gələrək Bülbülün yaradıcılığı, pedaqoji, elmi, ictimai fəaliyyətini əks etdirən qiymətli sənəd və materiallarla tanış olmuş və mərasimdə çıxış etmişdi.

Hörmətli və sevimli Adilə xanım!

Bu evdə – Azərbaycanın bu gözəl guşəsində bir daha olmağıma son dərəcə şadam. Bildiyimiz kimi, bu ev Bülbülün adı ilə bağlıdır. Adilə xanım, mənim ünvanıma söylədiyiniz səmimi sözlərə görə sağ olun. Mən bunu bilirəm və bu sözləri mənə bəslədiyiniz böyük hörmətə aid edirəm.

Siz bilirsiniz ki, mən Bülbülü sağlığında da sevirdim, onun xatirəsinə də böyük məhəbbətlə yanaşıram.

Hörmətli dostlar!

Bu gün biz Bülbülün ev-muzeyindəyik və onun ailə üzvləri ilə görüşürük. Onun həyat yoldaşı Adilə xanım, Polad və ailənin digər üzvləri hamısı bir yerdədirlər.

Bu gün mən çox iftixar hissi keçirirəm ki, biz Bülbülün 100 illik yubileyini təntənə ilə keçirməyə nail ola bilmişik. Məlumdur ki, ölkəmizin həyatında çox çətin və ağır problemlər vardır. Ölkəmiz keçid dövrünü yaşayır. Bir milyondan artıq qaçqınlarımız, o cümlədən Bülbülün doğulduğu yerdən – Şuşadan, Qarabağdan zorla qovulmuş insanların çox hissəsi çadırlarda yaşayır. Problemlərimiz çoxdur. Amma eyni zamanda biz problemlərə, başımıza gələn faciələrə görə aylarla inildəməməliyik.

Biz bu dərdi çəkərək, problemləri aradan qaldırmağa çalışaraq, eyni zamanda insanları da, mədəniyyətimizi də yaşatmalıyıq və tariximizi də daim qiymətləndirməliyik. Məhz tariximizə böyük hörmət, ehtiram əla-

məti olaraq biz böyük Bülbülün 100 illik yubileyini yüksək səviyyədə, təntənəli keçirmək qərarını qəbul etmişik. Mən çox məmnunam ki, bu qərar həyata keçirilir. Nəhayət, bu gün hamımız təntənəli mərasimin iştirakçısı olacağıq.

Bu gün biz Bülbülün məzarını ziyarət etdik. İndi isə Bülbülün yaşadığı evə gəlmişik. Burada Bülbül ab-havası indiyədək yaşayır. Bülbülün həyatını əks etdirən eksponatlar, şəkillər, rəsmlər hamısı bizi bir daha o dövrə qaytarır, o dövrü yadımıza salır. Mən hesab edirəm ki, biz vaxtilə xalqımızın gələcəyi üçün çox əhəmiyyətli bir iş görmüşük, – Azərbaycanın böyük şəxsiyyətlərinin və xüsusən elm, mədəniyyət, incəsənət xadimlərinin xatirəsini əbədiləşdirərək onların ev-müzeylərini yaratmağa başlamışıq.

Xatirimdədir ki, biz o vaxt ilk dəfə böyük bəstəkarımız, dahi Üzeyir Hacıbəyovun ev-müzeyini yaratdıq. Sonra böyük şairimiz Səməd Vurğunun ev-muzeyini yaratdıq. O vaxt biz Azərbaycanın tarixində mühüm yer tutmuş böyük şəxsiyyətlər Üzeyir Hacıbəyovun, Səməd Vurğunun ev-muzeylərindən sonra Bülbülün ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdik. Mən o günləri, ayları da xatırlayıram. Adilə xanım burada dedi, həmin qərar xeyli bundan əvvəl qəbul olunmuşdu, ancaq həyata keçirilməmişdi. Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etmişdir, amma onun ev-muzeyini biz 1974-cü ildə yaratdıq. Yaxud Səməd Vurğun 1956-cı ildə vəfat etmişdir, biz onun ev-muzeyini 1976-cı ildə yaratdıq. Bülbül 1961-cı ildə vəfat etmişdir, biz onun ev-muzeyini 1982-ci ildə yaratdıq. Bilirsiniz, həyatdan getdikdən sonra onların ev-muzeylərinin gec yaranması bizim günahımız deyil. Əksinə, biz öz dövrümüzdə bunları yaratdıq. Amma bizə qədər onlar yaradılmamışdı.

Ona görə də bu gün çox fəxr edirəm ki, mən Azərbaycanın tarixini əks etdirən, xalqımızın tarixində böyük izlər qoymuş, xalqımıza böyük xidmətlər göstərmiş dahi, böyük insanların ev muzeylərinin yaradılmasının həm təşəbbüskarı olmuşam, həm də onların həyata keçirilməsini təmin etmişəm. Mən bu gün fəxr edirəm ki, yenidən Bülbülün ev – muzeyindəyəm. Biz 1982-ci ildə bu ev – muzeyini təntənəli surətdə açdıq. O vaxt biz hamımız buraya toplaşmışdıq. Mən o vaxt burada nitq söylədim, bu muzeyin yaradılmasının nə qədər zəruri olduğunu dedim. Bu gün həmin vaxtdan 15 il keçibdir. Yaratdığın, qurduğun bir əsərə 15 ildən sonra gəlib baxmaq həqiqətən böyük iftixar hissi doğurur. Mən çox sevinirəm. Xatirimdədir, mən Bakıya qayıdandan sonra bir dəfə bu muzeyə gəldim. Ancaq indi Bülbülün yubileyi ilə əlaqədar gəlmişəm.

Bu muzey 15 ildir yaşayır. O, 15 ildir ki, Azərbaycan xalqının mədəniyyətini, incəsənətini, xüsusən Bülbülün yaradıcılığını dünyaya tanıtdırır. Bu muzey onu həm Azərbaycanın həyatına gələn yeni-yeni nəsillər, həm də ölkəmizi ziyarət edən qonaqlara tanıtdırır. Bu, böyük bir hadisədir, işdir. Mən 15 il bundan əvvəl muzeyin açılışında söz demişəm, bu gün isə muzeyin 15 illik fəaliyyəti haqqında çıxış edirəm. Mən bu muzeyin fəaliyyətini çox yüksək qiymətləndirirəm.

BÜLBÜLÜN EV-MUZEYİNİN XATİRƏ KİTABINDA ÜRƏK SÖZLƏRİ:

«Azərbaycan xalqının böyük oğlu Bülbül mədəniyyətimizin, incəsənətimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir, böyük irs qoymuşdur. Onun parlaq siması bizim qəlbimizdə daim yaşayacaq, müstəqil Azərbaycanın gələcək nəsilləri üçün örnək olacaqdır.

Bülbülün ev-muzeyinə Bülbül irsinin, Azərbaycan mədəniyyətinin təbliğində yeni uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.

Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq.

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir.
Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.

Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır.

Azərbaycan xalqının ümummilli lideri
HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyindəki konsertdən sonra. *25 yanvar 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq şairi Səməd Vurğunun ev-muzeyində.
6 mart 1997-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində. Tretyakov Qalereyasının eksponatlarından ibarət sərgi. *1 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bir qrup Rusiya artistləri ilə konsertdən sonra. *6 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı İncəsənət Mərkəzində. *15 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq rəssamı Ö.Eldarovun görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi "Elegiya" əsərinin - mərmər abidənin və bu abidədən bəhs edən albomun təqdimat mərasimində. Bakı İncəsənət Mərkəzi. *15 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq rəssamı Ö.Eldarovun görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi "Elegiya" əsərinin - mərmər abidənin və bu abidədən bəhs edən albomun təqdimat mərasimində. Bakı İncəsənət Mərkəzi. *15 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev görkəmli musiqiçi M.Rostropoviçin 70 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində. *28 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünya şöhrətli musiqiçi M.Rostropoviçlə birgə. *28 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev görkəmli musiqiçi M.Rostropoviç və Q.Vişnevskaya ilə təntənəli yubiley gecəsində. *28 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində. M.Rostropoviçin 70 illiyinə həsr olunmuş tədbir. *28 aprel 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti, bəstəkar Müslüm Maqomayevin yubiley gecəsində. *17 oktyabr 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev M.F.Axundov adına Milli Kitabxanada. “Azərbaycan Qaçqınları” fotoalbomunun təqdimatı mərasimi.
5 noyabr 1997-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Hara gedir bu dünya?!” tamaşasının yaradıcı heyəti ilə. *7 noyabr 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti,
bəstəkar Tofiq Quliyevin yubiley gecəsində. *19 noyabr 1997-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bülbülün ev-muzeyində.
3 dekabr 1997-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bülbülün ev-muzeyində.
3 dekabr 1997-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakıda keçirilən
Novruz bayramı şənliyində. *21 mart 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
xalq şairi M.Dilbazinin yubiley gecəsində. *23 aprel 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev R.Mustafayev adına
Azərbaycan Dövlət İncəsənət muzeyində. Nikas Safronovun sərgisində.
15 may 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti, bəstəkar A.Məlikov və tanınmış balerina M.Plisetskaya ilə birgə. *24 may 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "İmperiya Rus Baleti" ansamblının konsertindən sonra. *24 may 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti
Sara Qədimovanı “Şöhrət” ordeni ilə təltif edir. *21 avqust 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti Habil Əliyevi
“Şöhrət” ordeni ilə təltif edir. *21 avqust 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev akademik Yusuf Məmmədəliyevin abidəsinin açılış mərasimində.
16 sentyabr 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yeni binasının açılış mərasimində. *9 oktyabr 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında “Sevil” operasının tamaşasından sonra. *15 noyabr 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq şairi Nəbi Xəzriyə "Şöhrət" ordenini təqdim edir. *12 dekabr 1998-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq şairi Zəlimxan Yaqubla birgə. *19 dekabr 1998-ci il*

AZƏRBAYCAN PROFESSİONAL VOKAL SƏNƏTİNİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

Respublika sarayı
3 dekabr 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizi böyük Bülbülün 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan mədəniyyətinin, incəsənətinin çiçəklənməsi naminə uğurlar arzulayıram.

Bülbülün 100 illik yubileyi xalqımız üçün bayramdır. Biz bu gün yubileyin zirvə mərasiminə toplaşmışıq. Ancaq 1997-ci il demək olar ki, Bülbül ili olubdur və xalqımız hər yerdə Bülbülü böyük minnətdarlıqla xatırlayaraq onun yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçiribdir. Müstəqil Azərbaycanın həyatında ilk dəfə vokal sənətinə həsr olunmuş Bülbül adına beynəlxalq müsabiqə keçirilməsi də birinci növbədə Bülbülün xatirəsinə hörmətdir və Bülbülün böyük səyləri nəticəsində Azərbaycan incəsənətində yaranmış professional vokal sənətinin yüksək səviyyədə olmasını nümayiş etdirir.

Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir. Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır. Bülbülün sənətinin əsasını təşkil edən onun təkraredilməz səsi, fitri istedadı, fədakarlığı və böyük yaradıcılıq yoludur. Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin yaranmasının banisi olaraq, eyni zamanda xalqımıza bu sahədə çox uğurlu yollar açmışdır.

Bülbülün yaradıcılığı çox zəngindir. Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları bizim milli sərvətimizdir. Əsrlər boyu xalqımız bu mahnılarla, bu musiqilərlə,

bu muğamlarla yaşamışdır və Bülbül də öz yaradıcılıq fəaliyyətinə məhz bu xalq mahnıları ilə, bu muğamlarla başlamışdır. Ancaq ondan əvvəlki böyük sənətkarlardan fərqli olaraq Bülbül həm xalq mahnılarını, xalq musiqisini, muğam musiqisini ən yüksək bəşəri səviyyələrə qaldıra bilmişdir, həm də bizim zəngin muğam, xalq musiqimizin əsasında professional vokal sənətinin yaranmasının banisi olmuşdur. Bunlarla və yaradıcılığının bütün başqa sahələri ilə Bülbül Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstərmişdir.

Bülbülün yaradıcılığının zirvəsini «Koroğlu» operasında ifa etdiyi Koroğlu rolu təşkil edir. Azərbaycanın dahi bəstəkarı – Üzeyir Hacıbəyovun da yaradıcılığının şah əsəri, zirvəsi «Koroğlu» operasıdır. Bu operanın yaranmasına Üzeyir Hacıbəyovun nə qədər böyük yaradıcılıq səyləri olmuşdursa, o qədər də Bülbülün varlığı və Bülbülün ifaçılıq sənəti kömək etmişdir. Düşünmək olar ki, bəlkə 30-cu illərin əvvəllərində Bülbül bir professional vokal ustası kimi, milli vokal ustası kimi formalaşmış olmasaydı, bəlkə Üzeyir Hacıbəyov da «Koroğlu» kimi ölməz operanı yaratmaqda çətinlik çəkərdi.

Məlumdur ki, Üzeyir Hacıbəyov məhz Bülbülün yüksək səviyyəsini görəndən sonra bəyan etmişdi ki, mən indi milli, professional opera yarada bilərəm. «Koroğlu» operası Azərbaycanın musiqi sənətində, incəsənətində, Azərbaycanın mədəniyyətində musiqi dəyərinə görə mükəmməl opera əsəri olduğuna görə çox yüksək qiymətə layiqdir və milli musiqimizin iftixarıdır. Ancaq eyni zamanda «Koroğlu» operasının yaranması Azərbaycanın həyatına musiqi və opera sənətinin təsiri ilə bərabər, Azərbaycanda milli vətənpərvərlik, azadlıqsevərlik, müstəqillik fikirlərinin yaranmasına da kömək etmişdir.

Məlumdur ki, Koroğlu bizim qədim əfsanəvi qəhrəmanımızdır. «Koroğlu» böyük bir dastandır. Bu, tək Azərbaycana yox, Mərkəzi Asiya, Qafqaz, Türkiyə, İran xalqlarının hamısına mənsub olan böyük bir qəhrəmanlıq dastanıdır. Üzeyir Hasıbəyovun ən böyük xidməti ondan ibarət oldu ki, əsrlərdən-əsrlərə şifahi ədəbiyyat vasitəsilə, sonra isə ayrı-ayrı kitablarda əksini tapmış «Koroğlu» dastanını mədəniyyətin, incəsənətin, ədəbiyyatın ən yüksək nümunəsi olan «Koroğlu» operası vasitəsilə bütün dünyaya nümayiş etdirdi. Bu gün tam cəsarətlə demək olar ki, «Koroğlu» dastanı, qəhrəman Koroğlu Üzeyir Hacıbəyovun operası yaranana kimi nə qədər məşhur idisə, Üzeyir Hacıbəyovun operası yaranandan sonra və bu operada böyük Bülbül Koroğlunun obrazını yaradandan sonra o, həddindən artıq çox məşhurlaşdı. Bəlkə də demək olar ki, «Koroğ-

lu» operasına qədər, Bülbülün Koroğlusuna qədər Koroğlu nə bizim xalqımızın içində, nə də başqa xalqların içində bu qədər tanınmamışdı.

Üzeyir Hacıbəyov «Koroğlu» dastanını musiqiyə çevirdi, opera əsərini yaratdı. Bülbül isə Koroğlunu yaratdı. Təbiidir ki, bizim heç birimiz Koroğlunu görməmişik və keçmişdən gəlib bizə çatmış «Koroğlu» dastanında heç bir yerdə Koroğlunun surəti, yəni onun portreti, rəsmi, şəkli olmamışdır. Yaratmaq lazım idi ki, Koroğlu nə cür olubdur. Bunu yaradan da Üzeyir Hacıbəyovun operasıdır və Bülbüldür. Biz «Koroğlu» operasını görəndə və sonrakı nəsillər «Koroğlu» operasını, Koroğlu obrazını görən kimi, Bülbülü görən kimi hamı hesab edir ki, Koroğlu bax, bu imiş. İndi Koroğlunun hər yerdə şəkilləri var. Bu, Bülbülün şəkilləridir, amma Koroğlu obrazında, Koroğlu libasında. Koroğluya heykəllər qoyulur. Hamısı həmin «Koroğlu» operasında Bülbülün yaratdığı, şübhəsiz ki, Üzeyir Hacıbəyovla, rejissorlarla, rəssamlarla birlikdə Bülbülün yaratdığı və at üstündə Azərbaycan Opera Teatrının səhnəsində hamımızın qarşısına çıxdığı Koroğlu obrazından götürülüb.

Ona görə də mən hesab edirəm ki, Üzeyir Hacıbəyovun və Bülbülün «Koroğlu» kimi operanın yaradılmasında xidmətləri bu əsərin musiqi, incəsənət, mədəni mənasından daha çox, daha böyük məna kəsb edir. Bu, tariximizin həqiqətidir və biz sona çatan XX əsrdə bu barədə görülən işlərə qiymət verməliyik.

Böyük şairimiz Molla Pənah Vaqifin bizə gəlib çatmış rəsmi, şəkli, portreti olmamışdır. Onu böyük Səməd Vurğunun «Vaqif» əsərini səhnəyə qoyan sənətkarlarımız və böyük aktyorumuz Ələsgər Ələkbərov yaratdı. Ona görə də Vaqifin bütün şəkilləri, bütün heykəlləri Ələsgər Ələkbərovun rejissorlarla, rəssamlarla bir yerdə Azərbaycan Dram Teatrında yaratdığı surətdən götürülübdür. Koroğlunun surəti də Bülbülün, Üzeyir Hacıbəyovun və rejissorların, rəssamların yaratdığı Koroğlu obrazından götürülübdür. Bütün bunlara görə də biz bu gün Bülbül sənətinə, Bülbül yaradıcılığına xüsusi minnətdar olmalıyıq.

Şübhəsiz ki, biz bu gün «Koroğlu» operası haqqında danışarkən əsərin librettosunu Üzeyir Hacıbəyovla birlikdə yazan böyük yazıçımız Məmməd Səid Ordubadini, alim Heydər İsmayılovu, «Koroğlu» operasının ilk rejissoru, böyük rejissor İsmayıl Hidayətzadəni və böyük rəssam Rüstəm Mustafayevi də minnətdarlıq hissi ilə xatırlamalıyıq.

Beləliklə, mən bu gün «Koroğlu» əsəri üzərində geniş dayanaraq Bülbülün bütün başqa xidmətləri ilə bərabər, Azərbaycan xalqı üçün nə qədər böyük xidmət etdiyini xüsusi qeyd etmək istəyirəm.

Bülbülün sənəti, onun bu günə qədər lent yazılarında qalmış məlahətli, təkrarolunmaz səsi, parlaq yaradıcılığı, onun qoyduğu böyük irs Azərbaycan xalqının milli sərvətidir. Bülbül öz yaradıcılığı ilə bugünkü müstəqil Azərbaycana xidmət edibdir. Biz bu gün də, XXI əsrdə də Bülbülün yaradıcılığından ilham alaraq, Bülbülün yaratdığı qəhrəman Koroğlunun qəhrəmanlıq nümunələrindən ilham alaraq müstəqil Azərbaycan dövlətini qurub yaradacağıq və inkişaf etdirəcəyik.

Burada Firəngiz xanım tamamilə doğru dedi, – bu cür əsərlər bəzən bir müğənni üçün, bir sənətkar üçün yazılır, ondan sonrakılar onu təkrar edirlər. Bu təbiidir, burada heç bir qüsur yoxdur. Bu, eyni zamanda onu göstərir ki, əgər Üzeyir Hacıbəyov «Koroğlu» operasının müəllifidirsə, Bülbül isə o musiqini səsə çevirən və onu mahnıya çevirən müəllifdir. Ona görə də, şübhəsiz ki, bu gün də, gələcəkdə də «Koroğlu» operası yaşayacaq, bizim yeni-yeni gözəl, parlaq müğənnilərimiz meydana gələcək, Bülbülün yolu ilə gedərək Koroğlu rolunu ifa edəcəklər. Ancaq hamı çalışacaq Bülbül kimi oxusun. Çünki bütün o mahnıları yaradan Bülbüldür. Əgər kimsə onu başqa cür oxusa, hesab edəcəklər ki, bu, Koroğlu deyil.

Bəstəkar musiqini yaradır, müğənni isə o musiqini mahnıya çevirməklə müəllif olur. Məsələn, böyük Nizami Gəncəvinin qəzəlləri əsasında Üzeyir Hacıbəyov ölməz «Sənsiz» və «Sevgili canan» romanslarını yaratdı. Onların ilk ifaçısı Bülbül oldu. Ondan sonra bu romanslar daim bizim həyatımızda səslənir, yeni-yeni müğənnilər bu romansları oxuyurlar. Amma hamısı çalışır ki, Bülbül kimi oxusun, öz səsini Bülbülün səsinə oxşatsın. Bu da Bülbülün bizim bu günümüz üçün və gələcəyimiz üçün etdiyi böyük xidmətlərdir.

Bülbülün 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərin hamısı onun adına və xatirəsinə layiqdir. Mən hesab edirəm ki, bu ənənə davam edəcəkdir. Bülbül heç vaxt unudulmayacaqdır. Bülbülün səsi də, yaradıcılığı da, onun gördüyü işlər də bizim qəlbimizdə daim yaşayacaqdır.

Güman edirəm ki, bu gün Bülbülün ruhu şad olubdur. Amma eyni zamanda düşünürəm ki, Bülbülün narahatçılığı da var. Narahatçılığı ondan ibarətdir ki, onun doğma Şuşası, Qarabağı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buna görə Bülbül narahatdır. Biz də narahatıq. Ancaq Bülbül də bilməlidir, xalqımız da bilməlidir, bizim üçün əziz olan Qarabağ torpağı, Şuşa qalası işğaldan azad olacaq, Bülbül diyarı müstəqil Azərbaycanın çiçəklənən bir guşəsi olacaq və gələcək nəsillər məhz Qarabağda, Şuşada Bülbülün heykəlini qoyacaq, Üzeyir Hacıbəyovun

yenidən heykəlini qoyacaq və Şuşa, Qarabağ Azərbaycanın gözəl guşəsi kimi müstəqil Azərbaycanda yaşayacaqdır.

Mən bütün Azərbaycan xalqının istək və arzularını, bütün Azərbaycan xalqının hissiyyatlarını ifadə edərək deyirəm ki, Bülbülə, onun sənətinə olan məhəbbətimiz sonsuzdur və sonsuz olacaqdır. Bülbül, onun sənəti Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır!

YAZIÇI ƏKRƏM ƏYLİSLİYƏ

Bakı şəhəri
5 dekabr 1997-ci il

Hörmətli Əkrəm Əylisli!

Sizi – Azərbaycanın əməkdar incəsənət xadimini, nasiri və dramaturqunu 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Siz ədəbiyyatımıza 60-cı illərdə gələrək öz orijinal yazı üslubunuz, qələmə aldığınız mövzuların həyatiliyi, aktuallığı ilə seçilməyə başladınız.

Dərin müşahidə qabiliyyətiniz sayəsində Siz o zamankı dövrün bütün gerçəkliyini, o cümlədən həyatımızda mövcud olan neqativ halları əsərlərinizdə əks etdirə bildiniz. Məhz yaradıcılığınızın bu xüsusiyyəti Sizə oxucuların böyük rəğbətini qazandırdı.

Sadə insanların zəngin mənəvi aləminin bədii təsviri həm nəsr, həm də dram əsərlərinizin başlıca qayəsidir. Xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş əsərləriniz və dünya ədəbiyyatı nümunələrindən etdiyiniz bədii tərcümələr ədəbi əlaqələrimizin genişlənməsi və ədəbiyyatlar arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsi işinə xidmət etmişdir.

Müxtəlif illərdə nəşriyyat direktoru, jurnal redaktoru, Yazıçılar Birliyinin katibi kimi respublikada ədəbi mühitin canlandırılması işinə yönəlmiş fəaliyyətiniz də təqdirəlayiqdir.

Ümidvaram ki, Azərbaycan ədəbiyyatının inkişafı yolunda Siz bundan sonra da var gücünüzü sərf edəcəksiniz və oxucularınızı yeni əsərlərlə sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ

Bakı şəhəri
6 dekabr 1997-ci il

Hörmətli Rauf Abdullayev!

Sizi – Azərbaycanın görkəmli dirijorunu 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz respublikada müsiqi mədəniyyətinin inkişafında xidmətləri olan sənətkar kimi tanınırsınız. Azərbaycan dirijorluq məktəbinin ənənələrini yüksək səviyyədə davam etdirmək, onu yeni zirvələrə qaldırmaq Sizə nəsib olmuşdur. Müasir Azərbaycan bəstəkarlarının onlarla əsəri Sizin böyük sənətkarlığınız sayəsində həyata vəsiqə almışdır. Sizin rəhbərliyiniz altında qoyulmuş bir çox tamaşa respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir.

Azərbaycan Dövlət Opera və Balet Teatrının və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətindəki uğurlu mərhələlərdən biri də baş dirijor və bədii rəhbər kimi məhz Sizin adınızla bağlıdır. Bakı Musiqi Akademiyasının professoru kimi 20 ildən artıq göstərdiyiniz pedaqoji fəaliyyət də səmərəli olmuşdur.

Ümidvaram ki, Azərbaycanda professional musiqi mədəniyyətinin inkişafı yolunda Siz öz təcrübə və bacarığınızı bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

BƏSTƏKAR
EMİN SABİTOĞLUNA

Bakı şəhəri
12 dekabr 1997-ci il

Hörmətli Emin Sabitoğlu!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini, respublikanın əməkdar incəsənət xadimini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz respublikada əsasən mahnı, musiqili komediya, kino və teatr musiqisi müəllifi kimi geniş şöhrət qazanmısınız. Böyük istedadla yaratdığınız lirik mahnılar ürəklərə asanlıqla yol taparaq dillər əzbəri olmuşdur. Son illərdə bəstələdiyiniz mahnıların əksəriyyəti ölkəmizin hüdudlarından kənarda da məşhurlaşmışdır.

Musiqili komediyalarınız milli koloriti, lirik və yumorlu musiqi dili ilə fərqlənərək Sizi ölkəmizdə bu janrın zəngin ənənələrinin layiqli davamçısı kimi tanıtmışdır. Azərbaycan Dövlət Akademik Dram Teatrında və digər teatrlarda səhnəyə qoyulmuş bir çox tamaşaların uğur qazanmasında onlara yazdığınız musiqinin böyük rolu vardır.

Respublikada musiqiçi kadrların yetişdirilməsi üçün Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz fəaliyyət də səmərəli və təqdirəlayiqdir.

Siz yaradıcılıq yollarında zəngin təcrübə toplamış istedadlı bəstəkar kimi sənətkar ömrünün müdrik çağına qədəm qoyursunuz. Ümidvaram ki, öz yeni əsərlərinizlə Azərbaycan musiqi mədəniyyətini daha da zənginləşdirərək musiqinizin pərəstişkarlarını bundan sonra da sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN ŞƏNLİKDƏ ÇIXIŞ

Bakı, Teleteatr
14 dekabr 1997-ci il

Əziz uşaqlar, əziz balalar!

Mən sizi, müstəqil Azərbaycan Respublikasının bütün uşaqlarını bayram münasibətilə – uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə xoşbəxt həyat, xoşbəxt gələcək arzulayıram.

İnsanın uşaqlıq dövrü ən xoşbəxt dövrüdür. Uşaqlar bunu bəlkə də bilməzlər. Ancaq uşaqlıq dövrünü yaşamış, həyatın ağır və çətin illərini, eləcə də çox xoşbəxt günlərini yaşamış insanlar bunu yaxşı bilirlər. Mən də belə insanlardan biriyəm. Uşaqlığın nə olduğunu yaxşı bilirəm, gəncliyin nə olduğunu və yaşlı həyatın nə olduğunu da bilirəm. Ona görə də mən sizə həqiqəti deyirəm. Həqiqət də ondan ibarətdir ki, uşaqlıq dövrü insanın ən xoşbəxt dövrüdür. Mən arzu edirəm ki, müstəqil Azərbaycanın uşaqları həyatlarının bu xoşbəxt dövrünü tam firavan keçirsinlər. Biz də – Azərbaycanın dövləti, hökuməti, Azərbaycanın prezidenti kimi mən də bütün xalqımızın xoşbəxtliyi uğrunda çalışaraq birinci növbədə uşaqların xoşbəxt həyatını təmin etməyi özümüzə müqəddəs vəzifə kimi qəbul etmişik. Biz bu yolda çalışırıq. Şəxsən mən hesab edirəm ki, uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq, uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır.

Azərbaycanda uşaqlara qayğı gün-gündən artır və artacaqdır. Təbiidir ki, respublikamızın həyatının keçid dövründə, ağır dövründə uşaqların hamısına istədiyimiz kimi, bir ata kimi, valideyn kimi, bəlkə də hər bir uşağa, hər bir övladımıza ürəyimiz istədiyi kimi qayğı göstərə bilmirik. Ancaq biz bunun üçün çalışırıq. Hesab edirəm ki, gün-gündən biz bu qayğını artıra bilirik və gələcəkdə də artıracağıq.

Öz övladına qayğı göstərmək, təhsil vermək, övladını yüksək əxlaqi normalar səviyyəsində tərbiyələndirmək hər bir valideynin borcudur.

Mən istərdim ki, Azərbaycanda həyatın bu ağır, çətin dövründə hər bir valideyn çətinliklərə baxmayaraq, bu vəzifələrin hamısını yerinə yetirməyə çalışsın, bu vəzifələri unutmasın. Hər halda, insana nə qədər çətin olsa da, uşağı üçün maksimum əlindən gələni etməlidir. Bu, hər bir valideynin borcudur. Biz isə dövlət olaraq hər bir Azərbaycan uşağını, hər bir Azərbaycan balasını öz övladımız hesab edirik. Siz bizim xalqımızın övladlarısınız. Uşaqlar, gənclər müstəqil Azərbaycanın gələcəyidir. Bizim arzumuz da bundan ibarətdir ki, gələcək bu gündən daha da gözəl olsun, hər bir insan üçün daha da xoşbəxt olsun. Mən inanıram, əminəm ki, bu olacaqdır. Əminəm ki, siz ilbəil daha yaxşı şəraitdə yaşayacaqsınız, öz istedadlarınızı inkişaf etdirmək üçün, istedadlarınızı həyatda tətbiq etmək üçün daha çox imkanlar əldə edəcəksiniz və hər bir uşağın, hər bir gəncin Azərbaycanda sərbəst yaşaması, inkişaf etməsi, cəmiyyətdə öz istedadına layiq yer tutması üçün imkanlar yaranacaqdır. Bu, bizim dövlətimizin siyasətidir. Bu, müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də qəbul etdiyi ilk konstitusiyanın əsas müddəalarıdır. Bu, mənim Azərbaycan prezidenti kimi, siyasətimin əsas strateji istiqamətlərindən biridir. Biz özümüz bütün imkanlarımızdan istifadə edərək bu işləri görürük və görəcəyik.

Eyni zamanda Azərbaycanın beynəlxalq uşaq konvensiyasına qoşulması və bu beynəlxalq təşkilatın üzvü olması həm Azərbaycanda uşaqlara qayğının artırılması üçün çox böyük imkanlar yaradır, həm də uşaqların hüquqlarının qorunması üçün, cəmiyyətdə uşaqlara münasibətin bizim konstitusiyanın əsasında, qanun əsasında qurulması üçün zəmin yaradır. Mən bu fürsətdən istifadə edərək beynəlxalq YUNİSEF təşkilatına bu illərdə Azərbaycan ilə etdiyi əməkdaşlığa görə və Azərbaycanda uşaqlara göstərdiyi yardıma görə təşəkkür edirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gələcəkdə də bütün beynəlxalq təşkilatlarda olduğu kimi, YUNİSEF təşkilatı ilə də əməkdaşlığını davam etdirəcək və bizim bu əməkdaşlığımız uğurlu olacaqdır.

Bu gün mən saat 12-dən televizorun önündə əyləşib sizin verilişiniz başlayan kimi çox böyük diqqətlə baxdım. Sonra da buraya gəlmişəm, sizinlə bir yerdəyəm, sizinlə bərabərəm. Öz təəssüratlarımı demək istəyirəm. Bu veriliş həddindən artıq gözəl təəssürat bağışlayır. Həm məzmununa görə, həm formasına görə, həm də televiziya vasitəsilə uşaqlarımızı şən, xoşbəxt əhval-ruhiyyədə gördüyümə görə mən çox sevinirəm. Mən çox sevindim ki, bu gün verilişi idarə edən, Azərbaycanda tanınmış televiziya aparıcısı Roza xanımla bərabər, iki uşaq – bir qız, bir oğlan bu ve-

rilişi gözəl aparmağa başladılar. Onların adlarını da soruşa bilmədim. Görün bizim xalqımızda nə qədər istedadlar var! Bizim uşaqlar öz istedadlarını kiçik yaşlarından büruzə verirlər, nümayiş etdirirlər. Bu istedadlarına görə özləri də fərəhlənirlər və bizi də fərəhləndirirlər.

Mən burada sizinlə bir yerdə olduğum dəqiqələrdə sizin mahnılarınızı dinlədim, rəqslərinizə baxdım, sözlərinizi eşitdim. Nə qədər gözəlsiniz, insanı nə qədər sevindirirsiniz, bizi nə qədər xoşbəxt edirsiniz! Mən hesab edirəm ki, siz, bu gün buraya, televiziya salonuna toplaşmış uşaqlar Azərbaycanın milyonlarla uşaqlarının istedadını, bacarığını, gözəlliyini, əhval-ruhiyyəsini təmsil edirsiniz. Hesab edirəm ki, bizim uşaqlarımızın hamısı belədir.

Valideyn üçün dünyada, həyatda pis uşaq yoxdur. Uşaq gözəldir. Azərbaycanın prezidenti kimi mənim üçün də respublikamızda hər bir uşaq gözəldir. Mən Azərbaycanda uşaqların hər birini gözəl, hər birini istedadlı hesab edirəm. Azərbaycanın hər bir uşağını öz doğma övladım hesab edirəm.

Uşaqlarımızın bir qismi yerindən – yurdundan didərgin düşmüşdür. İndi onlar qaçqın, köçkün ailələrində yaşayırlar. Bu, bizim xalqımızın faciəsidir. Xalqımıza qarşı 1988-ci ildən qonşu Ermənistan tərəfindən edilən təcavüz nəticəsində və keçmiş illərdə baş vermiş bəzi səbəblərə görə respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bu işğal nəticəsində bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Onların da demək olar ki, əksəriyyəti uşaqlardır, gənclərdir, köçkün, qaçqın vəziyyətində yaşayırlar. Çoxları isə çadırlarda yaşayır. Yenə deyirəm, bu, bizim xalqımızın faciəsidir. Ancaq mən dəfələrlə demişəm və bu gün də deyirəm – xalqımız dərdə dözümlü xalqdır və bu dərdə də dözür, inanır ki, qara günün ömrü az olar. Xalqımız bu faciədən xilas olacaq, işğal edilmiş torpaqlar işğaldan azad olunacaq, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz evinə, obasına qayıdacaqlar. Uşaqlar yaşayacaq, böyüyəcək, öz yerlərini, yurdlarını yenə də gözəlləşdirəcək, quracaq, yaradacaqlar.

Ancaq hələ ki, onlar, yerindən – yurdundan didərgin düşmüş uşaqlar ataları ilə, anaları ilə birlikdə, – bəziləri hətta valideynlərini itirib, – ağır vəziyyətdə, çadırlarda yaşayırlar. Bəlkə də onların bəzilərinin, ola bilər, çadırlarda yaşayanların çoxlarının televizoru yoxdur, bizi radio vasitəsilə dinləyirlər. Bəlkə də bəzisinin heç radiosu da yoxdur, ola bilər, bunlardan məhrumdur. Ancaq mən bilirəm və inanıram ki, bizim o çadırlarda olan vətəndaşlarımız da və oradakı uşaqlarımız da Vətən eşqi ilə

yaşayırlar, torpaq eşqi ilə yaşayırlar, onlar Vətənə, dövlətinə, millətinə sadiq insanlardır. Onların da, xüsusən ağır vəziyyətdə yaşayan uşaqların qayğıya daha da çox ehtiyacları var. Biz bunun üçün əlimizdən gələni edirik, bundan sonra da edəcəyik. O uşaqlar bilməlidirlər ki, biz, şəxsən mən onları bir dəqiqə də unutmuram. Onların dərdi daim bizi narahat edir. Biz onları və bütün xalqımızı bu dərddən qurtarmaq üçün bütün imkanlardan istifadə edirik və bundan sonra da istifadə edəcəyik.

Ancaq bu gün uşaqların beynəlxalq televiziya və radio bayramı münasibətilə mən Azərbaycanın bütün uşaqlarını təbrik edərək, buradan o çadırlarda yaşayan, qaçqın, köçkün ailələrində yaşayan uşaqları xüsusi təbrik edirəm. Onları öpürəm, onları bağrıma basıram. Onları, məhz uşaqları əmin edirəm ki, biz onları bu vəziyyətdən çıxaracağıq. Mən inanıram ki, bizim xalqımız – böyük qəhrəmanlar yetişdirmiş xalqımız, böyük alimlər yetişdirmiş xalqımız, böyük insanlar yetişdirmiş xalqımız məhz o çadırlarda yaşayan uşaqlardan da qəhrəmanlar yetişdirəcəkdir, alimlər yetişdirəcəkdir, böyük fikir sahibləri yetişdirəcəkdir və onlar gələcəkdə öz xalqına böyük xidmətlər edəcəklər.

Əziz balalar, əziz uşaqlar!

Bizi bu həyatda ən çox sevindirən sizsiniz. Həyatımızda nə qədər çətin dəqiqələr, çətin günlər olsa da sizi – uşaqları görərkən insan hər bir çətinliyi unudur. Şəxsən mən öz haqqımda deyirəm. Mənim işim ağırdır. Çox işləyirəm. Həyatımın hamısı işə sərf olunubdur. Bəzən çox ağır hadisələrlə rastlaşıram. Amma uşaqlara baxanda, öz övladlarıma, öz nəvələrimə baxanda, sizlərə baxanda hər şeyi unuduram. Şübhə etmirəm ki, siz öz təhsilinizlə, tərbiyənizlə, istedadınızla, öz varlığınızla daim valideynlərinizi sevindirəcəksiniz. Xalqımızı sevindirəcəksiniz, dövlətimizi sevindirəcəksiniz, məni sevindirəcəksiniz.

Biz sizə böyük ümidlərlə baxırıq. Azərbaycanın gözəl gələcəyi var, mən bunu görürəm və bunun uğrunda mən həyatımı sərf etmişəm, bundan sonra da sərf edəcəyəm. Sizə görə, Azərbaycanın gələcəyinə görə. Amma bilin ki, siz müstəqil Azərbaycanda yaşayırsınız, siz azad Azərbaycanda yaşayırsınız. Siz müstəqil, azad Azərbaycan Respublikasının övladlarısınız. Siz bizim demokratik cəmiyyətimizin, demokratik dövlətimizin gələcək qurucularısınız. Siz bizim işimizin davamçılarısınız. Biz gələcəyi sizə tapşırırıq. Sizi ürəkdən bir daha təbrik edirəm. Sizi bağrıma basıram, sizi öpürəm. Sizə xoşbəxtlik arzulayıram. Sağ olun.

XALQ RƏSSAMI MİKAYIL ABDULLAYEVƏ

Bakı şəhəri
18 dekabr 1997-ci il

Hörmətli Mikayıl Abdullayev!

Sizi – Azərbaycanın təsviri sənətinin görkəmli nümayəndəsini anadan olma gününüz münasibətilə və rəssamlıq fəaliyyətinizin 60 illiyi ilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan incəsənətinin inkişafında böyük xidmətləri olan mahir fırça ustasısınız. Müxtəlif janr və mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri sənət tariximizə əbədi daxil olmuşdur. 60 illik sənət yolunuz əslində ölkəmizin keçdiyi böyük bir dövrün canlı sənət salnaməsi hesab oluna bilər.

Azərbaycan təbiətinin gözəllikləri, Vətən övladlarının döyüş rəşadəti, torpağa, doğma yurda, əməyə, sənətə bağlılığı yaradıcılığınızın əsas qayəsini təşkil edir. Sizin hər bir təbiət tablonuz ölkəmizin müxtəlif guşələrini əks etdirən romantik bir sənət nümunəsidir. Böyük məhəbbətlə yaratdığınız portretlərdə Siz təsvir etdiyiniz tarixi şəxsiyyətlərin və sadə insanların mənəvi aləminə nüfuz edərək onların xarakterlərini ustalıqla açа bilmisiniz.

Azərbaycan ədəbiyyatının incilərinə, xüsusilə xalqımızın əzəli mövzusu olan «Kitabi–Dədə Qorqud» dastanına çəkdiyiniz illüstrasiyalar klassik milli irsə bəslədiyiniz hörmət və sevgi hissinizi nümayiş etdirir. «Nizami» metrosuna verdiyiniz tərtibat, teatrdakı fəaliyyətiniz bunu bir də təsdiqləyir. Vətən eşqi, ana məhəbbəti, Azərbaycan qadınının səadəti Sizin lirik lövhələrinizdə ustalıqla öz əksini tapıb. Böyük emosional təsir qüvvəsinə, milli koloritə, tərbiyəvi məzmuna malik əsərləriniz gənc nəslin formalaşmasında böyük rol oynamışdır. Sizin yorulmaz, məhsuldar fəaliyyətiniz daim Azərbaycan xalqına xidmət etmişdir.

Xarici ölkə mövzularında yaratdığınız rəsmlər silsiləsi ilə Siz incəsənətimizə yeni üfüqlər açmısınız. Əsərləriniz dünyanın bir çox ölkələrində nümayiş etdirilərək Sizə böyük şöhrət gətirmişdir. Xarici ölkələrdə fərdi sərgilər təşkil etmək Azərbaycan rəssamları içərisində öncə Sizə müyəssər olmuşdur.

Yaradıcılığınız Dövlət mükafatına, müxtəlif orden və medallara və Beynəlxalq Nehru mükafatına layiq görülmüşdür. Ən böyük mükafatınız isə xalqımızın, sənətsevərlərin şəxsiyyətinizə, gözəl əsərlərinizə bəslədiyi böyük ehtiram və dərin məhəbbətdir.

İnanıram ki, Siz zəngin təcrübənizdən və nadir fitri istedadınızdan istifadə edərək sənətinizin pərəstişkarlarını bundan sonra da yeni əsərlərlə sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

HEYKƏLTƏRAŞ
ÖMƏR ELDAROVA

Bakı şəhəri
20 dekabr 1997-ci il

Hörmətli Ömər Eldarov!

Sizi, heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsini, Azərbaycanın xalq rəssamını 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış, dərin məzmunlu monumental əsərləri ilə heykəltəraşlıq məktəbimizi zənginləşdirmiş böyük sənətkarlardansınız. Müxtəlif janrlarda yaratdığınız əsərlər öz bədii təsiri, mənəvi dəyəri, plastik kamilliyi və milli koloriti ilə fərqlənir. Gözəlliyə ülvi romantik münasibət Sizin sənətinizin əsas xüsusiyyətlərindəndir. Qədim və müasir mədəniyyətimizdə, tariximizdə, bügünkü həyatımızda gözəllik axtarışları sənət yolunuzun aparıcı qayəsi olmuşdur.

Siz Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək xalqımız üçün dəyərli əsərlər yaratmısınız. Ümumbəşəri mövzuları, böyük hümanist idealları müdrikliklə əks etdirən əsərləriniz klassik sənət nümunələridir.

Dərin psixoloji xarakteristika, yeni plastik forma axtarışları ilə səciyyələnən yaradıcılığınız daşlarda həkk olunmuş musiqiyə bənzəyərək sənətsevərlərin ürəklərini öz kamilliyi ilə fəth edir.

Siz öz yaradıcılığınızla Azərbaycan təsviri sənətinə heykəltəraşlıqla memarlığın uğurlu sintezi nümunəsini bəxş etmisiniz. Mahir ustalıqla yaratdığınız əsərlər xeyirlə şərin qarşıdurması ilə, böyük tarixi sarsıntılarla səciyyələnən əsrimizin sanki canlı rəmzidir.

Şəhərimizin küçə, meydan və xiyabanlarını bəzəyən abidələriniz xalqımızın mədəni irsinə ehtiram və məhəbbət duyğuları oyadan canlı muzeydir. Bu əsərlərlə Siz müstəqil Azərbaycanımızın mədəniyyət tarixində, sənətsevərlərin ürəklərində özünüzə də həmişəyaşar bir abidə ucaltmısınız. Yaratdığınız heykəllər xarici ölkələrin şəhərlərində də özünə layiqli yer tapmış və Sizi daha da şöhrətləndirmişdir.

Siz böyük xidmətlərinizə görə dövlət mükafatı, müxtəlif medal və diplomlarla təltif olunmuş, keçmiş SSRİ Rəssamlar Akademiyasının həqiqi üzvü adına layiq görülmüsünüz.

İnanıram ki, yaradıcılığınızın müdrik dövrünü yaşadığınız indiki mərhələ sənət yolunuzun həm də ən məhsuldar mərhələsi olacaqdır və Siz Azərbaycanın təsviri sənətinin qızıl fondunu zənginləşdirən yeni əsərlər yaradacaqsınız.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ FƏRHAD BƏDƏLBƏYLİYƏ

Bakı şəhəri
26 dekabr 1997-ci il

Hörmətli Fərhad Bədəlbəyli!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin tanınmış nümayəndəsini 50 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizin ifaçılıq sənətiniz musiqi həyatımızda mühüm yer tutur. Siz Azərbaycanın ifaçılıq məktəbini nüfuzlu beynəlxalq müsabiqələrdə təmsil edərək böyük uğurlar qazanmısınız. Klassik musiqimizin dünyada yorulmaz təbliğatçısı kimi əməyiniz yüksək qiymətə layiqdir. Ölkəmizin görkəmli bəstəkarlarının əsərləri və dünya musiqi xəzinəsindən incilər sSizin ifanızda musiqisevərlərin böyük rəğbətini qazanmışdır.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan bir nəslin zəngin ənənələrini davam etdirərək Siz respublikamızın musiqi həyatında öz dəsti-xəttinizlə seçilirsiniz. Bakı Musiqi Akademiyasının rektoru kimi gənc musiqiçilər nəslinin yetişdirilməsi sahəsində pedaqoji fəaliyyətiniz təqdir olunmalıdır.

Sizin ictimai həyatda iştirakınız bilavasitə musiqi ilə bağlı olaraq musiqi xadimləri cəmiyyəti və "Azərbaycan mədəniyyətinin dostları" fondunda öz əksini tapmışdır. İnanıram ki, Siz istedadınızdan, təşkilatçılıq qabiliyyətinizdən və təcrübənizdən istifadə edərək zəngin musiqi mədəniyyətimizin təbliğ olunması və respublikada gənc musiqiçi kadrların hazırlanması sahələrində bundan sonra da var qüvvənizi sərf edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR EDİLMİŞ BƏDİİ-İDMAN BAYRAMINDA NİTQ

Bakı İdman Oyunları Sarayı
2 fevral 1998-ci il

Əziz gənclər!

Sizi müstəqil Azərbaycanın gənclər günü münasibətilə, bu bayram günü münasibətilə təbrik edir, sizə xoşbəxt gənclik, sağlamlıq və uğurlu gələcək arzulayıram.

Azərbaycanın ən böyük sərvəti onun fədakar insanlarıdır. Bizim xalqımızın, cəmiyyətimizin ən qiymətli sərvəti gənclərimizdir, sizsiniz, əziz Azərbaycan övladları! Siz Azərbaycanda müstəqilliyin möhkəmlənməsinin və əbədi olmasının, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin qurulmasının və inkişaf etməsinin, Azərbaycanın iqtisadiyyatının, sosial sahəsinin inkişaf etməsinin yaradıcıları, qurucuları və bizim gördüyümüz bütün işlərin davamçılarısınız. Siz Azərbaycanın çiçəklənən gələcəyisiniz, XXI əsrdə Azərbaycanın bayrağını daha da yüksəklərə qaldıranlarsınız.

Biz bu gün çalışaraq, çarpışaraq, müstəqil Azərbaycanın qarşısında duran ağır və çətin problemləri həll edərək, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirərək, iqtisadiyyatını inkişaf etdirərək sizə arxalanırıq, sizə güvənirik. Gənclər ölkəmizdə cəmiyyətin əksəriyyətini təşkil edir. Azərbaycanın bu günü və gələcəyi sizin fəaliyyətinizdən, işinizdən, sizin fədakarlığınızdan asılıdır. Məmnuniyyət hissi ilə bildirirəm ki, bu gün Azərbaycanın iftixar ediləsi gəncliyi var. Biz sizinlə fəxr edirik. Sizin varlığınız, bu gününüz və gələcəyiniz bizim qəlbimizdə böyük qürur hissi doğurur. Azərbaycanın dövlət başçısı kimi, mən özümü xoşbəxt hesab edirəm ki, bu gün Azərbaycan xalqının sağlam, gözəl, istedadlı gəncləri var.

Son illər Azərbaycan böyük sınaqlardan keçib, böyük çətinliklərin öhdəsindən gəlibdir. Arxada qalmış altı il Azərbaycanın müstəqilliyinin qorunması, saxlanılması illəri olubdur, Azərbaycanda müstəqil dövlətin, müstəqil iqtisadiyyatın yaranması illəri olubdur, Azərbaycanın milli ordu-

sunun, dövlət strukturlarının yaranması illəri olubdur. Biz bütün bu sınaqlardan, çətinliklərdən məharətlə keçmişik. Azərbaycanda sağlam əhval-ruhiyyə, ictimai-siyasi sabitlik mövcuddur. Azərbaycanın gələcəyi açıq-aydın görünür və biz bu gələcəyə ümidlərlə baxırıq. Görülən bütün bu işlər içərisində Azərbaycanda əldə olunan ən böyük nailiyyətlərdən biri də odur ki, bu illərdə ölkəmizin sağlam, yüksək ideallarla yaşayan, xalqına, vətəninə, torpağına hədsiz sədaqət hissləri ilə çalışan gəncləri vardır.

Əziz övladlar, sizin kimi gəncləri, gəncliyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var. Bunlar sizlərsiniz, əziz övladlar! Siz bu gün, bu bayram günü bu sarayda öz istedadlarınızı nümayiş etdirdiniz – idman növləri, rəqslər, mahnılar. Bunlar hamısı Azərbaycan gəncliyinin yüksək istedada malik olduğunu göstərir, Azərbaycanın bugünkü gənclərinin qabiliyyətini, bacarığını, gücünü, zəkasını, yüksək mədəniyyətini göstərir. Sizi bu nailiyyətlərinizlə təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, Siz cəmiyyətimizi günbəgün yeni-yeni nailiyyətlərlə sevindirəcəksiniz və Azərbaycanı daim yüksəldəcək, irəliyə aparacaqsınız.

Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun, vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir. Mən arzu edirəm ki, Siz daim sədaqətli olasınız. Siz bilməlisiniz ki, indi bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, doğma Azərbaycanımız var. Bu bizimdir, bu sizindir, bu, daim Azərbaycan xalqınındır və biz daim müstəqillik. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır.

Sizin şərəfli vəzifəniz vətəndaşlıq borcunuzu yerinə yetirmək, Azərbaycanın milli ordusunda, silahlı qüvvələrində xidmət etməkdir. Bilmək lazımdır ki, xalqımız keçmiş dövrlərdə də gəncləri orduda xidmət etmək üçün hazırlayıbdır. Bizim gənclərimiz XX əsrin müharibələrində əsil qəhrəmanlıq nümunələri göstəriblər. Biz Azərbaycanın qəhrəman oğulları ilə həmişə fəxr etmişik və onların xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Ancaq indi hər bir azərbaycanlı gənc bilməli, dərk etməli, düşünməlidir ki, o, yalnız və yalnız öz vətəni, doğma torpağı, xalqı üçün öz doğma ordusunda xidmət etməlidir. Ona görə də bu gün və gələcəkdə hər bir gəncin orduda xidmət etməsi keçmiş zamanlardan tamamilə fərqlidir. Orduda xidmət hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Valideynlər öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, ən birinci valideyn tapşırığı oğlunun orduda xidmət etməsi olmalıdır. Hər bir Azərbaycan oğlu uşaqlıqdan orduda xidmət etməyi arzulamalıdır. O, bunun üçün çalışmalı, tələsməli, orduda xidmət yaşının çatmasını həsrətlə gözləməlidir və orduda xidmət edərək vətən, millət qarşısında öz şərəfli borcunu verməlidir.

Bu gün Azərbaycanın Milli Ordusunda on minlərlə gənc sədaqətlə vətənə xidmət edir. Mən onların xidmətini və bu gün Azərbaycan ordusunun sıralarında olmasını, ölkəmizin ərazisinin, torpaqlarının keşiyində olmasını yüksək qiymətləndirirəm və bu bayram günü ordu sıralarında olan bütün Azərbaycan gənclərini xüsusi təbrik edirəm. Azərbaycanın milli ordusunun güclənməsi, qüdrətlənməsi hər bir vətəndaş üçün, hər bir gənc, uşaq üçün lazımdır. Çünki biz öz vətənimizi, müstəqil dövlətimizi, ölkəmizi, respublikamızı daim qorumaq qüdrətinə malik olmalıyıq. Bunu da bizim ordu etməlidir – bu gün də, gələcəkdə də.

Azərbaycan Milli Ordusunun möhkəmlənməsi və inkişaf etməsi bu gün bizim qarşımızda duran ən zəruri vəzifələrdən biridir. Ermənistan silahlı qüvvələrinin işğalçılığı nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycan torpaqlarının 20 faizi hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, o yerlərin sakinləri zorla çıxarılıb, Azərbaycanın başqa yerlərində çoxları çadırlarda yaşayırlar. Bilirsiniz ki, biz 1994-cü ilin mayında döyüşləri dayandırmışıq, atəşkəs haqqında saziş imzalamışıq və məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Bu sahədə çox işlər görülüb, bu gün də görülür və gələcəkdə də görüləcəkdir. Mən tam əminəm ki, biz məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Ancaq bununla yanaşı, bizim ordumuz möhkəmlənməlidir. Möhkəmlənməlidir ki, Azərbaycan ölkəsinin özünə layiq, qüdrətli ordusu olsun. Möhkəmlənməlidir ki, Azərbaycan ordusu bu gün də, gələcəkdə də ölkəmizə qarşı mümkün olan təcavüzün qarşısını alsın. Möhkəmlənməlidir ona görə ki, ordumuz Azərbaycanı daim qoruya bilsin. Bütün bunlara görə Azərbaycan gəncliyinin qarşısında duran ən birinci, ən ümdə vəzifə ordu ilə əlaqəni möhkəmləndirmək, orduda xidmət etmək, orduya

diqqət, qayğı yetirmək, ordunun hörmətini qaldırmaqdır. Orduda, Azərbaycan silahlı qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır.

Əziz gənclər! Gənclik dövründən səmərəli istifadə edin, yaxşı təhsil alın, özünüzü həyata yaxşı hazırlayın. Gənclik illəri sonra ələ düşməyən illərdir. Yaş artdıqca insan bu illəri həmişə böyük həsrətlə xatırlayır. Siz gənclər bəlkə də bunu indi dərk edə bilmirsiniz, ancaq biz – yaşlı insanlar bunu çox yaxşı bilirik. Hər bir yaşlı insan öz gəncliyini daim məhəbbətlə xatırlayır və eyni zamanda gəncliyi dövründə itirdiyi günlərə, səmərəsiz keçmiş günlərə görə özünü daim qınayır, heyifsilənir. Ona görə də gələcəkdə özünüzü qınamamaq üçün, gəncliyinizdə nəyisə etmədiyinizə görə heyifsilənməməyiniz üçün mən sizə məsləhət edirəm: gənclik günlərindən, aylarından, gənclik illərindən səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın. Özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın.

Sevindirici haldır ki, son illər Azərbaycan çox ağır çətinliklərdən keçərək Azərbaycan məktəbini qoruyub saxlaya bildi. Azərbaycanda məktəblər, universitetlər, ali təhsil ocaqları indi artıq normal fəaliyyət göstərir və gənclərimiz sərbəst, istədikləri kimi, azad təhsil almaq imkanına malikdirlər. Ümidvaram ki, bizim bugünkü gənclərimiz keçmiş dövrlərdə olan gənclərdən daha da yüksək təhsil ala biləcəklər və gələcək üçün daha da bilikli, daha da yüksək səviyyəli olacaqlar.

Bizim istəyimiz, arzumuz ondan ibarətdir ki, gəncliyimiz, Azərbaycanın gəncləri sağlam olsunlar. Fiziki sağlamlıq, mənəvi, ruhi sağlamlıq – hamısı bizim gənclər üçün ən vacib amillərdir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycanın gəncliyi əsasən sağlamdır. Bu gün Azərbaycan idmançıları gözəl idman nümunələri göstərdilər. Bizim gənclərimizdən nə qədər dünya çempionları var, dünyanın müxtəlif idman yarışlarında iştirak edir, yüksək mükafatlar, adlar alırlar. Bunlar bizi sevindirir.

Ancaq bunlarla yanaşı, gərək hər bir gənc öz fiziki sağlamlığı üçün çalışsın, daim idmanla, bədən tərbiyəsi ilə məşğul olsun. Bədən tərbiyəsi hər bir gəncin həyatının ayrılmaz hissəsi olmalıdır. Səmərəli işləmək, xalqa, ölkəyə xidmət etmək üçün Azərbaycanda hər bir gənc gərək sağlam olsun.

Eyni zamanda mənəvi sağlamlıq çox vacibdir. Bizim xalqımızın milli, mənəvi ənənələri, mədəni, milli dəyərləri həmişə, əsrlər boyu xalqımızı yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb, yaşadıbdır. Biz

fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiribdir. Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır, milli kökünə, mənəvi kökünə sadiq olmalıdır. Bizim o kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik. Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir.

Biz müasir dünyada yaşayırıq. Azərbaycan azad, sərbəst və açıq ölkədir, dünyanın bütün ölkələri ilə hərtərəfli əlaqələr qurur və bundan sonra da quracaqdır. İndiki həyatımızın səciyyəvi cəhəti ondan ibarətdir ki, biz o qapalı vəziyyətdən çıxmışıq. Biz sərbəstik, azadıq, dünyaya açığıq və bundan da səmərəli istifadə etmək lazımdır. Ölkəmizi, xalqımızı dünyaya olduğu kimi göstərmək və xalqımızın mənəvi dəyərlərini, nailiyyətlərini dünyada təbliğ etmək bizim ən əsas vəzifələrimizdən biridir. Eyni zamanda ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etmək, onları öz mənəvi dəyərlərimizlə birləşdirmək və xalqımızın mənəviyyatını zənginləşdirmək bizim əsas vəzifələrimizdən biridir. Bunların hamısını bilmək, bu vəzifələri ağılla, zəka ilə həyata keçirmək lazımdır. Bax, buna görə də bizim milli, mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə sintezi, birləşdirilməsi xalqımızın mənəviyyatını zənginləşdirib və bundan sonra da zənginləşdirəcəkdir. Bu, gələcək üçün bizim strateji yolumuzdur.

Ancaq biz bu yolla gedərkən gərək heç vaxt səhvlərə yol verməyək, bizə yad olan, mənəviyyatımıza zidd olan ünsürlərin cəmiyyətimizə, xalqımızın, gənclərin əxlaqına sirayət etməsinə yol verməyək. Sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı Azərbaycan üçün çox böyük uğurlar gətirib və bundan sonra da gətirəcəkdir. Ancaq bu sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının, sahibkarlığın eyni zamanda cəmiyyətimizə mənfi ünsürlər gətirməsi təhlükəsi də var və onların bəziləri artıq mövcuddur. Ona görə də bazar iqtisadiyyatını inkişaf etdirərək, sərbəst iqtisadiyyata geniş yer verərək, sahibkarlığı inkişaf etdirərək, Azərbaycanda sahibkarlar təbəqəsi yaradaraq biz hamısını öz mənəvi dəyərlərimizin üzərində qurmalıyıq. Bu proseslərdə Azərbaycana yad olan, cəmiyyətimizə zərər vuran mənfi halların cəmiyyətə soxulmasına, sirayət etməsinə və cəmiyyətimizi içindən çürütməsinə heç vaxt yol verməməliyik. Bu da bizim vəzifəmizdir, əziz gənclər, sizin vəzifənizdir.

Bu vəzifələri yerinə yetirmək üçün biz öz tərəfimizdən lazımi tədbirlər görürük və bundan sonra da görəcəyik. Sizə məlumdur ki, mən son günlər bu barədə çox ciddi qərarlar qəbul etmişəm, sərəncamlar vermi-

şəm. Son beş-altı ildə Azərbaycanda yaranmış bir neçə kazinoların, qumarxanaların, gecə klublarının fəaliyyətinin dayandırılması haqqında qərar vermişəm. Azərbaycanın, xalqımızın mənəviyyatına zidd olan, xalqımızın əxlaqını pozan cəhətlərin, onları yayan cürbəcür müəssisələrin ləğv olunması haqqında qərarlar vermişəm. Güman edirəm ki, siz mənim bu qərarlarımı dəstəkləyir, qəbul edirsiniz, buna tərəfdar çıxırsınız və onların həyata keçirilməsində fəal iştirak edəcəksiniz. Mənim bu qərarlarımın hamısı yalnız və yalnız xalqımızın, cəmiyyətimizin sağlamlığını, gənclərimizin sağlamlığını qorumağa yönəldilibdir. Mən bütün bu qərarlarımla, bütün bu fəaliyyətimlə çalışıram ki, xalqımız, hər bir Azərbaycan vətəndaşı, xüsusən siz gənclər sağlam əxlaq tərbiyəsi alasınız, əxlaqınız sağlam olsun.

Spirtli içkilərə uymaq insanları nə qədər ağır vəziyyətə gətirib çıxarır. Cürbəcür narkotik maddələrdən istifadə etmək xüsusən gəncləri nə qədər bəlalara, xəstəliklərə və nəhayət, insanların məhv olmasına gətirib çıxarır. Biz bunların Azərbaycanda yayılmasına yol verə bilmərik və bilin ki, yol verməyəcəyik. Bu, yalnız və yalnız sizin, gənclərin sağlamlığı naminədir.

Əziz gənclər, qarşınızda duran vəzifələr sizin hamınıza məlumdur. Mən sadəcə bir neçə məqamlara toxundum. Əminəm ki, siz qarşınızda duran vəzifələrin hamısını sədaqətlə yerinə yetirəcəksiniz, təhsildə, işdə, həyatda, ailədə, cəmiyyətimizin hər bir sahəsində uğurlar qazanacaqsınız. Mən buna əminəm. Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın prezidenti sizin – gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik. İnanın ki, Azərbaycanın xoşbəxt gələcəyi var və bu xoşbəxt gələcəyin də qurucuları sizlərsiniz.

Mən bir daha deyirəm: Sizə güvənirəm, sizə arxalanıram və sizə güvənərək indiyə qədər cəsarətlə işləmişəm, bundan sonra da cəsarətlə çalışacağam. Sizə, Azərbaycan gənclərinə cansağlığı, firavan həyat, xoşbəxt gələcək arzu edirəm. Sağ olun, sağ olun, sağ olun!

Azərbaycan gəncləri günü münasibətilə keçirilən konsert başa çatdıqdan sonra müsabiqənin qaliblərini və konsertin bütün iştirakçılarını səmimi qəlbdən təbrik edərək dedi:

Mən sizi Azərbaycan gəncləri günü münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram. Laureatları, müsabiqənin qaliblərini təbrik edirəm. Bu gün bu səhnədə istedadını göstərən gözəl gənclərimizi təbrik edirəm.

Hamınız gözəlsiniz, yaxşısınız. Yaxşı oxuyursunuz, çalırsınız, oynayırsınız. Həmişə də belə olun!

XALQ ARTİSTİ
ARİF BABAYEVƏ

Bakı şəhəri
19 fevral 1998-ci il

Hörmətli Arif Babayev!

Sizi – Azərbaycanın musiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz klassik muğam ifaçılığımızın ənənələrini qoruyub yaşatmaqla xalqımızın böyük məhəbbətini qazanmış sənətkarlardansınız. Muğam və xalq mahnılarının gözəl bir ifaçısı olmaqla yanaşı, Siz 30 ildən artıqdır ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti kimi də ölkəmizdə geniş tanınırsınız.

Siz gözəl səsiniz və təkrarolunmaz ifa üslubunuz sayəsində xalq musiqimizin təbliğində xidmətlər göstərmiş, onu dünyanın bir çox xalqlarına sevdirə bilmisiniz. Bakı Musiqi Akademiyasının kafedra müdiri kimi, milli operamız üçün gənc müğənnilərin yetişdirilməsində də böyük səy göstərirsiniz.

Əminəm ki, Siz xalqımızın zəngin musiqi xəzinəsinin incilərinə yeni həyat verməklə sənətinizin pərəstişkarlarını bundan sonra da sevindirəcək, yeni ifaçılar yetişdirilməsində var qüvvənizi və təcrübənizi əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ RƏSSAMI BÖYÜKAĞA MİRZƏZADƏYƏ

Bakı şəhəri
20 fevral 1998-ci il

Hörmətli Böyükağa Mirzəzadə!

Sizi – Azərbaycan milli rəssamlıq məktəbinin görkəmli nümayəndəsini, anadan olma gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Siz rəngkarlıq, qrafika, səhnəqrafiya, monumental divar rəssamlığı janrlarında gözəl əsərlər müəllifi kimi xalqımızın hörmət və rəğbətini qazanmış sənətkarlardansınız. Şərəfli sənət yolunuz milli rəssamlığımızın daim inkişaf etməsinə və onun dünya miqyasında tanınmasına xidmət etmişdir. Məhz Sizin mənsub olduğunuz rəssamlar nəsli Azərbaycanın xalı, miniatür, şəbəkə, tikmə sənətlərinin çoxəsrlik ənənələrini davam etdirməklə yanaşı, müasir rəngkarlıq sənəti baxımından da gözəl əsərlər yaratmışdır.

Xalqımızın böyük mütəfəkkirlərinin portretləri, Azərbaycan təbiətinin füsünkar gözəlliklərini əks etdirən peyzajlar, tarixi və ədəbi mövzular əsasında yaratdığınız əsərlər, təsviri incəsənət xəzinəmizi zənginləşdirmişdir. Mayası əsil vətəndaşlıq ruhu ilə yoğrulmuş bu rəsm əsərləri gənc nəslin xalqa, torpağa bağlılıq ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Ümidvaram ki, xalqımızın yüksək mənəvi dəyərlərini təbliğ edən, onları gənclərimizə aşılayan yeni əsərlərinizlə sənətsevərləri bundan sonra da sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları diləyirəm!

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

YAZIÇI ANARA

Bakı şəhəri
13 mart 1998-ci il

Hörmətli Anar!

Sizi – xalqımızın tanınmış yazıçısı, dramaturqu və ictimai xadimini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz. Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiyyat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir.

Saflıq ideyalarını tərənnüm edən pyeslәriniz, xüsusilə "Şəhərin yay günləri" pyesi öz bədii dəyəri ilə yanaşı, cəmiyyətimizin diqqətini bir çox mənəviyyat problemlərinə cəlb etmişdir.

Qürur, şərəf və ləyaqət simvolu olan ulu "Dədə Qorqud" eposunun qəhrəmanlarını müasirlərimiz üçün daha doğma və əziz edən məhz Sizin yaradıcılığınız olmuşdur. Bu eposun gənc nəslin tərbiyəsində müstəsna yer tutmasında da səyləriniz xüsusi qeyd olunmalıdır.

"Molla Nəsrəddin" ənənələrinə, müdrik Mirzə Cəlilin millət dərslərinə bizim səhnədə və jurnalistikada yenidən həyat vermiş fəaliyyətiniz də diqqətə layiqdir. Üzeyir bəy mövzuları Sizin əsərlərinizdə öz uğurlu əksini taparaq tarixi keçmişimizin yenidən dərk olunması zərurətini bir daha vurğulamışdır. Təşəbbüsünüzlə yaranan "Qobustan" toplusu azərbaycançılıq ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır.

Ölkədə və cəmiyyətdə baş verən dəyişikliklər yazıçı Anara publisist və tədqiqatçı şöhrəti də gətirmişdir. Sizin ictimai fəaliyyətiniz bədii əsərlərinizdəki fikir və ideyaların əməli surətdə gerçəkləşməsinə əyani bir nümunədir.

Azərbaycan ədəbiyyatı tarixində görkəmli yer tutmuş və böyük xidmətləri olmuş sevimli şairlərimiz Nigar Rəfibəyli ilə Rəsul Rzanı yubiley

gününüzdə böyük minnətdarlıq hissi ilə yad edir və bu ailənin layiqli övladı olmağınızdan məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan Respublikasının müstəqil inkişafı yollarında öz zəngin təcrübə və bacarığınızı bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Bakı şəhəri
19 mart 1998-ci il

Hörmətli həmvətənlər!

Xalqımızın əziz bayramı – qədim Novruz bayramı münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, sizə Novruz əhval-ruhiyyəsi arzulayıram.

Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi kəşməkəşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir.

Zəngin mənəvi dəyərlərimizə söykənərək insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq münasibətlərini bərqərar edən Novruz bayramı xalqda gələcəyə nikbinliklə, ümidlə baxmaq hissləri doğurur.

Novruz təbiətin oyanması, saf duyğuların, ülvi niyyətlərin, xoş arzuların çin olduğu gündür. Qoy ürəyimizdə tutduğumuz bütün istəklər – müharibəyə birdəfəlik son qoyulması, torpaqlarımızın azad edilməsi, erməni təcavüzü nəticəsində didərgin düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması kimi müqəddəs diləklərimiz həyata keçsin və biz gələn Novruz bayramımızı daha şad və xoş əhval-ruhiyyə ilə qarşılayaq.

Novruz bayramını dünyanın müxtəlif ölkələrində yaşayan bütün azərbaycanlılar böyük məhəbbətlə, əcdadlarına, el-obalarına, müstəqil Azərbaycan Respublikasına bağlılıq hissləri ilə qeyd edirlər. Qoy bu hisslər Novruz nəfəsi ilə vətənin tərəqqisi, xalqın xoş güzəranı naminə çiçəklənib qüvvətlənsin!

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhid olmuş övladlarımızı bu bayram günlərində xatırlayaraq onlara Allahdan rəhmət diləyib qəbirləri nurla dolsun deyirəm, şəhidlərin əzizlərinə və bütün xalqımıza ulu Tanrıdan səbr arzulayıram.

Əziz bacılar və qardaşlar!

Bu bahar bayramında hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyət diləyirəm.

Bayramınız mübarək olsun!

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MƏRDƏKANDAKI "ABŞERON" SANATORİYASINDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN KEÇİRİLƏN BAYRAM ŞƏNLİYİNDƏ NİTQ

20 mart 1998-ci il

Əziz bacılar, əziz qardaşlar!
Əziz balalar, gənclər, uşaqlar!
Hörmətli dostlar!

Mən sizin hamınızı və sizin simanızda bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını əziz bayram – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət, bahar, Novruz əhval-ruhiyyəsi arzu edirəm. Hamınıza gələcək işlərinizdə uğurlar diləyirəm.

Novruz Azərbaycan xalqının müqəddəs bayramıdır. Qədim zamanlarda bizim əcdadlarımız bu bayramı yaradıblar və bu bayram min illərlə yaşayıb, xalqımıza, millətimizə həmişə səadət, xoşbəxtlik, sevinc gətiribdir, xalqımıza güc veribdir. Bu bayram bütün dövrlərdə yaşayıbdır. Bu gün isə müstəqil Azərbaycanın ərazisində o, əziz bayram kimi qeyd olunur. Novruz bayramının çox böyük mənası vardır. Bu, həm bahar bayramıdır, həm təbiətin oyanışının bayramıdır, həm də insanların həyatında böyük dəyişikliklər bayramıdır. Çox gözəl bayramdır! Təsadüfi deyil ki, bu bayram bütün sınaqlardan keçərək yaşayıbdır və bu gün də yaşayır. Mən arzu edirəm ki, bu bayram günü hər bir Azərbaycan vətəndaşının, əziz dostlar, sizin arzularınız, niyyətləriniz yerinə yetsin, kimin ürəyində nə arzu varsa, ona çata bilsin, kim nə istəyirsə, ona nail ola bilsin. Mən Allahdan hamınıza qarşınızda duran bütün məsələlərin uğurla həll olunmasını arzulayıram.

Ancaq bizim hamımızın – elliklə, obalıqla xalqımızın, millətimizin bir müqəddəs arzusu, istəyi, bir müqəddəs məqsədi vardır. O da Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi və yerindən-yurdundan didərgin düşmüş, zorla köçürülmüş və bu gün köçkün vəziyyətində yaşayan insanların hamısının öz yerlərinə-yurdlarına qayıtma-

sı məqsədidir, sizin hər birinizin öz evinizə, obanıza qayıtması məqsədidir. Bizim ən ümdə arzumuz bu arzudur, ən müqəddəs məqsədimiz bu məqsəddir. Bu gün, bayram günü əmin olduğumu bildirmək istəyirəm ki, biz bu arzumuza mütləq çatacağıq. İşğal edilmiş torpaqlarımızın hamısı azad olunacaq, nəyin bahasına olursa-olsun azad ediləcəkdir. Sizin hər biriniz öz torpaqlarınıza, evinizə, obanıza qayıdacaqsınız və biz sizinlə birlikdə dədə-baba yerlərinizi, torpaqlarınızı yenidən canlandıracağıq, dirçəldəcəyik, yenidən quracağıq. Siz yenidən böyük evlərin, mülklərin, torpaqların sahibi olacaqsınız və xoşbəxt yaşayacaqsınız.

Bizim düşdüyümüz bu bəla bəlkə də özümüzün günahımız ucbatından başımıza gələn bəladır. Azərbaycan xalqı qəhrəman xalqdır. Əziz dostlar, sizin hər biriniz öz ulu babalarınızın yolu ilə gedərək torpaqlarınızı dəfələrlə yadellilərdən, düşmənlərdən qoruyub saxlamısınız. Sizin hər biriniz torpağınızı, öz evinizi, kəndinizi, öz yurdunuzun daşını-qayasını qoruyub saxlaya bilərdiniz. Sadəcə olaraq, o illər Azərbaycana bədbəxtlik üz vermişdi. Bu bədbəxtliyin nədən ibarət olduğunu siz yaxşı bilirsiniz və bu gün buradakı çıxışlarınızda bu barədə danışdınız. Onun ucbatından bizim başımıza bu bəlalar gəlibdir.

Bu günlər Dağlıq Qarabağ məsələsinin meydana çıxmasının on ili tamam olur. Dağlıq Qarabağda olan bir dəstə ekstremist, millətçi ermənilər Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdi ilə çıxış ediblər. Bu, 1988-ci ilin fevral ayında olubdur. Bilirsiniz, Dağlıq Qarabağ Azərbaycanın tərkibində 1923-cü ildə bir muxtar vilayət kimi yaranandan sonra erməni millətçiləri, erməni ekstremistləri bir neçə dəfə Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdləri göstərmişlər. Bunlar birinci dəfə deyil ki, 1988-ci ildə belə bir hərəkət etdilər. Əvvəlki illərdə də belə hallar olmuşdur. Bu, 30-cu, 40-cı, 50-ci illərdə də olmuşdur.

Yaxşı xatirimdədir, mən işlədiyim dövrdə, 60-70-ci illərdə belə hallar baş vermişdi. Ancaq hər dəfə biz bunun qarşısını ala bilmişdik. Mən sizə açığını deyirəm, bu heç də Dağlıq Qarabağda yaşayan bütün ermənilərin fikri deyildi. Bu, millətçi, ekstremist erməni dəstələrinin fikri idi. Onlar vaxtaşırı gəlib bu fikirləri Dağlıq Qarabağın içərisində yayırdılar və nadürüst, millətçi, ekstremist fikirli bəzi insanları qızışdırıb ortaya salırdılar. Ancaq biz bunların qarşısını dəfələrlə almışıq. Özü də çox məharətlə, rahatlıqla qarşısını almışıq və Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamışıq. Amma təəssüflər olsun ki, 1988-ci ildə Azərbaycanın başında duran adamlar heç olmasa keçmiş illərin təcrübəsindən istifadə

edə bilmədilər və bu münaqişə baş verdi, sonra isə qızışdı. Şübhəsiz ki, burada səbəblər də olmuşdur.

Mən bunu dəfələrlə demişəm. O vaxt Sovetlər İttifaqının rəhbərliyində olan bəzi şəxslər, o cümlədən Qorbaçov ermənilərə havadarlıq etmişdir və Azərbaycanın başında duranların qeyrəti, kişiliyi, iradəsi çatmamışdır ki, millətimizin, xalqımızın, respublikamızın hüquqlarını qoruya bilsinlər. Ancaq sonrakı illərdə bunun qarşısını almaq mümkün idi. Görəsən səbəb nə idi ki, bunun qarşısı alınmadı? Çünki sonrakı illərdə yığışıb, cəmləşib, Azərbaycanın bütün qüvvələrini bir yerə toplayıb torpaqlarımızı, vətənimizi müdafiə etmək əvəzinə, ayrı-ayrı dəstələr, şəxslər bu fürsətdən istifadə edib öz şəxsi məqsədlərini həyata keçirməyə çalışdılar. Bunlar isə bizim xalqımıza, millətimizə çox baha başa gəldi. Nəticədə Azərbaycanın tək Dağlıq Qarabağ ərazisi yox, Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonları da Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

Bunların hamısı həqiqətdir. Siz, yerindən-yurdundan didərgin düşmüş insanlar bunları hamıdan yaxşı bilirsiniz. Çünki bunlar sizin gözünüzün qarşısında olubdur. Nəhayət, bütün bunlar vəziyyəti gətirib elə bir səviyyəyə çatdırıbdır ki, ya müharibəni davam etdirmək lazım idi, – gündə qan tökülürdü, şəhid verilirdi, – yaxud da məsələni sülh yolu ilə həll etmək lazım idi.

Mən bu gün də hesab edirəm ki, biz düzgün yol tutduq, 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında saziş imzaladıq və məsələnin sülh yolu ilə həll olunmasına başladıq. Bu may ayında dörd il tamam olacaqdır ki, atəş yoxdur, qan tökülmür, şəhid vermirik. Onu bilin, biz bu dörd ilə yaxın müddətdə gecə-gündüz məsələnin həll edilməsi ilə məşğul oluruq. Ötən illərdə işimin, fəaliyyətimin əksər hissəsi bu məsələnin həll olunmasına yönəldilmişdir.

Bilirsiniz, bütün xarici ölkələrin nümayəndələri ilə keçirilən görüşlər, mənim xarici ölkələrə səfərlərim, beynəlxalq təşkilatlarda gördüyüm işlər, apardığım danışıqlar, keçirdiyim görüşlər, nitqlərim, çıxışlarım hamısı yalnız bir məsələyə – Azərbaycanın torpaqlarını Ermənistanın işğalçı qüvvələrindən azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş yerlərdən köçmüş insanları, sizi öz yerlərinizə, yurdlarınıza qaytarmaq məqsədinə xidmət edir.

Deyə bilərəm ki, ötən müddət ərzində xeyli dəyişikliklər olubdur. Doğrudur, biz əsas məqsədimizə nail ola bilməmişik. Amma vəziyyət xeyli dəyişibdir. Bu dəyişiklik ondan ibarətdir ki, əgər üç, dörd, beş il bundan

əvvəl beynəlxalq ictimaiyyət, dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Ermənistan tərəfinə daha çox dəstək verirdisə, biz təcavüzə məruz qaldığımız halda bizi günahlandırmağa çalışırdılarsa, indi vəziyyət xeyli dəyişilibdir. Bu da ondan ibarətdir ki, biz artıq sübut edə bilmişik ki, Ermənistan təcavüzkardır. Sübut edə bilmişik ki, Azərbaycanın torpaqları işğal edilibdir, bu münaqişənin günahkarı biz deyilik. Bunları sübut edə bilmişik. Azərbaycanın bir ölkə kimi, dövlət kimi, bir xalq, millət kimi dünyada hörməti xeyli artıbdır. Artıq Azərbaycanla hesablaşırlar, respublikamızı tanıyırlar və Azərbaycanın haqq işi günü-gündən dünyanın bir çox yerlərində təsdiq olunur, dəstəklənir. Mən əminəm ki, biz bu istiqamətdə gedərək məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Doğrudur, son aylar sülh danışıqlarında müəyyən fasilə mövcuddur. Onun da səbəblərini siz bilirsiniz. Çünki fevral ayının əvvəlində Ermənistanda hakimiyyət dəyişikliyi baş veribdir. İndi orada yeni prezident seçkiləri keçirilir. Martın 16-da birinci tur nəticə vermədi. Mart ayının axırında seçkilərin ikinci turu aparılacaqdır. Bu, Ermənistanın daxili işidir. Güman edirəm ki, Ermənistanda kimin prezident olub-olmamasından asılı olmayaraq sülh danışıqları davam edəcək və biz Minsk qrupu həmsədrlərinin – Rusiya, ABŞ, Fransa dövlətləri nümayəndələrinin vasitəsilə sülh danışıqlarını davam etdirəcəyik.

Hər halda bir şey məlumdur ki, 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə görüşündə məsələnin sülh yolu ilə həll olunması sahəsində Azərbaycanın təklifləri qəbul edildi və biz sülh danışıqlarında irəliyə getdik. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə isə Ermənistanla münaqişə başlayandan indiyə qədər Azərbaycanın siyasətində böyük bir nailiyyət əldə olundu. O da ondan ibarətdir ki, məsələnin sülh yolu ilə həll olunmasının prinsipləri müəyyən edildi. Doğrudur, ATƏT-in üzvü olan 54 dövlətdən yalnız Ermənistan bunun əleyhinə çıxdı. Amma 53 dövlətin Lissabonda toplaşan hökumət və dövlət başçıları həmin bu prinsipləri qəbul etdilər. Məhz bu prinsiplər əsasında ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya, ABŞ, Fransa 1997-ci ilin sentyabr ayında məsələnin sülh yolu ilə həll olunması ilə əlaqədar təkliflər verdilər.

Bu təkliflər məsələnin iki mərhələdə həll edilməsini nəzərdə tuturdu. Birinci mərhələdə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonlarının işğalçı dəstələrdən azad olunması, bu rayonların sakinlərinin öz yerlərinə, yurdlarına qayıtması, Ermənistanla Azərbaycan arasında olan kommunikasiyaların bərpa edilməsi təklif olunur.

İkinci mərhələdə isə Laçın və Şuşa rayonlarının işğalçı dəstələrdən azad edilməsi və Dağlıq Qarabağa Azərbaycan Respublikasının, dövlətinin tərkibində özünü idarəetmə statusu verilməsi nəzərdə tutulur.

Bu, Lissabon prinsipləri əsasında, ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında yaranmış bir təklifdir. O prinsiplərdə üç bənd vardır. Birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması. İkincisi, Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilməsi. Üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm də azərbaycanlı millətindən olan əhalisinin təhlükəsizliyinin təmin olunması. Nə üçün Lissabonda Ermənistan buna etiraz etdi? Çünki bunlar Dağlıq Qarabağa müstəqillik statusu almaq istəyirdilər. Ona görə də Lissabonda sənəddə yazılanda ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə hüququ verilsin, onlar buna etiraz etdilər, bunu qəbul etmədilər. Ancaq Lissabon zirvə görüşündə həmin prinsiplər qəbul olundu. ATƏT-in Minsk qrupunun həmsədrləri ötən ilin sentyabrında bu prinsiplər əsasında təkliflər hazırladılar və təqdim etdilər. Biz bunu qəbul etdik.

Doğrudur, – mən bunu dəfələrlə demişəm, – bu da bizim üçün tam, bizi təmin edən bir təklif deyildir. Ancaq məsələni həll etmək üçün mümkün olan bütün təkliflərdən ən əlverişlisidir. Biz ona görə də kompromisə gedirik. Əgər kompromis olmasa məsələni sülh yolu ilə həll etmək olmaz. Biz buna razı olduq. Ermənistan tərəfindən isə bəziləri buna razı oldular, bəziləri razı olmadılar.

Məsələn, fevralın 3-də istefaya getmiş prezident Levon Ter-Petrosyan bu prinsipləri qəbul etdi. Hətta keçən il oktyabr ayının 10-da Fransanın Strasburq şəhərində görüşərkən hər iki prezident – Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanat verdik ki, biz bu prinsipləri qəbul edirik və bunların əsasında məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Ancaq Ermənistanda mürtəce qüvvələr çoxdur. Onların bəziləri bunun əleyhinə çıxdılar, qəbul etmədilər. Bütün bunlar və yəqin ki, daxili ictimai-siyasi vəziyyətlə əlaqədar olan başqa səbəblər bu il fevralın əvvəlində prezident Levon Ter-Petrosyanın istefaya getməsi ilə tamamlandı.

Beləliklə, sülh danışıqlarının əhəmiyyəti ondan ibarətdir ki, biz çətin, ağır yolla gedərək, böyük maneələri aradan qaldıraraq irəliləyirik. 1994-cü ilin dekabr ayında Budapeşt zirvə görüşündə bir irəliləyiş oldu, 1996-cı ildə Lissabon zirvə görüşündə bir irəliləyiş əmələ gəldi, nəhayət, Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında Minsk qrupunun həmsədrləri təklif verdilər. Beləliklə, sülh danışıqları, sülh prosesi hə-

rəkətdədir və davam edir. Əminəm ki, bu, davam edəcək və biz öz ərazilərimizin bütövlüyünü bərpa edəcəyik. Əlbəttə, bu çətindir. Əziz bacılar, qardaşlar, dostlar, bu, təkcə sizin üçün deyil, bizim üçün də çətindir. Siz elə bilməyin ki, yerinizdən-yurdunuzdan köçmüsünüz, indi imkan daxilində sizə verilən cürbəcür şəraitdə yaşayırsınız və bu çətinliyi ancaq siz çəkirsiniz. Yox, mən də bu çətinliyi çəkirəm, sizin qədər əziyyət çəkirəm.

1993-cü ildə sizin, xalqın tələbi ilə mən Bakıya qayıdıb Azərbaycana rəhbərlik etmək məsuliyyətini öz üzərimə götürəndə yaxşı anlayırdım ki, qarşımda nə qədər çətin və böyük vəzifələr durur. Yaxşı dərk edirdim ki, üzərimə nə qədər böyük məsuliyyət götürürəm və bunun ən əsası müharibəni qurtarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, soydaşlarımızı öz yerlərinə-yurdlarına qaytarmaqdır. Əgər biz buna tam nail ola bilməmişiksə, demək, sizdən də çox mən narahatam, sizdən də çox mən əziyyət çəkirəm. Çünki mən bunun məsuliyyətini sizin hər birinizdən çox hiss edirəm. Siz hər biriniz öz şəxsi həyatınızla əlaqədar qarşınızda duran, ətrafınızda yaranan çətinliklərlə rastlaşmısınız. Amma mən isə Azərbaycanın bütün vətəndaşlarının həyatına cavabdehəm. Sizin vəziyyətinizi mən öz vəziyyətim kimi qəbul etmişəm. Ona görə mən də sizin kimi arzu edirəm ki, işğal edilmiş bütün torpaqlarımız tezliklə azad olunsun, biz yenidən Şuşaya gedək.

Burada şuşalı qardaşımız böyük şairimiz Molla Pənah Vaqifin məqbərəsinin açılışında mənim 1982-ci ildə Şuşaya səfərimi xatırlatdı. Bəli, mən onu heç vaxt unutmayacağam. Birinci, ona görə ki, 250 il bundan öncə yaşamış, yaratmış böyük şairimiz Molla Pənah Vaqifin məzarını qurdum, yaratdım, onun üzərində böyük bir məqbərə, abidə ucaltdım. Bu, mənim böyük iftixar edə biləcəyim bir hadisədir və biz hamımız Şuşada böyük bayram etdik. Arzu edirəm ki, sizinlə birlikdə yenidən Şuşaya gedək. İnanıram ki, biz gedəcəyik. Buna inanın. Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə ki, Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da əzizdir. Laçın Azərbaycanın ən yüksək dağları, gözəl, səfalı meşələri, bulaqları, çayları olan bir diyarımızdır. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, məkan, bağ-bağat, gözəl yer, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu – biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik. Mən

bu yerlərin adlarını çəkirəm, təbiəti haqqında danışıram. Məhz bu təbiətdə, o yerlərdə Azərbaycan xalqını yaşadan böyük adamlar, sizlər Azərbaycanın əziz insanlarısınız. Ona görə mən bu əziz bayram günü məhz sizinlə olmağı özüm üçün ən xoşbəxt bir hadisə hesab edirəm.

Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm.

Bu gün məni burada çox mehribanlıqla qəbul etdiniz. Gözəl süfrə açmısınız. Bilirsiniz ki, biz hamımız bu bayramı yaşamış adamlarıq. Mən lap kiçik yaşlarımdan Novruz bayramını çox sevərdim. Ancaq inanın, o vaxtlar – mənim uşaqlıq yaşlarımda vallah-billah, bizim bayram süfrəmizdə bu qədər gözəl yeməklər, gözəl şirniyyatlar olmazdı. Rəhmətlik anam Novruz bayramına iki-üç ay əvvəl hazırlaşardı. Mütləq süfrədə plov olmalı idi. Gedib bir az kişmiş alıb saxlayar, yumurtaları rəngləyərdi, paxlava və yaxud başqa şirniyyatlar bişirərdi.

Bilirsiniz, əgər bir axşam oturub plov yeyərdiksə, özümüzü xoşbəxt hesab edərdik. İndi çətinliklərimiz də, problemlərimiz də, dərdimiz də çoxdur. Amma Allaha şükürlər olsun ki, süfrəmiz keçən zamanlardan daha da gözəldir, daha da boldur. Bundan sonra da bol olacaqdır. Arxayın olun ki, ilbəil daha da çox olacaqdır.

Son illər respublikamızda bütün çətinliklərə baxmayaraq, gördüyümüz işlər, siyasətimiz, tədbirlər sosial-iqtisadi vəziyyəti yaxşılaşdırır və bizim apardığımız iqtisadi islahatlar, torpağın şəxsi mülkiyyətə verilməsi, özəlləşdirmə proqramının həyata keçirilməsi, dünyanın bütün ölkələri ilə açıq iqtisadi əlaqələr qurmağımız, xarici sərmayənin Azərbaycana gəlməsi, xarici ölkələrlə neft sənayesi sahəsində böyük müqavilələrin imzalanması – bunların hamısı respublikamızın bütün həyatının abhavasını dəyişdiribdir. Bunların kökü, əsası odur ki, biz müstəqil olmuşuq, müstəqil dövlətik, ölkəyik. Məndən hər dəfə soruşanda ki, bu illərdə ən böyük nailiyyət nəyi hesab edirsiniz, onda mən demişəm və bu gün də deyirəm – bizim ən böyük nailiyyətimiz odur ki, xalqımız azadlığa çıxıbdır, müstəqil dövlətimiz vardır, biz öz taleyimizin sahibiyik, dünya xalqları içərisində, Dünya Birliyi, dünya ölkələri içərisində layiqli yer tutmuşuq. Ən əsası isə, bütün çətin proseslərdən keçərək Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq.

Şübhəsiz ki, bu böyük dəyişikliklər, yəni bizim apardığımız tədbirlər bir-iki ildə həyatı tam dəyişdirə bilməz. Ancaq müsbət proseslər gedir və getməkdədir. Sizi əmin edirəm ki, Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edəcəkdir, insanların həyat tərzi yaxşılaşacaqdır, sosial-iqtisadi tədbirlər daha da geniş tətbiq edilərək həyata keçiriləcəkdir.

Mən bura gələrkən Mərdəkan, Şüvəlan ərazisinə çatarkən gördüm ki, yerli əhali, insanlar – gənclər, uşaqlar yola çıxıblar, mənimlə görüşmək istəyirlər. Mən bir neçə yerdə avtomaşını saxladım, onlarla görüşdüm, söhbət etdik. İnsanların çox gözəl əhval-ruhiyyəsi vardır. Mən bu qısa məsafəni gələrkən minlərlə insanla rastlaşdım. Qadın da, kişi də, cavan da, qoca da, uşaq da, böyük də – hamısının gözəl əhval-ruhiyyəsi vardır.

Ümumiyyətlə, bizim millətimiz gözəl millətdir. Baxıram, nə qədər gözəl uşaqlar, qızlar, oğlanlar vardır. Bizim nə qədər mərd oğullarımız vardır. İnsanların əhvalı, geyimi məni çox sevindirir. Bunlar təsadüfi deyildir, bunlar göydən düşməyibdir. Bunlar Azərbaycanda son illərdə sosial-iqtisadi sahələrdə aparılan tədbirlərin nəticəsidir. Bu, bizim həyat tərzini nümayiş etdirən gözəl bir mənzərədir. Şübhəsiz ki, arzu edirik bundan da gözəl olsun. Ancaq biz buna da şükür etməliyik ki, bunlar vardır.

Ən böyük nailiyyət ondan ibarətdir ki, biz insanlara rahatlıq şəraiti yarada bildik. Təsəvvür edin, 1993-cü ildən indiyə qədər keçən illəri xatirinizə salın. Biz Azərbaycanı neçə bəlalardan qurtardıq. Burada çıxış edənlər yada salırdılar. 1993-cü ildə vətəndaş müharibəsi Azərbaycanı dağıdırdı. Azərbaycan parçalanmışdı. Bunun qarşısını aldıq. 1994-cü ilin oktyabr ayında yenə də o quldur, silahlı dəstələr Azərbaycanı dağıdıb, parçalayıb bizim xalqımızı tamamilə məhv etmək istəyirdilər. Bunun da qarşısını aldıq.

1995-ci ilin mart hadisələrindən üç il keçir. Üç il bundan öncə Azərbaycan böyük təhlükə altında idi. Çünki indi artıq məlumdur, – həm Rusiyadan, həm Türkiyədən, başqa yerlərdən xarici ölkələrin xüsusi xidmət orqanları, bizim daxilimizdə olan, 1988-ci ildən hakimiyyət mübarizəsi aparan ayrı-ayrı cinayətkar dəstələr 1995-ci ilin mart ayında Azərbaycanda dövlət çevrilişi cəhdi etdilər. Biz böyük təhlükə altında idik. Çünki o cinayətkarlar böyük qüvvə toplamışdılar, əllərində çoxlu silah var idi. Təəssüf olsun ki, insanları o cinayətə cəlb edən adamlar onlara çox böyük vədlər vermişdilər. Bir tərəfdən Moskvada oturanlar, bir tərəfdən Kələkidə oturanlar, bir tərəfdən Azərbaycanın içində olanlar – bunların ha-

mısı bir yerə cəmləşmişdilər ki, Azərbaycanı dağıtsınlar və yenə də gəlib burada öz şəxsi məqsədlərini həyata keçirsinlər. Biz bunların qarşısını aldıq. Ondan sonra neçə dəfə hadisələr baş verdi, Azərbaycan prezidentinə qarşı neçə dəfə terror etmək istədilər.

Bilmirəm, dünən axşam siz gördünüz, ya görmədiniz – televiziyada bir veriliş verilirdi. 1996-cı ilin dekabr ayında Rusiyadan, Dağıstandan keçmiş OMON dəstəsinin bir hissəsi gəlib yenə də burada terror edib dövlət çevrilişi etmək arzusunda olub. Artıq onların məhkəməsi olubdur və onlar cəzalanıblar. Onların danışıqlarını verdilər. O vaxtlar biz nə qədər dəhşətli günlər keçirdik.

Bunların hamısının nəticəsində biz Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirmişik. İndi insanlar rahat yaşayırlar. Çətinliklər də mövcuddur. Bəli, sizin yaşayış yeriniz yoxdur, amma siz yerinizə qayıdacaqsınız. Bəlkə başqalarının maddi vəziyyəti yaxşı deyildir, amma yaxşılaşacaqdır. Biri o birisindən pis yaşayır. Belələri vardır. Ancaq xalqımızın ümumi əhval-ruhiyyəsi tamamilə başqa cürdür. O da ondan ibarətdir ki, xalqla dövlət birdir və xalqın dövlətlə, xalqın öz prezidenti ilə birliyi bizi bütün bəlalardan qurtarıbdır və bu ictimai-siyasi sabitlik, rahatlıq yaranıbdır.

Mən 1993-cü ildə Bakıya dəvət edilərkən bilirdim ki, burada nə qədər çətin, ağır vəziyyət mövcuddur. Mənim əlimdə nə silahlı dəstə var idi, nə ordum var idi, nə bir qrup var idi. Heç bir şeyim yox idi. Bəs Heydər Əliyev nəyə arxalandı və gəlib bu odun içinə girdi? Xalqa, sizə arxalandım. Əgər mən sizə inanmasaydım, etibar etməsəydim, sizə arxalanmasaydım bu məsuliyyəti öz üzərimə götürə bilməzdim. Əgər sizin mənə etimadınız olmasaydı, sizin mənə dəstəyiniz, köməyiniz olmasaydı, mən 1993-cü ildə o vətəndaş müharibəsinin qarşısını ala bilməzdim.

Mən sizə, Azərbaycan xalqına arxalanaraq, bizim cəmiyyətin tam əksəriyyətinin dəstəyinə arxalanaraq 1994-cü ilin oktyabr ayında dövlət çevrilişinin qarşısını aldım. Xatirinizdədir, mən televiziya ilə xalqa müraciət etdim. İki saatdan sonra Prezident sarayının qabağına yarım milyon adam toplaşdı. Mən o gecəni daim xatırlayıram. O, bir möcüzə idi. Bunu sizin köməyinizlə, xalqın köməyi ilə etdim. Bəli, sizə, xalqa arxalanaraq mən 1995-ci ilin mart ayında, düz üç il bundan qabaq Azərbaycanı böyük bir təhlükədən xilas etdim. Mən bu gün də sizə arxalanıram, sizin dəstəyinizə arxalanıram. Əminəm ki, sizinlə birlikdə biz Azərbaycanı bundan sonra daha da yüksəklərə qaldıracağıq.

Nəhayət, bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur, demokratiya bərqərar olur, insanlara azadlıq verilibdir. Hərə öz fikrini deyə bilir və fikir, söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı tamamilə təmin olunubdur. Biz bu yolla gedirik və gedəcəyik. Bunun nəticəsində də Azərbaycanda sağlam bir cəmiyyət formalaşıbdır. O sağlam cəmiyyət də Azərbaycan dövlətinin, konstitusiyasının, Azərbaycan prezidentinin prinsiplərini və Azərbaycan dövlətinin apardığı siyasəti dəstəkləyir və ona kömək edir. Bu, bizim ən böyük nailiyyətimizdir. Biz demokratik cəmiyyət yarada bilmişik. Şübhəsiz ki, bu cəmiyyətdə fikirlər müxtəlif ola bilər, – bu təbiidir. Heç kəs buna görə narahat olmasın. Ancaq əsas odur ki, biz fikir müxtəlifliyini təmin edərək cəmiyyətin tam əksəriyyətinin Azərbaycanın dövlət siyasətini, Azərbaycan prezidentinin siyasətini dəstəkləməsinin şahidi olmuşuq.

İndi siz burada çıxış edərkən bəzi məsələlərdən narahatlığınızı bildirdiniz: kim nəsə deyir, kim nəsə çıxış edir, kimsə prezident olmaq istəyir, kimsə nalayiq işlər görür. Bunlar həqiqətdir. Belə insanlar vardır. Müəyyən qədər belə hallar təbii xarakter daşıyır. Çünki bizdə həqiqətən demokratiyadır və biz bu demokratiyanı daha da möhkəmləndirmək, genişləndirmək istəyirik. Deməli, bizim fikrimizin əleyhinə də fikirlər olmalıdır və ola da bilər. Bu təbiidir. Bundan narahat olmaq və təəssüflənmək də lazım deyildir. Bu, gələcəkdə də belə olacaqdır. Ancaq demokratiya onu tələb edir ki, əks fikri olan adam yalnız fikrini söyləsin, sözünü desin və çalışsın ki, öz fikrini xalqa demokratiya şəraitində sübut etsin. Sizin burada qeyd etdiyiniz kimi, ancaq bəziləri öz fikrini sübut edə bilməyərək və buna nail ola bilməyərək cürbəcür qanundankənar hərəkətlərə əl atmaq istəyirlər. Onlar da bilməlidirlər ki, mən Azərbaycanın prezidenti kimi, respublikamızda demokratiyanın günü-gündən inkişaf etməsini təmin edirəm və edəcəyəm. Amma eyni zamanda qanunun aliliyini də təmin edirəm və edəcəyəm. Kim qanun çərçivəsində hansı fikri söyləyirsə söyləsin, – buna etiraz yoxdur. Qəzetlərdə çox şeylər yazırlar, – qoy yazsınlar. Ancaq kim qanunu pozursa, bilsin ki, Azərbaycanda bunlara imkan verilməyəcəkdir. Bu, mənim dövlət başçısı kimi vəzifəmdir və bu vəzifəni axıra qədər yerinə yetirəcəyəm.

Ayrı-ayrı adamların, qrupların nalayiq, bəzən tərbiyəsiz, ədəbsiz çıxışları, sözləri sizi narahat etməsin. Bizim el sözümüz vardır: Meşə çaqqalsız olmaz, dərə tülküsüz olmaz. Sizi narahat etməsin, ona görə ki, bizim bu qədər gücümüz olduğu halda, bu qədər birliyimiz olduğu halda,

xalqın öz prezidentini dəstəklədiyi halda ayrı-ayrı qrupların müxtəlif sözləri bizə heç bir şey edə bilməz.

Bu ilin oktyabr ayında Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Çünki mənim səlahiyyətim oktyabr ayında bitir. Azərbaycanda kim prezident olmaq istəyirsə, – seçkilər çox azad, sərbəst, demokratik olacaqdır, – öz namizədliyini irəli sürə bilər və konstitusiya çərçivəsində seçkilərdə iştirak edə bilər. Bundan hes kəs narahat olmasın.

Sizin Heydər Əliyevi yenidən prezident görmək istəyinizə, arzunuza görə sizə təşəkkür edirəm.

1993-cü ildə məni Bakıya dəvət edərkən və prezident seçərkən mən bu vəzifələr uğrunda mübarizə aparmamışam və belə bir istəyim, arzum olmayıbdır. Millətimi xilas etmək üçün bunu xalq tələb edibdir. Mən millətimin tələbini yerinə yetirmişəm. Bu gün də sizə deyirəm: Əgər xalq istəsə, siz istəsəniz, şübhəsiz ki, mən yenidən prezident vəzifəsini həyata keçirməkdən imtina etməyəcəyəm.

Ötən illər bir çox işlər görmüşük. Ancaq çox işlərin də başlanğıcını qoymuşuq. Hələ gələcəkdə görəcəyimiz işlər çoxdur. Mən də istəyirəm ki, başladığım işlərin hamısını axıra çatdırım, Azərbaycanı daha da güclü edim, Azərbaycan xalqının həyat səviyyəsini daha da yüksəklərə qaldırım, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirim, işğal olunmuş torpaqların azad edilməsinə nail olum, sizin yerinizə-yurdunuza qayıtmağınıza nail olum. Bunlar mənim arzumdur və istəyimdir. İnanıram ki, biz bunların hamısını sizinlə birlikdə yerinə yetirəcəyik.

Mən sizinlə bugünkü görüşümdən çox məmnunam. Doğrusunu deyim, bu qədər yaşadığım illərdə hər il Novruz bayramını qeyd etmişəm. Amma mən indiyə qədər belə bir şəraitdə Novruz bayramını qeyd etməmişdim. Ona görə də sizə təşəkkür edirəm ki, siz məni buraya dəvət etmisiniz və mən sizinlə bir yerdəyəm.

Sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, xoşbəxtlik, yeni-yeni nailiyyətlər arzu edirəm. Çox sağ olun.

«GƏNCLƏR» MEYDANINDA QOŞAQALA QAPISI ÖNÜNDƏ KEÇİRİLƏN NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ

21 mart 1998-ci il

Əziz bacılar, qardaşlar, həmvətənlər, dostlar, qonaqlar!

Paytaxtımız Bakı şəhərinin vətəndaşları!

Mən sizi, bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını bu əziz bayram – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət, xoş ovqat, bahar, Novruz əhval-ruhiyyəsi arzulayıram.

Novruz bayramı bizim xalqımızın qədim milli bayramıdır. Novruz bayramı hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, bizim müstəqil Azərbaycan torpağının, Azərbaycan Respublikasının bayramıdır.

Novruz dostluq, mehribanlıq, mənəviyyat, mədəniyyət bayramıdır, xalqımızın qəhrəmanlığını, rəşadətini, şücaətini nümayiş etdirən bayramdır. Novruz bayramı bizim xalqımızı bir-biri ilə həmişə daha da sıx birləşdirib, insanlarımız arasında dostluq, mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir.

Novruz bayramı bu gün müstəqil Azərbaycanın həyatında gedən ictimai-siyasi, sosial-iqtisadi proseslər dövründə xalqımızı həmrəy edən, birləşdirən, yetkin edən bayramdır.

Təsadüfi deyildir ki, bu bayramı bu günlər Azərbaycanın hər bir guşəsində – hər bir şəhərində, qəsəbəsində, kəndində qeyd edərkən insanlar həmrəylik, dostluq, birlik nümayiş etdirirlər. Biz bu bayram şənliklərini son günlər televiziya vasitəsilə izləyirik və görürük ki, Azərbaycanın hər bir guşəsində insanlar bu bayramı sevinclə, məhəbbətlə, xoş əhval-ruhiyyə ilə qeyd edirlər, çalırlar, oynayırlar, oxuyurlar, öz istedadlarını və eyni zamanda Azərbaycanın milli adət-ənənələrini nümayiş etdirirlər.

Bu bayram günlərində xalqımızın böyük və zəngin tarixi bizim müasir həyatımızda bir daha nəzərdən keçirilir. Bayram şənliklərində nümayiş etdirilən verilişlər, çıxışlar, ayrı-ayrı kompozisiyalar, xalqımızın qədim za-

manlardan indiyə qədər yaşamış, onu həmişə sevindirmiş, nikbin etmiş mədəniyyət nümunələri insanlarımızın necə böyük istedada malik olduğunu göstərir. Bunlara baxarkən, yad edərkən bizim xalqımızın, Azərbaycanın nə qədər zəngin mədəniyyəti, mənəviyyatı, adət-ənənələri olduğunu bir daha iftixar hissi ilə duyuruq və bu bizi sevindirir. Bütün bu adət-ənənələrimizdə bu gün hamımızı sevindirən yüksək mənəviyyat nümunələridir. Bizim xalqımız mənəvi dəyərləri özündə çox geniş əks etdirən, mənəvi dəyərlərə əsrlər boyu sadiq olan və onları yaşadan xalqdır.

Bizim bu mənəvi dəyərlərimiz safdır, pakdır. Onlar insanlarda həmişə saflıq, paklıq, xeyirxahlıq, yüksək ülvi xüsusiyyətlər tərbiyə edibdir. Ona görə də biz öz xalqımızın milli mənəvi dəyərləri ilə fəxr edə bilərik. Bu gün biz xoşbəxtik ki, ulu babalarımızdan, sevimli əcdadlarımızdan bizə yadigar olan bu mənəvi dəyərlər yenidən canlanır, gənc nəslə çatdırılır və gənc nəslimiz də adət-ənənələrimizi, bu mənəvi dəyərlərimizi bu gün də yaşadır və gələcək nəsillərə də çatdıracaqdır.

Biz bu bayram şənliklərini müşahidə edərkən, televiziya vasitəsilə seyr edərkən son illər ölkəmizin, xalqımızın, Azərbaycanın hər bir vətəndaşının həyatında baş vermiş müsbət hadisələri, dəyişiklikləri də görürük. Bizim son illərdəki həyatımız keçməkeçlidir, mürəkkəbdir, çətindir. Bizim ürəyimizdə ağır yara vardır. Bu yara torpaqlarımızın parçalanması, onun bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması yarasıdır. Bu yara igid Azərbaycan övladlarının şəhid olması yarasıdır. Bu yara yerindən-yurdundan zorla çıxarılmış, didərgin düşmüş, işğal edilən torpaqlardan köçmüş, indi köçkün şəraitində yaşayan soydaşlarımızın vəziyyəti ilə əlaqədar olan yaradır.

Ancaq bizim xalqımız qəhrəman, mərd xalqdır. Biz bu yaranı sağaldacağıq. Bizim xalqımız heç vaxt inildəməyibdir, sızıldamayıbdır. Bizim xalqımız bütün çətinliklərə, əzab-əziyyətlərə dözübdür, heç vaxt əyilməyibdir, sınmayıbdır, bu gün də sınmır. Mən əminəm ki, biz apardığımız siyasət, gördüyümüz işlər nəticəsində bütün bu ağrılı yaraları da sağaldacağıq, bu çətinlikləri aradan götürəcəyik. İşğal edilmiş torpaqlarımız azad olunacaq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız evinə, obasına qayıdacaqlar.

Bu gün, bu bayram günü mən torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçmiş, həlak olmuş şəhidlərimizi böyük minnətdarlıq hissi ilə xatırlayıram. Onların şəhidliyi, qəhrəmanlığı bizim xalqımızın qəhrəmanlığını nümayiş etdirir. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr

edirik. Çünki onlar vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar. Allah onlara rəhmət etsin.

Onlar da, şəhidlərin ailələri də, bütün xalqımız da bilməlidir ki, şəhidlərin tökülmüş qanı yerdə qalmayacaqdır. Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik, torpaqlarımızı azad edəcəyik və müstəqil Azərbaycanı daha da gücləndirəcəyik, yüksəldəcəyik.

Bu bayram günlərində, şənliklərində bütün bu çətinliklərə, həyatımızın ağrılı – acılı, əzablı cəhətlərinə baxmayaraq, insanlar xoş əhval-ruhiyyədədirlər. Ona görə ki, insanlar indi rahat yaşayırlar. Ona görə ki, Azərbaycan vətəndaşlarının həyat tərzi, yaşayışı günü-gündən yaxşılaşır. Ona görə ki, Azərbaycanda daxili siyasi sabitlik yaranıbdır, insanların həyatı ötən illərdəki təhlükələrdən, quldur dəstələrinin, ayrı-ayrı cinayətkar qrupların təhlükələrindən xilas olubdur. Cəmiyyətimizdə rahatlıq, nikbinlik əhval-ruhiyyəsi yaranıbdır. Bu şənliklərdə insanların sevinci, dostluğu, birliyi məhz bu amillərlə əlaqədardır.

Mən bu bayram günü Azərbaycanın bütün vətəndaşlarına öz hörmət-ehtiramımı, təbrik salamımı çatdıraraq, eyni zamanda Azərbaycan dövlətinin xarici və daxili siyasətini dəstəklədiklərinə, bizim həyata keçirdiyimiz tədbirləri bəyəndiklərinə və dəstəklədiklərinə görə onlara təşəkkür edirəm.

Mən sizi, bütün Azərbaycan vətəndaşlarını əmin edirəm ki, xarici və daxili siyasətimizdə əldə etdiyimiz nailiyyətlər əsasında biz 1998-ci ildə də irəliyə gedəcəyik, Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirəcəyik, Azərbaycanda siyasi-iqtisadi islahatları daha da əzmlə həyata keçirəcəyik. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycan vətəndaşlarının həyat tərzi, rifah halı daha da yaxşılaşacaqdır. İnsanlarda olan sərbəstlik, təşəbbüskarlıq imkanları daha da artacaqdır. Biz bunların hamısını təmin edəcəyik. Buna arxayın ola bilərsiniz.

Azərbaycanın ilk Demokratik Konstitusiyasından irəliyə gələn vəzifələri biz hamımız birlikdə yerinə yetirməliyik. Mən sizi əmin edirəm ki, biz dövlətin, hökumətin üzərinə düşən vəzifələri ardıcıl surətdə yerinə yetirəcəyik. Eyni zamanda bilirsiniz ki, Konstitusiya hər bir vətəndaşın üzərinə böyük vəzifələr, məsuliyyət qoyubdur. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın hər bir vətəndaşı öz doğma Konstitusiyasını günü-gündən mənimsəyəcəkdir, ona riayət edəcəkdir və Konstitusiyanın hər bir vətəndaş qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Bu gün Azərbaycanın bu gözəl guşəsinə gələn Bakı sakinləri, vətəndaşlırımız buraya öz arzuları, istəklərilə toplaşıblar. Siz buraya gəlmisiniz ki, dostluğu, mehribanlığı, qardaşlığı nümayiş etdirəsiniz. Siz buraya gəlmisiniz ki, xalqın dövlətlə həmrəyliyini nümayiş etdirəsiniz. Siz buraya gəlmisiniz ki, xalqın birliyini nümayiş etdirəsiniz. Bunlar hamısı bu gün və gələcək üçün çox vacib və lazımlı amillərdir. Mən bunlara görə çox məmnun olduğumu bildirirəm.

Bu bayram günləri Azərbaycan xalqının nümayiş etdirdiyi xoş əhval-ruhiyyə, ruh yüksəkliyi, nikbinlik Azərbaycanın xaricdə və təəssüf ki, daxildə olan düşmənlərinə bir daha çox tutarlı cavabdır. Bütün bu şənliklər, bayram görüşləri onların gözünü çıxardır və gözünü də çıxardacaqdır. Bu təbiidir. Azərbaycan gənc müstəqil dövlətdir. Azərbaycan müstəqil demokratik dövlət, ölkə kimi günü-gündən irəliyə gedir, inkişaf edir. Bizə paxıllıq, düşmənçilik edənlər vardır. Bizim bu nailiyyətlərimizi əlimizdən almaq, xalqımızı yenə də əsarət altına almaq istəyənlər vardır. İçimizdə bu gözəl əhval-ruhiyyəni, ictimai-siyasi sabitliyi pozub öz mənfur, çirkin şəxsi məqsədlərinə nail olmaq istəyənlər vardır. Ancaq onlar bilsinlər ki, artıq Azərbaycanda hüquqi demokratik dövlət vardır və bu dövlət Azərbaycan xalqının, hər bir vətəndaşın mənafeyini, hüquqlarını, müstəqil Azərbaycanın müstəqilliyini qorumağa qadirdir. Siz bu günlər bunu öz həmrəyliyiniz, bayram əhval-ruhiyyənizlə nümayiş etdirirsiniz.

Əziz həmvətənlər, mən sizin hamınıza cansağlığı, səadət, yeni-yeni uğurlar arzu edirəm. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan Respublikası günü-gündən inkişaf edəcək, çiçəklənəcək və Azərbaycan xalqını çiçəklənən gələcək gözləyir.

Bayramınız mübarək olsun! Sağ olun.

XALQ ARTİSTİ
HƏSƏNAĞA TURABOVA

Bakı şəhəri
24 mart 1998-ci il

Hörmətli Həsənağa Turabov!

Sizi – müasir Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz milli teatr sənətimizin zəngin ənənələrini layiqincə davam etdirərək qırx illik səhnə fəaliyyəti dövründə yaratdığınız parlaq obrazlarla tamaşaçıların böyük rəğbətini qazanmısınız.

Dünya dramaturgiyasına və milli klassik irsimizə müraciət etməklə Siz bir çox əsərlərin qəhrəmanlarına səhnə həyatı verərək ədəbiyyatın daim diqqət mərkəzində olan insan problemini bütün çalarları ilə müasirlərimizin yaddaşlarına həkk etmisiniz. Məhz buna görə də Sizin Azərbaycan teatr sənətini zənginləşdirmiş yaradıcılığınız sənətsevərlər tərəfindən daim yüksək qiymətləndirilmişdir.

Sizin kino aktyoru kimi də əməyiniz diqqətəlayiqdir. Bədii filmlərdə yaratdığınız maraqlı və yaddaqalan surətlər aktyor həyatınızın böyük bir hissəsini təşkil edərək fitri istedad və sənətkarlıq bacarığınızı bariz şəkildə nümayiş etdirir.

Əminəm ki, Siz mahir sənətkar kimi milli teatrımızın və kinomuzun inkişafı üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, sənətinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANIN XALQ ŞAİRİ, GÖRKƏMLİ İCTİMAİ XADİM SÜLEYMAN RÜSTƏMİN ANADAN OLMASININ 90 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

Respublika sarayı
26 mart 1998-ci il

Hörmətli xanımlar, cənablar, dostlar!

Biz bu gün bu möhtəşəm saraya şeir, ədəbiyyat, mədəniyyət bayramına – ölməz şairimiz Süleyman Rüstəmin yubiley bayramına toplaşmışıq. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm və hamınıza cansağlığı, səadət arzulayıram.

Süleyman Rüstəm Azərbaycan tarixinə, Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixinə daxil olmuş görkəmli simalardan biridir. Sona çatan XX əsr ədəbiyyatının, mədəniyyətinin 60 ildən çox bir hissəsini əhatə edən Süleyman Rüstəm yaradıcılığı xalqımızın milli sərvətidir.

Süleyman Rüstəm 16 yaşında ilk bədii əsərini cəmiyyətimizə təqdim edibdir, ömrünün sonuna qədər Azərbaycan şeirinin, ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsinə sədaqətlə xidmət göstərərək böyük, şərəfli bir ömür yaşayıbdır.

Süleyman Rüstəm kimi insanlar nadir insanlardır. Belə insanlar Tanrının onlara verdiyi fitri istedadı fədakarlıqla xalqına, millətinə sədaqətlə birləşdirib belə zirvələrə qalxa biliblər. Biz Süleyman Rüstəm kimi böyük şairimizlə fəxr edirik və güman edirəm ki, gələcək nəsillər də Süleyman Rüstəmin xidmətlərini və onun yaradıcılığını heç vaxt unutmayacaqlar.

Xalqımız şeiri, ədəbiyyatı sevən xalqdır. Eyni zamanda şeirin, ədəbiyyatın hər bir insanın həyatında və xalqımızın, cəmiyyətimizin, millətimizin həyatında daim böyük rolu olmuşdur. Məhz buna görədir ki, Azərbaycanda şairlər, yazıçılar, mədəniyyət, incəsənət xadimləri həmişə hörmətli olublar, bu gün də biz onların hörmətini daim saxlayırıq və yüksəltməyə çalışırıq. Bu, tək onlar, onların şəxsiyyəti üçün deyil. Bu, bizim xalqımız, cəmiyyətimiz, millətimiz üçün çox vacibdir.

Süleyman Rüstəmin şeirləri, bədii yaradıcılığı çox rəngarəngdir və bir çox nəsillərin təhsilinə, mənəviyyatına, formalaşmasına böyük təsir

etmişdir. Bu, böyük həqiqətdir. Mənim nəslim 30-cu illərdə Süleyman Rüstəmin və Süleyman Rüstəmlə eyni yaşda olan, Azərbaycan ədəbiyyatına onunla bir zamanda gələn böyük yazıçılarımızın, şairlərimizin əsərlərinin təsiri altında təhsil almış, böyümüş, vətənpərvər olmuş, vətənini, millətini dərk edə bilmişdir.

Burada Süleyman Rüstəmin yaradıcılığı barədə gözəl sözlər deyildi. Mən isə onu qeyd etmək istəyirəm ki, Süleyman Rüstəmin şeirləri, əsərləri, bütün yaradıcılığı xalqımızda birinci növbədə vətəni sevmək, vətənə sadiq olmaq, vətənpərvər olmaq, millətimizlə, xalqımızla fəxr etmək hissləri, duyğuları yaradıb, inkişaf etdirib. Adamları insan, vətəndaş edən, insanları yüksək mənəviyyata qaldıran amillərdən biri də bizim mədəniyyətimizdir, ədəbiyyatımızdır, şeirimizdir. Süleyman Rüstəmin şeirləri, əsərləri bizim ədəbiyyatımızı, mədəniyyətimizi zənginləşdirərək XX əsrdə keçdiyi böyük, mürəkkəb, çətin yolda xalqımıza dayaq olmuş, xalqımızı irəliyə aparmış, yüksəltmişdir.

XX əsr bütün dünya üçün çox mürəkkəb bir dövrdür. Azərbaycan da bunda istisna deyil və xüsusən ona görə ki, biz keçmişdə Rusiyanın bir hissəsi olaraq, sovet hakimiyyəti qurulandan sonra o quruluşu, ideologiyanı, ictimai sistemi qəbul edib onun çərçivəsində yaşamışıq, həyat sürmüşük. Tarix tarixdir. Onun hər bir mərhələsinin, hər bir səhifəsinin özünəməxsus mənası, müsbət və mənfi cəhətləri vardır. O illərdə yaşamış, yazmış-yaratmış yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz şübhəsiz ki, o illərin çərçivəsində olmalı idilər. İndi kimsə istəyir desin ki, belə olmamalı idi, – o, sadəcə, həqiqətdən kənardır. Əlbəttə, biz bu gün o illərdən çox uzaqlaşdığımız bir zaman belə "qəhrəmanlar" meydana çıxır. Ancaq bunların hər birinin öz xüsusiyyətinə aid olan proseslər çərçivəsində təhlili və qiyməti verilməlidir.

Akademik Bəkir Nəbiyev Süleyman Rüstəmin yaradıcılığı haqqında danışarkən Süleyman Rüstəmin partiya, komsomol, sovet hakimiyyəti, sovet ideologiyası haqqında yazmasına müəyyən qədər bəraət qazandırmağa çalışırdı. Bilirsiniz, mən bunu keçmişdə də demişəm, bu gün də təkrar etməyim yerinə düşərdi: Hansı dövrdə hansı şair padşahları vəsf etməyibdir? Hansı dövrdə hansı şair, hansı yazıçı yaşadığı dövrü tərənnüm etməyibdir? Belələrini tapmaq mümkün deyil. Əgər bəziləri varsa, onları bayraq edib, bütün qalanlarına qara yaxılması düzgün deyildir.

Bəli, xüsusən 1920-1930-cu illər ağır repressiya illəri olubdur. Bizim xalqımız çox itkilər veribdir. Biz bu repressiya illərini ürək ağrısı ilə xatırlayırıq. İtirdiyimizi itirmişik, ancaq şükür etməliyik ki, qalanlar, bu xa-

tadan qurtaranlar, repressiyalardan xilas olanlar bizim həyatımızı, mədəniyyətimizi, ədəbiyyatımızı, təhsilimizi, həyatımızın başqa sahələrini yaradıblar.

Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı?

İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm.

Ancaq, eyni zamanda, böyük şairlərimiz, yazıçılarımız bizim xalqımıza, millətimizə, cəmiyyətimizə nə qədər böyük xidmətlər göstərmişlər, bir daha deyirəm ki, mədəniyyətimizi zənginləşdirmişlər.

Süleyman Rüstəmin şeirlərini, başqa əsərlərini oxuyarkən, dinləyərkən insan hər dəfə heyran olur ki, bu insanda nə qədər yüksək şeir sənəti, dil zənginliyi vardır. Bunu hər adam edə bilməz və bu, hər adama məxsus deyildir. Süleyman Rüstəmin əsərlərinin ana xətti vətənpərvərlik, vətənə, millətimizə, xalqımıza sədaqətdir. Biz bu gün müstəqil Azərbaycan Respublikasında iftixar hissi ilə deyirik ki, bizim dövlət dilimiz, gözəl ana dilimiz, Azərbaycan dilimiz vardır və bu, müstəqilliyimizin rəmzidir. Dilimizi yaşadan, zənginləşdirən, gözəlləşdirən bizim yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz olubdur.

SSRİ tərkibində bir respublika kimi bizim öz dilimizdə danışmağa, yazmağa, oxumağa ixtiyarımız var idi və biz də bundan çox səmərəli istifadə etmişik. Ancaq bütün dövlət işləri o vaxt hakim olan rus dilində gedirdi. Əgər bizim ədəbiyyatımız inkişaf etməsəydi, əgər yazıçılarımız, şairlərimiz yeni-yeni əsərlər yaratmasaydılar, onu yaymasaydılar və xalqımız bu ədəbiyyat nümunələrindən istifadə etməsəydi, bizim dilimiz bu cür yaşaya bilməzdi. Mən hesab edirəm ki, Azərbaycan dilinin bütün o

çətin dövrlərdən keçib yaşamasında, inkişaf etməsində, bugünkü yüksək səviyyəyə çatmasında Süleyman Rüstəmin də böyük bir xidməti, payı vardır.

Süleyman Rüstəm öz şeirlərində Azərbaycan gənclərini vətənpərvərliyə, mərdliyə, igidliyə dəvət edirdi. İkinci dünya müharibəsi, alman faşizminə qarşı gedən müharibə zamanı Süleyman Rüstəmin əsərləri Azərbaycan gənclərində, azərbaycanlılarda vətənpərvərlik hisslərinin inkişaf etməsində, qəhrəmanlıq nümunələrinin yayılmasında, genişlənməsində çox böyük rol oynamışdır. Vətən deyəndə bunun nə demək olduğunu hər kəs anlayır. Vətən hər bir adam üçün onun evidir, kəndidir, torpağıdır, ölkəsidir. Azərbaycan hansı ideologiya, hansı dövlət quruluşu çərçivəsində olmasına baxmayaraq, doğma vətənimizdir, min il bundan öncə də vətənimiz olubdur, 1930-1940-1950-1960-1970-ci illərdə də vətənimizdir, bu gün də bizim vətənimizdir.

Süleyman Rüstəm öz şeirləri, əsərləri ilə insanları vətənpərvər edərkən Azərbaycan xalqını daim bu hisslərlə yaşatmağa çalışıbdır. Bu, böyük xidmətdir. Biz onu yüksək qiymətləndirməliyik.

Vətənə, Azərbaycana bağlılıq Süleyman Rüstəmin Təbrizlə əlaqədar şeirlərində də və böyük Azərbaycan, İran şairi Şəhriyarla yazışmalarında da özünü göstərir. Yalnız vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir insan, şair Süleyman Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Əgər o hisslər olmasaydı, o, belə şeirləri yazmazdı, o hisslər olmasaydı Şəhriyarla yazışmazdı, ona şeirlər ithaf etməzdi və ondan şeirlər almazdı. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir. Biz bunları qiymətləndirməliyik.

Süleyman Rüstəm çox fəal ictimai-siyasi xadim olubdur. Azərbaycan Respublikasının Ali Soveti 1938-ci ildə yaranıbdır. O yaranan zamandan Süleyman Rüstəm ömrünün axırına qədər, demək, 50 il Azərbaycan Respublikası Ali Sovetinin deputatı olubdur. Bu, sadə bir şey deyildir. Süleyman Rüstəm o çərçivədə, o dövrdə, o mühitdə öz xalqına xidmət edibdir.

Mən xatırlayıram, həqiqətən, 1971-ci ildə respublikaya rəhbərlik edən zaman mənim təklifimlə Süleyman Rüstəm Ali Sovetin sədri vəzifəsinə seçildi və o, bu vəzifəni ömrünün axırına qədər şərəflə yerinə yetirdi.

Süleyman Rüstəmin yazdığı şeirlərə, qəzəllərə çox mahnılar qoşulubdur, bəstələnibdir və hər bir mahnı bizdə, azərbaycanlılarda böyük ruh yüksəkliyi, xoş əhval-ruhiyyə yaradır, bizə ilham verir. Süleyman Rüstəm öz xasiyyəti, yaradıcılığı ilə çox hərarətli bir insan olubdur. Mə-

nim xatirimdədir, ona "alovlu şair" deyirdilər. Bu, həqiqətən də belə idi. Həyatda da belə idi. Çox mərd insan idi. Mən onun şeirlərini orta məktəbdə sevə-sevə oxumuşam. Süleyman Rüstəmin əsərlərini gənc vaxtlarımda oxuyaraq onlardan böyük mənəvi qida almışam.

70–80-ci illərdə Süleyman Rüstəmlə bir yerdə işlədiyimiz zaman da mən həmişə onu böyük bir insan kimi görmüşəm. Xalqımız ona hörmət edibdir. O da həmişə xalqına, millətinə sadiq olubdur, böyük hörmət və ehtiramla yaşayıbdır. Mən onu şəxsən yaxından tanıdığıma görə onu sənət ustası olmağından əlavə, bir insan kimi də yüksək qiymətləndirirəm. Burada Elçin də, Anar da onun gözəl insani xüsusiyyətləri haqqında xatirələrini söylədilər. Məndə də belə xatirələr çoxdur.

Süleyman Rüstəm xoşbəxt bir insandır. Bu dünyaya gələn hər bir adam bu dünyadan gedəcəkdir. Ancaq xoşbəxt o kəsdir ki, dünyada böyük iz qoyur. Süleyman Rüstəm bizim ölkəmizdə, Azərbaycan xalqının həyatında böyük iz qoyub dünyasını dəyişmiş görkəmli şəxsiyyətlərdən biridir. Ona görə də Süleyman Rüstəmin yubileyini keçirmək sadəcə, bizim tərəfimizdən onun xidmətlərinə, şəxsiyyətinə, Azərbaycan xalqına qoyub getdiyi irsə göstərdiyimiz hörmətdir. Burada qeyri-adi heç bir şey yoxdur.

Burada səsləndi və mən bunu bilirəm, əgər kimsə 80-ci illərin axırlarında, 90-cı illərin əvvəllərində tariximizin böyük bir hissəsini cırıb atmaq istəyirdisə və bəzən onlar buna nail olurdusa, özləri – heç bir xidmət etməmiş adamlar xalqa sədaqətlə xidmət etmiş insanları aradan çıxarmağa çalışırdılarsa, bunlar keçici bir şeydir. Gördünüz ki, onlar keçdilər, getdilər. Bu gün onu deyə bilərəm ki, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər. Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər.

Biz tariximizi, keçmişimizi unutmamalıyıq. Onsuz da bizim tariximizi təhrif edənlər, düşmənlər çox olubdur. Biz içimizdən buna imkan verməməliyik. Yenə də deyirəm, çünki bizim düşmənlərimiz çoxdur. Bəziləri hesab edirlər ki, biz bir millət, xalq deyilik, hansısa bir tərəkəmədən, köçəridən doğulmuş insanlarıq. Bizim içimizdə belə nadürüstlər, nankorlar və xalqımıza xəyanət edənlər də vardır. Biz tariximizi, millətimizi, xalqımızı belə adamlardan qorumalıyıq.

Biz Süleyman Rüstəmin yubileyini iki ildir ki, – 1996-cı ilin mart ayından 1998-ci ilin mart ayına qədər respublikamızda sevə-sevə qeyd etməklə bir daha həmin bədxahlara, Azərbaycan xalqına xəyanət edənlərə tutarlı cavablar veririk. Süleyman Rüstəmin parlaq yaradıcılığı, onun əsərləri, onun böyük siması bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Eşq olsun şeirə! Eşq olsun ədəbiyyata! Eşq olsun Süleyman Rüstəm yaradıcılığına!

YUBİLEY KONSERTİ QURTARDIQDAN SONRA HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞÜ:

Axşamınız xeyir olsun. Çox sağ olun, sizə təşəkkür edirəm. Süleyman Rüstəmi biz də sevmişik, siz də sevmisiniz. Şübhəsiz ki, bugünkü təntənəli gecədə hamımızın iştirakımız onun xidmətlərinə olan hörmət və ehtiramımızdır.

Konserti çox yaxşı keçirdiniz. Buna görə çox sağ olun. Bizim yazıçıların, şairlərin və mənim sözlərimi siz öz musiqinizlə, gözəl ifalarınızla daha da zənginləşdirdiniz. Çox sağ olun.

Biz yenidən böyük bir mədəniyyət bayramı ilə rastlaşdıq. Görürsünüz, biz də, xalqımız da mədəniyyətə nə qədər böyük fikir veririk. Bu saraya toplaşan insanların hamısı Süleyman Rüstəmin xatirəsi naminə toplaşıblar. Bir də bizimlə görüşməyə, mədəniyyətlə, incəsənətlə təmasda olmağa toplaşıblar. Siz də çox sağ olun ki, mədəniyyətimizi yaşadırsınız, inkişaf etdirirsiniz.

Süleyman Rüstəmin də arzusu bu olubdur ki, xalqımız, mədəniyyətimiz yaşasın. Siz də bunu edirsiniz. Hamınız çox sağ olun. Bu, çox gözəl konsert oldu. Həmişə bir-birindən yaxşı olur. Amma hər dəfə o birisindən yaxşı olur.

QURBAN AYRAMI MÜNASİBƏTİLƏ MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA KEÇİRİLƏN GÖRÜŞDƏ NİTQ

8 aprel 1998-ci il

Hörmətli dostlar, hörmətli qardaşlar, ağsaqqallar, bacılar!

Mən sizin hamınızı bizim əziz və müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, hər birinizə səadət, xoşbəxtlik, uzun ömür arzu edirəm və bütün xalqımıza, Azərbaycan millətinə, vətəndaşlarına sülh və əmin-amanlıq arzulayıram. Biz, bizim nəsil xoşbəxtik ki, nəhayət, bu günlərə gəlib çıxmışıq və öz milli-dini adət-ənənələrimizi – əziz əcdadlarımızdan, ulu babalarımızdan bizə gəlib çatan ənənələrimizi, bayramlarımızı ürəyimiz istədiyi kimi qeyd edirik. Bu, böyük xoşbəxtlikdir. Xalqımızın çoxminillik tarixi var və çox əsrlərdir ki, islam dininə itaət edirik. İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dini dəyərləri – hamısı birlikdə bizim milli sərvətimizdir. Biz fəxr edə bilərik ki, xalqımız çox dəyanətli xalqdır və zamanzaman, əsrlər boyu cürbəcür məhrumiyyətlərə məruz qalaraq bütün bu adət-ənənələri unutmayıbdır. Nə vaxt ki, rəsmi dairələr bunu qadağan edib, yaxud da buna mənfi münasibət göstərib, insanlar bunu qəlbində, öz ailəsində, evində yaşadıblar. Hətta bizim bəzi fədakar insanlar bu adət-ənənələrimizi yaşatdıqlarına görə çox əziyyətlər çəkiblər, bəzən də məhrumiyyətlərə, cəzalara məhkum olublar. Bu onu göstərir ki, bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə – indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi, milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təblig edirik.

Qurban bayramı bizim əziz bayramımızdır. Ancaq xatırlayın, iyirmi, otuz, qırx il bundan öncə Qurban bayramını bəziləri öz evində edirdi. Kimin imkanı vardı – bir qoyun kəsirdi, kimin də imkanı yox idi - toyuqdan-xoruzdan kəsirdi və Qurban bayramı edirdi. Amma görün indi nə günə çatmışıq – mən bu gün şəhərdən, bizim məkanımızdan, mənim iş yerimdən buraya gələnə qədər yolboyu neçə dənə qurban kəsildi! Bilir-

siniz, sayı-hesabı yoxdur. Bu, mənim gördüyümdür. Amma bütün ölkəmizin ərazisində, hər evdə, hər qəsəbədə, hər kənddə, şəhərdə, hər yaşayış yerində minlərlə, on minlərlə qurban kəsilir. Bu, bir tərəfdən onu göstərir ki, qurban kəsməyə bizim imkanımız var. İkinci tərəfdən də, ən əsası budur ki, biz azadıq, müstəqilik, sərbəstik, istədiyimiz kimi yaşayırıq. Yəni istədiyimiz kimi hərə özbaşına yaşamırıq, əcdadlarımızdan bizə qalmış qanun-qaydalara, adət-ənənələrə riayət edirik və onları həyata keçiririk. Bu da bizim xoşbəxtliyimizdir. Qurban bayramı sadəcə şənlənmək, yaxud da qurban kəsmək, bir-birini təbrik etmək günü deyildir. Bu gün insan yenidən bütün həyatını düşünür, yenidən mənəviyyata qayıdır, mənəvi dəyərlərin qiymətini yenidən dərk edir və insan daha da saflaşır, paklaşır. Ona görə də bu gün bayramı bu şəkildə qeyd etmək, məsələn, mən baxıram, üç il, dörd il bundan öncə biz Azərbaycanda bu bayramı nə cür qeyd edirdik, bu gün nə cür qeyd edirik, – nə qədər fərq var. Amma, dedim ki, on il, iyirmi il bundan öncə biz bunu heç rəsmi bayram kimi qeyd edə bilmirdik. Kimi bunu evində edirdi, kimi də çoxdan unutmuşdu. Bu da həqiqətdir. Amma indi ölkəmizdə hər yerdə bayram əhvalruhiyyəsi var və insanlar bu bayramdan istifadə edərək öz mənəvi dəyərlərini bir daha qiymətləndirirlər. Mən çox sevinirəm, məmnunam ki, bu gün – Qurban bayramı günü Mirmövsüm ağanın qəbrini bir daha ziyarət etdim. Bu, bizim xalqımızın inam yeridir, çox zəngin bir ziyarətgahdır. İnsanlar buna etiqad edir, inanırlar. Mirmövsüm ağa hələ sağ olan vaxtı ona inanırdılar. İnsanlar inanırdılar və burada hələ böyük bir məqbərə olmadığı zaman bu qəbirə, bu müqəddəs yerə nəzirlər gətirir, gəlib buranı ziyarət edirdilər. İndi insanlar daha da çox inanır və gəlib bu müqəddəs yeri ziyarət edirlər, indi artıq burada böyük bir məqbərə kompleksi yaranıbdır. Bunun özü də son illərin məhsuludur, bizə verdiyi sərvətdir.

Mən 1994-cü ildə buraya gəlmişdim. 1994-cü ildə bütün bunlar yox idi. Mirmövsüm ağanın xatirəsinə layiq olan həmin o gözəl məqbərə də yox idi, o şəkildə deyildi. Amma bu müddətdə bunlar hamısı yaranıbdır. Bunu yaradanlar sizlərsiniz və Mirmövsüm ağanın xatirəsinə sadiq qalıb, onun ruhunu daha da şad etmək istəyən insanlardır. Bununla siz öz xalqınıza, dininizə, millətinizə xidmət edirsiniz. Amma eyni zamanda biz fəxr edə bilərik ki, belə bir ziyarətgahımız var. İnsanlar buna inanır, bu inamla da yaşayır və buraya ziyarətə gəlirlər.

Bilirsiniz, mən həyatımda ilk dəfə bir hadisəni sizə danışacağam. Bunu indiyə qədər heç kəsə danışmamışam və rəhmətlik anamdan savayı heç kəs bunu bilmir. 1943-cü ildə mənim iyirmi yaşım vardı. Bizim ailədə

çətinliklər vardı. Mən də, anam da bir nəzir dedik. Mən onda Bakıda yaşamırdım, Naxçıvanda yaşayırdım. Gəldim Bakıya, getdim İçərişəhərdə Mirmövsüm ağanın evinə, onu ziyarət etdim və nəzirimi də verdim. İndi biz onun qəbri üstünə gəlirik, amma mən sağlığında gedib onu ziyarət etmişəm – 1943-cü ildə, 55 il bundan qabaq ziyarət etmişəm. Bacısı da orada idi, evi indi də gözümün qabağındadır. Getdim ora, əvvəl məni buraxmırdılar, o yan – bu yan, çox yoxladılar, sorğu-sual elədilər. Gördülər ki, cavan bir oğlanam, inandılar və mənə bu imkanı verdilər. İndi olan-olub, keçənkeçib, – o vaxt mən bunu gizlin etmişəm, başa düşürsünüz? Mən onda o sistemdə, o dövlətdə işləyirdim. Onda din qadağan idi, bütün bu şeylər qadağan idi, bu işlərin lap kəskin vaxtı idi. Amma mənim qəlbim və rəhmətlik anamın məsləhətləri məni gətirib oraya çıxardı. 55 il keçib, mən bunu həyatımda birinci dəfədir ki, danışıram. Oraya gedəndə arxama, o yana-bu yana baxırdım ki, məni burada görürlər, ya görmürlər? Mən onda dövlət işində işləyirdim. Oradan çıxandan sonra da o yana-bu yana baxmışam. Yəni sizə düzünü deyim, mən oraya xəlvət getmişəm. Çıxandan sonra da hələ beş-on gün fikirləşirdim ki, görəsən məni gördülərmi, oraya-buraya çağıracaqlarmı, qısnayacaqlarmı, mənə bir şey edəcəklərmi? Beş-on gün keçəndən sonra gördüm ki, bir şey yoxdur, başa düşdüm ki, mənim oraya getməyimi heç kəs bilmir – bu, qalıb bir özümün qəlbimdə, bir də anamın qəlbində. Mən bunu heç vaxt unutmamışam, ancaq o vaxtlar gizlədirdim, deyə bilməzdim. Ondan sonra da ehtiyac olmayıbdır ki, mən bunu deyim. Durduğum yerdə deyim ki, mən bunu etmişəm, – nə əhəmiyyəti var? Amma indi, 55 il sonra bu ziyarətgaha gələndə mən bunu xatırlayıram. Oranı nə cür axtardığım bugünkü kimi gözümün qabağındadır. Heç oranı tapa da bilmirdim, çünki kimdən, nə təhər soruşacaqsan? Oradan-buradan araşdırdım, birtəhər gəldim çatdım. Əvvəl o evə gələndə dedim ki, bəlkə bura deyil, məni aldadacaqlar.

Birtəhər araşdırdım, biləndən sonra ki, hər şey düzdür, ziyarət etdim. İndi mən onun qəbrini ziyarət edirəm. Hesab edirəm ki, millətimiz üçün, millətimizi, xalqımızı düzlüyə, saflığa, xeyirxahlığa, əməli salehliyə dəvət etmək üçün belə ziyarətgahlar çox əhəmiyyətlidir. Xüsusən Mirmövsüm ağanın qəbri, bu ziyarətgah. Əminəm ki, bu ziyarətgah sizin kimi insanların səyi nəticəsində daha da genişlənəcək, inkişaf edəcək və xalqımız bu ziyarətgahdan bəhrələnərək mənəvi cəhətdən daha da sağlam, saf olacaqdır.

Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tər-

biyə etməkdən ibarətdir. Bu, bir bugünkü problem deyil, min il bundan öncə də olan problemdir. Elə Məhəmməd Peyğəmbərin zamanında da bu problem vardı. Təsadüfi deyil ki, o, millətimiz üçün, müsəlmanlar üçün necə yaşamaq və necə davranmaq qanun-qaydalarının hamısını Quran-Kərimdə yazıbdır. Niyə yazıbdır? Əgər problemlər, bu məsələlər olmasaydı Quranda bütün ayələri yazmazdı. Onu bir kitab kimi yazmayıbdır, orada hər bir kəlmənin, hər bir ayənin, surənin mənası var və məqsədi var. Bəli, o, hər bir kəlməni məqsədlə yazıbdır. Görürsünüz, nə qədər vaxt keçib, amma yenə də insanları mənəvi cəhətdən saflığa dəvət etmək, mənəvi saflığı təmin etmək, xalqın içində bədxahlığı, pis yola gedənləri, cinayət edənləri, vətəninə sədaqətli olmayanları aşkar etmək, bunları cəmiyyətdən kənarlaşdırmaq, yaxud tərbiyələndirmək – bu, bizim qarşımızda olan problemdir. Ona görə də hesab edirəm, bu ziyarətgah həmin problemlərin həll edilməsində öz rolunu oynayacaqdır. Ümumiyyətlə, bilin, – biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu, müstəqil Azərbaycanın gələcək yolunun ana xəttidir, indiki ifadə ilə desək, strateji yolumuzdur. Çünki bu, xalqımızın gələcəyi üçün ən düzgün və xalqımızı səadətə aparan ən ağıllı yoldur. Biz bu yolu seçmişik və bu yolla gedirik. Ancaq bununla bərabər, biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adətənənələrimizdən ayrıla bilmərik və imtina da edə bilmərik. Ona görə burada ziddiyyət yoxdur. Əksinə, çox qarşılıqlı münasibətlər var. Bu baxımdan, Azərbaycanın Prezidenti kimi mən Azərbaycanda dinin inkişafını təmin etmək üçün nə lazımdır edirəm və bundan sonra da edəcəyəm. Dinimizin bizə tövsiyə etdiyi və qoyduğu bütün adət-ənənələrdən səmərəli surətdə, həyatımızı daha da inkişaf etdirmək üçün istifadə etməliyik.

Buna görə də indi ocaqların yaranması, onların daha da abadlaşdırılması işini, lazımi tədbirlərin görülməsini əhəmiyyətli hesab edirik. Çoxunu xalq özü, xeyriyyəçi insanlar edir, amma dövlət də bir tərəfdən buna dəstək verir, digər tərəfdən də imkanı dairəsində nə iazımdır edir. Məsələn, Bibiheybət məscidinin bərpası bizim üçün tarixi əhəmiyyəti olan bir hadisədir. Çünki Bibiheybət ziyarətgahının Azərbaycanın və bütün islamın tarixində hansı yer tutduğunu siz yaxşı bilirsiniz. Şübhəsiz ki, vaxtilə təkcə xalqımıza qarşı yox, bütün islam dünyasına qarşı böyük bir cinayət edilib – o məscid partladılıb, dağıdılıb və o ziyarətgah pozulubdur. Amma buna baxmayaraq, insanlar Bibiheybət ziyarətgahını heç

vaxt unutmayıblar. Doğrudur, qadağan olduğuna görə oraya əvvəlki kimi ziyarətlər olmayıb, ancaq o, müqəddəs bir yer kimi yaşayıb və yaşayacaqdır. İndi isə bizim vəzifəmiz Bibiheybət məscidini bərpa etmək, daha da inkişaf etdirmək və oranı – əsrlərdən bəri yaşamış ziyarətgahı yenidən əvvəlki, bəlkə ondan da yuxarı səviyyəyə qaldırmaqdır ki, təkcə Azərbaycan xalqı, müsəlmanları üçün yox, həqiqətən bütün dünya müsəlmanları üçün ziyarətgah olsun. Ona görə də məscidin bərpası üçün mənim dövlət tərəfindən vəsait ayırmağım təsadüfi bir şey deyildir. Mən lazım olan vəsaiti ayırmışam, açıq deyirəm, əgər lazım gəlsə, bundan sonra da ayıracağam ki, Bibiheybət məscidi bərpa olunsun. Mənə söz veriblər ki, iyun ayında hazır olacaqdır. Şübhəsiz, sonra onu lap yüksək səviyyəyə qaldırmaq üçün əlavə nə işlər görmək lazımdırsa, bunu edəcəyik. Mən elan etmişəm, – bu, mənim şəxsi himayəm altındadır. Mən də bunu həm Azərbaycanın Prezidenti, həm də bir müsəlman, vətəndaş kimi özümün vəzifəm hesab edirəm və yerinə yetirəcəyəm.

Şüvəlan, Mərdəkan Azərbaycanın gözəl guşələrindən biridir. Burada çox gözəl insanlar yaşayır. Bu insanların ən böyük xüsusiyyətlərindən biri də odur ki, onlar bizim milli, dini ənənələrimizi həmişə yaşadıblar. Bu, bu yerlərin xüsusiyyətidir. Bəzi yerlərdə bəlkə bu xüsusiyyət belə deyil, amma Şüvəlan, Mərdəkan bu barədə çox fərqlənir. Ümumiyyətlə, bura Azərbaycanda təbiətin gözəl, mənzərəli yeridir, çox fədakar insanları var. Ona görə də təkcə burada yaşayanlar yox, bizim hamımız, o cümlədən mən də bu yerləri sevirik. Ümumiyyətlə, indi Əzizbəyov rayonu deyilən ərazini əhatə eləyən bütün bu yerlər – ya qəsəbədir, yaşayış yeridir, ya kənddir, fərqi yoxdur, adını nə cür deyəcəksən, – Azərbaycanın həqiqətən gözəl yerləridir. Məsələn, indi mənə "Əli ayağı"nın medalını təqdim etdilər, çox məmnunam. Oraya ziyarətimi çox məmnuniyyətlə xatırlayıram. Təəssüf edirəm ki, bunu gedib orada ala bilməmişəm, burada təqdim etdiniz. Amma sizə söz verirəm ki, oranı bir daha ziyarət edəcəyəm, mütləq gələcəyəm. Nardaran pirinə də mütləq gedəcəyəm. Bütün bu yerlər bizim üçün – müsəlmanlar, azərbaycanlılar üçün çox əziz yerlərdir. Bundan sonra bizim də vəzifəmiz ondan ibarətdir ki, bu yerləri mühafizə edək, saxlayaq, abadlaşdıraq, inkişaf etdirək ki, insanlar bu yerlərdən daha da səmərəli istifadə edə bilsinlər.

Burada hörmətli dostlarım respublikamızın həyatına aid olan bəzi məsələlər haqqında da öz fikirlərini dedilər. Çox sağ olun, mənim fəaliyyətim, gördüyüm işlər haqqında dediyiniz müsbət sözlərə görə sizə təşəkkür edirəm. Mən çox məmnunam və bir daha sizə bildirmək istəyirəm

ki, həyatımın mənası və məqsədi xalqa xidmət etməkdir. Bilirsiniz, Allah hər adama bir qismət verir. Biri görürsən istedadlı olur, yazıçılıqla məşğul olur, biri bəstəkarlıq edir, biri başqa sənəti seçir, biri alimlik edir. Allah mənə də bu işi qismət eləyib, yəni xalqın qayğısına qalmaq. Bilirsiniz, məsələn, dövlət işi, yaxud da siyasət – bunlar hamısı birlikdə elə bir şeydir ki, əgər həqiqətən insan özünü belə bir peşəyə, işə həsr edirsə, bunlar bir peşə kimi insanın özünü yaşatmaq məqsədi daşımır. Demək, əgər sən böyük dövlət işinə, böyük siyasətə girişirsənsə, bundan öz şəxsi məqsədin üçün istifadə edəcəksənsə, bu, nəticəsiz olacaqdır. Amma bu addımı xalqa xidmət etmək, xalqın qeydinə qalmaq, xalqa qayğı göstərmək üçün, vətəninin problemlərini həll etmək üçün atırsansa, onda şübhəsiz ki, müvəffəq ola bilərsən. Allah mənim də həyatımı belə gətirib, tale belə gətirib ki, gənc vaxtlarımdan bu işlərlə məşğul olmuşam. Bu da mənim həyatımın həm mənasıdır, həm də məqsədidir. Görünür, mənim başqa bir sənətim ola bilməyəcək, həyatımın sonuna qədər bununla məşğul olacağam. Xüsusən Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bu, daha da çox lazımdır. Azərbaycan üçün dövlət müstəqilliyini əldə etmək, – o şəraitdə ki, bunu əldə etdik, – elə bir çətin şey deyildi. Çünki Sovetlər İttifaqı dağıldı və o dağılanda respublikalar istəsə də, istəməsə də müstəqil olmalı idi. Bəzi respublikalar istəmirdilər müstəqil olsunlar, amma məcbur oldular. Bəziləri deyirdi "Yox, biz Moskvasız yaşaya bilmərik", amma müstəqil olmağa məcbur oldular. Bir var ki, məsələn, hansısa bir xalq hansısa istibdaddan, müstəmləkəçidən xilas olmaq üçün döyüşür, mübarizə aparır, qan tökür və xilas olur, – belə hallar tarixdə çoxdur. Bir də var ki, tarixin prosesləri, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində bu xoşbəxtlik bizə nəsib olubdur. Bu, böyük nemətdir, – biz bunu qiymətləndirməliyik, – şübhəsiz ki, tarixi hadisədir. Əgər son bir neçə əsrlik tariximizi təhlil etsək, bu, yeganə haldır. 1918-ci ildə də istiqlal bəyannaməsi verildi, biz müstəqillik elan etdik və Xalq Cümhuriyyəti yarandı, 23 ay fəaliyyət göstərdi. Bu da nədən oldu? O vaxtlar, Birinci dünya müharibəsindən sonra ümumiyyətlə dünyada və xüsusən Avropada və Rusiyada vəziyyət çox qarmaqarışıq oldu. Bunların nəticəsində 1917-ci ilin fevral inqilabında Rusiyada 300 il hakimiyyətdə olan Romanovlar sülaləsi, Romanovlar evi dağıldı. Bundan sonra, 1917-ci ilin Oktyabr inqilabında isə bolşeviklər hakimiyyəti ələ keçirdilər, yeni bir ideologiya əsasında yeni quruluş yaradılmağa başlandı. Bu zaman Rusiyada vəziyyət o qədər qarmaqarışıq idi ki, onun ayrı-ayrı regionlarında proseslər daha əvvəlki kimi çar istibdadı tərəfindən idarə oluna bilmirdi.

Bu fürsətdən istifadə edib Zaqafqaziyada Azərbaycan, Gürcüstan, Ermənistan əvvəl istədilər bir Zaqafqaziya dövləti yaratsınlar, çox mübahisə apardılar. Azərbaycan nümayəndələri də tərəfdar idilər ki, müstəqil Zaqafqaziya dövləti yaratsınlar. Ancaq sonra bir yola gələ bilmədilər və Gürcüstan öz müstəqilliyini bəyan etdi. Ondan sonra Ermənistan və Azərbaycan da öz müstəqilliyini bəyan etdilər. Yəni biz o vaxt da öz müstəqilliyimizi keçmiş Rusiyanın, çar Rusiyasının ərazisində gedən ictimai-siyasi proseslər və cürbəcür hərbi münaqişələr nəticəsində əldə etməyə imkan tapdıq. Xalq Cümhuriyyətini yaradan insanlar o vaxt bu fürsətdən istifadə etdilər və onların bu fəaliyyəti çox yüksək qiymətə malikdir. Ona görə də, siz bilirsiniz ki, mən fərman vermişəm və bu il may ayının axırına qədər tədbirlər gedir, ilk Azərbaycan Demokratik Respublikasının – Xalq Cümhuriyyətinin 80 illik yubileyini qeyd edəcəyik. Bu, bizim üçün tarixi hadisədir. Mən yenə də deyirəm, 1920-ci ildə müstəqillik əldən getdi və 1991-ci ilin sonunda Sovetlər İttifaqı dağılarkən biz yenidən müstəqillik əldə etdik.

Bəli, müstəqillik bizim üçün böyük nemətdir, bizə allah-təala tərəfindən bəxş edilmiş böyük sərvətdir, biz bunu qorumalı, saxlamalıyıq. Ancaq bunu qoruyub saxlamaq asan deyil, çox çətindir, çox mürəkkəbdir. Bizim üçün xüsusən ona görə çətindir ki, əgər keçmiş Sovetlər İttifaqına daxil olmuş başqa respublikalar müstəqillik alandan sonra onların içərisində böyük bir hadisə yoxdursa. Bizdə hələ müstəqilliyi almamış, 1988-ci ildə Ermənistan Azərbaycana hücum edərək Dağlıq Qarabağı əlimizdən almaq istəyib və müharibə gedibdir. Bunun nəticəsində torpaqlarımızın iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyon soydaşımız didərgin düşüb, qaçqın vəziyyətində yaşayır. Ona görə də başqa respublikalardan fərqli olaraq, müstəqilliyi qoruyub saxlamaq bizim üçün çox çətindir. Amma nə qədər çətin olur-olsun, biz bunu saxlamalıyıq və bu tarixi şansı heç vaxt əlimizdən verməyəcəyik və verməməliyik. Ona görə də həyata keçirdiyimiz bütün başqa tədbirlərlə bərabər, şübhəsiz ki, xalqımızın, cəmiyyətimizin birliyi çox vacibdir. Məsələn, Ermənistan–Azərbaycan hərbi münaqişəsində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəbi bir onda deyil ki, o vaxt Azərbaycanın gücü Ermənistandan az olubdur. Yox. Doğrudur, Ermənistana kömək edənlər çox olub, o cümlədən Rusiya da Ermənistana çox kömək edib, başqa ölkələr də kömək ediblər, Azərbaycana kömək edənlər az olub, yaxud da heç olmayıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın daxilində didişmə, çəkişmə və cürbəcür

qüvvələrin – hakimiyyət nə olduğunu anlamayan, amma hakimiyyət iddiasında olan qüvvələrin hakimiyyət mübarizəsi, vuruşması ölkəmizin daxilində sabitliyi pozub və Ermənistan silahlı qüvvələri bundan istifadə edərək çox asanlıqla bizim torpaqların bir qismini işğal ediblər. Bunu bilmək, dərk etmək lazımdır. Ona görə də son illər bizim gərgin əməyimizin nəticəsində Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik həyatımızın ən əhəmiyyətli cəhəti və əldə

etdiyimiz ən böyük nailiyyətdir. Əgər son illərin nailiyyətlərindən desək, biri odur ki, biz atəşi dayandırdıq. Bir aydan sonra dörd il tamam olacaqdır ki, Ermənistanla Azərbaycan arasında atəş dayanıb və biz danışıqlar aparırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Bu müddətdə biz Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirə bilmişik, buna nail olmuşuq. Bu, çox böyük nailiyyətdir.

İndi ictimai-siyasi sabitliyi qoruyub saxlamaq müstəqilliyi qorumaq, müstəqilliyi daimi etmək üçün əsas amildir. Bilməlisiniz və arxayın olun ki, bu sabitliyi necə ki yaratmışıq, yaratdığımız kimi də qoruyacağıq. Heç kəsə heç vaxt imkan verməyəcəyik ki, böyük çətinliklərlə, zəhmətlə, böyük əməklə əldə etdiyimiz bu sabitliyi pozsun. Heç kəsə yol verməyəcəyik, bunu hamı bilsin. Ancaq iş onda deyil ki, təkcə sabitlik olsun. Bizə lazımdır ki, cəmiyyətimizdə birlik, qarşılıqlı anlaşma olsun. Biz demokratik cəmiyyət yaradır, demokratik dövlət qururuq. Əgər belə deyiriksə, demək, belə bir qərar qəbul etmişik. Bu nə deməkdir? O deməkdir ki, burada cürbəcür fikirli adamlar, cürbəcür partiyalar, cəmiyyətlər ola bilər və onların fikri bir-biri ilə üstüstə düşməz. Bu, demokratiya deməkdir. Bizim bütün hakimiyyət, dövlət orqanları da demokratik prinsiplər əsasında yaranmalıdır. Biz bunu təmin etmişik. Edəcəyik. Məsələn, 1995-ci ildə Konstitusiyanı qəbul etmişik. Bunun özü

Azərbaycanda demokratiyanın böyük bir nailiyyətidir. 1995-ci ilin noyabrında ilk dəfə demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında parlament seçmişik. Orada cürbəcür partiyalar var, müxalifət də, hakimiyyətə bağlı olan qüvvələr də var. Bu özü demokratiyanın yaranması deməkdir. Biz demokratiyanı yaradırıq və bundan sonra da yaradacağıq. Ancaq demokratiyanı təhrif etmək olmaz. Siz ki, indi bəzi adamlar haqqında fikirlər deyirsiniz, onlar demokratiyanı təhrif etmək cəhdi göstərənlərdir. Demokratiyanı təhrif etmək olmaz, sağlam demokratiya olmalıdır, demokratiya həqiqi demokratik prinsiplər əsasında qurulan bir sistem olmalıdır. Bu baxımdan ayrı-ayrı qüvvələr, – siz burada prezident seçkilərini xatırlatdınız, – prezident seçkilərində iştirak etmək istəyirlər

və prezident olmaq arzusuna düşürlər. Bu təbiidir, buna təəccüblənmək lazım deyildir. Çünki biz demokratiyanı inkişaf etdirmək üçün hətta özümüz bundan ötrü geniş şərait yaratmalıyıq. Geniş şərait yaratmalıyıq ki, bizim cəmiyyətdə olan potensial, yəni siyasət işi ilə məşğul olmaq potensialı daha da aşkar olunsun və üzə çıxsın, onlar Azərbaycanın siyasi həyatında sağlam fikirlərlə iştirak edə bilsinlər. Buna özümüz şərait yaratmalıyıq və bilin ki, bir prezident kimi, mən buna şərait yaradıram və bundan sonra da yaradacağam. Əlbəttə ki, bu gün Azərbaycanda Heydər Əliyev Prezidentdir, müəyyən bir vaxtdan sonra başqa bir adam prezident olacaqdır. Bu dünyada heç kəs əbədi, daimi deyil, heç kəs bu dünyanı tutub axıra qədər qalmayacaqdır. Bu, təbii bir şeydir. Ancaq mənim arzum nədir və başa düşürəm, sizin də arzunuz nədir – qeyri-sağlam qüvvələrin Azərbaycanda hakimiyyəti ələ keçirməsinə yol verilməsin. Məsələn, məni çox istəyən dostum dedi ki, Sizə alternativ yoxdur. Mən isə hesab edirəm ki, gərək mənə bir çox alternativ olsun, – mən belə istəyirəm, – alternativ olsun. Amma nədir alternativ? O demək deyil ki, kimsə yerindən qalxıb deyir "mən alternativəm". Həqiqi alternativ, layiqli alternativ olsun. Əgər alternativ olmasa, demək, cəmiyyətimizdə, dövlətçiliyimizdə boşluq əmələ gələ bilər. Bu boşluğa imkan vermək olmaz. Alternativ olmalıdır.

Mən hətta bizim incəsənət xadimləri ilə – müğənnilərlə, bəstəkarlarla və yazıçılarla danışanda həmişə deyirəm ki, siz gərək çalışasınız işinizin davamçıları olsun. İncəsənət xadimləri bu barədə bir az qısqanc olurlar, bəziləri hesab edir ki, qoy onlardan savayı heç kəs olmasın, elə onlar qalsınlar. Amma mən isə bir azərbaycanlı kimi, həmişə fikirləşirdim ki, məsələn, bizim böyük müğənnimiz Bülbüldən sonra kim olacaq, Bülbülsüz necə yaşayacağıq? Yəni bundan sonra Bülbül kimiləri, bəlkə Bülbüldən daha yüksəyə qalxan olmalıdır. Məsələn, Rəşid Behbudovdan sonra bir neçə Rəşid Behbudovlar dünyaya gəlməlidir. Gəlir və gələcəkdir. Heç kəs də başqa cür düşünməsin. Bizim Azərbaycan xalqı o qədər istedadlı xalqdır ki, bunu əsrlər boyu nümayiş etdiribdir. Əgər belə olmasaydı bizim bu qədər böyük-böyük şairlərimiz olardımı? Bizim X əsrdə də böyük şairimiz var, XII əsrdə də, XV əsrdə də, XVI əsrdə də, XVIII, XIX, XX əsrlərdə də nə qədər böyük şairlərimiz var. Bu, xalqın istedadını göstərir. Eləcə də bəstəkarlarımız, müğənnilərimiz. Beləcə də siyasətçilərimiz olmalıdır ki, birinin yerini o birisi tuta bilsin, yer boş qalmasın, demokratik, hüquqi dövlət ki qururuq, – o, daimi olsun, yaşasın, bizim müstəqilliyimizi yaşada bilsinlər. Ona görə bu baxımdan mən çox istəyi-

rəm ki, Azərbaycanda prezident olmaq üçün bir yox, bir çox layiqli adamlar olsun və onların arasında sağlam rəqabət getsin. Xalq da kimə daha çox etibar edərsə, kim xalqa daha çox sədaqət göstərə bilərsə və xalq onu daha çox tanıya bilərsə, gələcəkdə ona səs versinlər. Bu barədə mənim siyasətim bundan ibarətdir və fikrim də belədir.

Yenə deyirəm, Azərbaycanın bu dövləti hər bir insan üçün əzizdir. Ancaq razılaşın ki, mənim üçün daha çox əzizdir. Çünki bu dövlətin yaranmasında mən nə qədər zəhmət çəkmişəm. Bu dövlətin yaranması Azərbaycanın elə təkcə müstəqilliyi ilə başlamayıbdır. Dövlətin yaranması çoxdan, XX əsrin əvvəlindən başlayıbdır. Mən 1969-cu ildə Azərbaycanda rəhbər seçiləndən ta indiyə qədər, demək olar, otuz ilə yaxın bir zamandır ki, bu dövlətin dərdini çəkirəm, xalqın həyatı ilə yaşayıram. Hətta o illərdə ki, məni həyatdan təcrid etmişdilər.

Moskvada ev dustağı etmişdilər, heç bir yerə buraxmırdılar, yaxud da oradan gəldim buraya, Bakıda qoymadılar yaşayını, getdim üç il Naxçıvanda yaşadım – o illərdə də Azərbaycan xalqının dərdi ilə yaşamışam, Azərbaycan xalqının aqibəti məni n arahat eləyibdir. Bəli, mən xeyli bir müddət respublikaya rəhbərlik etmişəm. Moskvada böyük bir dövlətin başçılarından biri olaraq yenə də respublikaya qayğı göstərmişəm. İndi gəlmişəm, beş ildir ki, müstəqil Azərbaycana rəhbərlik edirəm. Belə olan halda mənə Azərbaycanın bu günü və gələcəyi hər bir vətəndaş üçün olduğundan qat-qat qiymətlidir və qat-qat vacibdir. Ona görə mən düşünürəm, Azərbaycanın gələcəyi haqqında düşünürəm. Mən də istəyirəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdə olsun. Amma bunun üçün indi siyasət aləminə çıxan, siyasətlə məşğul olmaq istəyən adamlar və hakimiyyət iddiasında olan adamlar gərək – Azərbaycanda bir söz var, – papağını qoysun qabağına və dərindən fikirləşsin: sən bu suya girə bilərsən, ya girə bilməzsən? Əgər girə bilməyəcəksənsə, girmə, girib boğulacaqsan. Amma təəssüf ki, – bu da dövrün xəstəliyidir, – bizdə bir çox adamlar var, heç fikirləşmir ki, bu suyun dərinliyi nədir, üzə biləcək, ya bilməyəcək. Elə hesab edir ki, "keçərəm, üzərəm". Belələri var. Hesab edirəm, xırda-xırda bunlar da sahmana düşəcəkdir. Bilirsiniz, keçid dövrü ki deyirik, bunun bir çox xəstəlikləri var. Bir xəstəlik ayrı-ayrı siyasətbazların meydana çıxması və siyasət aləmində yeri olmayan adamların gəlib böyük bir siyasi vəzifə tutmasıdır. Bir xəstəlik iqtisadiyyatımızda olan xəstəliklərdir. İndi bazar iqtisadiyyatına keçir, özəlləşdirmə aparırıq, insanların psixologiyasında dəyişiklik olmalıdır. Bu da bir xəstəlik dövrüdür. Bunlar hamısı təbiidir. Bu da keçəcəkdir. Bilirsiniz, respubli-

kaya həqiqətən rəhbərlik etmək üçün təkcə istək, iddia azdır. Gərək biləsən, – sənin biliyin, bacarığın, elmin, savadın buna çatır, yoxsa yox? İkincisi, bunun üçün sənin iradən, xarakterin varmı? Üçüncüsü, sənin təcrübən, idarəçilik təcrübən varmı? Bilirsiniz, Azərbaycanın bu keçid dövründə idarəçilik təcrübəsi olmayan adam Azərbaycana rəhbərlik edə bilməz. Nəinki rəhbərlik edə bilməz, rəhbər vəzifədə ola bilməz. Bunu bütün başqa respublikaların təcrübəsi də göstərir, Avropadakı ölkələrin təcrübəsi də göstərir, keçmiş Sovet İttifaqında olan ölkələrin təcrübəsi də göstərir. Bunları düşünmək lazımdır. Əgər bunlar doğrudan da varsa, sən qabağa gəl. Amma bunlar yoxdursa, bir sənin ambisiyan var, bir də istəyirsən necə olur-olsun hakimiyyətə gələsən. Nədən ötrü hakimiyyətə gəlmək istədiyini özün də bilmirsən. Amma bir az dərindən baxsan, məlum olur nədən ötrü gəlirsən – hakimiyyətin verdiyi imkanlardan öz şəxsi məqsədin üçün istifadə etməkdən ötrü. Başqa bir şey yoxdur. Belələri, əlbəttə ki, gəlib alternativ ola bilməzlər. Alternativ olacaqlar, amma həqiqətən ola bilməzlər.

Bizim sizinlə vəzifəmiz ondan ibarətdir ki, cəmyyətimizdə dəyərli insanları tapıb üzə çıxaraq və inkişaf etdirək. Ən əsas xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, bu işə girmək istəyən adamlar gərək mənəvi cəhətdən sağlam olsunlar. Mənəvi cəhətdən sağlam olmayan adam böyük dövlət işi ilə

məşğul ola bilməz. Mən bunu keçən illərdə də görmüşəm. Büirsiniz ki, mənim həyatım çoxillikdir, təcrübəm də çoxdur. Çoxlarını görmüşəm, vaxtilə çoxlarını sınamışam. Mənəvi cəhətdən möhkəm olmayan, saf, təmiz olmayan adam böyük dövlət işində işləyə bilməz. Ona görə də mən hesab edirəm ki, qarşıdan gələn oktyabr ayında Azərbaycanda prezident seçkilərinin demokratik, ədalətli, sərbəst keçirilməsi üçün bütün şərait yaradılacaqdır. Arzusunda olan adamlar gəlib bu seçkidə iştirak edə bilərlər və bu işə yararlı olub-olmamasından asılı olmayaraq, əvvəlcədən, nə təhər deyərlər, heç kəsə damğa vurulmayacaq ki, sən yararlısan, yaxud yararsız. Seçki qanununun şərtlərinə uyğun olaraq kim daxil ola bilirsə, gəlib bu seçkidə iştirak edəcəkdir. Xalq da öz sözünü deyəcəkdir. Bizim Azərbaycanda yaxşı bir söz var: xalqın gözü tərəzidir. Hesab edirəm ki, oktyabr ayında bu tərəzi çox dəqiq işləyəcəkdir. Mən sizə çox təşəkkür edirəm ki, gördüyüm işləri qiymətləndirirsiniz və mənə dəstək verirsiniz. Bilirsiniz, böyük siyasətlə məşğul olan, xüsusən dövlət başında olan bir adam daim xalqın dəstəyini hiss etməli və xalqın rəyi ilə hesablaşmalıdır. Biliyimə, bacarığıma, təcrübəmə, səriştəmə görə mən nə qədər böyük im-

kanlara malik insan olsam da, daim cəmiyyətin, xalqın rəyi ilə hesablaşmışam, hesablaşıram və həmişə hesablaşacağam. Xalqın dəstəyi də mənə həmişə çox ruh verir.

Mən bu gün şəhərdən buraya gələrkən bir çox yerlərdə qurban kəsildi. Rayonların vətəndaşları, sakinləri bayram münasibətilə yola çıxmışdılar, məni salamlayırdılar. Bunların hamısında məni ən çox sevindirən səmimilikdir. Bilirsiniz, süni şeylər tez görünür və süni işlərə girişmək lazım deyildir. Mən süni şeylər istəmirəm. Amma xalqın səmimi münasibəti mənim üçün çox əhəmiyyətlidir. Xalqın, cəmiyyətin tam əksəriyyətinin mənə olan səmimi, xoş münasibətini daim hiss edirəm. Bu, mənə daha da güc-qüvvət verir və gecə-gündüz çalışmaq üçün məni ruhlandırır. Bilirsiniz ki, mənim həyatım gecə-gündüz işləməkdir, başqa bir şey yoxdur. İşləyirəm nə üçün – xalqımızı daha da yaxşı günlərə çıxarmaq üçün. Əmin olun ki, xalqımız daha da yaxşı günlərə çıxacaqdır. Bizim apardığımız iqtisadi siyasət, dünyanın böyük neft şirkətləri ilə imzaladığımız müqavilələr və ümumiyyətlə dünya iqtisadiyyatı ilə sıx inteqrasiya olmağımız, insanlara sərbəstlik verilməsi, sahibkarlığın, şəxsi mülkiyyətin yaranması respublikanın iqtisadi həyatını tamamilə dəyişdirir. Bunu özünüz görürsünüz. Ona görə də mən tam ümidvaram ki, bir neçə il keçəcək, Azərbaycanın iqtisadi, sosial vəziyyəti çox yaxşılaşacaqdır. Mənim də məqsədim ondan ibarətdir ki, birinci, buna nail olum, bunu təmin edim, ikinci də o günləri özümüz görək. Güman edirəm ki, sizinlə birlikdə biz o günləri görəcəyik.

Mən Qurban bayramı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun, salamat qalın.

DAHİ ŞAİR MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN ANADAN OLMASININ 90 İLLİK YUBİLEY MƏRASİMİNİN İŞTİRAKÇILARINA

Bakı şəhəri
11 aprel 1998-ci il

Hörmətli yubiley mərasiminin iştirakçıları!

Azərbaycan və İran xalqlarını birləşdirən tarixi, dini və mədəni tellər qədim zamanlardan mövcud olmuşdur. Əsrlər boyu xalqlarımız yanaşı yaşamış, eyni adət-ənənəyə malik olmuş, elm və mədəniyyət sahəsində dünya miqyasında dəyərlənən ölməz əsərlər yaratmışlar.

Ulu Şərqimizin bəşəriyyətə bəxş etdiyi Firdovsi, Xəyyam, Qətran Təbrizi, Xaqani, Nizami, Sədi, Nəsimi, Hafiz, Xətai, Füzuli kimi nadir dühalarımızın, söz ustadlarımızın bizlər üçün qoyub getdikləri sənət inciləri tarix boyu insanların mənəviyyatının zənginləşməsi və təfəkkürünün yüksək inkişafına xidmət etmişdir.

Böyük vətənpərvər şair-filosofumuz Məhəmməd Hüseyn Şəhriyar klassik irs və müasir ədəbi həyatla bağlı bir sənətkar olmuşdur. O, böyük sənətkar, klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətini qoruyaraq, dövrünün novator sənətkarı kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmasına nail olmuşdur.

Şəhriyar poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, dövrün, zamanın kəskin ictimai təzadlarını, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə bütün dünyaya car çəkmişdir. Cəmiyyətin inkişafına əngəl olan maneələri kəskin tənqid etdiyi kimi, qabaqcıl ictimai qüvvələri, zəhmətkeşlərin həyat və məişətini, onların ehtiyac və arzularını da böyük məhəbbətlə təsvir və tərənnüm etmişdir. Böyük lirika ustası Şəhriyarın əsərləri öz ideya zənginliyi, bədii saflıq və səmimiyyəti ilə seçilmişdir.

Bugünkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur.

Qardaş Azərbaycan və İran xalqları arasında hərtərəfli münasibətlərin, o cümlədən elmi-mədəni əlaqələrin inkişaf etməsində Şəhriyar simasının rolu və xidməti misilsizdir.

Dahi sənətkarın 90 illik yubileyi münasibətilə təntənəli mərasim iştirakçılarını təbrik edir və onlara müvəffəqiyyətlər arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MİLLİ BİRLİYİ, DÖVLƏTÇİLİYİMİZİ QORUMAĞA SƏSLƏYƏN ƏSƏR

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AKADEMİK MİLLİ DRAM TEATRINDA "ÖZÜMÜZÜ KƏSƏN QILINC" ("GÖYTÜRKLƏR") TAMAŞASINA BAXMIŞDIR

Akademik Milli Dram Teatrı
12 aprel 1998-ci il

XALQ ARTİSTİ
LÜTFİYAR İMANOVA

Bakı
16 aprel 1998-ci il

Hörmətli Lütfiyar İmanov!

Sizi – müasir Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan mahir sənətkarlardansınız. 60-cı illərdən etibarən opera səhnəmizdə aparıcı partiyaların ifaçısı kimi Siz musiqi tariximizə əbədi daxil olmusunuz. Təsadüfi deyil ki, dahi Bülbüldən sonra Koroğlu obrazını yaratmaq məhz Sizin qismətinizə düşmüşdür.

Klassik opera sənəti ilə xalq müsiqisinin vəhdətindən bəhrələnən yüksək ifaçılıq məharətiniz vokal sənətinin inkişafında yeni bir mərhələ təşkil edir. Konsert fəaliyyəti sahəsində qazandığınız uğurlar da təqdirə layiqdir. Xalq mahnılarını və müasir musiqi əsərlərini, milli və klassik opera nümunələrini böyük zövq və ustalıqla oxumağınız Sizə musiqisevərlərin dərin məhəbbətini qazandırmışdır.

Ölkəmizdə və onun hüdudlarından uzaqlarda, bir çox mötəbər konsert salonlarında çıxışlarınızla Siz Azərbaycan mədəniyyətini təbliğ edərək musiqimizi Dünya xalqlarına tanıtmısınız.

Azərbaycan ifaçılıq sənətində toplanmış zəngin təcrübənin varisi olmaqla Siz milli operamızın ənənələrini davam etdirərək respublikada yeni opera müğənnilərinin yetişdirilməsi sahəsində diqqətəlayiq xidmət göstərmisiniz. Bakı Musiqi Akademiyasının professoru kimi də gənc musiqiçilər nəslinin tərbiyə edilməsində əməyiniz yüksək qiymətləndirilməlidir.

Əminəm ki, bundan sonra da özünüzə xas olan həvəslə, yorulmadan, əzmkarlıqla çalışaraq pərəstişkarlarınızı yeni-yeni mahnılarla sevindirəcək, müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin inkişafı üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, səadət və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANIN XALQ ŞAİRİ MİRVARİD DİLBAZİNİN ANADAN OLMASININ 85 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

Respublika sarayı
23 aprel 1998-ci il

Əziz Mirvarid xanım, əziz bacımız!

Mən bu möhtəşəm yubileyiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət və yeni yaradıcılıq uğurları arzulayıram.

Mən ürək sözlərimi Sizə göndərdiyim təbrik məktubunda yazmışdım. Ancaq bugünkü yubiley gecəsi, bu salonda olan sevinc, şadlıq və Sizin yaradıcılığınızın nümunələrini Azərbaycanın incəsənət ustalarının ifasında yenidən eşitməyimiz, duymağımız məni çox hissiyyata gətirdi və mən öz təbrik sözlərimi Sizə bir daha demək istəyirəm.

Əziz Mirvarid xanım, Siz 85 illik şərəfli ömür yaşamısınız, bu gün də yaşayırsınız və ümidvaram ki, yaşayacaqsınız və 100 illik yubileyinizi də Sizinlə birlikdə təntənə ilə bayram edəcəyik. Sizin şərəfli ömrünüz, 70 illik məhsuldar yaradıcılığınız Azərbaycan tarixinin, ədəbiyyatının ayrılmaz hissəsidir və onların parlaq səhifələridir. Siz bu əsri – XX əsri sona çatdırırsınız və 70 ildir ki, xalqımıza, millətimizə, ölkəmizə, vətənimizə sədaqətlə, öz fədakar əməyinizlə, parlaq yaradıcılığınızla xidmət edirsiniz. Sizin şeirləriniz, poemalarınız, bütün əsərləriniz neçə-neçə nəsillərə güc, inam verib və bu gün də verir, gələcəkdə də verəcəkdir. Sizin əsərləriniz Azərbaycan xalqına – insanlara, gənclərə yüksək mənəviyyat hissləri aşılayır, insanları paklığa, mənəviyyata, ülvi duyğulara çağırır. Siz bütün əsərlərinizlə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək, xalqımızın milli azadlıq yolunda öz payınızı vermisiniz. Sizin əsərləriniz insanlarımızda, xalqımızda, gənclərdə milli hisslər, duyğular, vətənpərvərlik, azadlıq hissləri, duyğuları oyadıb, dirçəldib, gücləndirib, inkişaf etdiribdir və bugünkü səviyyəyə gətirib çıxarıbdır.

Siz Azərbaycanın istiqlaliyyəti yolunda fədakar bir əsgərsiniz. Ona görə də Siz müstəqil Azərbaycanın ən yüksək mükafatı olan «İstiqlal» or-

deninə layiq görülmüsünüz. Bu gün öz çıxışınızda dediniz ki, bu istiqlalı asanlıqla qazanmamışıq. Doğrudur, çox doğru sözlərdir. Xalqımız bu istiqlalı asanlıqla qazanmayıbdır. Bu istiqlal bir gündə qazanılmayıbdır. Bu istiqlala gedən yol uzun, çətin, keçməkeçli olubdur, böyük itkilərlə müşayiət edilibdir. Ancaq xalqımız bu istiqlaliyyətə doğru inamla gedib və bu gün biz hamımız xoşbəxtik ki, Azərbaycan öz istiqlaliyyətinə artıq nail olub, biz müstəqil ölkədə yaşayırıq.

Mirvarid xanım, Siz 30-cu illərdən başlayaraq Azərbaycan şeirini, ədəbiyyatını inkişaf etdirən böyük və çox gözəl şairlər, yazıçılar dəstəsinin bu günlərə gəlib çatmış yeganə nümayəndəsisiniz. Bəli, bu 30-cu illər Azərbaycanda çox ağır illər idi. Azərbaycanda yeni şairlər, ədiblər, yazıçılar nəsli meydana gəlmişdi. Onlar gənc idilər, onlar Azərbaycanın ədəbiyyat, şeir ənənələrini davam etdirmək missiyasını öz çiyinlərinə götürmüşdülər.

Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Nigar Rəfibəyli – sizlər və sizin həmkarlarınız o illər Azərbaycan ədəbiyyatını çiyinlərində daşıyıb yüksəklərə qaldırmısınız. Siz bu gün bizim aramızda o nəslin yeganə nişanəsisiniz. Məhz buna görə də Siz bizim üçün bütün başqa səbəblərlə yanaşı çox əzizsiniz.

Azərbaycanda keçmiş əsrlərdə də qadın, xanım şairlər olmuşdur. Məhsəti Gəncəvi, Ağabəyimağa Ağabacı, Heyran xanım, aşıq Bəsti, Xurşudbanu Natəvan – onlar keçmiş əsrlərdə Azərbaycan qadınının nə qədər yüksək mənəvi – intellektual zirvələrə qalxmasını sübut etmişlər və bütün dünyaya nümayiş etdirmişlər. Bunlar bizim milli iftixarımızdır. XX əsrdə də qadın şairlərimiz bu gözəl ənənəni davam etdirmişlər. Bunu XX əsrdə davam etdirən ən görkəmli qadın şairlərimiz Mirvarid Dilbazi və Nigar Rəfibəyli olmuşlar.

Mənim xatirimdədir, biz kitablarda, ədəbiyyat dərsliklərində, şeir kitablarında Azərbaycan şairlərinin şeirlərini böyük məhəbbətlə oxuyurduq və bunların içərisində Mirvarid Dilbazinin, Nigar Rəfibəylinin şeirləri xüsusi yer tuturdu. Qadınlardan bizim sonra da çox gözəl şairlərimiz yarandı, inkişaf etdi. Onlar çoxdurlar. Mən onlardan Mədinə Gülgünü və Hökumə Büllurini də bu gün xatırlamaq istəyirəm.

Şair olmaq asan deyil. Təkcə bizim xalqımızın tarixində yox, bütün dünya xalqlarının tarixində şairlər, yazıçılar, alimlər, adətən, kişilərdən olubdur. Ancaq qadınlardan olan şairlər xüsusi hörmətə malikdirlər. On-

lar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyədə, bəlkə onlardan da üstün səviyyəyə qalxaraq, şeirlər yazaraq, böyük şairlər dəstəsinə qoşula bilsinlər.

Əziz bacım Mirvarid Dilbazi, Siz məhz belə bir insansınız, qadınsınız, şairsiniz. Azərbaycan xalqı Sizinlə fəxr edir. Çünki Siz XX əsrin tarixi bir şəxsiyyətisiniz, Azərbaycan ədəbiyyatının, şeirinin klassikisiniz.

Bugünkü yubiley mərasimi şeir axşamıdır. Ümumiyyətlə, xalqımız şeir sevən xalqdır. Xalqımız böyük şairlər xalqıdır. Bu, bizim xalqımızın milli xüsusiyyətidir və biz bununla fəxr etməliyik. şeir axşamları keçmiş zamanlarda da həmişə xalqımızın, xüsusən ziyalılarımızın çox gözəl ənənəsi olmuşdur. İndi mən salondakı bu mühiti seyr edərək düşündüm, – son illərdə bizim yazıçılarımızın, şairlərimizin, mədəniyyət, incəsənət xadimlərimizin yubileylərini təntənə ilə qeyd etməyimiz həqiqətən şeir axşamlarına çevrilibdir. Bu, çox gözəl ənənədir. Təkcə biz, salonda oturanlar yox, Azərbaycan televiziyasının bütün tamaşaçıları bu gün canlı yayımla bu gözəl mənzərəni, şeir axşamını, bizim əziz bacımız Mirvarid xanımın gözəl yubileyini seyr edib, şübhəsiz ki, hamı bundan çox gözəl mənəvi qida alıbdır.

Bugünkü yubiley mərasiminin indiyə qədər olan yubileylərdən fərqli bir xüsusiyyəti vardır. Bu gün biz böyük şairimiz Mirvarid Dilbazinin 85 illik yubileyini qeyd edirik. Eyni zamanda biz bu gün gözəl Azərbaycan qadını, anası – qeyrətli, namuslu, ismətli, fədakar Azərbaycan qadını Mirvarid Dilbazinin yubileyini qeyd edirik.

Qadına hörmət hər bir millətin başucalığıdır. Bizim millətimizin tarixi ənənələri həmişə qadınlara hörmət etməyi tövsiyə etmişdir. Biz bu gün də, gələcəkdə də ölkəmizdə, cəmiyyətdə qadını uca tutmalıyıq, qadına hörmət etməliyik. Qadın cəmiyyətin bərabərhüquqlu üzvüdür. Ancaq eyni zamanda, qadın anadır. Qadın bizim nəslimizi böyüdür. Qadın millətimizin sayını artırır. Qadın bizim uşaqlarımızı tərbiyə edir, böyüdür, onlara həyat yolu göstərir. Bunları edən qadındır, anadır. Ona görə də ana, qadın hər bir Azərbaycan oğlu üçün müqəddəs bir məfhum olmalıdır.

Mirvarid xanım Dilbazi Azərbaycan qadınının, anasının ən parlaq, ən gözəl nümunəsidir. Bütün bunlara görə bugünkü yubiley axşamı, bu təntənəli gecə bu qədər gözəl, səmimi keçir, salondakılara, güman edirəm ki, televiziyaya tamaşa edənlərin hamısına böyük sevinc, məhəbbət hissi gətiribdir.

Mirvarid xanım, bu sevinc hissi ilə, Sizə olan hədsiz məhəbbət hissi ilə Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram.

Bugünkü bu gözəl gecəni yaradanlara, səhnədə bizim ətrafımızda olan Azərbaycanın incəsənət, mədəniyyət xadimlərinin hamısına ürəkdən təşəkkür edirəm. Mən hər bir ifaçıya çox diqqətlə baxırdım, dinləyirdim. Onu deyə bilərəm ki, bu gün bu səhnədə bu yubiley təntənəsini keçirən, Mirvarid Dilbazinin şeirlərini səsləndirən, onun şeirlərinə bəstələnmiş mahnıları bizə çatdıran bütün musiqiçilər, müğənnilər, aktyorlar, aktrisalar hamısı birlikdə bunu çox böyük məhəbbət hissi ilə edirdilər. Onlar bütün bunları çox gözəl ifa etdilər.

Əziz mədəniyyət xadimləri, mən sizin hamınıza təşəkkür edirəm. Güman edirəm, siz də sevinirsiniz ki, bu axşam bu cür gözəl bir vəzifəni yerinə yetirmisiniz. Sağ olun.

Əziz Mirvarid xanım, mən Sizi öpürəm, sağ olun.

DÜNYA KİNOSUNUN 100 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA "FESTİVALLAR FESTİVALI"NIN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

Respublika sarayı
2 may 1998-ci il

Hörmətli festival qonaqları, dostlar! Rüstəm deyir ki, mən bir söz deməliyəm. Amma bu gün siz o qədər çox dediniz ki, buna çətin ki, nə isə əlavə etmək olar. Bu gün biz bir kəşf etdik ki, – bu, həm Rüstəm İbrahimbəyov üçündür, həm də onun həmkarları üçün, – göstərdik ki, Azərbaycan kinosu 1898-ci ildən başlanır, onun yüz ili tamam olur. Bu birincisi. Sizin bunu bilməməyiniz pisdir. Elə biz də 1916-cı ili başlanğıc ili hesab edirdik. (R. İbrahimbəyov yerindən: Sizin fərmanınız çıxsa, onda hamı bilər.) Siz ki, artıq elan etdiniz. Əgər bunu hər hansı bir sənədlə rəsmiləşdirmək gərəkdirsə, onda, təbii olaraq, fərman da vermək mümkündür. Lakin Azərbaycan kinosunun stajını, – əgər belə demək olarsa, – on il, yaxud neçə il artırmaq ümumən heç də sadə bir məsələ deyildir.

Bu, o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi, o, Azərbaycanda da peyda olunmuşdur. Axı az-az ölkə tapılar ki, Avropada kino banilərinin kino yaratdıqları həmin vaxtdan bu ölkələrdə kino həqiqətən mövcud olmağa başlasın.

Buna görə də bugünkü festival hiss etdiyimiz bütün xoş, yaxşı hallarla yanaşı, məsələn, mənim üçün məhz bu kəşflə dəyərə malikdir – onun həm sübutu ilə, həm də nümayiş etdirilməsi ilə.

İkincisi isə, bu gün doğrudan da elə bir vaxtdır ki, çox adamın bir yerə toplaşması çətindir. Bununla belə, toplaşmısınız. Mən iki il öncə keçirilmiş "Festivallar festivalı"nı xatırlayıram. Sizin dəvətinizlə mən də orada idim. Lakin onda qonaqlar az idi və əgər belə demək mümkünsə, kiçik bir toplanış idi. Bu dəfə toplantı daha böyükdür. Ümid edirəm ki, gələn dəfə daha böyük olacaqdır.

Burada da müəyyən bir qanunauyğunluq var, çünki Sovet İttifaqı dağılanda bir-birindən üz çevirib uzaqlaşmaq meyli çox güclü idi. Bu, tamamilə təbii olan haldır. Lakin bir-birimizdən uzaşlaşdıqdan, özümüz

özümüzü hiss etdikdən, azadlıq qazandıqdan, müstəqilliyə nail olduqdan sonra bir-birimiz üçün darıxdıq və belə qərara gəldik ki, bir-birimizə hər halda, yaxınlaşmaq lazımdır. Mən təxminən belə başa düşürəm. Bax buna görə də bu dəfə buraya, Bakıya iki il əvvəlkinə nisbətən daha çox adam toplaşmışdır. Yəni bu, tamamilə qanunauyğun meyildir. Mən bu meyili alqışlayır və arzu edirəm ki, kino sənəti xadimləri bir-birinə daha da yaxınlaşsın, daha sıx birləşsin, əlaqələri daha çox möhkəmlətsin və müasir dövrün ruhuna, müasir insanın zövqünə uyğun olan kino sənəti əsərləri yaratsınlar.

Əlbəttə, burada hamımıza aydındır ki, televiziya kinonu sıxışdırmışdır. Yadımdadır, – bu gün Rüstəm mənə xatırlatdı, – biz burada, elə bu salonda Azərbaycan kinosunun 70 illiyini qeyd edirdik. Bu, 76-cı ildə olmuşdur. Tədbirdə mən də iştirak edirdim, zənnimcə, hətta çıxış etdim. Xatirimdədir, o vaxt mən təkcə kinodan deyil, başqa məsələlərdən də danışdım. Lakin sonralar da kinematoqrafiya ilə ünsiyyətdə oldum, deyirdim ki, televiziya öz imkanlarını nə qədər genişləndirsə, teatr, kino öz əhəmiyyətini itirməyəcəkdir. Mən bunu indi bir daha təsdiq edirəm. Belə bir qanunauyğun hal baş verir – televiziya kinonu müəyyən dərəcədə sıxışdırır. Amma adamlar televiziyadan, necə deyərlər, doyurlar və bir daha kino salonuna qayıtmaq, kinoya qayıtmaq, böyük ekrana qayıtmaq arzusu baş qaldırır. Mən belə düşünürəm ki, bu da baş verəcəkdir.

Mən şadam ki, Azərbaycan kinosu mövcud olduğu dövr ərzində geniş inkişaf etmişdir. Bu gün siz Azərbaycan kinosu xronikasının tarixindən bəzi kadrları göstərəndə də, açığını desəm, mən bir daha və bir daha sevindim. Baxmayaraq ki, bunların hamısını görmüşəm, bütün bunlar mənə məlumdur. Elə vaxt gəlir ki, yenidən tarixlə təmasda olursan. Bilmirəm başqalarında necədir, amma bu, şəxsən məndə çox böyük sevinc hissi, öz xalqım, öz respublikam üçün iftixar hissi doğurur.

Məsələ təkcə bunda deyildir ki, mən bu gün Azərbaycan kinosunun yüz yaşı olduğuna görə sevinirəm, ondadır ki, çoxlu, lap çox yaxşı filmlər yaradılıbdır. Xatirimdədir, hələ uşaqkən kinoya baxmağa gedərdik, onda hələ səsli kino yox idi, səssiz kino idi. Azərbaycan filmləri, Moskva filmləri, hətta xarici filmlər də xatirimdədir. Biz Çarli Çaplini ilk dəfə səssiz kinoda görmüşdük. Yaxud belə bir film vardı – "Miss Mend", xatirinizdədirmi? Çox maraqlı film idi, səssiz olsa da, biz, hələ çox gənc olan insanlar ona necə də məmnuniyyətlə baxırdıq. Yəni demək istəyirəm ki, mən o uzaq illəri xatırlayıram. O zaman mənim on yaşım vardı. Bu gün isə görün, kino nə qədər yüksəlmişdir. Müharibədən əvvəl də yaxşı film-

lər var idi, mən İkinci dünya müharibəsini deyirəm, müharibə dövründə də, müharibədən sonra da yaxşı fimlər yaradılmışdı.

Ancaq bu gün Rasim Balayev, – o buradadır? Nə üçün belə uzaqda əyləşmisən? Yer yoxdur? Sən hər şeyi qonaqlara vermisən. Düz eləmisən, azərbaycanlı həmişə ən yaxşı nə varsa, qonağa verir. Bilirsiniz, mən bir Azərbaycan adətini xatırladım. Kənd yerlərində azərbaycanlıların, – bəlkə də Bakıda yaşayanlar bunu bilmirlər, amma əyalətdə yaşayanlar bilirlər, yəqin ki, sizin də xatirinizdədir, – bir otağı, iki otağı vardısa, onun biri yalnız qonaqlar üçün saxlanırdı. Bizim hələ çarpayımız olmayanda yerdə yatardıq. Yaxşı yorğan-döşək, balınc yalnız qonaq üçün idi. Özümüz isə birtəhər keçinərdik.

Xatirimdədir, uşaq vaxtı kəndə qohumumuzgilə getmişdim. Bizi qarşılayıb evin girəcəyində yedirtdilər, ancaq otağa buraxmadılar. Bəs o kimin üçündür? Qonaqlar üçündür. Orada bir çarpayı, yaxşı ipəkdən üzü olan yorğan, balınclar var idi. Özlərinin isə yerə salmağa xalçaları da yox idi. Mən fikirləşdim ki, yaxşı, qonaq ildə bir və ya iki dəfə, yaxud üç dəfə gəlir, amma otaq boş qalır. İnsan özü isə bütün ili elə bir şəraitdə yaşayır. Görün, necə psixologiyadır.

Yəqin ki, bu, xalqımızın xarakteri ilə bağlıdır: Yaxşı nə varsa, qonaq üçündür. Bəzən deyirlər ki, azərbaycanlılar qonaqları yaxşı yedirib-içirdirlər. Bu, həqiqətən belədir. Həddən artıq yedirib-içirdirlər – bir, iki, üç…xörək. Qonaq da fikirləşir ki, bu adamlar elə həmişə bu cür yeyirlər. Bu, əsila belə deyildir.

Bəlkə də insan qonaq gələndəki kimi ayda bir dəfə o cür yeyə bilməsin, qalan vaxtlarda aza qane olsun. Amma qonağa hər şeyi verir. Mən bizim milli ənənələrimizi, xarakterimizi pisləmirəm. Bütün bunları ona görə xatırladım ki, Rasim Balayev kənarda oturubdur. Mən də bir vaxtlar otağın girəcəyində bax beləcə oturmuşdum, məni qonaq otağına buraxmadılar.

Kino bir çox nəsillərin həyatında olduqca böyük rol oynamışdır. Məsələn, mənim nəslimin həyatında kinonun rolu çox böyük olmuşdur. Müharibəyə qədər yaradılmış kinofilmlər – hərbi vətənpərvərlik xarakterli, Rasim Balayevin bu gün dediyi kimi, inqilabi xarakterli və başqa filmlər çox maraqlı idi, bədii cəhətdən çox dəyərli idi, onlar həm də sənət, kino sənəti əsərləri idi. Lakin, bununla bərabər, onlar adamlara çox kömək edirdilər. Bu filmlər bütün sonrakı dövrdə də çox kömək etmişdi.

Buna görə də kino sənətinə, kino xadimlərinə, kino artistlərinə bizdə həmişə böyük hörmət var. Bu gün özünüz gördünüz ki, sizin hər biri-

nizi necə qarşılayırdılar, kimsə səhnəyə dəvət edildikdə nə qədər alqışlar, nə qədər sevinc, nə qədər məmnunluq olurdu. Siz öz gəlişinizlə, öz ünsiyyətinizlə və bugünkü gecə ilə təkcə salonda olanlara deyil, salonda olmayanlara da çox böyük fərəh hissləri bəxş etdiniz, çünki hər şey birbaşa yayımlanırdı, respublikamızda birbaşa translyasiya gedirdi. Odur ki, adamlar bütün bunlara görə sizə minnətdar olacaqlar.

Mən Azərbaycanda respublikanın rəhbəri işləyərkən kino sənətinin inkişafına böyük diqqət yetirirdim. Bu, Rüstəmin də yadındadır, başqalarının da. Bu gün bir kadr göstərdilər, orada Rüstəm hələ çox gəncdir, hətta tanıya bilmirsən ki, bu odur, ya yox. Rasim Balayevin kinoda ilk dəfə görünməsini də xatırlayıram. Rəhmətlik Həsən Seyidbəyli "Nəsimi" filmini çəkirdi. O vaxt biz böyük şairimiz Nəsiminin 600 illiyini qeyd edirdik və onun haqqında film yaratmağı qərara almışdıq. Yaxşı ənənə idi. Biz görkəmli adamların yubileylərini qeyd edirdik, onların haqqında kitablar, romanlar, tarixi oçerklər yazılırdı, kinofilmlər çəkilirdi. Yaxşı ənənə idi. Bax, onda biz ilk dəfə olaraq Bakıda Nəsimiyə gözəl bir abidə ucaltdıq, onun adını əbədiləşdirdik, – bizdə Nəsiminin adına rayon var, – film yaratdıq. Həsən Seyidbəyli bu filmin yaradılmasını öz üzərinə götürdü. Xatirimdədir, ssenari çox mürəkkəb, çox çətin idi. Çünki tarixi təhlil etmək, aydınlaşdırmaq lazım idi ki, nəyi göstərməli və nəyi göstərməməli. Xüsusən ona görə ki, – mən yenə Rasim Balayevdən sitat gətirirəm, – bu gün o dedi ki, ideologiya rol oynayırdı. Həqiqətən rol oynayırdı. Odur ki, həmçinin nəyisə ideologiyaya uyğunlaşdırmaq lazım idi. Prinsipcə, film çox yaxşı çıxdı.

Mən hesab edirəm ki, tarixi baxımdan bu film Azərbaycan kino sənətinin əsilində ilk belə çox fundamental filmi idi. Xatirimdədir, onda mən Həsən Seyidbəyli ilə görüşdüm, söhbət etdim və soruşdum ki, bəs Nəsimi rolunu kim ifa edəcək? O dedi ki, bilirsinizmi, mən bir yaxşı, perspektivli cavan tapmışam. Soruşdum ki, o haradadır? Dedi ki, o, teatr institutunda oxuyur. Mən onu sınaqdan çıxarmışam, baxmışam və indi gəlin, görək mən düz deyirəm.

O, Nəsimi rolunu həqiqətən gözəl ifa etdi, çox gözəl ifa etdi. İndi baxın, o, artıq bir qədər yaşa dolub, fiqurası da o vaxtkına nisbətən böyüyüb. Onda çox qədd-qamətli, çox qəşəng oğlan idi. Əlbəttə, bu gün də qəşəngdir.

Mən bunları niyə xatırlayıram? Ona görə xatırlayıram ki, bütün bunlar keçmişdir, o cümlədən məndən də keçmişdir, mən bu işlə məşğul olurdum, bu işə böyük diqqət yetirirdim. Babək haqqında film də bunun

kimi. Eldar Quliyev əla bir film yaratmışdır. Bu gün Rüstəmlə biz ayrı-ayrı xadimlərimizin rejissorun işinə qarışdığı bəzi məqamları xatırladıq və sair. Bu da olub. Biz digər filmlərə himayədarlıq edir, onlara baxır, kömək göstərirdik. Şadam ki, Azərbaycan kinematoqrafı böyük inkişaf tapmışdır.

Burada bəlkə də kiminsə yadındadır, mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Kinematoqrafiya Komitəsinə kuratorluq edirdim. Yermaş yanıma tez-tez gələrdi, biz bir çox məsələləri həll edərdik. Sovet kinematoqrafiyasının inkişafına əhəmiyyətli yardım göstərmək qərara alındı. Siyasi Büroda da, Nazirlər Sovetində də bu sahəyə mən başçılıq etdiyimə görə komissiyaya başçılıq etmək, bu məsələ ilə məşğul olmaq mənə tapşırılmışdı.

Mən isə hər şeylə maraqlanan insanam, nə isə bir iş görmək, nə isə hazırlamaq üçün çox diqqətlə məsələnin kökünə varmaq lazım idi, kinematoqrafı bilməyimdən əlavə, onun vəziyyətini, imkanlarını və sairəni də öyrənməli idim. Mən kinematoqrafiyanın ən böyük xadimləri ilə çoxlu görüşlər keçirdim və hər şeyi – sənəd, qərar layihəsi hazırladıq. Yermaşa dedim ki, siz bizim kinematoqrafın ən görkəmli adamlarını yanınıza çağırın, mən də gələcəyəm. Bu, 84-cü il idi. Biz bir neçə saat söhbət etdik. Orada iştirak edən insanların bəziləri artıq həyatdan gediblər. Ancaq bəziləri indi buradadır – Rüstəm orada idi, Şengelaya var idi. Deməliyəm ki, sonra biz o dövr üçün çox sanballı sənəd, Sovetlər İttifaqı Kinematoqrafiyasının inkişaf proqramını yaratdıq.

Həmin sənəd qəbul edildikdən sonra biz Moskvada Oktyabr salonunda kinematoqrafçıların geniş ümumittifaq fəallar yığıncağını keçirdik və mən məruzə etdim. Birincisi, kinematoqrafiyanın inkişafı barədə danışdıq. Yəqin ki, sizin xatirinizdədir? Bizim türkmənistanlı qonağımız hanı, mənim xatirimdədir, siz orada çıxış etdiniz. Biz bütün günü bu məsələləri müzakirə etdik, kinematoqrafiyanın ən böyük xadimləri çıxış etdilər, öz təklifləri, düşüncələri barədə danışdılar. Gördüyünüz kimi, mən kinematoqrafiya ilə bilavasitə bağlıyam. Ona görə də sizi sadəcə kino tamaşaçısı kimi ekrandan yox, praktiki fəaliyyətinizdən də tanıyıram və sizə böyük hörmətlə yanaşıram. Bilirəm ki, kinematoqraf əməyi çox mürəkkəb, ağırdır. Ümumiyyətlə, artistin əməyi ağır zəhmətdir.

Mən dəfələrlə demişəm və bu gün bir daha demək istəyirəm ki, tamaşaçı səhnəyə baxır, artist çıxış edir, rolu oynayır, o, tanınmış adamdır, onu alqışlayırlar və sairə. Amma insan səhnəyə çıxanadək nə qədər zəhmət çəkir, nə qədər həyəcan keçirir, səhnənin arxasında nələr baş verir –

bunları heç də hamı bilmir. Ancaq mən bilirəm. Ona görə də teatr işçilərinin əməyini, kino-aktyor, rejissor əməyini yüksək qiymətləndirirəm və bu gün də həmin hisslərlə sizinlə görüşə gəlmişəm.

Mən bu gün sizin haqqında danışdıqlarınızı diqqətlə dinlədim, sizə baxdım və mənə çox xoş oldu ki, siz hamınız gözəl formanızı saxlayırsınız, əvvəllərdə olduğu kimi, indi də məşhursunuz. Bir daha vurğulamaq istəyirəm ki, yenidən Bakıya toplaşmağınızdan çox şadam və kino sənətinin inkişafında sizə uğurlar arzulayıram. Bütün ölkələrin kinematoqraflarının dostluğu var olsun və inkişaf etsin!

“AZAD OLUNMUŞ ENERJİ” ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

Bakı, Tbilisi prospekti
9 may l998-ci il

Əziz dostum, qardaşım prezident Eduard Şevardnadze! Əziz dostlar, qonaqlar, xanımlar və cənablar!

Siz bu gün Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Mən sizi bu səfəriniz münasibətilə səmimi qəlbdən salamlayıram və bu ziyarətinizə görə sizə ürəkdən gələn minnətdarlığımı bildirirəm.

Biz bu gün gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluq və qardaşlıq salnaməsinə yeni bir səhifə yazırıq.

Gürcü və Azərbaycan xalqlarının dostluğu və qardaşlığı qədim tarixə malikdir və biz böyük iftixar hissi ilə deyə bilərik ki, bu dostluq və qardaşlıq – əsrlər boyu davam edən və gündən-günə möhkəmlənən dostluq həmişə uğurlu olmuşdur, heç vaxt, heç zaman, heç bir dəqiqə pozulmamışdır. Bu gün biz, indiki nəsillər ulu babalarımızın qurub-yaratdığı, yüksəklərə qaldırdığı dostluq və qardaşlıq əlaqələrini davam etdiririk. Bizim üzərimizə çox böyük, şərəfli və məsuliyyətli bir vəzifə düşübdür. İftixar hissi ilə deyə bilərəm ki, bugünkü görüş, bu mərasim, bu böyük, əzəmətli monumentin açılması onu göstərir ki, biz öz əcdadlarımızın tutduğu yola, bizə etdiyi nəsihətlərə sadiqik.

Bakı şəhərinin bu gözəl güşəsi yeni, yaraşıqlı görkəm alır. Gürcü heykəltəraşı Georgi Caparidzenin böyük həvəs və istedadla yaratdığı, güc, enerji rəmzi olan at heykəli Azərbaycan memarı Qasımzadə ilə onun əməkdaşlığı nəticəsində burada, Bakının bu gözəl güşəsində yeni bir heykəl – memarlıq abidəsi, memarlıq kompleksi yaratmışdır. Əvvələn, bizim əziz dostumuz Caparidzenin bu abidəni yaratmaq ideyasının nə qədər gözəl olduğunu qeyd etmək istəyirəm. Heykəltəraş müxtəlif abidələr yarada bilər. Ancaq dostumuz, qardaşımız məhz belə bir heykəli yaradıb Azərbaycanda ucaltmaq fikrinə gələndə bu işə nə qədər böyük ideyalarla yanaşıbdır. Mən məhz bu fikrə görə, yüksək mənəviyyat nümunəsi olan bu ideyaya görə və onun həyata keçirilməsinə, yaradılmasına və nəhayət, yüksək keyfiyyətə malik heykəltəraşlıq sənəti

nümunəsinin yaradılmasına görə dostumuz və qardaşımız Georgi Caparidzeyə təşəkkür edirəm.

Ancaq müəllifin fikri, ideyası, planı təkcə at heykəli düzəldib Azərbaycanın, Bakının hansısa bir guşəsində qoymaqdan ibarət olmayıbdır. Onun fikri, ideyası böyük kompozisiya yaratmaq olubdur. Onun da müəllifi məhz Caparidzedir. O bu kompozisiyanı Azərbaycan memarı Qasımzadə ilə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyevlə birlikdə çox məharətlə, çox gözəl həyata keçiribdir. Bunun nəticəsində biz Bakını gözəlləşdirən, şəhərin memarlıq və heykəltəraşlıq abidələrinin sayını artıran böyük bir kompleksin açılışının şahidiyik. Eyni zamanda bu monumental abidə gürcü və Azərbaycan xalqlarının əbədi dostluğunun rəmzidir. Biz bu abidə ilə bu gün bir daha dünyaya nümayiş etdiririk ki, gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan qonşuluq və qardaşlıq böyük sınaqlardan keçərək mətinləşmiş, möhkəmlənmiş, yüksəlmiş, bu gün sarsılmaz və əbədi olmuşdur.

Gürcüstan, onun paytaxtı Tbilisi azərbaycanlılar üçün çox əziz, istəkli diyardır, şəhərdir. Əziz dostum Eduard Şevardnadze öz gözəl nitqində Gürcüstan–Azərbaycan dostluğunun və bu dostluğu yaradan insanların böyük xidmətləri haqqında çox yaxşı danışdı. Həqiqətən Gürcüstan, Tbilisi azərbaycanlılar üçün və xüsusən Azərbaycan ziyalıları üçün həmişə doğma diyar və şəhər olubdur. Onlar uzun illər Tbilisidə, Gürcüstanda yaşayıb-yaradıblar, böyük izlər qoyublar. Bu da təsadüfi deyil. Bu ona görədir ki, Gürcüstanda, Tbilisidə azərbaycanlılar, Azərbaycanın dahi insanları həmişə mehriban mühit içərisində, dostluq şəraitində yaşayıblar, gürcü xalqının onlara göstərdiyi dostluq münasibətindən bəhrələniblər. Əgər böyük Mirzə Fətəli Axundov bütün həyat və yaradıcılığı dövründə Tbilisidə yaşayıb və orada da dünyasını dəyişibsə, demək, bu şəhər onun üçün doğma olub, bu mühit onun üçün əziz olub.

Əgər böyük mütəfəkkir və yazıçı, dahi insan Cəlil Məmmədquluzadə öz yaradıcılığının çox hissəsini Tbilisidə keçiribsə və Azərbaycan xalqı üçün, bütün Şərq aləmi üçün, müsəlman aləmi üçün əsrin əvvəlindən böyük məktəb sayılan "Molla Nəsrəddin" jurnalının nəşrinə orada başlayıbsa, bu jurnal uzun illər orada nəşr olunubsa, demək, orada bunun üçün münasib mühit olmuş, şərait olmuş, gürcü xalqı tərəfindən buna dost, mehriban münasibət göstərilmişdir. Biz minnətdarıq ki, Mirzə Fətəli Axundovun yaşadığı ev indi artıq Tbilisidə muzeyə və ziyarətgaha çevrilibdir. Cəlil Məmmədquluzadənin yaşadığı ev də muzeyə çevrilibdir və ora həm gürcülər, həm də azərbaycanlılar üçün böyük bir mədəniyyət

ocağıdır. Bütün bunlar üçün dostum və qardaşım Eduard Şevardnadzeyə təşəkkürümü bildirirəm.

Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin, Fətəli Xan Xoyskinin qəbirləri Tbilisinin ən gözəl guşələrinin birində qorunub saxlanır və bu gün həm gürcülər, həm də azərbaycanlılar üçün əziz abidəyə çevrilibdir.

Gürcüstanda, özlərinin qədim torpaqlarında 500 mindən çox azərbaycanlı da bu gün müstəqil Gürcüstan Respublikasında azad, rahat, bərabərhüquqlu vətəndaşlar kimi yaşayırlar. Bunlar və bir çox başqa faktlar Gürcüstanın dövlət müstəqilliyinin nəticəsində əldə olunubdur. Bunlar Gürcüstanın prezidenti, Azərbaycan xalqının böyük dostu Eduard Şevardnadzenin düzgün siyasətindən və xalqımıza dostluq və mehribanlıq hisslərindən irəli gəlir. Bu gün burada açdığımız monumental abidəni də biz əziz dostum və qardaşım Eduard Şevardnadzenin Azərbaycan xalqına, Bakıya xüsusi hədiyyəsi kimi qəbul edirik. Heykəlin ideyası dostumuz Georgi Caparidzenindir. Heykəlin yaradılmasının rəhbəri, ona ilham verən və bu hədiyyəni Azərbaycan xalqına təqdim edən isə dostumuz Eduard Şevardnadzedir.

Əziz dostum, əmin ola bilərsiniz ki, bu monumental abidə daim yaşayacaq. Bakının abadlaşmış bu gözəl guşəsi bundan sonra daha da yaxşılaşacaq, yaşıllıq, gül-çiçək bu guşəni daha da bəzəyəcəkdir.

Bura bakılıların, bütün azərbaycanlıların gözəl ziyarətgahı və eyni zamanda əyləncə yeri olacaqdır. Bütün bunlara görə və bu gün Azərbaycana etdiyiniz səfərə görə, əziz dostum, Sizə bir daha təşəkkür edirəm. Sizə cansağlığı, uzun ömür və bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

MƏŞHUR RƏSSAM VƏ MÜĞƏNNİ, RESPUBLİKANIN XALQ RƏSSAMI, DÖVLƏT MÜKAFATLARI LAUREATI TOĞRUL NƏRİMANBƏYOVUN YARADICILIQ GECƏSİNDƏN SONRA KONSERTİN İFAÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Opera və Balet Teatrı
12 may 1998-ci il

Mən sənin yaradıcılıq gecənin böyük müvəffəqiyyətlə keçməsini təbrik edirəm. Konsertindən çox məmnun oldum. Sənin ifanda tanınmış xarici ölkə və Azərbaycan bəstəkarlarının ariya və romansları səsləndi. Eyni zamanda həm istedadlı rəssam, həm də istedadlı müğənni olmaq fitri vergiyə malik insana xas cəhətdir. Sən bu gün gözəl oxudun, səni səmimi qəlbdən təbrik edirəm. Səni qırx ildir tanıyıram və sən hələ gənclik illərində özünü vokal sənətində də sınamısan. Azərbaycan dövlət kamera orkestri çox xoşuma gəldi. Orkestr görkəmli Azərbaycan bəstəkarları Qara Qarayevin "Yeddi gözəl" baletindən valsı, Fikrət Əmirovun "Nizami" simfoniyasının ikinci hissəsini və "Min bir gecə" baletindən Mərcanın rəqsini ifa etdi. Mən bütün musiqiçilərdən razıyam və onlara təşəkkür edirəm.

Sənə məşhur rəssam və müğənni kimi yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

Böyük uğurla keçən gecənin sonunda sənin çox yüksək səviyyədə ifa etdiyin görkəmli bəstəkar Tofiq Quliyevin "Sənə də qalmaz" mahnısı məndə xoş təəssürat oyatdı.

AZƏRBAYCANIN GÖRKƏMLİ DÖVLƏT, İCTİMAİ VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

Respublika sarayı
14 may 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bugünkü təntənəli yubiley gecəsi Azərbaycan və Dağıstan xalqlarının görkəmli oğlu Əziz Əliyevin nurlu şəxsiyyətinə, onun 100 illik yubileyinə həsr olunmuşdur. Eyni zamanda, bugünkü mərasim Dağıstan və Azərbaycan xalqlarının dostluq və qardaşlıq bayramıdır.

Biz son illər bu möhtəşəm sarayda Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin yubileylərini təntənə ilə qeyd etmişik. Bu, çox gözəl ənənədir, bugünkü nəsillərin öz tarixi keçmişinə, görkəmli şəxsiyyətlərinə hörmət və ehtiramını, təşəkkür və minnətdarlığını ifadə edir. Ancaq bugünkü təntənəli yübiley gecəsinin fərqi vardır. Bu da ondan ibarətdir ki, biz Əziz Əliyevin 100 illik yubileyini qeyd edirik, eyni zamanda Dağıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluq, qardaşlıq tarixinə yeni gözəl, parlaq səhifələr yazılır.

Aprelin 27-də Dağıstanda, Mahaçqalada Əziz Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycanın yüksək səviyyəli nümayəndə heyəti də orada iştirak etmişdir. Bu gün biz Dağıstanın yüksək səviyyəli, çox mötəbər nümayəndə heyətini Azərbaycanda qəbul edirik, Əziz Əliyevin yubileyini birlikdə qeyd edirik, eyni zamanda, Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq bayramını keçiririk.

Mən bütün Azərbaycan xalqı adından Dağıstan xalqına hörmət və ehtiramımızı bildirərək, Dağıstan Respublikasının Baş naziri Xizri Şıxsəidovun rəhbərliyi ilə bu gün Azərbaycana gəlmiş Dağıstan nümayəndə heyətini səmimi-qəlbdən salamlayıram, onlara "Xoş gəlmisiniz!" deyirəm, Dağıstan və Azərbaycan xalqlarının dostluğunun sarsılmaz olduğunu bir daha bəyan edirəm.

Dağıstan xalqına və Dağıstan nümayəndə heyətinə dərin hörmət bəsləyərək və deyəcəyim sözləri onların da dinləməsini arzu edərək, nitqimin qalan hissəsini hamımız üçün aydın olan rus dilində davam edəcəyəm.

Hörmətli qonaqlar, bizim dostlarımız!

Ümidvaram ki, siz mənim Azərbaycan dilində dediklərimi olduğu kimi başa düşdünüz. Mənim dediklərimi olduğu kimi başa düşməyiniz üçün rus dilində danışacağam, yəqin ki, həmvətənlərim məni düz başa düşəcəklər. Azərbaycanda rus dilini, demək olar, hamı bilir, ona görə də hesab edirəm ki, məni başa düşəcəklər.

Bugünkü təntənə, Əziz Əliyevin 100 illiyinə həsr olunmuş, Dağıstanda və Azərbaycanda keçirilmiş yubiley tədbirləri xalqlarımız, ölkələrimiz, dövlətlərimiz arasında, insanlar arasında olan səmimi, dostluq münasibətlərini bir daha nümayiş etdirir. Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir.

Burada Əziz Əliyevin həyat yolu haqqında çox sözlər deyildı. Mən daha çox, daha yaxşı, daha dolğun danışa bilərəm, çünki onu şəxsən tanıyırdım, bir çox illər onunla birlikdə olmuşam. Özü də mənim bildiklərimin bir çoxunu bəlkə də heç kim bilmir. Ancaq bununla belə vaxtınızı almayacağam. Hesab edirəm ki, deyilənlər tamamilə kifayətdir. Mən yalnız bəzi məqamlar üzərində dayanacağam.

Mən əminəm ki, Əziz Əliyev, – bu aylar ərzində dəfələrlə deyildiyi kimi, – Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, lap əvvəldən qeyri-adi insan idi. Onun tərcümeyi-halına diqqət yetirin. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan hərbi tibb akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək – gənclik illərində bunu heç də hər kəs bacarmazdı. Heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi. Başqa sözlə, bu qeyri-adi, istedadı ilahidən gələn insan özünün məqsədyönlülüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox

haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü.

Bizim üçün xüsusi əhəmiyyəti olan odur ki, Azərbaycan xalqın oğlu Əziz Əliyev yüksək bacarığını, fayda vermək qabiliyyətini yalnız təkcə öz respublikasında, ölkəsində nümayiş etdirməmişdir. O, müharibə illərində İranda çox məsul işi uğurla yerinə yetirmiş, Dağıstanın rəhbəri kimi son dərəcə məsuliyyətli vəzifənin öhdəsindən çox gözəl gəlmiş, Moskvada – tərkibində yaşadığımız Sovetlər İttifaqı kimi bir dövlətin paytaxtında müvəffəqiyyətlə çalışmışdır.

Bizim xalqımız üçün bunun xüsusi əhəmiyyəti var, ona görə ki, xalqımız, Azərbaycanın ən yaxşı oğulları təkcə öz ölkəsində deyil, həm də başqa ölkələrdə, respublikalarda layiqli yer tuta bilir. Bu, hər bir azərbaycanlının qəlbində çox böyük iftixar hissi doğurur.

İkinci dünya müharibəsi bəşər tarixində ən ağır müharibədir. Böyük Vətən müharibəsi faşizmə, cəhalətə, təcavüzə qarşı müharibə idi. Faşizmə qarşı vuruşanlar, qələbənin təmin olunması işinə öz töhfəsini verənlər, öz fəaliyyəti ilə bu qələbənin çalınmasına kömək edənlər, şübhəsiz, ən yüksək qiymətə və ən yüksək hörmətə layiqdirlər.

Bəli, faşist qoşunları Sovet İttifaqına hücuma keçdikdən sonra qısa bir vaxtda çox irəliləmiş və Qafqaz dağlarının ətəklərinə, Dağıstanın həndəvərinə çatmışdılar. Dağıstan istisna olmaqla, bütün Şimali Qafqaz faşist qoşunları tərəfindən işğal edilmişdi. Onlar Bakıya can atır, Bakı neftini ələ keçirmək istəyirdilər. Bu, baş tutsaydı müharibənin nəticəsi bəlkə də başqa cür olardı. Sovet ordusu, Vətəninin müdafiəsinə qalxan insanlar kütləvi qəhrəmanlıq göstərdilər. Bir neçə gün əvvəl, mayın 9-da biz alman faşizmi üzərində qələbənin 53-cü ildönümünü qeyd etdik. Biz cəbhədə vuruşmuş, arxada qələbəni təmin etmiş, faşizmin qarşısını kəsə bilmiş insanlara indiki nəslin bəslədiyi hissləri bir daha və dönə-dönə ifadə etdik. Belə görkəmli insanlardan biri də Əziz Əliyev idi.

O, ön xətdə, Dağıstanda olmuşdur. Onun qismətinə olduqca çox çətin vəzifələr düşmüş və o, bu vəzifələrin öhdəsindən uğurla gəlmişdir. 1941-ci ilin yayında, Sovet İttifaqına faşistlərin hücumu başlandıqdan az sonra sovet qoşunları Irana daxil oldular, Əziz Əliyev Azərbaycan nümayəndələrinin böyük bir qrupuna başçılıq etdi və İranda mürəkkəb şəraitdə xüsusi missiyanı yerinə yetirdi.

Bəli, vaxt gələcək və onun həmin dövrdəki fəaliyyətinin təfərrüatı da aşkara çıxarılacaqdır. Lakin, məsələn, mənə məlumdur ki, o, görkəmli Azərbaycan yazıçıları Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman

Rəhimov və bir çox başqaları ilə birlikdə orada necə cəsarətlə və ağılla iş aparırdı. Ancaq faşist qoşunları Dağıstan sərhədlərinə yaxınlaşan kimi, – orada son dərəcə mürəkkəb vəziyyət yaranmışdı, – Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstana göndərildi. Dağıstanlılar 1942-ci ilin sentyabrında onların respublikasında vəziyyətin necə olduğunu yaxşı bilirlər. Orada əvvəllər yaşamamış, işləməmiş olan bu adam oraya gəldi və qısa müddətdə bu çoxmillətli diyarı öz ətrafında sıx birləşdirməyə, hamını öz ətrafına toplamağa və onları Dağıstanın müdafiəsinə, deməli, həm də Zaqafqaziyanın, Bakı neftinin müdafiəsinə qaldırmağa müvəffəq oldu. Bu, böyük iş idi və o, həmin işi gördü. Bu işi o özünün qeyri-adi insani keyfiyyətləri, istedadı, ağıl-zəkası sayəsində həyata keçirdi.

Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycanın dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi. Bütün bu keyfiyyətlər qısa müddətdə Dağıstanda vəziyyəti sabitləşdirməkdə, bu respublikanın xalqını Qafqazın müdafiəsi üçün birləşdirməkdə ona kömək etdi. Dağıstanlılar Əziz Əliyev başda olmaqla və bizim ordumuzla, o vaxtkı sovet ordusu ilə birlikdə çox böyük vəzifəni yerinə yetirdilər. Onlar Qafqazı müdafiə etdilər, faşist qoşunlarını irəliləməyə qoymadılar, Bakı neftini xilas etdilər.

Təbii ki, bütün bunlar ali komandanlığın, qoşunların, Qafqazın müdafiəsinə səfərbər edilmiş bütün şəxslərin çox böyük, qəhrəmancasına fəaliyyətinin nəticəsi idi. Lakin Əziz Əliyev başda olmaqla dağıstanlıların töhfəsi də çox böyük və sanballı olmuşdur.

Sonra Əziz Əliyev Moskvada işlədi. Daha sonra, 50-ci ildə onu yenidən Azərbaycana qaytardılar, burada Nazirlər Soveti sədrinin müavini işlədi, bir il sonra isə bütün vəzifələrdən çıxardılar, partiya cəzası verdilər, beləliklə də, əsilində ona qarşı cinayət etdilər. Mən bunu xatırlayıram.

İndi deyə bilərik ki, onun çox çətin, ancaq eyni zamanda xoşbəxt taleyi olubdur. O, öz həyat yolunda bir çox çətinliklərlə, maneələrlə rastlaşmış, ancaq onları aradan qaldırmışdır. Ədalətsizliklə də qarşılaşmış, amma ruhdan düşməmişdir.

Əziz Əliyev İrəvanda anadan olmuş və artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırıma, deportasiyaya məruz qalmışdır. O, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı çox gənc yaşında özü görmüş və doğma diyarını tərk edərək Naxçıvana, oradan da Bakıya köçməyə məcbur olmuşdur. O çalışır, çox iş görürdü, əvəzində 40-cı ildə ona

töhmət elan edirlər ki, guya tibb institutunu antisovet ünsürlərdən, millətçilərdən və sairədən təmizləməmişdir.

O, müharibə vaxtı İranda, Dağıstanda nə qədər böyük iş görmüş, Moskvada müvəffəqiyyətlə işləmiş, sonra vətənə qayıtmışdı. Bir il sonra isə onu işdən çıxarmışdılar ki, guya valideynlərinin sosial mənşəyini, bacısının İranda olmasını gizlətmişdir. Bu paradoks indi artıq bizə məlumdur.

Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun o vaxtkı rejimin bilavasitə Mir Cəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi.

Əziz Əliyevin heç bir günahı yox idi. Hamı yaxşı bilirdi ki, əri kimi özü də İran təəbəsi olan böyük bacısı 1938-ci ildə, İran təəbəli azərbaycanlılar buradan çıxarılan vaxt İrana köçməyə məcbur olmuşdu. Bu məlum idi və heç kim bunu gizlətmirdi. Onun isə boynuna qoyurdular ki, bu faktı gizlətmişdir.

Onun ailəsinin sosial mənşəyi də məlum idi. 1926-cı ildə o, Kommunist Partiyasına daxil olmuş, yüksək vəzifələrdə işləmiş, SSRİ, Azərbaycan, Dağıstan ali sovetlərinin deputatı seçilmişdi və sairə. O, müharibə zamanı necə hünər göstərmişdir. 1951-ci ildə isə birdən-birə deyirlər ki, guya o, özünün sosial mənşəyini gizlətmişdir. Onu repressiyaya məruz qoymaq üçün sadəcə olaraq nəyəsə öcəşmək lazım idi.

Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm. O vaxt mənim Əziz Əliyev ilə qohumluq münasibətlərim yox idi və bu gün geniş ictimaiyyətə bəlkə də ilk dəfə deyəcəyəm ki, mərhum həyat yoldaşım Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 50-ci ildə oradan Bakıya qayıdandan sonra, şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi – anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə kirayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə mən ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev işdən çıxarıldıqda Zərifə xanımla biz görüşdük və

o mənə dedi: “Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında işləyirsən və bu, sənə zərər gətirə bilər. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş”. Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi.

Bundan az sonra, – həmin vaxtlar Əziz Əliyev ailəsini isə izləyir və onu həbsə almaq üçün fəal məşğul olurdular, – o vaxtkı dövlət təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: “Sən cavan və bacarıqlı işçisən, Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa, biz səni işdən çıxarmalı olacağıq”. Orqanlarda işlədiyimə və məsələnin nə yerdə olduğunu bildiyimə görə, ondan belə ittihamlar üçün nə kimi əsaslar olduğunu soruşdum. O, məni danlayıb dedi: “Sən hələ cavansan və başa düşmürsən. Yoldaş Mircəfər Bağırov göstəriş verib və biz onu yerinə yetirməliyik”.

Aradan bir il keçdi. Mənim əlaqələrim qeyri-leqal xarakter aldı, əks halda başqa cür mümkün deyildi. Bir ildən sonra, 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: “Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki, işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda, ciddi şəkildə cəzalandırılacaqsan”. Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər.

Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxardılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə – Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar. Bundan sonra mən, necə deyərlər, azadlığa çıxdım və 1954-cü ilin noyabrında öz ailə həyatımı qura bildim.

Qohum olduğumuz illərdə mən Əziz Əliyev ilə çox yaxından ünsiyyət saxlayırdım. Açığını deyim ki, bütün burada deyilənlərlə yanaşı, o, həm də olduqca gözəl insan idi. Bir insan kimi, bir ata kimi olduqca gözəl adam idi. Sadə, məhrəm, ağıllı həmsöhbət olan bu insan tarixdən, ədəbiyyat və incəsənətdən çox şey bilirdi. Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqo-

mayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi munasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi.

Əlbəttə, o, vaxtilə məruz qaldığı repressiyalara görə son illərdə çox həyəcan keçirirdi. Lakin, bununla yanaşı, Əziz Əliyev ona qarşı ədalətsizlik edərək repressiya törədənləri də, onların özlərinin nə kimi cəzalar çəkdiyini də görmüşdür. O, nəinki Mircəfər Bağırovun tutulduğunu, həm də 1956-cı ildə Bakıda onun və digər cinayətkarların məhkəmə prosesini də görmüşdür.

Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki, Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün, tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən, Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq, ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat bax, belədir.

Bütün bunları ona görə deyirəm ki, öz təəssüratlarımı bölüşmək istəyirəm, həmçinin bildirmək üçün ki, keçmişdə bizim çox xoş, çox yaxşı münasibətlərimiz olubdur, biz onları qiymətləndirməli və unutmamalıyıq. Amma keçmişdə çox ağır hallar da olubdur. Biz elə hallara gərək heç zaman yol verməyək. Xalqımız XIX və XX əsrlər ərzində, 1918-ci ildə soyqırımlara məruz qalıbdır. Sonra Ermənistanda yaşamış azərbaycanlıları 1948-ci ildən etibarən Stalinin xüsusi qərarı ilə yenə də Mircəfər Bağırovun iştirakı ilə zor gücünə Azərbaycana deportasiya etmişlər. Birinci deportasiya əsrin əvvəllərində başlanmışdır. 1918-ci ildə Əziz Əliyevin ailəsi soyqırıma məruz qalaraq deportasiya edilmişdir. Onun orada qalan nəsilləri 1948–1953-cü illərdə köçürülmüşlər. Ermənistanda qalanlar isə 1988-ci ildə Ermənistanla Azərbaycan arasında münaqişə başlandıqda gözümçıxdıya salınmış, məhv edilmiş, zorla oradan çıxarılmışlar.

20-ci, 30-cu, 40-cı, 50-ci illərin repressiyaları totalitar sovet rejiminin bütün sovet xalqına qarşı, xüsusən Azərbaycan xalqına qarşı törətdiyi ən ağır cinayətdir. 37–38-ci illərdə Azərbaycan xalqının məruz qaldığı repressiyalar, zənnimcə, heç bir respublikada olmayıbdır. Azərbaycanın ən görkəmli elm və mədəniyyət, təhsil xadimləri məhv edilmişlər. Bunu da unutmaq olmaz. Bununla birlikdə, belə hallar bir daha təkrar edilməməlidir.

Bu gün Azərbaycan müstəqil respublikadır. İndi biz azad insanlarıq. O illərdə çalışan, Azərbaycan elmini, təhsilini, səhiyyəsini, iqtisadi potensialını və sənayesini yaratmış insanlar Azərbaycanın bugünkü müstəqilliyinin bünövrəsini qoymuşlar. Biz onları unutmamalıyıq, onları xatırlamalı, onların xidmətlərini lazımınca qiymətləndirməliyik. Bu adamlar arasında Əziz Əliyev də var.

Mən çıxışımın əvvəlində dedim və bir daha demək istəyirəm ki, bugünkü gün Dağıstan və Azərbaycan xalqları arasında dostluğun parlaq bir səhifəsidir. Xalqlarımız həmişə dostluq etmişlər və indi biz bu dostluğu, münasibətlərimizi möhkəmləndiririk. Ötən ilin noyabrında biz Qafqazın böyük oğlu, bütün Qafqaz xalqlarının görkəmli qəhrəmanı Şeyx Şamilin 200 illiyini birlikdə qeyd etdik. Xalq Məclisinin sədri Muxu Əliyev başda olmaqla Dağıstandan Bakıya böyük bir nümayəndə heyəti gəlmişdi. Bizim nümayəndə heyəti Mahaçqalaya getmişdi. Biz bir yerdə olduq və Şeyx Şamil bizim ümumi qəhrəmanımızdır. Təsadüfi deyil ki, həmin gecədə Şeyx Şamilin indi Şəki rayonunda yaşayan nəticəsi Məryət Əsgərova da çıxış etdi.

Biz həmişə bir-birimizin yanında olmuşuq və azərbaycanlılarla dağıstanlıları bir-birindən heç vaxt ayırmamışıq. Əslən Dağıstan xalqlarından olan adamlar bu gün Azərbaycanda tamhüquqlu vətəndaşlar kimi yaşayırlar. Dağıstanda da azərbaycanlılar yaşayırlar, təkcə azərbaycanlılar deyil, başqa millətlər də yaşayırlar. Dağıstanda yaşayanların hamısı bizim qardaşlarımız, dostlarımızdır. Hesab edirəm ki, Azərbaycanda yaşayanların da hamısı bütün dağıstanlıların qardaşları və dostlarıdır.

Mən artıq dedim ki, Əziz Əliyev kimi görkəmli insanlar Dağıstan və Azərbaycan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsinə çox böyük töhfə vermişlər. İndi bu işə biz də töhfəmizi verməliyik. Ona görə ki, heç nə bir yerdə donub qalmır, hər şey inkişafda, hərəkətdədir. Həyatımızın indiki dövrü keçmişdəkindən – biz bir dövlətin, bir ölkənin tərkibində olduğumuz dövrdəkindən fərqlidir. İndi Azərbaycan müstəqil dövlətdir. Respublika olan Dağıstan eyni zamanda Rusiya Federasiyasının bir hissəsidir. Bizim Dağıstanla olan münasibətlərimiz – Rusiya ilə dostluq münasibətləri deməkdir. Biz Rusiya, rus xalqı ilə həmişə dostluq və mehriban münasibətlər şəraitində yaşamışıq. İndi də bu cür münasibətlər şəraitində yaşayırıq. Biz Azərbaycan ilə Rusiya Federasiyasında dostluq və əməkdaşlığı gələcəkdə də möhkəmləndirəcəyik.

Dağıstan özünün coğrafi mövqeyi, Azərbaycana xüsusi yaxınlığı baxımından Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq müna-

sibətlərinin daha da inkişaf etdirilməsində xüsusi rol oynayır. Biz Dağıstanla Azərbaycan arasında dostluğu nə qədər çox möhkəmləndirsək, Rusiya Federasiyası ilə Azərbaycan arasındakı dostluq da bir o qədər möhkəm olacaqdır.

Keçmişimizə dair gözəl nümunələr çoxdur, bugünkü həyatımızda da xeyirxah, yaxşı cəhətlər az deyildir. Mən buna böyük hörmət hissi ilə yanaşıram ki, Dağıstanın həm Dövlət Şurası, həm hökuməti, həm də parlamenti, Məhəmmədəli Məhəmmədov da, Xizri Şıxsəidov da, Muxu Əliyev də, bütün başqa dostlarımız da Azərbaycanla münasibətləri möhkəmləndirir və inkişaf etdirirlər. Əziz dostlar, Sizi əmin etmək istəyirəm ki, bu dostluğun daha da möhkəm, sarsılmaz və qırılmaz olması üçün biz Azərbaycanda hər şeyi edirik və bundan sonra da edəcəyik.

Bizim necə birgə tariximiz olduğunu sübut etməyə ehtiyac yoxdur. Gözəl şair Fazu Əliyevanın dediyi kimi, Dağıstan qadınlarının Azərbaycan kişilərini və Azərbaycan kişilərinin, cavanlarının Dağıstan gözəllərini necə sevdiklərini sübut etməyə lüzum yoxdur. Gözəl deyilmişdir, özü də bunu belə bir gözəl dağlı qızı, bizim böyük dostumuz Rəsul Həmzətovla birlikdə öz yaradıcılığı, şeirləri ilə Dağıstan xalqlarını şöhrətləndirən gözəl şair Fazu Əliyeva demişdir.

Bütün bunlar bizim ümumi, misilsiz sərvətimizdir. Bizim borcumuz, vəzifəmiz, gələcək nəsillərin borcu və vəzifəsi isə bu sərvəti, nə varsa hamısını qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirməkdir. Əminəm ki, Dağıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əbədi olacaqdır. Əziz Əliyev bu dostluğun simvoludur. Onun davamçıları olan biz isə bu dostluğun əbədi olması üçün hər şeyi edirik.

Azərbaycan xalqına bəslədiyi böyük hisslərə, Əziz Əliyevin xatirəsinə göstərdiyi diqqətə görə Dağıstan xalqına bir daha ən dərin minnətdarlığımı bildirirəm.

Yaşasın Dağıstan! Yaşasın Azərbaycan! Dağıstan və Azərbaycan xalqlarının əbədi və sarsılmaz dostluğuna eşq olsun!

RUSİYANIN MƏŞHUR RƏSSAMI NİKAS SAFRONOVUN SƏRGİSİNİN AÇILIŞINDA ÇIXIŞ

R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
15 may 1998-ci il

Hörmətli xanımlar və cənablar, qonaqlar, dostlar!

Mən sizin hamınızı bugünkü hadisə münasibətilə təbrik edirəm. Hörmətli Nikas Safronov, Azərbaycanda öz sərginizi açmağı qərara aldığınıza görə sizi xüsusi təbrik edirəm.

Həqiqətən, rəssam Nikas Safronovun adı çox istedadlı, özgün, orijinal bir rəssam kimi qısa vaxtda bütün dünyada məşhur olmuşdur. O, qısa dövr ərzində bir çox yüksək dəyərli təsviri sənət əsərləri yaratmışdır. Buna görə rəssam Nikas Safronovun Azərbaycana diqqət yetirməsi və öz rəsmlərini Azərbaycanda nümayiş etdirmək arzusu respublikamıza, ölkəmizə, xalqımıza diqqət göstərilməsi deməkdir. Azərbaycan xalqı isə ümumiyyətlə incəsənəti, xüsusən də təsviri sənəti qiymətləndirir. Azərbaycanda bir çox görkəmli rəssamlarımız var, onlar öz rəsm əsərləri sayəsində dünya şöhrəti qazanmışlar. Azərbaycanın rəngkarlıq, təsviri sənət məktəbi dünyada layiqli yer tutmuşdur. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, tarixən qısa bir vaxtda Azərbaycanda gözəl, güclü təsviri sənət məktəbi, rəngkarlıq məktəbi təşəkkül taparaq yaranmışdır.

Azərbaycan qədim mədəniyyət ölkəsidir, Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox olduqca qiymətli mədəniyyət əsərləri, memarlıq, sənət abidələri, olduqca dəyərli təsviri sənət əsərləri bəxş etmişdir. Lakin keçmişdə, uzaq keçmişdə Azərbaycanın təsviri sənəti öz ifadəsini özgün, milli sənətdə, miniatür sənətində tapmışdır. Buna görə də fəxr edirik ki, Azərbaycan xalqı təsviri sənətdə öz yoluna, öz dəst-xəttinə malikdir. Biz onunla da fəxr edirik ki, bizim Sultan Məhəmməd kimi dahi rəssamımız var. O, 500 il bundan əvvəl misilsiz miniatür sənəti əsərləri yaratmışdır. Biz bununla fəxr edirik. Lakin bununla bərabər, biz şadıq ki, Azərbaycan rəssamları, Azərbaycan xalqı Avropa rəngkarlıq məktəbinə də yaxınlaşmışlar. Bu, həm İntibah dövrünün, həm də sonrakı dövrlərin sə-

nət ustalarının təsiri altında və diqqətəlayiq rus rəngkarlarının təsiri altında baş vermişdir. Odur ki, XX əsrdə Azərbaycanda belə güclü rəngkarlıq əmələ gəlmişdir və rəngkarlarımızın əsərləri nəinki Azərbaycan muzeylərini bəzəyir, eləcə də Azərbaycan incəsənətini dünyada layiqincə təmsil edir.

Bütün bunlarda rus sənət ustalarının, Rusiya rəngkarlığının göstərdiyi təsirin böyük əhəmiyyəti var. Azərbaycanlılar onların təsiri altında və Moskvada, Leninqradda rəssamlıq institutlarında və akademiyalarında onlardan öyrənərək, yüksək professional təhsil almış, rəngkarlıq ustaları, təsviri sənət ustaları olmuşlar. Buna görə də indi Azərbaycanda gözəl mühit, gözəl şərait mövcuddur və bu sənət növü dərk edilir. Azərbaycanda rəngkarlığı və təbii olaraq, öz ustalarımızın və digər ölkələrin ustalarının əsərlərini yüksək qiymətləndirirlər. Bununla əlaqədar Nikas Safronovun Azərbaycanda açılmış sərgisi xalqımızın estetik səviyyəsini daha da yüksəltmək, adamlarımızı Nikas Safronovun simasında təsviri sənətin yeni nümunələri ilə tanış etmək üçün çox yaxşı imkandır.

Şübhə etmirəm ki, biz burada gözəl əsərlər görəcəyik. Ona da şübhə etmirəm ki, bakılılar bu sərgiyə gələrək, bu sənət əsərləri ilə təmasdan olduqca böyük zövq alacaqlar. Mən şübhə etmirəm ki, Nikas Safronov Azərbaycanda, Bakıda özünün bu sərgisi ilə öz məşhurluğunun səviyyəsini daha da qaldıracaqdır.

Təkrar edirəm, Azərbaycan xalqı sənətin gözəl nümunələrini başa düşür, qiymətləndirir. Mən belə düşünürəm ki, onlar sərgiyə təqdim etdiyiniz rəsmlərə görə sizə minnətdar olacaqlar.

Mən sizi ürəkdən təbrik edirəm, sizə uğurlar, müvəffəqiyyətlər arzulayıram. Əziz Nikas, sizə gələcəkdə yaradıcılıq uğurları diləyirəm. Siz gəncsiniz, qarşınızda hələ böyük yaradıcılıq yolu var. Şübhə etmirəm ki, gələcək sizə daha çox yeni uğurlar, yeni müvəffəqiyyətlər gətirəcəkdir.

Bu imkandan istifadə edərək, rəsm əsərinizə görə, mənim portretimi çəkdiyinizə görə sizə təşəkkür edirəm. Əlbəttə, mən bütün bunlara çox təvazökarlıqla yanaşıram. Bunu bu adamlar və Azərbaycan rəssamları da bilirlər. Bununla belə, buna mane olmağa haqqım yoxdur.

Buna görə çox sağ olun. Mən bunu sizin tərəfinizdən şəxsən mənə böyük diqqətin ifadəsi kimi qiymətləndirirəm.

Mən Azərbaycan Rəssamlar İttifaqına mənə bağışladığınız bu rəsm əsərinə görə təşəkkür edirəm. Bu mənzərə rəsmi, həqiqətən nadir bir əsərdir. Naxçıvanda olmayan, Naxçıvanı əhatə edən dağları görməyən bu əsərin əhəmiyyətini tam qiymətləndirə bilməz. Yəqin ki, mən bu əsərin

həmin qeyri-adi dağı – İlanlı dağı nə dərəcədə dəqiq əks etdirdiyinə hələ sonra da baxacağam.

Mən bir çox ölkələrdə olmuşam, çox dağlar görmüşəm. Amma Naxçıvandakı kimi dağlara və İlanlı dağ kimi dağa şəxsən mən rast gəlməmişəm. Bəlkə də daha maraqlı, daha gözəl digər dağlar var, lakin bu dağ özünəməxsusluğu ilə fərqlənir, belə dağı təbiətin özü yaradıbdır. Maraqlıdır ki, günün müxtəlif vaxtlarında, günəş şüalarından asılı olaraq bu dağın rəngi köklü surətdə dəyişir. Bu nə isə nadir bir haldır. Mən bu dağın zirvəsinə qalxmamışam. Bu, çox çətindir. Amma uşaqlıq, gənclik çağlarımda mən bu dağın ətəklərində dəfələrlə olmuşam və həmişə də heyran qalmışam.

Bu əsərə görə çox sağ olun.

Azərbaycan rəssamlarına yeni uğurlar arzulayıram. Bayaq dedim ki, Azərbaycanda gözəl təsviri sənət məktəbi, gözəl rəssamlar, gözəl ustalar var. Mən sizə yeni yaradıcılıq nailiyyətləri arzulayıram. Sağ olun!

"İMPERİYA RUS BALETİ" ANSAMBLININ BƏDİİ RƏHBƏRİ, ƏFSANƏVİ BALERİNA MAYYA PLİSETSKAYA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident sarayı
24 may 1998-ci il

Heydər Əliyev: Mayya Mixaylovna, mən olduqca şadam ki, Siz bizə, ölkəmizə gəldiniz. Həmişə istəyirdim ki, Siz Azərbaycanda çıxış edəsiniz, lakin bu, hətta SSRİ-də yaşadığımız vaxtlarda da mümkün olmurdu. İndi, biz müxtəlif dövlətlərdə yaşadığımız bir vaxtda siz Bakıya gəlmisiniz. Mən bunu çox yüksək qiymətləndirir və sizə təşəkkür edirəm. Sizinlə görüşə çox şadam və belə düşünürəm ki, Azərbaycanda sizin istedadınızın pərəstişkarları olduqca çoxdur və onlar sizin istedadınızdan və sənətinizdən ilham almaq kimi nadir imkana malik olacaqlar. Bu, ölkəmiz üçün, xalqımız üçün böyük hadisədir. Bilirəm ki, Sizi burada lap çoxdan və səbirsizliklə gözləyirlər. Bu gün axşam biz sizin parlaq çıxışınızın şahidləri olacağıq.

Mayya Plisetskaya: Cənab prezident, mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə Sizə böyük təşəkkürümü bildirirəm. Mən Sizi, XX yüzilliyin görkəmli siyasi xadimini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, şəxsi səadət, uzun ömür, işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan paytaxtında, Bakıda olmağıma çox şadam. Çunki axırıncı dəfə burada qırx il əvvəl olmuşdum. Onda biz vahid ittifaqın tərkibində yaşayırdıq. İndi sizin müstəqil dövlətiniz var. Mən bunu alqışlayıram. Burada kiçik bir vaxt ərzində çox böyük tərəqqi baş verdiyini görürəm. Mən çox-çox şadam.

Heydər Əliyev: Xatırimdədir, biz Sizinlə Parisdə, məşhur musiqiçi, Azərbaycan xalqının dostu Mstislav Rostropoviçin yubileyi qeyd edilən vaxt görüşmüşdük. Bilirsiniz, görkəmli musiqiçi iyunun 7-də Bakıya gəlir və on gün burada qalacaqdır. O, Azərbaycanın musiqi məktəblərində ustad dərsləri keçəcək, bizim orkestrlərlə görüşəcəkdir.

Mstislav Rostropoviç bakılıdır, burada doğulub, Bakıda yaşayıb, mənim köhnə dostumdur. Rostropoviç Parisdə 70 illiyini qeyd edərkən o

və Fransa prezidenti Jak Şirak mənə dəvət göndərmişdilər. Mən bu hadisə ilə əlaqədar xüsusi olaraq Parisə gəldim.

Azərbaycan xalqı fəxr edir ki, bizim belə məşhur müsiqiçimiz, böyük mədəniyyət xadimimiz var.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyim dövrdə mən Böyük Teatrın fəaliyyətini izləmişəm, onun kollektivi ilə sıx, mehriban münasibətlərim olub, dəfələrlə teatrın kollektivinə və bir çox digər sovet incəsənəti xadimlərinə böyük kömək göstərmişəm.

Azərbaycanda yaxşı balet məktəbi var. Hələ sovet dövründə mən Azərbaycana rəhbərlik edərkən çox istəyirdim ki, Azərbaycanın milli baleti inkişaf etsin. Bizdə yaxşı balerinalar çoxdur. Onların arasında Qəmər Almaszadə, Leyla Vəkilova, Rəfiqə Axundova, Tamilla Şirəliyeva, Çimnaz Babayeva və başqaları var. Lakin çox istərdim ki, balet sənətinə imkan daxilində daha çox istedadlı və qabiliyyətli adamlar yiyələnsinlər, yeni adlar, yeni ulduzlar meydana çıxsın... Buna görə də 70-ci illərin ortalarında mən Bakıda bütöv bir balet məktəbi kompleksi tikdirdim. Bu məktəbin bədii rəhbəri Leyla Vəkilovadır. İndi, respublikaya yenidən rəhbərlik etdiyim vaxtda Azərbaycan baleti yenidən dirçəlməkdədir. Buna görə də sizin gəlişiniz Azərbaycan milli baletinin inkişafına təkan verəcəkdir.

M a y y a P l i s e t s k a y a : Heydər Əliyeviç, səmimi qəbula və qonaqpərvərlik və diqqətə görə Sizə bir daha təşəkkür edirəm. Ümidvar olduğumu bildirirəm ki, mənim Bakıya indiki səfərim axırıncı səfər olmayacaqdır.

“İMPERİYA RUS BALETİ” ANSAMBLININ KONSERTİNDƏN SONRA MAYYA PLİSETSKAYA VƏ ANSAMBLIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika sarayı
24 may 1998-ci il

Heydər Əliyev: Əziz Mayya Plisetskaya! Əziz dostlarımız, qonaqlarımız! Mən sizi əla çıxışınız və tamaşaçılara, bizim hamımıza bəxş etdiyiniz sevinc münasibətilə ürəkdən təbrik edirəm.

Gözəl tamaşanıza görə, gözəl rəqslərə görə, heyrətamiz sənətinizə görə və indiyədək yaratmış olduğunuz hər şeyə görə, bu gün Azərbaycan tamaşaçıları üçün belə parlaq ifanıza görə çox sağ olun.

Mayya Plisetskaya: Biz xoşbəxtik, cənab prezident.

Heydər Əliyev: Çox sağ olun, hər şey gözəl idi. Mən sizi səhnədə çoxdan görməmişdim, aradan çox-çox illər ötmüşdür. Sizi səhnədə yenidən görməyimə şadam. Yadınızdadırmı, keçən il biz sizinlə Parisdə görüşmüşdük. Sizin gözəl ansamblınız, gözəl adamlarınız var, onlar çox yaxşı rəqs edirlər. Lakin onlar sizin rəhbərliyiniz altında rəqs edəndə bu, parlaq təsir bağışlayır. Görünür, onlar sizdən çox şey götürmüşlər. Odur ki, sizi belə yaxşı ansambla malik olduğunuza görə təbrik edirəm. Siz əfsanəsiniz, siz XX əsrin əfsanəsisiniz, dünyanın görkəmli balerinasınız, siz Rusiyanın balet sənətinin fəxrisiniz, təkcə Rusiyanın deyil, eləcə də bütün dünyanın. Biz sizin istedadınıza, sənətinizə, yaratdığınız hər bir şeyə həmişə heyran olmuşuq. Bu gün də heyranıq ki, siz yorulmadan işləyirsiniz, çalışırsınız və öz sənətinizi bütün dünyaya daha tez-tez nümayiş etdirirsiniz.

Bizim Bakıya, Azərbaycana gəldiyinizə və bizə çox böyük zövq verdiyinizə görə sizə təşəkkür edirəm. Ümidvaram, tamaşaçıların reaksiyasından hiss etdiniz ki, Azərbaycanda baleti sevirlər, Azərbaycanda baleti qiymətləndirirlər və Azərbaycanda görkəmli balerina Mayya Plisetskayanı hədsiz dərəcədə sevirlər.

Mayya Plisetskaya: Səmimi təbriklərinizə, ünvanımıza deyilmiş xoş sözlərə görə Sizə ürəkdən təşəkkür edirəm. Sizin gözəl xalqınız və gözəl Bakı şəhəriniz məndə böyük təəssürat yaratdı.

Gideminas Taranda (ansamblın solisti): Hörmətli cənab prezident! Biz də Sizi və Azərbaycan Xalq Cümhuriyyətinin bir neçə gündən sonra qeyd edəcəyiniz 80 illik yubileyi münasibətilə ölkənizi təbrik edirik. Sizə səmimi qəlbdən möhkəm cansağlığı və güclü ölkə qurmağı arzulayırıq.

Heydər Əliyev: Sağ olun, gecəniz xeyrə qalsın.Gələn görüşlərədək.

ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA "İSTİQLAL" ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ

Prezident iqamətgahı
26 may 1998-ci il

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubileyini bayram edirik. Bu yubileylə əlaqədar son aylar müxtəlif tədbirlər, təntənəli mərasimlər keçirilir. Milli Məclisin bugünkü iclası da xüsusən buna həsr olunubdur. Mən indi Milli Məclisin iclasından gəlirəm. Sabah Respublika sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş Ümumrespublika təntənəli mərasimi keçiriləcəkdir. Beləliklə, biz Azərbaycanın müstəqil dövlət kimi yaşamasını bir daha dünyaya nümayiş etdiririk, onu təsdiq edirik və sübut edirik.

Azərbaycan müstəqil bir dövlət kimi öz atributlarını yaradıbdır. Dövlət atributlarından biri də müstəqil Azərbaycanın dövlət mükafatlarıdır. Bunlar da ordenlərdən, medallardan, milli qəhrəman adı və bu adla əlaqədar səkkizguşəli Qızıl Ulduz nişanından ibarətdir.

Biz respublikamızın görkəmli insanlarının bir hissəsini Azərbaycanın ordenləri və medalları ilə təltif etmişik. Təltif olunanların əksəriyyəti Azərbaycanın torpaqlarının Ermənistan silahlı qüvvələrinin təcavüzündən qorunması ilə əlaqədar döyüşlərdə iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmiş, fərqlənmiş insanlardır. Bununla yanaşı, onların arasında Azərbaycanın elm, mədəniyyət, incəsənət sahəsində görkəmli xidmətlər göstərmiş insanlar da vardır.

Bilirsiniz ki, Azərbaycanın milli qəhrəmanlarının bir dəstəsinə Qızıl Ulduz nişanını artıq təqdim etmişəm. Azərbaycanın bir neçə ordeni vardır. Onlardan ən yüksəyi Azərbaycanın "İstiqlal" ordenidir. "İstiqlal" ordeni ilə təltif olunanlar yalnız Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət xadimləridir. Bu da təsadüfi deyildir, təbiidir. Çünki Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizələr müxtəlif yollarla gedib-

dir. Ancaq Azərbaycanın milli azadlığı, istiqlaliyyəti yolunda ən çox bizim ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz xidmətlər göstəribdir. Çünki əgər biz 70 illik totalitar rejim çərçivəsində milli ədəbiyyatımızı, mədəniyyətimizi, dilimizi, adət-ənənələrimizi qoruyub saxlaya bilmişiksə, hesab edirəm, bunlar böyük nailiyyətlərdir. Millət birinci növbədə bu amillərə görə millətliyini təsdiq edir, millət olur və bir millət kimi tanınır.

Bizim mədəniyyət, incəsənət xadimlərimiz, yazıçılarımız, şairlərimiz, alimlərimiz bu sahədə böyük xidmətlər göstəriblər. Əsrimizin ötən bütün illərindəki milli ənənələrimiz, ana dilimiz, milliliyimiz, adət-ənənələrimiz məhz onların əsərlərində yaşayıbdır. Bunlar böyük nailiyyətlərdir. Bununla yanaşı bizim yazıçılarımız, şairlərimiz, rəssamlarımız, incəsənət xadimlərimiz öz əsərləri ilə insanları daim milli ruhda tərbiyə etməyə çalışıblar və buna da nail olublar. İnsanlarda milli ruhun yaşamasının özü çox böyük nailiyyətdir. Amma yaranan əsərlər bu milli ruhu nəinki yaşadıb, hətta inkişaf etdiribdir. Milli oyanış, dirçəliş prosesində də bizim yazıçılarımızın, şairlərimizin, incəsənət xadimlərimizin, musiqimizin, mahnılarımızın böyük xidmətləri olubdur.

Məhz buna görə də təsadüfi deyil ki, "İstiqlal" ordeni – Azərbaycanın ən yüksək ordeni ilə ilk təltif olunanlar xalqımızın yazıçıları, şairləri, mədəniyyət, incəsənət xadimləridir.

Mən bu gün sizi – təltif olunanları buraya dəvət etmişəm. Görürəm ki, təltif olunanlarla yanaşı, onların həmkarları da buraya gəliblər. Yəqin ki, təltif olunanlar kimi, onlar da sevinirlər. Güman edirəm ki, "İstiqlal" ordeninə layiq görülən insanlar bu yüksək ordeni onların yaradıcılığına verilən qiymət kimi qəbul edirlər. Belə hesab edirəm ki, "İstiqlal" ordeni ilə təltif olunanlarla yanaşı, bizim mədəniyyət xadimlərimizin bir qismi də məhz ona görə burada iştirak edir.

Əziz dostlar, Azərbaycanın ilk ən yüksək ordeni – "İstiqlal" ordeni ilə təltif olunmağınız münasibətilə mən sizi təbrik edirəm. Sizə, Azərbaycanın bütün mədəniyyət, incəsənət xadimlərinə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sizi təbrik edirəm.

Görüşdə şairə Mahirə Abdullayeva, şair Əjdər Ol, yazıçı-jurnalist Səyyad Aran, filologiya elmləri doktoru, prof.Nizami Cəfərov, tənqidçi Şəlalə Həsənova, yazıçı, filologiya elmləri doktoru, prof. Rəfael Hüseynov, şair Musa Urud, şair İlqar İlkin, Dəyanət Osmanlı, Salam Sarvan da çıxış etmişlər.

RESPUBLİKA SƏHİYYƏ NAZİRLİYİNİN MƏRKƏZİ KLİNİK XƏSTƏXANASINDA GÖRKƏMLİ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

26 may 1998-ci il

H e y d ə r Ə l i y e v: Salam Tofiq müəllim. Mən səni təbrik etməyə gəlmişəm. Mən səni 80 yaşın tamam olanda "İstiqlal" ordeni ilə təltif etmişəm. Bu, Azərbaycanın ən yüksək ordenidir. Mən bu gün bir qrup görkəmli ədəbiyyat və incəsənət xadimlərinə ordenləri təqdim etdim. Ancaq mənə dedilər ki, Tofiq Quliyev xəstəxanadadır. Fikirləşdim ki, bu ordenləri bunlara təqdim etmişəm, amma ona təqdim etməsəm olmaz. Ona görə də onlara orden təqdim edəndən sonra bura, sənin yanına gəlmişəm. Birinci, ona görə ki, səndən hal-əhval tutum, görüm nə var, nə yox. İkinci də, həmin "İstiqlal" ordenini sənə də təqdim etmək istəyirəm. Bu, müstəqil Azərbaycanın ilk, ən yüksək ordenidir. Mən sənə cansağlığı arzu edirəm.

Səhiyyə naziri Əli İnsanov mənə məlumat veribdir – nə müalicə lazımdır, edirlər. İnşallah, tezliklə ayağa duracaqsan, yenə də sağ-salamat olacaq, mahnılar bəstələyəcəksən, əsərlər yazacaqsan və sənin lə yenə də mərasimlərdə görüşəcəyik. Çox sağ ol, bayramın mübarək olsun.

T o f i q Q u l i y e v (*xalq artisti, bəstəkar*): Çox sağ olun, cənab prezident. Vəziyyətimlə yaxından maraqlandığınıza, ölkəmizin mədəniyyət və incəsənətinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sizi 75 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Macarıstan prezidenti tərəfindən Qızıl medalla təltif olunmağınız münasibətilə də Sizi ürəkdən təbrik edir, uzun ömür, cansağlığı arzulayıram.

C ö v d ə t H a c ı y e v (*xalq artisti, bəstəkar):* Cənab prezident, bu, bizim üçün çox əlamətdardır. Bu günlərdə həm Sizin yubileyiniz, həm Tofiq Quliyevin orden alması, həm də mənim orden almağım hamımızı sevindirir. Tofiq çox gözəl musiqiçidir, insandır, yoldaşdır. O, respublikamızda estrada musiqisinin əsasını qoymuş, bir sıra filmlərə çox gözəl musiqi yazmışdır. Mənim konservatoriyaya daxil olmağıma əsas səbəb-

kar Tofiq Quliyev olmuşdur. O, çox xeyirxah bir insandır, milli musiqimizin inkişafında böyük xidmətləri vardır. Bu gün bizim hamımızın fərəhli və xoşbəxt günlərindən biridir.

Cənab prezident, Sizi 75 illiyiniz, Xalq Cümhuriyyətinin 80 illiyi və Türkiyə prezidenti Süleyman Dəmirəl, Macarıstan prezidenti Arpad Hents tərəfindən Sizə verilmiş təltiflər münasibətilə təbrik edirəm. Biz bunlardan çox şadıq. Bunların hamısı çox gözəl, sevindirici anlardır. Bütün bunlara görə Sizi bir daha səmimi qəlbdən təbrik edirəm.

Süleyman Ələsgərov (*xalq artisti, bəstəkar*): Cənab prezident, ədəbiyyatı, incəsənəti yüksək dəstəkləməyiniz, hədsiz qayğınız bizi heyran qoyur. Biz prezident Heydər Əliyevin 75 illiyi ilə əlaqədar bəstəkarların əsərlərindən ibarət konsert verməyə hazırlaşırıq. Sizi həmin konsertə dəvət edirik. Allah Sizə cansağlığı versin, həmişə xoşbəxt olun.

* * *

Yusif Səmədoğlu (*xalq yazıçısı*): Möhtərəm prezidentimiz, diqqət və qayğınıza görə dərin minnətdarlığımı bildirirəm. Bütün bunların müqabilində Sizə Azərbaycan xalqının, millətinin, dövlətinin, mədəniyyətinin naminə, Azərbaycanın gələcəyi naminə ancaq cansağlığı, uzun ömür diləyirəm. Allah qoysa, prezident seçkilərinə qədər mən xəstəxanadan çıxacağam və hamımız, bütün ailə üzvlərim, qohum-əqrəbamız, bütün tanışlar yekdilliklə Sizə səs verəcəyik.

Heydər Əliyev: Xoş sözlərə görə çox sağ ol. Mən səni görməyə gəlmişəm və istərdim ki, səni xalq yazıçısı adı almağın münasibətilə təbrik edim. Səni bizim bu bayramımız – Xalq Cümhuriyyətinin 80 illik bayramı münasibətilə də təbrik edirəm və sənə cansağlığı arzu edirəm. Sənin Almaniyada müalicə olunandan sonra buradakı müalicən də mənim nəzarətim altındadır. Bilirəm ki, müalicə edirlər və heç kəsdən də narahat olma. Əli İnsanov dünən böyük iclas keçiribdir, bu barədə mənə deyibdir. Sən, inşaallah, bütün bu xəstəliyin öhdəsindən gələcəksən, sağalacaqsan, ayağa duracaqsan. Mən sənə də deyirəm, anan Xavər xanım da, uşaqlar da buradadır. Utanmaq lazım deyil, nə lazımdır – kömək edək. Birinci, narahat olmaq lazım deyil, Yusifi müalicə edəcəklər. O, ayağa qalxacaqdır. Hər şey yaxşı olacaqdır. Heç nədən narahat olmayın. Çünki hamısını mənə deyiblər.

Yusif, sən Berlində olanda da oradan səfir mənə bu barədə məlumat veribdir və burada da nazir Əli İnsanov bu işlərə nəzarət edir. Müalicəni aparırlar və aparacaqlar. Yenə də hara lazımdır, – Almaniya,

Fransa, ABŞ, Moskva və s., haranı istəyirsən, mən səni hökumətin hesabına müalicəyə göndərməyə hazıram. Heç nədən narahat olma. Bütün müalicə xərclərinin də hamısı hökumətin hesabına ödənilir. Bil ki, sən mənim üçün və bütün xalqımız üçün əziz bir insansan. Sənin atanın Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Mən sənə bu günlərdə xalq yazıçısı adı verdim. Atan xalq şairi, sən də xalq yazıçısı.

Sənin bu xəstəliyin ötüb keçəcəkdir. İnşallah, hər şey keçəcək və ayağa duracaqsan. Ona görə də sənin vaxtını çox almaq istəmirəm. Mən bilirəm, çünki özüm də vaxtilə xəstə olmuşam. Bilirsiniz ki, mən üç ay Moskvada xəstəxanada yatmışam. Özü də elə xəstə idim ki, deyirdilər heç ayağa dura bilməyəcəkdir. Çoxları da deyirdi ki, o, ayağa dursa yaşaya bilməyəcəkdir. Hətta həkimlər də deyirdi. Düzdür, bu, həkimlərin öz işi deyildi. O vaxt Qorbaçov onlara göstəriş vermişdi və onlar bütün professorlar, akademiklər gəldilər, yığıncaq keçirdilər. Mənə dedilər ki, sən işləyə bilməyəcəksən. Mən dedim ki, siz nə istəyirsiniz? Dedilər ki, sən ərizə ver, get, səni işdən çıxarsınlar. Mən də dedim ki, yaxşı, buradan çıxandan sonra işləyə bilməsəm, onda işdən çıxaram. Sonra xəstəxanadan da çıxdım və iki aydan sonra vəzifədən də getdim. Ondan sonra da, Allaha şükürlər olsun ki, yaşayıram. İndi sən də sağalacaqsan, duracaqsan və on illərlə yaşayacaqsan.

Xavər xanım (*Yusif Səmədoğlunun anası*): Cənab prezident, Sizə çox minnətdarıq, çox sağ olun. Göydə Allah, yerdə Siz. Sizi Allah bizə çox görməsin. Sizi yüz yaşayasınız. Biz Sizə minnətdarıq.

* * *

Hökumə Billuri (*xalq şairi*): Əziz və hörmətli prezident, 75 illiyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Cənab prezident, Sizə Azərbaycanın rifahı, inkişafı yolunda saysız və sonsuz uğurlar diləyirəm. Mən həmişə Sizinləyəm. Sizi var olasınız. Qoy Allah Sizə yar olsun. Mən Sizə minnətdaram. Çox sağ olun.

Heydər Əliyev: Azərbaycanın xalq şairi kimi yüksək ada layiq görülməyiniz münasibətilə Sizi təbrik edirəm, möhkəm cansağlığı, şəfa arzulayıram.

Hökumə Billuri: Hörmətli prezident, verilən yüksək ada görə təşəkkür edirəm, çox sağ olun. Yeni əsərlərimlə və yeni arzularımın carçısı olmaqla bu adı doğruldacağam. Mənim arzum bütün xalqımın arzusudur. Mən onu hər halda doğrultmağa çalışacağam. Buna əmin ola bilərsiniz. Allah Sizi bizə, xalqımıza çox görməsin. Mən Sizə çox təşəkkür

edirəm ki, məni yad etmisiniz. Siz bilirsiniz ki, mən son 53 ildə mühacir həyatı sürmüşəm. Ona görə də Sizin bizə bu qədər qayğınız, təəssübünüz mənim üçün xüsusi məna kəsb edir. Sizi var olasınız. Sizə uzun ömür, cansağlığı arzulayır, bir daha dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

«SEVİL» AZƏRBAYCAN QADINLARI MƏCLİSİ ŞÖBƏLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ* ÇIXIŞ

Prezident sarayı
1 iyun 1998-ci il

Əziz bacılar!

Mən sizin hamınıza təşəkkür edirəm, zəhmət çəkib mənim yanıma gəlmisiniz. Bilirsiniz ki, mən sizin hər birinizlə görüşməkdən məmnun oluram. Çünki qadınlar cəmiyyətimizin ən gözəl, ən güclü və çox hissəsini təşkil edirlər. Qadınlar haqqında mənim fikirlərim hamıya məlumdur. Mən bunu dəfələrlə izah etmişəm, söyləmişəm, öz fikirlərimi sizlərə, bütün ictimaiyyətə çatdırmışam. Ona görə də bunları təkrar etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, onu bilin ki, mən bütün fəaliyyətimdə həmişə qadınlara arxalanmışam, onları özümün dayağım hesab etmişəm. Bunlar sadəcə sözlər deyildir, mən onları sınaqdan keçirmişəm. Mənim həyatımın çox ağır və çətin anları olubdur. Bütün bu mərhələlərdə qadınlar özlərini həmişə çox etibarlı göstəriblər və bu sınaqlardan şərəflə çıxıblar.

Azərbaycanın prezidenti kimi, indi mən birinci növbədə qadınların cəmiyyətdə rolunun artmasına çalışıram. İkincisi, sizə çox ümid edirəm, bel bağlayıram, sizi dayağım hesab edirəm. Şübhə etmirəm ki, siz həmişə mənimlə olacaqsınız, mən də sizinlə olacağam.

Hesab edirəm ki, «Sevil» Azərbaycan Qadınları Məclisinin yaranması Azərbaycanın tarixində əlamətdar bir hadisədir. Mən bu Məclisin gələcəkdə daha da genişlənməsini, inkişaf etməsini dəstəkləyirəm və sizin fəaliyyətinizi təqdirəlayiq hesab edirəm. Güman edirəm ki, həm bu məclis, həm Qadın Problemləri üzrə Dövlət Komitəsi çərçivəsində, həm də digər qadın təşkilatları ilə birlikdə Azərbaycanda fəallığı daha da artıracaqsınız, qadınlar həyatımızın bütün sahələrində daha da fəal iştirak edəcəklər. Mən əminəm ki, Azərbaycanda hüquqi, demokratik, dünyəvi

---

* Görüşdə Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri, "Sevil" Azərbaycan Qadınları Məclisi sədrinin müavini Zəhra Quliyeva respublika qa-dınları adından prezident Heydər Əliyevi 75 illik yubileyi münasibətilə təbrik etdi.

dövlət quruculuğunda, iqtisadi islahatlarda və digər proseslərdə siz həmişə fəal olacaqsınız və ön sıralarda gedəcəksiniz.

Mən sizin hamınıza cansağlığı, səadət, həyatınızda uğurlar arzulayıram. İstəyirəm ki, həmişə belə gözəl olasınız. Qadın üçün gözəllik də çox vacibdir. Sağ olun, təşəkkür edirəm.

XALQ YAZIÇISI İSA HÜSEYNOVA

Bakı şəhəri, 11 iyun 1998-ci il

Hörmətli İsa Hüseynov!

Sizi – Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 50-ci illərdən bədii yaradıcılığa başlayaraq qısa bir müddətdə öz əsərlərinizlə oxucuların dərin rəğbətini qazanmısınız. Ədəbiyyatımızda insana, onun zəngin, mürəkkəb mənəvi dünyasına marağı gücləndirən roman və povestləriniz bütöv bir nəslin formalaşmasında böyük rol oynamışdır. İdeoloji buxovlardan uzaqlaşaraq həyata obyektiv baxış yaradan, insan şəxsiyyətinə, ləyaqətinə ehtiram hissləri təbliğ edən əsərləriniz sonrakı yazıçılar nəslinin təşəkkül tapmasına öz müsbət təsirini göstərmişdir.

Müasirlərimizin əxlaqi saflığı, psixoloji ovqatları, milli dəyərlərlə yaşamaq səyləri Sizin nəsrinizdə yüksək sənətkarlıqla təsvirini tapmışdır. Siz öz bədii yaradıcılığınızda Azərbaycanımızın tarixi keçmişinə, dilinə və mədəniyyətinə böyük maraq doğurmaqla xalqımızın milli şüurunun inkişafına əhəmiyyətli xidmət göstərmisiniz.

Uzaq və yaxın tariximizdəki uğurlarımızın və itkilərimizin bədii təhlilini həssaslıqla, ürək yanğısı ilə verən romanlarınız ədəbiyyat həvəskarları tərəfindən böyük maraq və rəğbətlə qarşılanmış, bir sıra dillərə tərcümə olunmuş, müxtəlif xarici ölkələrdə nəşr edilmişdir.

Siz respublikada öz dəst-xətti ilə seçilən məhsuldar ssenarist kimi də məşhursunuz. Milli kinomuzun parlaq səhifələri sayılan «Ulduzlar sönmür», «Nəsimi», «Tütək səsi», «Nizami» kimi bədii filmlərin ssenariləri Sizin qələminizin məhsuludur. Tarixi keçmişimizin dərk olunmasında mühüm rol oynayan bu filmlər indinin özündə də tərbiyəvi təsir gücünü və dəyərini qoruyub saxlayır.

Sizin yaradıcılığınızın ən yetkin və məsul çağı respublikamızın müstəqilliyinin gənclik dövrünə təsadüf edir. İndi ölkə həyatının başqa sahələrində olduğu kimi, mədəniyyət və ədəbiyyatın inkişafı qarşısında da geniş üfüqlər açılmışdır. Əminəm ki, siz milli ədəbiyyatımızı qələminizdən çıxan yeni dəyərli sənət nümunələri ilə zənginləşdirəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ HACIBABA BAĞIROVA

Bakı şəhəri
11 iyun 1998-ci il

Hörmətli Hacıbaba Bağırov!

Sizi – Azərbaycanın görkəmli teatr və kino aktyorunu anadan olmağınızın 65 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz teatr səhnəmizdə özünəməxsus orijinal üslubda yaddaqalan obrazlar yaratmaqla tamaşaçıların böyük məhəbbətini qazanmış mahir gülüş ustasısınız. Cəmiyyətimizin mənəvi saflaşmasına xidmət edən çoxşaxəli yaradıcılığınız ölkəmizdə komediya janrının ənənələrini davam etdirərək müasir Azərbaycan mədəniyyətini zənginləşdirmişdir.

Səhnədə göstərdiyiniz fəaliyyətlə yanaşı, Sizin kinematoqrafiya sahəsində də xüsusi xidmətləriniz vardır. Kinofilmlərimizdə oynadığınız müxtəlif xarakterli rollar tamaşaçıların yaddaşında həmişəlik qalmış və kino sənətimizin diqqətəlayiq uğurları kimi qiymətləndirilmişdir.

Azərbaycanda aktyorların yeni nəslinin yetişdirilməsində Sizin böyük zəhmətiniz olmuşdur. Teatr rəhbəri və teleşou təşkilatçısı kimi göstərdiyiniz fəaliyyət də istedadınızın yeni mühüm çalarlarını aşkar etmişdir. Fitri istedad, milli kolorit və təbii yumorla səciyyələnən sənətiniz Sizi xalqımızın sevimlisi etmişdir. Əminəm ki, yaratdığınız, yeni obrazlar bundan sonra da tamaşaçılarda nikbin əhval-ruhiyyə oyadacaq və sənətinizin pərəstişkarlarını sevindirəcəkdir.

Sizə xoşbəxtlik, uzun ömür və yaradıcılığınızda yeni-yeni uğurlar diləyirəm.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇƏ «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

Prezident iqamətgahı
12 iyun 1998-ci il

Hörmətli Mstislav Leopoldoviç Rostropoviç, əziz Slava!

Xanımlar və cənablar!

Bu gün mən çox xoş bir missiyanı yerinə yetirməli – zəmanəmizin böyük musiqiçisi Mstislav Postropoviçə müstəqil Azərbaycanın yüksək mükafatı olan «Şöhrət» ordenini təqdim etməliyəm.

Mstislav Leopoldoviç Rostropoviç Azərbaycanda, Bakıda doğulmuş, yeniyetmə illərini burada keçirmişdir. Rostropoviçlər ailəsi uzun illər ərzində Bakıda yaşamışdır. Mstislav Rostropoviçin atası Leopold Rostropoviç Azərbaycanda yüksək professional musiqi təhsilinin təşəkkülünə və inkişafına böyük töhfə vermişdir. Böyük Üzeyir Hacıbəyovla, musiqi sənətinin digər çox görkəmli xadimləri ilə birlikdə o, Şərqdə ilk ali musiqi məktəbinin – Azərbaycanda konservatoriyanın əsasını qoymuşdur. Leopold Rostropoviç ali musiqi məktəbimizin, indiki Musiqi Akademiyasının təşəkkülündə və inkişafında bir çox illər iştirak etmişdir.

Rostropoviçləri Azərbaycanla bir çox başqa şeylər də bağlayır. Sonralar Mstislav Rostropoviç Moskvada məşhur musiqiçi, musiqi sənəti xadimi olmuş, ən əvvəl özünün qeyri-adi istedadı, əməksevərliyi, fədakarlığı sayəsində böyük şan-şöhrət qazanmışdır. O özünün bir çox əsərləri ilə, coşqun, geniş fəaliyyəti ilə rus, dünya musiqi sənətini zənginləşdirmişdir. Bu gün biz həmyerlimiz, dostumuz barədə böyük sevinc hissi ilə deyə bilərik ki, Mstislav Rostropoviç bir musiqiçi kimi, musiqi sənəti xadimi kimi formalaşmaqda böyük yol keçərək dünyanın görkəmli musiqiçilərindən biri olmuş, bütün dünyada şöhrət, nüfuz qazanmışdır.

Onun yaradıcılıq fəaliyyəti, musiqi sənətinin, ümumən dünyada bütün mədəniyyətin inkişafına töhfəsi bir çox ölkələr, dövlətlər tərəfindən, dünyanın bir çox məşhur mədəniyyət, incəsənət, musiqi xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Slava Rostropoviç dünyada belə yüksək nüfuza nail olmuş, belə yüksək ad və belə şöhrət qazanmış tək-tək insanlardan biridir. Yenə deyirəm, bu, ən əvvəl onun fitri, bənzərsiz istedadı və fədakarlığı, əməksevərliyi, öz peşəsinə, sənətinə, öz işinə sədaqəti ilə bağlıdır.

Bununla yanaşı, Mstislav Rostropoviç dünyada digər cəhətdən də məşhurdur. O öz professional musiqiçi fəaliyyəti, mədəniyyət sahəsində yaradıcılıq fəaliyyəti ilə yanaşı, azadlıq, müstəqillik, insan hüquqlarını müdafiə rəmzinə, zorakılığa, ədalətsizliyə qarşı etiraz rəmzinə çevrilmişdir. Bu baxımdan musiqi, incəsənət və mədəniyyət sahəsində fəth etdiyi uca zirvələrlə müqayisədə onun vətəndaş mövqeyi həyatında heç də az əhəmiyyət kəsb etmir.

Sovet İttifaqında totalitar rejimin mövcud olduğu o ağır illərdə Mstislav Rostropoviçin özündə cəsarət taparaq, bütün bunlara qarşı etiraz səsini ucaltması, nəinki sadəcə olaraq öz fikrini bildirməsi, həm də adamların hüquqlarının, azadlığın müdafiəsi uğrunda fəaliyyət göstərməsi, özü də qətiyyətlə fəaliyyət göstərməsi həqiqətən hünərdir, qəhrəmanlıqdır.

Hər şeyin artıq arxada qaldığı indiki vaxtda bu, müəyyən dərəcədə adi, özlüyündə təbii olan bir hala çevrilmişdir. Əgər fikrən o illərə qayıtsaq və o vaxtlar Mstislav Rostropoviçin coşqun vətəndaş fəaliyyəti ilə bağlı hər şeyi və o dövlətdə – bizim hamımızın yaşadığı Sovet İttifaqında onun ətrafında yaranmış vəziyyəti xəyalımızda canlandırsaq, bunun nə demək olduğu aşkar olar. Ona görə də hesab edirəm ki, bu, həqiqətən hünər, qəhrəmanlıqdır və özünü tamamilə doğrultmuşdur.

İndi dünya dəyişmişdir, dünya azadlıqsevər adamların görmək istədikləri kimi, Mstislav Rostropoviçin görmək istədiyi kimi olmuşdur. Buna görə də indi biz demokratiyadan, azadlıqdan, şəxsiyyət azadlığından, insan hüquqlarından danışarkən yaşamış olduğumuz o ölkədə, o rejimdə bu proseslərin necə baş verdiyini, bu gün reallığa çevrilmiş hallar barəsində öz fikirlərini yalnız və yalnız tək-tək adamların, – onların arasında Mstislav Rostropoviç də vardı, o vaxtlar mərd-mərdanə söyləməyə necə cürət etdiklərini aydın təsəvvür edirik.

Öz dahi musiqi fəaliyyəti, mədəniyyət sahəsində fəaliyyəti ilə yanaşı, Rostropoviç özünün məhz vətəndaşlığı, vətəndaş hüquqları uğrunda coşqun, cəsarətli fəaliyyəti sayəsində dünyada nüfuz qazanmışdır. Azərbaycanda biz, Mstislav Rostropoviçin həmyerliləri bütün bunları izləyirdik. Şəxsən mən Mstislav Rostropoviçin şəxsiyyətinə dərin hörmət bəslədiyimə görə, onun nəinki musiqi sahəsində, həm də vətəndaş hüquqlarının müdafiəsi sahəsində fəaliyyətini çox diqqətlə izləyirdim.

Əlbəttə, biz təşviş keçirir, narahat olurduq. Lakin həyat Mstislav Rostropoviçin haqlı olduğunu təsdiq etdi. İndi biz Azərbaycanda milli azadlıq, dövlət müstəqilliyi əldə edərək, bu azadlığın olmasını istəyənlərin hamısına öz ehtiramımızı böyük minnətdarlıq hissi ilə bildiririk. Onlardan biri, ən parlaq, ən görkəmli şəxsiyyət Mstislav Rostropoviç idi.

Mstislav Leopoldoviç Moskvada özünün coşqun fəaliyyəti illərində Azərbaycanla əlaqələrini heç vaxt kəsməmiş, Azərbaycanın incəsənət, musiqi xadimləri ilə yaradıcılıq və dostluq münasibətləri saxlamış, onlara kömək etmiş, dəstək vermişdir. Yəni o, – mən bunu xüsusi sevinc hissi ilə deyirəm, – doğulduğu, yaşadığı, valideynlərinin də yaşayıb-yaratdıqları torpağı heç zaman unutmamışdır. Buna görə də Azərbaycanın musiqi, incəsənət xadimləri ona həmişə böyük hörmət və məhəbbət hissləri bəsləmişlər.

Bilirəm ki, hətta o illərdə, Rostropoviç totalitarizmə qarşı etiraz səsini qaldırdıqda, vətəndaş hüquqları uğrunda çıxış etdikdə onun hərəkətinin müdafiəsi üçün kimlərinsə öz fikrini açıq söyləməsinin çətin olduğu vaxtlarda çoxları qəlbində onunla razı idi. Hərçənd ola bilsin ki, məlum səbəblərə görə o adamlar eynilə onun kimi hərəkət edə bilmirdilər. Buna görə də biz Mstislav Rostropoviçin Azərbaycanla həmişə yaradıcılıq əlaqələri saxlamasını, öz təsirini və köməyini göstərməsini qiymətləndiririk.

Mstislav Rostropoviçin Azərbaycanla qarşılıqlı münasibətlərində ötən ildən yeni mərhələ başlanmışdır. Bu mərhələ 1997-ci il martın 27-də Parisdə mən əziz dostum Slava ilə görüşdüyüm və bu böyük musiqiçinin, həmyerlimizin 70 illiyinə həsr olunmuş şənliklərdə onun dəvəti ilə, Fransa prezidentinin dəvəti ilə iştirak etdiyim vaxtdan başlanmışdır. Onda mən onun yubileyinin Azərbaycanda, öz vətənində mütləq qeyd olunmasını təklif etdim. Ona görə ki, əgər həmyerlimizin yubileyi Parisdə təntənə ilə qeyd edilmişsə, onun doğulduğu Azərbaycanda belə şənliklər keçirilməsəydi, torpaq bundan inciyərdi.

Əlbəttə, insan həyatı boyu öz yaşayış yerini, öz iş yerini dəyişir. Bu, istənilən adam üçün təbii haldır. Az insan tapılar ki, onlar doğulduqları yerlərdə bütün ömürləri boyu qalsınlar. Slava da Azərbaycandan, Bakıdan getdikdən sonra bir çox şəhərlərdə və ölkələrdə yaşamışdır. Lakin insanın doğulduğu torpaq onun əsas vətənidir. Bilmirəm kim necə hesab edir, ancaq mən belə hesab edirəm. Buna görə də ötən il biz dostumuz Slava Rostropoviçin 70 illiyini burada böyük sevinclə qeyd etdik.

Mən şadam ki, o günlər yaxşı keçdi və nəinki yubilyar üçün, bizim üçün, həm də bütün Azərbaycan ictimaiyyəti üçün hadisəyə çevrildi. Buna görə də mən Rostropoviçin Azərbaycanla münasibətlərinin məhz yeni

mərhələsinin başlandığını deyirəm. Bu mərhələnin epizodik deyil, əksinə, sabit, daimi xarakter daşıdığını belə bir fakt sübut edir ki, dostumuz Slava iyunun 7-dən Bakıdadır, burada böyük və səmərəli iş aparır, gənc musiqiçilərimizlə məşğul olur və bununla da müstəqil Azərbaycanın musiqiçi kadrlarının hazırlanmasına çox böyük kömək və dəstək göstərir. Bu, çox yüksək qiymətə layiqdir.

Rostropoviçin il ərzindəki iş cədvəlinin necə olduğunu biz bilirik, hər halda, mən yaxşı bilirəm. O, dünyanın bir çox musiqi mərkəzləri ilə, müxtəlif ölkələrin paytaxtları, müxtəlif ölkələrlə o dərəcədə bağlıdır ki, aldığı böyük təkliflər, öz yaradıcılıq fəaliyyətini həyata keçirməyə dair özünün planları əsas götürülərək, onun bütün vaxtı tam bir il əvvəlcədən nəinki günlər üzrə, hətta saatlar üzrə bölünmüşdür.

Belə bir fəaliyyət şəraitində Azərbaycana bu qədər günlər ayırmaq, Azərbaycanın musiqi sənətinin gənc kadrlarının hazırlığı ilə məşğul olmaq son dərəcə böyük köməkdir. Ümid etmək istəyirəm ki, incəsənət xadimlərimiz, xüsusən Mstislav Rostropoviç ilə təmasda olmaq, onun məsləhətlərini almaq, ondan dərs almaq xoşbəxtliyi nəsib olmuş gənc musiqiçilər bu gözəl imkandan maksimum səmərə ilə istifadə edəcəklər.

Buna görə də bu gün qeyd etməyə şadam ki, Azərbaycan ilə böyük musiqiçi Rostropoviç arasında əlaqələrin, münasibətlərin yeni mərhələsinin artıq öz konkret nəticələri var. Ümidvaram ki, bu nəticələr gələcəkdə daimi və sabit xarakter daşıyacaqdır.

Mstislav Rostropoviç dünyanın bütün ölkələrində böyük nüfuza malikdir. O, haraya gedirsə-getsin, harada olursa-olsun, hər yerdə nəinki incəsənət, mədəniyyət xadimlərinin, həm də bütün ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Bu, onun malik olduğu keyfiyyətlərə və xidmətlərə görə təbii haldır.

Azərbaycanda ona xüsusi hörmət, məhəbbət hissləri bəslənilir və onun burada olması ilə əlaqədar xüsusi sevinc hissi duyulur. Buna görə də, əziz Slava, sizin Azərbaycanda olmağınız bizim üçün, ictimaiyyətimiz, dövlətimiz üçün böyük hadisədir.

Əziz Slava, bunu da ayrıca qeyd etmək istəyirəm ki, bu günlər siz Azərbaycanın həyatının çox ciddi problemlərinə – Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü ilə, Azərbaycan ərazisinin bir hissəsinin işğalı ilə, işğal olunmuş topraqların sakinlərinin öz doğma yerlərindən didərgin salınması ilə bağlı problemlərə də böyük diqqət yetirdiniz və dünən gördüyünüz kimi, bu insanlar çox ağır şəraitdə, çadırlarda və həyat üçün uyğunlaşdırılmamış digər müxtəlif yerlərdə yaşayırlar. Dünən bütün gününüzü buna həsr etməyinizi mən yüksək qiymətləndirirəm.

Bizə çoxlu qonaqlar gəlir, biz hamıya Azərbaycanın indiki reallığı ilə tanış olmağı təklif edirik. Deməliyəm ki, onların çoxu bizim xahişimizi qəbul edir, öz yerindən-yurdundan zorla çıxarılmış köçkün insanların yaşadıqları yerlərə gedirlər. Bunlar Bakıda, onun ətrafında olan yerlər, Azərbaycandakı çoxlu çadır şəhərcikləridir, siz dünən onlardan bəzilərində olmusunuz. Ancaq öz yerindən-yurdundan zorla çıxarılmış köçkün insanların, Azərbaycan vətəndaşlarının yaşadıqları yerlərə belə geniş proqram üzrə sizin etdiyiniz səfəri çox az adam etmişdir. Siz burada da özünüzün böyük diqqətinizi, həssaslığınızı və insaniyyətinizi nümayiş etdirmisiniz.

Sizi müşayiət edən şəxslər Azərbaycanın bugünkü həyatının bu sahəsi ilə necə diqqətlə tanış olmağınız və dünən necə həyəcan keçirməyiniz barədə mənə danışıblar. Bəlkə də sırf qonaqpərvərlik baxımından sizdə belə həyəcan doğurmağımız lazım deyildi. Ancaq, eyni zamanda, siz dözümlü, bir çox sarsıntılara, məhrumiyyətlərə, çətinliklərə məruz qalmış insansınız, siz bərkdən-boşdan çıxmış insansınız. Ona görə də həmin saatlar sizin üçün ağır olsa da, öz doğma yerlərindən zorla qovulub çıxarılmış, altı ildən artıq çox çətin şəraitdə yaşayan və yalnız bir şeyi – öz doğma yurdlarına qayıtmağı gözləyən bu insanlar, hər halda, sizin torpağınızın övladlarıdır. Onlar hər şeylərinin – evlərinin, şəhərlərinin, kəndlərinin, qəsəbələrinin dağıldığını, talan olunduğunu bilsələr də, öz yerlərinə qayıtmaq istəyirlər. Mən onlarla dəfələrlə görüşmüşəm və həmişə də deyirlər ki, təki öz torpaqlarına, hətta quruca yerlərinə, doğmalarının, əzizlərinin, əcdadlarının dəfn olunduğu torpaqlara qayıtsınlar, sonra isə necə yaşamağın çarəsini özləri tapacaqlar.

Siz bütün bunları öz gözünüzlə gördünüz.Əziz Slava, dünənki səfərinizə görə sizə xüsusi təşəkkür etmək istəyirəm. Bu da təsadüfi deyildir. Çünki şəxsiyyət kimi siz öz fəaliyyətinizlə mədəniyyətin, incəsənətin, musiqinin hüquqlarını çoxdan aşmısınız. Siz vətəndaş hüdudları uğrunda çıxış etdiyiniz vaxtdan etibarən vətəndaş kimi, şəxsiyyət kimi bu cür fəaliyyətə geniş şəkildə qoşulmusunuz. Sizin dünən gördüklәriniz bu təcavüz, vəhşilik nəticəsində tək-tək adamların deyil, Azərbaycanın bir milyon vətəndaşının hüquqlarının tapdalandığını, pozulduğunu göstərən haldır.

Əziz Slava, həyatımızda belə iştirakınıza görə çox sağ olun. Bu səbəbdən də şəxsən mən sizi təkcə qonaq, bizim keçmiş həmyerlimiz, görkəmli musiqiçi hesab etmirəm. Mən sizin simanızda həmişə böyük vətəndaşı, təkcə bir çox məsələlərə biganə qalmayan cəsarətli insanı deyil, həm də insan azadlığı, hüquqları pozularkən bütün işlərə fəal surətdə qarışan bir insanı görmüşəm.

Bəzi fikirlərimi deyərkən eyni zamanda hesab edirəm ki, bütün ictimaiyyətin, Azərbaycan dövlətinin rəyini və fikirlərini ifadə edirəm. Əziz Slava, uğurlarınız münasibətilə, gözəl fəaliyyətiniz münasibətilə və müstəqil Azərbaycanın yüksək dövlət mükafatı olan «Şöhrət» ordeni ilə təltif edilməyiniz münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Bilirsiniz ki, bu da çox əlamətdardır. Siz Azərbaycan torpağında doğulanda Azərbaycan azad, müstəqil deyildi. İndi isə Azərbaycan azad ölkədir, müstəqil dövlətdir. Dünya Birliyində özünün layiqli yerini tapmış ölkədir, demokratikləşdirmə prosesinin fəal getdiyi, demokratik, hüquqi, dünyəvi dövlət qurulan, demokratik cəmiyyət formalaşdırılan, demokratikləşdirməyə, bazar iqtisadiyyatı yaradılmasına və Azərbaycanın dünya iqtisadi sisteminə, ümumən dünya birliyinə qovuşmasına yönəldilən siyasi və iqtisadi islahatlar həyata keçirilən ölkədir.

Ölkəmizin əvvəllər malik olmadığı öz atributları, ordenləri var. «Şöhrət» ordeni də Azərbaycanın dövlət mükafatıdır. Yeri gəlmişkən, mənə xoşdur ki, bu ordenin adı ilə sizin adınız eynidir.

Sizi bir daha təbrik edirəm və bu yüksək mükafatı sizə böyük məmnuniyyətlə təqdim etmək istəyirəm. Əziz Slava, sizə möhkəm cansağlığı arzulayıram. Şadam ki, səhhətiniz yaxşıdır, mən bunu görürəm.

Mən sizdən bir qədər yaşlıyam, lakin biz bir nəslin adamlarıyıq. Ona görə də kimin səhhətinin necə olduğunu uzaqdan müəyyənləşdirə bilərəm. Allaha şükür ki, səhhətiniz çox yaxşıdır. Qoy o, daha da möhkəm olsun, çünki sizin planlarınız, niyyətləriniz elədir ki, onları həyata keçirmək üçün ən azı hələ bu qədər də ömür gərəkdir. İstəyirəm ki, bunların hamısı çin olsun.

Sizə yeni yaradıcılıq uğurları, bütün ictimai, siyasi fəaliyyətinizdə müvəffəqiyyətlər arzulamaq istəyirəm.

Sizin gözəl ailəniz, Qalina Pavlovna Vişnevskaya kimi qəşəng xanımınız var. Ərlə arvadın eyni bir sahədə çalışması, üstəlik, onların eyni baxışlara malik olması xoşbəxtlikdir. Görkəmli müğənni olan Qalina Pavlovna Vişnevskaya o çətin dövrdə, siz cəsarətli vətəndaş addımı atanda sizə vəfalı dost oldu. O, həmişə sizinlə birlikdə idi. Bu gün də sizinlədir. Bu, böyük səadətdir. Möhkəm arxa olanda insan həmişə daha cəsarətlə hərəkət edir. Sizin yaxşı uşaqlarınız, nəvələriniz var. Şadam ki, Allah bu baxımdan səxavətini sizdən əsirgəməyib, sizə sərvət veribdir. İstəyirəm ki, sizin bu sərvətiniz daha da artsın.

Sizə ən xoş, ən yaxşı arzularımı bildirirəm. Sizi bir daha təbrik edirəm!

XALQ ARTİSTİ HACI XANMƏMMƏDOVA

Bakı şəhəri, 14 iyun 1998-ci il

Hörmətli Hacı Xanməmmədov!

Sizi – Azərbaycanın görkəmli bəstəkarını 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan musiqi mədəniyyətində öz sözü, öz dəst-xətti ilə seçilən sənətkarlardansınız. Yarım əsrlik yaradıcılığınız ərzində müxtəlif janrlarda bəstələdiyiniz yaddaqalan əsərlər sizə nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da şöhrət gətirmişdir. Sənətkar həyatınızı ən çox səciyyələndirən və geniş dinləyici kütləsinə tanıtdıran isə tar ilə simfonik orkestr üçün yazdığınız konsertlərdir. Sizin adınız Azərbaycanın bəstəkarlıq məktəbi tarixinə milli ənənələri müasir musiqi sənətinin nailiyyətləri ilə üzvü şəkildə birləşdirən bu janrın yaradıcısı kimi həmişəlik daxil olmuşdur. Kamança ilə simfonik orkestr üçün bəstələdiyiniz konsertdə də siz Azərbaycan milli musiqi alətlərinin hələ istifadə olunmamış imkanlarını böyük ustalıqla nümayiş etdirmisiniz.

Siz ölkəmizdə gözəl mahnılar müəllifi kimi də yaxşı tanınırsınız. Emosionallıq, ürəyəyatımlılıq və zəriflik hisslərini aşılayan, doğma diyarımızı, onun insanlarını, təbiətini, füsunkar mənzərələrini tərənnüm edən mahnılarınız vətənimizə, xalqımıza olan vurğunluğunuzu göstərir.

Respublikamızda neçə-neçə musiqiçilər nəslinin yetişdirilməsində sizin böyük zəhmətiniz vardır. Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda və Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasında göstərdiyiniz fəaliyyətinizdə siz milli musiqi mədəniyyətimizin incəliklərini gənc nəslə məharətlə çatdırmısınız. Sizin dirijorluğunuz da yüksək qiymətləndirilir.

Milli alətlərə dərin maraq doğuran, onların inkişafı üçün geniş imkanlar açan, musiqisevərlərin zövqünü oxşayan sənət yolunuz gənc musiqiçilər üçün böyük bir örnəkdir. İnanıram ki, sizin yaradıcılığınız Azərbaycanımızın musiqi mədəniyyətinin inkişafında bundan sonra da öz əvəzedilməz rolunu oynayacaqdır.

Sizə uzun ömür, cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

RUSİYA TELEVİZİYASININ «TEMA» PROQRAMININ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN HƏYAT VƏ YARADICILIĞINA HƏSR EDİLMİŞ VERİLİŞİN ÇƏKİLİŞ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

15 iyun 1998-ci il

H e y d ə r Ə l i y e v: Sizi, ümumiyyətlə və xüsusən Azərbaycanda həyata keçirdiyiniz bütün işlərə görə təbrik edirəm. Sabah sizin konsertinizi gözləyirik. Yeri gəlmişkən, keçmiş vaxtlarda necə olduğunu bilmirəm, amma, ola bilsin, bu, birinci haldır ki, siz Bakıda simfonik orkestrə dirijorluq edəcəksiniz.

M s t i s l a v R o s t r o p o v i ç : Bəli, bu, ilk dəfə olacaqdır.

H e y d ə r Ə l i y e v : Siz dünyanın bir çox şəhərlərində, paytaxtlarında olduqca uğurla dirijorluq etmisiniz, hər yerdə yolunuzu gözləyirlər. Amma öz vətəninizdə siz Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinə ilk dəfə olaraq dirijorluq edəcəksiniz.

M s t i s l a v R o s t r o p o v i ç : Heydər Əliyeviçin mühafizəsi barədə bir neçə kəlmə demək istəyirəm. Bu, dünyada ən çox musiqisevər mühafizə dəstəsidir. Ona görə ki, hər hansı digər prezidentə nisbətən Heydər Əliyev konsertlərdə daha tez-tez olur. Buna görə də onlar musiqini dinləyir və başa düşürlər.

H e y d ə r Ə l i y e v: Musiqini, xüsusən də sizin musiqinizi onlar nəinki başa düşür, həm də sevirlər. Bu qədər dostlarım, – bu dostlar isə siz və buraya toplaşanlardır, – olduğu halda mən prinsipcə mühafizə dəstəsinə ehtiyac duymuram. Hərçənd ki, prezidentin mühafizə edilməsinə ehtiyac var.

M s t i s l a v R o s t r o p o v i ç: Biz istəyirik ki, Sizi mühafizə etsinlər.

Y u l i Q u s m a n: Biz artıq dedik ki, maestro qaçqınların yanında olmuşdur, Siz onu «Şöhrət» ordeni ilə təltif etdiniz, onun doğma şəhərinin fonda olması üçün Bakıda belə yüksək nöqtəni məxsusi seçdik. Lakin maestronun bu sözləri xüsusilə təsirlidir ki, Azərbaycan musiqiçilərinin yeni nəsli – Üzeyir Hacıbəyovun, Bülbülün, Qara Qarayevin işlə-

rinin davamçıları yetişirlər. Maestronun öz gözəl məktəbi barədə söhbəti gözəldir. Burada Mstislav və Leopold Rostropoviçlər adına məktəbin uşaqları çıxış etdilər – bu, tamamilə fantastik aləm idi.

Heydər Əliyev: Bilirsinizmi, Bakı özünün digər layiqli keyfiyyətləri ilə yanaşı, sözün ən yüksək anlamında həmişə ən musiqili şəhər olmuşdur. Professional, simfonik musiqi, opera musiqisi burada həmişə böyük nüfuza malik olmuşdur. Buna görə də təsadüfi deyil ki, Mstislav Rostropoviç kimi dahi musiqiçi də Azərbaycan torpağında, Bakıda doğulmuşdur. Təsadüfi deyil ki, bir vaxtlar onun atası buraya məhz işləməyə, bununla bərabər, Azərbaycan xalqına yüksək professional musiqi məktəbi yaradılmasına kömək etməyə gəlmişdi. Bu, təsadüfi deyildi.

Vaxt vardı, buna maraq nəinki azalmırdı, həm də vəziyyət sadəcə olaraq elə idi ki, bəlkə də adamların musiqidən istədikləri kimi bəhrələnməyə, simfonik orkestrin konsertlərində olmağa və ya məhz simfonik yönümdə musiqi təhsili almağa imkanı yox idi. Amma srağagün, biz Musiqi Akademiyasında olarkən və bir neçə gün ərzində sizinlə birlikdə olmuş adamları birlikdə dinləyərkən mən oturub düşünürdüm – bu, necə böyük səadətdir, yeni nəsil yetişir, istedadlar var. Onlar həqiqətən çox görkəmli istedadlardır və Azərbaycan xalqı arxayın ola bilər ki, Azərbaycanda musiqi sənətinin, professional musiqi ənənəsi irəliləyəcək, inkişaf edəcəkdir. Slava, bu baxımdan sizin xidmətiniz, sizin rolunuz qiymətsizdir.

Bu gün biz sizinlə Bakı şəhərinin yüksək bir nöqtəsindəyik, bura elə bir yerdir ki, adətən, bütün bakılılar buradan şəhərin, dənizin seyrinə dalırlar, Azərbaycanla, Bakı ilə ilk dəfə tanış olanlar hökmən buraya gəlirlər, çünki buradan çox şey görünür. Burada, vaxtilə sizin də dəfələrlə olduğunuz, – burada mən də çox olmuşam, – bu yüksək nöqtədə şadam ki, sizinlə birlikdəyəm, şadam ki, siz öz dostlarınızın əhatəsindəsiniz. Aydın səmaya, Xəzər dənizinə, gözəl şəhərə baxaraq deyirəm: Ümumən incəsənətin, musiqinin inkişafı üçün etdiyiniz hər şeyə görə sağ olun, Azərbaycana, Azərbaycan incəsənətinə, Azərbaycan mədəniyyətinə göstərdiyiniz çox böyük köməyə görə sağ olun.

Yuli Qusman: Heydər Əliyeviç, bu gün bizimlə birlikdə olduğunuza görə sağ olun. Bu gün biz çox dedik ki, Mstislav Rostropoviç BMT-nin sülh və xoşməramlı elçisidir. Ancaq mənə elə gəlir ki, onun sənəti, musiqisi ölkələrimizi bütün söhbətlərə, bütün siyasətçilərə nisbətən daha möhkəm bağlayır.

Mstislav Rostropoviç: Balaca bir əlavə. Heydər Əliyeviç buraya gələndə biz onun bundan əvvəl mənim ciddi musiqi barəsində de-

diyim belə bir fikri təkrarladığını qeyd etdik: Ciddi musiqini qavramaq üçün dinclik gərəkdir. Heydər Əliyeviç dedi ki, vaxt var idi musiqi tənəzzül edirdi. Çünki qarmaqarışıqlıq, hər şeyə görə – həyata görə, quruluşa görə narahatlıq dövrü idi. Mən bu dəfə buraya gələndə gördüm ki, ötən ildəkinə nisbətən daha çox dinclik, daha çox əminlik var. Əgər bundan sonra da belə getsə, – hökmən belə olacaq, – klassik musiqi çağı da gələcək, onda Siz könül xoşluğu ilə, can rahatlığı ilə konsertə gələcək və böyük musiqidən həzz alacaqsınız.

H e y d ə r Ə l i y e v: Bu gün mənim Bakıya qayıtmağımın beş ili tamam olur. O günləri xatırlayıram – 1993-cü ilin iyun ayını və bu günü. Sual verə bilərlər: mən bu beş ildə nəyi ən mühüm nailiyyət hesab edirəm? Əvvəla, müharibəni, qan tökülməsini dayandırmaq, ikincisi, ictimai-siyasi sabitliyi, dincliyi, insanların azadlığını təmin etmək mümkün oldu. Buna görə də əmin ola bilərsiniz ki, vaxt ötdükcə daha çox sabitlik olacaq, daha çox azadlıq olacaq, daha çox dinclik olacaqdır. Sağ olun.

Y u l i Q u s m a n: Heydər Əliyeviç, proqramda olduğunuza görə sağ olun.

M s t i s l a v R o s t r o p o v i ç: Bu gün Sizin hamınızı Milli Qurtuluş günü münasibətilə bir daha təbrik etmək istəyirəm. Mən bu günü Sizinlə birlikdə bayram edirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun.

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident sarayı
17 iyun 1998-ci il

H e y d ə r Ə l i y e v: Əziz Mstislav Leopoldoviç! Sizi səmimi-qəlbdən salamlayıram. Çox böyük təəssüf hissi ilə bildirirəm ki, Bakını belə tez tərk edirsiniz. Bütün bu günlər ərzində siz Azərbaycan ictimaiyyətinin diqqət mərkəzində idiniz. Bu günlər maestro üçün də, xalqımız üçün də maraqlı, səmərəli, məzmunlu və böyük əhəmiyyətə malik günlər idi.

Coşqunluqla çalışan fəaliyyətiniz təkcə mədəniyyət, musiqi sahəsini deyil, məsələlərin, o cümlədən ictimai-siyasi fəaliyyətlə bağlı məsələlərin daha geniş dairəsini əhatə edən bir insan kimi Siz, öz üzərinizə belə böyük yük götürən dahi musiqiçi bunu öz ürəyinizin çağırışı ilə, vicdanınızın tələbi ilə və öz insani təbiətinizin hökmü ilə edirsiniz.

Ona görə də bizə təəccüblü deyil ki, iyunun 7-dən başlayaraq Siz burada gərgin cədvəllə işləmisiniz. Sizin bütün həyatınız gərgin cədvəl üzrə gedir. Mən bunu başa düşürəm. Lakin bu, bizim ictimaiyyətimiz üçün təəccüblüdür, çünki insan istedadının yüksək sahəsi ilə – musiqi, özü də yüksək professional musiqi ilə məşğul olan yaradıcı insan düşüncələr, yaradıcılıq axtarışları, ona yeni ilham verən istirahət üçün, adətən, çox vaxta malikdir. Mənim fikrimcə Mstislav Rostropoviç bu kateqoriyadan olan adamlardan özünün məhz coşqun, fəal işi ilə, gərgin fəaliyyət cədvəli ilə fərqlənir və onun xoş təəccüb doğuran, qeyri-adi təəssürat yaradan xüsusiyyəti və bənzərsizliyi də elə bundan ibarətdir. Sizi kim tanımasa da, mən yaxşı tanıyıram, ona görə də buna çox təəccüblənmirəm, əksinə, heyranam. Belə düşünürəm ki, bu günlər siz öz vətəninizi – Azərbaycanı, Bakını yenidən fəth etdiniz. Sizin bu günlər Azərbaycanın ictimai-siyasi və mədəni həyatına verdiyiniz töhfəyə görə, indi göstərdiyiniz çox böyük köməyə görə və Azərbaycanda musiqi sənətinin, yüksək professionalizmin inkişafına gələcək köməyinizə görə, habelə maestronun köhnə dostlarının və Azərbaycan musiqiçilərinin gənc nəslinin taleyinə qayğıkeş münasibətinizə görə Sizə təşəkkürümü bildirirəm.

Ermənistan tərəfindən hərbi təcavüzlə bağlı işlərə, Azərbaycan ərazisinin bir hissəsinin işğal olunması, vətəndaşlarımızın öz doğma yerlərindən zorla didərgin salınması ilə əlaqədar xalqımızın düşdüyü vəziyyətə canıyananlıqla yanaşdığınıza görə, təcavüzlə əlaqədar hər şeylərini itirən və bütün çətinliklərə baxmayaraq, başlıca niyyətləri doğma yerlərinə qayıtmaq olan bu mərd, qəhrəman insanların yaşadıqları çadır şəhərciklərinə getdiyinizə görə Sizə ayrıca təşəkkür etmək istəyirəm.

Mən çox şadam ki, bir gün əvvəl olmuş o əla konsertinizdə iştirak etdim və bu konsertdən çox məmnun qaldığımı bildirirəm. Sizin Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestri ilə dirijor kimi çıxış etməyiniz, Qərbin dahi ustadlarının və Azərbaycan bəstəkarı Qara Qarayevin mürəkkəb və maraqlı əsərlərinin səsləndirilməsi böyük mədəniyyət, incəsənət, musiqi bayramı oldu. Bununla bərabər, bu, sizin yeni yaradıcılıq qələbənizdir, müvəffəqiyyətinizdir. Bilirəm ki, siz uzun illər ərzində Londonda, Parisdə, Nyu–Yorkda, Vaşinqtonda, Tokioda dünya şöhrətli simfonik orkestrlərə dirijorluq etmisiniz, mən hələ Moskva və Sankt-Peterburqu demirəm. Bakı bu şəhərlərlə və onların orkestrləri ilə hələlik bəhsləşə bilməz, amma, zənnimcə, orkestrimizin daha yüksəyə qalxmasında sizin iştirakınız ona belə orkestrlərlə bir sırada olmağa kömək edəcəkdir. İndiki halda musiqiçilərimiz də, mən də sizə böyük ümidlər bəsləyirik. Dünən siz belə böyük və nəcib işin yaxşı bünövrəsini qoydunuz.

Sizin Bakıdan getməyinizdən bir daha təəssüfləndiyimi bildirirəm. Sizin bu günlərdə gördüyünüz bütün işlər Azərbaycanın, onun mədəniyyətinin tarixinə, şübhəsiz, ən parlaq səhifə kimi daxil olacaqdır. Hesab edirəm ki, bu, gələcəkdə böyük əməkdaşlığımızın, böyük yolun başlanğıcıdır; elə yolun ki, biz sizinlə bu yolla gedərək, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirəcək, onu demokratiyanın, azadlığın, sivilizasiyanın bütün müasir dünya standartlarına cavab verən dövlətə çevirəcəyik. Bununla birlikdə, bu, Azərbaycan mədəniyyətinin, xüsusən onun simfonik musiqisinin daha da inkişaf etdirilməsi üçün bizim sizinlə birlikdə getdiyimiz yolun başlanğıcıdır. Çox sağ olun.

M s t i s l a v R o s t r o p o v i ç: Hörmətli prezident, mənim unvanıma söylədiyiniz xoş sözlərə, görülən işlər barədə ətraflı məlumat verdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Eyni zamanda bildirmək istəyirəm ki, mən Azərbaycanı tərk etmirəm. Bu fikirlə razılaşmaq mənim üçün çox çətindir. Mən buradan yalnız müvəqqəti olaraq gedirəm. Həmi-

şə sevdiyim Azərbaycan mənim üçün yeni səpgidə açılmış, məndə yeni ruh yüksəkliyi yaratmışdır.

Cənab Heydər Əliyev! Gördüyünüz bu iki fotoalbomu Sizə hədiyyə olaraq hazırlamışam. Onlardan biri mənim qaçqınların çadır şəhərciyinə getməyimdən bəhs edir və jurnalistlərə üz tutub demək istəyirəm ki, bu səfəri mən öz təşəbbüsüm ilə həyata keçirmişəm. Həmin şəhərciklərdə yaşayan insanların layiq olmadıqları bədbəxtlik barədə fikir məni həmişə narahat edibdir. Mən öz sənətimlə qaçqınları sevindirmək üçün violonçelimi özümlə oraya aparmaq istəmişdim. Lakin belə etmədim, yalnız ona görə ki, indi güzəranı çox pis olan qaçqınların məni düzgün başa düşməməsini istəməmişəm. Amma bunu mən adamlar öz doğma yerlərinə qayıtdıqdan sonra onları sevindirmək üçün, onlara həyatlarının yaxşı olacağına ümid verməkk üçün mütləq edəcəyəm.

Çadır şəhərciyinə səfərdən aldığım təəssüratı bölüşərək vurğulamaq istəyirəm ki, mənim orada gördüklərim bütün həyatımda bəlkə də ən güclü təəssüratdır. Bütün bunlar mənim yaddaşıma həmişəlik həkk olacaqdır. Mən söz verirəm ki, qaçqınların öz doğma yerlərinə qayıtması məsələsində irəliləyişlə hər gün maraqlanacağam. Belə düşünürəm ki, vicdanın oyanacağı və hər şeyin öz yerini tutacağı vaxt gəlib çatmalıdır.

Cənab Heydər Əliyev! Bu ikinci fotoalbom isə mənə «Şöhrət» ordeni təqdim olunmasına həsr edilmişdir. Bunu mən həyatımda ən mühüm, unudulmaz anlar adlandırıram.

Heydər Əliyev: Hörmətli Mstislav Leopoldoviç! Sizin Bakıya indiki səfərinizə həsr olunmuş bu fotoalbomu, «Şöhrət» ordeninin təqdim olunmasına dair materiallar verilmiş «Bakinski raboçi» qəzetinin nömrəsini, habelə bu saatı unudulmaz görüşlərimizdən yadigar olaraq hədiyyə verirəm.

Mstislav Rostropoviç: Bakıya səfərim məndə çox böyük sevinc hissləri doğurmuşdur. Lakin indiki səfərimdə mütəəssir olmuşam. Mən özümü həmişə dünyada ən xoşbəxt insan sanmışam, hətta məruz qaldığım çətinliklər mənim xeyrimə olmuşdur – mən zəmanəmizin dahi insanları ilə – Pikasso, Şaqal, Araqon, Çarli Çaplin, Sikorski ilə görüşmək imkanı qazanmışam. Lakin mən Azərbaycan qaçqınlarının düşərgələrində olduqdan, öz doğma ocaqlarını itirmiş insanların ağır həyat və məişət şəraiti ilə tanış olduqdan sonra özümü xoşbəxt hesab edə bilmirəm. Hesab edirəm ki, bu adamlar xoşbəxt olduqdan sonra mən özümü yenidən xoşbəxt saya bilərəm.

Üzümü mətbuat nümayəndələrinə tutaraq, Azərbaycan qaçqınlarının faciəsi barədə, habelə prezident Heydər Əliyevə qaçqınların böyük məhəbbəti, ona böyük ümidlər bəslədikləri barədə dünyaya daha çox məlumat verməyin zəruri olduğunu söyləmək istəyirəm. Belə düşünürəm ki, bu, məhəbbət və bu ümidlər onların ən gözəl keyfiyyətidir. Müharibənin dayandırılmasında Azərbaycan dövlətinin başçısının xüsusi xidməti olduğunu nəzərə çarpdırıram. Mən bu insanı çox sevirəm və ona inanıram.

RUSİYANIN MƏŞHUR BALET USTALARI NADEJDA PAVLOVA VƏ VYAÇESLAV QORDEYEVİN, HABELƏ MOSKVANIN «RUS BALETİ» DÖVLƏT TEATRININ İŞTİRAKI İLƏ BALET GECƏSİNDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLARLA GÖRÜŞDƏ ÇIXIŞ

Respublika sarayı
18 iyun 1998-ci il

Uğurlu çıxışlarınıza görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Sizin hamınızı gözəl çıxışınız münasibətilə təbrik edirəm. Bu gün bizdə incəsənət bayramı, balet bayramıdır. Hər şeydən öncə sizə Azərbaycana, Bakıya gəlməyə imkan tapdığınıza və bugünkü gözəl çıxışlarınızı iyunun 15-də qeyd etdiyimiz milli Qurtuluş günümüzə həsr etdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Respublikamıza, xalqımıza böyük diqqətinizə görə sağ olun.

Siz çıxışınızı layiqincə alqışlayan bütün tamaşaçılara böyük sevinc və zövq verdiniz. Siz Bakıya ilk dəfə gəlmişsiniz. Rus baletinin gözəl ustaları Nadejda Pavlova və Vyaçeslav Qordeyev və bütün bu qədd-qamətli və qəşəng balerinalar Bakıya ilk dəfə gəlmişlər. Siz bu gün çox əla rəqs etdiniz. Bu, böyük bayramdır və yəqin hiss etdiniz ki, tamaşaçılar sizi səhnədən buraxmaq istəmirdilər. Mən çox şadam ki, siz öz gözəl sənətinizi bizim tamaşaçılarımıza, xalqımıza göstərdiniz. Mən şadam ki, bu gün saraya toplaşmış ictimaiyyətimiz sizi bir daha şəxsən gördü. Çünki siz böyük incəsənət ustalarısınız və sizinlə hər görüş estetik zövqdən başqa, həm də böyük hadisədir. Çox sağ olun. Sizə ürəkdən təşəkkür edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Siz hamınız gözəl formadasınız və öz parlaq sənətinizi hələ uzun illər nümayiş etdirəcəksiniz. Rus baleti ən yüksək sənətkarlıq nümayiş etdirir. Mən şadam ki, rus baleti öz layiqli adını, ənənələrini saxlayır və siz bu gün bunu çox gözəl nümayiş etdirdiniz. Bir daha çox sağ olun.

XALQ RƏSSAMI ELBƏY RZAQULİYEVƏ

Bakı şəhəri, 19 iyun 1998-ci il

Hörmətli Elbəy Rzaquliyev!

Sizi – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsini anadan olma gününüz münasibətilə və yaradıcılığınızın 50 illiyi ilə ürəkdən təbrik edirəm.

Siz müasir Azərbaycan rəngkarlığında öz fərdi üslubu ilə seçilən, müxtəlif janrlarda maraqlı əsərlər yaradan rəssam kimi tanınırsınız. Tarixi mövzulara və doğma diyarın təbiətinə həsr olunmuş tablolarınız yaradıcılığınızın mühüm bir hissəsini təşkil edir. Əməyi və zəhmət adamlarını təsvir edən rəsmləriniz Azərbaycanda həyata keçirilən quruculuq işlərinin əsil salnaməsidir. Qədim və müasir Bakıya həsr etdiyiniz silsilə əsərlər ölkəmizin paytaxtının təkrarolunmaz gözəlliyini tərənnüm edir və hər bir azərbaycanlı üçün xüsusi əhəmiyyət kəsb edir.

Obrazların psixologiyasına, daxili aləminə nüfuz etmək bacarığı ilə yaratdığınız portretlər müasir insanın düşüncə və hisslərini, ziddiyyətli və zəngin mənəvi keyfiyyətlərini dərk etməyə çağırır. Səfərləriniz zamanı dünyanın bir çox ölkələrinin həyatına və təbiətinə həsr etdiyiniz lövhələr yaradıcılığınızda mövzu rəngarəngliyinə əyani sübutdur.

Siz milli kinematoqrafiyamızın inkişafında öz bilik və bacarığını sərf etmiş kino rəssamı kimi də şöhrət tapmısınız. Azərbaycan kinosunun nadir inciləri sayılan «Arşın mal alan», «Ögey ana», «Görüş», «Sevil» və başqa filmlərin bədii tərtibatçısı və geyim eskizlərinin müəllifi olaraq onların böyük uğur qazanmasında mühüm rol oynamısınız. Filmlər üçün yaratdığınız eskizlərin bir çoxu öz bədii dəyərinə görə müstəqil rəsm əsərləri kimi dəfələrlə sərgilərdə nümayiş etdirilmişdir.

Sizin – müasir dövrümüzün aktual mövzularını böyük məharətlə işləyən fırça ustasının keçdiyi sənət yolu gənc rəssamlar nəsli üçün gözəl bir nümunədir. Əminəm ki, öz yeni əsərlərinizlə pərəstişkarlarınızı bundan sonra da sevindirəcək və Azərbaycan təsviri sənət məktəbini daha da zənginləşdirəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MOSKVA AKADEMİK SATİRA TEATRININ QRİQORİ QORİNİN EYNİ ADLI PYESİ ƏSASINDA HAZIRLANMIŞ «BƏXTLİ VƏ BƏXTSİZ» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Akademik
Milli Dram Teatrı
20 iyun 1998-ci il

Mən sizə təşəkkür etməyə, Azərbaycana gəldiyinizə görə, Bakıda istilərə baxmayaraq, burada çox müvəffəqiyyətlə keçən tamaşalarınıza görə və parlaq sənətinizə görə çox sağ olun deməyə gəldim. Çox sağ olun.

Bakıda bu vaxt belə isti olduğunu xatırlamıram. Bizdə adətən iyulda çox isti olur. Sizin teatr böyük şöhrətə malikdir. Azərbaycanda sizin teatrı həmişə sevmişlər. Mən, oğlum, övladlarım sizin teatrın, sizin sənətin pərəstişkarlarıyıq. Keçmiş vaxtlarda siz Bakıya gəlirdiniz və biz görüşürdük. Mən Moskvada yaşayıb işləyən vaxtlarda da sizin teatrınıza gedirdim. Şadam ki, sizi böyük fasilədən sonra yenidən görürəm. Doğrudur, sizi, xüsusən Mixail Mixayloviçi və Aleksandr Anatolyeviçi televiziya ilə bəzən görürəm. Sizə baxdıqda sevinirsən ki, heç dəyişməyibsiniz, qocalmayıbsınız, yenə də gözəl, yenə də şən, gülərüzsünüz, həmişə də öz yaradıcılığınızı təkmilləşdirirsiniz. Mən sizin teatrın uğurlarına çox şadam. Sizi Azərbaycanda uğurlu qastrol və Bakı səhnəsində müvəffəqiyyətli çıxışlar münasibətilə təbrik edirəm.

Teatra, konsertə getmək mənim üçün heç də vəzifələrin formal şəkildə yerinə yetirilməsi demək deyildir, bu mənim şəxsi istəyimdir. Bizdə hamının, o cümlədən də mənim işlərim çoxdur. Respublikamızda işlər və problemlər hər hansı ölkədəkinə nisbətən daha çoxdur. Siz ölkəmizdə nə kimi mürəkkəb məsələlər və çətinliklər olduğunu yəqin bilirsiniz. Lakin çox məşğul olsaq da, teatrla görüş, incəsənətlə görüş həmişə bizi sevindirir, böyük ilham verir və işdə kömək edir. Buna görə də mən Azərbaycanda olmuş Slava Rostropoviçin konsertlərinə, bizim Musiqi Akademiyasında onun şagirdlərinin konsertinə getdim, Nadejda Pavlovanın və

Vyaçeslav Qordeyevin balet gecəsində oldum. Söz düşmüşkən, onlar Azərbaycana ilk dəfə olaraq gəlmişdilər. Ancaq biz öz mədəniyyətimizi də unutmuruq. Mən milli teatrımızın tez-tez qonağı oluram. Teatrsız həyat yoxdur.

Bilirsinizmi, mən Respublika sarayında Nadejda Pavlovanın və Vyaçeslav Qordeyevin balet gecəsində olarkən ziyalıların nümayəndələri ilə görüşdüm və onların çoxu mənimlə söhbət əsnasında dedi ki, maddi çətinliklərə baxmayaraq, incəsənət onlar üçün hər şeydən mühümdür. Azərbaycanda dünya incəsənətinin nümayəndələri ilə görüşmək üçün hər cür şərait yaradılması ziyalılarımızı çox sevindirir.

Biz öz milli incəsənətimizi çox qiymətləndiririk, lakin Rusiya incəsənətini də dəyərləndiririk, bizim mədəniyyətimiz qarşılıqlı surətdə çox sıx bağlıdır. Azərbaycan incəsənəti kimi bizə rus incəsənəti də əzizdir.

Çox sağ olun. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

A l e k s a n d r Ş i r v i n d t *«Rusiyanın xalq artisti»*: Hörmətli cənab prezident, səmimi, xoş sözlərə görə sağ olun! Sağ olun ki, vaxt tapıb tamaşamıza gəldiniz. Biz artıq dörd gündür Bakıdayır. Sizinlə birlikdə biz də Slava Rostropoviçin konsertində, sonra Vyaçeslav Qordeyevin və Nadejda Pavlovanın balet gecəsində olduq. Bu gün Siz bizim qonağımızsınız. Elə təsəvvür yarana bilər ki, Sizin dövlət işləriniz çox deyildir, amma əsilində başqa cürdür. Yəni dövlətin rəhbəri onun ölkəsinin mədəniyyətinin nə ilə yaşadığını bilmək istəyir. Əgər Siz üstəlik başqa ölkənin mədəniyyətinə də diqqət yetirirsinizsə, deməli, mədəniyyət yaşayacaqdır. Çox sağ olun.

AZƏRBAYCAN RƏSSAMLAR İTTİFAQININ QURULTAYINA

Bakı şəhəri
29 iyun 1998-ci il

Hörmətli qurultay nümayəndələri!

Sizi və sizin şəxsinizdə Azərbaycan rəssamları və heykəltəraşlarını respublikamızın ictimai və mədəni həyatında mühüm hadisə – Azərbaycan Rəssamlar İttifaqı qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Təməli XVI əsrdə dahi miniatür rəssamı Sultan Məhəmməd tərəfindən qoyulmuş Azərbaycan rəssamlıq məktəbinin qədim və zəngin tarixi vardır. Bu məktəbin görkəmli nümayəndələri təsviri sənətin müxtəlif janrlarında yaratdıqları əsərlərində doğma yurdumuzun füsunkar gözəlliyini, xalqımızın qəhrəmanlıq tarixini, yüksək mənəvi dəyərlərini, azadlıq və xoşbəxtlik amallarını təsvir etməklə onun həyat salnaməsini yazmışlar. Siz öz sələflərinin zəngin ənənələrini ləyaqətlə davam etdirən Azərbaycan rəssamlarının nümayəndələrisiniz. Onların fədakar və səmərəli əməyi ilə yaradılmış sənət abidələri xalqımızın mədəni həyatının nadir incilərini təşkil edərək onun milli şüurunun, estetik zövqünün möhkəmlənməsinə və inkişafına xidmət edir.

Azərbaycan rəssamları və heykəltəraşları xalqımızın azadlıq uğrunda keçdiyi mübarizə yolunu, məruz qaldığı təcavüzün nəticələrini, gündəlik qayğılarını və düşüncələrini öz yaradıcılıqlarında əks etdirərək günümüzün real mənzərəsini yaradır və onu gələcək nəsillər üçün yaddaş kitabına çevirirlər. Qanlı Yanvar hadisələrini, erməni silahlı dəstələrinin Qarabağ müharibəsində törətdiyi vəhşilikləri, Xocalı faciəsini, müharibə nəticəsində qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalmış vətəndaşlarımızın düçar olduğu ağır vəziyyəti təsvir edən əsərlər Azərbaycan təsviri sənət ustalarının vətəndaşlıq mövqeyinin parlaq ifadəsidir.

Azərbaycan rəssamlarının və heykəltəraşlarının respublikamızda və xarici ölkələrdə təşkil etdiyi sərgilər gözəl ənənəyə çevrilmişdir. Bu sərgilər ölkəmizin mədəni həyatının ayrılmaz hissəsini təşkil edir, dünya

xalqlarını Azərbaycanla, onun üzləşdiyi problemlərlə tanış etmək üçün mühüm vasitə rolunu oynayır.

Müstəqil Azərbaycan dövlətinin qarşısında günün tələblərindən doğan mühüm və məsul vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsi yaradıcı ziyalılardan, o cümlədən sizin ittifaqın üzvlərindən də öz səylərini artırmalarını tələb edir. Ümidvaram ki, qurultayınız bu istiqamətdə müzakirələr apararaq Azərbaycan təsviri sənətinin XXI əsrdə inkişaf yollarının müəyyən olunmasında əhəmiyyətli rol oynayacaqdır.

Bu nəcib işinizdə sizə yeni-yeni uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

12 iyul 1998-ci il

Əziz bacılar, qardaşlar, həmvətənlər!

Əziz azərbaycanlılar, müsəlmanlar!

Mən sizi bu bayram – böyük peyğəmbər həzrəti Məhəmməd əleyhissəlamın mövlud günü münasibətilə təbrik edirəm, sizin hamınıza cansağlığı, Azərbaycan xalqına, müsəlmanlarına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Bu gün – bizim üçün əziz olan bu bayram günü Azərbaycan Respublikasının, məmləkətinin, xalqının həyatında tarixi hadisə baş verir. Biz bu gün XIII əsrdə – 700 il bundan əvvəl müqəddəsliyə çevrilmiş bu yerdə toplaşmışıq. Bu müqəddəs yer həzrəti İmam Museyi-Kazimin qızı, həzrəti İmam Rzanın bacısı həzrəti Hökumənin torpağa verildiyi, onun məzarı olan yerdir. Bu yer o vaxtdan indiyə qədər müsəlmanlar üçün müqəddəs yerə çevrilmişdir. Müsəlmanlar bu yeri əsrlər boyu ziyarət etmiş, burada özlərinə ümid, pənah axtarmışlar, dinimizə, Allaha, peyğəmbərə dua etmişlər, özlərini yaşatmışlar, İslam dininə sadiq olduqlarını nümayiş etdirmişlər.

Biz fəxr edirik ki, islam aləmində islamı təmsil edən müqəddəs yerlərdən Azərbaycanda da vardır. Bu müqəddəs yerlərdən ən əzizi bu gün bizim toplaşdığımız yer – həzrəti Hökumənin qəbri, bu qəbrin üzərində vaxtilə ucaldılmış məscidin olduğu yerdir. Allaha, islama sadiq olan insanlar 700 il bundan öncə bu yerdə böyük məscid qurub-yaradıblar və bura Allah evi, islam məbədi kimi daha da geniş vüsət alıbdır, ziyarətgah olubdur. Müsəlmanlar, azərbaycanlıla 700 il həmin məsciddə, bu müqəddəs yerdə Allaha dua ediblər, mənəvi arzularını yerinə yetiriblər, öz dininə, əxlaqına, mənəviyyatına sadiq olduqlarını nümayiş etdiriblər. İslam dini insanlarda – ən yüksək keyfiyyətləri tərbiyə etməyə, formalaşdırmağa çalışıbdır.

İslam dininin dəyərləri ən yüksək mahiyyətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanları bu uca ülvi, yüksək mənəvi

dəyərlər səviyyəsində tərbiyə etmək Allahın buyruğudur, Məhəmməd Peyğəmbərin qoyduğu yoldur. Mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan xalqı bütün çətinliklərdən, bəlalardan, məhrumiyyətlərdən, zillətlərdən keçərək öz dininə, mənəvi dəyərlərinə daim sadiq olmuşdur və heç bir hakimiyyət, hökmdar bunların məhv edilməsinə nail ola bilməmişdir.

Burada, bu müqəddəs yerdə vaxtilə ucaldılmış məscid 60 il bundan öncə vəhşicəsinə partladılmışdır, dağıdılmışdır. Bizim mənəviyyatımıza, mənəvi dəyərlərimizə, islam dininə böyük zərbə vurulmuşdur. Xalqımız, millətimiz bu zərbəni almış, yaralanmış, əzilmiş, ancaq məhv, məğlub olmamış, bu zərbələrə, yaralara, əziyyətlərə dözməyə məcbur olmuşdur. Lakin bütün bunlara dözərək, bu müqəddəs yerə olan sevgisini, məhəbbətini, inamını qəlbində yaşatmış və bu müqəddəs yerdən heç vaxt ayrılmamışdır. Təsadüfi deyildir ki, bu məscid dağılandan sonra da və burada həzrəti Hökumənin qəbri bərbad olunandan sonra da insanlar bu yeri özlən üçün daim nicat, ümid yeri etmişlər. Bu yer bir ziyarətgah kimi öz mənasını heç vaxt itirməmişdir. İnsanlar buraya daim ziyarətə gəlmişlər, burada öz arzularını yerinə yetirmişlər yaşamaq, yaratmaq üçün bu müqəddəs yerdən dayaq, mənəvi güc, dəstək almışlar.

Bunlar hamısı Azərbaycan xalqının tarixidir. Bizim böyük və qədim tariximizin şanlı, şöhrətli, uğurlu səhifələri ilə yanaşı faciəvi səhifələri də vardır. Bunlar hamısı bizimdir. Biz uğurlarımızla, qələbələrimizlə, xalqımızın tarix boyu nailiyyətləri ilə fəxr etmişik. Bunlar xalqımızı yaşadıb, irəliyə aparıb, inkişaf etdirib. Ancaq biz tariximizin əziyyətli, əzablı, faciəvi səhifələrinə, mərhələlərinə isə dözmüşük. Bizim qeyrətli namuslu ata-babalarımız, əcdadlarımız bütün bunlara dözüblər, ancaq sınmayıblar, sarsılmayıblar, iradələrini itirməyiblər, umidlə yaşayıblar. Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.

Biz bu müqəddəs yerdə abadlıq işləri aparılmasına və vaxtilə dağıdılmış məscidin bərpa edilməsinə bir neçə il bundan öncə başlamışıq. Xalqımız bu məscidin bərpa edilməsini daim istəyibdir. Xüsusən sovet hakimiyyəti dağılandan, Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən, dinimizə – islam dininə azadlıq veriləndən sonra insanlarda bu istək, arzu daha da artmışdır. Bu gün bizim üçün böyük tarixi hadisə, böyük xoşbəxtlikdir ki, bu arzularımızı artıq yerinə yetirə bilmişik. Burada, bu müqəddəs yerdə gözəl, bu müqəddəs yerə, islamiyyətə, millətimizə, xalqı-

mıza layiq bir məscid tikib yarada bilmişik. Bu, tarixi hadisədir. Bu bayram günü biz buraya bu məscidin yenidən doğulması, dünyaya gəlməsi münasibətilə toplaşmışıq. Bu, Azərbaycan müsəlmanları, güman edirəm, bütün islam aləmi üçün ikiqat bayramdır. Məhəmməd peyğəmbərin mövlud günü həzrəti Hökumənin, həzrəti imamlarımızın övladlarının, qohumlarının qəbirləri üzərində əzəmətli bir məscidin açılması ikinci bir bayramdır.

Əziz bacılar və qardaşlar, mən bu tarixi hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını, islam aləmini təbrik edirəm. ümidvar olduğumu bildirmək istəyirəm ki, bu məscid bundan sonra daha da genişlənəcək, böyüyəcək və xalqımıza, islamiyyətə ədəbi, sonsuz olaraq öz xidmətini göstərəcəkdir.

Mən bu məscidə, binaya baxarkən həddindən artıq sevinirəm. Azərbaycanda böyük memarlıq abidələri vardır. Bu abidələri xalqına, millətinə əsrlər boyu xidmət edən insanlar yaradıblar. Azərbaycanda – Bakıda və respublikamızın başqa şəhərlərində, yaşayış məntəqələrində son onilliklərdə böyük və gözəl memarlıq abidələri yaradılmışdır. Bu məscid öz xüsusi mənası və məqsədi ilə bərabər, xalqımızın böyük, dəyərli və gözəl memarlıq abidəsidir. Beləliklə, bu məscid Azərbaycanın mədəniyyət, memarlıq tarixini zənginləşdirən bir abidədir. Bunun mənası həqiqətən çox yüksəkdir. O, həm ibadətgahdır, həm müqəddəs yerdir, həm ziyarətgah, həm də gözəl memarlıq abidəsidir. Ümid edirəm ki, gələcək nəsillər bizim bu tarixi, xeyirxah işimizi layiqincə qiymətləndirəcək, bu məscidi, ziyarətgahı əbədi yaşadacaq və bu müqəddəs yerin başına keçmişdə gəlmiş bəlalara bir daha yol verməyəcəklər.

Mən, eyni zamanda, bu məscidin tikilməsini Azərbaycan xalqının, müsəlmanlarının və islam dininə hörmət edən, sadiq olan insanların ümumxalq işi kimi qiymətləndirirəm. Məhz ümumxalq işi nəticəsində biz bu gün bu gözəl ibadətgahın, abidənin önünə toplaşmışıq. Ona görə də bu işdə az da, çox da zəhmət göstərənlərin hər biri hörmətə layiqdir.

Mən hamıya təşəkkür edirəm. Xüsusən Bakı Şəhər İcra Hakimiyyəti və icra hakimiyyətinin başçısı burada çox işlər görübdür. Mən onların gördüyü işləri xüsusi qiymətləndirirəm, onlara təşəkkür edirəm. Burada çalışan və bu müqəddəs yerə daim bağlı olan, həqiqətən vətənpərvərlik, öz millətinə sədaqət nümayiş etdirən Hacı Hikmətin xidmətlərini xüsusı qiymətləndirirəm. Mən hər dəfə buraya gələndə Hacı Hikməti nəinki görmüşəm, onun bu yerə nə qədər bağlı olduğunun, xidmət göstərdiyinin şahidi olmuşam. Ona görə də hörmətli Hacı Hikmətə və burada onunla

bərabər fəaliyyət göstərən din xadimlərinin hamısına hörmətimi, ehtiramımı və təşəkkürümü bildirirəm.

Görülən bu işlər Azərbaycanda islam dininin bugünkü vəziyyətini nümayiş etdirir. Bugünkü vəziyyət də odur ki, ölkəmizdə, cəmiyyətimizdə islam dini özünəməxsus yer tutubdur, mənəvi dəyərlərimizin daşıyıcısı və mənəvi qida mənbəyi kimi xalqımıza xidmət edibdir. Hesab edirəm ki, bu, xalqımızın son illərdə ən gözəl nailiyyətlərindən biridir.

Bizim doğma islam dinimizin Azərbaycanda öz yerini tapmasında, insanların öz dini etiqadlarını yerinə yetirməsində, dinimizin özünəməxsus yer tutmasında Qafqaz Müsəlmanları İdarəsi və bu idarənin başçısı şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Azərbaycanın prezidenti kimi, mən bu fürsətdən istifadə edərək, respublikamızda islam dininin bütün tələblərinin yerinə yetirilməsi və insanlara vicdan azadlığının verilməsi sahəsində əldə etdiyi nailiyyətlərə, Azərbaycanda xalqın, millətin birliyinin, həmrəyliyinin möhkəmləndirilməsində, inkişaf etməsində göstərdiyi fəaliyyətə görə Qafqaz Müsəlmanları İdarəsinə və onun rəhbəri hörmətli Hacı Allahşükür Paşazadəyə hörmət və ehtiramımı bildirirəm, ona və onun ətrafında olan bütün din xadimlərinin hamısına təşəkkür edirəm. Əziz qardaşlar, gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Bu müqəddəs yeri, ziyarətgahı abadlaşdıran, bu məscidin inşasında iştirak edən hər bir kəs öz millətinə, xalqına, dininə böyük xidmət göstərmişdir. Ona görə mən memarlara, inşaatçılara, fəhlələrə, hətta burada kərpic üstünə bir kərpic qoyan hər bir kəsə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Bu gün gördüyümüş məscid, bu böyük abidə bizi sevindirir.

Ancaq hesab edirəm ki, bu, işin birinci mərhələsidir. Bu tikinti layihə üzrə tamamilə başa çatmalıdır. Bu gün bəyan edirəm ki, bu məscid kompleksinin layihə üzrə tam sona çatmasını mən öz himayəmə götürürəm və onun həyata keçirilməsi üçün bütün imkanları yaradacağam, lazım olan yardımları edacəyəm.

Bu müqəddəs yerin ətrafı da ona layiq olmalıdır. Ona göra mən hesab edirəm ki, bu məscidin ətrafında adablıq işləri aparılmalıdır. Ola bilər, bu abadlıq işləri ətrafdakı bəzi binaların yerinin dəyişdirilməsi ilə əlaqədar olsun. Hesab edirəm ki, biz bu müqəddəs yeri gərək hər cəhətdən layiqli edək çünki artıq bu məscid tikiləndən, onun içərisində həzrəti Hökümənin və imam övladlarının qəbirlərinin yeri xüsusi müəyyən ediləndən sonra bu müqəddəs yer təkcə Azərbaycan müsəlmanları üçün yox,

bütün dünya müsəlmanları üçün böyük bir ziyarətgaha çevriləcəkdir. Buraya ziyarətə gələnlərin sayı ilbəil artacaqdır. Ona görə də, hesab edirəm ki, bu məscidin ətrafında böyük bir kompleks yaradılmalıdır. Din xadimlərimiz əgər mənim bu fikirlərimlə razılaşsalar, belə bir layihənin mənə təqdim olunmasını arzu edərdim. Mən belə bir ləyihənin həyata keçiriləcəyinə söz verirəm.

Biz islam aləminin bir hissəsiyik. İslam dünyasında islam tarixinə məxsus olan müqəddəs yerlər, ziyarətgahlar vardır. Biz fəxr etməliyik ki, bu müqəddəs yerlərdən, ziyarətgahlardan Azərbaycanda da vardır. Onların ən hörmətlisi və ən qiymətlisi bu gün bizim toplaşdığımız yerdir. Ona görə də islam aləminin müqəddəs ziyarətgahı kimi bu yer dünyada tanınmalıdır, təbliğ olunmalıdır ki, islam tarixi bu yerin bu gününün və keçmişinin izahı ilə daha da dolğunlaşsın. Bir də ona görə ki, islam tarixinin hər bir müqəddəs yeri ümumi tarix kitablarında öz yerini tapsın. Bu işi də görmək lazımdır. Hesab edirəm ki, bunların hamısını etmək üçün mənim irəliyə sürdüyüm təkliflər çox lazımdır. Siz bununla razısınızmı?

(Yerdən səslər: bəli, razıyıq).

Əziz bacılar, qardaşlar, dostlar!

Bizim həyatımızda xoşbəxt günlər o qədər də çox deyil. Həyatımız ağırdır, çətindir. Ancaq bu gün Allaha şükür etməliyik ki, biz xoşbəxt dəqiqələr yaşayırıq, bayram günündə bir yerə toplaşmışıq, öz peyğəmbərimizin mövlud gününü bir yerdə bayram edirik və bunu gözəl bir hadisə ilə bərabər qeyd edirik. Bu, böyük xoşbəxtlikdir.

Mən bu xoşbəxt gün, bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına, doğma millətimizə öz sevgimi, məhəbbətimi bildirirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı bizim milli mənəvi ənənələrimizin yaşaması üçün ən əsas zəmanətdir. Əmin ola bilərsiniz ki, Azərbaycanın dövlət müstəqilliyi indi etibarlı əllərdədir. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqının milli azadlığının, dövlət müstəqilliyinin gündən-günə möhkəmlənməsi üçün mən və bütün Azərbaycan dövləti əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Beləliklə, biz xalqımızı yaşadacağıq, millətimizi bir millət kimi yaşadacağıq, Azərbaycan xalqının dünya xalqları içərisindəki layiqli yerini möhkəmləndirəcəyik. Dünya xalqlarını həm ölkəmizdə, həm də dünyada Azərbaycanın milli, mənəvi, dini dəyərlərinə hörmət etməyə çağıracağıq və buna nail olacağıq. Bunların hamısı üçün bizim xalqımızda milli birlik, həmrəylik lazımdır. Bu, bu gün vardır və əminəm ki, bu birlik, həmrəylik günü-gündən artacaqdır. Mən sizi əmin edi-

rəm ki, Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi günü-gündən möhkəmlənəcək, sarsılmaz, əbədi, sonsuz olacaqdır.

Mən sizin hamınıza cansağlığı arzu edirəm, hər birinizə ailə xoşbəxtliyi arzulayıram. Xalqımıza, millətimizə xoşbəxt gələcək, sülh, əmin-amanlıq arzu edirəm. Sağ olun.

LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNDƏKİ SÖHBƏTDƏN

24 iyul 1998-ci il

Xanımlar və cənablar! Əziz soydaşlarımız!

Bu gün burada, London şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində dünya şöhrətli Azərbaycan rəssamlarının əsərlərinin nümayiş etdirildiyi sərginin açılışında iştirak etmək mənə xüsusi zövq verdi. Vətənimizdən çox uzaqlarda, Avropanın ən qabaqcıl ölkələrindən birində xüsusi zövqlü Qərb tamaşaçısını əsasən, neft mövzusunda çəkilmiş Səttar Bəhlulzadənin «Neft ritmləri», Ömər Eldarovun «Fəhlə portreti», Elbəy Rzaquliyevin «Kompozisiya», Tağı Tağıyevin «Neft daşlarında gecə», Mirismayıl Cəfərovun «Neft daşları», Ələkbər Rzaquliyevin «Bayılda rezervuarlar», Nadir Qasımovun «Xəzər mənzərəsi», Arif Hüseynovun «Abşeron motivi», Mirzağa Qafarovun «Xəzər mənzərəsi», Anar Ələsgərovun «Qara sahil», Toğrul Dadaşovun «Konstruksiya» əsərləri ilə tanış edən Azərbaycan Mədəniyyət Mərkəzi bu məqsədlə, göründüyü kimi, rəssamlarımızın ən maraqlı əsərlərini cəlb etmişdir. Xalq rəssamı, görkəmli heykəltəraşımız Ömər Eldarov mənimlə yanaşı, mədəniyyətimizin burada toplanan pərəstişkarlarını, Londonda yaşayan soydaşlarımızı, eləcə də ölkəmizdə iş görən və sərginin açılışında iştirak edən bir sıra xarici şirkətlərin rəhbərlərini əsərləri sərgidə nümayiş etdirilən rəssamların işləri və fəaliyyəti ilə tanış etdi.

Mən Londonda belə bir sərginin təşkil edilməsini yüksək qiymətləndirir, sərginin təşkilatçılarına təşəkkür edirəm.

Burada mənə Londonda buraxılan «Kəspiən» jurnalının son nömrəsi təqdim edildi. Belə bir jurnalın nəşr olunması, əlbəttə ki, çox təqdirəlayiq işdir. Jurnalın naşirlərindən olan Müslüm Eldarov bu son nömrədə dərc edilmiş materiallar haqqında mənə məlumat verdi. Jurnalın səhifələrində maraq doğuran vacib məsələlər əhatə olunur.

Bir daha sərginin təşkilatçılarına təşəkkürümü bildirir, sizə vətənimiz haqqında həqiqətləri, mədəniyyətimizi dünyaya çıxarmaq işində uğurlar diləyirəm.

XALQ ARTİSTİ
RASİM BALAYEVƏ

Bakı şəhəri, 7 avqust 1998-ci il

Hörmətli Rasim Balayev!

Sizi – müasir Azərbaycan kino sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 50 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz milli kinomuzun zəngin ənənələrini layiqincə davam etdirərək oynadığınız parlaq rollarla tamaşaçıların hörmətini qazanmısınız. Azərbaycan kinosunda yaratdığınız ilk obraz – Nəsimi obrazı fitri istedad və bacarığınız sayəsində kinomuzun nadir inciləri sırasına daxil olmuş və sizin gələcək yaradıcılığınıza güclü təkan vermişdir. Qüdrətli şəxsiyyətlərin obrazlarını məharətlə yaradaraq siz tarixi keçmişimizlə müasirlik arasında bir körpü salmısınız, milli-mənəvi dəyərlərimizin təbliğində böyük xidmətlər göstərmisiniz.

Kino sənətinin imkanlarından ustalıqla istifadə edərək müasirlərimizin də zəngin, dolğun obrazlarını ekranda təcəssüm etdirmisiniz. Təsadüfi deyil ki, oynadığınız və öz təbiiliyi, inandırıcılığı ilə səciyyələnən bütün rollar sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır.

Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi kimi göstərdiyiniz ictimai fəaliyyət də təqdirəlayiqdir. Sizin yaradıcılığınız və ictimai fəaliyyətiniz dövlət tərəfindən yüksək qiymətləndirilmiş və çəkdiyiniz zəhmətə görə müxtəlif mükafatlara layiq görülmüsünüz. Lakin ən böyük mükafatınız xalq məhəbbəti olmuşdur.

Əminəm ki, sənətkar ömrünün müdrik çağına qədəm qoyduğunuz bir dövrdə böyük təcrübə toplamış məşhur aktyor kimi müstəqil Azərbaycanımızın mədəniyyətinin inkişafı üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, pərəstişkarlarınızı yeni-yeni rollarla sevindirəcəksiniz.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, sənətinizdə uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

Prezident iqamətgahı
21 avqust 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan dövlətinin dövlətçilik atributlarından biri dövlətin mükafatlarıdır – ordenlər, medallar və başqa mükafatlardır.

Bildiyiniz kimi, Azərbaycan dövlətinin ordenləri, medalları təsis olunub və ötən illərdə Azərbaycanın görkəmli şəxsləri bu ordenlərlə, medallarla təltif ediliblər. Təltif olunanların əksəriyyəti Azərbaycanın mədəniyyət, elm xadimləri – ədəbiyyatda, incəsənətdə, elmdə xalq qarşısında xidmət göstərmiş, fərqlənmiş şəxslərdir.

Bu gün siz təltif olunanlara ordenlərin təqdim edilməsi mərasiminə dəvət olunmusunuz. Mən də bu şərəfli vəzifəni, yəni ordenləri sizə təqdim etmək kimi şərəfli vəzifəni həyata keçirməyimdən çox məmnunam.

Mərhum xalq yazıçısı İlyas Əfəndiyevin layiq görüldüyü «Şöhrət» ordenini onun oğlu Elçin Əfəndiyevə təqdim edirəm. Heyf ki, mən bu ordeni İlyas Əfəndiyevin özünə təqdim edə bilmədim, çox təəssüf edirəm. Çünki o vaxt, sadəcə, bizim bu nişanlarımız hazır deyildi. Ancaq, eyni zamanda, mən məmnunam ki, Elçin, sən onun yaradıcılığını davam etdirirsən. Həm oğlu kimi, həm də Azərbaycanın mədəniyyət xadimi kimi sənin İlyas Əfəndiyevə məxsus olan ordeni almağa tam hüququn var.

E l ç i n Ə f ə n d i y e v: Hörmətli prezident! Əziz dostlar!

Sizin dediyiniz kimi, mən də böyük bir ağrılı-acılı duyğu ilə təəssüf edirəm ki, layiq olduğu bu yüksək mükafatı bu gün Sizdən bilavasitə İlyas Əfəndiyev özü almadı. Ancaq təskinliyi onda tapıram ki, bu gün İlyas Əfəndiyevin ruhu burada, bu salonda, bizimlə bir yerdədir və onun ruhu şad olur. Şad olur ona görə ki, İlyas Əfəndiyev bütün varlığı, canıqanı ilə Azərbaycan xalqına bağlı olan sənətkar, yazıçı idi. Bütün varlığı ilə Azərbaycan Respublikasına, onun müstəqilliyinə və ərazi bütövlüyünə bağlı bir sənətkar idi. İlyas Əfəndiyev Azərbaycan Respublikasının pre-

zidentinə, cənab Heydər Əliyev, şəxsən Sizə son dərəcə böyük hörmət və ehtiram bəsləyən bir insan idi.

Mən bu yüksək mükafata görə İlyas Əfəndiyevin ailə üzvləri adından Sizə bir daha dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirirəm. Çox sağ olun.

H e y d ə r Ə l i y e v : Xalq yazıçısı Hüseyn İbrahimovu orden alması münasibətilə təbrik edirəm.

H ü s e y n İ b r a h i m o v: Hörmətli prezident! Dörd il bundan əvvəl Siz məni Azərbaycanın şöhrət rəmzi olan «Şöhrət» ordeni ilə təltif edəndə və 75 yaşım münasibətilə təbrik edəndə ürəyimdən çox qəribə bir hiss keçmişdi. Düşünürdüm ki, gün o gün olsun, mən Sizin 75 yaşınızı təbrik edim. Düzdür, mən uzaqda yaşadığım üçün Sizi bilavasitə təbrik edə bilmədim. Ancaq bu il çıxan üç kitabımı Sizə hədiyyə göndərdim və onlardan birində Sizə avtoqraf-təbrik yazdım. Bunlar mənim seçilmiş əsərlərimdir və oraya böyük memar Əcəmi Əbubəkr oğluna həsr etdiyim «Əsrin onda biri» romanım daxil edilmişdir. Mən avtoqraf-təbriki ona görə bu roman olan kitabda yazdım ki, Sizi XX əsr Azərbaycanının Atabəyi hesab edirəm. Ona görə öz ürək sözlərimi yazdım ki, bəlkə Sizi üzbəüz görüb öz təşəkkürümü çatdıra bilmədim.

Bu gün özümü xoşbəxt sayıram ki, üzbəüz Sizin 75 illiyinizi təbrik edirəm. Fürsətdən istifadə edərək onu demək istəyirəm ki, bu xalqa lazım olan şəxsiyyət olduğunuz üçün Allah-təala Sizə uzunömürlülük kimi bir bəxtəvərlik, xoşbəxtlik nəsib edibdir. Bir də ona görə Sizə təşəkkürümü bildirirəm ki, bu yaxınlarda bir qrup yazıçı ilə birlikdə mənə də «Xalq yazıçısı» kimi yüksək ad vermisiniz. Mən bu fəxri adı Sizin ürəkdən bağlandığınız, sevdiyiniz Naxçıvan torpağına məhəbbətiniz və ehtiramınız kimi qiymətləndirirəm. Lev Tolstoyun gözəl bir kəlamı var, deyir ki, Yasnaya Polyanasız bütün Rusiyanı təsəvvür etmək çətindir. Naxçıvansız da bütün Azərbaycanı təsəvvür etmək çətindir.

Arzu edirəm ki, Siz həmişə xeyirxah fərmanlar imzalayasınız, xoş niyyətli, xoş məramlı, xoş müjdəli sərəncamlar verəsiniz. İstərəm ki, Siz xalqımızı XXI əsrə aparan bələdçi olasınız. Mən istərəm ki, ölkəmizin haqq qafiləsinin sarbanı Siz olasınız və onu XXI əsrə aparasınız. İstərəm ki, Siz XXI əsrin ilk illərində də Azərbaycanın prezidenti olasınız və xalqımıza başçılıq edəsiniz. Biz torpaqlarımızı erməni işğalçılarından dinc yolla azad edə bilsək, ona Siz rəhbərlik edəsiniz. Lazım gəlsə, böyük intiqam günü üçün ayağa qalxmalı olsaq, ordumuzun baş komandanı Siz olasınız. Gələn il Sizin 76 yaşınız tamam olur, mənim isə 80 yaşım. Mən

bu 80 yaşı Naxçıvan torpağında yaşamışam. Ona görə də Sizə xeyir-dua verməк istəyirəm. Allah-təala Sizi həmişə hifz eləsin, Sizi bu xalqa çox görməsin. Mənim bu sözlərimi də ixtiyar bir yazıçının həmişə cavan görünən prezidentə xeyir-duası kimi qəbul edin.

Heydər Əliyev: Mərhum xalq yazıçısı İsmayıl Şıxlının oğlu Elçin Şıxlıya atasının ordenini təqdim edərək, – İlyas Əfəndiyev haqqında dediyim sözləri İsmayıl Şıxlı haqqında da təkrar etmək istəyirəm. Mənim İsmayıl Şıxlıya olan böyük hörmətim məlumdur. Onun Azərbaycan xalqı qarşısındakı xidmətləri də hamıya məlumdur. Təəssüflər olsun ki, o, həyatı vaxtsız tərk etdi və mən bu ordeni şəxsən ona təqdim edə bilmədim. Sənə, onun oğluna təqdim edirəm. Allah bundan sonra sizin ailənizə heç bir qəm-kədər verməsin.

Elçin Şıxlı: Məndən əvvəl burada İlyas Əfəndiyevin oğlu, – onunla da adaşıq, – Elçin müəllim bir söz dedi, onu təkrar etmək istəyirəm. Çox təəssüf ki, atam özü bu böyük mükafatı Sizdən ala bilmədi. Sağ olun.

Heydər Əliyev: Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Hacı Allahşükür Paşazadəni orden alması münasibətilə təbrik edirəm. Şeyx həzrətləri, siz Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş və bunlara görə də bu yüksək mükafata layiq olmusunuz. Bu ordeni məmnuniyyətlə təqdim edir, sizə cansağlığı arzulayıram.

Şeyxülislam Hacı Allahşükür Paşazadə: Möhtərəm prezident! Mən hesab edirəm ki, bu təltif bütün Qafqaz müsəlmanlarına, mənəviyyatımıza verilən qiymətdir. Müstəqil Azərbaycan dövlətinin rəhbərinin mənəviyyatımıza verdiyi qiymətdir. Ona görə də mən Allah-təaladan Sizə cansağlığı, uzun ömür, başda Siz olmaqla bütün xalqımıza xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

Heydər Əliyev: Mərhum akademik İmam Mustafayevin təltif olunduğu ordeni onun qızı Tərlan Mustafayevaya təqdim edirəm. Təəssüf edirəm ki, bizim dəyərli insanlarımız həyatdan gediblər. Ancaq onların gördükləri işlər durur, o cümlədən İmam Mustafayevin gördüyü işlər də yaşayır. Ordeni də böyük məmnuniyyətlə sizə təqdim edirəm.

Tərlan Mustafayeva: Bu gün mənim üçün çox təsirli, gözəl gündür ki, atamın layiq görüldüyü mükafatı Sizdən alıram. Məni buraya dəvət etməyi lazım bildiyinizə görə ailəmiz Sizə minnətdardır. Otuz ildir ki, Siz həmişə bizim ailəmizə böyük diqqət göstərmisiniz. Ailəmizin, atamın çətin günlərində həmişə elə etmisiniz ki, ədalət öz yerini tutubdur. Bunu unutmaq olmaz.

Mən Sizi ad gününüz münasibətilə təbrik edənlərə həmişə qibtə edirdim. İcazə verin, bu gün mən də Sizi təbrik edim. Çünki bu il Sizin ilinizdir, ona görə də dekabrın 31-dək təbrik etmək olar. Sizə xoşbəxtlik, cansağlığı, tükənməz enerji arzulayıram. Qoy Sizin bütün ülvi arzularınız həyata keçsin.

Sizə kiçik bir hədiyyə etmək istəyirəm. Ərəb ustalarının hazırladıqları bu metal nimçədə Allahın 99 adı həkk olunmuşdur. Qoy bu Sizi hifz eləsin.

H e y d ə r Ə l i y e v : XXV olimpiya oyunlarının çempionu Nazim Hüseynovu orden alması münasibətilə təbrik edirəm.

N a z i m H ü s e y n o v: Möhtərəm prezident! Fəxr edirəm ki, Siz mənə yüksək «Şöhrət» ordenini təqdim etdiniz. Sizə uzun ömür, cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Xalq artisti Qəmər Almaszadəyə ordeni təqdim edir və onu təbrik edirəm. Sizi yubileyiniz münasibətilə təbrik edirəm. Ancaq hesab edirəm ki, bir müddətdən sonra sizi daha bir yubiley münasibətilə təbrik edəcəyik. Bu mükafat əvvəlki yubileyə görədir. Elə bilirəm ki, sonrakı yubileyi daha yaxşı qeyd edəcəyik və siz daha yüksək mükafata layiq görüləcəksiniz.

Azərbaycanda maarifin inkişafında böyük xidmətləri olan Sona xanım Tağıyevaya bu yüksək mükafatı təqdim edirəm. Mən sizi təbrik edirəm. On illərdir sizinlə əməkdaşlıq edirik. Şadam ki, bu gün də varsınız və Azərbaycan ordenini sizə təqdim edirəm.

S o n a T a ğ ı y e v a: Hörmətli prezident! Bu, dördüncü ordendir ki, mənə verirsiniz. Bu, maarifə olan böyük hörmətdir. Siz 1969-cu ildən 1982-ci ilədək maarifimizin inkişafına nə qədər böyük qayğı göstərmisiniz. Mən 1969-cu ildən 1982-ci ilə qədər Heydər Əliyevin Mərkəzi Komitədə işləməsini görmüşəm. Plenumlardan qayıdanda həmişə müəllimlərə danışardım – nə qədər diqqət, qayğı göstərirdi. 1982-ci ildən sonra maarifimiz çox kasıbladı, 1990-cı ildən sonra isə birdən dağıldı. Amma indi Siz əvvəlki maarifimizi bizə qaytardınız. İndi hamı bilir ki, arxasında Heydər Əliyev kimi çox qayğıkeş prezidentimiz var. Siz uşaqların bayramlarında əyilib onları öpür, qucağınıza götürürsünüz, görün, ürəyinizdə nə qədər atalıq, babalıq qayğısı var! Nə qədər sevinirəm ki, prezidentimiz işinin bu cür çoxluğuna baxmayaraq, məni də yaddan çıxarmır. İlham 6 nömrəli məktəbdə oxuyanda onun buraxılış gecəsində olmağınız da yadımdadır. Biz bunların hamısını müəllimlərə, uşaqlara danışırıq. Tədrisimizə daxil etmişik ki, aşağı siniflərdən on birinci sinfə qədər şagirdlərimiz prezidentimizin həyat və fəaliyyətini bilsinlər. Hər dəfə dərs za-

manı uşaqlara deyirəm ki, Siz Heydər Əliyevə baxırsınızmı, görürsünüzmü necə olmaq lazımdır?

Siz mənə qardaşlıq etmisiniz, bəlkə də özünüz bilmirsiniz. Mən Sizə ailəm adından cansağlığı arzu edirəm. İki gün qabaq Səbail rayonunda maarif işçiləri toplaşmış, seçkidə hamı Sizə səs verəcəyini bildirmişdir.

H e y d ə r Ə l i y e v : Əməkdar idman ustası **Ələkbər Məmmədovu** təbrik edirəm. Futbolumuz da yaşayır, inkişaf edir və edəcəkdir.

Xalq şairi Fikrət Qocanı yüksək mükafat alması münasibətilə təbrik edirəm.

F i k r ə t Q o c a: Cənab prezident! Keçən dəfə «İstiqlal» ordeni təqdim ediləndə mənim dostum, qardaşım Anarın dediyi sözləri təkrar eləmək istəmirəm. Amma demək istəyirəm ki, onunla yüz faiz razıyam. Ancaq həm 75 illiyinizi təbrik etmək üçün, həm də bugünkü gün münasibətilə Sizə zarafatyana balaca bir şeir yazmışam:

İstiqlal verdiniz,
şöhrət gətirdiz bizə,
Bu yerdə ehtiyac var
qafiyələnmiş sözə.
Çox yaxşılıq etmisiz,
demirəm ki, aman ver,
Bir yaxşılıq da elə,
bir az bizə zaman ver,–
Bir yetmiş il də yaşa
Belə cavan,
Firavan,
Hər gün zövq ala-ala.
Mən də o yetmiş ildə
Sizin yaxşılığınızdan
Çıxaram bala-bala.

H e y d ə r Ə l i y e v: Üzeyir Hacıbəyovun Dövlət Ev Muzeyinin direktoru Ramazan Xəlilovu təbrik edirəm.

Mən istəyirəm ki, sizin 100 illiyinizi qeyd edək, mən bunu gözləyirəm. İstəyirəm özüm də o vaxtadək yaşayım və 100 illik yubileyiniz münasibətilə sizə mükafat təqdim edim.

R a m a z a n X ə l i l o v: Zati-aliləri, bizim əziz, çox hörmətli prezidentimiz!

80 il bundan əvvəl 3-cü Ləzgi Süvari Alayının komandiri mənə poqonlar və başlıq təqdim edərək dedi ki, poqonları şərəflə, başlığı isə ləyaqətlə daşı. Bugünkü gün təkcə məndən ötrü deyil, hamı üçün, bizim bütün ziyalılarımız üçün böyük bayramdır. Bu gün mən yaradıcılığıma görə Sizin əlinizdən yüksək mükafat alıram. Ürəyim Sizin ünvanınıza demək istədiyim səmimi sözlərlə doludur. Mən Sizin çıxışlarınızı diqqətlə izləyir və hər gün ən müxtəlif səviyyəli adamlarla gördüyünüz nəhəng işə heyran qalıram.

Allah Sizə böyük istedad bəxş edibdir. Lakin bu istedad misilsiz zəhmətlə birləşibdir. Siz elə bir insansınız ki, istənilən səviyyədə, istənilən diplomatlarla danışıqlar apara bilirsiniz. Bunu hər kəs bacarmır. Ona görə də demək istəyirəm ki, Heydər Əliyevin ətrafında birləşmək lazımdır, bəziləri kimi ona mane olmaq yox, kömək etmək lazımdır. Mane olmaq istəyən miskin adamlardır, onlar xalqa xidmət etmək üçün yox, öz ciblərini doldurmaq üçün vəzifə tutmaq istəyirlər. Xalqın əsil xidmətçisi Sizsiniz. Siz bütün biliyinizi, qüvvənizi, sağlamlığınızı öz xalqınıza həsr edirsiniz.

Mən II Nikolaydan başlamış çox adamlarla görüşmüşəm, sonuncu görüşüm Cövhər Dudayevlə olubdur. Təhlil etməyə imkanım var. Heydər Əliyeviç, deyə bilərəm ki, Allahın verdiyi xoşbəxtlikdir ki, Azərbaycanın Sizin kimi övladı var. Siz hər şeyi, hamını yadda saxlayırsınız, Sizin fövqəladə yaddaşınız var. Elə burada müxtəlif sahələrdən olan nə qədər adam əyləşib, Siz onların hər birini tanıyırsınız. Allah Sizə uzun ömür versin ki, respublikamıza rəhbərlik edəsiniz. Çünki mən respublikanı bu çətin vəziyyətdən çıxara biləcək ikinci adam tanımıram.

Öz ölkəsinin «Şöhrət» ordeninə layiq görülmək hər adama qismət olmur. Siz bizim hər birimizin əməyinə qiymət vermisiniz. Çox sağ olun, Allah Sizə cansağlığı versin. Mən isə çalışacağam ki, Sizin istəyinizi yerinə yetirim.

H e y d ə r Ə l i y e v: Sovet İttifaqı qəhrəmanı Məlik Məhərrəmovu orden alması münasibəti ilə təbrik edirəm. Sən İkinci Dünya, Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərib «Qızıl ulduz» medalına layiq görülmüsən. İndi ictimaiyyətimiz də bilir ki, azərbaycanlılardan Sovet İttifaqı Qəhrəmanı adı daşıyanların əksəriyyəti həyatını dəyişibdir. Xoşbəxtlikdir ki, Məlik Məhərrəmov bizim sıralarımızdadır, özü də möhkəm durubdur. Müharibədə qəhrəmanlıq göstərmisən, 1945-ci ildən 1998-ci ilə qədər 53 ildir ki, sən öz xalqına yenə də sədaqətlə xidmət edirsən. Həm xalq, həm də dövlət bunu yüksək qiymətləndirir. Ona görə də mən Azər-

baycanın yüksək mükafatını – «Şöhrət» ordenini böyük məmnuniyyətlə sənə təqdim edib, cansağlığı arzulayıram. Təbrik edirəm.

Məlik Məhərrəmov: Möhtərəm prezident. Mən bir neçə ordenlə təltif olunmuşam və bu ordenləri mənə ayrı-ayrı yüksək vəzifəli adamlar təqdim ediblər. Bu gün mənim üçün ona görə daha şərəflidir ki, müstəqil Azərbaycan dövlətinin «Şöhrət» ordenini mənə Siz təqdim edirsiniz. Bu gün bir daha fərəhlidir ki, bu yüksək mükafatı mənə həm hörmətli prezidentimiz, həm də ondan qabaq bir-birimizin xətrimizi istədiyimiz, ən çox sevdiyim adam təqdim edir. Hörmətli prezident, buna görə Sizə «Çox sağ olun» deyirəm, minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Xalq artisti, bəstəkar Vasif Adıgözəlova bu ordeni təqdim edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Vasif Adıgözəlov: Möhtərəm cənab prezident. Mən müstəqil dövlətimizin bu yüksək mükafatını Azərbaycanın bütün musiqi xadimlərinin, sənətşünaslarının yaradıcılığına Sizin tərəfinizdən verilən böyük qiymət kimi qəbul edirəm. Çünki, bir Allah bilir ki, Azərbaycan musiqisinin inkişafında rolunuz Siz hələ prezident olmamışdan xeyli əvvəl – 1960-cı illərin axırlarında başlamışdır. Mən Sizinlə tanış olduğum illəri nəzərdə tuturam. Siz ondan da əvvəl Azərbaycan musiqisinin inkişafına çox kömək etmisiniz. Bilirsiniz ki, musiqi xadimlərinin həyatı çoxlu problemlərlə qarşılaşır. Bizim həyatımız asan yolla getmir. Bu da təbiidir. Çünki musiqi elə bir sənətdir ki, həyatı rahatlıqla axıra çatdırmaq çox çətindir. Bu çətinliklərə, xüsusən də son illərdə qarşılaşdığımız çətinliklərə baxmayaraq, biz Azərbaycan musiqisini qorumaq, saxlamaq və daha da inkişaf etdirmək yolunda əlimizdən gələni əsirgəməmişik. Biz bunu ona görə etmişik ki, Siz bizdə bu inamı yaratmısınız. Biz Sizə arxalanıb bunu etmişik, ən çətin anlarda belə heç nədən çəkinməmişik. Çünki həmişə bilmişik ki, Azərbaycan musiqisinin böyük dostu, musiqimizi sevən, musiqi xadimlərinin yaradıcılığına yüksək qiymət verən vardır. Bugünkü gün mənim dediklərimin sübutudur.

Heydər Əlirza oğlu, bu gün bütün bəstəkarlar, musiqişünaslar adından mən Sizə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqının siyasi həyatında böyük hadisələr gözlənilir. Yəni xalqımız prezident seçkilərinə hazırlaşır. Möhtərəm prezident, mən Sizi əmin edirəm ki, bütün bəstəkarlar, musiqişünaslar ancaq bir prezident tanıyırlar, o da Sizsiniz. Biz hamımız ancaq Sizə səs verəcəyik. Mən Sizi əmin edirəm ki, biz 2000-ci ildə və ondan sonra da musiqimizin inki-

şafı üçün əlimizdən gələni edəcəyik və Siz də bizə həmişə kömək olacaqsınız. Çox sağ olun, Sizə minnətdaram.

Heydər Əliyev: Xalq artisti Səyavuş Aslanı təbrik edirəm. Sənə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Əgər çıxış edəcəksənsə, gülməli bir söz de. Yoxsa sən də siyasətdən danışacaqsan.

Səyavuş Aslan: Hörmətli prezident, mənim siyasətlə işim yoxdur. O gün olsun ki, 80 illiyinizdə də prezident olasınız, biz də yubileyinizdə səhnəyə çıxıb Sizi doyunca güldürək. Mən söz verirəm ki, 80 illiyinizdə Sizi doyunca güldürəcəyəm. Sağ olun.

Heydər Əliyev: Tarix elmləri doktoru Sara Aşurbəyliyə bu yüksək mükafatı təqdim edirəm. Sara xanım, biz sizin yubileyinizi də qeyd etdik. Çox məmnunam ki, indi bu ordeni də şəxsən mən sizə təqdim edirəm.

Sara Aşurbəyli: Cənab prezident. Sizə öz minnətdarlığımı bildirirəm. Siz həmişə mənə yaxşı münasibət bəsləmisiniz. Çox arzu edirdim ki, Sizinlə görüşüm və Sizə yeni-yeni uğurlar diləyim.

Heydər Əliyev: Sara xanım, Azərbaycan elmində, xüsusən tarix elmində və Bakının tarixinin yazılmasında sizin misilsiz xidmətləriniz vardır. Sağ olun. Sizə cansağlığı arzu edirəm.

Naxçıvan Dövlət Filarmoniyasının solisti Abdulla Babayevi orden alması münasibətilə təbrik edirəm. Sən Naxçıvanın, Azərbaycanın müğənnisisən, həmişə yaxşı oxumusan, indi də yaxşı oxuyursan. Arzu edirəm ki, yeni-yeni mahnılar oxuyasan.

Abdulla Babayev: Çox sağ olun, möhtərəm prezident. Mən Sizə həsr etdiyim mahnılarımı həmişə oxuyacağam və Sizə dua edəcəyəm.

Heydər Əliyev: Mərhum akademik Mark Dalinin təltif olunduğu ordeni onun qızı Alla Markovna Knyazyuka təqdim edirəm. Sizin atanızı həmişə xatırlayacağıq. O, Azərbaycan elminin inkişafı üçün çox iş görmüşdür və Azərbaycan xalqının, elminin tarixində həmişə qalacaqdır.

Alla Knyazyuk: Əziz Heydər Əliyeviç! Mən çox xoşbəxtəm və özüm üçün böyük şərəf sayıram ki, bu təntənəli mərasimə dəvət olunmuşam. Mən ikili hiss keçirirəm: bir tərəfdən, fəxr edirəm ki, atamın təltif olunduğu bu ordeni mənə şəxsən Siz təqdim edirsiniz, digər tərəfdən də təəssüflənirəm ki, atam bu xoşbəxt günü görə bilmədi.

Atam çox təvazökar, şöhrətpərəstlikdən uzaq adam idi. Ancaq o, «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında fərmanı eşidəndə bunu böyük minnətdarlıqla qarşılamış və özünü çox xoşbəxt saymışdı. Çünki bu, onun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə verilən qiymət,

şəxsən Sizin verdiyiniz qiymət idi. Atam Bakıda doğulmuş və bütün ömrünü burada yaşamışdır. Azərbaycan onun vətəni idi. Atam əsil vətənpərvər idi və öz vətənini sevirdi, ona sadiq idi. Onun yaratdığı və rəhbərlik etdiyi institut məşhur idi və hələ atamın sağlığında ona «Dalin İnstitutu» deyirdilər. Bunu xaricdə də bilirdilər. Hələ o vaxtlar atam «Britiş Petroleum», «Mobil» kimi şirkətlərlə elmi əlaqələr saxlayırdı.

O, Sizinlə olan görüşlərini tez-tez xatırlayır, hələ o illərdə Azərbaycanda neft, neft kimyası sənayesinin sürətlə inkişafında Sizin misilsiz rolunuzdan danışırdı. Sizinlə olan görüşlərini «Azərbaycanda neft kimyasının inkişaf yolları» monoqrafiyasında əks etdirmişdir.

Mən çox xoşbəxtəm ki, atamın adı Azərbaycanın Məmmədəliyev, İsmayılov, Quliyev, Nağıyev və başqa kimyaçı alimləri ilə bir sırada durur. Əlbəttə, atam sağ olsaydı, Sizə minnətdarlıq etmək üçün daha yaxşı sözlər deyə bilərdi. Mən isə onun xatirəsini əziz tutduğunuza görə Sizə minnətdaram. Atamın adının unudulmayacağı barədə dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm.

İcazə yerin, Sizi 75 illiyiniz münasibətilə təbrik edim. Sizə cansağlığı, xoşbəxtlik, qarşıdakı prezident seçkilərində parlaq qələbə arzulayıram. Biz hesab edirik ki, Azərbaycanın işıqlı gələcəyi yalnız Sizin adınızla bağlıdır.

H e y d ə r Ə l i y e v: Xalq artisti Sofya Hüseynovanı orden almasını münasibətilə təbrik edirəm. Mən sənə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Mən Naxçıvanda olanda sənin anan sağ idi. O, çox gözəl aktrisa olubdur. Sənin anan Xədicə xanım Qazıyeva Naxçıvan teatrının uzun illər ən aparıcı aktrisası olub, baş rolları oynayıbdır. Mən teatrla həmişə bağlı olmuşam. Hələ uşaqlıq, gənclik illərimdə teatra gedərkən Xədicə xanım Qazıyevanın oynadığı baş rollara heyranlıqla baxmışam.

S o f y a H ü s e y n o v a: Azərbaycan xalqının əziz, çox hörmətli, görkəmli və əvəzolunmaz prezidenti cənab Heydər Əliyev!

Hörmətli mərasim iştirakçıları!

Ömrümün 50 ilini teatr aləminə bağlamağıma baxmayaraq, bu gün mən öz sevincimi, həyəcanımı gizlədə bilmirəm. Çünki mən bu anı səbirsizliklə gözləyirdim.

Möhtərəm prezident, burada, Sizin qarşınızda öz ürək sözlərimi bildirmək həm çətin, həm də çox xoşdur. Mən bundan qürur hissi keçirirəm, fərəh duyuram. Hörmətli prezidentim, məni fərəhləndirən, yüksəklərə qaldıran, sadə əməyimə qiymət verən Sizsiniz. Bu, biz incəsənət adamları üçün mənəvi qidadır. Mənə verilən ali mükafatı Naxçıvan teat-

rında çalışan öz yoldaşlarımla bölmək istəyirəm. Çünki mən tək heç nə edə bilməzdim. Yəqin anam Xədicə xanım məni vaxtilə teatra gətirməsəydi, mən bu günü, bu anı yaşamazdım. Mənə verdiyiniz qiymət, göstərdiyiniz qayğı Naxçıvan teatrında çalışan bütün sənət yoldaşlarıma aiddir.

Əziz prezident, Sizin 75 illiyiniz münasibətilə Naxçıvanda keçirilən mərasimdə mən öz ürək sözlərimi bildirmişdim və Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbova demişdim ki, mən cənab Heydər Əliyevlə görüşmək arzusundayam. Nəhayət ki, bu gün mənə nəsib oldu. Mən Sizə öz minnətdarlığımı bildirirəm.

Hörmətli prezidentim, Sizin həyat yolunuz hamar olmayıbdır, ancaq xalqımıza məhəbbətiniz daimidir. Siz xalqın məhəbbətini işinizlə, düzgün apardığınız siyasətlə qazanmısınız. Bizim Sizə olan məhəbbətimiz, inamımız tükənməzdir.

Bütün Azərbaycan xalqı, Naxçıvan Muxtar Respublikasının əhalisi qarşıdan gələn prezident seçkilərində yalnız Sizə səs verəcəkdir və yalnız Sizə ümid bağlayır. Azərbaycan xalqı nicatını yalnız Sizdə görür. Əziz prezidentimiz, Azərbaycan xalqının yeganə xilaskarı Sizsiniz. Mən ümidvaram ki, qarşıdakı prezident seçkilərində hamı bir nəfər kimi yalnız və yalnız Sizə səs verəcəkdir.

Möhtərəm prezident, mənə göstərdiyiniz qayğıya və verdiyiniz mükafata görə Hüseynovlar ailəsi adından Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, möhkəm cansağlığı arzulayıram. Allah Sizi qorusun.

H e y d ə r Ə l i y e v: Xalq rəssamı Maral Rəhmanzadə, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Çox məmnunam ki, bu gün görüşürük. Sizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

M a r a l R ə h m a n z a d ə: Möhtərəm prezident, böyük qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

H e y d ə r Ə l i y e v: Xalq şairi Qabil, orden almağın münasibətilə səni təbrik edirəm. Qabil, səni xoş gördük. Mən sənə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Q a b i l: Möhtərəm prezidentimiz! Mən həmişə Sizə «Heydər müəllim», – deyə müraciət etmişəm. Çünki Siz doğrudan da, sözün geniş mənasında, ismin bütün hallarında əsil müəllimsiniz.

Bu orden mənim üçün çox əzizdir. Birincisi, ona görə ki, bu, mənim həyatımda aldığım ilk ordendir, ona görə də əzizdir. Doğrudur, dövlət mükafatı nişanını mənim sinəmə Siz taxmısınız. O da öz yerində əladır. İkincisi, bu, müstəqil Azərbaycanımızın ilk «Şöhrət» ordenidir ki, mən ona layiq görülürəm. Üçüncüsü, bu orden mənim üçün ona görə əzizdir

ki, onu mənə Siz – ədəbiyyatımızın, şeirimizin, sənətimizin, mədəniyyətimizin, yazıçılarımızın, alimlərimizin, ziyalılarımızın əziz, xiridar dostu təqdim edir. Şair yaxşı deyib ki, «Mətahın atma bazarə, xiridar olmayan yerdə». Mən bu mükafatı qiymət verən, xiridar dostun, Heydər müəllimin əlindən alıram. Sağ olun.

H e y d ə r Ə l i y e v: Akademik Adilə Namazova, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Sizə yeni –yeni uğurlar arzulayıram.

A d i l ə N a m a z o v a: Sevimli, möhtərəm prezidentimiz Heydər Əlirza oğlu! Mən hesab edirəm ki, bu orden təkcə mənim yox, Azərbaycanın bütün səhiyyə işçilərinin, pediatrlarının əməyinə verdiyiniz yüksək qiymətdir. Mən və mənim həmkarlarım gələcək nəslin, uşaqların sağlamlığı keşiyində möhkəm dayanmaq və müstəqil, azad Azərbaycan üçün sağlam vətəndaşlar yetişdirmək üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

Möhtərəm prezident, mən Sizə minnətdaram, çox sağ olun. Mən bütün tibb işçiləri adından Sizə təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Xalq rəssamı, heykəltəraş Mirələsgər Mirqasımovu orden alması münasibətilə təbrik edirəm. Siz respublikamızın görkəmli heykəltəraşısınız. Sizin yaratdığınız Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə abidələri yüksək qiymətə layiqdir.

M i r ə l ə s g ə r M i r q a s ı m o v: Cənab prezident, Siz olmasaydınız, bu abidələr ucaldılmazdı. Ona görə də Sizə minnətdaram.

H e y d ə r Ə l i y e v: Yeri gəlmişkən, mən həmişə narahat olmuşam ki, sizin atanız Mirəsədulla Mirqasımovun məzarı üzərində nə üçün qəbirüstü abidə yoxdur. Görkəmli alim Mirəsədulla Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti olmuşdur. Deyirsiniz ki, onun məzarı üzərində indi abidə ucaldılır, mən onun açılışına mütləq gələcəyəm. Sizi təbrik edirəm.

Xalq artisti Zeynəb Xanlarovaya «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Z e y n ə b X a n l a r o v a: Hörmətli prezident! Xalqımız Sizin haqqınızda həmişə xoş sözlər deyir. Mənim Sizə olan məhəbbətim ürəyimdədir. Sizi hamı çox tərifləyir, bunlar mənim ürəyimə yatır. Amma hərdən əsəbiləşirəm ki, bu görünən günəşi, dağı bu qədər tərifləmək lazım deyildir. Azərbaycanımız, millətimiz üçün Sizin gördüyünüz işlər göz qabağındadır, uşaqdan böyüyə qədər bunu hamı bilir.

Mən SSRİ xalq artisti adına qədər yüksəlmişəm. Hər yerdə doğma Azərbaycanı təmsil edirəm. Bəlkə də dünyanın yarısında məni tanıyırlar.

Belə hesab edirəm ki, əməyimə, sənətimə Sizin verdiyiniz yüksək qiymət sayəsində mən bir azərbaycanlı qızı kimi dünyada tanınmışam.

Heydər müəllim, mənim bu mərasimə gələcəyimi eşidən bir ailə dünən mənə bir söz dedi, mən onu Sizə çatdırmalıyam. Möhtərəm prezident, milyonlarla insan Sizi qəlbən sevir. Sizi istəməyənləri barmaqla saymaq olar. Amma yenə də deyirəm, milyonlarla insan Sizi sevir. Belə ailələrdən birinin dünən dediyi söz məni qəhərləndirdi, inanın ki, səhərədək yata bilmədim.

Həmin ailənin üzvləri mənə zəng edib dedilər ki, Zeynəb xanım, prezidentlə görüşə gedirsiniz, xahiş edirik, bizim sevgimizi, məhəbbətimizi Heydər müəllimə çatdırın. Biz görmüşük ki, bir insan can verəndə uzaqda olan oğlunun, qızının şəklini ürəyinin üstünə qoyur. Bizim anamız isə ürəyinin üstünə prezidentimizin şəklini qoyub can verdi. 95 yaşlı həmin qadın can verərkən vəsiyyət edib ki, Heydər Əliyevin şəkli mənim ürəyimin üstündə olmasa, can verə bilmərəm. Demək, bu xalq üçün yaşamağa dəyər. Doğrudan da bu xalq üçün prezident olmağa dəyər.

Hörmətli prezident, mən həmin ailənin adından Sizi bir daha öpmək istəyirəm. Biz sənətkarlara, bütün millətimizə Siz həmişə qayğı göstərmisiniz. Siz hər bir dildə danışırsınız. Demək istəyirəm ki, Siz həkimlə həkim kimi, heykəltəraşla heykəltəraş kimi danışırsınız. Ona görə də Sizi sevən milyonlarla insanın əvəzinə Sizi öpmək istəyirəm.

H e y d ə r Ə l i y e v: Həmin ailəyə mənim salamımı söyləyin.

Akademik Nəriman Quliyevi orden alması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram.

N ə r i m a n Q u l i y e v: Bu yüksək mükafata görə dövlətimizin başçısına, – Sizə, cənab prezident, öz minnətdarlığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Bakı Xoreoqrafiya Məktəbinin direktor müavini, xalq artisti Leyla Vəkilovaya «Şöhrət» ordenini təqdim edirəm. Sizə cansağlığı, yeni uğurlar diləyirəm.

L e y l a V ə k i l o v a: Mənə göstərilən diqqətə görə təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşçu rejissoru Lütfi Məmmədbəyovu təltif olunması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

L ü t f i M ə m m ə d b ə y o v: Cənab prezident, Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Xalq şairi Balaş Azəroğluna «Şöhrət» ordenini təqdim edirəm, sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

B a l a ş A z ə r o ğ l u: Möhtərəm prezident, mən Sizə dərin minnətdarlığımı bildirirəm. Xalqımız Sizi ürəkdən sevir. Mənim ürəyimdə də Sizə deyiləsi sözüm çoxdur, vaxtınızı almaq istəmirəm. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Azərbaycan teatr sənətinin inkişafındakı böyük xidmətlərinə görə xalq artisti Nəsibə Zeynalovaya «Şöhrət» ordenini təqdim edirəm. Səni bağrıma basıram, sənə cansağlığı arzulayıram. Möhkəm ol, öz sənətinlə bizi yenə də sevindir, güldür.

N ə s i b ə Z e y n a l o v a: Böyük qayğı və diqqətə görə Sizə minnətdaram. Möhtərəm prezident, təəssüflənirəm ki, xəstələndiyimə görə yubileyinizdə iştirak edib, Sizə gülüş bəxş edə bilmədim. Arzu edirəm ki, həmişə üzünüz gülər olsun. Mən Sizi sevirəm, qəlbimdə Sizin xüsusi yeriniz vardır.

H e y d ə r Ə l i y e v: Bizim xalqımız Sizi çox sevir, mən isə hamıdan çox sevirəm. Mən Sizi bir daha təbrik edirəm, bu gülü də Sizə özüm təqdim edirəm.

Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, akademik Mirməmməd Cavadzadəni orden alması münasibətilə təbrik edirəm. Ona daha böyük uğurlar arzulayıram.

M i r m ə m m ə d C a v a d z a d ə : Cənab prezident, mənim üçün böyük şərəfdir ki, bu yüksək ordeni mənə Siz təqdim edirsiniz. Çox sağ olun. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Xalq artisti, bəstəkar Aqşin Əlizadəni təbrik edirəm. Çoxdandır, neçə illərdir səni görmürəm. Mən ad günün münasibətilə sənə zəng etdim, səni təbrik etdim. Yadımdadır, mən vaxtilə səni görəndə sən gənc bir oğlan idin. Adətən, sən ananla birlikdə Mehdi Hüseynzadənin heykəlinin yanına gəlirdin. Rəhmətlik Aslan Əzizbəyov da sizinlə birlikdə olardı. Sonra sən böyük bir bəstəkar oldun. Mənə də söz verdin ki, «Babək» baletini yaradacaqsan, yaratdın. Mən səni bir daha təbrik edirəm, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

A q ş i n Ə l i z a d ə: Cənab prezident. Bunlar hamısı mənim yaxşı yadımdadır. Qazandığım bütün nailiyyətləri Sizin diqqət və qayğınız sayəsində əldə etmişəm.

Bu yüksək ordeni də mənə təqdim etməyinizdən sonsuz şərəf duyuram. Sizə dərin təşəkkürümü bildirirəm və cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Azərbaycan müsiqi sənətinin inkişafındakı xidmətlərinə görə xalq artisti Habil Əliyevə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük uğurlar arzulayıram. Habil, yenə kamança çalırsan, yoxsa yox? Sən sözünü kamança ilə deyəndə daha yaxşı olur.

H a b i l Ə l i y e v: Möhtərəm prezident. Mən Ağdaşdan Bakıya kamançaçı kimi gəlmişdim. Özümə başqa sənət axtarmaq artıq gec idi, amma kamança çaldığıma görə də xəcalət çəkirdim. Çünki istəyirdim, mən də elə bir işdən yapışım, özümə elə bir sənət seçim ki, o, xalqıma çox lazımlı olsun. Ancaq atalar yaxşı deyib ki, «Arxalıya arxa durmaq hər kişinin işidir, arxasıza arxa durmaq nər kişinin işidir». Cənab prezident, Siz mənə arxa durdunuz, sahib oldunuz. Siz mənə xalq artisti adı, «Şöhrət» ordeni, prezidentin fərdi təqaüdünü verdiniz. Məni o xəcalətdən qurtardınız ki, mən kamança çalanam.

Möhtərəm prezident, ürək sözlərimi Sizə demək üçün böyük bir şair, yazıçı lazımdır ki, mənim Sizə olan məhəbbətimi, hörmətimi bildirsin. Onsuz da Sizi bütün Azərbaycan sevir. Sizi hamı sevir. Özünüz bilirsiniz ki, bu aksiomadır. Amma incəsənət ustaları Sizin bizə göstərdiyiniz qayğıya cavab verən söz tapıb deyə bilmirlər. Mən incəsənət ustaları, xüsusən xalq musiqisi ifaçıları adından deyə bilərəm. Siz 3-4 günlük bir xarici ölkəyə səfərə gedəndə, vallah, elə hesab edirik ki, Azərbaycan boşalıbdır. Allah Sizi əskik etməsin. Cənab prezident, Sizə prezidentlik yaraşır, Siz də prezidentliyə yaraşırsınız. Allah həmişə Sizi var etsin.

H e y d ə r Ə l i y e v: Səmimi sözlərə görə sənə təşəkkür edirəm. Mən sənin dediyin bu sözlərə bir neçə kəlmə əlavə edəcəyəm. Bu sözlərin hamısını düz dedin. Amma bizim xalqımız kamançanı həmişə yüksək qiymətləndiribdir. Ulu babalarımızdan qalan musiqi alətlərimiz tar və kamançadır. Başqa sənətlərə çox adamlar gedə bilərlər: Hər adam mühəndis də, həkim də, müəllim də, tacir də ola bilər, amma tar, kamança çala bilməz. Hər adam kamança çala bilər, ancaq sənin kimi çala bilməz. Ona görə də sən bu sənəti seçməyinlə fəxr edə bilərsən. Biz də sənin kimi kamança çalan Habillə fəxr edirik. Sağ ol.

Xalq artisti Sara Qədimovanı orden alması münasibətilə təbrik edirəm.

Sara xanım, sizi xoş gördük. Mən nə deyə bilərəm. Azərbaycan incəsənətinin tarixi sizdə əks olunubdur. Mən çox şadam ki, siz varsınız və bu ordeni sizə məmnuniyyətlə təqdim edirəm.

S a r a Q ə d i m o v a: Bu qayğıya və diqqətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Mənim hörmətli, əziz prezidentim! Əziz məclis əhli!

Mən 1942–1943-cü illərdə cəbhədə olmuşam, medallar almışam. 15 il səhnədə olandan sonra 1954-cü ildə əməkdar artist adı almışam. Bunları deməkdə mənim məqsədim vardır. Siz hamınız görmüsünüz, 1959-cu ildə ongünlükdə Xan əmi ilə, Şövkət xanımla birlikdə «Qarabağ şikəstə-

si» oxuduq. Orada mənə «Şərəf nişanı» ordeni verdilər. 1960-cı ildə xalq artisti adını aldım. Sonra gözüm yollarda qaldı ki, bizim Heydər Əlirza oğlu bəs, mənə heç nə verm ədi. Elə bir məqam da olmadı ki, mən nəsə bir şey alım.

Möhtərəm prezident, Allah adamı istəyəndə, Allahın nəzəri bəndəsinin üstündə olanda prezidentlərin də, yadına düşürsən. Prezident bu üç ay ərzində hansı müğənni ilə telefonla danışıb? Bu, mənim üçün böyük fəxrdir. Mən bunlara böyük qiymət verirəm.

Mənim aldığım mükafatların hamısını kənara qoyuram, bir məsələni isə heç vaxt unutmuram. Mən 59 il səhnədə olmuşam. 1992-ci ildə mədəniyyət naziri məni məcbur etdi ki, 70 illik yubileyini keçir, il başa çatır. Mən may ayında anadan olmuşam, nazirlə mənim aramda belə bir söhbət isə dekabrın 18-də gedibdir.

Nazirə cavab verdim ki, mən yubiley keçirmək istəmirəm. Çünki doğma kəndim Gülablı işğal edilib, ölkəmizin tələtümlü vaxtıdır. Xülasə, başınızı da ağrıdıram. Rəhmətlik Gülağa da bizdə idi. Bir də gördüm ki, Naxçıvandan mənə zəng oldu. Məndən iki dəfə soruşdular ki, bu, Sara xanımın evidir? Cavab verdim ki, bəli. Mənə dedilər ki, Heydər Əlirza oğlu Sizinlə danışmaq istəyir. Çox həyəcan keçirdim, bilmədim ki, nə edim. Gülağa da oturmuşdu, ona dedim ki, səs eləmə. Qərəz, telefon xəttini birləşdirdilər, biz danışdıq. Siz mənə xeyir-dua verdiniz.

Ordenin də, medalın da öz yeri var, bunları almağın da öz yeri var, çünki zəhmət çəkmişik. Biz indikilər kimi yaşamamışıq, öküz arabasında, palçıqlı yollarla gedib camaat, əsgərlər qarşısında çıxış etmişik. İndi yaxşı yollar, maşınlar, şərait vardır. Biz çox ağır günlər keçirmişik, bir qarnı ac, bir qarnı tox yaşamışıq.

Şükürlər olsun ki, bizim hörmətli prezidentimiz incəsənətə həmişə böyük diqqət yetirir, qayğı göstərir. Hər bir sənətkara öz zəhmətinə layiq olan adlar, mükafatlar verilir. Bəzi cavanlar da var ki, eybi yoxdur, onlar da alarlar. Bütün bunları ona görə danışdım ki, mən o günü, dəqiqəni – Heydər Əlirza oğlunun Naxçıvandan mənə zəng etdiyini heç vaxt yaddan çıxara bilmərəm.

Mənim əziz prezidentim, ailə üzvlərinizlə bərabər Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Biz də Sizin sayənizdə fərəhlənirik, yaxşı günlər görürük. Çox sağ olun. Siz mənə həmişə diqqətli olmusunuz. Sağ olun.

H e y d ə r Ə l i y e v : Çox sağ olun. İnşallah, Gülablı kəndini də düşməndən azad edəcəyik, Qarabağ da azad olacaqdır, oraya bir yerdə gedəcəyik.

Sara Qədimova: Allah qoysa. Əziz prezidentim, çox sağ olun.

Heydər Əliyev: Xalq artisti, müğənni Fidan Qasımovanı orden alması münasibətilə təbrik edirəm.

Fidan Qasımova: Bu yüksək mükafata görə Sizə minnətdarlığımı bildirirəm. Prezident Heydər Əliyev bizi həmişə ruhlandırır. Mən öz xalqıma, vətənimə və dünyanın ən gözəl prezidenti olan prezidentimizə xidmət etməyə hazıram.

Heydər Əliyev: Xalq artisti, bəstəkar Cövdət Hacıyevə yüksək mükafatı təqdim edirəm. Cövdət müəllim, Sizi təbrik edir, Sizə cansağlığı, bundan sonra da çox illər ömür, yeni-yeni uğurlar arzulayıram.

Cövdət Hacıyev: Hörmətli, sevimli prezident!

Mən Sizin fəaliyyətinizin bütün cəhətlərini bacardıqca izləmişəm. O qərara gəlmişəm ki, Siz elə şaxəli insansınız ki, bunu bir sözlə, bir əsərlə əhatə eləmək mümkün deyildir. Mən öz bacarığım çərçivəsində Sizə səkkizinci simfoniyamı ithaf eləmişəm. Simfoniya belə adlanır: «Onu zaman seçib. Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevə həsr olunur».

Mən bu simfoniyanın İsmayıl Hacıyevin dirijorluğu ilə lentə yazılmış audiokassetini Sizə hədiyyə edirəm.

Heydər Əliyev: Yüksək mükafat almağın münasibətilə əziz Müslüm Maqamayev, səni təbrik edirəm.

Müslüm Maqomayev: Heydər Əliyeviç, Sizə olan məhəbbətimiz barədə danışmağa, zənnimcə, ehtiyac yoxdur. Mən Sizin şərəfinizə simfoniya yazmamışam, amma «Azərbaycan» adlı bir mahnı bəstələmişəm. Vaxtilə, sovet hakimiyyəti zamanı Siz onu qəbul etmədiniz. Bu yaxınlarda isə təsdiqlədiniz ki, onu qəbul edirsiniz. O vaxt bu mahnıda demək istədiklərimi indi Tamara ilə birlikdə oxuyuruq, başqa sözlə, Sizə olan məhəbbət ikiqat artmışdır.

Hamı bilir ki, Azərbaycanda incəsənət Sizin sayənizdə çiçəklənir. Ona görə biz istəyirik ki, Siz hələ uzun illər prezident olasınız. Sizə xoşbəxtlik və enerji arzulayıram.

Heydər Əliyev: Müslüm Maqomayev 70-ci illərdə şair Nəbi Xəzrinin sözlərinə bəstələdiyi «Azərbaycan» mahnısının not yazısını mənə təqdim edərək demişdi ki, bu mahnı Sizə həsr olunmuşdur. O zaman mən bu fikrin yayılmasını istəmədim. Xatirə sözləri yazılmış notları evə apardım, kitablarımla bərabər Moskvaya da apardım, sonra buraya, Bakıya gətirdim. İndi, üstündən illər keçəndən sonra bu mahnının mənə ithaf olunduğunu bildirməsinə etiraz etmədim. Mən sənə təşəkkür edirəm, sağ ol.

Lidiya Rəsulova, Sizi «Şöhrət» ordeninə layiq olmağınıza görə təbrik edirəm.

L i d i y a R ə s u l o v a: Hörmətli cənab prezident!

«Şöhrət» ordeni ilə təltif olunduğuma görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Mən Azərbaycanda çox işləmişəm. Amma bunun ən maraqlı illərini Sizin rəhbərliyiniz altında işləmişəm. Siz məni vicdanla, haqq-ədalətlə, xalqımızın sevincini, kədərini bölüşməklə işləməyə, əqidədən dönməməyə öyrətmisiniz. Sizin gözəl təcrübənizdən həmişə faydalanmışam. Əməyimə böyük qiymət verdiyinizə görə dərin təşəkkürümü bildirir, Sizə qüdrət və qüvvət, cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

H e y d ə r Ə l i y e v: Xalq yazıçısı Əkrəm Əylislini yüksək mükafata layiq görülməsi münasibətilə təbrik edirəm. Mən o zaman dedim ki, gələn dəfə bu ordeni sənə təqdim edəcəyəm. İndi vaxtı gəlib çatdı. Bir daha təbrik edirəm.

Ə k r ə m Ə y l i s l i: Əziz və hörmətli prezident! Əziz mərasim iştirakçıları!

Buraya gələcəyimi eşidəndə, haradansa ağlıma gəldi ki, izahlı lüğəti götürüb baxım ki, «mədəniyyət» sözünün anlamları nədir. Qəribəsi budur ki, orada oxuduğum anlamlar məni xeyli təəccübləndirdi. Çünki mənə elə gəlirdi ki, «mədəniyyət» sözü hörmətli Polad Bülbüloğlunun rəhbərlik elədiyi sahəni əhatə edir. Yəni kitabxana, klub, teatr və sairə. Amma, sən demə, «mədəniyyət» sözünün belə mənaları da varmış: becərmək, bəsləyib böyütmək, tərbiyələndirmək, savadlandırmaq, hərəkətə gətirmək, saya salmaq. Latın sözü olan «kultura»nın başlıca, mənası da həyata yaradıcı münasibət bəsləməkdir.

Hörmətli prezident, əziz mərasim iştirakçıları! Mən elə bilirəm ki, zaman bizi elə bu sözün, ona yekdil münasibətin zəminində yenidən bir yerə toplayıbdır. Yəni, «mədəniyyət» sözünün ifadə elədiyi mənalara həm ziyalıların yekdil münasibəti, həm də bu sözün əhatə elədiyi o gözəl aləmin cazibəsi.

Hörmətli cənab prezident, yəqin burada oturanlar da bilir, deyirlər ki, Allahın 1001 adı var. Zaman da Allahın 1001 adından biridir. Mənə elə gəlir ki, biz burada, Sizin ətrafınızda Allahın 1001 adından birinin işığında toplaşdıq. Heç kəsin şübhə edə bilmədiyi, təkzibolunmaz faktdır ki, Azərbaycanın bütün yaradıcı ziyalıları Sizi səmimiyyətlə dəstəkləyir və Sizin cazibə dairənizdə gündən-günə daha sıx birləşirlər.

Heç yadımdan çıxmır, rəhmətlik Yusif Səmədoğlu ölüm yatağında ikən dedi ki, Sizə səs verəcək, yəni bunu deməyi lazım bildi. Yəqin ki, Yusif o ağır vəziyyətində bəlkə də rəhmətə gedəcəyini bilirmiş.

Bu yaxınlarda Məmməd Arazın müsahibəsini oxudum. Deyib ki, Heydər Əliyev ömrümə ikinci bir ömür əlavə elədi.

Yadınızdadırsa, İsa Hüseynov yaşının bu vaxtında nə desə yaxşıdır? Dedi ki, bir əsgər kimi hər gün küçəyə çıxıb Sizi hər cür düşmənizdən müdafiə eləməyə hazıram.

Hörmətli cənab prezident, burda əyləşənlər Azərbaycanda çox mürəkkəb bir dövrü keçmiş adamlardır. Bilirsiniz ki, təbiətdə, biologiyada mutasiya halları olur. Bu o deməkdir ki, Allah uzaq eləsin, qadın birbirinə bitişik uşaqlar doğur. Bu, gec-gec baş verən, hər kəsin öz gözü ilə görə biləcəyi hallardır. Amma mənəviyyatda baş verən mutasiya hallarını görmüş bugünkü Azərbaycan ziyalısı Allahın 1001 adından birinin altında və bu adın işığında Sizinlə birlikdə olmağı lazım bildi və buna ehtiyac duydu.

Biz elə bir dövr keçirdik ki, Mirzə Cəlilimizə «kollaborasionist» dedilər. Bu sözü faşistlərin işğal etdikləri Fransada faşistlərə qulluq edənlərə deyirdilər. Biz bunun cavabını ləyaqətlə verdik. Elə bir dövrü gördük ki, mənəvi mutasiyanın başqa əlamətlərini Allah heç kəsə göstərməsin.

Söhbəti uzatmaq istəmirəm, deyiləcək söz kifayət qədərdir. Mən elə bilirəm ki, Azərbaycan bütün bu əzablı mənəviyyat keçidlərini ötəcək, mənəviyyatın çox yüksək, ali mövqeyində, bundan da ucada dayanacaqdır. Buna göstərdiyiniz qayğıya, şəxsən mənə olan hər bir diqqət və qayğınıza görə Sizə dərin-dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

Heydər Əliyev dirijor, xalq artisti Rauf Abdullayevə, Azərbaycan EA-nın akademik katibi Cəmil Quliyevə, Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyliyə «Şöhrət» ordeni təqdim etdi.

H e y d ə r Ə l i y e v: Bəstəkar Emin Sabitoğlunu orden alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni mahnılar yazmağı arzulayıram. Sənin son vaxtlar yazdığın «Şükriyyə» mahnısı yaxşıdır, mənim xoşuma gəldi. Yəqin ki, onu hamı bəyənibdir.

E m i n S a b i t o ğ l u: Mən Sizə təşəkkür edirəm. Cənab prezident. Mən neçə vaxtdır ki, Türkiyədə yaşayıram, işləyirəm. Amma buna baxmayaraq, Azərbaycanı unutmuram, xalqım üçün işləyirəm. Ürəyim həmişə Sizinlə bir yerdədir. Çox sağ olun ki, Siz bunu hiss etdiniz və məni «Şöhrət» ordeni ilə təltif etdiniz. Mən Sizə bir daha təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Əlbəttə, Türkiyədə işləmək Azərbaycandan ayrılmaq demək deyildir. Bizim də ürəyimiz səninlədir.

E m i n S a b i t o ğ l u : Cənab prezident, çox var olun. İcazə verin, bu yeni kassetlərimi sizə təqdim edim.

H e y d ə r Ə l i y e v: Xalq artisti, müğənni Arif Babayevə «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edir, cansağlığı arzulayıram. Şübhəsiz ki, burada «Qarabağ şikəstəsi» çox yerinə düşərdi.

A r i f B a b a y e v: Hörmətli prezident! Mənə verilən bu mükafat muğam sənətinə, xalq musiqisinə, əvəzolunmaz sərvətimizə verdiyiniz yüksək qiymətdir. Bütün sənət adamları Sizi ürəkdən sevir, salamlayır, minnətdarlıq edirlər.

Mənim ürəyimdə böyük bir nisgil vardır. O nisgil budur ki, gün o gün olsun, Qarabağ torpağımız düşməndən azad edilsin, dediyiniz kimi, Siz başda olmaqla biz orada gözəl bir tədbir keçirək və mən Sizin qarşınızda, xalqın qarşısında «Qarabağ şikəstəsi»ni var gücümlə oxuyum. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: İnşallah. İndi isə idman veteranı, məşqçi Muxtar Dadaşova «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə yeni-yeni uğurlar diləyirəm. Azərbaycan idmanının daha uca zirvələrə çatması naminə böyük işlər görməyinizi istəyirəm.

M u x t a r D a d a ş o v: Hörmətli prezidentim! Hörmətli xanımlar və cənablar!

Cənab prezident. Bu yüksək ordeni mənə təqdim etməyinizdən böyük şərəf duyuram. Bu, təkcə mənim əməyimə yox, Azərbaycan pəhləvanlarının qazandığı nailiyyətlərə verilən yüksək qiymətdir. Allah Sizin ömrünüzü uzun eləsin! Siz biz idmançıları heç vaxt yaddan çıxarmırsınız. İdmana böyük qayğı göstərmisiniz.

Möhtərəm prezident, mən öz adımdan və idmançılar adından Sizə daha böyük uğurlar, cansağlığı, uzun ömür arzulayıram. Sizə söz verirəm ki, öz biliyimi, təcrübəmi bundan sonra da gənclərə həvəslə öyrədəcəyəm. Bu, mənim müqəddəs borcumdur.

Bu yaxınlarda respublikamızda prezident seçkiləri keçiriləcəkdir. Cənab prezident, biz – bütün idmançılar yalnız Sizə səs verəcəyik. Allah Sizə cansağlığı versin! Sağ olun.

H e y d ə r Ə l i y e v: Xalq rəssamı Böyükağa Mirzəzadəyə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük yaradıcılıq uğurları arzulayıram.

B ö y ü k a ğ a M i r z ə z a d ə: Əziz və hörmətli prezident!

Hər bir insanın həyatında baş verən xoşbəxtlik mənə də qismət olubdur. Birincisi, mən rəssam olmuşam. Həyatda yaşamaq çox qəribədir, ancaq rəssama qiymət vermək hər kəsin işi deyildir.

Mən vaxtınızı çox almaq istəmirəm, ona görə də fikrimi qısaca olaraq bir neçə kəlmə ilə deyəcəyəm.

Möhtərəm prezident, Sizin mənə verdiyiniz qiyməti son nəfəsimə qədər yaddan çıxarmaram. 1981-ci ildə mənim 60 yaşım tamam oldu. Sizin kimi dahi bir insan həyatımda birinci dəfə mənə zəng etdi.

Cənab prezident, mən Sizi bəlkə də lap cavanlığınızdan tanıyıram. Mənim həmişə Sizə böyük hörmətim olubdur. Mən Sizə həmişə böyük məhəbbət hissləri bəsləmişəm. Möhtərəm prezident, 1981-ci ildə Siz evimə zəng edib məni təbrik etdiniz, mən indiyədək onun təsiri altında yaşayıram. Bir də bu gün mənim həyatımda böyük, xoşbəxt bir gün oldu.

Möhtərəm prezident, mən özümü xoşbəxt hesab edirəm ki, Sizinlə bir vaxtda yaşamışam, Sizin müasirinizəm. Dahi insanla, rəhbərlə bir dövrdə yaşamaq hər adama qismət olmur. Bu, mənə qismət olubdur.

İndi 80 yaşa çatmaq üzrəyəm. Azərbaycanlılarda yaxşı bir söz vardır: Cənab prezident, Allah mənim ömrümdən kəssin, Sizin ömrünüzə calasın.

H e y d ə r Ə l i y e v: Yox, sənin ömrün sənin, mənim ömrün mənim olsun.

B ö y ü k a ğ a M i r z ə z a d ə: Cənab prezident, Siz Azərbaycan xalqına lazımsınız. Azərbaycan xalqı Sizsiz nə edə bilər? Bunu Allah bilir. Sizi istəməyən beş-altı nəfər var, bilmirəm, onlara ya «beşlik», ya da «üçlük» deyirlər. Mən xalqın arasındayam, dəqiq bilirəm ki, Sizi istəməyən adam yoxdur.

Cənab prezident, mən Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

H e y d ə r Ə l i y e v: Böyükağa, mən gənc vaxtlarımdan səni Azərbaycanın böyük rəssamı kimi tanımışam. Bilirsən ki, mən rəssamlıqla o vaxtdan çox maraqlanan bir adamam. Gənc yaşlarımda mən də rəssam olmaq istəyirdim, rəsmlər çəkirdim. Böyükağa Mirzəzadə bizim qarşımızda böyük bir rəssam idi. Ona görə də mən səni heç vaxt unuda bilmərəm və heç vaxt unutmamışam.

B ö y ü k a ğ a M i r z ə z a d ə: Cənab prezident, çox sağ olun. Mən Sizə minnətdaram.

H e y d ə r Ə l i y e v: Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri professor Zəhra Quliyevanı «Şöhrət» ordeni ilə təltif olunması münasibətilə təbrik edirəm.

Z ə h r a Q u l i y e v a: Hörmətli cənab Heydər Əliyev!

Əvvəla, bu yüksək mükafata görə Sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Həmin mükafatı təkcə özümə aid etmirəm, – bu, bizim səhiyyə işçilərimizə, oftalmoloqlarımıza, qadınlarımıza göstərilən diqqət və qayğıdır.

Qəzetlərdən məlum olduğu kimi, bu yaxınlarda, sentyabrın 14–15-də müstəqil respublikamızda qadınlar qurultayı keçiriləcəkdir. Bu münasibətlə mən Azərbaycanın bütün ərazisini gəzərək, zona qadın konfransları keçirmişəm. Həmin konfranslarda qadınların problemləri müzakirə olunmuşdur. Eyni zamanda, məndən xahiş etmişlər ki, onların sözlərini Sizə, xalqımıza yetirim. Cənab Heydər Əliyev, bizim qadınlarımız Sizin müdrik daxili və xarici siyasətinizi ürəkdən bəyənir, dəstəkləyirlər, ətrafınızda sıx birləşərək Sizin dayağınıza, istinadgahınıza çevrilmək istəyirlər. Məndən dəfələrlə xahiş etmişlər ki, qadınlarımızın təşəkkürünü, minnətdarlığını, ünvanınıza deyilən bütün xoş sözləri Sizə yetirim. Allah Sizə uzun ömür, cansağlığı, ailə, övlad səadəti qismət eləsin.

Seçkilərlə əlaqədar olaraq qeyd etmək istəyirəm ki, biz qadınlar 11 təşəbbüs qrupundan birini təşkil etdik. Siz biləydiniz ki, qadınlarımız necə həvəslə, səylə imza toplayırdılar. Əsas mükafat da o oldu ki, Siz televiziya ilə çıxış edərək, prezidentliyə namizəd kimi seçkilərdə iştirak etməyə razılığınızı verdiniz və təşəbbüs qruplarında çalışanların əməyini yüksək qiymətləndirdiniz. Buna görə mən bütün qadınlarımızın adından Sizə təşəkkür edirəm. Minnətdarıq, çox sağ olun. Həmişə Siz olasınız!

Azərbaycan Akademik Milli Dram Teatrının direktoru, xalq artisti Həsən Turabova «Şöhrət» ordeni təqdim olundu.

H e y d ə r Ə l i y e v: Xalq artisti, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Hacıbaba Bağırova bu yüksək mükafatı təqdim edirəm.

H a c ı b a b a B a ğ ı r o v: Cənab prezident, mükafata görə də, Musiqili Komediya Teatrının yeni binasına görə də çox sağ olun.

H e y d ə r Ə l i y e v: Xalq rəssamı Elbəy Rzaquliyevə «Şöhrət» ordenini təqdim edirəm.

E l b ə y R z a q u d i y e v : Azərbaycanın yüksək dövlət mükafatına layiq görüldüyüm üçün Sizə, cənab prezident, səmimi təşəkkürümü bildirirəm və bu əlamətdar gündən xatirə olaraq Sizə qələm hədiyyə edirəm.

Heydər Əliyev xalq artisti, bəstəkar Hacı Xanməmmədova, xalq artisti Rasim Balayevə, akademik Kamal Talıbzadəyə də «Şöhrət» ordeni təqdim etdi.

H e y d ə r Ə l i y e v: Hörmətli xanımlar və cənablar!

XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xalqımız çox istedadlı xalqdır və qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər. XX əsrin ikinci yarısı isə bu baxımdan daha da məhsuldar olmuşdur.

Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılmış əsərləri, əldə edilmiş nailiyyətləri bütün dünyaya nümayiş etdirir və bununla da dünya xalqları içərisində xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir.

Bu əsərləri yaradanlar xalqımızın içindən çıxan ən istedadlı insanlardır. XX əsrdə, xüsusən də bu əsrin ikinci yarısında, şükürlər olsun ki, Azərbaycanda belə insanlar çox olmuşdur, böyük əsərlər yaranmışdır. Bir daha qeyd edirəm ki, bir müstəqil dövlət kimi bu gün biz hər bir xalqın, ölkənin nümayəndəsi ilə danışarkən, görüşərkən xalqımızın istedadı haqqında ümumi sözlərlə yox, yaranmış əsərlər əsasında söhbət aparırıq.

Bizim yaradıcı, elm adamlarımızın – XX əsrdə yazıb – yaradanların bir qismi dünyasını dəyişibdir. Ancaq bu gün çoxları da yaşayır, yaradır və öz yaradıcılığını davam etdirir. Hesab edirəm, biz çox xoşbəxt adamlarıq ki, Azərbaycanın milli azadlığını, müstəqilliyini gördük, müstəqil, azad ölkədə, dövlətdə yaşayırıq.

Ölkəmiz yeddi ildir ki, müstəqildir. Bu gün bu mükafatları sizə təqdim etmək ərəfəsində mən tarixə, günə nəzər saldım. Bu gün avqust ayının 21-dir. Yadıma düşdü ki, 1991-ci ildə məhz avqust ayının 19,20,21-də Rusiyada dövlət çevrilişinə cəhd olmuşdur və onun qarşısı alınmışdır. Bundan sonra Sovetlər İttifaqının dağılması prosesi güclənmiş, nəhayət, 1991-ci ilin sonunda böyük bir dövlət kimi Sovetlər İttifaqı süqut etmişdir. Bunun nəticəsində Azərbaycan da öz müstəqilliyini əldə etmişdir.

İndi bəziləri deyirlər ki, sovet imperiyasını guya onlar dağıdıblar. Sovet imperiyası güclü bir imperiya, dövlət idi. O, 70 ildən çox hökm sürdü və bu ölkəni dağıtmaq istəyənlər çox oldu. 1941-ci ildə alman faşistləri Sovet İttifaqının üzərinə hücum etdilər, ancaq Sovet ittifaqını dağıda bilmədilər. Ondan sonra sovet İttifaqı daha da möhkəmləndi. «Soyuq müharibə» başlandı, dünyada iki blok yarandı. Onlardan biri Qərb ölkə-

lərinin daxil olduqları NATO bloku, ikincisi – Varşava paktına daxil olan, Sovet İttifaqı başda olmaqla digər blok idi.

O dövrdə uzun illər qarşıdurma oldu. Bu «soyuq müharibə»dən dünya da, insanlar da çox əziyyət çəkdilər. O cümlədən, sovet ittifaqının vətəndaşları olaraq biz – Azərbaycan da bundan çox əziyyət çəkdik. Belə bir fövqəldövləti, imperiyanı küçədə qışqırmaqla, bağırmaqla, hay-küy salmaqla dağıtmaq mümkün deyildi. Ancaq bu quruluş, ölkə dağılmalı idi və dağılma prosesi gedirdi.

Mən 80-ci illərin sonlarından bu quruluşun dağılmasını görürdüm, bu quruluşun dağılması üçün öz arzularımı, istəklərimi də bildirirdim və bunu xalqa da çatdırırdım. Ancaq təəssüflər olsun ki, Azərbaycanda bəziləri bunu anlamırdılar. İndi mən tarixi yada salaraq, bir neçə məqamları deməliyəm.

1990-cı ildə mən və mənim kimi çoxları da Azərbaycanın müstəqil olması şüarı ilə çıxış edirdik. Ancaq hakimiyyətdə olan şəxslər isə Sovetlər İttifaqının qorunub saxlanmasını dəstəkləyir, müdafiə edirdilər. Hətta 1991-ci ilin mart ayında Qorbaçov və onun dəstəsi Sovetlər İttifaqını bu fəlakətdən, uçurumdan qoruyub saxlamaq üçün yeni bir islahat elan etdi. Ancaq bu islahat da ona kömək etmədi. Baxmayaraq ki, 1991-ci ilin mart ayında Azərbaycanın o vaxtkı rəhbərliyinin səyləri nəticəsində elan edildi ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti Sovetlər İttifaqının qorunub saxlanmasının tərəfdarıdır. Amma bundan bir neçə ay keçəndən sonra, yəni avqust ayının 19-da Rusiyada, Moskvada Fövqəladə Vəziyyət Komitəsi yarandı və demokratiya tərəfindən olan qüvvələr onun əleyhinə çıxdılar. Beləliklə, Sovetlər İttifaqının dağılması prosesi gücləndi. Dediyim kimi, nəhayət, 1991-ci il dekabrın sonunda Sovetlər İttifaqı dağıldı, süqut etdi.

Bir daha qeyd edirəm, – bu, həmin illərdə dünyada və Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin nəticəsidir. Heç kəs deyə bilməz ki, o, Sovetlər İttifaqını təkbaşına dağıdıbdır. Bu günləri, hadisələri mən ona görə xatırlayıram ki, Sovetlər İttifaqının dağılması üçün təkan baş verdiyi məhz həmin gündən 7 il keçmiş, indi biz müstəqil Azərbaycanda yaşayaraq müstəqil dövlətimizin atributlarını təqdim edirik. Bu gün mən sizə, Azərbaycanın dəyərli insanlarına müstəqil dövlətimizin ordenlərini təqdim etdim.

Bu gün buraya toplaşanlara nəzər salarkən mən bir fikri də ifadə etmək istəyirəm. Birincisi, siz – bu gün Azərbaycanın yüksək mükafatlarını alan şəxslər – hər biriniz Azərbaycanın mədəniyyət, elm, incəsənət tarixinə öz töhfələrinizi vermiş, xalqımıza böyük xidmətlər göstərmiş insanlarsınız. Siz Azərbaycanın mənəvi dəyərlərini inkişaf etdirmiş insanlarsınız.

İkincisi, bu gün burada orden alan insanlar müxtəlif yaşlara mənsubdurlar. Ramazan Xəlilov 100 yaşına çatır. Fərhad Bədəlbəylinin, Rasim Balayevin 50 yaşı tamam olubdur. Buraya toplaşanlar 50 yaş ilə 100 yaş arasında olan insanlardır. Bu, nəyi göstərir? Bu onu göstərir ki, Azərbaycanda nəsillər bir-birini ardıcıl surətdə əvəz edir. Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəliyə aparır. Gənc də, yaşlı da – hamısı bir yerdədir. Bunun xüsusi əhəmiyyəti vardır. Çünki son illərdə bəziləri Azərbaycanın tarixi keçmişini tamamilə pozmağa, qaralamağa, hörmətdən salmağa cəhdlər göstərmişlər.

Şübhəsiz ki, bu cəhdlər heç bir nəticə verə bilməz. Biz Nizamini, Füzulini, Nəsimini, Vaqifi qiymətləndirdiyimiz kimi, Mirzə Fətəli Axundovu da, Üzeyir Hacıbəyovu da, Cəlil Məmmədquluzadəni də, Cəfər Cabbarlını da, Müslüm Maqomayevi də, Səməd Vurğunu da, Rəsul Rzanı da, Süleyman Rəhimovu da, Mehdi Hüseyni də, Qara Qarayevi də, Fikrət Əmirovu da, Niyazini də, Rauf Hacıyevi də və başqalarını da qiymətləndiririk. Biz bu gün yaşayıb-yaradanları da qiymətləndiririk. Bunların hamısı bir-biri ilə üzvi surətdə bağlıdır. Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır.

Kim hansı dövrdə, hansı hökmdarın dövründə, hansı ictimai-siyasi quruluşda yaşayıb, yazıb, kim müstəqil Azərbaycanda yaşayır, yazır – bunun fərqi yoxdur. Onların hər biri keçmişdə də, bu gün də xalqımıza, Azərbaycan xalqına, doğma millətimizə, vətənimizə xidmət edibdir.

Mənim əziz dostlarım, siz də həmin bu xidməti göstərən insanlarsınız. Azərbaycanın dövlət başçısı kimi mən də həm 100 yaşına çatan Ramazan Xəlilovun, həm də 50 yaşını dünən adlayan Rasim Balayevin, Fərhad Bədəlbəylinin xidmətlərini qiymətləndirirəm. Onlar da, 80 yaşını adlamış Cövdət Hacıyev də, 80 yaşına çatan Sara Qədimova da, 80 yaşını adlayan Nəsibə Zeynalova da, bu gənclər də bizim üçün əzizdirlər. Onların hamısı bizim üçün əzizdir.

Bu gün mən çox böyük iftixar hissi keçirirəm ki, mədəniyyətimizi, elmimizi, incəsənətimizi çiçəkləndirən, inkişaf etdirən, yaradan və bizim hər birimizə mənəvi, estetik qida verən insanlarla bir daha görüşürəm, bu dövlət mükafatlarını, ordenləri sizə təqdim etmək mənə nəsib olubdur.

Sara xanım xatırladı ki, 1992-ci ildə mən Naxçıvandan ona zəng etdim. Bu belədir, doğrudur. Onda mən Naxçıvanda – çox təcrid olunmuş, blokada şəraitində yaşayan bir diyarda idim. Özüm də çətin şəraitdə ya-

şayırdım. O vaxt eşitdim ki, Sara xanımın yubileyidir. Mən ona bir məktub göndərdim. Xatirimdədir, həmin məktubu sonra televiziya ilə verdilər. O zaman Naxçıvanda televiziyada gördüm ki, filarmoniyada keçirilən tədbirdə mənim məktubumu oxudular. Mən çox məmnun oldum ki, Sara xanımın filarmoniyadakı yubileyinə toplaşanlar həmin məktubu həyəcanla, alqışlarla qarşıladılar. Ancaq mən bu məktubla kifayətlənmədim, zəng də etdim ki, o mənim, mən də onun səsini eşidim. Sara xanımı unutmaq olarmı? Mən harada olsaydım, Naxçıvanda da – baxmayaraq ki, o vaxt Naxçıvan blokada şəraitində idi, – başqa yerdə də olsaydım, Sara xanımı unutmayacaqdım. Çünki Sara xanımın nə səsini, nə də özünü unutmaq olmaz.

Sara xanım 1940-cı illərdə mahnılar oxuyubsa, insanlara ruh veribsə, – bəli, İkinci Dünya müharibəsi zamanı gənc bir qız, müğənni olan Sara xanım gedib əsgərlərin qarşısında mahnılar oxuyub, insanlara ruh verib, – onu unutmaq olarmı? Sara xanım ondan sonrakı dövrdə də öz fəaliyyətini davam etdirib, bu gün də xalqın içindədir, ictimaiyyətin görkəmli insanlarından biridir. Bəs kimsə deyə bilərmi ki, Sara xanım o vaxt olub, biz indi onu tanımırıq, bu gün hansısa bir müğənni çıxıb mitinqdə söz deyir – onu tanıyırıq? Bu, dəhşətli bir əhvali-ruhiyyədir.

Biz heç kəsi inkar etmirik, heç kəsin də kimisə inkar etmək hüququ yoxdur. Bu hüquq heç kəsə verilməyibdir, bir Allahdan başqa, heç kəsin belə bir hüququ yoxdur.

Yenə də çox məmnunam ki, nəhayət, bu ordeni vermək imkanı əldə edildi, mən sizə bu ordeni verdim və çox mehriban görüşümüz oldu. Biz iki saatdan artıqdır ki, bir yerdəyik. Fərq təkcə ondan ibarətdir ki, siz hamınız oturmusuz, mən isə ayaq üstə durmuşam. Amma Azərbaycanın sizin kimi dəyərli insanlarına görə mən iki saat yox, on saat da ayaq üstə durmağa hazıram.

Siz burada mənim haqqımda xoş sözlər dediniz, öz hissiyyatlarınızı bildirdiniz, məhəbbətinizi, sevgilərinizi, arzularınızı izhar etdiniz. Mən bunlara görə sizə təşəkkür edirəm.

Bilirsiniz ki, mənim həyatım xalqa, millətə, Azərbaycana həsr olunubdur. Bu, mənim həyatımın mənasıdır. Əgər insanlar bunu görürsə və qiymətləndirirsə, bu, mənim üçün ən yüksək mükafatdır. Ancaq kimsə qiymətləndirir, kimsə qiymətləndirmirsə, bu da mənim üçün heç bir narahatlıq hissi doğurmur. Cəmiyyətdə hamı üçün yaxşı olmaq mümkün deyildir. Xüsusən də hakimiyyətdə olan insan üçün. Hakimiyyətdə olan insan kimisə təltif edir, amma onun hakimiyyəti dövründə kimsə cəzala-

nır. Bu təbiidir. Qanunu pozan, cinayət edən cəzalanmalıdır. Amma təəssüf ki, cəzalanan həmin insan bəzən öz cinayətini unudaraq hakimiyyəti, onu cəzalandırmış orqanları günahlandırır. Bu da var. Bu da bizim reallığımızdır. Bu da məndə heç bir təəccüb doğurmur. Ancaq Azərbaycanda insanların tam əksəriyyəti dövlətimizin müstəqilliyi yolunda son beş ildə görülmüş işləri qiymətləndirir və sizin burada dediyiniz kimi, yüksək qiymətləndirir. Bu da mənim üçün, mənim gələcək işlərim üçün böyük dəstəkdir. Bu, məni daha da ruhlandırır, mənə daha da çox güc verir.

Doğrudur, gücüm onsuz da vardır. Ancaq hər bir insanın duası da tarixi missiyamı yerinə yetirməkdə mənə yardım edir. Buna görə mən sizə təşəkkür edirəm.

Mən inanıram ki, sizin hər biriniz Azərbaycan mədəniyyətini, incəsənətini, elmini bundan sonra daha da zənginləşdirmək üçün əzmlə çalışacaqsınız, yeni-yeni əsərlər yaradacaqsınız, xalqımızı sevindirəcəksiniz. İndi bunun üçün bəlkə də bir tərəfdən şərait çətindir, amma digər tərəfdən daha da əlverişlidir.

Şübhəsiz ki, sosial-iqtisadi çətinliklər cəmiyyəti də və sizləri də sıxır. Ancaq mənəvi nöqteyi-nəzərdən biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır. Mən sizə deyirəm, bunu bilin, Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır.

Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, – bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır.

Mən sizi bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uzun ömür arzulayıram. Sizə yeni-yeni uğurlar, ailə səadəti arzulayıram. Ümidvaram ki, siz bundan sonra da öz gözəl işlərinizlə, əsərlərinizlə xalqımızı, millətimizi sevindirəcəksiniz. Sağ olun.

AZƏRBAYCANDA DÜNYƏVİ PEŞƏKAR TEATRIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA

Bakı şəhəri
27 avqust 1998-ci il

Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi vardır. Əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, meydan mərasimləri, «Qaravəlli» tipli müxtəlif tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Xalq teatrının repertuarını təşkil edən əxlaqi və tərbiyəvi əhəmiyyətə malik əsərlərlə yanaşı, dini tamaşalar da teatr sənətinin formalaşmasında özünəməxsus rol oynamışdır.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verdi. Ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində köklü forma və məzmun dəyişiklikləri baş verdi. Həmin dövr Azərbaycan teatrı üçün də əlamətdar oldu. Dahi mütəfəkkir Mirzə Fətəli Axundovun ədəbiyyatımıza dram janrını gətirməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynadı.

Böyük maarifçi Həsən bəy Zərdabinin və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda Mirzə Fətəli Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşaya qoyulması Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini qoydu.

Teatrın böyük ictimai əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Bakıda, Qubada, Şəkidə, Şuşada, Naxçıvanda, həmçinin Tiflisdə və İrəvanda teatr tamaşaları təşkil edirdilər. Azərbaycanın görkəmli ziyalıları Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov və başqaları dövrün mühüm hadisələrinin real bədii təsvirini verən pyesləri ilə teatr repertuarlarını zənginləşdirirdilər. Rusiyada və Avropada təhsil aldıqdan sonra vətənə qayıtmış azərbaycanlı gənclər dünya klassiklərinin əsərlərini tərcümə edərək tamaşaya qoymaqla teatr həvəskarlarını dünya ədəbiyyatının nümunələri ilə tanış edir, Azərbayc-

anda milli dəyərlərə söykənən yeni tipli teatrın yaradılması işinə xidmət edirdilər.

Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb və başqalarının səyləri nəticəsində Azərbaycanda milli peşəkar aktyorluq məktəbi formalaşdı. Məhz bu dövrdə Azərbaycanda xüsusi teatr binalarının inşası başlandı və peşəkar teatrla bağlı digər sənət növləri də inkişaf etdirildi.

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra ölkənin bir çox sahələrində olduğu kimi, teatr sənətimizin inkişafında da mühüm işlər həyata keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti pərakəndə fəaliyyət göstərən teatr truppalarını birləşdirərək dövlət teatrını yaratdı. 1919-cu il oktyabrın 24-də Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlət və hökumət rəhbərlərinin iştirakı ilə dövlət teatrının rəsmi açılışı oldu.

Azərbaycanda peşəkar teatr sənətinin inkişafı Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi böyük sənətkarların xalqımızın tarixi keçmişini, məruz qaldığı sarsıntıları, xeyirlə şərin qarşıdurması ilə bağlı fəlsəfi düşüncələri canlandıran səhnə əsərləri ilə böyük vüsət aldı.

Sovet hakimiyyəti illərində Azərbaycan teatrı yad ideoloji təsirlərə məruz qalsa da, öz milli varlığını qoruyub saxlaya bilmiş və respublikanın mədəni həyatında fəal rol oynamışdır. Azərbaycan teatrının coğrafiyası genişlənərək respublikanın demək olar ki, bütün bölgələrini əhatə etdi.

Teatrların repertuarları dünya ədəbiyyatının gözəl nümunələri ilə yanaşı, Səməd Vurğun, Süleyman Rüstəm, Sabit Rəhman, Mirzə İbrahimov, İlyas Əfəndiyev və başqalarının əsərləri ilə daha da zənginləşdi. Həmin dövrdə tamaşaçıların sonsuz məhəbbət və rəğbətini qazanmış Mərziyə Davudova, Rza Təhmasib, İsmayıl Hidayətzadə, Kazım Ziya, Rza Əfqanlı, Mustafa Mərdanov, Fatma Qədri, İsmayıl Dağıstanlı, Ağadadaş Qurbanov, Adil İsgəndərov, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Möhsün Sənani, İsmayıl Osmanlı, Hökumə Qurbanova, Münəvvər Kələntərli, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Əliağa Ağayev, Əli Zeynalov, Sergey Yakuşev, Rahil Ginzburq, Mehdi Məmmədov, Həsənağa Salayev, Şəmsi Bədəlbəyli, Tofiq Kazımov, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Nəsibə Zeynalova və başqa aktyor və rejissorların adları Azərbaycan teatr sənəti tarixinə həmişəlik həkk olunmuşdur.

Azərbaycanda dram teatrı ilə yanaşı, opera və baletin də qədim tarixi kökləri vardır. Muğam sənətimiz uzun inkişaf yolu keçərək xüsusi

ifaçılıq məktəbinə çevrilmiş, muğam əsasında yaradılmış tamaşalar meydana çıxmışdır. Bunların məntiqi nəticəsi olaraq dahi Azərbaycan bəstəkarı Uzeyir Hacıbəyovun yaratdığı «Leyli və Məcnun» operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün müsəlman Şərqində opera sənətinin təməli qoyuldu. Üzeyir Hacıbəyov ilə birlikdə Azərbaycanda Avropa tipli peşəkar musiqi sənətinin bünövrəsini qoyan Müslüm Maqomayevin «Şah İsmayıl» operası da muğam operası janrının incilərindən biri kimi Azərbaycan səhnəsində həmişəlik yer tutdu.

Üzeyir Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti də milli mədəniyyət tariximizdə mühüm mərhələ olmuşdur. O, həm bəstəkar, həm də dramaturq kimi 1909–1913-cü illərdə yaratdığı əsərləri ilə Azərbaycan teatrına musiqili komediya janrını gətirdi. Bu janr sonralar Qara Qarayev, Rauf Hacıyev, Tofiq Quliyev, Süleyman Ələsgərov və başqa bəstəkarların yaradıcılığında öz inkişafını tapdı. Qara Qarayevin və Rauf Hacıyevin operettaları bir çox ölkələrdə teatrların repertuarlarına daxil edildi.

Əsası Üzeyir Hacıbəyov və Müslüm Maqomayev tərəfindən qoyulmuş muğam opera janrının təşəkkül tapması Cabbar Qaryağdı məktəbinin davamçıları olan xalq xanəndələrinin opera səhnəsində uğurla çıxış etmələrinə şərait yaratdı. Hüseynağa Hacıbabəyov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva, Əbülfət Əliyev, Sara Qədimova, Rübabə Muradova, Zeynəb Xanlarova, Arif Babayev və başqaları muğam operası janrında çıxışları ilə öz yaradıcılıqlarını daha da zənginləşdirdilər.

30-cu illərdə Üzeyir Hacıbəyovun «Koroğlu» və Müslüm Maqomayevin «Nərgiz» operalarının səhnəyə qoyulması Azərbaycan opera sənətində yeni mərhələnin başlandığını bildirdi. Opera sənətimizin incilərindən sayılan bu əsərlərdə ilk dəfə olaraq klassik opera formasına riayət olunmuşdur. Bu tipli operaların yaranması Bülbül və Şövkət Məmmədova kimi böyük sənətkarların öz nadir istedadlarını nümayiş etdirmək imkanlarını artırdı. Azərbaycan vokal məktəbi ənənələrini Avropa opera mədəniyyəti ilə birləşdirən Bülbül yaradıcılığı ölkəmizdə vokal sənətinin inkişafında və yeni tipli opera solistlərinin yetişməsində mühüm rol oynadı.

1953-cü ildə Fikrət Əmirovun «Sevil» operası Cəfər Cabbarlının eyni adlı əsərinə yeni həyat verərək xalq ruhuna yaxın gözəl melodiyaları ilə opera sənətinin inkişafına təkan verdi. Bu əsər Rəşid Behbudov, Firəngiz Əhmədova, Sona Aslanova və başqaları kimi tanınmış sənətkarlarımızın yaradıcılığına keyfiyyətcə yeni cizgilər əlavə etdi.

Azərbaycan baletinin də zəngin ənənələri vardır. Qobustan qaya təsvirləri, xalq rəqs yaradıcılığının bəzi növləri Azərbaycanda bu janrın meydana çıxması və inkişafı üçün münasib şərait olduğundan xəbər verirdi. Təməli 1923-cü ildə Azərbaycan opera teatrının nəzdində balet studiyası kimi qoyulmuş Bakı xoreoqrafiya məktəbinin fəaliyyəti Azərbaycanda balet janrının təşəkkül tapması və inkişafı üçün lazımi baza yaratdı. Məktəbin məzunlarının ilk çıxışları klassik rus və Avropa baletlərinin respublikamızda tamaşaya qoyulması ilə bağlı olurdu. 30-cu illərin sonlarında Azərbaycanda artıq milli baletin yaradılması üçün möhkəm zəmin var idi.

1940-cı ildə ilk milli Azərbaycan baleti – Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baleti tamaşaya qoyuldu. 1952-ci ildə isə Qara Qarayevin məşhur «Yeddi gözəl» baletinin səhnəyə qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrildi. Qara Qarayevin bu əsəri, habelə onun «İldırımlı yollarla» baleti Azərbaycanın teatr sənətinin dünyada şöhrət tapması işinə xidmət etdi. Öz sələflərinin ənənələrini ləyaqətlə davam etdirən Arif Məlikovun 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti nəinki Azərbaycanın, eləcə də dünyanın bir çox ölkələrinin opera teatrlarının repertuarında möhkəm yer tutmuşdur. 70-ci illərin ən uğurlu səhnə əsəri isə Fikrət Əmirovun yaratdığı «Min bir gecə» baleti oldu.

Rusiyada təhsil almış ilk Azərbaycan balerinası Qəmər Almaszadənin həm baletmeyster, həm də pedaqoq kimi Azərbaycan baletinin formalaşmasında və milli xoreoqrafiya kadrlarının hazırlanmasında böyük əməyi olmuşdur. Klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərini birləşdirən Azərbaycan balet məktəbi böyük uğurlar qazandı. Leyla Vəkilova, Konstantin Bataşov, Valeri Pletnyov, Rəfiqə Axundova, Maqsud Məmmədov, Çimnaz Babayeva, Tamilla Şirəliyeva və başqaları respublikamızda və onun hüdudlarından kənarda Azərbaycan baletinə şöhrət gətirdilər.

Azərbaycanda opera və balet sənətinin inkişafında görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin böyük xidmətləri olmuşdur. Azərbaycan dirijorluq məktəbinin formalaşması və inkişafında mühüm rol oynamış Niyazi müxtəlif simfonik əsərlərlə yanaşı, «Xosrov və Şirin» operası və «Çitra» baletinin müəllifi kimi də geniş şöhrət qazanmışdır.

Kino sənətimiz öz tarixini 1898-ci ildən başlasa da, ölkəmizin teatr ənənələri və təcrübəsindən həmişə bəhrələnmişdir. Kino sənətinin uğurları ilk növbədə Azərbaycanın teatr xadimləri və aktyorlarının adları ilə bağlıdır.

Azərbaycan teatr sənətinin sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil sənət ocaqlarının yaranmasına gətirib çıxardı. Bu gün respublikada milli dram teatrı, opera və balet teatrı ilə yanaşı, musiqili komediya teatrı, rus dram teatrı, gənc tamaşaçılar teatrı, kukla teatrı, marionet teatrı, pantomima teatrı, «Yuğ» teatrı, Bakı Bələdiyyə Teatrı və başqa teatrlar uğurla fəaliyyət göstərirlər. İrəvan, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, Mingəçevir, Qazax, Qax, Qusar, Ağdam, Şuşa, Füzuli teatrları öz tamaşaları ilə teatrsevərlərin dərin rəğbətini qazanmışlar.

Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. O, öz fəaliyyəti ilə xalqın milli sərvətinə çevrilmişdir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə milli teatrımızın inkişafı üçün geniş perspektivlər açılmışdır. Teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir.

Müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr olan Azərbaycan teatrının milli mədəniyyətimizin inkişafındakı mühüm rolunu, onun yaradılmasının 125 illik yubileyinin keçirilməsinin respublikanın mədəni həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycanda Dünyəvi Peşəkar Teatrın yaradılmasının 125 illiyi münasibətilə respublikada geniş yubiley tədbirləri keçirilsin.

2. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi məqsədi ilə təşkilat komitəsi yaradılsın.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

TÜRKİYƏDƏ LAYİQ GÖRÜLDÜYÜ «DƏDƏ QORQUD», «İNSAN HAQLARI» MÜKAFATLARININ, «İPƏK YOLU» VAQFININ FƏXRİ ÜZVÜ DİPLOMUNUN VƏ MÜKAFATININ TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

Prezident sarayı
5 sentyabr 1998-ci il

«Dədə Qorqud» mükafatı mənim üçün əzizdir. Çünki Dədə Qorqud bizim hamımızın babamızdır, atamızdır. Azərbaycanda Dədə Qorqud adı hamı üçün əzizdir. Türkiyədə məlumdur ki, mən «Dədə Qorqud» dastanının, əfsanəsinin 1300 illik yubileyini keçirmək məqsədi ilə mühüm qərarlar qəbul etmişəm, yubiley komissiyası təşkil olunubdur. Biz bunu YUNESKO ilə birlikdə beynəlxalq səviyyədə keçirəcəyik: Bayqurtluların bu təşəbbüsləri bizim hamımızın müştərək işimizin bir hissəsidir. Onların Dədə Qorqud simasını bu heykəldə əks etdirməsi və bu mükafatı mənə verməsi mənim üçün çox əhəmiyyətlidir.

Azərbaycanda insan haqlarının qorunması həm dövlətin, həm də ictimaiyyətin fəaliyyətində əsas yer tutur, demokratik, hüquqi, dünyəvi dövlət quran Azərbaycanda insan haqlarının qorunması sahəsində çox işlər görülmüşdür, ölkəmizdə ölüm hökmünün ləğv olunması bu sahədə çox ciddi və dəyərli bir addım kimi qiymətləndirilir. İnsan haqları ilə əlaqədar 1948-ci ildə qəbul olunmuş bəyannamənin 50 illik yubileyinin BMT tərəfindən keçirilməsində Azərbaycan da iştirak etmiş və bu barədə ölkəmizdə bir çox tədbirlər görülmüşdür. Bu sahədə görülən işlərə İzmirdə verilən yüksək qiymətə görə minnətdarlığımı bildirirəm.

Qədim Böyük İpək yolunun bərpası tarixi hadisə olmuşdur. Bunun üçün Azərbaycanda xeyli iş görüldüyünü nəzərə çarpdırmaq istəyirəm. Azərbaycan İpək yolu xəttində mühüm yer tutur. Keçmişdə Böyük İpək yolu mövcud olan zaman Azərbaycan burada öz əhəmiyyətli rolunu oynayıbdır. Bu gün onun bərpasında da Azərbaycan fəal iştirak edir.

Bu sahədə görülən işlər dünyada məlumdur. Azərbaycanın təşəbbüsü ilə Avropa Komissiyası ilə birlikdə sentyabrın 7–8-də Bakıda Böyük

İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçiriləcəkdir. Bu tədbirin yüksək səviyyədə keçəcəyinə ümidvar olduğumu bildirirəm. Bunun üçün xeyli hazırlıq işləri görüldüyünü və konfransda mühüm sənədlər qəbul ediləcəyini vurğulayıram.

Türkiyənin «İpək yolu» Vaqfı bu sahədə Azərbaycanda görülən işlərə diqqət yetirdiyinə və məni bu münasibətlə mükafatlandırdığına görə təşəkkür edirəm. Mən bu mükafatı məmnuniyyətlə qəbul edirəm. Bunlar, yəni mənim fəaliyyətimə göstərilən bu qayğı, diqqət Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişaf etməsinə bundan sonra da xidmət edəcəkdir və bu sahədə bizim müştərək işlərimiz üçün çox böyük əhəmiyyətə malikdir. Rica edirəm ki, Bayqurt və İzmir bələdiyyələrinin rəhbərlərinə, İpək yolu Vaqfının nümayəndələrinə və bütün Türkiyə vətəndaşlarına minnətdarlığımı, salamımı, ən xoş arzularımı, hörmət və ehtiramımı çatdırasınız.

XALQ ŞAİRİ
RƏSUL HƏMZƏTOVA

Bakı şəhəri
8 sentyabr 1998-ci il

Çox hörmətli Rəsul Həmzətov!

Bu əlamətdar gündə Sizi – Dağıstanın görkəmli oğlunu, zəmanəmizin ən böyük şairlərindən birini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xeyirxahlığın və humanizmin nurlu ideyaları ilə aşılanmış əsərləriniz bir çox xalqların nümayəndələri tərəfindən olduqca böyük maraqla qarşılanır. Doğma diyara hədsiz məhəbbət, həyatın bədii qavranışının qeyri-adiliyi, öz xalqının əsrlər boyu təşəkkül tapmış adət və ənənələrinə qayğıkeş münasibət Sizin əsərlərinizə ümumbəşəri əhəmiyyətlə yanaşı, dərin milli kolorit verir.

Sizin fəaliyyətiniz müxtəlif dövrlərdə yüksək hökumət təltiflərinə və mükafatlarına layiq görülmüşdür. Lakin ən yüksək mükafat sizin öz xalqınız arasında, istedadınızın bütün dünyadakı milyonlarla pərəstişkarları arasında qazandığınız böyük məhəbbətdir. Poeziyanın çox sevildiyi və yüksək qiymətləndirildiyi bir ölkə olan Azərbaycanda elə bir guşə yoxdur ki, Sizi tanımasınlar və yaradıcılığınıza heyran olmasınlar.

Xalqlarımızın mənəvi, mədəni və dini dəyərlərinin ümumiliyi çoxəsrlik dostluq və qardaşlıq əlaqələrinin əsas təməli olmuşdur və olaraq qalır. Əcdadlarımızın nəcib işinin layiqli davamçısı kimi Siz bütün çoxsahəli fəaliyyətinizlə bu əlaqələrin möhkəmlənməsi işinə qiymətli töhfə verirsiniz. Əminəm ki, Sizin müdrikliyiniz, həqiqi söz ustadı kimi istedadınız, böyük həyat təcrübəniz gələcəkdə də Azərbaycan və Dağıstan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Əziz Rəsul!

75 illik yubileyiniz günü Sizə möhkəm cansağlığı, əmin-amanlıq və yeni yaradıcılıq uğurları arzulayıram. Sizi bağrıma basıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

MƏŞHUR PİANOÇU, HƏMYERLİMİZ BELLA DAVİDOVİÇİN KONSERTİNDƏN SONRA ONUNLA VƏ KONSERTİN DİGƏR İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika sarayı
10 sentyabr 1998-ci il

H e y d ə r Ə l i y e v: Sizi uğurlu çıxışınız münasibətilə təbrik edirəm. Oğlunuz da əla çıxış etdi. Siz Azərbaycanda çox məşhur şəxsiyyətsiniz. Azərbaycandan çoxdan çıxıb getsəniz də, Sizi unutmayıblar, hey Sizi xatırlayırlar. Bununla bərabər, fəxr edirlər ki, bizim bakılı dünya şöhrətli pianoçudur.

Bu gün səhnədə çıxış edərkən bakılı olduğunuzu söylədiniz və tamaşaçılar bunu hərarətlə qarşıladılar. Bilirsinizmi, bu gün mən Sizi məmnunluqla dinlədim, konsert qurtardıqdan sonra isə Siz cəmi bir neçə kəlmə dediniz, amma Bakı haqqında deyilən bu sözlər çox xoş idi. Həqiqətən gözəl şəhərdir, bu şəhər nə qədər görkəmli adamlar yetirmişdir. Bu adamlar bütün dünyada məşhurdurlar. Alimlər, musiqiçilər, rəssamlar, bəstəkarlar. Nə qədər belə adamlar, nə qədər belə nəsillər olubdur! Bir sözlə, mən bu barədə düşünərkən fəxr edirdim ki, şəhərimiz, ölkəmizin paytaxtı, artıq müstəqil dövlətimizin paytaxtı necə misilsiz şəhərdir, belə zəngin tarixə və zəngin ənənələrə malikdir.

Burada musiqi ənənələri olmasaydı, belə istedadlar yetişməzdi. Burada musiqi mühiti, şəraiti, atmosferi, ziyalılıq atmosferi, belə yüksək intellekt atmosferi olubdur. Burada belə adamlar da, ailələr də olubdur. Bu ailələr, – onlar burada doğulmuş 70 yaşlıların nəslidir. Onlar burada anadan olmuş, 20-ci, 30-cu, 40-cı illərdə boya-başa çatmışlar.

B e l l a D a v i d o v i ç: Hörmətli cənab prezident. Xoş sözlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən Bakını doğma şəhərim kimi sevirəm. 70 illik yubileyim ilində öz doğma şəhərimin küçələri ilə gəzirəm. Bütün illər ərzində daim fəxr etmişəm ki, mən bakılıyam.

Bilirsiniz, mənim valideynlərim əsil bakılı idilər. Mənim babam konsertmeyster olmuşdur. Mən fəxr edirəm ki, o, hələ 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə Azərbaycanı uğurla

təmsil etmiş, hətta bu ongünlükdə iştirakına görə ordenə layiq görülmüşdür. Çox sevdiyimiz dahi Üzeyir bəyin ən gözəl sənət əsərlərindən olan «Koroğlu» operasının ilk tamaşası da həmin ongünlükdə olmuşdur.

H e y d ə r Ə l i y e v: Bunun Sizin üçün əhəmiyyəti var ki, çox böyük fasilədən sonra da xalq Sizi unutmayıbdır. Mən fasilədə salona göz gəzdirdim. Salondakılar əsasən musiqiçilər, incəsənət aləminin adamları, Azərbaycan ziyalılarının nümayəndələri, görkəmli incəsənət xadimləri idilər. Odur ki, bu, Sizin üçün də, bakılılar üçün də hadisədir, ölkəmiz üçün də hadisədir.

İndi Bakının çox yaxşı vaxtıdır. Sentyabr Azərbaycan üçün ümumiyyətlə yaxşı aydır. Biz burada iki gün, sentyabrın 7–8-də böyük beynəlxalq konfrans keçirdik. Bu işlərdən yalnız dünən başım açıldı, hava həqiqətən xoş, mülayimdir, bizdə deyildiyi kimi, indi ilin ən yaxşı çağıdır. Biz konfransı çox uğurla keçirdik, çoxlu qonaq vardı – onlar 32 ölkədən gəlmişdilər. Onların arasında prezidentlər, nazirlər, 13 beynəlxalq təşkilatın nümayəndələri var idi. Böyük tarixi İpək yolunu bərpa edirik. Bu İpək yolu hələ eramızdan əvvəl mövcud olmuş və orta əsrlərdə bir çox coğrafi kəşflərlə əlaqədar yox olub getmişdir, indi isə onu bərpa edirik. O, Asiya ilə Avropanı birləşdirmək üçün çox gərəkli, zəruri olmuşdur.

Təsəvvür edirsinizmi, Birləşmiş Ştatlardan tutmuş Yaponiyayadək nümayəndələr vardı – ABŞ, bütün Avropa və Asiya. Təbii ki, Yaponiya, Çin, Monqolustan, Mərkəzi Asiyanın bütün ölkələri – Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Qafqaz – Azərbaycan, Gürcüstan, Ermənistan, İran, Rusiya, sonra – Türkiyə və Avropa ölkələri, ta İspaniyaya qədər, demək olar, bütün Avropa ölkələri bu konfransda iştirak edirdilər. Biz nəqliyyat dəhlizini bax belə çəkirik. Bir sözlə, hava bizə onda da kömək etmişdi, indi də kömək edir.

O ki, qaldı simfonik orkestrin əla çıxış etdiyi barədə ümumi rəylə mən də razılaşıram. Bilirsiniz, müsiqiçilər 1989-cu ildən bəri böhran dövrü keçirmişlər. Lakin sonra mən simfonik orkestrə kömək haqqında qərar qəbul etdim. İndi onlar yeni həyata başlamışlar. Biz onlara bundan sonra da kömək edəcəyik.

Bu gün siz hamınız, konsertin bütün iştirakçıları xoşuma gəldiniz, Siz çox yaxşı görünürdünüz. Hətta heyran qaldım ki, Siz çox mürəkkəb əsərləri necə rəvan və səlis ifa edirdiniz.

Bella Davidoviçə və konsertin digər iştirakçılarına yaradıcılıqda yeni uğurlar arzulayıram. Sağ olun.

XALQ ARTİSTİ ARİF MƏLİKOVA

Bakı şəhəri, 12 sentyabr 1998-ci il

Hörmətli Arif Məlikov!

Sizi – müasir Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan görkəmli sənətkarı 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Üzeyir Hacıbəyov və Qara Qarayev məktəbinin ənənələrini layiqincə davam etdirərək hələ gənc yaşlarınızda böyük sənət uğurları qazanmısınız. Milliliklə müasirliyin vəhdətinin gözəl nümunəsi olan «Məhəbbət əfsanəsi» baletiniz Azərbaycan müsiqisinin şöhrətinin artmasında müstəsna rol oynamışdır. Musiqi dilinin zənginliyi, obrazlarının cazibədarlığı və hisslərin poetik ifadəsi ilə səciyyələnən bu balet dünyanı fəth edərək teatr səhnələrində indi də müvəffəqiyyətlə tamaşaya qoyulmaqdadır. Sonrakı dövrlərdə bəstələdiyiniz balet əsərlərinin taleyi də uğurlu olmuşdur.

Dövrümüzün dərin ziddiyyətlərini əks etdirən simfoniya və simfonik poemalarınız beynəlxalq festivallarda, bir çox ölkələrin musiqi salonlarında daim səslənir. Romans və mahnı janrında əsərlərin müəllifi kimi Siz dinləyicilərin dərin rəğbətini qazanmısınız. Kinofilmlərə və dram tamaşalarına yazdığınız musiqi də yaradıcılığınızın mühüm bir qolunu təşkil edərək musiqi xəzinəmizi zənginləşdirir.

Azərbaycanda gənc bəstəkar kadrların yetişdirilməsi sahəsindəki xidmətləriniz yüksək təqdirə layiqdir. Sizin ictimai fəaliyyətiniz əsil vətəndaşlıq mövqeyini əks etdirir. Azərbaycan xalqının ağır «Qara yanvar» günlərində təcavüzə qarşı etirazınız, haqq-ədalətə çağırışlarınız ən yüksək kürsülərdən cəsarətlə səslənirdi.

Ümidvaram ki, fitri istedad, milli musiqimizə sonsuz bağlılıq, sənət yollarında əldə etdiyiniz böyük təcrübə ilə səciyyələnən yaradıcılığınız Azərbaycan mədəniyyətinin daha da zənginləşməsinə bundan sonra da xidmət edəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

BAKIDA AKADEMİK YUSUF MƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

16 sentyabr 1998-ci il

– Hörmətli xanımlar və cənablar! Bu gün mən əvvəlcə sizi, Bakının gözəl guşəsinə toplaşmış ziyalıları, elm adamlarını səmimi qəlbdən salamlayıram və Azərbaycanda, Bakıda bu gün baş verən çox əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Bizim doğma ölkəmiz Azərbaycan öz təbii gözəlliyi ilə yanaşı, torpağımızın üzərində insanların, Azərbaycan xalqının yaratdığı memarlıq, heykəltəraşlıq abidələri ilə də gözəldir.

Azərbaycan xalqının qədim adət-ənənələrinə görə bizim ölkədə, ümumiyyətlə Şərq aləmində insan heykəli dəb olmayıbdır. Ancaq xalqımız inkişaf edib, dünya mədəniyyətinin gözəl nümunələrini öz həyatına tətbiq etməyə çalışıb, dünya mədəniyyətindən bəhrələnib və XX əsrdə Azərbaycan torpağında, Azərbaycanın paytaxtında çox qədim, gözəl, əzəmətli memarlıq abidələri ilə yanaşı, heykəltəraşlıq abidələri də yaranmışdır. Bu, bizim Vətənimizin həyatını daha da zənginləşdirmiş, gözəlləşdirmişdir. Hesab edirəm ki, bu, çox gözəl bir ənənədir. Ona görə ki, heykəltəraşlıq abidələri, heykəllər adətən, insan yaşayan hər bir yeri abadlaşdırır, gözəlləşdirir.

Bir də ona görə ki, bu abidələr Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinə, insanlarına, öz tarixinə, elminə, mədəniyyətinə, dövlətinə göstərilən hörmət və ehtiramı əks etdirir.

Azərbaycanda, Bakıda XX əsrdə heykəllər daha çox yazıçılara, şairlərə, mədəniyyət xadimlərinə və bəzi hallarda ictimai-siyasi xadimlərə həsr olunmuşdur. Ancaq Azərbaycan xalqının qədim tarixində bəşər mədəniyyətinə ən böyük töhfələrindən biri xalqımızın istedadlı insanlarının yaratdığı elmi əsərlər, dünya elminə verdiyi töhfələr olubdur. Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycan xalqının dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, başını

ucaldıblar. Biz bu gün bütün Azərbaycan alimlərinin, elm adamlarının hamısını böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq və onların qoyduqları irsi, onların yaradıcılığını heç vaxt unutmayacağıq.

XX əsrdə Azərbaycanın həyatında çox böyük hadisələr baş veribdir. XX əsr bəşər tarixində çox mürəkkəb, ziddiyyətli, böyük dəyişikliklər əsri olmuşdur, inqilablar, müharibələr, eyni zamanda elmin, mədəniyyətin sıçrayışla və sürətlə inkişaf etdiyi bir dövr olmuşdur. Biz XX əsri sona çatdıraraq ötən dövrə doğru-düzgün, ədalətli qiymət verməliyik. Yaxşıya yaxşı, pisə pis deməliyik.

Azərbaycan xalqının da həyatında XX əsr bütün bu dəyişiklikləri özündə əks etdiribdir. Biz XX əsrdə başımıza gələn faciələri, itkilərimizi, verdiyimiz qurbanları kədərlə xatırlayırıq və heç vaxt unutmayacağıq. Bununla yanaşı, XX əsrdə Azərbaycan xalqının bütün bu çətin mərhələlərdən keçdiyi böyük tarixi yolu, əldə etdiyi nailiyyətləri və bu yüksək zirvələrə çatmasını da qiymətləndiririk. Güman edirəm, gələcək nəsillər də qiymətləndirəcəklər.

XX əsrdə Azərbaycan elmi sürətlə inkişaf edibdir, Azərbaycan xalqı kütləvi surətdə savadlanıbdır. Azərbaycan xalqının elmə, mədəniyyətə, dünya sivilizasiyasına qovuşması üçün respublikamızda çoxsaylı məktəblər, universitetlər, elmi tədqiqat ocaqları, institutlar yaranmışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaranması Azərbaycan elminin əldə etdiyi böyük nailiyyətləri bütün dünyaya nümayiş etdirmişdir.

Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqı XX əsrdə dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan ölkəsi elmlər ölkəsidir. Azərbaycan xalqı elmli, bilikli, yüksək təhsilli xalqdır. Bunlar da Azərbaycanın istedadlı insanlarının elmi axtarışları, elmi ixtiraları, böyük elmi əsərləri ilə dünyada tanınmışdır.

Azərbaycanın həm alim, həm gözəl insan, həm ictimai-siyasi xadim kimi görkəmli simalarından biri Yusuf Məmmədəliyevdir. Biz 1996-cı ildə Yusuf Məmmədəliyevin 90 illik yubileyini ümumxalq bayramı kimi qeyd etdik. Bu, onun xidmətlərinə bugünkü nəslin verdiyi yüksək qiymətin rəmzi idi. Eyni zamanda bu yubiley mərasimləri Azərbaycan xalqının yüksək elminin dünyaya bir daha nümayiş etdirilməsi idi. Ona görə də bu, həm Yusuf Məmmədəliyevin xatirəsinə həsr olunan mərasim idi, həm də Azərbaycan elminin bugünkü səviyyəsini dünyaya göstərən mərasim idi.

Yusuf Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları

ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusuf Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik.

Bu gün Yusuf Məmmədəliyevin xatirəsinə həsr olunmuş heykəlin, abidənin burada, Bakının mərkəzində, Elmlər Akademiyasının yanında ucaldılması da əsaslıdır və ədalətlidir. Çünki onun Azərbaycan elminin inkişafındakı xidmətləri və eyni zamanda Azərbaycan elminin təşkilində, bütün elmlərin mütəşəkkil inkişafındakı xidmətləri belə bir qərarı qəbul etməyə əsas vermişdir. Güman edirəm ki, bu abidə də, Yusuf Məmmədəliyevin şəxsiyyətini, simasını əks etdirən bu heykəl də həm onun xatirəsinə həsr olunubdur, həm də Azərbaycan elminin inkişafına, keçmişinə və gələcəyinə həsr olunubdur. Bu, bizim insanlara bir də onu nümayiş etdirir ki, Azərbaycanda həmişə elmə hörmət olubdur, bu gün də hörmət var və gələcəkdə də hörmət olacaqdır.

Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Mən bu fürsətdən istifadə edərək, ölkəmizin alimlərinə, elm xadimlərinə, bütün elmi işçilərinə bir daha bəyan edirəm ki, Azərbaycanda elmin inkişafı bu gün də, gələcəkdə də dövlətin əsas qayğılarından biridir, biri də olacaqdır və daim dövlətin himayəsi altında olacaqdır.

Bu gün Yusuf Məmmədəliyevin xatirəsi ilə, bu heykəlin açılması ilə əlaqədar hamımızın buraya toplaşması Azərbaycanda elmə verilən qiymətdir və elm adamlarına göstərilən hörmətdir. Mən çox məmnunam ki, Yusuf Məmmədəliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə qəbul etdiyim qərar həyata keçirilibdir. Memarlar, heykəltəraşlar burada bu abidəni yaradıblar. Bakının icra hakimiyyəti və bu abidənin yaranmasında iştirak edən, sponsorluq edən bütün şirkətlər, təşkilatlar öz xidmətlərini göstəriblər.

Yusuf Məmmədəliyevin qızı burada çox gözəl çıxış etdi və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürünü bildirdi. Mən Sevda Məmmədəliyevanın bu sözlərinə qoşuluram və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirirəm. Çox sağ olun.

Sevda Məmmədəliyeva çıxış edərkən mən düşündüm, – o, həqiqətən atasının qızıdır. Çox gözəl, məzmunlu danışdı. Görünür ki, Yusuf Məmmədəliyevin fitri istedadı onun övladlarında da öz əksini tapır. Gü-

man edirəm ki, bu fitri istedad gələcək nəsillərdə də özünü göstərəcəkdir.

Mən böyük məmnuniyyətlə sizinlə birlikdə bu mərasimdə iştirak edirəm. Məmnunam ki, gözəl Bakının, doğma paytaxtımızın bir guşəsi daha da gözəlləşdi, yeni yaraşıq aldı. Beləliklə də biz irəliyə gedirik, xalqımızı irəliyə aparırıq. Bakı şəhərini daha da gözəlləşdiririk və onun dünyanın ən gözəl şəhərləri sırasında olmasına çalışırıq.

Mən sizə bir daha öz xoş arzularımı bildirirəm və sizi əmin edirəm ki, həm Azərbaycanın, həm də Bakının çiçəklənməsi naminə Azərbaycan dövləti bundan sonra da əzmlə çalışacaqdır. Sağ olun.

(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı).

BAKIDA AKADEMİK YUSUF MƏMƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

16 sentyabr 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Bu gün mən əvvəlcə sizi, Bakının gözəl guşəsinə toplaşmış ziyalıları, elm adamlarını səmimi qəlbdən salamlayıram və Azərbaycanda, Bakıda bu gün baş verən çox əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Bizim doğma ölkəmiz Azərbaycan öz təbii gözəlliyi ilə yanaşı, torpağımızın üzərində insanların, Azərbaycan xalqının yaratdığı memarlıq, heykəltəraşlıq abidələri ilə də gözəldir.

Azərbaycan xalqının qədim adət-ənənələrinə görə bizim ölkədə, ümumiyyətlə, Şərq aləmində insan heykəli dəb olmayıbdır. Ancaq xalqımız inkişaf edib, dünya mədəniyyətinin gözəl nümunələrini öz həyatına tətbiq etməyə çalışıb, dünya mədəniyyətindən bəhrələnib və XX əsrdə Azərbaycan torpağında, Azərbaycanın paytaxtında çox qədim, gözəl, əzəmətli memarlıq abidələri ilə yanaşı, heykəltəraşlıq abidələri də yaranmışdır. Bu, bizim vətənimizin həyatını daha da zənginləşdirmiş, gözəlləşdirmişdir. Hesab edirəm ki, bu, çox gözəl bir ənənədir. Ona görə ki, heykəltəraşlıq abidələri, heykəllər adətən, insan yaşayan hər bir yeri abadlaşdırır, gözəlləşdirir. Bir də ona görə ki, bu abidələr Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinə, insanlarına, öz tarixinə, elminə, mədəniyyətinə, dövlətinə göstərilən hörmət və ehtiramı əks etdirir.

Azərbaycanda, Bakıda XX əsrdə heykəllər daha çox yazıçılara, şairlərə, mədəniyyət xadimlərinə və bəzi hallarda ictimai-siyasi xadimlərə həsr olunmuşdur. Ancaq Azərbaycan xalqının qədim tarixində bəşər mədəniyyətinə ən böyük töhfələrindən biri xalqımızın istedadlı insanlarının yaratdığı elmi əsərlər, dünya elminə verdiyi töhfələr olubdur. Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycan xalqının dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar.

Biz bu gün bütün Azərbaycan alimlərinin, elm adamlarının hamısını böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq və onların qoyduqları irsi, onların yaradıcılığını heç vaxt unutmayacağıq.

XX əsrdə Azərbaycanın həyatında çox böyük hadisələr baş veribdir. XX əsr bəşər tarixində çox mürəkkəb, ziddiyyətli, böyük dəyişikliklər əsri olmuşdur, inqilablar, müharibələr, eyni zamanda elmin, mədəniyyətin sıçrayışla və sürətlə inkişaf etdiyi bir dövr olmuşdur. Biz XX əsri sona çatdıraraq ötən dövrə döğru-düzgün, ədalətli qiymət verməliyik. Yaxşıya yaxşı, pisə pis deməliyik.

Azərbaycan xalqının da həyatında XX əsr bütün bu dəyişiklikləri özündə əks etdiribdir. Biz XX əsrdə başımıza gələn faciələri, itkilərimizi, verdiyimiz qurbanları kədərlə xatırlayırıq və heç vaxt unutmayacağıq. Bununla yanaşı, XX əsrdə Azərbaycan xalqının bütün bu çətin mərhələlərdən keçdiyi böyük tarixi yolu, əldə etdiyi nailiyyətləri və bu yüksək zirvələrə çatmasını da qiymətləndiririk. Güman edirəm, gələcək nəsillər də qiymətləndirəcəklər.

XX əsrdə Azərbaycan elmi sürətlə inkişaf edibdir, Azərbaycan xalqı kütləvi surətdə savadlanıbdır. Azərbaycan xalqının elmə, mədəniyyətə, dünya sivilizasiyasına qovuşması üçün respublikamızda çoxsaylı məktəblər, universitetlər, elmi-tədqiqat ocaqları, institutlar yaranmışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaranması Azərbaycan elminin əldə etdiyi böyük nailiyyətləri bütün dünyaya nümayiş etdirmişdir.

Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqı XX əsrdə dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan ölkəsi elmlər ölkəsidir. Azərbaycan xalqı elmli, bilikli, yüksək təhsilli xalqdır. Bunlar da Azərbaycanın istedadlı insanlarının elmi axtarışları, elmi ixtiraları, böyük elmi əsərləri ilə dünyada tanınmışdır.

Azərbaycanın həm alim, həm gözəl insan, həm ictimai-siyasi xadim kimi görkəmli simalarından biri Yusif Məmmədəliyevdir. Biz 1996-cı ildə Yusif Məmmədəliyevin 90 illik yubileyini ümumxalq bayramı kimi qeyd etdik. Bu, onun xidmətlərinə bugünkü nəslin verdiyi yüksək qiymətin rəmzi idi. Eyni zamanda bu yubiley mərasimləri Azərbaycan xalqının yüksək elminin dünyaya bir daha nümayiş etdirilməsi idi. Ona görə də bu, həm Yusif Məmmədəliyevin xatirəsinə həsr olunan mərasim idi, həm də Azərbaycan elminin bugünkü səviyyəsini dünyaya göstərən mərasim idi.

Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları

ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik.

Bu gün Yusif Məmmədəliyevin xatirəsinə həsr olunmuş heykəlin, abidənin burada, Bakının mərkəzində, Elmlər Akademiyasının yanında ucaldılması da əsaslıdır və ədalətlidir. Çünki onun Azərbaycan elminin inkişafındakı xidmətləri və eyni zamanda Azərbaycan elminin təşkilində, bütün elmlərin mütəşəkkil inkişafındakı xidmətləri belə bir qərarı qəbul etməyə əsas vermişdir. Güman edirəm ki, bu abidə də, Yusif Məmmədəliyevin şəxsiyyətini, simasını əks etdirən bu heykəl də həm onun xatirəsinə həsr olunubdur, həm də Azərbaycan elminin inkişafına, keçmişinə və gələcəyinə həsr olunubdur. Bu, bizim insanlara bir də onu nümayiş etdirir ki, Azərbaycanda həmişə elmə hörmət olubdur, bu gün də hörmət var və gələcəkdə də hörmət olacaqdır.

Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Mən bu fürsətdən istifadə edərək, ölkəmizin alimlərinə, elm xadimlərinə, bütün elm işçilərinə bir daha bəyan edirəm ki, Azərbaycanda elmin inkişafı bu gün də, gələcəkdə də dövlətin əsas qayğılarından biridir, biri də olacaqdır və daim dövlətin himayəsi altında olacaqdır.

Bu gün Yusif Məmmədəliyevin xatirəsi ilə, bu heykəlin açılması ilə əlaqədar hamımızın buraya toplaşması Azərbaycanda elmə verilən qiymətdir və elm adamlarına göstərilən hörmətdir. Mən çox məmnunam ki, Yusif Məmmədəliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə qəbul etdiyim qərar həyata keçirilibdir. Memarlar, heykəltəraşlar burada bu abidəni yaradıblar. Bakının icra hakimiyyəti və bu abidənin yaranmasında iştirak edən, sponsorluq edən bütün şirkətlər, təşkilatlar öz xidmətlərini göstəriblər.

Yusif Məmmədəliyevin qızı burada çox gözəl çıxış etdi və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürünü bildirdi. Mən Sevda Məmmədəliyevanın bu sözlərinə qoşuluram və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirirəm. Çox sağ olun.

Sevda Məmmədəliyeva çıxış edərkən mən düşündüm, – o, həqiqətən atasının qızıdır. Çox gözəl, məzmunlu danışdı. Görünür ki, Yusif

Məmmədəliyevin fitri istedadı onun övladlarında da öz əksini tapır. Güman edirəm ki, bu fitri istedad gələcək nəsillərdə də özünü göstərəcəkdir.

Mən böyük məmnuniyyətlə sizinlə birlikdə bu mərasimdə iştirak edirəm. Məmnunam ki, gözəl Bakının, doğma paytaxtımızın bir güşəsi daha da gözəlləşdi, yeni yaraşıq aldı. Beləliklə də biz irəliyə gedirik, xalqımızı irəliyə aparırıq. Bakı şəhərini daha da gözəlləşdiririk və onun dünyanın ən gözəl şəhərləri sırasında olmasına çalışırıq.

Mən sizə bir daha öz xoş arzularımı bildirirəm və sizi əmin edirəm ki, həm Azərbaycanın, həm də Bakının çiçəklənməsi naminə Azərbaycan dövləti bundan sonra da əzmlə çalışacaqdır. Sağ olun.

XALQ ARTİSTİ FİRƏNGİZ ƏHMƏDOVAYA

Bakı şəhəri
22 sentyabr 1998-ci il

Hörmətli Firəngiz xanım!

Sizi – Azərbaycanın vokal məktəbinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycanda klassik opera ifaçılığının inkişafında mühüm rol oynamış böyük sənətkar kimi hörmət qazanmısınız. Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarındakı müvəffəqiyyətli çıxışlarınız Sizə respublikamızda və onun hüdudlarından kənarda geniş şöhrət gətirmişdir. Güclü və məlahətli səs, böyük zəhmətsevərlik və yüksək səhnə mədəniyyəti ilə səciyyələnən yaradıcılığınız Azərbaycan bəstəkarlarının klassik opera janrında gözəl əsərlər yaratmasına təkan vermişdir. Klassik opera səhnəmizin ilk qadın ifaçılarından biri kimi yaratdığınız Nərgiz, Gülzar, Nigar, Sevil və başqa obrazlar Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur.

Sizin kamera-vokal əsərlərin ifaçısı kimi fəaliyyətiniz də yüksək qiymətə layiqdir. Böyük sənətkarlıqla oxuduğunuz mahnı və romanslar musiqisevərlərin yaddaşına həmişəlik həkk olunmuşdur. Yaratdığınız bu nadir sənət inciləri öz təkrarolunmazlığı ilə dinləyiciləri indi də heyran etməkdədir!

Xarici ölkələrə qastrol səfərlərində Siz Azərbaycan musiqi mədəniyyətini ləyaqətlə təmsil etmiş, onun şöhrətini daha da artırmısınız.

Azərbaycan radiosu xorunun solistliyindən görkəmli opera müğənnisi səviyyəsinə qədər keçdiyiniz böyük yaradıcılıq yolu sənətə sonsuz sədaqət, vətənə və xalqa fədakar xidmət məktəbi olmuşdur. İnanıram ki, hələ neçə-neçə sənətkar nəsli bu zəngin məktəbdən bəhrələnərək musiqi mədəniyyətimizin inkişafına öz töhfəsini verəcəkdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

«UTRENNYAYA ZVEZDA» («DAN ULDUZU») – «BAKI-98» MUSİQİ BAYRAMINDA ÇIXIŞ

Respublika sarayı
22 sentyabr 1998-ci il

Yuri Nikolayev *(Rusiya ictimai televiziyasının –ORT uşaqlar üçün «Utrennyaya zvezda» proqramının aparıcısı):* Əziz uşaqlar, indi mənə çox böyük şərəf nəsib olur deyəm ki, bu bayram xeyirxah qəlbli, uşaqlara ürəkdən məhəbbət bəsləyən bir insanın – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyeviç Əliyevin sayəsində baş tutmuşdur. Heydər Əliyeviç, sağ olun! Sizdən xahiş edirəm uşaqlara ürək sözlərinizi söyləyəsiniz.

Heydər Əliyev: Əziz balalar, qızlar, oğlanlar!

Mən sizi səmimi qəlbdən salamlayır, sizə öz hədsiz məhəbbətimi bildirirəm və bu gözəl bayram – uşaqların, gənclərin, istedadların bayramı, gözəl sənət bayramı münasibətilə sizi təbrik edirəm.

Azərbaycanın yeniyetmələrinin – qızlarının, oğlanlarının bu gün burada nümayiş etdirdikləri istedadları bir daha onu təsdiq edir ki, Azərbaycan xalqı istedadlı xalqdır, onun zəngin mədəniyyəti var, bu gün müstəqil dövləti, milli azadlığı var və Azərbaycan xalqının bundan da gözəl gələcəyi vardır. Bu gələcək isə, əziz balalar, sizinlə bağlıdır, sizin istedadlarınızla bağlıdır. Ona görə də mən bu gün çox sevinir, həyəcan hissi keçirirəm. Sizin hamınıza qarşıdakı yolunuzda, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda uğurlar arzulayıram.

Bu gün bu əzəmətli Respublika sarayı sizin ixtiyarınızdadır. Siz onun sahiblərisiniz. Burada siz öz məharətinizi, öz istedadınızı nümayiş etdirirsiniz. Bununla da siz Azərbaycan xalqının böyük istedadını, bugünkü gününü və gələcəyini nümayiş etdirirsiniz.

Azərbaycan xalqı istedadlarla, görkəmli insanlarla həmişə zəngin olmuşdur. Biz haqlı olaraq fəxr edirik ki, xalqımız böyük incəsənət, elm və mədəniyyət əsərləri ilə dünya sivilizasiyasını zənginləşdirmişdir. Fəxr edirik ki, bizim böyük bəstəkarlarımız, musiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu

Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır.

Fəxr edirik ki, bu gün müstəqil, azad Azərbaycan zəngin mədəniyyətə, zəngin elmə, çox böyük intellektual potensiala malikdir. Lakin bu gün biz daha çox əminik ki, müstəqil, azad Azərbaycanın gələcəyi daha gözəl, daha xoşbəxt olacaqdır. Bunun üçün zəmin sizsiniz, əziz uşaqlar, sizin gözəl istedadınızdır, məharətinizdir, bu gün bu gözəl salonda nümayiş etdirdiyiniz keyfiyyətlərdir.

Mən şadam və xoşbəxtəm ki, bu gün siz, Azərbaycan uşaqları ölkəmizin mədəniyyətini, incəsənətini, elmini irəlilətmək üçün, onları daha yüksəklərə qaldırmaq üçün çox böyük məharətə, çox böyük istedada maliksiniz.

Bu gün mən sizə baxdıqda, sizi dinlədikdə sevinir və heyran oluram. Ona görə sevinirəm və heyran oluram ki, siz bugünkü çıxışlarınızla öz gözəl məharətinizi, heyrətamiz istedadınızı, Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin nə kimi zənginliyə malik olduğunu nümayiş etdirirsiniz. Bu gün siz daha çox inandırırsınız ki, biz Azərbaycanın daha gözəl gələcəyinə və Azərbaycan xalqının daha zəngin mədəniyyətinə ümid bəsləyə bilərik.

Görünür, təsadüfi deyildir ki, ORT teleşirkətinin məşhur «Utrennyaya zvezda» («Dan ulduzu») teleproqramı MDB ölkələri arasında birinci olaraq diqqəti məhz Azərbaycana, Azərbaycan gənclərinin, uşaqlarının yaradıcılığına, istedadına yönəltmişdir. Hesab edirəm ki, bu, bizim üçün böyük hadisədir. Bu gün siz «Utrennyaya zvezda» teleproqramına gözəl bir proqram və gözəl Azərbaycan incəsənətini təqdim etdiniz.

Şübhə etmirəm ki, bugünkü görüşün, bugünkü bayramın ORT teleşirkətinin «Utrennyaya zvezda» proqramı ilə göstərilməsi Azərbaycan xalqının nə kimi istedadlara və necə gözəl gənclərə, bugünkü Azərbaycanın necə gözəl uşaqlara malik olduğunu bütün MDB ölkələrinə və zənnimcə, bütün dünya ölkələrinə nümayiş etdirəcəkdir.

Bu gün burada xüsusi ruh yüksəkliyi, sevinc və səadət mühiti hökm sürür. Bu isə hamımızı sevindirir. Əgər hazırda xalqımızın tarixin çox çətin zaman kəsiyində yaşadığını, müstəqil, suveren, demokratik, hüquqi dövlətin təşəkkülü və inkişafı ilə bağlı çox çətinliklər olduğunu nəzərə alsaq, xalqımızın on il öncə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qaldığını, Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini, sizin kimi uşaqların bu müharibə nəticəsində həlak olduğunu, işğal edilmiş torpaqlardan uşaqların zorla didə-

rgin salındığını və onların çox ağır şəraitdə, əksəriyyətinin çadırlarda yaşadığını da nəzərə alsaq, onda təsəvvürünüzə gətirin ki, bütün bu çətinliklərə, məşəqqətlərə baxmayaraq, uşaqlarımızın təhsil alması, öz məharətini, öz istedadını göstərməsi, mahnılar oxuyub şənlənməsi, rəqs etməsi, sevinməsi və gələcəyə böyük inamla baxması böyük sevinc və fərəhdir.

İnanıram ki, hazırda çadırlarda yaşayan uşaqlar, doğma yurd-yuvalarından didərgin salınmış uşaqlar da öz evlərinə qayıdacaqlar. Əminəm ki, işğal olunmuş torpaqlar azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, bölgəmizdə sülh bərqərar ediləcəkdir. Əminəm ki, sizin kimi, bütün uşaqlarımız da öz istedad və məharətini göstərmək imkanına malik olacaq, Azərbaycanın gələcəyini sizinlə birlikdə quracaqlar.

Yuri Aleksandroviç Nikolayev, Sizə ürəkdən təşəkkür edirəm. Uşaqlar, o, sizin hamınıza «Utrennyaya zvezda» proqramından tanışdır. Şadam ki, o, Azərbaycana, Azərbaycan uşaqlarına, Azərbaycan incəsənətinə çox böyük diqqət göstərmiş və belə gözəl bayram təşkil etmişdir. Sizə ürəkdən təşəkkür edirəm.

Yuri Nikolayev: Sağ olun, Heydər Əliyeviç, uşaqlara Sizin qayğınız, Sizin məhəbbətiniz hədsizdir. Biz hamımız bu məhəbbəti bu səhnədə hiss etdik. Mən Azərbaycan uşaqları sarıdan arxayınam, çünki onların belə prezidenti var!

Heydər Əliyev: Əziz uşaqlar, mənim doğmalarım, mənim sevimlilərim, sizin hamınızı bu gözəl bayram münasibətilə bir daha və yenidən təbrik edirəm, sizə əla oxumağı, xoşbəxt həyat, daha böyük yaradıcılıq uğurları, öz məharət və istedadınızı daha yaxşı nümayiş etdirməyi arzulayıram.

Sizi gördükdə, sizi hiss etdikdə, sizin simalarınıza nəzər saldıqda inanıram ki, Azərbaycan doğru yolla gedir, Azərbaycanın gözəl gələcəyi var. Bu gözəl gələcək sizindir, siz onun qurucularısınız. Sizə cansağlığı, xoşbəxtlik və təhsildə, həyatda, hər sahədə yeni-yeni uğurlar arzulayıram!

Sizi bağrıma basıram, öpürəm, sizə ən xoş arzularımı bildirirəm!

Yuri Nikolayev: Sağ olun, Heydər Əliyeviç. Sizə xoşbəxtlik, cansağlığı və bütün uşaqların məhəbbətini arzulayıram.

Əziz dostlar, sağ olun. Sizi bilmirəm, amma bura, Bakı mənim çox xoşuma gəldi. Biz çox istərdik ki, bu görüşlər ənənəyə çevrilsin, bir-birimizin tez-tez qonağı olaq – biz Bakıya gələk, siz bakılılar isə Moskvaya gələsiniz. Xudahafiz, yeni və çox gözəl görüşlərə qədər.

UNUDULMAZ ŞAİR TOFİQ BAYRAMIN BÜSTÜNÜN VƏ ONUN ADINI DAŞIYAN İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

Suraxanı rayonu, Əmircan qəsəbəsi
24 sentyabr 1998-ci il

Əziz bacılar, qardaşlar!
Əziz həmvətənlər, dostlar!

Mən sizin hamınızı və sizin simanızda Suraxanı sakinlərini, Suraxanı camaatını ürəkdən salamlayıram, sizə ən xoş arzularımı çatdırıram. Siz suraxanılıları, Azərbaycanın ziyalılarını, bütün xalqımızı böyük şair Tofiq Bayramın xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş abidənin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Suraxanı torpağı Azərbaycana, xalqımıza böyük insanlar vermişdir. Onların arasında Tofiq Bayramın xüsusi yeri var. Tofiq Bayram Azərbaycanda gözəl şeirləri, əsərləri və onun şeirlərinə bəstələnmiş mahnıları, fədakar yaradıcılığı ilə tanınmış və məşhur olmuşdur. Tofiq Bayramın sağlığında da xalq həmişə ona sevgi və məhəbbətini, hörmətini bildirmişdir. Mən şəxsən Tofiq Bayramla dəfələrlə görüşmüşəm, danışmışam, yazıçıların qurultaylarında, onlarla görüşlərimdə, bəzən rayonlara etdiyim səfərlərdə bir yerdə olmuşuq. Onun haqqında mənim ən gözəl xatirələrim var. Bu gün mən çox məmnunam ki, onun xatirəsini əbədiləşdirmək bizə nəsib olmuşdur və biz onun abidəsi qarşısında, sizin qarşınızda bəyan edirik ki, Azərbaycanın belə insanları həmişə qiymətləndirilir və bundan sonra da qiymətləndiriləcəkdir.

Burada, bu görüşdə Tofiq Bayramın anası iştirak edir. Mən onu salamladım, öpdüm və bu abidənin açılışı münasibətilə təbrik etdim. Tofiq Bayramın qohumları buradadırlar. Onun bacısı çox səmimi və gözəl nitq söylədi. Bunların hamısı bizim bu görüşümüzə çox böyük məna verir. Mən belə anlayıram ki, bu görüşümüz oktyabrın 11-də Azərbaycan prezidentinin seçkiləri ərəfəsində keçirilən bir görüşdür. Siz də buraya həm Tofiq Bayramın xatirəsi naminə, həm də Azərbaycanda prezident seçkiləri ilə əlaqədar öz münasibətinizi və duyğularınızı bildirmək münasibəti-

lə toplaşmısınız. Bu münasibətlə mən bildirmək istəyirəm ki, oktyabrın 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri müstəqil respublikamızın həyatında və tarixində çox əlamətdar bir hadisədir.

İlk növbədə xalqın mənə göstərdiyi və göstərəcəyi etimada görə minnətdarlığımı bildirirəm. Mən xoşbəxtəm. Mən xoşbəxtəm ki, xalqımın etimadını qazanmışam. Mən xoşbəxtəm ki, xalqımın yolunda fəaliyyət göstərirəm.

Yaşasın demokratiya! Yaşasın demokratik və müstəqil Azərbaycan!

RUSİYANIN XALQ ARTİSTİ GENNADİ XAZANOVUN KONSERTİNDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika sarayı
26 sentyabr 1998-ci il

Gennadi Xazanov: Hörmətli cənab prezident! Sizin mənim yaradıcılıq gecəmə gəlişiniz məni çox məmnun etdi. Bunun üçün Sizə dərin təşəkkürümü bildirirəm. Ancaq çox təəssüf edirəm ki, Sizin 75 illik yubileyinizə dəvət almadığım üçün həmin xoş mərasimdə iştirak edə bilmədim.

Heydər Əliyev: Əvvəla, gözəl çıxışınıza görə Sizə təşəkkür edirəm. Sonra isə deməliyəm ki, Siz heç də yubileyimə dəvət almadığınız üçün məndən inciməyin. Axı əsilində, mən bu dəfə heç öz yubileyimi qeyd etmədim də. Sizin çıxışınıza gəldikdə isə, mənə xoşdur ki, bakılı tamaşaçılar Sizin kimi sənətkarı unutmur, həmişə olduğu kimi çıxışlarınızı yenə də heyranlıqla qarşılayırlar. Mənim fikrimcə bu sübut edir ki, Azərbaycanın müstəqillik qazandığı gündən 7 il keçməsinə baxmayaraq ölkəmiz əvvəllər bir dövlətin tərkibində olduğu Rusiya ilə əlaqəni kəsmir, verilişləri məmləkətimizə də yayımlanan Rusiyanın telekanalları sayəsində burada rus dili saxlanılır.

Gennadi Xazanov: Mən Bakıda 16 il əvvəl olmuşam. Bununla belə, bu gün özümü elə o illərdə, Sizin Moskvaya işləməyə getməzdən əvvəl burda olduğum vaxtlardakı kimi, yenə də yaxşı hiss edirəm.

Heydər Əliyev: Yəqin ki, yadınızdadır, mən Moskvada olanda da Sizinlə görüşməyi çox xoşlayırdım. Bütün ailəmlə Moskva Estrada Teatrında keçirilən konsertlərinizə böyük məmnuniyyətlə gedərdik.

Gennadi Xazanov: Çox sağ olun, əziz Heydər Əliyeviç. Sizə bir daha səmimi-qəlbdən təşəkkür edirəm. Ancaq bir şey məni çox maraqlandırır. Sizin belə cavan qalmağınızın sirri nədədir?

«MÜASİRLİK VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

Bakı şəhəri
29 sentyabr 1998-ci il

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş beynəlxalq konfransın iştirakçılarını müstəqil Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram.

Bu konfrans dövrümüzün ən aktual məsələlərinin – dini-mənəvi dəyərlərlə müasirliyin əlaqəsi, üzvi bağlılığı, müasir tərəqqi prosesində onların rolu problemlərinin müzakirəsinə həsr olunmuşdur. Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır. XXI əsrin astanasında dini fəaliyyət sahələrində gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün fikir mübadiləsi aparmaq xüsusi əhəmiyyətə malikdir.

Yaşadığımız dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlər məsələsinə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqeyin işlənib hazırlanmasını aktuallaşdırır. Bu mövqe xalqlarımızın əsrlər boyu yaratmış olduğu zəngin mədəni və dini-mənəvi irsdən bəhrələnməklə yanaşı, zamanın ruhu və tələbləri ilə səsləşən prinsipləri özündə əks etdirməlidir. Əminəm ki, konfransınız bütün dünyada, o cümlədən ümumqafqaz evimizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi yolunda mühüm bir addım olacaqdır.

Müsəlman alimləri və din xadimlərinin dinimizin mühüm aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, islam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir. Dünyanın bir çox yerlərində islam dininin əsaslarına, müsəlman ölkələrinə qarşı qərəzli həmlələrin aparıldığı müasir dövrdə bu, xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə görüşlər həmçinin müştərək tarixi, mə-

dəni,mənəvi ənənələrə malik olan, oxşar tale və inkişaf yolu keçmiş ölkələrimizin qarşısına çıxan problemlərin həllində bir-birimizin təcrübəsindən səmərəli istifadə etmək imkanlarını genişləndirir.

Biz bu yüksək forumun respublikamızın paytaxtı Bakı şəhərində keçirilməsini Azərbaycanın, Qafqaz Müsəlmanları İdarəsinin artmaqda olan beynəlxalq nüfuzuna verilən yüksək qiymətin ifadəsi kimi qəbul edirik. Konfransda müzakirə olunan məsələlər siyasi müstəqillik əldə etdikdən sonra keçid dövrünün bir çox çətinlikləri, o cümlədən milli və dini dəyərlərin bərpası problemləri ilə də üzləşmiş respublikamız üçün olduqca aktualdır. Bu görüş müsəlman qardaşlarımızın Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkün Azərbaycan vətəndaşının problemləri ilə həmrəyliyinin də parlaq təzahürü sayıla bilər. Ümidvaram ki, konfrans bütün islam aləminin həmrəylik, dostluq və qardaşlığının daha da möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

İnsan mənəviyyatının saflaşması, dinimizin dini-mənəvi dəyərlərinin bərqərar olması işinə yönəldilmiş nəcib fəaliyyətinizdə uca Allahdan sizə böyük nailiyyətlər, konfransın işində uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

9 oktyabr 1998-ci il

Əziz dostlar, xanımlar və cənablar!

Bu gün biz həddindən artıq sevinc içərisindəyik. Çünki Azərbaycanın həyatında təkcə bu gün iki böyük əlamətdar hadisəni qeyd edirik. Şəhidlər xiyabanında ucaldılmış, şəhidlərin xatirəsinə həsr olunmuş abidəni bu gün səhər açıb, orada əbədi məşəl yandırdıq. Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, Qarabağın müdafiəsi uğrunda həlak olmuş, şəhid olmuş insanların xatirəsinə Bakının ən uca yerində, dağın üstündə layiqli bir abidə yarada bildik. Bəli, 1938-ci ildən 1990-cı ilə qədər Bakının ən uca nöqtəsində olmuş Kirovun heykəlinin yerində bu gündən Azərbaycanın müstəqilliyini, suverenliyini və xalqımızın qəhrəmanlığını təcəssüm etdirən gözəl memarlıq abidəsi və əbədi məşəl olacaqdır.

Gün sona çatır. İndi biz Azərbaycan Dövlət Musiqili Komediya Teatrının açılışını bayram edirik. 1998-ci il Azərbaycanda ilk dünyəvi, peşəkar teatrın yaranmasının 125-ci ilidir. Mən Azərbaycan teatrının 125 illiyini bayram etmək üçün avqust ayında sərəncam vermişəm. Ancaq bu sərəncam, sadəcə, yubiley qeyd etmək üçün deyil, Azərbaycan tarixinin, Azərbaycan teatrının əsas məqamlarını özündə əks etdirən bir sənəddir. Şübhə etmirəm ki, biz bu il Azərbaycan teatrının 125 illik yubileyini qeyd edəcəyik.

Mən nə üçün Azərbaycan teatrına və onun tarixinə bu qədər çox böyük əhəmiyyət verirəm? Mədəniyyət xadimləri, ictimaiyyətimizin nümayəndələrinin əksəriyyəti yəqin xatırlayırlar ki, Azərbaycanda dünyəvi, peşəkar teatrın yaranmasının 100 illiyini də 1973-cü ildə mənim təşəbbüsümlə bayram etdik. Bu, böyük, təntənəli bayram idi. Çünki teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynamışdır. Azərbaycanda teatr dərin köklərə malikdir və

insanlar teatrı sevirlər. Mədəniyyət xadimləri, xüsusən özünü səhnə sənətinə, teatra həsr edənlər Azərbaycanda həmişə hörmətli insanlar olmuşlar.

Burada – bu gün biz toplaşdığımız yerdə əsrin əvvəlində Hacı Zeynalabdin Tağıyev təşəbbüs göstərərək teatr binası tikdirmişdir. Bəli, millətinin qayğılarına qalan bir insan kimi o, dərk etmişdir ki, 1873-cü ildən fəaliyyət göstərən teatr üçün bir bina lazımdır və bu teatr binasını tikdirmişdir. Bu teatr binası da on illərlə, demək olar ki, 1980-ci illərin sonuna qədər xalqımıza xidmət etmişdir. Bu teatrın səhnəsində, salonunda neçə-neçə nəsillər Azərbaycanın böyük teatr əsərləri ilə və teatr sənətkarlarının yaradıcılığı ilə tanış olmuşlar, onlardan zövq almışlar, bəhrələnmişlər, teatr Azərbaycan xalqının həyatına daxil olmuşdur.

Mən bunu dəfələrlə demişəm, – güman edirəm, təkcə mənim yox, çoxlarının həyatında və şüurunun formalaşmasında, inkişaf etməsində teatrın çox böyük təsiri olubdur. Mən Tağıyev teatrının binasına ilk dəfə uşaqkən, 1937-ci ildə gəlmişəm. Ondan sonrakı illərdə də mən gəlib burada bir çox tamaşalara baxmışam. Azərbaycanın böyük sənətkarları bu binada öz yaradıcılıqlarını, teatr sənətini inkişaf etdiriblər, xalqımıza xidmət göstəriblər.

Mən bu səhnədə Abbas Mirzə Şərifzadəni, Mirzağa Əliyevi, Sidqi Ruhullanı, Fatma Qədrini, Mərziyə Davudovanı, Ələsgər Ələkbərovu, Ağasadıq Gəraybəylini, Ağadadaş Qurbanovu və başqalarını xatırlayıram. Bu teatr böyük insanlar, sənətkarlar yetirmişdir. Biz onlarla fəxr edirik.

Teatr öz xidmətini göstərmiş və biz Hacı Zeynalabdin Tağıyevə rəhmət oxumalıyıq, onun tarixi xidmətlərini qiymətləndirməliyik. Ancaq burada deyildiyi kimi, vaxtilə bu bina uçub dağılmışdı. Burada bərpa işləri aparmaq yox, yeni bina tikmək lazım idi və bu da başlanmışdı.

Mən 1993-cü ilin iyun ayında Bakıya işləməyə gələndən sonra və Azərbaycanda dövlətə rəhbərlik etməyə başladığım ilk günlərdən, aylardan dərhal burada tikintinin vəziyyəti ilə maraqlandım. Bilirsiniz ki, o vaxt çox çətin bir dövr idi. İş çox idi, vəziyyət gərgin idi və hələ Azərbaycanda vətəndaş müharibəsi sovuşmamışdı. Ancaq mən o vaxt tikintiyə gəldim, inşaatçılarla, Əliş Ləmbəranski ilə görüşdüm, binanın bütün mərtəbələrini gəzdim. O vaxt bu binanın divarları tikilmişdi. Burada deyildiyi kimi, mən öz tövsiyələrimi, mülahizələrimi və təkliflərimi bildirdim və ondan sonra bu tikintini nəzarətə götürdüm.

Doğrudur, indi bizim belə zəngin binalar tikməyə imkanımız yoxdur. Biz keçmişdə çoxlu belə binalar tikmişdik. Biz Azərbaycanın büdc-

əsinin gərgin, ölkəmizin iqtisadi, maliyyə vəziyyətinin çətin olmasına baxmayaraq, başqa sahələrdən vəsaiti kəsib bu tikintinin müntəzəm aparılmasına verirdik. Nəhayət, teatr binası tikilib hazır oldu.

Mən bu ilin əvvəlində tikintinin vəziyyəti ilə maraqlandım. Dedilər ki, hələ çox işlər görülməlidir. Bildirdilər ki, guya teatrın binasını 1998-ci ildə başa çatdırmaq mümkün deyildir. Mən bununla razı olmadım və tələb etdim ki, əlavə tədbirlər görülsün, teatr binası payıza qədər hazır olsun, istifadəyə verilsin.

Burada deyildi, – bu binanın tikinti işləri ilə Əliş Ləmbəranski məşğul olubdur. Mən Əliş Ləmbəranski ilə on illərlə birgə işləmişəm və onun inşaat, təşkilatçılıq sahəsində böyük təcrübəsi olduğuna, bu işi çox sevdiyinə, ona can yandırdığına görə 1970-ci illərdə bir çox böyük binaların inşasına rəhbərliyi ona həvalə edirdim.

Məsələn, o dövrdə biz Respublika sarayının tikintisinə başladıq və qısa müddətdə, 1972-ci ilin dekabrında onu istifadəyə verdik. Orada təntənəli mərasim keçirdik. Mən həmin sarayın, Bakı məişət kondisionerləri zavodunun, Gülüstan sarayının da tikintisinə rəhbərliyi Əliş Ləmbəranskiyə həvalə etmişdim. Ona görə ki, Əliş Ləmbəranskiyə inanırdım və o da bu işləri canla-başla edirdi.

Bilirsiniz ki, bir müddət mən onunla əlaqəmi itirmişdim. 1993-cü ildə mən yenidən Bakıya qayıdanda onunla maraqlandım və eşitdim ki, Əliş Ləmbəranski bu binanın tikintisinə rəhbərliyi öz üzərinə götürübdür. Mən buraya gəlib onunla görüşdüm və bu işdə ona dəstək verdim. Bilirəm ki, o, burada çox işlər görüb, əziyyət çəkibdir. Xatirimdədir, mən ilk dəfə buraya gələndə gördüm ki, o, toz-torpağın içində, çox ağır vəziyyətdə özü də işləyirdi, başqalarını da işlətməyə çalışırdı. Mən elə bir şəraitdə bu işin vəziyyəti ilə tanış oldum.

Şübhəsiz ki, bu işi Əliş Ləmbəranski təkcə görə bilməzdi. Mühəndislər, texniklər, inşaatçılar, fəhlələr, quraşdırıcılar böyük işlər görmüşlər. Burada böyük bir kollektiv işləyibdir. Mən bu gün bu binanı belə yaraşıqlı və müasir tələblərə uyğun görərək bütün inşaatçılara təşəkkür edirəm. Çox sağ olun ki, siz respublikanın bu çətin və ağır dövründə belə bir işi görmüsünüz, Azərbaycana gözəl bir hədiyyə təqdim etmisiniz.

Mən Əliş Ləmbəranskiyə xüsusi təşəkkür edirəm və çox sevinirəm ki, o, 20,30 il bundan əvvəl olduğu kimi, bu gün də fədakarcasına çalışır. Hesab edirəm ki, o, mənim ona daha hansı növbəti işi tapşıracağımı gözləyir. Güman edirəm ki, o, belə bir tapşırığı alacaqdır.

Bu bina həqiqətən çox gözəldir. Bir daha qeyd edirəm, biz Hacı Zeynalabdin Tağıyevə rəhmət oxumalıyıq. Ancaq yaranan bu bina, teatr, şübhəsiz ki, əvvəlkindən qat-qat fərqlənir. Burada deyildiyi kimi, bu bina öz avadanlığı, texnikası, texnologiyası ilə müasir tələblərə cavab verir. Güman edirəm ki, bu özü müstəqil Azərbaycan dövlətinin hətta bu çətin dövrdə mədəniyyətə, teatra nə qədər böyük qayğı göstərdiyini nümayiş etdirir.

Bizim mədəniyyət sahəsində gördüyümüz bu işlərə bəzi adamlar dodaq büzürlər, yaxud da onları gözdən salmaq istəyirlər, əleyhinə çıxırlar. Çünki özləri bir şey bacarmırlar, heç bir şeyə qabil deyillər. Deyirlər ki, nə üçün Azərbaycanda yubileylər keçirilir? Biz kimin yubileylərini keçiririk? Biz Azərbaycanın həyatında, tarixində, millətin inkişafında böyük xidmətlər göstərmiş mədəniyyət xadimlərinin yubileylərini keçiririk. Bununla da öz xalqımızın zənginliyini dünyaya nümayiş etdiririk və eyni zamanda gənc nəsli tərbiyə edirik, mədəniyyətimizin gələcək inkişafı üçün yol açırıq. Buna ancaq sevinmək lazımdır. Sevinmək lazımdır ki, bəli, məhz belə bir ağır dövrdə bütün çətinliklərə baxmayaraq, biz mədəniyyətimizi yaşadırıq, inkişaf etdiririk, mədəniyyət xadimlərinə qayğı, diqqət göstəririk və elm, mədəniyyət xadimlərinin yubileylərini keçiririk. Bundan, eləcə də bu gün bu teatrın inşasının başa çatmasından, açılmasından gözəl nə ola bilər? Bəlkə kimsə deyə bilər ki, biz ağır vəziyyətdəyik, nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur və belə gözəl bina yaradılıbdır? Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Bizim xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq.

Müstəqil Azərbaycan dövlətinin başçısı, Azərbaycan prezidenti kimi mənim siyasətimin böyük bir rolu bundan ibarətdir. Əmin ola bilərsiniz ki, bu siyasəti mən bundan sonra da davam etdirəcəyəm.

Bu teatr binasının tikilib başa çatdırılması və bu gün istifadəyə verilməsi bütün Azərbaycan teatrı üçün böyük hədiyyədir. Azərbaycan teatrı buradan başlayır. Bu, bütün Azərbaycan teatrı üçün böyük bir nemətdir. Ona görə də mən bu binanın hazır olması və istifadəyə verilməsi münasibətilə Azərbaycanın bütün mədəniyyət, incəsənət, teatr xadimlərini, səhnə ustalarını, teatr işçilərini ürəkdən təbrik edirəm və hamıya cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram.

Bu teatrın binası keçmişdə işlənmiş vəziyyətdə olduğuna görə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivinə verilmişdi və onlar burada yerləşmişdilər. Ancaq güman edirəm, bu yeni bina tikiləndən sonra başqa teatrların kollektivləri şübhəsiz, buna həm sevinirlər, həm də müəyyən qədər düşünürlər ki, o, nə üçün Musiqili Komediya Teatrına verildi. İş burasındadır ki, bu bina vaxtilə Dövlət Musiqili Komediya Teatrının əlinə keçibdir, onlar da bunun varisi olublar. Ancaq şübhəsiz, bu, elə bir binadır ki, bütün Azərbaycan mədəniyyətinə xidmət edəcəkdir. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivi də gərək öz işini teatrın bugünkü müasir tələbləri səviyyəsinə gətirib çatdırsın.

Əziz dostlar, mən sizə – Azərbaycanın mədəniyyət, incəsənət, teatr xadimlərinə yeni-yeni uğurlar arzulayıram. Mənə göstərdiyiniz xoş münasibətə və mənim fəaliyyətimə burada verdiyiniz qiymətə, mənə daim dəstək verdiyinizə görə sizə təşəkkür edirəm. Siz bilirsiniz, mənim bütün həyatım, fəaliyyətim sizin gözünüzün qabağındadır. Mənim ömrümün, həyatımın mənası xalqa xidmət etməkdən ibarət olmuşdur. Mən bu gün də bu xidməti edirəm, gələcəkdə də edəcəyəm. Buna əmin ola bilərsiniz.

Yaşasın mədəniyyət!

Eşq olsun Azərbaycan teatrına!

Yaşasın Azərbaycan mədəniyyəti!

MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident sarayı
15 oktyabr 1998-ci il

H e y d ə r Ə l i y e v: Xoş gəlmişsiniz. Sizi Bakıda görməyimə çox şadam. Əminəm ki, bu dəfə də rəssamlıq məharətinizlə, gözəl tablolarınızla bizi sevindirəcəksiniz.

N i k a s S a f r o n o v: Sağ olun, cənab prezident. Mən bu yaxınlarda Azərbaycanın gözəl diyarı Naxçıvanda oldum. Və orada çəkdiyim şəkillərdən birini – «İlanlı dağ» əsərimi Sizə təqdim etmək istəyirəm.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, Siz məni olduqca məmnun etdiniz.

N i k a s S a f r o n o v: İcazə verin tablonun arxasında yazdığım sözləri Sizə oxuyum: «Azərbaycan Respublikasının prezidenti, çox hörmətli və ürəkdən sevdiyim Heydər Əliyeviç Əliyevə və Azərbaycan üçün tarixi gün olan 1998-ci il 11 oktyabr – prezident seçkiləri günündə. Qoy bu şəkil Sizə olan insani rəğbətimizi və mənim Sizə olan sədaqətimi və ehtiramımı həmişə xatırlatsın. Sizin Nikas Safronov».

Hörmətli cənab prezident. Məni bu gün – seçkilərdən əvvəl buraya gətirən Sizə olan məhəbbət və rəğbətimdir.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, mən də Sizi yalnız məharətli rəssam kimi deyil, eləcə də gözəl insani keyfiyyətlərə malik şəxs kimi qiymətləndirirəm.

N i k a s S a f r o n o v: Cənab prezident. Mən bu seçkilərdə Sizin qələbənizə şübhə etmirəm. Sizi dahi insan hesab edirəm. Sizin kimi insanlar 100 ildə deyil, 1000 ildə bir dəfə doğulurlar. Bu böyük ölkəni düzgün seçim etməsi münasibətilə təbrik edirəm, mən özüm də buna şadam və sevinirəm.

H e y d ə r Ə l i y e v: Seçkilərdəki qələbə ürəyimdəki məsuliyyət yükünü daha da artırır. Sizə isə xoş sözlərinizə görə təşəkkür edirəm. İndi isə istərdim ki, Naxçıvan təəssüratınızı bölüşdürəsiniz.

N i k a s S a f r o n o v: Sözün düzü, mən bu diyara vurulmuşam. Onu İsveçrədən daha gözəl hesab edirəm. Tablonu çəkərkən keçirdiyim

hissləri kətan üzərinə keçirməyə çalışırdım. Görürsünüz, tablonun mərkəzində buludların arasından süzülən günəş şüalarının işıqlandırdığı İlandağ əzəmətlə ucalır. Dağın ətəyində isə arxeoloji qazıntı işləri aparılır. Mən bu mənzərəni təsvir etməklə Sizin kimi böyük insanları dünyaya gətirən, xüsusi daxili enerjiyə malik Naxçıvan torpağının qədimliyini təsdiq etmək istəmişəm.

Heydər Əliyev: Çox sağ olun, əziz cənab Safronov! Bu gözəl əsərinizə görə, eləcə də Naxçıvana gedərək, bu torpağın bütün gözəlliyini, əzəmətli dağlarını gördüyünüzə və əsərinizlə əbədiləşdirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Nikas Safronov: Sözün doğrusu, bu cür dağlar nə Almaniyada, nə də İsveçrədə görmüşəm. Naxçıvanlılar öz dağları ilə çox fəxr edirlər. Mən ümidvaram ki, təkraredilməzliyi ilə məni də heyran qoymuş bu qədim diyarın gözəlliklərini mən yenə də vəsf edəcəyəm. «İlandağ» mənim Naxçıvan haqqında son əsərim olmayacaq.

Heydər Əliyev: Mən də buna çox ümid edirəm. Bir daha Sizə təşəkkür edir, Sizi prezident seçilməyim münasibətilə oktyabrın 18-də keçiriləcək təntənəyə dəvət edirəm.

Nikas Safronov: Təşəkkür edirəm, hörmətli cənab prezident. Mən Sizin seçkilər ərəfəsində etdiyiniz səfərlərdən və keçirdiyiniz görüşlərdən xəbərdaram. Sizin gördüyünüz işlərin öhdəsindən heç bir siyasətçi, heç bir insan gələ bilməz. Əgər dini mövzuda tablolar çəkən rəssam olsaydım, Sizi fövqəladə işlər, adi adamların görə bilmədikləri işləri görən müqəddəslər kimi təsvir edərdim.

Heydər Əliyev: Bir daha Sizə təşəkkür edirəm. Sağ olun. Sizə işlərinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram və Sizi yenə də gözləyirəm.

XALQ ARTİSTİ İQOR MOİSEYEVİN RƏHBƏRLİYİ İLƏ DÜNYA ŞÖHRƏTLİ RUSİYA DÖVLƏT AKADEMİK XALQ RƏQSLƏRİ ANSAMBLININ KONSERTİNDƏN SONRA ANSAMBLIN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika sarayı
6 noyabr 1998-ci il

Mən Sizə gözəl çıxışınıza görə, bizə böyük zövq bəxş etdiyinizə və bizdə böyük təəssürat doğurduğunuza görə təşəkkür edirəm. Sizin ansambl məşhurdur, onun artıq 62 yaşı var, mən özüm onu 30, yaxud 40 il olar ki, tanıyıram və rəqqaslarınızın çıxışına da həmişə məftun olmuşam. Siz Bakıya «Azərbaycan mədəniyyətinin dostları» fondunun, onun sədri Mehriban Əliyevanın dəvəti ilə gəlmişsiniz. Sizin Azərbaycana gəlişiniz, gözəl çıxışınız xalqımıza, dövlətimizə çox dərin hörmətin ifadəsidir. Sizin yaradıcılığınız həmişə heyranlıq doğurubdur və görüşümüz zamanı dediyim kimi, bu, nəinki Rusiyanın və keçmiş Sovet İttifaqının mədəni həyatında, həm də bütün dünyada nadir hadisədir. Məsələn, mən ikinci belə ansambl tanımıram. Siz başqalarında olmayan öz dəst-xəttinizə, özünüzə xas gözəlliyə, xarakterə, temperamentə maliksiniz.

Sizin rəqqasları seçmək istedadınızı da qeyd edir və bildirirəm ki, onların dəyişməsi ansamblın ustalığının yüksək səviyyəsinə təsir göstərmir.

Siz tamaşaçıların münasibətini hiss etdiniz və bunu görmək mənə çox xoş idi. Bu, tamaşaçılarımızın sizin sənətinizə məhəbbətindən də, sənətinizi başa düşməsindən də xəbər verir. İndi müxtəlif dövlətlərdə yaşamağımıza baxmayaraq, tamaşaçılarımız sənətinizi yenə də qiymətləndirirlər. Mən belə alqışları, nidaları çoxdan eşitməmişdim. Sizin hamınızı təbrik edirəm, sizin hamınız gözəl və heyrətamiz rəqs edirsiniz. Məsələn, «Fin polkası»nı götürək. Onu iki adam ifa edir. Amma nə qədər orijinaldır! Ancaq məni hamısından çox nanay xalq oyunu heyrətləndirdi. Mən bu rəqsi ilk dəfə gördüm. Nə isə qeyri-adi bir rəqsdir. O, bunların hamısını necə edir? Bunu bir nəfərin etdiyini dərhal başa duşmürsən. Gözəldir, hamınızı təbrik edirəm, çox şadam ki, siz bizə təşrif gətirdiniz.

İ q o r M o i s e y e v: Cənab prezident, bizim Azərbaycan tamaşaçılarından 13 illik ayrılığımız onlara bəslədiyimiz xoş hissləri və onların bizə səmimi duyğularını əsila azaltmayıb. Bunu biz bugünkü uğurdan və bizi necə qarşılamaqlarından görürük. Biz «Azərbaycan mədəniyyətinin dostları» fondunun sədri Mehriban Əliyevaya dəvətə görə təşəkkür edirik. Ansambl bu dəvətə həvəslə cavab vermişdir, çünki kollektivi Bakı həmişə yaxşı qəbul etmiş və o, buraya həmişə ən səmimi hisslərlə gəlmişdir. Mən də, truppamız da xoşbəxtik ki, əlaqələrimiz nəinki qırılmamışdır, hətta möhkəmlənmişdir.

Sizə böyük bir sevinclə «Mən xatırlayıram…» kitabını hədiyyə edirəm.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, təşəkkür edirəm. Şübhəsiz, bu kitab İqor Moiseyevin həyat və yaradıcılığı kimi maraqlıdır.

Siz bu xanımı, Əminə xanımı tanıyırsınız. Əminə xanım Azərbaycanda bütün xalq rəqslərinin ifaçılığının banisidir.

Ə m i n ə D i l b a z i: Cənab prezident, İqor Moiseyevi lap çoxdan tanıyıram. O, bizim çox sevdiyimiz nərdə və armudu stəkanlara pərəstiş edir. Mən gənclik illərimi, Moiseyevin ansamblının bütün gözəlliyini xatırladım. Moiseyevin bütün məktəbini saxlayıb yaşatmaq lazımdır, çünki bu məktəb ümumdünya əhəmiyyətinə malikdir. Bu məktəb standart pedaqoqlar, baletmeysterlər məktəbi deyildir, o, tapıntıdır, rəqs mədəniyyətidir, rəqs tarixidir.

H e y d ə r Ə l i y e v: Bu gün bizə böyük zövq bəxş etdiyinizə görə sizə təşəkkür edirəm. «İki körpənin güləşi» nanay xalq oyununun ifaçısı Aleksandr Matus-Marçuku gözəl və heyranedici çıxışa görə xüsusi təbrik edirəm. Gözəl konsertə görə ansamblın bütün üzvlərinə bir daha təşəkkür edirəm. Sağ olun, sizə uğurlar arzulayıram.

FİKRƏT ƏMİROVUN «SEVİL» OPERASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
15 noyabr 1998-ci il

Axşamınız xeyir olsun!

Sizin hamınızı təbrik edirəm. Ümumiyyətlə, bizim mədəniyyət və incəsənət işçilərini, Opera və Balet Teatrının kollektivini, sizi – «Sevil» operasının yeni tamaşasını hazırlayanları bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı və gələcək yaradıcılıq fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Bu tamaşanın yeni quruluşda hazırlanması çox əlamətdar hadisədir. «Sevil» operası Azərbaycan Opera və Balet Teatrının səhnəsində çoxdan göstərilmir. Bu, çox dəyərli bir sənət əsəridir, Azərbaycanın musiqi və opera sənətinə böyük töhfədir. Ona görə də əsərin yenidən canlanması, səhnəyə gəlməsi Azərbaycanın mədəni həyatında, incəsənətində, ümumiyyətlə, respublikamızın ictimai həyatında mühüm hadisədir. Tamaşaya məmnuniyyətlə baxdım, sizi dinlədim və çox böyük təəssüratlar altındayam.

45 il öncə «Sevil» operası yarananda da mən onun ilk tamaşasında olmuşam. Rəhmətlik Fikrət Əmirovla mənim şəxsi münasibətlərim və dostluğum var idi. O, bu operanı yazarkən, hələ əsər səhnəyə qoyulmamış, bir neçə dəfə görüşlərimizdə opera üzərində işləməsi haqqında mənə danışmışdı, söyləmişdi. 50-ci illərin əvvəllərində bu operanın yaranması ictimaiyyətə artıq məlum idi. Ona görə də operasevərlər bu əsəri səbirsizliklə gözləyirdilər. Hamı düşünürdü, – görəsən əsər necə alınacaq? Çünki «Sevil» öz süjetinə görə yeni əsər deyil. Bu pyesi Cəfər Cabbarlı yaradıbdır. Deyə bilərəm ki, Cəfər Cabbarlının «Sevil» pyesi Azərbaycanın ictimai-siyasi həyatında çox böyük rol oynamışdır. Qadın azadlığı, insan mənəviyyatı mövzusunun qələmə alınmasında Cəfər Cabbarlının xidmətləri böyükdür. Onun pyeslərinin hər biri, demək olar ki, «Sevil» tamaşası qədər böyük əhəmiyyətə malik əsərlərdir. Ancaq «Sevil» pyesinin ya-

randığı dövrdə – 1920–30-cu illərdə Azərbaycanda gedən ictimai-siyasi proseslərdə, qadınların azadlığının əldə olunması prosesində bu əsər çox böyük rol oynamış, güclü təsir bağışlamışdır. Deyirdilər ki, o vaxt qadınlar Bakıda indi bizim bərpa etdiyimiz Hacı Zeynalabdin Tağıyevin teatrına çadra altında gəlirdilər. Bunu siz də tamaşada göstərdiniz. Əsər o qədər təsirli idi ki, tamaşaya baxan qadınlar heç nədən – atasından, qardaşından, ərindən çəkinmədən zaldan çadralarını atıb çıxırdılar. Bu barədə mətbuatımızda, kitablarda çox yazılıb. Ona görə də «Sevil» pyesi bizə, şəxsən mənə məlum idi. Xatirimdədir, 30-cu illərdə dəfələrlə «Sevil» pyesinə baxmışam. Böyük təəssüratlarım var.

Ancaq «Sevil» pyesinin opera əsəri kimi təqdim olunmasını biz müəyyən qədər təsəvvür edə bilmirdik. Çünki yazılmış operaların çoxusunun mövzusu əfsanələrdən götürülmüşdür. Deyək ki, «Leyli və Məcnun», yaxud «Əsli və Kərəm», «Şahsənəm», «Aşıq Qərib», «Şah İsmayıl»… «Koroğlu» da böyük qəhrəmanlıq əfsanəsinə həsr olunmuşdur. Ona görə də müasir həyata dair belə bir əsərin opera vasitəsilə çatdırılmasını mən təsəvvür edə bilmirdim. Xatırlayıram, «Sevil» operasının ilk tamaşasını, yaradıcı kollektivi, operanın müəllifi Fikrət Əmirovu həmin bu salon çox böyük ehtiramla qarşıladı. O vaxt Rəşid Behbudov ilk dəfə idi ki, operada çıxış edirdi. Həmin dövrdə o, estrada artisti hesab olunurdu. Hamı düşünürdü ki, estrada artisti operada necə çıxış edəcək? Amma çox gözəl oxudu. Firəngiz Əhmədova o vaxt opera artisti kimi məlum idi. O da, başqaları da öz rollarını çox gözəl ifa etdilər. Mən indi onların hamısının adlarını demək istəmirəm.

Mən o ilk tamaşanı da dinləmişəm. Həmin vaxtdan 45 il keçibdir. Deyirlər ki, əsər 20 ildir səhnədə olmayıbdır. İndi siz bunu yaratmısınız, çox da gözəl yaratmısınız. 45 il bundan öncə gördüyümü də, eşitdiyimi də unutmamışam, o mənim xatirimdədir. O da gözəl idi, bu da gözəldir. Siz böyük iş görmüsünüz, ictimai həyatımıza, mədəniyyətimizə böyük töhfə vermisiniz. Hamınızı təbrik edirəm və bu xidmətinizə görə sizə təşəkkürümü bildirirəm.

Burada hərə öz əməyini sərf edibdir, rejissor da öz işinin öhdəsindən yaxşı gəlibdir. Mənə dedilər ki, tamaşanın ümumi musiqi rəhbəri Fərhad Bədəlbəylidir. Əsərin musiqisində, mizanlarında, ümumiyyətlə, məzmununda da müəyyən dəyişikliklər var. Onları da mən hiss edirəm. Opera muasirləşibdir. Bunun özü də böyük işdir. Dekorasiyalar da çox gözəldir. Teatrda belə dekorasiyalardan çoxdan idi ki, uzaqlaşmışdıq və bunun həsrətində idik. Bu səhnədə keçmişdə tamaşaya qoyulan əsərlər gözəl de-

korasiyalarla tərtib olunurdu. Lakin bir vaxt dedilər ki, eləcə səhnə boş olsun və ifaçılar tamaşanı göstərsinlər. Amma indi gözəl dekorasiyalardan istifadə olunur, rəssamın da işi yaxşıdır.

Əsərin əsasını təşkil edən, şübhəsiz ki, musiqidir. Orkestr çox gözəl çaldı. Dirijor da yaxşı idarə edirdi. Amma bunların hamısını səhnədə göstərən, söz yox ki, siz ifaçılarsınız. Xuraman Qasımova həmişə olduğu kimi, bu gün bizi yenə də heyrətə gətirdi, çox sevindirdi.

Xuraman Qasımova: Möhtərəm prezident, çox sağ olun.

Heydər Əliyev: Bu, opera janrında Xuraman xanımın birinci çıxışı deyil. O, çox rollarda və həmişə də yüksək səviyyədə çıxış edibdir. Ancaq bu gün yeni bir tamaşada, yeni bir rolda iştirak edir.

Xuraman Qasımova: Heydər Əliyeviç, sevinirəm ki, mənim ifamda bu tamaşanı Siz ikinci dəfədir ki, görürsünüz. Mən Sizin yadınıza salmaq istəyirəm, bu əsər 17 il bundan əvvəl opera teatrının səhnəsində göstərilmişdi. Bilirsiniz ki, müəyyən səbəblərə görə tamaşa uzun müddət repertuardan çıxarıldı. Çox razıyam ki, sənət yoldaşlarım əsəri yenidən, təkrar yaratmaq üçün əmək sərf etdilər. Bu əsəri yenidən canlandırdıqlarına görə mən xüsusilə tamaşanın dirijoru Cavanşir Cəfərova və musiqi rəhbəri Fərhad Bədəlbəyliyə öz təşəkkürümü bildirirəm. Amma 17 il bundan əvvəl – Azərbaycanın 60 illiyində mən bu əsərdə Sevil və Dilbər rollarında çıxış etmişəm. Sevil rolunu Fidan xanım da oynamışdı, o zaman Validə Paşayeva Gülüş rolunu oynayırdı. Bu, 17 il bundan qabaq olmuşdur. Çox sevinirəm ki, əsər yeni quruluşda səhnəmizdə təkrar tamaşaya qoyulmuşdur.

Heydər Əliyev: Bunların hamısı düzdür. Amma 45 il öncə göstərilən «Sevil» operası mənim xatirimdə daha yaxşı qalıbdır. Siz yada saldınız, mən onu da xatırlayıram. Lakin o tamaşadan bu tamaşanı böyük bir dövr ayırır. Respublikamız son on ildə çox böyük proseslərdən keçibdir. Opera teatrı bir müddət işləməyib, yaşamayıbdır. Belə bir dövrü biz yaşadıq. İndi mədəniyyət inkişaf edir. Mən tənəffüs zamanı opera və balet teatrına, ümumiyyətlə, mədəniyyətimizə sponsorluq edən şirkətlərin nümayəndələri ilə görüşdüm, söhbət etdim. Opera teatrımıza, mədəniyyətimizə yardım etdiklərinə görə onlara təşəkkürümü bildirdim. Mən Polad Bülbüloğluna da deyirdim ki, mədəniyyət işçilərimiz, incəsənət xadimlərimiz, müğənnilərimiz, musiqiçilərimiz yəqin bilirlər ki, mən son 4-5 ildir dünyanın böyük şirkətlərini Azərbaycana gətirirəm. Bunun ölkəmizə, onun iqtisadiyyatına, söz yox ki, böyük faydası var.

Ölkəmiz, xalqımız gələcəkdə, bir neçə ildən sonra bu faydanı daha çox hiss edəcəkdir. Gördüyümüz işlərin faydası 5-10 ildən sonra daha da

artacaqdır. Neft çıxarmaq, iqtisadiyyatı inkişaf etdirmək üçün respublikamıza gətirdiyimiz şirkətlərin mədəniyyətimizə, o cümlədən opera teatrına qayğısı, teatrın nəzdində «qayğı fondu» yaratması hazırladığınız tamaşanın meydana gəlməsinə kömək edibdir. Belə bir çətin mərhələdən keçərək incəsənətimizi, mədəniyyətimizi yaşatmaq, bu gün «Sevil» operasını belə gözəl təqdim etmək böyük işdir. Ona görə də mən bunu qeyd edirəm.

Azər Zeynalov da Balaş rolunu çox gözəl ifa etdi. Yəqin ki, Balaş rolunu Azər ilk dəfədir ifa edir.

A z ə r Z e y n a l o v: Bəli, cənab prezident, ilk dəfədir.

H e y d ə r Ə l i y e v: İlk dəfədir… Bu rolu Rəşid Behbudovun, sonra Lütfiyar İmanovun sizin iştirak etdiyiniz tamaşada oynaması yadımdadır.

X u r a m a n Q a s ı m o v a: Bəli, onda Fidan xanım Sevil rolunda oynayırdı, mən isə Dilbər rolunda.

H e y d ə r Ə l i y e v: Görürsünüzmü, indi yeni nəsil, gənc ifaçılar, musiqiçilər yetişib. Azər Zeynalov operada da gündən-günə özünü gözəl göstərir. Bunu da mən çox qiymətləndirirəm. Dilbər rolu da çox gözəl ifa olundu. Bu, bir qədər maraqlı obrazdır. Hər obrazın özünəməxsus xüsusiyyəti var. O xüsusiyyəti açmağın özü, şübhəsiz ki, ifaçının ən böyük nailiyyətidir. Obrazın müsbət və ya mənfi olmasının fərqi yoxdur. Müsbəti müsbət, mənfini mənfi kimi göstərmək hər ifaçının, artistin, aktrisanın böyük məharətidir. Dilbəri də çox gözəl göstərdilər, vaxtınızı almaq istəmirəm, başqalarını da həmçinin.

Mən sizin hamınıza təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm.

X u r a m a n Q a s ı m o v a: Bu balamızı da təbrik edək.

P o l a d B ü l b ü l o ğ l u: Gündüz rolunun ifaçısı balaca İsmayıl Azər Zeynalovun oğludur.

H e y d ə r Ə l i y e v: Hə, sənin oğlundur? Necə gözəl, sərbəst, çəkinmədən oynadı. Elə bil doğrudan da artistdir.

F ə r h a d B ə d ə l b ə y l i: Amma ona qonorar vermirlər.

H e y d ə r Ə l i y e v: Böyüyəndən sonra qonorar da alacaqdır. Təbrik edirəm. İki saatdan çoxdur ki, buradayıq, «Sevil» operası Azərbaycanın opera sənətinin ən parlaq əsərlərindən biridir. Müqayisə etmək istəmirəm, mən sənətşünas, müsiqişünas deyiləm və bu vəzifəni də öz üzərimə götürmək istəmirəm. Ancaq hesab edirəm ki, Fikrət Əmirov «Sevil» operası ilə yaradıcılığının ən yüksək zirvəsinə qalxmışdır. Çünki bu əsər həm müasir həyatımızın mövzusu, həm də milli musiqimizin üzərində qu-

rulmuşdur. Operanın ən dəyərli cəhəti də bundan ibarətdir. Fikrət Əmirov dünyasını dəyişib, Allah ona rəhmət eləsin. Vaxt ötdükcə belə insanların xidmətləri daha aydın görünür. Yaşadığı dövrdə insanı bəzən o qədər də yaxşı anlamırlar, qiymətləndirmirlər. Ancaq mənim vicdanım təmizdir.

Respublikaya rəhbərliyə gəlməzdən əvvəl də Fikrət Əmirovla çox yaxın dostluq etmişəm. Təsəvvür edin, 1969-cu ildə respublikaya rəhbərliyə başlamışdım. Əgər 1953-cü ildən Fikrət Əmirovla yaxın əlaqədə idimsə, ilk tamaşasında iştirak edib onu təbrik etmişdimsə, bu da bizim əlaqələrimizi göstərir. O vaxt da mən ona çox mənəvi dayaq olurdum. Hətta bəzi fikirlərini, dərdlərini mənə danışırdı. Amma respublikaya rəhbərlik etməyə başladıqdan sonra, bilirsiniz ki, mən həmişə mədəniyyətə böyük qayğı göstərmişəm. Məhz bu qayğının nəticəsi idi ki, o, sonra «Nizami» simfoniyasını, «Min bir gecə» baletini yaratdı. Onun böyük istedadı, potensialı vardı. Ancaq bu potensialı reallaşdırmaq üçün ona kömək etmək lazım idi. Biz o vaxtlar ona bu köməyi, yardımı etdik. O, doğrudan da Azərbaycanın incəsənətində, mədəniyyətində, musiqisində böyük iz qoyub getmişdir. Buna görə də mən bu gün onu xüsusi xatırlayıram. 45 il bundan öncə səhnəyə gətirdiyi əsər bu gün də yaşayır. «Sevil» operasını sizin kimi incəsənət xadimlərimiz yaşadır. Hamınızı təbrik edirəm. Sağ olun.

XALQ ARTİSTİ
RASİM OCAQOVA

Bakı şəhəri
21 noyabr 1998-ci il

Hörmətli Rasim Ocaqov!

Sizi – müasir Azərbaycan kinematoqrafiyasının görkəmli nümayəndəsini anadan olmağınızın 65 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan kinosunda gözəl sənət əsərləri yaratmış mahir operator və kinorejissor kimi şöhrət qazanmısınız. Kino sənətinin incəliklərinə dərindən yiyələnərək, Siz adları kino tariximizə qızıl hərflərlə yazılmış onlarla kinofilm yaratmısınız. Kinomuzun özünəməxsus ənənələrini ləyaqətlə davam etdirən bu filmlər tamaşaçıların rəğbətini qazanmışdır. Məhz Sizin gərgin və məhsuldar əməyiniz sayəsində Azərbaycan kinosunun şöhrəti ölkəmizin hüdudlarından çox-çox uzaqlara yayılmışdır.

Çəkdiyiniz kinofilmlər milli-mənəvi dəyərlərimizin təbliğinə verdiyiniz böyük əhəmiyyəti təcəssüm etdirir. Öz məzmun və fikir dolğunluğu, rejissor və operator işinin kamilliyi ilə səciyyələnən əsərləriniz müxtəlif səviyyəli bir çox mötəbər kinofestivalların yüksək mükafatlarına layiq görülmüşdür.

Əminəm ki, böyük sənət yolunda qazandığınız zəngin təcrübədən istifadə edərək müstəqil Azərbaycanımızda kino sənətinin inkişafı və daha da çiçəklənməsi üçün əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni sənət uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ ARTİSTİ HƏSƏN MƏMMƏDOVA

Bakı şəhəri, 21 noyabr 1998-ci il

Hörmətli Həsən Məmmədov!

Sizi – müasir Azərbaycan kinosunun və milli teatrımızın görkəmli nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan teatr sənətinin zəngin ənənələri Sizin yaradıcılığınızla müasir kinomuzda öz təcəssümünü tapmışdır. 60–70-ci illərdə ekran həyatı verdiyiniz parlaq obrazlar qalereyası kino salnaməmizin unudulmaz səhifələrini təşkil edir. Fitri istedad və zəhmətsevərliklə səciyyələnən yaradıcılığınız Sizə kişi rolunun ən yaxşı ifaçısı kimi kino həvəskarlarının dərin hörmət və rəğbətini qazandırmışdır. Böyük aktyorluq məharətiniz sayəsində Azərbaycan kinosu ölkəmizin hüdudlarından kənarda da şöhrət tapmışdır.

Xalqımızın keçmiş və müasir tarixi çəkildiyiniz rolların əsas ilham mənbəyi olmuşdur. Siz müasirlərimizin və tarixi qəhrəmanlarımızın obrazlarını tam təbiiliyi və dolğunluğu ilə ekranda canlandırmaqla millimənəvi dəyərlərimizin təbliğində və yetişməkdə olan nəslin qəhrəmanlıq, vətənpərvərlik ruhunda tərbiyəsində böyük xidmətlər göstərmisiniz.

Dədə Qorqud və Bəxtiyar, Əsgər və Qaraş kimi qəhrəmanlarımız azərbaycanlı mentalitetinin bütün incəliklərini özündə əks etdirir. Yaratdığınız obrazlar öz fikir və düşüncələrini tamaşaçıya təkcə sözlə deyil, həm də təbiətinizə xas olan təmkinlilik və həyata fəlsəfi münasibəti ifadə edən müxtəlif bədii vasitələrlə çatdıra bilir.

Müxtəlif illərdə layiq görüldüyünüz yüksək dövlət mükafatları və fəxri adlar yaradıcılığınıza olan ümumxalq məhəbbətinin aydın ifadəsidir.

Əminəm ki, böyük sənətkar təcrübəsi toplamış kamil bir aktyor kimi müstəqil Azərbaycanımızın mədəniyyətinin inkişafı və onun uca zirvələr fəth etməsi yolunda bundan sonra da səmərəli fəaliyyət göstərəcək və pərəstişkarlarınıza yeni-yeni sevinclər bəxş edəcəksiniz.

Sizə xoşbəxtlik və cansağlığı, sənət yollarında böyük uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

XALQ RƏSSAMI TAHİR SALAHOVA

Bakı şəhəri
28 noyabr 1998-ci il

Hörmətli Tahir Salahov!

Sizi – dünya şöhrətli Azərbaycan rəssamını 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli mədəniyyətimizin inkişafında yeni bir mərhələ təşkil edən yaradıcılığınız mövzu və janr zənginliyi, bədii forma rəngarəngliyi və estetik kamilliyi ilə səciyyələnir. İncəsənətimizin zəngin ənənələrini Avropa rəssamlıq sənətinin nailiyyətləri ilə birləşdirən əsərləriniz özündə Qərb və Şərq mədəniyyətlərinin üzvü vəhdətini təcəssüm etdirir.

Siz sənət aləminə öz dünyagörüşü olan, həyatın və zamanın nəbzini duyan kamil sənətkar kimi inamla qədəm qoymusunuz. Hələ ali təhsili başa vurarkən yaratdığınız «Növbədən qayıdanlar» diplom əsəri təsviri sənətimizə böyük bir istedadın gəldiyini xəbər verdi. Yaradıcı əməyin romantikasını, insanın cismani və mənəvi gözəlliyini, intellekt və qüdrətini tərənnüm edən tablolarınız qurub-yaratmaq, layiqli bəşər övladı olmaq əhval-ruhiyyəsi aşılayır.

Yaradıcılığınızda insan kainatın ən başlıca, ən böyük dəyəri kimi həmişə ön plandadır. Portretlərinizdə qəhrəmanlarınızın mürəkkəb daxili aləmi ilə yanaşı, müasiri olduqları əsrin cizgiləri mütəfəkkir sənət salnaməçisinin fırçası ilə öz əksini tapmışdır. Mirzə Ələkbər Sabir, Dmitri Şostakoviç, Qara Qarayev, Fikrət Əmirov, Rəsul Rza və başqa görkəmli şəxsiyyətlərin portretləri təkcə obrazların möhtəşəmliyini, onların mənəvi-fəlsəfi düşüncələrini deyil, eləcə də Sizin özünüzün insana, yaşadığınız dövrə olan münasibətinizi açıqlayır.

Azərbaycanın təbiətini və insanlarını vəsf edən tablolarınız doğma diyara bəslədiyiniz səmimi və dərin övlad məhəbbətindən xəbər verir. Yaratdığınız mənzərə və natürmortlar ətraf mühitlə, təbiətlə təmasdan doğan hədsiz sevinc və nikbinlik duyğularını ifadə edir.

Sizin istedadlı teatr rəssamı kimi xidmətləriniz böyükdür. Səhnə əsərlərinə verdiyiniz tərtibat obrazların parlaqlığı, bu janrın mürəkkəb

məsələlərinin həllində böyük məharət, hadisələrin cərəyan etdiyi dövrün xüsusiyyətlərini duymaq bacarığı ilə səciyyələnir.

Dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş fərdi sərgiləriniz, məşhur muzeylərdə qorunub saxlanılan əsərləriniz dünya Təsviri Sənətinin İnkişafına xidmət etməklə Sizə, eləcə də Azərbaycan Rəssamlıq Məktəbinə böyük şöhrət gətirmişdir.

Sizin ictimai fəaliyyətiniz də yaradıcılığınızla həmişə sıx bağlı olmuşdur. Aldığınız fəxri ad və mükafatlar, müxtəlif orden və medallar sənətinizə və ictimai fəaliyyətinizə verilən yüksək qiymətin aydın ifadəsidir.

Əminəm ki, öz dəst-xətti ilə dünya mədəniyyətində layiqli yer tutmuş sənətkar kimi Azərbaycan incəsənətinin şöhrətini daha da artırmaq üçün bundan sonra da var qüvvənizi sərf edəcək, yaradıcılığınızın pərəstişkarlarını yeni əsərlərinizlə sevindirəcəksiniz.

Sizə cansağlığı və xoşbəxtlik, sənət yollarında daha böyük uğurlar arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

ƏLİLLƏRİN BİRİNCİ ÜMUMRESPUBLİKA BƏDİİ YARADICILIQ BAXIŞ-MÜSABİQƏSİ QALİBLƏRİNİN YEKUN KONSERTİ BAŞA ÇATDIQDAN SONRA TƏDBİR İŞTİRAKÇILARI QARŞISINDA ÇIXIŞ

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
30 noyabr 1998-ci il

Əziz dostlar!

Əziz müsabiqə iştirakçıları, müsabiqənin qalibləri!

Mən sizi Azərbaycanda son aylarda keçirilmiş müsabiqə münasibətilə və müsabiqədə əldə etdiyiniz dəyərli nailiyyətlər münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanda əlillər dövlətin, cəmiyyətin daim qayğısı ilə əhatə olunublar. Bugünkü qeyri-adi gözəl mərasim də məhz bunu əyani surətdə sübut edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü ilə Azərbaycanda son aylar əlillərin istedadlarını araşdırmaq və yüksək istedadlıları cəmiyyətə təqdim etmək üçün keçirilmiş müsabiqəni, festivalı mən ölkəmizdə baş vermiş əlamətdar bir hadisə kimi qiymətləndirirəm. Bu təşəbbüs həqiqətən çox təqdirəlayiq təşəbbüsdür və bunların nəticəsində biz, Azərbaycan ictimaiyyəti bir daha görürük ki, əlillərə nə qədər böyük qayğı vardır və onların bu problemləri ilə məşğul olaraq, eyni zamanda onların istedadlarının inkişaf etməsi üçün də imkanlar yaradılır.

Bu gün təqdim olunan incəsənət nümunələri bizi həddindən artıq sevindirdi, heyran etdi, həyəcanlandırdı. Bu gün bu səhnədən çıxış edənlər özlərinin yüksək istedadlarını nümayiş etdirdilər. Eyni zamanda onlar böyük iradəyə malik olduqlarını nümayiş etdirdilər. Bugünkü tamaşa insanın nə qədər böyük imkanlara malik olduğunu bir daha bizə göstərdi. Bizi sevindirən odur ki, fiziki cəhətdən qüsuru, çatışmazlığı olan insanlar nikbin yaşayırlar və öz iradələrinə söykənərək istedadlarını inkişaf etdirirlər və hətta ölkənin festivallarında, müsabiqələrdə çıxış edərək onları ictimaiyyətə nümayiş etdirirlər. Bu, insanın ən gözəl xüsusiyyətlərindən biridir. Bu, insanın nə qədər yüksək mənəviyyata, nə qədər yüksək gücə, nə qədər yüksək iradəyə malik olduğunu bir daha göstərir. Biz bu halları qiymətləndirməliyik və hər bir insanın cəmiyyətdə özünün daxilində

olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq.

Mən məmnuniyyətlə deyə bilərəm ki, son illər Azərbaycanda bu işlər dövlət orqanları tərəfindən, cəmiyyət tərəfindən görülür və bunların hamısı bir daha onu göstərir ki, Azərbaycanda hər bir insana qayğı vardır. Xüsusən, vətənini, torpağını, ölkəsinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qoruyarkən əlil olmuş, şikəst olmuş insanlara qayğı daha da çoxdur. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycanın dövləti, Azərbaycanın hökuməti, Azərbaycanın bütün dövlət xidmət orqanları əlillərə, şikəstlərə və xüsusən döyüşlərdə əlil olmuş insanlara bundan sonra da bütün qayğıları göstərəcəklər, əllərindən gələni əsirgəməyəcəklər.

Bugünkü mərasim çox böyük əhəmiyyət kəsb edir. Güman edirəm ki, bu, bizim cəmiyyətdə olan insanların hamısına müsbət təsir göstərəcək və insanlarda daha da yaşamaq eşqi, yaratmaq eşqi nümayiş etdirəcəkdir.

Bəli, insan çox şeyə qadirdir. İnsan nikbin olmalıdır. İnsan nə qədər çətinliklərlə rastlaşsa da, öz istedadını, öz biliyini, öz bacarığını cəmiyyətə təqdim etməlidir, cəmiyyətə, ölkəsinə həsr etməlidir. Bu gün bu möhtəşəm salonda, bu teatr səhnəsində böyük məharətlə öz istedadlarını nümayiş etdirən insanlar məhz belə insanlardır. Mən onları ürəkdən təbrik edirəm və onlara, bütün müsabiqədə iştirak edənlərə cansağlığı, səadət arzulayıram. Qarşıdan gələn beynəlxalq əlillər günü münasibətilə bütün əlilləri təbrik edirəm. Bir daha bəyan edirəm ki, Azərbaycanda hər bir vətəndaş dövlətin qayğısı altındadır və xüsusən əlillik ömrü keçirən, yaşayan vətəndaş dövlətin qayğısı altındadır.

Hamınıza cansağlığı arzu edirəm və bütün Azərbaycan vətəndaşlarını yanında olan insana, qonşusuna, dostuna və xüsusən çətinlik içərisində yaşayan insana, fiziki məhrumiyyətlərə məruz qalmış insana əl uzatmağa dəvət edirəm, kömək etməyə dəvət edirəm. Bizim dövlətimiz bu prinsiplər əsasında yaşayır, işləyir və bu prinsiplər əsasında işləyəcəkdir. Bu mənim şəxsən həyatımın və həyat fəaliyyətimin ən əsas xüsusiyyətlərindən biridir.

Ona görə də mən bu dəvəti məmnuniyyətlə qəbul etdim və güman edirəm, sizin hamınızın fikrini ifadə edərək deyə bilərəm ki, biz hamımız bugünkü konsertdən, bu mərasimdən yüksək zövq aldıq. Burada çıxış edən insanlar həqiqətən gözəl incəsənət nümunələri göstərdilər, özlərinin gözəl qabiliyyətlərini nümayiş etdirdilər, gözəl istedadlarını nümayiş etdirdilər. Mən bundan çox məmnunam və bu hissiyyatlarla, bu arzularla da sizin hamınızı, xüsusən bu gün bizi sevindirənləri ürəkdən bir daha təbrik edirəm. Çox sağ olun.

ÜZEYİR HACIBƏYOVUN «O OLMASIN, BU OLSUN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı
4 dekabr 1998-ci il

H e y d ə r Ə l i y e v: Sizi təbrik edirəm. Bu gün yeni binada yeni tamaşa təqdim etdiniz. Sizi həm teatrınızın işə başlaması, uzun fasilədən sonra fəaliyyətə başlaması, həm də birinci uğurlu tamaşanız münasibətilə təbrik edirəm.

Bilirsiniz, bəzən elə olur ki, bədbəxt bir hadisə sonra böyük bir xoşbəxtliyə gətirib çıxarır. Əgər bu teatr dağılmasaydı, ola bilər, yeni bina da tikilməyəcəkdi. Vaxtilə Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş bu teatr öz həyatını sürdü, öz dövrünü yaşadı və dağıldı. Ancaq biz də bunun yerində həyatımızın bu çətin dövründə bina tikdik. Düzdür, bu bina əvvəlki binanın arxitekturası üzərində tikilibdir. Amma şübhəsiz ki, bu, ondan da yaxşıdır, müasirdir. Bu, çox gözəldir.

P o l a d B ü l b ü l o ğ l u (*Mədəniyyət naziri səlahiyyətlərini icra edən*): Cənab prezident, burada hər cür şərait vardır. Bu, ən müasir texniki tələblərə cavab verən bir teatrdır. Aktyorlar üçün çox gözəl şərait yaradılmışdır.

H e y d ə r Ə l i y e v: Mən bunun hamısını bilirəm. Gəlib baxmışam. Mən sevinirəm ki, indi, həyatımızın çətin dövründə belə bir teatr binasını tikib yarada bildik. Siz də bundan istifadə edirsiniz. Ümid edirəm ki, gələcək nəsillər də bundan istifadə edəcəklər və bu günləri yad edəcəklər ki, biz həyatımızın ağır dövründə bu binanı tikdik və gələcək nəsillərə yadigar verdik.

Bu gün yenidən öz fəaliyyətinizi gözəl bir tamaşa ilə – Üzeyir Hacıbəyovun «Məşədi İbad» müsiqili komediyası ilə başladınız. Biz buna musiqili komediya deyirik, amma o vaxt Üzeyir Hacıbəyov yazanda bunun adını operetta qoymuşdu. Bu, çox gözəl tamaşadır. Cənnət xanım Səlimova tamaşaya gözəl quruluş veribdir. İndi o, universal rejissor kimi müxtəlif tamaşalara quruluş verir.

«Məşədi İbad» tamaşasını çox gözəl göstərdiniz. Düzdür, biz bunun hamısını görmüşük. Məsələn, mən bu tamaşanı Azərbaycan teatrında 40-50 il bundan öncə də görmüşəm. Sonra bunu bizim böyük rejissorumuz Hüseyn Seyidzadə filmə çəkdi. O, çox gözəl filmdir. Ola bilər, film çəkilən vaxt onu yaxşı qiymətləndirə bilmədilər – mənim xatirimdədir, bu, 60-cı illərdə idi. Ancaq indi, zaman keçdikcə bəzən bizim televiziya vaxtaşırı o filmi göstərir. O film göstəriləndə mən böyük həvəslə baxıram. Çox gözəl bir filmdir.

Siz bu əsərə yenidən səhnə həyatı verdiniz və bu gün çox gözəl də tamaşa göstərdiniz. Ona görə də mən sizin hamınızı təbrik edirəm. Quruluşçu rejissor Cənnət xanımı təbrik edirəm ki, belə gözəl quruluş yaradıbdır. Rəssam İsmayıl Məmmədovu təbrik edirəm, çünki tamaşada çox gözəl dekorasiyalar, tərtibatlar vardır. Musiqi çox gözəl müşayiət olunduğuna görə dirijoru təbrik edirəm və səhnədə oynayanların hamısını təbrik edirəm. Hamınızın adınızı demək mənim üçün çətin olacaqdır, amma gərək Hacıbabanın, Afaq xanımın adlarını çəkəm. Bağışlasınlar, başqalarının adlarını bilmirəm. Hamınız rolları çox gözəl ifa edirdiniz.

Bilirsiniz, bu əsər ölməz əsərdir. Mən bu gün tamaşaya baxmağa çox həvəslə gəldim. Doğrudur, mənim işim çoxdur. Son zamanlar da ictimai tədbirlər çox olur. Hər axşam bir yerə gedirsən. Mən gecə saat birə qədər respublika əhəmiyyətli işlərlə məşğul oluram. Amma siz bunu görmürsünüz. Bunu nə televiziya, nə teatr, nə də başqası görür. Ona görə də mənim üçün o qədər də asan deyildir. Çünki işim çoxdur. Amma buna baxmayaraq mən bura böyük həvəslə gəldim və bundan da çox razıyam. Nəinki özüm, hətta oğlumla, gəlinimlə birlikdə gəlmişik. Hər halda, Bakıda olan ailə üzvlərimin hamısı buradadır. Təkcə nəvəm evdə qalıbdır. O gələ bilməyibdir. Bura həvəslə gəldim və çox böyük zövq aldım. Ona görə sizə təşəkkür edirəm ki, siz bizi bu gün əyləndirdiniz, sevindirdiniz.

Ancaq mən burada tamaşanın əvvəlindən indiyə qədər bu əsər haqqında düşünürəm. Şübhəsiz ki, birinci növbədə bizim dahi bəstəkarımız, dahi insanımız Üzeyir Hacıbəyov haqqında da düşünürəm. Bəzən bu «Məşədi İbad»ı xalq arasında gülməli bir tamaşa kimi qəbul edirlər. İnsanlar gəlir, baxır, gülür, əylənir və hesab edirlər ki, elə bunun mənası budur. Ancaq bunun çox dərin bir mənası vardır. Bilirsiniz, bu əsər dahi bir əsərdir. Üzeyir Hacıbəyovun əsərlərinin hamısı dahi əsərlərdir.

Məsələn, biz adətən öyrənmişik və deyirik ki, «Koroğlu» operası Üzeyir Hacıbəyovun şah əsəridir. Bunu bizim musiqişünaslar deyir, hamımız deyirik. Doğrudan da «Koroğlu» operası əzəmətli bir əsərdir və

bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir. Ancaq gəlin baxaq görək, Üzeyir Hacıbəyovun hansı əsəri şah əsər deyildir? Bunu birbirindən seçmək mümkün deyildir. Çünki hərəsinin özünəməxsus yeri, məzmunu və mənası vardır. Mən indi bütün personajlara diqqətlə fikir verirdim. Bunları Üzeyir Hacıbəyov sadəcə olaraq insanları güldürmək üçün yox, o vaxtkı cəmiyyəti göstərmək üçün yazıbdır və cəmiyyəti o qədər gözəl, ağıllı, real göstəribdir ki, buna heyran olursan.

Məsələn, mən bu gün sizin hazırladığınız tamaşaya baxarkən bir daha hiss etdim ki, Üzeyir Hacıbəyov nə qədər dahi bir insan imiş. İndi bu əsər, – buna operetta da, musiqili komediya da desəniz, – amma bu əsərin əsasını təşkil edən bunun dramaturgiyasıdır. Mən Elçin Əfəndiyevi də bura dəvət etdim. O dramaturqdur, bu işləri məndən yaxşı bilər. Bu əsərin əsasını təşkil edən bunun dramaturgiyasıdır. Yəni biz Üzeyir Hacıbəyova adətən deyirik ki, bəstəkardır, musiqi yazandır. Şübhəsiz ki, Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti də böyük olubdur. Ancaq Üzeyir Hacıbəyov bu əsərləri birinci növbədə dramaturq kimi yaradıbdır. Yəni bu əsərin məzmununu, personajları yaradıbdır, bunların hər birinin xüsusiyyətlərini, obrazını yradıbdır. Ondan sonra bunlara musiqi yazıbdır. Çünki Məşədi İbad obrazı məlumdur, – bəli, 50 yaşında bir kişinin evlənməsi gülməli gəlir ki, 50 yaşında kişi evlənə bilərmi?

Elçin Əfəndiyev: O vaxt Üzeyir Hacıbəyov özü bunu etiraf edir. O, 50 yaşı keçəndən sonra yazır ki, mən o yazıq Məşədi İbadı biabır eləmişəm, amma bu, özümün də başıma gəlibdir.

Heydər Əliyev: Bəli, zahirən bu görünür. 50 yaşında bir kişi evlənmək istəyir və buna da hamı gülür ki, necə ola bilər, bu yaşda kişi cavan qız alsın. Bu da onu pulnan alır və s. Amma iş burasında deyil. Üzeyir Hacıbəyov o vaxt bir-bir personajın cəmiyyətdəki yerini olduğu kimi göstəribdir. Məşədi İbadın obrazında o dövrün insanlarının bir qismini göstəribdir, Rüstəm bəyin obrazında bir başqasını göstəribdir. Təsəvvür edin, dərindən fikirləşəndə görürsən ki, əsərdəki inteligent Həsən, qəzetçi Rza, qoçu Əsgər obrazlarının hər biri böyük məna daşıyır. O vaxt Üzeyir Hacıbəyov əsəri yazarkən bu insanlar Azərbaycanda var idi. Onların mənfi cəhətini, xüsusiyyətini, cəmiyyətdə yerini və ümumiyyətlə, cəmiyyətin rəngarəngliyini Üzeyir Hacıbəyov bu obrazları yaradaraq göstəribdir.

Məsələn, Məşədi İbadın papağı başına necə qoyması barədə söylədiyi monoloqu götürək. Bunu adi bir söhbət kimi düşünmək olar. Deyir ki, «mən papağımı belə qoysam, deyəcəklər Bakı qoçusudur. Be-

lə qoysam, deyəcəklər Şamaxı lotusudur. Belə qoysam, deyəcəklər Gəncə qumarbazıdır. Belə də qoysam deyəcəklər ki, Qarabağın pambıq bəylərinə oxşayır». Bu sözlər adi sözlər deyildir. Üzeyir Hacıbəyov o vaxt deyib, – bəli, Bakı qoçusu da var, Şamaxı lotusu da var, Gəncə qumarbazı da var, Qarabağın pambıq bəyi də var. Əgər bunu bir az da uzatsaydı, başqalarını da deyə bilərdi. Yəni o dövrün xüsusiyyətlərini, cəmiyyətin tərkibini göstəribdir. Bu, adi bir şey deyildir. Heç kəs hesab etməsin ki, Üzeyir Hacıbəyov bu sözləri bir-birinə sadəcə qoşubdur, yaxud bu monoloqu da insanların gülməsi üçün yazıbdır. Yox. Üzeyir Hacıbəyov burada nə qədər dərin fəlsəfəyə malik fikirlər ifadə edibdir və o dövrün sosial problemlərini, siyasi, ictimai həyatını, bizim xalqımızın o dövrdəki problemlərinin müsbət və mənfi cəhətlərini çox gözəl göstəribdir.

Məsələn, tamaşada hamam səhnəsini götürün. Doğrudan da bu, çox qəribə bir səhnədir. Yəqin ki, indi bizim gənclər bilmirlər, – keçmişdə adət belə olub ki, oğlan və qız evlənəndə mütləq oğlanı da, qızı da hamama aparırdılar və bu, böyük təntənə ilə olurdu. Bu, təbii bir şeydir. Üzeyir Hacıbəyov bunu adət-ənənədən götürübdür, amma eyni zamanda hamam səhnəsini və hamamın o vaxt həyatda rolunu necə gözəl göstəribdir. Yəni mən bunu indi təhlil etmək istəmirəm. Mən bu gün bunu bir daha dərk etdim.

Mən əvvəllər də bu əsər haqqında belə düşünmüşəm. Amma bu gün bir daha bunu başdan-ayağa gördüm. Bir var ki, buna televiziyada kinoya baxırsan, bir də var ki, səhnədə canlı insanlara baxırsan və şübhəsiz ki, onların ifaçılıq sənətini qiymətləndirərək, eyni zamanda hər obrazın əhəmiyyətini görərək mən şəxsən belə qənaətə gəlirəm ki, bu əsər dahi bir əsərdir. Bu, heç də gülmək üçün yazılmayıbdır, bəlkə də bəzilərinin ağlaması üçün yazılıbdır. Bu, zamanın reallığıdır, faciəsidir. Bu, əsərdəki hər bir epizodda görünür. Demək, kasıb Rüstəm bəydən pulnan qız almaq olarmış. Bu, doğrudan da o dövrün həqiqətidir. Yaxud, indi də bəzi jurnalistlər gəlib deyirlər ki, «pul ver, gedim məqalə yazım». Bəzən hesab edirlər ki, bu, demokratiyanın, mətbuat azadlığının nəticəsidir. Demək, bu, yüz il bundan öncə də olubdur.

H a c ı b a b a B a ğ ı r o v: Hörmətli prezident, hələ pul istəmək yaxşıdır. Biz yeni binaya köçəndən sonra cavan bir jurnalist qız gəlmişdi. Mənə deyir ki, bu binanı Siz tikdirmisiniz? Mən də dedim ki, bacım, mənim beş nəslim də yığışsa, buna imkanım çatmaz. Bu, hökumət idarəsidir. Yəni belə jurnalistlər də vardır.

H e y d ə r Ə l i y e v: Azərbaycanda Məşədi İbad obrazını hamı bilir. Amma bu obrazların hər birinin böyük əhəmiyyəti, xüsusiyyəti vardır. Üzeyir Hacıbəyov onların heç birini təsadüfi yaratmayıbdır. Demək, əsrin əvvəlində də əsrin sonunda yaşadığımız problemlər olub.

Məsələn, tamaşada tost söylənilən səhnədə deyir ki, dünya get-gedə xarab olur. Üstündən yüz il keçibdir, indi də deyirlər ki, dünya get-gedə xarab olur. Amma dünya xarab olmur. Boş söz danışan adamlar iş görmək əvəzinə orada danışıq aparır, burada söz gəzdirir və deyir ki, dünya xarab olur. Dünya xarab olmur. İndi görün, XX əsrdə dünya nə qədər inkişaf edibdir! Əsrin əvvəlinə, Üzeyir Hacıbəyov bu əsəri yaratdığı dövrə baxın, XX əsrin sonuna baxın. Görün dünya nə qədər inkişaf edibdir, o cümlədən Azərbaycan nə qədər inkişaf edibdir. Amma bu gün də, yüz il bundan əvvəki kimi, adamlar çayxanada oturub deyirlər ki, dünya, hər şey xarab olur.

Bilirsiniz, bu əsər müasir bir əsərdir, bizim müasirliyimizi göstərir. Yəni yüz il bundan öncə Azərbaycanda olan problemlər bu gün də vardır və bunu bu əsər bir daha göstərir. Heç kəs hesab etməsin ki, bunlar keçmişdə qalıbdır. Yox. Dünya dəyişib, inkişaf edib, Azərbaycan inkişaf edib, cəmiyyət inkişaf edibdir. Amma sosial, əxlaqi və başqa problemlər hələ yaşayır. Ona görə də bu əsər bu gün üçün də, gələcək nəsillər üçün də lazımdır.

Mən bu gün bu sözləri Üzeyir Hacıbəyovun dahiliyinin XX əsrdə Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti olduğuna görə qeyd edirəm və mənim bugünkü tamaşadan ən əsas nəticəm bundan ibarətdir. Bizim Azərbaycanın teatr sənətinin inkişafına gəldikdə isə, şübhəsiz ki, Üzeyir Hacıbəyov bunu səhnəyə qoyanda sizin kimi ifaçılar yox idi. Ancaq indi sizin kimi ifaçılar, belə gözəl teatr vardır. Eyni zamanda başqa imkanlar vardır. Yeni əsərlər yaratmaq lazımdır. Güman edirəm ki, bizim dramaturqlar, yazıçılar, bəstəkarlar yeni əsərlər yaratmalıdırlar. Hər halda güman etmirəm ki, kimsə Üzeyir Hacıbəyovun səviyyəsinə çata bilsin.

E l ç i n Ə f ə n d i y e v: Cənab prezident, Üzeyir bəydən sonra çoxlu operettalar yazıldı, amma heç biri onun səviyyəsinə qalxa bilmədi. Baxmayaraq ki, musiqi, təhsil inkişaf etdi, amma ilk nümunəyə gəlib çatan olmadı.

H e y d ə r Ə l i y e v: Bəli, yenə də deyirəm, Üzeyir Hacıbəyovu böyük bir musiqiçi kimi hamı, bütün dünya tanıyır və biz də Üzeyir Hacıbəyovun adı çəkiləndə onu bir bəstəkar, musiqiçi kimi tanıyırıq. Amma o, nə qədər böyük filosofdur, alimdir, Azərbaycanın həyatını o vaxtlar

təhlil edərək nə qədər belə dahi əsərlər yarada bilibdir. Yenə də deyirəm, o, «Məşədi İbad» pyesinin musiqisini yazmazdan əvvəl əsərin özünü yazıbdır. Onun süjeti, məzmunu həyatdan götürülmüşdür. Ancaq bunlar Üzeyir Hacıbəyov fəlsəfəsindən, onun fikir və mülahizələrindən keçərək yaranmış obrazlar, fikirlər, sözlərdir.

Mən sizin hamınızı bir daha təbrik edirəm. Gözəl aktyorlarsınız, sənət ustalarısınız. Azərbaycan teatrını inkişaf etdirmisiniz və inkişaf etdirirsiniz. Biz hamımız Mirzə Fətəli Axundova, Nəcəf bəy Vəzirova minnətdar olmalıyıq ki, 125 il bundan öncə Azərbaycanda dünyəvi teatr yaradıblar. Üzeyir Hacıbəyova və bizim başqa dahi şəxsiyyətlərimizə minnətdar olmalıyıq ki, onlar belə gözəl, əbədi yaşayan əsərlər yaradıblar. Sizə də minnətdarıq ki, siz Azərbaycanda XX əsrin sonunda teatr sənətini inkişaf etdirirsiniz. Hamınıza uğurlar diləyirəm, yeni-yeni yaradıcılıq uğurları, hər birinizə cansağlığı və səadət arzulayıram. Sağ olun. Gecəniz xeyrə qalsın.

H a c ı b a b a B a ğ ı r o v: Cənab prezident, Sizin qayğınız və xeyirduanız ilə yenidən istifadəyə verilən teatrın 60 illiyi və 50-ci teatr mövsümünün açılışı münasibətilə göstərilən «O olmasın, bu olsun» tamaşasına baxdığınıza və verdiyiniz yüksək qiymətə görə Sizə bütün kollektiv adından dərin minnətdarlığımı bildirirəm.

DÜNYA ŞÖHRƏTLİ YAZIÇI, GÖRKƏMLİ İCTİMAİ XADİM ÇİNGİZ AYTMATOVA

Bakı şəhəri
6 dekabr 1998-ci il

Əziz və hörmətli Çingiz Aytmatov, Sizi doğum gününüzün 70-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, yaradıcılıq və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş bir yazıçı kimi Siz həm Qırğızıstanın, həm də bütun türk dünyasının fəxrisiniz.

Sizin yaradıcılığınız, xüsusən «Ana torpaq», «Əlvida Gülsarı», «Cəllad kötüyü», «Əsrə bərabər gün» və digər əsərləriniz ümumbəşəri dəyərləri əks etdirməklə yanaşı, türk övladlarının milli mənlik, özünüdərketmə şüurunun formalaşması üçün son dərəcə qiymətlidir.

Sizə ömrünüzün bu yetkin çağında xalqlarımızın mənəviyyatını zənginləşdirən yeni-yeni əsərlər yaratmağınızı arzulayıram.

Dərin hörmətlə,

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ

Prezident iqamətgahı
12 dekabr 1998-ci il

H e y d ə r Ə l i y e v: Mən bu gün şərəfli bir vəzifəni yerinə yetirməliyəm – sizə Azərbaycanın dövlət mükafatlarını təqdim etməliyəm.

Xalq şairi Bəxtiyar Vahabzadəni «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm, Sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

B ə x t i y a r V a h a b z a d ə: Hörmətli prezident!

Hörmətli mərasim iştirakçıları!

Mən bu mükafatla 1995-ci ildə təltif olunmuşam. Amma xəstəliyimə və digər səbəblərə görə onu vaxtında ala bilmədim. Anadan olmağımın 70 illik yubileyi münasibətilə keçirilən mərasimdəki çıxışımda mən bir söz demişdim, indi onu təkrar etmək istəyirəm. Keçmiş Sovetlər İttifaqı dövründə mən bir çox ordenlər, medallar və digər yüksək mükafatlarla təltif olunmuşam. Desəm ki, o vaxt sevinməmişdim, yalan olar. Mən onda da sevinmişdim. Amma bu «İstiqlal» ordeni mənim öz milli, müstəqil dövlətimin ordenidir. Bundan böyük şərəf yoxdur ki, sən başqa bir dövlətin deyil, məhz öz müstəqil dövlətinin ordeninə layiq görüləsən.

Hörmətli prezident, buna görə Sizə dərin təşəkkürümü bildirirəm. Belə hesab edirəm, hələ sovet hakimiyyəti illərində də mənim gecə-gündüz bütün fəaliyyətim, arzum bu idi ki, müstəqil dövlətim yaransın və millətim heç bir millətin «quyruğu» olmasın. Allaha şükür ki, biz ona nail olduq. Cənab prezident, arzu edirəm ki, bu müstəqilliyimiz Sizin rəhbərliyiniz altında günü-gündən çiçəklənsin, müstəqilliyimizi heç kəs əlimizdən ala bilməsin. Təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Xalq yazıçısı İsa Hüseynova yüksək mükafatı təqdim edirəm.

Səni xoş gördük, təbrik edirəm. Xəstələnmişdin, ona görə də çoxdandır səni görmürəm. Xəstəliyə fikir vermə.Özünü möhkəm saxla. Sən böyük əsərlər yaratmısan, hələ bundan sonra da yaradacaqsan. Xalqımız da, dövlətimiz də sənin əsərlərini yüksək qiymətləndiribdir. Mən səni təbrik edirəm. Sənə cansağlığı, səadət arzulayıram. Əgər səndə aritmiya varsa, ən böyük arzum odur ki, heç bir xəstəliyin olmasın. Yox, yaxşısan, gümrah görünürsən, qocalmamısan, hələ cavansan.

İ s a H ü s e y n o v: Cənab prezident, mən Sizi hər gün görürəm, hər gün Sizə səcdə edirəm. Siz təkcə Azərbaycan xalqı üçün yox, bütün bəşəriyyət üçün çox işlər görmüsünüz. Şəxsən mən bir yazıçı, ziyalı kimi Sizdə nadir insani xüsusiyyətlər müşahidə etmişəm. Sizdə olan həssaslığı heç kəsdə, heç bir dövlət başçısında görməmişəm.

Cənab prezident, mən Sizə bir məktub göndərmişdim. Həmin məktubda təxminən belə bir ifadə işlətmişdim ki, mən Sizi öz doğma atam, qardaşım kimi tanıyıram. Bütün bunlar da təbiidir. Mən Sizi çox istəyirəm. Sizə cansağlığı, daha böyük uğurlar arzulayıram.

H e y d ə r Ə l i y e v: Azərbaycan Elmlər Akademiyasının akademiki Cəlal Əliyevi «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni elmi əsərlər yazmağı arzulayıram. Təbrik edirəm.

Xalq artisti, bəstəkar Arif Məlikovu «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Mən sənə cansağlığı, yeni-yeni əsərlər arzulayıram. Sən bir simfoniya hazırlayırdın, deyəsən hələ qurtarmamısan.

A r i f M ə l i k o v: Vaxtilə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilirdi. Siz mənə söz verdiniz, orada çıxış etdim və salonda oturanlara bir sual verdim. Soruşdum, dünya tarixindən kim bir misal gətirə bilər ki, prezident bəstəkarı Azərbaycan Dövlət Filarmoniyasının binasından uzun məsafədə qəbiristanlığa qədər çiynində aparıbdır? Heç kim ikinci belə bir adam tapa bilmədi. Mən bu faktı nəyə görə dedim? Çünki bu fakt Sizinlə, həm də mənim ikinci atam Qara Qarayevin adı ilə bağlıdır. Mən onun tələbəsiyəm.

Mən burada ikinci bir sözü də tam mənası ilə deyə bilərəm. Ola bilər ki, dünyada ən musiqisevər prezident varsa, o da Sizsiniz, cənab prezident. Musiqi xalqın ürəyidir. Musiqi xalqın gündəlik həyatıdır. İnsan anadan olandan məzara gedənə qədər musiqi ilə yaşayır. Azərbaycanda musiqiyə qayğı doğrudan da yüksək səviyyədədir. Bu

qayğının bir nümunəsi də bu gün mənə bu yüksək ordeni təqdim etməyinizdir.

Mənim üçün danışmaq çətindir. Çünki bəstəkar musiqi yazmalıdır. Bir neçə gün bundan əvvəl Siz bu salonda hərbçilərə yüksək mükafatlar verirdiniz. Mən həmin mərasimi televiziya vasitəsilə izləyirdim. Orada çox gözəl çıxışlar edildi. Amma ən gözəl çıxış o idi ki, hərbçi deyirdi: «Azərbaycan xalqına xidmət edirəm». Mən də çıxışımı həmin sözlərlə bitirirəm. Cənab prezident, Sizə təşəkkür edərək demək istəyirəm ki, mən Azərbaycan xalqına xidmət edirəm.

H e y d ə r Ə l i y e v: Milli Məclisin sədri, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərovu yüksək dövlət mükafatı – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Murtuz müəllim, hüquq elmi çox mühüm elmlərdən biridir. Müstəqil dövlət qurandan sonra bu elmin əhəmiyyətini, qədrini biz daha da çox bilirik. Siz də ömrünüzün demək olar ki, ən şüurlu hissəsini hüquq elminə və Azərbaycanda hüquq təhsilinin inkişafına həsr etmisiniz. Ona görə də bu yüksək mükafata layiq görülmüsünüz. Sizi təbrik edirəm.

M u r t u z Ə l ə s g ə r o v: Zati-aliləri möhtərəm prezident!

Azərbaycanın yüksək mükafatına – «İstiqlal» ordeninə layiq görüldüyüm üçün Sizə ürəkdən öz təşəkkürümü bildirirəm. Bilirsiniz, Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ona Sizin kimi müdrik bir rəhbər başçılıq edir. Sizin bütün varlığınız, həyatınız Azərbaycanın, millətimizin taleyi ilə həmişə bağlı olmuşdur.

Vaxtilə ölkəyə rəhbərlik etdiyiniz dövrlərdə Azərbaycanın iqtisadiyyatını, mədəniyyətini, elmini, təhsilini inkişaf etdirməyə böyük qayğı göstərmisiniz. Vətəndən uzaqda olduğunuz illərdə də Azərbaycanı unutmamısınız, respublikamızın qayğısına qalmısınız. Əliniz daim Azərbaycanın üzərində olubdur. 1993-cü ildə isə Sizin respublika rəhbərliyinə qayıdışınızdan sonra Azərbaycan xalqının tarixində yeni səhifə, yeni dövr başlanmışdır. Təsadüfi deyildir ki, Azərbaycan xalqı bu dövrü Qurtuluş günü kimi dəyərləndirir və Milli Məclisin Qurtuluş günü barədə qəbul etdiyi qərar Sizin sədaqətinizə böyük xalq məhəbbətinin təzahürüdür.

Oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Azərbaycan vətəndaşları azad, demokratik şəraitdə keçirilən bu seçkilərdə Sizə səs vermişlər, Siz parlaq qələbə əldə etmisiniz. Bu, bizi sevindirir. Siz yenidən beş il müddətinə Azərbaycanın prezidenti, rəhbəri seçilmisiniz. Bu, Sizin Azərbaycan xalqı qarşısında gördüyünüz böyük işlərin, əməllərin nəticəsidir.

Cənab prezident, mən 50 ildən, yəni yarım əsrdən çox şüurlu, mənalı həyatımı Bakı Dövlət Universitetinin divarları arasında keçirmişəm. Mən universitetdə tələbəlikdən başlayaraq rektorluğa qədər bir yol keçmişəm. Bu müddət ərzində universitetdə yaxşı günlər də, çətin günlər də olubdur. Sizin rəhbərliyiniz dövründə universitetin vaxtilə 50, 60 illik yubileyləri keçirilibdir. Mən rektor olduğum illərdə, Sizin rəhbərliyiniz və iştirakınızla və bilavasitə təşəbbüsünüzlə 1995-ci ildə universitetin 75 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

Mənim həyatımın böyük bir hissəsi Bakı Dövlət Universitetində keçmişdir. Mən həmişə çalışmışam ki, xalqıma, millətimə sədaqətlə xidmət edim və universitetin adını uca tutum.

İcazə verin, bu yüksək ordeni elmə, təhsilə, xüsusilə hüquq elminə verdiyiniz böyük mükafat kimi qiymətləndirim. Bu mükafatı Sizdən qəbul etmək mənim üçün çox şərəflidir. Bu yüksək mükafata görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azərbaycanın gələcəyi, xoşbəxtliyi naminə Sizə uzun ömür, cansağlığı və işinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

H e y d ə r Ə l i y e v: Akademik Azad Mirzəcanzadəni yüksək mükafat – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm.

Azərbaycanda sənin elmi xidmətlərin böyükdür. Azərbaycan xalqı bir ildir ki, sənin yubileyini qeyd edir. Bu yubiley mərasimləri respublikanın çox yerlərində keçirilibdir. Bakıdakı yubiley mərasimində mən də iştirak edirdim. Sən bunların hamısına layiqsən. Bunların hamısını elm sahəsindəki xidmətlərinə görə qazanmısan. Mən bu ordeni məmnuniyyətlə sənə təqdim edirəm. Səni təbrik edirəm, cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Laçın Rayon İcra Hakimiyyətinin başçısı Muradxan Cabbarova «Azərbaycan Bayrağı» ordenini təqdim edirəm.

Sizi təbrik edirəm, cansağlığı arzu edirəm. Laçınlıların hamısına salam söyləyin. Əmin ola bilərsiniz ki, Laçın rayonu azad olunacaqdır və laçınlılar öz yerlərinə qayıdacaqlar.

M u r a d x a n C a b b a r o v: Möhtərəm prezident, bu yüksək mükafata, göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə tükənməz minnətdarlığımı bildirirəm. Bu etimadı doğruldacağıma söz verirəm. Çox sağ olun, Sizə ən böyük uğurlar arzulayıram.

H e y d ə r Ə l i y e v: General-leytenant Kərim Kərimovu «Şöhrət» ordeni alması münasibətilə təbrik edirəm. Sənınlə görüşümdən çox məmnunam. Xalqımız qarşısında sənin xidmətlərin ondan ibarətdir ki, sən Azərbaycan xalqını bütün dünyaya öz işlərinlə tanıtmısan. Səni Azər-

baycanda çox qiymətləndiririk. Aldığın orden və medalların, mükafatların hamısı sənin böyük elminin öz müvəffəqiyyətlərinin nəticəsində olubdur. Amma sən indi müstəqil Azərbaycanın yüksək ordenini alırsan. Təbrik edirəm.

H e y d ə r Ə l i y e v: Mərhum Qurban Abbasovun həyat yoldaşı Nina Kolomeytsevanı təbrik edirəm.

Təəssüflənirəm ki, Qurban Abbasova bu mükafatı – «Şöhrət» ordenini özünün alması qismət olmadı. Biz onun xidmətlərini heç vaxt unutmayacağıq, xalqımız da, ölkəmiz də unutmayacaqdır. O, görkəmli neftçi idi və çox işlər görmüşdü. Onun gördüyü işlər bugünkü və gələcək nəsillər üçün nümunədir.

Xalq şairi Nəbi Xəzriyə «Şöhrət» ordenini təqdim edərək, Nəbi müəllimi təbrik edirəm, cansağlığı arzulayıram. Maşallah, yaxşısan, cavan qalmısan, həmişə cavan olasan, yeni-yeni əsərlər yaradasan.

N ə b i X ə z r i: Hörmətli prezidentim, mən Sizdən çox mükafatlar almışam. Lakin bu mükafatın mənim üçün əhəmiyyəti çox böyükdür. Çünki o, müstəqilliyin çətin, əzablı, əziyyətli yollarına qədəm qoymuş millətimizin, xalqımızın, respublikamızın ilkin ordenidir.

Mükafatların kiçiyi-böyüyü olmur. Mükafat mükafatdır. Ona görə də mən Sizə çox təşəkkür edirəm. Demək istəyirəm ki, mükafatlar xalqın səxavət xəzinəsindən bizə verilən ənam və ərməğanlardır. Biz nə qədər sağıqsa, bu ərməğanları özümüzlə gəzdiririk. Bizdən sonra isə bu ərməğanlar xalqın şöhrət müzeylərində qorunub saxlanır.

Mən vaxtilə «Mükafat» adlı bir şeir yazmışam. İstəyirəm ki, həmin şeirdən bir-iki misra deməklə çıxışımı bitirim:

O gün ki, qovuşduq sözlə, sənətlə,
Nəslə də, əsrə də səs verən bizik.
Biz onu gəzdirək böyük hörmətlə,
Mükafat xalqındır, gəzdirən bizik.

Çox sağ olun, minnətdaram.

H e y d ə r Ə l i y e v: Mərhum xalq yazıçısı Yusif Səmədoğlunun təltif olunduğu ordeni yazıçının qızı Mehriban Vəkilovaya və qardaşı Vaqif Vəkilova təqdim edirəm.

V a q i f V ə k i l o v: Hörmətli prezident!

Siz də, yəqin, biz hamımız da çox istəyirdik ki, bugünkü təntənəli mərasimdə Yusifin özü iştirak etsin. Bunun üçün hamımız, ilk növbədə

Siz əlinizdən gələni əsirgəmədiniz. Fəqət, həyatın yenilməz qanunları vardır. Mehribanla mənim burada iştirakımız bu təntənəli mərasimə bir az kədər çaları verdiyi üçün bizi üzrlü hesab edin.

Hörmətli prezident, Yusif Səmədoğlu ailəsinin təşəkkürünü Mehribanla məndən qəbul edin. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Xalq artisti Qədir Rüstəmova «Şöhrət» ordenini təqdim edərək, təbrik edirəm. Necəsən? Bəlkə bir oxuyasan.

Q ə d i r R ü s t ə m o v: Cənab prezident, Allah Sizin canınızı sağ etsin. Mən gecə-gündüz Sizə Allahdan dua edirəm. Çox sağ olun ki, mənə minik maşını da vermisiniz. İstəyirəm Bəxtiyar müəllimin sözlərinə yazılmış bir mahnını oxuyum…

H e y d ə r Ə l i y e v: Mərhum alim İbrahim Səfərovun təltif olunduğu «Şöhrət» ordenini onun oğlu İbrahim Səfərova təqdim edirəm.

Akademik Böyükkişi Ağayevə yüksək mükafatı təqdim edir və onu bu münasibətlə təbrik edərək cansağlığı arzu edirəm. Çox məmnunam ki, xeyirxah işini davam etdirirsən, insanları sağaldırsan.

B ö y ü k k i ş i A ğ a y e v: Hörmətli cənab prezident!

Bu gün burada olmaqdan və Sizinlə görüşməkdən böyük sevinc hissi duyuram və özümü xoşbəxt hiss edirəm.

Keçmiş illərdə respublikanın rəhbəri və müstəqil Azərbaycanın prezidenti kimi Siz daim mənim elmi, pedaqoji, praktik fəaliyyətimə çox diqqət yetirmisiniz. Ölkənin çox yüksək mükafatını dünyanın tanınmış və müdrik bir şəxsiyyətindən, respublikamızın sevimli prezidentindən almaq mənim qəlbimdə Sizə minnətdarlıq və böyük fərəh hissi doğurur. Bu, mənim həyatımda birinci mükafatdır. Çox sevinirəm ki, onu müstəqil Azərbaycanın prezidenti cənab Heydər Əliyev mənə təqdim etdi. Bu, mənim üçün çox böyük şərəfdir. Mən onu həyatımın böyük mənası sayıram.

Respublikamızın bir vətəndaşı, öz ömrünü, sənətini, səyini xalqın səhhətinə sərf edən bir həkim kimi mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, Sizin həyatınız səadətlə, xoşbəxtliklə dolu olsun. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Xalq artisti Həsən Məmmədova «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edirəm. Cansağlığı, kinoda da, səhnədə də yeni yaradıcılıq uğurları arzulayıram.

H ə s ə n M ə m m ə d o v: Möhtərəm prezident!

Azərbaycanın kino, teatr sənəti sahəsindəki əməyimə layiqli qiymət verdiyinizə, məni ölkəmizin ali «Şöhrət» ordeni ilə təltif etdiyinizə görə

Sizə öz səmimi təşəkkürümü bildirirəm. Eyni zamanda bunu Azərbaycan kino, teatr sənətinə, mədəniyyətinə Sizin verdiyiniz qiymət kimi qəbul edirəm.

Biz – elm və incəsənət xadimləri, ziyalılar 1969-cu ildə hakimiyyətə ilk gəlişinizdən bu günə kimi həmişə Sizin diqqət və qayğınızı hiss etmişik. Azərbaycan mədəniyyəti 30 ildən çoxdur ki, öz layiqli yerini tutmuş və sərhədlərimizdən çox uzaqlarda tanınmışdır. Bu, məhz Sizin zəhmətiniz sayəsində mümkün olmuşdur.

Bildiyimiz kimi, 1988-ci ildən sonra ölkəmizdə baş verən bəzi olaylar və qarışıqlıqlar xalqımıza, mədəniyyətimizə çox böyük zərbə vurubdur. Amma sevindirici haldır ki, böyük Azərbaycan xalqının istəyi ilə 1993-cü ilin iyununda respublikada yenidən hakimiyyətə gəlişinizdən sonra bu geridəqalmalar Sizin diqqət və qayğınız sayəsində aradan götürüldü. Biz bunu heç vaxt unutmarıq. Sizin diqqət və qayğınız sayəsində biz bunu həmişə hiss edirik və bundan sonra da hiss edəcəyik. Biz bu yolda bundan sonra da çalışacağıq və özümüzü doğruldacağıq.

Cənab prezident, Azərbaycan mədəniyyətinə, incəsənətinə və mənə verdiyiniz bu yüksək qiymətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın müstəqilliyi, dirçəlişi, bütövlüyü, qurtuluşu uğrunda apardığınız müqəddəs mübarizədə Sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

Heydər Əliyev: Xalq artisti rejissor Rasim Ocaqovu yüksək mükafat alması münasibətilə təbrik edirəm, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sən gözəl filmlər yaratmısan, inanıram ki, bundan sonra da yeni filmlər çəkəcəksən.

Rasim Ocaqov: Hörmətli və əziz prezident!

Mənim üçün çox əziz olan bu gündə bir neçə kəlmə demək istəyirəm. Hamı bilir, amma bir daha qeyd etmək istəyirəm ki, Siz Azərbaycan kinosuna həmişə böyük diqqət yetirmisiniz. Vallah, Siz hakimiyyətə gəlməsəydiniz, indinin özündə kino olmazdı. Çox sağ olun. Mənim yadımdan heç vaxt çıxmaz, Siz məni 1980-ci ildə «Ad günü» filminə görə Dövlət mükafatı laureatı, 1982-ci ildə Azərbaycanın xalq artisti adına layiq gördünüz. Biz yaxşı başa düşürük ki, Sizin qayğınız olmasaydı «İstintaq» filmi heç vaxt ekranlara çıxa bilməzdi, biz SSRİ Dövlət mükafatı almazdıq.

Cənab prezident, mən və Azərbaycanın bütün kino işçiləri bütün bunlara görə minnətdarıq və ömrümüz boyu Sizə borcluyuq. Çox sağ olun. Allah Sizə uzun ömür, cansağlığı versin. Sağ olun.

Heydər Əliyev: Xalq artisti Gülxar Həsənovanı orden alması münasibətilə təbrik edirəm.

Gülxar xanım, Sizə cansağlığı, uzun ömür arzulayıram. Burada təltif olunanların əksəriyyəti bu mükafatları gözləyiblər. Amma Siz gözləməmisiniz, Siz təltif olunan kimi bu mükafatı alırsınız. Onlardan Sizin fərqiniz bundan ibarətdir.

G ü l x a r H ə s ə n o v a: Əziz prezident!

Mən bu gün çox sevinirəm ki, bütün sahələr üzrə sənət adamlarımız fərəh içərisindədirlər.

Əziz, sevimli, möhtərəm prezidentimiz!

Şəxsən mən bu mükafatı gözlənilmədən aldığıma görə sevinirəm. Mən sovet dövründə çox ordenlər, medallar, adlar almışam. Amma nəticəsində bir şey görməmişəm. Bu gün mən artıq yaşa dolmuşam, necə deyərlər, «qocalıq-binəvalıq, kürkümə düşdü yamaqlıq». Bu qoca vaxtımda Siz məni yada salmısınız. Mən bunu unuda bilmərəm. Əvvəlki yüksək mükafatlarım qarşısında Sizin bu gün mənə təqdim etdiyiniz bu orden qəlbimdə, ürəyimdə onların hamısından üstün yer tutubdur.

Mənim çoxlu tələbələrim vardır. Onlardan biri hazırda Los-Ancelesdə yaşayır. O, vaxtilə Bakıda Leyli, Əsli obrazlarını ifa edibdir. O, mənim oğlumun dəfnində Bakıya gəlmişdi. Sizin haqqınızda onun danışdığı sözlər məni çox sevindirdi. Demək istəyirəm ki, Siz Azərbaycanı bütün dünyada tanıtmısınız. Mən inanıram ki, Siz təbiətin, Allahın yetirdiyi yeganə şəxsiyyətsiniz. Mən Sizin kimi ikinci şəxsiyyətin olacağını hiss etmirəm. Çünki buna qabiliyyət, bilik, dözüm lazımdır. Siz hər şeyə – yaxşıya da, yamana da dözmüsünüz, öz işinizi görmüsünüz.

Mən Üzeyir bəyin, Müslüm Maqomayevin əsərləriylə tanındığıma, sevildiyimə görə vaxtilə çox qiymətlər almışam. Amma yenə də deyirəm, bugünkü qiymət onlardan çox yüksəkdir. Televiziyada Sizin çıxışlarınızı verəndə mən bütün işlərimi kənara qoyub Sizə qulaq asıram. Sizin yaddaşınız, biliyiniz həqiqətən Allahın vergisidir.

Mən arzu edirəm ki, o bilik, ağıl, düşüncə ömrünüzün axırınadək Sizdə möhkəm olsun və Siz gələcək nəsilləri də sevindirəsiniz.

Heydər müəllim, ona görə sevinmirəm ki, mən gec də olsa buraya gəlmişəm. Mən gec-tez buraya gələcəkdim. Ancaq müəyyən səbəblərdən belə olubdur. Mənim Sizə deyəcək çox sözlərim vardır. Amma onları burada deyə bilmərəm, ayrıca bir vaxtda deyəcəyəm.

Sizə minnətdaram. Sizə uzun ömür, cansağlığı arzulayıram. Gün o gün olsun ki, Sizin köməyinizlə Qarabağ torpaqları düşməndən azad edilsin. Biz maddi, mənəvi cəhətdən Sizdən həmişə kömək görmüşük. O gün olsun ki, biz incəsənət işçiləri gedib, düşməndən azad olunmuş Qarabağ

bölgəsində çıxışlar edək. Yetirdiyim, yaxşı adlar almış yüzlərlə tələbələrim hamısı, mən Sizi hər yerdə daha gözəl, daha yaxşı qarşılayaq.

Cənab prezident, Sizə uzun ömür, cansağlığı arzulayıram.*

YÜKSƏK MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanın Dövlət mükafatları almağınız münasibətilə bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, uzun ömür, yeni müvəffəqiyyətlər, yeni yaradıcılıq uğurları arzulayıram.

Bu gün dövlət mükafatlarını alanlar Azərbaycanın mötəbər insanlarıdır. İndi müstəqil Azərbaycanın dövlət mükafatları əksərən ölkəmizin elm, mədəniyyət, incəsənət xadimlərinə təqdim olunur. Bu da təbiidir. Çünki bizim xalqımız həmişə elmi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti yüksək qiymətləndirmişdir. İnsan həyatının, insan fəaliyyətinin bu sahəsi bütün dövrlərdə cəmiyyətə, ölkəyə, dövlətə, hər bir insana çox bəhrələr vermişdir.

Biz fəxr edirik ki, Azərbaycanın zəngin mədəniyyəti var, zəngin elmi var, zəngin incəsənəti, musiqisi vardır. Bunu da yaradanlar yüksək istedada malik olan adamlardır, fitri istedada malik olan adamlardır, eyni zamanda fədakar insanlardır. Siz məhz belə insanlarsınız.

Bu gün təltif olunanların əksəriyyəti yaşlı nəslə mənsubdur. Hər birinizin həyatı böyük bir tarixdir. Hər birinizin çiyinlərinin arxasında böyük iz var, böyük yol var. Hər biriniz öz əsərlərinizlə, öz ictimai-siyasi fəaliyyətinizlə Azərbaycanın inkişafına xidmətlərinizi göstərmisiniz və bu xidmətləri də xalq həmişə qiymətləndiribdir. Bu dövlət mükafatları müstəqil Azərbaycanın dövlət rəmzidir, dövlətçilik rəmzidir və eyni zamanda xalqın, ictimaiyyətin sizin əməyinizə, zəhmətinizə, sizin yaradıcılığınıza, əsərlərinizə verdiyi ümumi qiymətin mücəssəməsidir.

---

* Azərbaycan prezidenti Heydər Əliyev daha sonra "Azərbaycan" qəzetinin baş redaktoru Əmir Mustafayevə, məşhur idmançılar Namiq Abdullayevə, Ağayar Axundzadəyə, Natiq Eyvazova, Zemfira Meftahəddinovaya, Ceyhun Məmmədova, Aynur Sofiyevaya, Rövşən Hüseynova, Sabir Hüseynova, Zülfiyyə Hüseynovaya "Tərəqqi" medallarını təqdim etdi.

Siz xoşbəxt adamlarsınız, çünki yaradıcısınız – əsərlər yaratmısınız və bu gün də yaradırsınız, gələcəkdə də yaradacaqsınız. Sizin əsərləriniz xalqa fayda verir, bugünkü nəsillər və gələcək nəsillər üçün çox gərəklidir, əhəmiyyətlidir. Mən məmnunam ki, bu gün sizinlə bir daha görüşdüm, hər birinizin əlini sıxdım və müstəqil Azərbaycanın bu yüksək mükafatlarını sizə təqdim etdim. Mən şəxsən sizin hər birinizi çox yaxşı tanıyıram. Uzun illərdir ki, sizin fəaliyyətinizi, yaradıcılığınızı müşahidə edirəm, izləyirəm və bir azərbaycanlı kimi şəxsən bunu qiymətləndirirəm. Azərbaycanın prezidenti kimi isə mən bu cür fərmanların verilməsini və bu mərasimin keçirilməsini özümün şərəfli vəzifəm hesab edirəm.

Elm, mədəniyyət, incəsənət xadimləri ilə bərabər, burada gənc nəslin nümayəndələri də, idmançılar da bu gün Azərbaycanın dövlət mükafatlarını aldılar. Onlar da öz yüksək göstəriciləri ilə dünya miqyasında Azərbaycan idmanına uğurlar qazandırdıqlarına görə bu yüksək mükafatlara layiq olublar.

Ümumiyyətlə, bugünkü mərasim buraya toplaşanların hər birinin həyatında əlamətdar bir hadisə olduğu kimi, eyni zamanda bizim ictimai həyatımızda çox böyük bir hadisədir. Bu, onu göstərir ki, müstəqil Azərbaycanın dövləti öz vətəndaşlarının yüksək nailiyyətlərini layiqincə qiymətləndirə bilir. Bu da bizim müstəqilliyimizin, dövlətçiliyimizin gözəl göstəricisidir. Mən sizin hamınıza yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Hər birinizə cansağlığı, səadət və müstəqil Azərbaycanın bu günü, gələcəyi naminə əməli fəaliyyət arzulayıram.

Bu gün siz bu ordenləri, medalları alarkən bir xüsusiyyəti qeyd etdiniz ki, bu, müstəqil Azərbaycanın milli mükafatlarıdır. Bu, həqiqətən belədir. Sizlərin çoxunun burada qeyd etdiyiniz kimi, keçmiş illərdə də yüksək mükafatlara layiq olmusunuz. O mükafatlar da qiymətlidir, heç vaxt onları unutmaq lazım deyildir. Siz o mükafatları öz xalqınıza, vətəninizə, millətinizə xidmətə görə almısınız. Sizin yaratdığınız əsərlər, yaradıcılıq fəaliyyətiniz birinci növbədə Azərbaycanın elmini, mədəniyyətini, incəsənətini inkişaf etdiribdir. Azərbaycanın elmi, mədəniyyəti əsrlər boyu inkişaf edibdir və heç vaxt biz fərq qoymamışıq – hansı şair, hansı yazıçı, hansı musiqiçi, hansı alim bunu hansı dövlətin vaxtında yaradıbdır, hansı hökmdarın vaxtında yaradıbdır. Bunları biz heç vaxt araşdırmamışıq və araşdırmaq da lazım deyil. Çünki insan və xüsusən yaradıcı insan öz həyatı dövründə yaratdığını birinci növbədə öz xalqı üçün yaradır, öz vətəni üçün yaradır, öz milləti üçün yaradır, öz ölkəsi üçün yara-

dır. Əgər onun yaratdığı əsər öz ölkəsinin hüdudlarından kənara çıxırsa və başqa bir ölkə tərəfindən də qiymətləndirilirsə, buna sadəcə sevinmək lazımdır. Buna heç vaxt mənfi münasibət göstərmək lazım deyil.

Sizin keçmişdə aldığınız mükafatlar da, ordenlər də, medallar da qiymətlidir. Onların hər biri sizin həyatınızın, tərcümeyi-halınızın parlaq bir səhifəsidir. Ancaq bununla yanaşı, bu günü görmək – Azərbaycanın müstəqilliyini görmək, bu zamana qədər yaşamaq özü-özlüyündə böyük xoşbəxtlikdir. Müstəqil Azərbaycanın dövlət mükafatını almaq, şübhəsiz ki, hər bir insanda böyük iftixar hissi doğurur. Mən sizin hissiyyatlarınızı çox yaxşı anlayıram və mən özüm də məhz bu dövrü yüksək qiymətləndirirəm. Mən dəfələrlə demişəm, bu gün də deyirəm: bu dövr bizim üçün çox çətindir, çox ağırdır. Biz böyük çətinliklərdən keçib irəliyə gedirik. Ancaq tək bir müstəqilliyimizə görə hər bir şeyə dözməliyik. Çünki bu çətinliklər – bəzən maddi çətinliklər, sosial çətinliklər, hər bir insanın həyatında olan çətinliklər – bunlar keçicidir, müvəqqətidir.

Bəzən böyük müharibələr gedir, minlərlə, milyonlarla insanlar həlak olurlar. İstənilən qələbəyə nail olmaq üçün. Biz isə indi bu ağır dövrü yaşayırıq ona görə ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayırıq. Mən bir daha bildirmək istəyirəm ki, bu dövr, ola bilər, bir az çox olsun, ola bilər, az olsun, ancaq bu dövr keçici bir dövrdür. Biz bunu nə qədər çətin olsa da yaşamalıyıq və inanıram ki, yaşayacağıq. Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə! Mən əminəm ki, Azərbaycanın müstəqilliyi əbədi olacaqdır. Mən əminəm ki, biz bu müstəqilliyi qoruyub saxlaya biləcəyik və gələcək nəsillərə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdıracağıq.

Bütün bunlara görə də sizin bu mükafatlarınızın böyük əhəmiyyəti vardır. Mən inanıram ki, siz bu gün də, gələcəkdə də əmək fəaliyyətinizlə, yaradıcılığınızla, yeni-yeni əsərlərinizlə Azərbaycanın inkişafına öz xidmətlərinizi göstərəcəksiniz. Mən sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Sağ olun.

ÖZBƏKİSTANIN MƏŞHUR «YALLA» DÖVLƏT ƏMƏKDAR KAMERA–İNSTRUMENTAL ANSAMBLININ KONSERTİNDƏN SONRA YARADICI KOLLEKTİV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Respublika sarayı
12 dekabr 1998-ci il

H e y d ə r Ə l i y e v: Sizi, həmişəki kimi, yenə də gözəl çıxışlarınız münasibətilə təbrik edirəm. Sizin ansambl artıq çoxdan böyük şöhrətə malikdir və hesab edirəm ki, özbək xalqı, Özbəkistan qarşısında xidmətləriniz böyükdür. Bir çox illər ərzində siz özbək incəsənətini, musiqisini, mahnılarını bütün dünyada layiqincə təmsil etmisiniz. Sizi keçmiş Sovet İttifaqının bütün respublikalarında, o cümlədən Azərbaycanda həmişə sevmişlər, ancaq siz o illərdə də öz yaradıcılığınızla ittifaqın hüdudlarından kənara çıxır, bütün dünyada qastrollarda olurdunuz və böyük müvəffəqiyyət, böyük ad-san qazanmışdınız.

Görürsünüz ki, Azərbaycanda tamaşaçılar sizi çox yüksək qiymətləndirir, sevir və gözəl başa düşürlər. Belə münasibət təsadüfi deyil. Əvvəla, siz həmişə qiymətləndirilən yüksək sənəti bu gün yenə də təqdim etdiniz. İkincisi, sizin mahnılarınızda və musiqinizdə milli, özbəklərə xas xüsusiyyətlər, eyni zamanda ümumbəşəri xüsusiyyətlər var. Siz o illərdə də məhz bununla böyük müvəffəqiyyət qazanmışdınız ki, öz milli musiqinizi, milli mahnılarınızı ümumbəşəri musiqi və mahnılarla birləşdirməyə, onları dünyaya məharətlə təqdim etməyə müvəffəq olmusunuz. Siz yüksək dərəcəli ustalarsınız, keçmişdə gözəl oxuyurdunuz, bu gün də gözəl oxuyur, çıxış edirsiniz.

Bakıya gəlməyinizə şadam. Buna şad olan tək mən deyiləm. Bir baxın – salon tamaşaçılarla doludur, onlar sizi necə təntənəli, səmimi və hərarətlə qarşıladılar. Mən çox şadam. Azərbaycan prezidentinin seçkiləri ərəfəsində Bakıya gəlib İdman sarayında bu hadisəyə həsr olunmuş konsertlə çıxış etdiyinizə görə təşəkkür edirəm. Mən bunu çox yüksək qiymətləndirirəm. Bunu Azərbaycanda da, xüsusən mənə səs vermiş seçicilər də qiymətləndirirlər. Bir sözlə, Azərbaycan prezidentinin seçkilərində siz də iştirak etdiniz. Çox sağ olun.

Siz və Özbəkistanın, Azərbaycanın incəsənət xadimləri bir çox on illər ərzində ölkələrimizin incəsənət xadimləri arasında dostluq yaratmışlar. Bu dostluq bizim zəmanəmizdə, ölkələrimiz müstəqil, suveren dövlətlər olduğu dövrdə çox böyük rol oynayır. Özbəkistanla Azərbaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir. Biz eyni köklərə mənsubuq və onları, milli xüsusiyyətlərimizi, milli mənşəyimizi indi daha çox qiymətləndiririk. Bu, müstəqil, suveren dövlətlər kimi Özbəkistanın da, Azərbaycanın da yer üzündə möhkəm durması və mövcud olması üçün, onların müstəqillik və suverenliyini heç kimin poza bilməməsi üçün zəruridir.

Biz – dövlət xadimləri bunu edirik. Siz Özbəkistan prezidenti, dostum İslam Kərimovla mənim aramda böyük dostluq olduğunu bilirsiniz. Ona böyük hörmətim var, onu yüksək qiymətləndirirəm, çoxdan – Moskvada, Kremldə işlədiyim vaxtdan tanıyıram. Mən Özbəkistanı keçmişdən, 70-ci illərdən tanıyıram, onun faciəli illərinə, özbək xalqının ədalətsizliyə məruz qaldığı illərinə bələdəm. O illərdə, xüsusən təxminən 1984-cü, 1985-ci illərdən başlayaraq sovet rəhbərliyinin ayrı-ayrı xadimləri tərəfindən özbək xalqına qarşı böyük ədalətsizlik edilmişdi. O illərdə İslam Kərimovun Özbəkistanı bu vəziyyətdən çıxarmaq vəzifəsini öz üzərinə götürməsi, özbək xalqına yapışdırmaq istədikləri hər şeyi ata bilməsi böyük hünərdir, böyük nailiyyətdir. Buna görə də həmin vaxtdan mən İslam Kərimovu çox sevdim, çünki o öz xalqının şərəf və ləyaqətini qorudu, onu müdafiə etdi. Onun indi, müstəqillik illərində də Özbəkistanın müstəqilliyini möhkəmlətmək üçün çox işlər gördüyünü bilirəm. Hərçənd bu, heç də asan deyildir. Sizin bölgənizdə də, bizim bölgəmizdə də, Qafqazda da problemlər olduqca çoxdur. Lakin yenilməzlik, mərdlik və milli müstəqillik bu çətinlikləri aradan qaldıra bilməyimiz üçün ən mühüm keyfiyyətlərdir.

Bu gün mən sizi dinləyərkən Özbəkistan, özbək xalqı, Daşkənd və Özbəkistandakı dostlarım gözlərim qarşısına gəldilər. Mənim ən başlıca dostum isə İslam Kərimovdur. Xalqınıza, Özbəkistanın bütün incəsənət xadimlərinə, dostum İslam Kərimova salam yetirin. Bir daha təbrik edirəm.

Fərrux Zakirov *(ansamblın yaradıcısı və bədii rəhbəri, bəstəkar):* Cənab prezident, səmimi sözlərə görə, habelə konsertə gəldiyinizə görə Sizə təşəkkür edirik.

Bu, təkcə bizim ansambl üçün deyil, özbək mədəniyyəti, millətimiz üçün də böyük şərəfdir, mədəniyyətimizə, millətimizə hörmətdir. Əgər

seçkiqabağı kampaniyada öz iştirakımızla Sizin parlaq qələbənizə az-çox töhfə vermişiksə, biz xoşbəxtik. Qoy Allah Sizə, bizim prezidentimizə möhkəm cansağlığı versin və Siz xoşbəxtliyimiz naminə çox uzun ömür sürəsiniz.

Bu gün biz bir daha yəqin etdik ki, tez-tez görüşməliyik. Diqqətinizə görə çox sağ olun.

H e y d ə r Ə l i y e v: Bilirsiniz, mən məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda Özbəkistan səfirliyi fəaliyyət göstərir və onların respublikamızda işləməsini mühüm amil hesab edirəm. Özbəkistanda isə ölkəmizin səfiri, dövlətlərimiz arasında gözəl, səmimi münasibətlər var, başlıcası isə ölkələrimiz müstəqildir.

Ə b d ü q a f a r Ə b d ü r ə h m a n o v: *(Özbəkistanın Azərbaycandakı səfiri):* Cənab prezident, onu da bildirirəm ki, «Yalla» ansamblı dekabrın 14-də Sumqayıtda xeyriyyə konserti verəcəkdir. Fürsətdən istifadə edərək, konsertə sponsorluq yardımına görə «Azəravtonəqliyyat» Dövlət Konserninə böyük təşəkkürümü bildirirəm.

H e y d ə r Ə l i y e v: «Yalla» ansamblının bütün üzvlərini bir daha təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı və firavanlıq arzulayıram. Sağ olun.

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

Bakı, teleteatr
13 dekabr 1998-ci il

Əziz uşaqlar, balalar, qızlar, oğlanlar!

Mən sizi bu gün münasibətilə – uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanın bütün uşaqlarına şən həyat, səadət və xoşbəxt gələcək arzulayıram.

Uşaqlar hər bir insanın sevincidir. Uşaqlar həmişə insanları sevindirib, qəmdən, kədərdən, faciədən xilas etməyə yardım ediblər. Hər bir insan öz həyatının mənasını və gələcəyini uşaqlarda görür. Uşaqlar hər bir ailəyə xoşbəxtlik bəxş edir. Uşaqlar cəmiyyətin gülüdür, çiçəyidir. Uşaqlar hamımızın həm bu günüdür, həm də gələcəyidir.

Mən hər bir insan kimi, uşaqları hədsiz dərəcədə sevirəm. Öz övladlarımı sevirəm, nəvələrimi sevirəm, bütün uşaqları sevirəm, bütün Azərbaycan uşaqlarını sevirəm, əziz balalar, sizi sevirəm. Mən bu sözlərimlə Azərbaycandakı bütün sağlam düşüncəli insanların fikrini ifadə edirəm. Hesab edirəm ki, hər bir sağlam düşüncəli insan uşağı sevməlidir, uşağa qayğı göstərməlidir, uşaqların yaşaması üçün, onların təhsil alması üçün, inkişafı üçün öz xidmətlərini göstərməlidir.

Biz Azərbaycanda çətin problemlərin olmasına baxmayaraq uşaqlara qayğını, diqqəti özümüzün ali vəzifəmiz hesab edirik və güman edirəm ki, son illərdə Azərbaycanda uşaqların yaşayış tərzi, məktəblərdə təhsil alması və özlərinin inkişaf etməsi üçün daha da yaxşı imkanlar yaranıbdır. Bunu elə bu televiziya verilişlərində də görürük. Bu gün Azərbaycanın televiziyası və radiosu – Dövlət Televiziya və Radio Verilişləri Şirkəti tamamilə uşaqların sərəncamına verilibdir. Ancaq bir bu gün deyildir. Azərbaycanın dövlət televiziyası və radiosu daim uşaqlara aid verilişlər verir, uşaqların istedadlarını televiziya və radio vasitəsilə təbliğ edir, beləliklə də hər bir uşaqda öz istedadını inkişaf etdirmək üçün imkanlar yaradır. Bu, Azərbaycan dövlət televiziya və radiosunun böyük

xidmətidir. Ancaq təkcə televiziya və radioda yox, Azərbaycanda hər bir yerdə uşaqlara diqqət və qayğı daim artmalıdır.

Siz bu gün iki saatdan çoxdur ki, Azərbaycan televiziyası və radiosu ilə öz verilişinizi verirsiniz, öz istedadlarınızı nümayiş etdirirsiniz. Güman edirəm ki, bütün televiziya tamaşaçılarını, öz validenylərinizi və hər bir insanı sevindirirsiniz. Mən hesab edirəm ki, televiziya və radio vasitəsilə sizin bugünkü verilişiniz Azərbaycan televiziyası və radiosunda ən gözəl verilişdir.

Azərbaycanın böyük söz ustaları var, şairləri, yazıçıları, incəsənət xadimləri, müsiqiçiləri, müğənniləri, rəqs oynayanları var. Bizim gözəl sənətkarlarımız var. Onların hər birinin televiziya və radio vasitəsilə çıxışları bizi sevindirir, bizə mənəvi qida verir və şübhəsiz ki, böyük zövq verir, insanların şənlənməsi üçün, istirahət etməsi üçün çox gözəl imkanlar yaradır. Biz onların hamısını qiymətləndiririk. Ancaq mən öz təəssüratımı deyirəm, – hansı mərasimdə, hansı konsertdə uşaqlar çıxış edirsə, öz istedadlarını göstərirsə, onların çıxışları tamaşaçılara, dinləyicilərə bütün tanınmış sənət ustalarının çıxışlarından daha da çox təsir bağışlayır. Eləcə də televiziya ilə. Bu təbiidir. Çünki böyük sənət ustası, peşəkar incəsənət xadimi öz istedadını, öz sənətini nümayiş etdirmək üçün böyük bir yol keçibdir. Ancaq 5-6 yaşında, yaxud da 10-12 yaşında uşaq bir mahnı oxuyursa, rəqs edirsə, gözəl bir şeiri istedadla, həvəslə oxuyursa, bu, daha da çox sevindirir. Çünki burada nə hazırlıq var, nə uşaq böyük bir məktəb keçibdir. Sadəcə olaraq, uşaq öz istedadını ifadə edir. İstedadlar da Azərbaycanda çoxdur. Elə bu gün biz burada nə qədər istedadlı uşaqlar görürük.

Mən televiziya vasitəsilə də sizin verilişi seyr etdim və burada olduğum zaman da görürəm. Nə gözəl oxuyursunuz, oynayırsınız, bədii söz ifadə edirsiniz, şeir deyirsiniz! Nə qədər istedadlısınız! Mən indi balaca uşaqların Azərbaycan rəqsini gözəl ifa etmələrini görərkən bəzən düşünürəm. Bəzən bayram olur, mərasim olur. Kimsə kimisə rəqsə dəvət edir, getmək istəmir, ancaq sonra gedir, rəqs edir. Görürsən ki, o qədər də yaxşı rəqs etmir. Amma bu uşaqlar ki var, burada rəqs edirdilər, – necə gözəl, məğrur, yüksək sənətə layiq rəqs edirdilər. Oğlanlar da, qızlar da – gözəl oxuyursunuz, gözəl oynayırsınız, gözəl sözlər deyirsiniz. Bunlar onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı xalqdır.

Mən gənc istedadlarla əlaqədar sərəncam vermişəm və «qızıl kitab» yaratmışam. Ancaq Azərbaycanda bu istedadlar o qədər çoxdur ki, yəqin bu kitab qısa müddətdə bir neçə cildə çevriləcəkdir. İstedadlı

uşaqların adlarının çoxu ora düşəcəkdir. Mən onları bu gün burada da görürəm.

Mən çox sevinirəm ki, uşaqlar xoş əhval-ruhiyyədədir. Biz bu gün onları televiziya vasitəsilə burada görürük. Bu, cəmiyyətimiz üçün lazımdır. Çünki böyük problemlər içərisində yaşayan cəmiyyət, yaşlı insanlar öz çətinliklərinin öhdəsindən gəlmək üçün uşaqlardan ilham alırlar, uşaqları görüb təsəlli alırlar ki, uşaqlar var, gələcək var. Azərbaycanın gələcəyi də parlaqdır.

Əziz balalar, mən sizin hamınıza xoşbəxt gələcək arzulayıram. Biz, yaşlı nəsil, çalışırıq ki, müstəqil Azərbaycan inkişaf etsin, öz iqtisadi potensialını hərəkətə gətirsin. Biz çalışırıq ki, Azərbaycanda insanların güzəranı yaxşılaşsın, rifah halı yaxşılaşsın. Biz çalışırıq ki, müstəqil Azərbaycanımız müstəqil dövlət kimi möhkəmlənsin və Azərbaycanın müstəqilliyi əbədi olsun. Biz çalışırıq ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin və Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan didərgin düşmüş, indi çadırlarda yaşayan bizim soydaşlarımız öz evlərinə, öz torpaqlarına qayıtsınlar. Biz çalışırıq ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin və əbədi olaraq toxunulmaz olsun.

Biz bunlar üçün çalışırıq. Bunlar üçün çalışaraq biz sizə gələcəkdə daha da rahat həyat qurmaq istəyirik. Biz istəyirik ki, bizim gördüyümüz çətinlikləri, bizim gördüyümüz faciələri, bizim gördüyümüz qanları, dəhşətləri siz, əziz balalar, görməyəsiniz. Biz bunun üçün çalışırıq. Əmin ola bilərsiniz ki, bu yolda biz sona qədər öz imkanlarımızdan istifadə edəcəyik. İnanıram ki, biz buna nail olacağıq.

Sizin isə borcunuz ondan ibarətdir ki, yaxşı oxuyasınız, yaxşı təhsil alasınız, həyatda gələcəkdə özünüzə yer tapmaq üçün hazırlaşasınız, öz istedadlarınızdan səmərəli istifadə edə biləsiniz və Azərbaycanın gələcəyinin qurucuları olasınız. Mən inanıram ki, indiki gənclər, indiki uşaqlar bizim nəsillərdən də qabiliyyətlidir, istedadlıdır. Mən inanıram ki, Azərbaycanın bugünkü gəncləri, bugünkü uşaqları Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcəklər. Biz bunun təməlini qoyuruq, əsasını qoyuruq. Siz isə gələcəkdə bunları qurub yaratmalısınız, inkişaf etdirməlisiniz. Sizin daim nümayiş etdirdiyiniz istedadlar, sizin biliyə, təhsilə marağınız, həyatımızın bu çətin dövründə məktəblərimizdə təhsilin günü-gündən yaxşılaşması, məktəblərdə gənc istedadların müxtəlif dərnəklərə cəlb edilməsi və belə gözəl nümunələr hazırlanması onu göstərir ki, həqiqətən bizim uşaqlar, bizim gənclər xoşbəxt gələcəyə malikdirlər.

Əziz balalar, mən sizə öz hədsiz məhəbbətimi bildirirəm. Mən öz övladlarımı, öz nəvələrimi sevdiyim kimi, sizin hər birinizi sevirəm. Mən heç ayrı-seçkilik qoymuram.

Mən Azərbaycanın prezidenti kimi, böyük tarixi bir missiyanı həyata keçirirəm, öz üzərimə böyük məsuliyyət götürmüşəm: mən bütün Azərbaycan xalqının qayğısını çəkirəm, Azərbaycan vətəndaşlarının qayğısını çəkirəm, Azərbaycan dövlətinin qayğısını çəkirəm. Belə olan halda mənim üçün Azərbaycanın hər bir vətəndaşı doğmadır, əzizdir. Azərbaycanın hər bir gənci mənim üçün öz övladım kimi doğmadır, əzizdir. Azərbaycanın hər bir uşağı mənim üçün öz nəvəm kimi əzizdir, doğmadır.

Siz uşaqlar çox vaxt mənə «baba» deyirsiniz. Mən həqiqətən həyatda babayam. Ancaq kimsə mənə «baba» deyirsə, bilsin ki, mən onun da babasıyam. Mən sizi – Azərbaycanın bütün uşaqlarını, bütün gənclərini həqiqətən ata, baba məhəbbəti ilə sevirəm və bu sevgi ilə, bu məhəbbətlə də sizin hamınıza cansağlığı, səadət arzulayıram. Sağ olun.

ŞAİR ZƏLİMXAN YAQUBUN YARADICILIĞINA HƏSR OLUNMUŞ POEZİYA MƏCLİSİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCANIN İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Respublika sarayı
19 dekabr 1998-ci il

Axşamınız xeyir olsun. Mən sevimli şairimiz Zəlimxan Yaqubu orada təbrik etdim. Ancaq bilmirdim ki, siz buradasınız. Sizi bir daha təbrik edirəm. Azərbaycanın gənc, amma çox istedadlı şairi Zəlimxan Yaqubun özünəməxsus şeirləri, özünəməxsus xüsusiyyətləri vardır. Zəlimxan Yaqubun çox da gözəl istedadı var. Biz bunu bu gün bir daha gördük. Bu gün bizim alimlər bunu burada qeyd etdilər.

Şair olmaq üçün, şübhəsiz ki, fitri istedad lazımdır. Ancaq eyni zamanda, şair olmaq üçün vətənə, xalqa, torpağa bağlılıq lazımdır, sevgi-məhəbbət lazımdır və şair olmaq üçün sevgi lazımdır. Həm insanı sevmək lazımdır, həm xalqını sevmək lazımdır, millətini sevmək lazımdır, həm atanı, ananı, babanı, nənəni sevmək lazımdır, həm də ki, gözəl bir qadını da sevmək lazımdır. Şairlərin çoxunu şair edən elə bu sevgi-məhəbbət olubdur. Hər halda bunlar hamısı bizə ədəbiyyatdan, tarixdən məlumdur. İndi mən istəmirəm araşdırım, bizim Zəlimxanın həyatında bu nə cür olubdur.

Hər bir şair Azərbaycan üçün dəyərli bir şəxsiyyətdir. Azərbaycan xalqı bütün tarix boyu şairlərlə zəngin olubdur. Bizim xalqımız başqa xalqlardan elə bununla çox fərqlənir. Bizim dahi şairlərimiz, söz ustalarımız həmişə xalqımıza mənəvi qida veriblər, xalqımızı ruhlandırıblar, xalqımızı həvəsləndiriblər, xalqımızı döyüşə həvəsləndiriblər, xalqımızı zəhmətə həvəsləndiriblər, xalqımızı vətəni sevməyə həvəsləndiriblər, şair sözü çox təsirli olur. Şeirlə deyilən sözün təsiri bütün başqa sözlərin hamısından təsirli olur. Ona görə də şair Azərbaycanda həmişə sevilib, şair həmişə hörmətli olubdur. Bu gün də sevilir, bu gün də hörmətlidir.

Fəxr edirik ki,bizim böyük şairlərimiz keçən əsrlərdə də olubdur, XX əsrdə də böyük şairlərimiz olub və bu gün də böyük şairlərimiz var-

dır. Biz fəxr edirik ki, şairlər nəsli kəsilmir, davam edir. Nəsildən-nəslə keçən bu istedad, bu şeir sənəti bizim mədəniyyətimizi, xalqımızın mənəviyyatını həmişə zənginləşdirir. Bu baxımdan Zəlimxan Yaqub bizim bu son illərdə çox üzə çıxmış, xalq tərəfindən sevilmiş və öz şeiri ilə, sözü ilə, öz fəaliyyəti ilə böyük hörmət qazanmış şairdir. Bugünkü şeir gecəsi də, poeziya məclisi də bunu bir daha sübut etdi.

Zəlimxan Yaqubun xüsusiyyətlərindən biri də odur ki, onun çox gözəl yaddaşı vardır. Bəli, bu, hər şairə nəsib olmur, hər şairə məxsus deyildir. Şair var ki, çox gözəl şeir yazır, amma onu kağıza yazandan sonra oxuyur. O da günah deyil. O da olmalıdır, bu da olmalıdır. Hərənin bir üslubu vardır. Ancaq Zəlimxanın bu barədə xüsusiyyəti bir də ondan ibarətdir ki, çox gözəl yaddaşı var. Öz yazdığı şeirləri də həmişə çox gözəl yadında saxlayıb söyləyir, deyir, oxuyur. Ancaq başqa şairlərin şeirlərini də insanlara çox gözəl çatdırır, cəmiyyətə çatdırır. Bunun özü böyük bir məharətdir. Bizim aktyorlarımızın, söz ustalarımızın ən gözəl xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, şairlərimizin yazdığı şeirləri aktyorluq sənətinin xüsusiyyətləri ilə insanlara çatdırırlar. Ancaq Zəlimxan üçün buna ehtiyac yoxdur. Bəlkə də özü yazdığı şeirlərin, sözlərin buna o qədər ehtiyacı yoxdur – özünün beynindən, özünün qəlbindən, özünün içindən gələn şeirləri gözəl bir sənət ustası kimi, söz ustası kimi, gözəl bir aktyor kimi özü də ifadə edir. Bu xüsusiyyət də indiki gecədə aydın göründü.

Bütün bunlarla əlaqədar, hörmətli Zəlimxan, mən səni ürəkdən təbrik edirəm. Sənə yeni yaradıcılıq uğurları arzulayıram. Bu gün sənինlə bərabər Azərbaycanın bu gözəl səhnəsində sənin şeirlərini və eyni zamanda öz sənətini nümayiş etdirən bizim bütün incəsənət xadimlərinə, xüsusən xalq incəsənətimizi yaşadan aşıqlarımıza təşəkkür edirəm və sizin hamınızı təbrik edirəm. Hamınıza cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

Z ə l i m x a n Y a q u b: Möhtərəm prezident, icazənizlə, Sizə və bu gün burada iştirak edən bütün əzizlərimizə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edib, bir sözü deməyi özümə borc bilirəm. Bu gün burada olan kollektivlərin hamısına öz təşəkkürümü bildirirəm. Ancaq aşıq sənətinin klassik nümayəndəsi Aşıq Kamandar Borçalıdan gəlibdir. O, sənətin böyük ustadıdır. Məsələn, Azərbaycanda Xan deyiləndə nəyi təsəvvür ediriksə, Borçalıda Kamandar deyiləndə o cür qəbul olunur. Aşıq Kamandarın bu gün burada iştirakı, Sizin burada olmağınız bu məclisi bir neçə qat da təravətli etdi. Çünki Kamandar Borçalının burada bir parçasıdır, klassik dədələrimizin nümayəndəsidir.

Aşıq Kamandar Əfəndiyev: Cənab prezident, üzr istəyirəm, mən bu məclisə böyük həvəslə gəldim. Söz vermişdim ki, bu əziz gündə iştirak etməyə gələcəyəm.

Zəlimxan Yaqub: Cənab prezident, tarixi yaddaşımıza yazılan bütün bu mənzərəyə görə Sizə bir daha təşəkkür edirəm. Bütövlükdə nə arzular etmişik, qoy onların hamısı haqqın dərgahında qəbul olunsun.

Heydər Əliyev: Çox sağ ol. Amma bir fikrimi bildirmək istəyirəm. Sən deyirsən ki, Xan Azərbaycanda olduğu kimi, Kamandar da Borçalıdadır. Borçalı diyarı da azərbaycanlılar diyarıdır. Burada, yəni Azərbaycanda yaşayanlar Borçalını heç vaxt ayırmayıblar. Borçalı həmişə bizim qəlbimizdə olubdur. Xalqımızın da qəlbi belədir. Amma mənim qəlbimi götürsəniz, mən ömür boyu, həmişə Azərbaycanın bugünkü sərhədlərindən, hüdudlarından kənarda olan bütün azərbaycanlıların hamısını vahid Azərbaycanın birliyində görmüşəm, birliyində hiss etmişəm. Borçalı diyarına mən keçmiş illərdə – Azərbaycana rəhbərlik etdiyim zaman da həmişə qayğı göstərmişəm, həmişə onlara öz xidmətimi göstərmişəm. Bəlkə borçalıların çoxları bilmirlər ki, o illərdə – 70-ci illərdə orada onların yaşayışı üçün mən həm Gürcüstanın rəhbərliyi ilə, həm Moskvanın rəhbərliyi ilə nə qədər danışıqlar aparmışam, tələblərimi qoymuşam. Amma indi isə – Gürcüstan da müstəqil dövlət olduğu zaman, Azərbaycan da müstəqil dövlət olduğu zaman Gürcüstanla Azərbaycan arasındakı bu dostluq, səmimi qardaşlıq əlaqələri və mənimlə prezident Şevardnadzenin arasında olan əlaqələr birinci növbədə Gürcüstanda yaşayan azərbaycanlıların hüquqlarını qorumaq məqsədi daşıyır, azərbaycanlıların yaşayış tərzinin yaxşılaşdırılması məqsədi daşıyır. Gürcüstanda yaşayan azərbaycanlılar, borçalılar – hamısı əmin ola bilərlər ki, mən Azərbaycanın prezidenti kimi həmişə onlarlayam. Mənim əlim sizin üstünüzdədir.

Zəlimxan Yaqub: Cənab prezident, biz hamımız elə bilir və belə də qiymətləndiririk.

Aşıq Kamandar Əfəndiyev: Möhtərəm prezident, Sizə cansağlığı, uzun ömür arzulayıram.

XALQ ARTİSTİ TÜKƏZBAN İSMAYILOVAYA

Bakı şəhəri
21 dekabr 1998-ci il

Hörmətli Tükəzban İsmayılova!

Sizi – Azərbaycanın müsiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış böyük sənətkarlar nəslinə mənsubsunuz. Klassik muğam ifaçılığının zəngin ənənələrini qoruyub yaşadan, gözəl ifası ilə xalq mahnılarımıza yeni həyat verən sənətkar kimi xalqımızın dərin məhəbbətini qazanmısınız. Sizin ifanızda səslənmiş bir çox muğam və xalq mahnıları milli musiqi sənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Gözəl səsiniz və təkrarolunmaz ifa üslubunuz, musiqi sənətimizin incəliklərini dərindən bilməyiniz və böyük zəhmətsevərliyiniz Sizə muğam və xalq mahnılarımızın ifası sahəsində öz dəst-xətti ilə seçilən müğənni kimi şöhrət gətirmişdir. Milli musiqimizin təbliğində keçmiş böyük sənət yolunuz gənc ifaçılar nəsli üçün gözəl örnək, əsil məktəbdir.

Əminəm ki, xalqımızın musiqi xəzinəsi incilərinin mahir ifaçısı kimi sənətinizin pərəstişkarlarını bundan sonra da sevindirəcək və milli musiqi mədəniyyətimizin inkişafı yolunda var qüvvənizi, zəngin təcrübənizi əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

ŞƏHİD, QAÇQIN VƏ KÖÇKÜN UŞAQLARI, HABELƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN YENİ İL YOLKA ŞƏNLİYİNDƏ ÇIXIŞ

Bakı Əyləncə Mərkəzi
31 dekabr 1998-ci il

Əziz balalar, sevimli uşaqlar!

Siz öz varlığınızla, istedadınızla məni hər dəfə sevindirirsiniz. Uşaq hər insan üçün, hər ailə üçün, cəmiyyət üçün xoşbəxtlikdir. Uşaq həyata, cəmiyyətə, insanlara sevinc gətirir. Uşaq hər bir insanı yaşamağa, yaratmağa həvəsləndirir. Hər bir valideyn həyatda yaşayaraq, işləyərək, çalışaraq ilk növbədə qəlbində öz uşaqlarını, öz övladlarını düşünür, onları nəzərə alır və təsadüfi deyil ki, valideynlərin çoxu həmişə belə bir söz işlədirlər ki, mən uşaqlarım üçün yaşayıram. Uşaqlar üçün yaşamaq sözü hər bir valideynin öz uşaqlarına aiddirsə, eyni zamanda hər bir uşağa aiddir. Cəmiyyəti sizin nə qədər sevindirməyiniz, ona nə qədər ruh verməyiniz hədsiz-hüdudsuzdur.

Siz cəmiyyətin, ölkənin, millətin gülüsüz, çiçəyisiniz. İnsan cəmiyyəti daim inkişafdadır. Bu inkişafı təmin edən yeni-yeni nəsillərdir. Əziz balalar, əziz övladlar, siz XXI əsrin qurucularısınız, yaradıcılarısınız. Sizin üzərinizə gələcəkdə çox böyük məsuliyyət düşəcəkdir.

Ancaq bu gün mən sizi müşahidə edərək, sizin istedadınızı görərək, sizin yaşamaq, oynamaq, oxumaq, çalmaq, rəqs etmək istəyinizi, arzunuzu görərək inanıram ki, gələcəkdə siz öz üzərinizə düşəcək məsuliyyəti layiqincə yerinə yetirə biləcəksiniz.

Bu gün siz məni bir daha sevindirdiniz. Sizinlə hər dəfə görüş mənə ilham verir, mənə güc verir, mənə qüvvət verir, mənə yaşamaq-yaratmaq arzusu verir. Mən həyatda öz övladlarımı, öz nəvələrimi həmişə çox sevmişəm, indi də çox sevirəm. Elə buraya, sizin yanınıza nəvəm Leyla ilə gəlmişəm. Ancaq Azərbaycanın dövlət başçısı kimi, Azərbaycana on illərlə rəhbərlik etmiş bir şəxs kimi, mənim üçün Azərbaycanın hər bir uşağı mənim öz övladımdır, mənim uşağımdır, mənim nəvəmdir.

Bu gün mən sizi daha da istedadlı gördüm. Uşaq evində yaşamağın, oxumağın da öz xüsusiyyətləri var. Bəlkə də bu, ayrıca bir ailədə yaşamaqdan daha da qiymətlidir. Mən çox məmnunam ki, indi Azərbaycanda uşaq evlərində uşaqlara diqqət və qayğı artıbdır. Biz öz tərəfimizdən çalışmışıq ki, bu qayğını artıraq. Ancaq bu, təkcə bizdən asılı deyildir. Uşaq evlərində çalışan tərbiyəçilərdən, müəllimlərdən, xidmət göstərən insanlardan da asılıdır. Görürəm ki, onlar sədaqətlə xidmət edirlər. Əgər uşaqları sevməsən, bu xidməti etmək mümkün deyil. Bu bayram günü mən arzu edirəm ki, onlar uşaqları daim sevsinlər və uşaqlara daha da diqqətli olsunlar, uşaqlara daha da yaxşı baxsınlar, onları sağlam böyütsünlər.

Sizə isə, əziz uşaqlar, mənim arzum bundan ibarətdir ki, 1999-cu il sizin üçün daha da şən il olsun, daha da sevinclər gətirən il olsun, daha da arzularınızı yerinə yetirən il olsun. 1999-cu ildə sizin bir yaşınız da artacaqdır, siz daha da böyüyəcəksiniz. Həyata atılmaq üçün, sərbəst yaşamaq üçün bir addım da atacaqsınız. Arzu edirəm ki, sizin bu addımlarınız uğurlu olsun. Hamınıza cansağlığı arzu edirəm. Hamınıza bugünkü kimi xoş əhval-ruhiyyə, şən ovqat arzulayıram. Mən istəyirəm ki, həmişə belə sevinc içərisində olasınız. Həmişə belə şən olasınız, həmişə belə oxuyan, oynayan olasınız. Eyni zamanda dərslərinizi də yaxşı oxuyasınız, təhsilinizə də diqqət verəsiniz, gələcəyə daha da yaxşı hazırlaşasınız.

Mən sizi sevirəm, sizin hamınızı bağrıma basıram, sizi öpürəm, sizə gələcək sağlam, xoşbəxt, firavan həyat arzulayıram.

Yeni iliniz mübarək olsun, əziz balalar! Sağ olun!

KİTABIN İÇİNDƏKİLƏR

XALQ ŞAİRI QABİLİN ANADAN OLMASININ 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNİN RƏSMİ HİSSƏSİNDƏN VƏ KONŞERTDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
7 yanvar 1997-ci il *5*

M.QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
19 yanvar 1997-ci il *8*

ÜMUMXALQ HÜZN GÜNÜNƏ, ŞƏHİDLƏRİN ANILMASINA HƏSR OLUNMUŞ XATİRƏ GECƏSİ BAŞA ÇATDIQDAN SONRA ƏDƏBİ-BƏDİİ KOMPOZİSİYANIN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Respublika Sarayı, 20 yanvar 1997-ci il *19*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKA DÖVLƏT İNCƏSƏNƏT MUZEYİNİN ALBOM-KATALOQUNUN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAKI
25 yanvar 1997-ci il *21*

XALQ ARTİSTİ LEYLA XANIM VƏKİLOVAYA
Bakı şəhəri, 29 yanvar 1997-ci il *22*

GÖRKƏMLİ AZƏRBAYCAN BALERİNASI, XALQ ARTİSTİ, PROFESSOR LEYLA VƏKİLOVAYA HƏSR EDİLMİŞ TAMAŞAYA BAXDIQDAN SONRA BALETİN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
2 fevral 1997-ci il *23*

XALQ ARTİSTİ QƏDİR RÜSTƏMOVA
Bakı şəhəri, 14 fevral 1997-ci il *25*

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN EV-MUZEYİNDƏ ÇIXIŞ
6 mart 1997-ci il *26*

SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ DAĞISTANIN XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Prezident Sarayı, 7 mart 1997-ci il *29*

XALQ ŞAİRİ ŞƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ
Respublika Sarayı, 7 mart 1997-ci il *30*

BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ "SEVİL" AZƏRBAYCAN QADINLARI MƏCLİSİNİN TƏŞKİL ETDİYİ GÖRÜŞDƏ NİTQ
Rəşid Behbudov adına Mahnı Teatrı, 8 mart 1997-ci il *37*

XALQ ARTİSTİ LÜTFİ MƏMMƏDBƏYOVA
Bakı şəhəri, 13 mart 1997-ci il *40*

XALQ ŞAİRİ BALAŞ AZƏROĞLUNA
Bakı şəhəri, 17 mart 1997-ci il *41*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
Bakı şəhəri, 19 mart 1997-ci il *42*

AZƏRBAYCAN PREZİDENTİ TƏRƏFİNDƏN ŞƏHİD ÖVLADLARI YƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL EDİLMİŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ
"Gülüstan" Sarayı, 20 mart 1997-ci il *43*

BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞAQALA QAPILARI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ
21 mart 1997-ci il *43*

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV LEOPOLDOVİÇ ROSTROPOVİÇƏ
Bakı şəhəri, 27 mart 1997-ci il *52*

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DÖVLƏT TRETYAKOV QALEREYASININ KOLLEKSİYASINDAN İBARƏT SƏRGİDƏ ÇIXIŞ
R.Mustafayev adına İncəsənət Muzeyi, 1 aprel 1997-ci il.....54

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI, MƏRASİMİNDƏN SONRA ONUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ
Respublika Sarayı, 1 aprel 1997-ci il.....56

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ VAXTANQOV ADINA MOSKVA AKADEMİK TEATRININ SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRINDA D. KİLTİNİN "ƏZİZ YALANÇI" TAMAŞASI QURTARDIQDAN SONRA MOSKVALI QONAQLARLA SÖHBƏTDƏN
5 aprel 1997-ci il.....57

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN BAĞLANMASI MƏRASİMİNDƏN SONRA RUSİYA ARTİSTLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika Sarayı, 6 aprel 1997-ci il.....58

TÜRKİYƏNİN TANINMIŞ MÜĞƏNNİSİ ƏBRU GÜNDƏŞİN KONSERTİNDƏN SONRA AİLƏSİ İLƏ BİRLİKDƏ ONUNLA SÖHBƏTDƏN
Respublika Sarayı, 13 aprel 1997-ci il.....59

MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ "ELEGİYA" ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ
Bakı İncəsənət Mərkəzi, 15 aprel 1997-ci il.....60

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
Bakı şəhəri, 16 aprel 1997-ci il.....69

XALQ ARTİSTİ NƏSİBƏ XANIM ZEYNALOVAYA
Bakı şəhəri, 20 aprel 1997-ci il.....70

KALMIKİYANIN XALQ ŞAİRİ DAVİD KUQULTİNOVA
Bakı şəhəri, 21 aprel 1997-ci il.....71

AZƏRBAYCANIN XALQ ARTİSTİ
LYUDMİLA GEORGİYEVNA ZIKİNAYA
Bakı şəhəri, 26 aprel 1997-ci il.....72

MSTİSLAV ROSTROPOVİÇ, ONUN ZÖVCƏSİ
QALİNA VİŞNEVSKAYA VƏ AİLƏSİNİN
DİGƏR ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Prezident Sarayı, 29 aprel 1997-ci il.....73

MSTİSLAV ROSTROPOVİÇİN R.MUSTAFAYEV
ADINA İNCƏSƏNƏT MUZEYİNDƏ YUBİLEYİ
29 aprel 1997-ci il.....80

MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİK YUBİLEY
ŞƏNLİKLƏRİNƏ GƏLƏN KÜTLƏVİ İNFORMASİYA
VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT
Prezident Sarayı, 1 may 1997-ci il.....81

MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİYİNƏ HƏSR
OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ VƏ
KONSERT QURTARDIQDAN SONRA ÇIXIŞ
Respublika Sarayı, 2 may 1997-ci il.....103

İZMİRDƏ "BAKI PARKI"NIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
7 may 1997-ci il.....105

XALQ ARTİSTİ SARA XANIM QƏDİMOVAYA
Bakı şəhdri, 31 may 1997-ci il.....109

GÖRKƏMLİ MÜĞƏNNİ VƏ MUSİQİÇİ İOSİF KOBZONUN BAKIDA
"VİDA QASTROLU" ZAMANI ONUNLA SÖHBƏTDƏN
Respublika sarayı, 5 iyun 1997-ci il.....110

BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU SƏMƏD
VURĞUNUN "FƏRHAD VƏ ŞİRİN" PYESİNİN YENİ QURULUŞDA
TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ
GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, 7 iyun 1997-ci il.....113

XALQ ARTİSTİ FİDAN QASIMOVAYA
Bakı şəhəri, 17 iyun 1997-ci il *118*

XALQ ARTİSTİ CÖVDƏT HACIYEVƏ
Bakı şəhəri, 17 iyun 1997-ci il *119*

AMERİKADAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT CƏMİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
Çikaqo, 4 avqust 1997-ci il *120*

AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ
Bakı şəhəri, 17 avqust 1997-ci il *133*

XALQ ŞAİRİ MİRVARİD DİLBAZİYƏ
Bakı şəhəri, 18 avqust 1997-ci il *135*

DAHİ BƏSTƏKAR FRİDERİK ŞOPENİN MUZEYİ İLƏ TANIŞ OLDUQDAN VƏ ONUN ƏSƏRLƏRİNİN MAHİR İFAÇISI BEYNƏLXALQ MÜSABİQƏLƏR LAUREATI, 23 YAŞLI RAFAEL LUŞÇEVSKİYƏ TƏŞƏKKÜRÜNÜ BİLDİRDİKDƏN SONRA SÖYLƏNMİŞ SƏMİMİ MİNNƏTDARLIQ SÖZLƏRİNDƏN
Varşava, Ostroqski qəsri, 27 avqust 1997-ci il *136*

YUNESKO-NUN BAŞ DİREKTORU FEDERİKO MAYOR CƏNABLARINA
Bakı şəhəri, 3 sentyabr 1997-ci il *137*

İLYAS ƏFƏNDİYEVİN «HÖKMDAR VƏ QIZI» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Milli Dram Teatrı, 20 sentyabr 1997-ci il *140*

DAHİ AZƏRBAYCAN BƏSTƏKARI ÜZEYİR HACIBƏYOVUN «ARŞIN MAL ALAN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Akademik, Opera və Balet Teatrı, 21 sentyabr 1997-ci il *146*

RUSİYANIN VƏ AZƏRBAYCANIN XALQ ARTİSTİ, MÜASİR DÖVRÜN GÖRKƏMLİ MÜĞƏNNİSİ LYUDMİLA ZIKİNANIN KONSERTİNDƏN SONRA SƏHNƏ ARXASINDA ONUNLA GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ
Respublika sarayı, 4 oktyabr 1997-ci il *149*

AYBƏNİZ XANIM VƏKİLOVAYA
Bakı şəhəri, 8 oktyabr 1997-ci il *151*

MƏŞHUR MÜĞƏNNİ VƏ BƏSTƏKAR MÜSLÜM MAQOMAYEVİN YUBİLEY GECƏSİNDƏ NİTQ
Respublika sarayı, 17 oktyabr 1997-ci il *152*

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ YAŞLI NƏSİLDƏN OLAN YAZIÇILARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
Prezident sarayı, 28 oktyabr 1997-ci il *158*

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYI ƏRƏFƏSİNDƏ GƏNC NƏSİLDƏN OLAN YAZIÇI VƏ ŞAİRLƏRİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
Prezident sarayı, 29 oktyabr 1997-ci il *183*

AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYINDA NİTQ
Prezident sarayı, 30 oktyabr 1997-ci il *196*

M.F.AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT KİTABXANASINDA «AZƏRBAYCAN QAÇQINLARI» FOTOALBOMUNUN TƏQDİMATI MƏRASİMİNDƏ NİTQ
M.F.Axundov adına Respublika Kitabxanası, 5 noyabr 1997-ci il *226*

ƏLİLLƏRİN III RESPUBLİKA YARADICILIQ SƏRGİ-MÜSABİQƏSİNİN AÇILIŞINDA ÇIXIŞ
Tofiq İsmayılov adına Uşaq Yaradıcılığı Sarayının rəngkarlıq və tətbiqi sənət sərgisi salonu, 6 noyabr 1997-ci il *232*

XALQ ARTİSTİ TOFİQ QULİYEVƏ
Bakı şəhəri, 7 noyabr 1997-ci il *235*

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN «HARA GEDİR BU DÜNYA?!» PYESİNİN TAMAŞASINDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ
Azərbaycan Milli Dram Teatrı, 7 noyabr 1997-ci il.....236

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
Bakı şəhəri, 10 noyabr 1997-ci il 243

VOKALÇILARIN BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNƏ
Bakı şəhəri, 17 noyabr 1997-ci il.....244

GÖRKƏMLİ BƏSTƏKAR, AZƏRBAYCANIN XALQ ARTİSTİ TOFİQ QULİYEVİN 80 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

Respublika sarayı, 19 noyabr 1997-ci il 245

AMERİKADA NƏŞR EDİLƏN "AZƏRBAYCAN İNTERNƏŞNL" JURNALININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ
M.F.Axundov adına Respublika Kitabxanası, 20 noyabr 1997-ci il.....247

XALQ YAZIÇISI HÜSEYN ABBASZADƏYƏ
Bakı şəhəri, 22 noyabr 1997-ci il.....253

AZƏRBAYCAN YAZIÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
Bakı şəhəri, 24 noyabr 1997-ci il 254

VOKALÇILARIN PROFESSOR BÜLBÜL ADINA BİRİNCİ BEYNƏLXALQ MÜSABİQƏSİNİN QALİBLƏRİNƏ MÜKAFAT VƏ DİPLOMLARIN TƏQDİM EDİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Opera və Balet Teatrı, 1 dekabr 1997-ci il 255

ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
Bakı şəhəri, 2 dekabr 1997-ci il *256*

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ XADİMİ, PROFESSİONAL VOKAL SƏNƏTİMİZİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ MÜĞƏNNİNİN BAKIDAKI XATİRƏ EV-MUZEYİNDƏ ÇIXIŞ
3 dekabr 1997-ci il *257*

AZƏRBAYCAN PROFESSİONAL VOKAL SƏNƏTİNİN BANİSİ BÜLBÜLÜN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
Respublika sarayı, 3 dekabr 1997-ci il *260*

YAZIÇI ƏKRƏM ƏYLİSLİYƏ
Bakı şəhəri, 5 dekabr 1997-ci il *265*

XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ
Bakı şəhəri, 6 dekabr 1997-ci il *266*

BƏSTƏKAR EMİN SABİTOĞLUNA
Bakı şəhəri, 12 dekabr 1997-ci il *267*

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN ŞƏNLİKDƏ ÇIXIŞ
Bakı, Teleteatr, 14 dekabr 1997-ci il *268*

XALQ RƏSSAMI MİKAYIL ABDULLAYEVƏ
Bakı şəhəri, 18 dekabr 1997-ci il *272*

HEYKƏLTƏRAŞ ÖMƏR ELDAROVA
Bakı şəhəri, 20 dekabr 1997-ci il *274*

XALQ ARTİSTİ FƏRHAD BƏDƏLBƏYLİYƏ
Bakı şəhəri, 26 dekabr 1997-ci il *276*

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR EDİLMİŞ BƏDİİ-İDMAN BAYRAMINDA NİTQ
Bakı İdman Oyunları Sarayı, 2 fevral 1998-ci il *277*

XALQ ARTİSTİ ARİF BABAYEVƏ
Bakı şəhəri, 19 fevral 1998-ci il *284*

XALQ RƏSSAMI BÖYÜKAĞA MİRZƏZADƏYƏ
Bakı şəhəri, 20 fevral 1998-ci il *285*

YAZIÇI ANARA
Bakı şəhəri, 13 mart 1998-ci il *286*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
Bakı şəhəri, 19 mart 1998-ci il *288*

MƏRDƏKANDAKI "ABŞERON" SANATORİYASINDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN KEÇİRİLƏN BAYRAM ŞƏNLİYİNDƏ NİTQ
20 mart 1998-ci il *290*

«GƏNCLƏR» MEYDANINDA QOŞAQALA QAPISI ÖNÜNDƏ KEÇİRİLƏN NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ
21 mart 1998-ci il *301*

XALQ ARTİSTİ HƏSƏNAĞA TURABOVA
Bakı şəhəri, 24 mart 1998-ci il *305*

AZƏRBAYCANIN XALQ ŞAİRİ, GÖRKƏMLİ İCTİMAİ XADİM SÜLEYMAN RÜSTƏMİN ANADAN OLMASININ 90 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
Respublika sarayı, 26 mart 1998-ci il *306*

QURBAN AYRAMI MÜNASİBƏTİLƏ MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA KEÇİRİLƏN GÖRÜŞDƏ NİTQ
8 aprel 1998-ci il *312*

DAHİ ŞAİR MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN ANADAN OLMASININ 90 İLLİK YUBİLEY MƏRASİMİNİN İŞTİRAKÇILARINA
Bakı şəhəri, 11 aprel 1998-ci il *324*

MİLLİ BİRLİYİ, DÖVLƏTÇİLİYİMİZİ
QORUMAĞA SƏSLƏYƏN ƏSƏR
Akademik Milli Dram Teatrı, 12 aprel 1998-ci il *326*

XALQ ARTİSTİ LÜTFİYAR İMANOVA
Bakı, 16 aprel 1998-ci il *334*

AZƏRBAYCANIN XALQ ŞAİRİ MİRVARİD DİLBAZİNİN
ANADAN OLMASININ 85 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ
YUBİLEY GECƏSİNDƏ NİTQ
Respublika sarayı, 23 aprel 1998-ci il *335*

DÜNYA KİNOSUNUN 100 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA
"FESTİVALLAR FESTİVALI"NIN AÇILIŞINA HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ GECƏDƏ NİTQ
Respublika sarayı, 2 may 1998-ci il *339*

"AZAD OLUNMUŞ ENERJİ" ABİDƏSİNİN
AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
Bakı, Tbilisi prospekti, 9 may l998-ci il *345*

MƏŞHUR RƏSSAM VƏ MÜĞƏNNİ, RESPUBLİKANIN
XALQ RƏSSAMI, DÖVLƏT MÜKAFATLARI LAUREATI
TOĞRUL NƏRİMANBƏYOVUN YARADICILIQ GECƏSİNDƏN
SONRA KONSERTİN İFAÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Opera və Balet Teatrı, 12 may 1998-ci il *348*

AZƏRBAYCANIN GÖRKƏMLİ DÖVLƏT, İCTİMAİ VƏ ELM
XADİMİ ƏZİZ ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİYİNƏ
HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
Respublika sarayı, 14 may 1998-ci il *349*

RUSİYANIN MƏŞHUR RƏSSAMI NİKAS SAFRONOVUN
SƏRGİSİNİN AÇILIŞINDA ÇIXIŞ
R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
15 may 1998-ci il *358*

"İMPERİYA RUS BALETİ" ANSAMBLININ
BƏDİİ RƏHBƏRİ, ƏFSANƏVİ BALERİNA MAYYA
PLİSETSKAYA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Prezident sarayı, 24 may 1998-ci il *361*

"İMPERİYA RUS BALETİ" ANSAMBLININ KONSERTİNDƏN SONRA MAYYA PLİSETSKAYA VƏ ANSAMBLIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika sarayı, 24 may 1998-ci il *363*

ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA "İSTİQLAL" ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ
Prezident iqamətgahı, 26 may 1998-ci il *365*

RESPUBLİKA SƏHİYYƏ NAZİRLİYİNİN MƏRKƏZİ KLİNİK XƏSTƏXANASINDA GÖRKƏMLİ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
26 may 1998-ci il *367*

«SEVİL» AZƏRBAYCAN QADINLARI MƏCLİSİ ŞÖBƏLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Prezident sarayı, 1 iyun 1998-ci il *371*

XALQ YAZIÇISI İSA HÜSEYNOVA
Bakı şəhəri, 11 iyun 1998-ci il *373*

XALQ ARTİSTİ HACIBABA BAĞIROVA
Bakı şəhəri, 11 iyun 1998-ci il *374*

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇƏ «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ
Prezident iqamətgahı, 12 iyun 1998-ci il *375*

XALQ ARTİSTİ HACI XANMƏMMƏDOVA
Bakı şəhəri, 14 iyun 1998-ci il *381*

RUSİYA TELEVİZİYASININ «TEMA» PROQRAMININ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN HƏYAT VƏ YARADICILIĞINA HƏSR EDİLMİŞ VERİLİŞİN ÇƏKİLİŞ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
15 iyun 1998-ci il *382*

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ
MSTİSLAV ROSTROPOVİÇLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Prezident sarayı, 17 iyun 1998-ci il *385*

RUSİYANIN MƏŞHUR BALET USTALARI NADEJDA
PAVLOVA VƏ VYAÇESLAV QORDEYEVİN, HABELƏ
MOSKVANIN «RUS BALETİ» DÖVLƏT TEATRININ İŞTİRAKI
İLƏ BALET GECƏSİNDƏN SONRA GÖRKƏMLİ
SƏNƏTKARLARLA GÖRÜŞDƏ ÇIXIŞ
Respublika sarayı, 18 iyun 1998-ci il *389*

XALQ RƏSSAMI ELBƏY RZAQULİYEVƏ
Bakı şəhəri, 19 iyun 1998-ci il *390*

MOSKVA AKADEMİK SATİRA TEATRININ QRİQORİ QORİNİN
EYNİ ADLI PYESİ ƏSASINDA HAZIRLANMIŞ «BƏXTLİ VƏ
BƏXTSİZ» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN
YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı
20 iyun 1998-ci il *391*

AZƏRBAYCAN RƏSSAMLAR İTTİFAQININ QURULTAYINA
Bakı şəhəri, 29 iyun 1998-ci il *393*

BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNİN
AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
12 iyul 1998-ci il *395*

LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ
AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNDƏKİ SÖHBƏTDƏN
24 iyul 1998-ci il *401*

XALQ ARTİSTİ RASİM BALAYEVƏ
Bakı şəhəri, 7 avqust 1998-ci il *402*

AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT,
İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN
BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN
TƏQDİM EDİLMƏSİ MƏRASİMİ
Prezident iqamətgahı, 21 avqust 1998-ci il *403*

AZƏRBAYCANDA DÜNYƏVİ PEŞƏKAR TEATRIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA
Bakı şəhəri, 27 avqust 1998-ci il *429*

TÜRKİYƏDƏ LAYİQ GÖRÜLDÜYÜ «DƏDƏ QORQUD», «İNSAN HAQLARI» MÜKAFATLARININ, «İPƏK YOLU» VAQFININ FƏXRİ ÜZVÜ DİPLOMUNUN VƏ MÜKAFATININ TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
Prezident sarayı, 5 sentyabr 1998-ci il *434*

XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVA
Bakı şəhəri, 8 sentyabr 1998-ci il *436*

MƏŞHUR PİANOÇU, HƏMYERLİMİZ BELLA DAVİDOVİÇİN KONSERTİNDƏN SONRA ONUNLA VƏ KONSERTİN DİGƏR İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika sarayı, 10 sentyabr 1998-ci il *437*

XALQ ARTİSTİ ARİF MƏLİKOVA
Bakı şəhəri, 12 sentyabr 1998-ci il *439*

BAKIDA AKADEMİK YUSUF MƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
16 sentyabr 1998-ci il *440*

BAKIDA AKADEMİK YUSUF MƏMƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
16 sentyabr 1998-ci il *444*

XALQ ARTİSTİ FİRƏNGİZ ƏHMƏDOVAYA
Bakı şəhəri, 22 sentyabr 1998-ci il *448*

«UTRENNYAYA ZVEZDA» («DAN ULDUZU») – «BAKI-98» MUSİQİ BAYRAMINDA ÇIXIŞ
Respublika sarayı, 22 sentyabr 1998-ci il *449*

UNUDULMAZ ŞAİR TOFİQ BAYRAMIN BÜSTÜNÜN VƏ ONUN ADINI DAŞIYAN İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
Suraxanı rayonu, Əmircan qəsəbəsi, 24 sentyabr 1998-ci il *452*

RUSİYANIN XALQ ARTİSTİ GENNADİ XAZANOVUN KONSERTİNDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika sarayı, 26 sentyabr 1998-ci il *454*

«MÜASİRLİK VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA
Bakı şəhəri, 29 sentyabr 1998-ci il..... *455*

AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
9 oktyabr 1998-ci il..... *457*

MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Prezident sarayı, 15 oktyabr 1998-ci il..... *462*

XALQ ARTİSTİ İQOR MOİSEYEVİN RƏHBƏRLİYİ İLƏ DÜNYA ŞÖHRƏTLİ RUSİYA DÖVLƏT AKADEMİK XALQ RƏQSLƏRİ ANSAMBLININ KONSERTİNDƏN SONRA ANSAMBLIN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika sarayı, 6 noyabr 1998-ci il..... *464*

FİKRƏT ƏMİROVUN «SEVİL» OPERASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
15 noyabr 1998-ci il *466*

XALQ ARTİSTİ RASİM OCAQOVA
Bakı şəhəri, 21 noyabr 1998-ci il..... *471*

XALQ ARTİSTİ HƏSƏN MƏMMƏDOVA
Bakı şəhəri, 21 noyabr 1998-ci il..... *472*

XALQ RƏSSAMI TAHİR SALAHOVA
Bakı şəhəri, 28 noyabr 1998-ci il..... *473*

ƏLİLLƏRİN BİRİNCİ ÜMUMRESPUBLİKA BƏDİİ YARADICILIQ BAXIŞ-MÜSABİQƏSİ QALİBLƏRİNİN YEKUN KONSERTİ BAŞA ÇATDIQDAN SONRA TƏDBİR İŞTİRAKÇILARI QARŞISINDA ÇIXIŞ
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, 30 noyabr 1998-ci il..... *475*

ÜZEYİR HACIBƏYOVUN «O OLMASIN, BU OLSUN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
Azərbaycan Dövlət Musiqili Komediya Teatrı, 4 dekabr 1998-ci il.....477

DÜNYA ŞÖHRƏTLİ YAZIÇI, GÖRKƏMLİ İCTİMAİ XADİM ÇİNGİZ AYTMATOVA
Bakı şəhəri, 6 dekabr 1998-ci il.....483

AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ
Prezident iqamətgahı, 12 dekabr 1998-ci il.....484

ÖZBƏKİSTANIN MƏŞHUR «YALLA» DÖVLƏT ƏMƏKDAR KAMERA–İNSTRUMENTAL ANSAMBLININ KONSERTİNDƏN SONRA YARADICI KOLLEKTİV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
Respublika sarayı, 12 dekabr 1998-ci il.....495

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ
Bakı, teleteatr, 13 dekabr 1998-ci il.....498

ŞAİR ZƏLİMXAN YAQUBUN YARADICILIĞINA HƏSR OLUNMUŞ POEZİYA MƏCLİSİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCANIN İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT
Respublika sarayı, 19 dekabr 1998-ci il.....502

XALQ ARTİSTİ TÜKƏZBAN İSMAYILOVAYA
Bakı şəhəri, 21 dekabr 1998-ci il.....505

ŞƏHİD, QAÇQIN VƏ KÖÇKÜN UŞAQLARI, HABELƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN YENİ İL YOLKA ŞƏNLİYİNDƏ ÇIXIŞ
Bakı Əyləncə Mərkəzi, 31 dekabr 1998-ci il.....506

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI İLƏ BİRGƏ LAYİHƏSİ

Buraxılışa məsul: Fikrət Babayev

Redaksiya şurası: Lətifə Məmmədova – sədr
Kərim Tahirov
Leyla Rəsul
Xuraman İsmayılova
Mələkxanım Hacıyeva
Həqiqət Orucova
Könül Kərimova
Yasəmən Sadıqova
Azadə Novruzova
Aynur Qəmbərova
Aynur Hüseynova
Dilşad Sadıqova
Samir Abbasov
Əfsun Əhmədov
Yeganə Qarayeva

HEYDƏR ƏLİYEV və MƏDƏNİYYƏT.

3 cilddə (II cild)

Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV
Korrektor: Suğra OSMANOVA

Yığılmağa verilmişdir: 21. 12. 2007.
Çapa imzalanmışdır: 18. 03. 2008.
Nəşrin ölçüsü: 70 x 100 1/16.
Fiziki çap vərəqi: 29, 5.
Sifariş: 36. Sayı: 1000 ədəd.
Müqavilə qiyməti ilə.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 49712 95 / E-poçtu: office@nurprint.com